**MƏMMƏDOV C.A., SOLTANOVA H.B,**
**RƏHİMOV S.H.**

KitabYurdu.az

# BEYNƏLXALQ TURİZMİN COĞRAFİYASI

*Dərs vəsaiti*

*Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən Ali məktəb tələbələri üçün dərs vəsaiti kimi tövsiyə edilmişdir (əmr № 19.03.2002)*

MÜTƏRCİM

Bakı 2002

Elmi məsləhətçi: *Azərbaycan Respublikası Gənclər, İdman və Turizm nazirі, fəlsəfə elmləri namizədi* **Qarayev Ə.M.**

Elmi redaktor: *Coğrafiya elmləri doktoru, prof.* **Salmanov A.H.**

Rəyçi: *İqtisad elmləri doktoru, prof.* **Fərzəliyev M.M.**

**Məmmədov C.A., Soltanova H.B., Rəhimov S.H.** Beynəlxalq turizmin coğrafiyası (dərs vəsaiti), Azərbaycan dilində. Bakı: "Mütərcim", 2002. - 512 s.

*Beynəlxalq turizm nisbətən yeni fənn olduğundan, onun tədrisinə lazım olan və müasir tələblərə cavab verən dərslik, dərs vəsaitləri və b. köməkçi materiallar demək olar ki, yoxdur. Bunu nəzərə alan müəlliflər bu fənnə dair dərs vəsaitinin hazırlanmasını qarşılarına məqsəd qoydular. Azərbaycan dilində ilk dəfə hazırlanan, geniş və əhatəli olan bu vəsaitdən turizm və beynəlxalq turizm fənnlərini dinləyən bakalavr, magistr və turizm sahəsində çalışan mütəxəssislərlə yanaşı bu sahə ilə maraqlanan geniş oxucu kütləsi də istifadə edə bilər.*

*Kitab girişdən və 20 fəsli özündə birləşdirən 3 hissədən ibarətdir. Girişdə turizmin mahiyyəti, həmçinin onu doğuran səbəblər araşdırılır.*

*Birinci hissədə turizmin yaranma tarixindən, forma və növlərindən, beynəlxalq turizmin dünya iqtisadiyyatındakı rolundan, turizm və təbiətin mühafizəsi məsələlərindən, əsas beynəlxalq, regional və milli turizm təşkilatları barədə informatik materiallardan, dünya regionları üzrə turizmin müasir vəziyyəti və inkişaf perspektivlərindən danışılır.*

*İkinci hissədə materiklər və regionlar üzrə beynəlxalq turizmin vəziyyəti araşdırılır. Beynəlxalq turizm sənayesi güclü inkişaf etmiş 50-dən artıq dövlətin "Turizm portreti" verilir.*

*Sorğu xarakterli üçüncü hissədə isə turizmə dair normativ qanunverici aktlardan, beynəlxalq, regional və milli turist təşkilatların rus, ingilis və azərbaycan dillərində abbreviaturası, iqamətgahlarının harada yerləşməsindən və s. danışılır.*

*Kitabın sonunda azərbaycan, rus və xarici dillərdə məsləhət bilinən geniş ədəbiyyat siyahısı verilmişdir.*

$B\ \frac{4202010000-19.5}{AB\ 022004}\ 58(01)\text{-}02$

© Mütərcim, 2002

# MÜƏLLİFLƏRDƏN

Turizm hərəkatının coşğun inkişafı - zəmanəmizin xarakterik xüsusiyyətlərindən biridir. Beynəlxalq turizm elə sürətlə irəliləyir ki, onun inkişaf təmayülləri xüsusi araşdırmalar tələb edir.

İstirahət və turizmə dair ilk coğrafi tədqiqatlarda əsas diqqət həm daxili, həm də beynəlxalq turist istiqamətlərinə, eyni zamanda ərazilərin turistlər tərəfindən mənimsənilməsinə yönəlmişdi. Bu istiqamətdə aparılan tədqiqat işlərinə nümunə olaraq, Yaqellon Universiteti (Polşa) nəzdində fəaliyyət göstərən Krakov turizm studiyasının elmi tədqiqatlarını (1936-1939) göstərə bilərik. Bu studiya turizmin öyrənilməsi və kadrların hazırlanması üzrə ilk universitet elmi mərkəzi hesab edilir. Xatırladaq ki, həm coğrafiyaçılar, həm də iqtisadçılar beynəlxalq turizmə onlarla əsərlər həsr etmişlər. Coğrafi tədqiqatların bu cür istiqaməti, turizm coğrafiyasının vəzifələrinin xülasəsində də öz əksini tapmışdır. Müəlliflərin bir qismi landşaftın turizm üçün yararlığına, digərləri turizm təsərrüfatının inkişafına və turizm ehtiyatların mənimsənilməsinə diqqət yetirmişlər.

Polyak mütəxəssisi S.Leşitski (1932) landşaftın turizm üçün yararlığının elmi araşdırılmasını, landşaftın keyfiyyətinin qorunub saxlanılması və səmərəli istifadə edilməsi ilə turizm hərəkatının ilkin şərtlərinin öyrənilməsini - turizm coğrafiyasının əsas vəzifəsi hesab etmişdir.

Bolqar mütəxəssisi P.Dinevin (1973) araşdırmalarına görə, turizm coğrafiyası - turizm təsərrüfatının ərazi xüsusiyyətləri, turizmlə bağlı istehsal və xidmət fəaliyyətinin ərazi bölgüsünü, müxtəlif region və ölkələrdə turizmin inkişafını müəyyən edən şərtləri, amilləri və ehtiyatları öyrənir.

Turizm coğrafiyasının qarşısında duran vəzifələr müxtəlif xarakterli olduğu üçün, bəzi müəlliflər elmlər bölgüsündə onu xidmət sahəsinin coğrafiyasına, digərləri isə turist səyahətlərinə miqrasiyanın bir növü kimi yanaşaraq əhali coğrafiyasının tərkibinə daxil etmişlər.

Beynəlxalq turizmin inkişafı, elm və təcrübənin qarşısında turizm sahəsinin planlı surətdə tənzimlənməsi, idarə edilməsi və ərazi bölgüsü üzrə təşkili sahəsində bir sıra yeni vəzifələr qoymuşdur. İctimai təcrübənin tələbinə uyğun olaraq, turizmin yeni sahəsi - beynəlxalq turizm elmi istiqaməti formalaşmışdır.

Beynəlxalq turist mübadiləsinin qanunauyğunluqlarının meydana çıxması, turizmə qarşılıqlı surətdə şərtləşdirilən tarixi təşəkkül tapmış bir proses, milli və beynəlxalq amillərin əlaqələndirilməsi kimi yanaşmanın mümkünlüyünü nəzərdə tutur. Bu, beynəlxalq münasibətlər sisteminin bir qolu olan turizm əlaqələrinin məzmunu və xarakterinin obyektiv nəticələridir.

Beynəlxalq turizm - hər bir dövlətin xarici iqtisadi əlaqələrinin xüsusi forması, bu və ya digər ölkədə səyahətdə olan xarici turistlər tərəfindən əldə olunan məlumatların mühüm kanalıdır. Beynəlxalq turizm həm də beynəlxalq mədəni əməkdaşlığın effektli forması, beynəlxalq əlaqələrin möhkəmləndirilməsinə və öyrənilməsinə kömək edən vasitədir.

Mürəkkəbliyi, dünyanın iqtisadi həyatına və beynəlxalq münasibətlərə çoxcəhətli təsiri, inkişafının "sıçrayışlı" xarakteri, turizmin müasir həyatın çox mühüm bir xidmət sahəsi kimi, nisbətən gec təsdiq olunmasının əsas səbəbidir.

Son illərdə, özünəməxsus xüsusiyyətləri, dinamik inkişafı, dünya iqtisadiyyatı və beynəlxalq münasibətlərə təsirinin artmasına baxmayaraq, beynəlxalq turizmin inkişaf problemləri nəzəriyyəsinin hazırlanması, günün tələblərindən geri qalır.

Beynəlxalq turizm nisbətən gənc tədris fənnidir. Bu fənnin öyrənilməsi üçün, dərs vəsaitləri və kitablar çatışmır. Turizmə həsr olunmuş monoqrafik səpgili tədqiqatlar az nəşr olunmuşdur. Beynəlxalq turizmin bir sıra problemləri, əcnəbi (C.Uoker, P.Druker, F.Kotler, E.Makdauel, T.O'Driskoll, D.Brices, L.Likoriş, A.Kerşou, F.Brodel, K.Krapf, P.Bernekker, C.Bouen, C.Meykenz, R.Vuds, D.Makauley və b.) və rus-sovet mütəxəssislərinin (V.Preobrajenski, N.Mironenko, Y.Vedenin, M.Nemolyayeva, L.Xodorkov, Q.Dolmatov, P.Karavayev, V.Kvartalnov, V.Senin, K.Borisov, V.Birjakov, A.Aleksandrova və b.) tədqiqat əsərlərində araşdırılmışdır.

Azərbaycan Respublikasında turizm mövzusuna aid tədqiqat əsərləri çox azdır. Turizmin bu və ya digər problemləri

B.Budaqov, M.Müseyibov, Ə.Əyyubov, A.Salmanov, E.Kotlyarov, C.Məmmədov, H.Soltanova, A.Məmmədovun, o cümlədən, mütəxəssis turizm işçiləri S.Rəhimov və S.Həsənovun tədqiqatlarında öz əksini tapmışdır.

Hazırki kitab beynəlxalq turizmin coğrafiyasına aid, Azərbaycan dilində ilk dərs vəsaitidir. O, "Beynəlxalq turizm" fənnini öyrənən tələbələr, gənc mütəxəssislər, müvafiq fənndən dərs deyən müəllimlər, turizm sahəsinin işçiləri üçün nəzərdə tutulmuşdur.

Beynəlxalq turizm sosial coğrafiyanın bir sahəsi olmaqla, ayrı-ayrı region və ölkələrdə turizmin vəziyyəti və xüsusiyyətləri onun fəaliyyətinin mümkünlüyünü təmin edən şərait və ehtiyatları, həmçinin fəaliyyətinin növlərini, turist müəssisələrini öyrənir. Dərslikdə turizm coğrafiyasının əsas anlayışları, onun inkişaf yolları, iqtisadiyyat, tarix, sosiologiya, demoqrafiya, hüquq və siyasətlə əlaqələri, turizmin növləri, həmçinin, funksiyalarına görə bölgüsü öz əksini tapmışdır.

Turizm sənayesi, onun bir çox ölkələrin iqtisadiyyatındakı əhəmiyyəti, rolu və yeri, Turizmin infrastrukturu və onun turizmin inkişafındakı mövqeyi, turizmin genişlənməsi ilə əlaqədar ekoloji problemlərin həlli də kitabda öz əksini tapmışdır.

Kitabda əsas turizm bölgələri və mərkəzləri haqqında məlumat verilir, bu və ya digər regiona turist axınını səciyyələndirməklə, beynəlxalq turizmi güclü inkişaf etmiş ölkələrin "Turizm portreti" verilir.

Dərslikdə Azərbaycan Respublikasında turizmin yaranma tarixi və inkişaf perspektivləri barədə söhbət açılır.

Respublikamızda ilk dəfə qələmə alınmış "Beynəlxalq turizmin coğrafiyası" dərs vəsaiti bu sahədə ilk addım olduğundan təbii ki, o müəyyən, çatışmamazlıqlardan da xali deyil, bunları görən həmkarlarımız və oxucularımızdan xahiş edirik ki, öz fikir və rəylərini Bakı Dövlət Universitetinin "Xarici ölkələrin iqtisadi və siyasi coğrafiyası" kafedrasına bildirsinlər (Universitetin əsas binası, mərtəbə IV, otaq 409).

# GİRİŞ

Müasir dövrdə iri Avropa şəhərlərini xarici turistlərsiz təsəvvür etmək mümkün deyil. İlin müəyyən aylarında (əsasən yay və qışda) bir sıra Qərbi Avropa şəhərlərində xarici turistlər yerli əhalini belə "sıxışdırırlar". Yay mövsümündə Parisdə - parislilərə, Romada - romalılara, Madriddə - madridlilərə rast gəlmək çətin olur. Bu da aydındır, çünki, xarici turist səfərlərində milyonlarla insan iştirak edir, digər ölkələrə səyahətlərə maraq isə ildən-ilə artır.

Turizm artıq uzun müddətdir ki, yalnız Avropanı deyil, Şimali və Cənubi Amerikanı, Afrikanı, Asiyanı, Avstraliya və Okeaniyanı da əhatə etmişdir. Turist mübadiləsi, əsasən qonşu ölkələr arasında həyata keçirilsə də, uzaq ölkələrə səyahət etmək, bu ölkələrdə yaşayan xalqların həyat tərzi, mədəniyyəti və adət-ənənələri ilə tanış olmaq həvəsində olan turistlərin sayı da ildən-ilə artır.

Müasir hava laynerləri* bir neçə saat ərzində "dünyanın, bu başından o başına" uçmağa imkan yaradır. Bu isə istər-istəməz məcbur edir ki, müxtəlif ölkələrdə yaşayan xalqların bir-birinə nə qədər yaxın olduqları barədə düşünəsən. Bütün xalqlar üçün əziz olan sülh, əmin-amanlıq, dinc yanaşı yaşamaq isə yalnız birgə fəaliyyət və səy nəticəsində qorunub saxlanıla bilər.

Sülh və turizm! Bu məfhumları bir-birindən ayrılıqda təsəvvür etmək mümkün deyil. Turizm üçün sülh çox vacibdir. Sülh olmasa turizm səfərləri də baş tutmaz. Eyni zamanda turizm özü də bütün dünyada sülhün qorunmasına, əmin-amanlığın möhkəmlənməsinə xidmət edir.

Turizm artıq bir çox ölkələrin təsərrüfat həyatında əhəmiyyətli rolu olan iqtisadiyyatın bir sahəsinə çevrilmişdir. Xatırladaq ki, turizm ölkələrin iqtisadi vəziyyətinə müsbət təsir göstərir və dünya ixracatının dəyərcə 5 faizi onun payına düşür.

Bir sıra ölkələrdə turizmin inkişafına xüsusi diqqət verildiyindən bu sahəyə lazımi qədər vəsait ayrılır. Müxtəlif əyləncələrlə zəngin olan istirahət üçün bütöv şəhərlər - turizm mərkəzləri yaradılır. Bu mərkəzlərdə minlərlə yerli sakin başqa ölkə-

---

* ***Layner*** (ingilis mənşəli sözdür, xətt mənasını bildirir) - müntəzəm olaraq uzaq səfərlərə çıxan iri və sürətli nəqliyyat gəmisi.

lərdən gələn qonaqlara xidmət göstərməklə iş yeri, məşğulluq əldə edir. Başqa sözlə desək, yerli əhalinin məşğulluq imkanı artır, kənd əhalisi, "ikinci ixtisasa" yiyələnir, onların həyat səviyyəsi yüksəlir, gəlirləri artır.

Turizm istehsalın tikintidən başlayaraq, yeyinti sənayesinə qədər bir çox sahələrinin inkişafına da dolayı yolla təsir göstərir. Nəzərə almaq lazımdır ki, turizmin təsiri bir mənalı olmur. O, yerli əhalinin məişətinin bir çox sahələrinə müsbət və ya mənfi təsir göstərə bilər. Ona görə də bir sıra ölkələrdə beynəlxalq turizm mübadiləsinin inkişafının iqtisadi və sosial nəticələrini öyrənən elmi-tədqiqat mərkəzləri yaradılmışdır. Qeyd edək ki, həm də bu işi əlaqələndirən beynəlxalq turist təşkilatları da fəaliyyət göstərir.

Bir sıra iqtisadi və sosial problemlərin həllində vasitə ola bilən beynəlxalq turizmin optimal inkişaf yollarının araşdırılması məqsədi ilə beynəlxalq konfranslar çağırılır. Turizm ilə bağlı məsələlər 1975-ci ildə Helsinki şəhərində keçirilmiş Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Yekun aktı tarixi sənədində də öz əksini tapmışdır. Həmin sənəddə turizmin inkişafına həsr olunmuş xüsusi bölmə ayrılmışdır.

Azərbaycan Respublikası digər MDB dövlətləri kimi, bir sıra obyektiv səbəblərə görə, beynəlxalq turizmin inkişafına gec başlamışdır. Azərbaycanda turizm sənayesinin formalaşması da müqayisə etibarı ilə son illərə təsadüf edir. Amma, qısa müddət ərzində Bakıda beynəlxalq standartlara cavab verən, komfortabelli* mehmanxanalar tikilmişdir.

Qeyd etməliyik ki, Azərbaycanda turizmin inkişafı müvəqqəti hal kimi deyil, uzunmüddətli, böyük perspektivlər üçün nəzərdə tutulmalıdır. Beynəlxalq turizm əlaqələrinin inkişafına ciddi diqqət yetirmək, bundan xalqlar arasında qarşılıqlı anlaşmanı, inamı və dostluğu möhkəmləndirmək üçün vasitə kimi istifadə etmək lazımdır. Bununla əlaqədar, beynəlxalq turizmin, o cümlədən turizm sənayesinin geniş inkişaf etdiyi xarici ölkələrin təcrübəsinin hərtərəfli tədqiqi bu gün aktual məsələdir.

---

* ***Komfort*** (ingilis mənşəli sözdür) - həyat tərzi, yaşayış üçün rahatlıq, səliqə-səhman, əlverişlilik anlayışlarının məcmusu. Komfortabelli, yəni əlverişli, səliqə-səhmanlı.

Beynəlxalq turizm, böyük iqtisadi əhəmiyyətindən əlavə, müxtəlif din və mədəniyyətə mənsub olan insanlar arasında qarşılıqlı anlaşmanın və inamın artmasında müstəsna rol oynayır. Turizm fəaliyyəti, yalnız ticarətin və xidmətin təşkili, yeni ticarət ortaqlarının axtarışı və cəlb edilməsi ilə məhdudlaşmır. O, həmçinin, bütün dünyada sülhün bərqərar olması və qorunması naminə müxtəlif ölkələrin vətəndaşları arasında qarşılıqlı münasibətlərin qurulmasına yönəlmişdir.

1988-ci ilin oktyabrında Kanadanın Vankuver şəhərində "Turizm-sülhün qorunmasında təsirli qüvvədir" mövzusu üzrə Birinci Ümumdünya konfransı keçirilmişdir. Konfransın məqsədi - beynəlxalq turizmə marağın artırılması yollarını aramaq, eyni zamanda insanları fəal sosial-ictimai fəaliyyətə cəlb etmək, onların arasında qarşılıqlı münasibəti və anlaşmanı yüksəltmək olmuşdur. Konfransda qeyd olunmuşdur ki, sülhün qorunması prosesi, ayrı-ayrı fərdlərdən başlanır. Bununla əlaqədar "Sülh məramlı səyyahın kredosu"* nəşr edilmişdir. Kredo tərtibçilərinin fikrincə, turist ilk növbədə aşağıdakılara əməl etməlidir:

- Təmiz fikir və açıq ürəklə səyahət etməli.
- Müxtəlif şəraitlərdə yaranmış vəziyyəti lütfkarlıq və təşəkkürlə qəbul etməli.
- Ətraf mühiti qorumalı və mühafizə etməli.
- Bütün mədəniyyətlərə hörmətlə yanaşmalı.
- Qəbul edən ölkədəki ev sahiblərinə hörmət etməli, qonaqpərvərliyə görə təşəkkür etməli.
- Həmin mövqedən çıxış edərək, öz sözünə və davranışına sadiq qalmalı.
- Sülh məramlı səyahətə başqalarını da cəlb etməlidir.

Vankuver konfransı, sülhün və təhlükəsizliyin zəmanətçisi kimi turizmin böyük potensial imkanlara malik olduğunu təsdiq etdi. Konfrans nümayəndələrinin fikrincə, turizm bütün ölkələrin vətəndaşlarını, həmin ölkələrin iqtisadiyyatını, mədəni irsini, adət-ənənələrini və xalq sənətkarlığı məsələlərini əhatə edir. Tarix təsdiq edir ki, cəmiyyətin digər xalqlardan və mədəniyyətlərdən təcrid edilməsi, qorxu və şübhə doğuran, psixoloji sədlərin

---

* ***Kredo*** (latın mənşəli sözdür) - katolik kilsəsində inam, əqidə rəmzi, məcazi mənada - görüşlər, əqidələr, dünyagörüşün əsası.

yaranmasına, nəticə etibarı ilə isə silahlı münaqişələrə səbəb olur.

Avropa İqtisadi Birliyinin (AİB) yaranmasından (1958) 43 ildən artıq bir zaman keçmişdir. Birlik yaranarkən onun ideoloqları, insanların bir-birini daha yaxından tanıması ilə, müharibələrin baş vermə ehtimalının azalacağı mövqeyindən çıxış etmişlər. İştirakçı dövlətlər arasında xarici ticarətdə bütün məhdudiyyətlərin tədricən aradan qaldırılması, şəxsiyyətin, kapitalın və xidmətin sərbəst hərəkətinin qarşısını alan maneələrin ləğv edilməsi, eyni zamanda razılaşdırılmış iqtisadi siyasət prinsiplərinin işlənib hazırlanması, AİB-nin məqsədlərində xüsusi yer tutmasını vurğulamışlar.

Amerika alimi Lui D'Amor özünün "Turizm dünya sənayesidir" adlı tədqiqatında Amerika Birləşmiş Ştatları ilə Çin Xalq Respublikası arasında dostluq münasibətlərinin yaranma tarixini misal gətirir. Alimin rəyinə görə, bu ölkələr arasında ötən əsrin 60-cı illərindəki birbaşa düşmənçilikdən, 80-ci illərdəki dostluğa doğru siyasi münasibətlərin dəyişilməsinə səbəb - səyahətlərin təşkili və qarşılıqlı münasibətlərin qurulması zəminində, konfransların, idman yarışlarının, mədəni mübadilənin, qardaşlaşmış şəhərlər arasında dostluğun təşkili, ticarətin və ümumi maraqların artması olmuşdur.

"Kanadanın Baş naziri Pyer Trüdonun və ABŞ prezidenti Riçard Niksonun Çinə rəsmi səfərlərindən sonra, 1978-ci ildə bu ölkə, bütün dünyaya öz qapılarını açdı. Həmin ildən başlayaraq, ölkəyə gələn qonaqların sayı hər il 20-30 faiz artdı. 1987-ci ildə Çinə 2 mln.-dan artıq xarici qonaq gəlmişdir. 2005-ci ildə isə 7-8 mln. qonağın gələcəyi gözlənilir"[1].

Simvolu Berlin divarlarının dağıdılması sayılan, Sovet İttifaqında və Avropanın sosialist ölkələrində yenidənqurmanın başlanması, iki müxtəlif ideoloji sistemdə yaşayan insanlar arasında qarşılıqlı münasibətlərin qurulması da yeni eranın açılmasına səbəb oldu. Hər il keçirilən çoxlu sayda beynəlxalq konfranslar, görüşlər, mədəni mübadilə, tələbə və şagirdlərin mübadiləsi, idman yarışları, müxtəlif ölkələrdən turistləri cəlb

---

[1] DAmore L. Tourizm: The World's Peace Industry (Journal of Travel Reseach, 1988. Vol.27. - №1).

edir, onlara yalnız fərqləri deyil, həmçinin nailiyyətləri görməyə imkan yaradır.

Ümumdünya Turist Təşkilatının (ÜTT) rəyinə görə, səyahətə çıxanların sayı bütün dünya üzrə hər il 4,1 faiz artacaq və 2020-ci il üçün 1,6 mlrd. nəfərə çatacaqdır[2].

Müxtəlif ölkələrə səyahət edən, yeni insanlarla ünsiyyətdə olan turistlər özlərinə yeni dostlar qazanır, müxtəlif ölkələrin vətəndaşları arasında qarşılıqlı əlaqələr yaradır, bununla da "sülhün elçilərinə" çevrilirlər. Turizm, müxtəlif irqlərə, mədəniyyət və dinlərə mənsub olan, ayrı-ayrı ölkələrdə yaşayan və müxtəlif sosial-iqtisadi səviyyədə olan insanlar arasında fiziki və psixoloji səddin aradan qaldırılmasına kömək edir.

Müxtəlif vəzifə və məqsədlərin əlaqələndirilməsi şərti ilə turizmin öyrənilməsində ayrı-ayrı üsullardan istifadə etməyin vacibliyi, turizmin kompleks xarakterli olmasından irəli gəlir. Qeyd edək ki, xarici turistlərin sayı ildən-ilə artır. Məsələn: 1950-ci ildə onların sayı - 25 mln., 1960-cı ildə - 71 mln., 1970-ci ildə - 168 mln., 1980-ci ildə - 285 mln., 1990-cı ildə 458 mln., 2000-ci ildə - 698 mln. nəfər olmuşdur.

İkinci Dünya müharibəsindən sonra beynəlxalq turizmin belə sürətli inkişafının səbəbləri hansılardır? Belə səbəblər çoxdur. İlk növbədə bu, müxtəlif sosial-iqtisadi, tarixi, demoqrafik, təbii-coğrafi və bir sıra digər amillərin təsirinin nəticəsidir. Dərsliyin giriş hissəsində, bu amillərin bir neçəsi üzərində dayanacaq, digərləri haqqında isə müvafiq fəsillərdə bəhs ediləcək.

**Sosial-iqtisadi amillər** beynəlxalq turizmin inkişafında böyük əhəmiyyətə malikdir. Əməyin beynəlxalq bölgüsünün güclənməsi ilə, dövlətlərarası iqtisadi əlaqələrin getdikcə genişlənməsi xüsusilə böyük rol oynayır. Beynəlxalq ticarətin artması və müasir nəqliyyatın sürətli inkişafı, beynəlxalq turizm üçün mühüm maddi zəmin olmuşdur. Təcrübələr göstərir ki, beynəlxalq turizm əsas etibarı ilə ABŞ, Kanada, Yaponiya və Avropa ölkələri hesabına inkişaf edir. Həyat səviyyəsinin yüksək olması nəticə etibarı ilə əhalinin orta təbəqəsinin kütləvi turizmə cəlb edilməsinə gətirib çıxarır.

---

[2] ÜTT-nın Baş katibi Françesko Franjiallinin Bişkekdə (Qırğızıstan) Beynəlxalq turist forumundakı çıxışından (13.IX.2001-ci il)

Son illərdə beynəlxalq turizmin bir çox ölkələrdə müvəffəqiyyətli inkişafı, əhalinin maddi və mədəni səviyyəsinin dönmədən yüksəlməsi, o cümlədən, bu ölkələrdə məzuniyyət günlərinin, fəhlə və qulluqçuların əmək haqlarının artırılması ilə izah olunur.

Beynəlxalq turizmə təsir göstərən **siyasi amillər** arasında "eksportyor" (turist göndərən) və "importyor" (turist qəbul edən) ölkələrinin daxili siyasi vəziyyətini və beynəlxalq turizmin bu amillərdən asılılığını, ölkələrarası münasibətləri və bu münasibətlərin turizm əlaqələrinə təsirini, turist göndərilməsi ilə məşğul olan ölkələrin yerləşdiyi rayonlarda və turist marşrutlarının keçdiyi bölgələrdə siyasi vəziyyəti qeyd etmək lazımdır. İnkişaf etmiş sənaye ölkələrində baş verən iqtisadi sarsıntılar, beynəlxalq turizmə mənfi təsir göstərir. Valyutanın səbatsızlığı həm turist göndərən, həm də qəbul edən ölkələri qorxuya salır, turist təşkilatları arasındakı hesablaşmalara qarışıqlıq gətirir və s. Amma bir sıra ölkələrin milli valyutalarının devalvasiyası (qiymətdən düşməsi) nəticəsində yeni puldəyişmə kursunun əvvəlkindən sərfəli olması, həmin ölkələrdə turist axınının güclənməsinə də səbəb ola bilər.

Qəbul edən ölkənin daxili siyasi vəziyyətində stabilliyin möhkəm olması bir qayda olaraq, turist axını üçün əlverişli şərait yaradır, gərgin vəziyyət isə əksinə bu axının qarşısını alır. Bu, bir tərəfdən istirahətə gedən turistlərin xarici ölkədə siyasi böhranlar və gözlənilən silahlı toqquşmalar zamanı təhlükələrdən uzaq olmaq istəyi, digər tərəfdən isə, belə ölkənin hakimiyyət dairələrinin qonaqların qorunması üçün öz üzərinə əlavə məsuliyyət götürmək istəmədiyini, həmçinin "xarici şahidlərin" arzu olunmazlığı ilə izah edilir.

Təbii ki, göndərən ölkənin hakimiyyət orqanları bir qayda olaraq, turistləri qeyri-sabit daxili vəziyyətdə olan rayonlara göndərməkdən imtina edir, öz vətəndaşlarının həyatını təhlükə qarşısında qoymaq istəmirlər.

Ölkələr arasında turist mübadiləsi, həmin ölkələrin qarşılıqlı münasibətlərindən çox asılıdır. Normal diplomatik münasibətlər,

turizm barədə saziş və müqavilələrin olması, kommunikasiya* və nəqliyyat vasitələrindən birgə istifadə, turist reklamı mübadiləsi - bütün bunlar ölkələr arasında turist axınının güclənməsinə səbəb olur. Daha canlı və dinamik turizm əlaqələri, eyni siyasi, hərbi və iqtisadi birliklərə mənsub olan ölkələr arasında mövcuddur. Amma, normal beynəlxalq münasibətlər zəminində, müxtəlif siyasi birliklərə daxil olan ölkələr arasında da intensiv turizm mübadiləsi mümkündür. Deməli, siyasi və sosial quruluşun müxtəlifliyi beynəlxalq turizm üzrə əməkdaşlıq üçün maneə ola bilməz.

Silahlı münaqişələrdə iştirak edən, xüsusilə də təcavüzə məruz qalan ölkələr, nəinki əcnəbilərin ölkədə normal şəraitdə səyahətini təşkil edə bilir, hətta onların təhlükəsizliyinə də zəmanət verə bilmirlər. İnsan və maddi ehtiyatların gərginliyi ilə əlaqədar, belə dövlətlər bir qayda olaraq, öz vətəndaşlarının da xaricə getməsinə icazəni məhdudlaşdırırlar. Ona görə də, "planetin qaynar nöqtələri" praktiki olaraq, beynəlxalq turizm hərəkatından kənarda qalırlar.

**Demoqrafik amillər** da beynəlxalq turizmin inkişafına təsir göstərir. Planet əhalisinin sürətli artımı, təbii ki, turist potensialını da artırır, nəticədə yeni insan ehtiyatları turizm fəaliyyətinə cəlb olunur.

Əhalinin ümumi artımı dünyanın bir çox rayonlarında sıxlığın yaranmasına səbəb olur. İnkişaf etmiş sənaye ölkələrində sakit, sivilizasiyanın toxunmadığı guşələrin axtarılıb tapılması getdikcə çətinləşir. Bu, iri şəhər aqlomerasiyası** sakinlərinin xaricə, sənaye cəhətdən nisbətən zəif inkişaf etmiş ölkələrə səyahət etməyə sövq edir. Səciyyəvi haldır ki, Avropada əhalinin daha sıx yaşadığı ölkələrdən xaricə turist axını, əhalinin seyrək yaşadığı ölkələrə  nisbətən daha çoxdur.

---

* ***Kommunikasiya*** (latınca rabitə, əlaqələnmə mənasını bildirir) - nəqliyyat vasitələri, nəqliyyat kanalları, şəhər təsərrüfatının yeraltı sistemləri və s. anlayışları əhatə edir.

** ***Aqlomerasiya*** (latın mənşəli sözdür, birləşdirmək, əlavə etmək mənalarını bildirir) - urbanizasiya ilə yanaşı turizmdə də istifadə olunan termindir. Məsələn, Abşeron kurort aqlomerasiyası, Şimali Qafqaz kurort aqlomerasiyası və s.

İnsan ömrünün uzadılması sahəsində son onilliklərdə qazanılmış nailiyyətlər, səfər üçün vaxta və vəsaitə malik olan yaşlı əhalinin də turizmə geniş meyl etməsinə imkan yaradır.

Turizmə təsiri olan digər demoqrafik amillərdən aşağıdakıları göstərmək olar: ümumi və ya qohum dillərdə danışan, müxtəlif ölkə xalqlarının bir-birinə maraqlarının artması (bu ilk növbədə "dil səddinin" olmaması və mədəniyyət tarixinin ümumiliyi ilə izah olunur); turizmə gənclərin və qadınların getdikcə daha çox meyl etməsi; beynəlxalq kurort şəbəkəsinin genişlənməsi, müalicəyə və istirahətə ehtiyacı olan xarici vətəndaşların sanatoriyalarda qəbul imkanının artması və s.

Turizmin inkişafının bir sıra psixoloji səbəbləri xalq-əhali amilləri ilə bağlıdır. Məsələn, ətraf mühitin dəyişdirilməsi cəhdi, bənzətmə, dəb  və s. Beynəlxalq turizmin inkişafında əhalinin ümumtəhsil səviyyəsinin yüksəlməsi, bununla da ətraf mühitə qayğı və marağın yaranması da mühüm rol oynayır.

# I HİSSƏ

**FƏSİL 1. Turizmin yaranması və inkişafının tarixi zəmini və ilkin şərtləri.**

**FƏSİL 2. Turizmin formaları, növləri və növ müxtəlifliyi.**

**FƏSİL 3. Dünya iqtisadiyyatında beynəlxalq turizmin yeri və rolu.**

**FƏSİL 4. Turizm sənayesi.**

**FƏSİL 5. Beynəlxalq turizm və təbiətin mühafizəsi.**

**FƏSİL 6. Beynəlxalq, regional və milli turizm təşkilatları.**

**FƏSİL 7. Dünya regionları üzrə beynəlxalq turizmin müasir vəziyyəti və inkişafı.**

# FƏSİL 1.

## TURİZMİN YARANMASI VƏ İNKİŞAFININ TARİXİ ZƏMİNİ VƏ İLKİN ŞƏRTLƏRİ

### 1.1. "Səyahət" və "səyyah" anlayışları

Mütəxəssislərin fikrincə səyahətlər və onların tarixi barədə məlumat verən ilk şəxs qədim yunan tarixçisi Herodot olmuşdur. O, eramızdan əvvəl V əsrə qədər məlum olan bütün məşhur səyahətləri və kəşfləri şərh etmişdi. Massaladan (Fransanın Marsel şəhərinin qədim adı) olan səyyah və tədqiqatçı Pifiey eramızdan əvvəl 320-ci ildə Avropanın ətrafında o dövr üçün fantastik hesab edilən səyahətdə olmuş, Britaniya adalarının yaxınlığından keçib Norveçə qədər irəliləmişdir. Çoxsaylı coğrafi kəşfləri əsasında o, "Okean haqqında" əsər yazmışdır.

Səyahət və turizm insanın müəyyən həyat fəaliyyəti tərzini təsvir edən iki ayrılmaz anlayışlardır. Amma səyahətin insan fəaliyyətinin digər sahələrindən fərqləndirən xarakterik xüsusiyyəti - insanların müvəqqəti olaraq öz yerlərini dəyişməsi, yaşadığı yerdən başqa yerə, ölkəyə, kontinentə getməsidir.

**Səyahət - müəyyən məqsəddən asılı olmayaraq, insanların məkan və vaxt çərçivəsində öz yerlərini dəyişməsi kimi ümumi mənada başa düşülən termindir.** İnsan özünün çoxəsrlik tarixi boyu ticarəti inkişaf etdirmək, yeni torpaqlar kəşf və ya zəbt etmək, maddi resurslar və nəqliyyat yolları axtarmaq məqsədi ilə ətraf aləmi dərk etməyə can atmışdır. Elm, bizim sivilizasiyanın inkişaf dövrünün, yəni insanın ətraf aləmi dərk etməsinin beş min il tarixi olduğunu qeyd etsə də, səyahət - nisbətən bizə yaxın dövrlərə aid edilir.

Yeni qitələr və torpaqlar, xalqlar və təbiət möcüzələri kəşf edən, coğrafiya və digər biliklər sisteminə misilsiz töhfələr verən böyük səyyahların adları tarixdən bizə məlumdur. Tacir və zəvvarları daha erkən dövrün səyyahlarına aid etmək olar. Yeni torpaqlara və təbii ehtiyatlara sahib olmaq, ticarətlə məşğul olmaq,

insanları həmişə özgə torpaqlara, ərazilərə və ölkələrə, hətta qitələrə səfər etməyə sövq etmişdir.

Qədim Romanın tarixinə, romalıların adət-ənənələrinə müraciət etdikdə, varlı kübarların imperatorun icazəsi ilə Misirə və digər ölkələrə istirahət məqsədi ilə səyahət etdikləri məlum olur. Amerika qitəsinin dəfələrlə kəşf olunması və mənimsənilməsini, İslandiya (900-1100-cü illər) və Qrenlandiyanın məskunlaşmasını da bu qəbildən olan səyahətlərə aid etmək lazımdır. Yalnız ticarət məqsədi ilə kəşf edilən və istifadə olunan "Varyaqlardan* yunanlaradək", "Böyük ipək yolu", "Çay yolu" və digər ticarət yolları və marşrutların mövcudluğu da tarixdən yaxşı məlumdur.

Səyahətlərin inkişafında ziyarətçilərin də rolu əhəmiyyətli olmuşdur. Müxtəlif təriqətlərə mənsub olan zəvvarlar öz dinlərini yaymaq, müqəddəs yerləri ziyarət və müdafiə etmək məqsədi ilə həmin dövrlərdə çətin və uzun müddətli səyahətlər edirdilər. Orta əsrlərin "Xaç yürüşləri" tarixin salnamə hadisələrindəndir. Ziyarət, indiki dövrdə də dini turizmin əsasını təşkil edir və fəaliyyətinin miqyası ildən-ilə genişlənir. Müsəlmanların Məkkəni, Kərbəlanı, Məşhədi və yaxud xristianların Yerusəlimi (Əl-Qüds), Vatikanı, ziyarət etməsi, dini bayramlar zamanı çoxlu sayda müqəddəs yerlərə gedilməsi, ziyarətin kütləvi hal aldığını sübut edir.

Səyahətlərin böyük bir qismi, yeni ticarət yolları aşkar etmək, dünyanı tanımaq, məlum olmayan ölkələr və torpaqlar kəşf etmək məqsədi daşımışdır.

Dahi ərəb səyyahı və alimi İbn Bəttutə (Əbu Abdullah Məhəmməd ibn Abdullah əl-Lavati ət-Takci, 1304-1368) demək olar ki, bütün Şərq ölkələrini piyada gəzmiş, Hindistanda, Çində olmuşdur. O, bir çox ölkələrin və ticarət yollarının coğrafi təsviri, xalqların adət-ənənələri barədə məlumatları özünün çox dəyərli "Rihlə" əsərində toplamışdır.

---

* ***Varyaq*** (Skandinaviya dillərində Bizans imperatorlarına xidmət edən norman əsgəri). Çox döyüşkən və şücaətli olduqlarından qonşu dövlətlər onlardan muzdlu əsgərlər kimi istifadə etmişlər. Varyaqlardan yunanlara gedən yol - Kiyev Rus dövlətinin şimalını cənubla, Skandinaviyanı Bizansla birləşdirən ticarət su yolu. IX əsrin sonu - X əsrin əvvəllərində yaranmışdır.

İtalyan taciri Marko Polo (1254-1324), XIII əsrin 70-ci illərində Çinə səyahət etmiş, orada 17 il yaşamış və bu ölkə haqqında çox nadir və qiymətli məlumatları özünün "Kitab" əsərində şərh etmişdir.

Yeni torpaqların kəşfi, insanları hələ qədim zamanlardan çətin dəniz səyahətlərinə sövq edirdi. Bir çox səyahətlər, ərazilərin zəbt edilməsi və ya bölüşdürülməsi uğrunda keçirilən hərbi aksiyalarla müşayiət edilirdi. Minlərlə həmməzhəblər, orta əsrlərin Xaç yürüşlərində Müqəddəs Torpağa və Bizansa səfərlər zamanı birləşmişdilər.

Dahi səyyah, alim və dənizçilər olan Fernan Magellanın (1480-1524), Vasko da Qamanın (1469-1524) və Xristofor Kolumbun (1451-1506) adları hamıya məlumdur. Əlahiddə vəziyyətlərdə səyahət edərək ən yüksək dağ zirvələrini, qumlu səhraları, Cənub və Şimal qütblərini fəth edən, sualtı dünyanı və kosmosu tədqiq edən müasirlərimizin adları da bizə məlumdur. Xatırladaq ki, müasir nəqliyyat vasitələri səyahəti istənilən vaxt həyata keçirməyə imkan verir.

## 1.2. "Turizm" və "turist" anlayışları

İnsanların həyat fəaliyyətinin çox maraqlı tərzi olan səyahətlərdən, tamamilə yeni bir formasiya ayrılmışdır, bu dəqiq və mütəşəkkil xüsusiyyətlərə malik olan turizmdir. **Turizmin səyahətdən əsas fərqi - məqsədli və kütləvi olmasıdır. Səyahətdən fərqli olaraq turizm - iqtisadiyyata və siyasətə də güclü təsir göstərən kateqoriyadır.**

Müasir turizmin bünövrəsi və başlanğıcı barədə müxtəlif fikir və rəylər mövcuddur. Bir sıra müəlliflər (M.Nemolyayeva və L.Xodarkov) ingilis ədəbiyyatına istinad edərək, turizmin əsasının 1841-ci ildə qoyulduğunu və ilk xarici səyahətin 1855-ci ildə Parisdə keçirilən Ümumdünya sərgisinə təşkil olunduğunu qeyd edirlər. Digər müəlliflər (P.Zaçinyayev və N.Falkoviç) xarici turistlərdən təşkil edilmiş ilk mütəşəkkil turist qrupunun 1863-cü ildə İsveçrəyə səyahət etdiyini, üçüncü qism (M.Birjakov və b.) isə İngiltərədən Fransaya ilk mütəşəkkil turların hələ 1815-ci ildə təşkil olunduğunu qeyd edirlər. Geniş kütlə üçün nəzərdə tutulan və Londondan Parisə təşkil olunan belə turların təşəbbüskarı,

yazıçı və səyyah D.Qalinyani olmuşdur. Artıq 1829-cu ildə dünyada ilk dəfə olaraq K.Baydeker tərəfindən hazırlanmış və nəşr olunmuş "Səyahətçilərin soraq kitabçası" işıq üzü görmüşdür.

Bütün bunlara baxmayaraq, səyahət edənlərin mütəşəkkil və kütləvi şəkildə yerdəyişməsinin səmərəsini və mahiyyətini ilk olaraq anlayan ingilis keşişi Tomas Kuk, müasir turizmin banisi hesab olunur. O, 1841-ci ildə öz dindar həmkarları üçün dəmiryolu vasitəsi ilə ilk səyahəti təşkil etmişdir.

Qeyd etmək lazımdır ki, texniki tərəqqi kütləvi turizmin inkişafına təkan vermişdir. İqtisadi münasibətlərin sürətli inkişafı hərəkət fəallığını yüksəltdiyindən, bu da öz növbəsində nəqliyyat vasitələrinin yeniləşməsini, daha sürətli və komfortabellilərinin yaradılmasını tələb edirdi.

1830-cu ildə dünyada ilk dəfə olaraq Mançesterlə Liverpul arasında çəkilən dəmiryolu prinsip etibarı ilə səyahət etmənin zaman çərçivəsini dəyişdirdi. Əvvəllər bir həftə davam edən səyahət, indi hər kəs üçün daha tez, asan və ucuz başa gəlirdi. Bundan başqa dəmiryolları bütün ölkələrdə sürətlə çəkilməyə başladı.

1851-ci ildə Tomas Kuk, ölkənin bütün əyalətlərindən gəlmiş 165 min nəfər ingilisin Londondakı I Beynəlxalq sənaye sərgisində iştirakını təşkil etdi.

Daxili turizmin inkişafı, məntiqi olaraq xarici səfərlərin təşkilini zəruri etdi. İlk belə səyahət, 1855-ci ildə Ümumdünya sərgisinin keçirilməsi ilə əlaqədar Parisdə təşkil olunmuşdur. 1856-cı ildən başlayaraq, Avropaya səyahətlər müntəzəm xarakter daşımışdır. Artıq Tomas Kukun turist agentliyi, onun da çoxlu sayda filialları yaranmışdı. 1854-cü ildə Londonda mehmanxanalar üzrə ilk sorğu kitabı nəşr olunur. Bu kitabda T.Kuk gecələmək üçün turistlərə 8 min mehmanxana təklif edirdi. Doğrudur, bunlardan bir çoxu dilicans* dövrünün karvansaraları olsa da, böyük əksəriyyəti sözün əsl mənasında müasir mehmanxanalar idi. 1870-ci ildə 500 min nəfərə qədər ingilis "Tomas Kuk" turist firmasının müştərisi olmuşdu.

---

* ***Dilicans*** (fransız mənşəli sözdür) - sərnişin və yük daşımaq məqsədilə istifadə olunan at qoşulmuş dörd təkərli üstüörtülü nəqliyyat vasitəsi.

Yeni bazarların axtarışı və öyrənilməsi, işgüzar əlaqələrin yaradılması üçün turist səfərlərindən fəal istifadə edilirdi.

XIX əsrdə İngiltərənin məşhur siyasi xadimi, lord Şafstberi qeyd etmişdir: "Biz öz qonşularımız kimi səyahətçi olmalıyıq, o zaman bizim ölkəmiz özünün digər nailiyyətləri ilə birgə, ticarətin yeni növləri ilə zənginləşəcəkdir (mən bu sözdən məcazi mənada deyil, əsl mənada istifadə edirəm)"[1].

XIX əsrin 50-70-ci illərində Avropaya səyahət edən xarici turistlərin böyük əksəriyyətini ingilislər təşkil edirdi. Ona görə də, həmin dövrdə qitədə "Anqlotyer", "Britanik", "London", "Vindzor" adlı mehmanxanalar yaranmış, "ekspress"[**], "komfort", "layner" kimi ingilis sözləri məişətə daxil olmuşdur.

XIX əsrin 60-cı illərindən başlayaraq, İngiltərənin ABŞ ilə turizm əlaqələri inkişaf etməyə başladı. 1832-ci ildə Avropa ilə Amerika qitələri arasında müntəzəm dəniz nəqliyyatı yolu açılmış və 1866-cı ildə Tomas Kuk ABŞ-a ilk dəfə olaraq, iki turist qrupu göndərmişdi. **1872-ci ildə Tomas Kuk bütün arzu edənlərə dünya səyahəti təklif etməklə, bu cür səyahətin əsasını qoymuşdu.**

İngiltərədə T.Kukun şirkətinin ardınca Freymzin, ser Henri Lannın turist büroları meydana gəldi. Turist klubları və cəmiyyətləri, məsələn, Velosiped turist klubu, Politexnik turist cəmiyyəti, İstirahət kooperativ cəmiyyəti və s. yarandı.

Bir qədər sonra Fransada, daha sonra isə digər Avropa ölkələrində çoxlu sayda turist agentlikləri yaradıldı.1885-ci ildə Peterburqda L.Lipsonun ilk turist bürosu açıldı.

T.Kukun vəfatından (1892) sonra, oğlu və şərikləri onun işini davam etdirdilər. Şirkət öz fəaliyyətini genişləndirərək iri maliyyə institutuna çevrildi və səyahətçilər üçün yol çekləri[*] buraxmağa başladı. Bu, əsl mənada əsrin ixtirası - təhlükəsiz pul demək idi. 2000-ci ilin əvvəlləri üçün "Tomas Kuk" şirkətinin

---

[1] Lickorish I.J., Kershaw A.C. The Travel Trade. London, 1958.

[**] ***Ekspress*** (ingilis mənşəli sözdür) - hər dayanacaqda durmayan və yüksək sürətlə uzaq məsafələrə hərəkət edən nəqliyyat növü.

[*] ***Yol çekləri*** - dünyanın əksər ölkələrində qəbul edilən beynəlxalq valyuta sənədi. Turistlər səyahət zamanı nəqd pul əvəzinə, yol çeki götürməyə üstünlük verirlər.

dünyanın əksər ölkələrində 12 min turist agentliyi var. Onlar il ərzində orta hesabla 20 mln. turistə xidmət göstərirlər.

XX əsrin başlanğıcı *nəqliyyatın yeni növünün - avtomobilin* yaranması ilə əlamətdardır. Məsələn, 1904-cü ildə İngiltərədə 8465 avtomobil vardısa, 1914-cü ildə onların sayı 132315-ə çatmışdı. Avtobus parkları da sürətlə artmağa başladı. Həmin dövrdə İngiltərədə parkların sayı 5345-dən 51167-yə qədər artdı.

Amma Birinci Dünya müharibəsinə qədər turistlərin böyük əksəriyyəti dəmiryolu və su nəqliyyatından istifadə edirdilər.

1907-ci ildə transatlantik xəttlərə buraxılan, o dövr üçün iri və güclü dəniz laynerləri okeanı 7 günə üzüb keçirdilər. Su nəqliyyatının sürətli inkişafı Amerika turistlərinin Avropaya səyahətlərinin sayının kəskin surətdə artmasına səbəb oldu. Əgər XIX əsrin sonunda ABŞ-dan Avropaya hər il 80 min adam gəlirdisə, 1914-cü ildə bu rəqəm 3,5 dəfə artmışdı.

Birinci Dünya müharibəsi beynəlxalq turizmin inkişafını dayandırdı. Turist daşıyan "Luzitaniya" laynerinin alman sualtı qayığı tərəfindən batırılması bunun faciəvi simvolu oldu. Müharibənin başa çatması ilə beynəlxalq turizm tarixində yeni dövr başlandı. Qərbi Avropa ölkələrinə qazanc dalınca gələn Amerikanın işgüzar adamlarının güclü axını, tezliklə ingilisləri bu sahədən sıxışdırdılar.

Birinci Dünya müharibəsindən sonra, turizmin həcmi qısa müddətdə müharibəyə qədərki səviyyəyə çatdı və 3-4 ildən sonra ölkələrin əksəriyyətində həmin səviyyəni ötüb keçdi. Məsələn, müharibədən öncə, 1913-cü ildə xarici səfərlərə gedən amerikalıların maksimal sayı 286604 nəfər olmuşdusa, bu rəqəm 1923-cü ildə - 308471, 1930-cu ildə isə 477260 nəfərə çatmışdı.

Ötən əsrin 20-ci illərində xarici turizmin coğrafiyası genişlənməyə başladı. Müharibəyə qədərki dövrdə xarici turistlər əsasən İtaliya və İsveçrəyə gedirdilərsə, müharibədən sonra demək olar ki, bütün Avropa ölkələri xarici turizmə cəlb edildilər. **1925-ci ildə Haaqada turizmin təbliği üzrə rəsmi təşkilatların - Beynəlxalq Turizm İttifaqının Birinci konqresi keçirildi.** Konqresin işində 14 Avropa ölkəsindən gəlmiş nümayəndələr iştirak etdilər.

Beynəlxalq turizm üçün, ötən əsrin 20-30-cu illərində mühüm xüsusiyyət, yeni nəqliyyat növləri olan avtomobil və aviasiyanın sürətli inkişafı oldu. 1926-cı ildən 1938-ci ilədək, avtomaşınların sayı 638 mindən 2 mln-a, avtobusların sayı isə, 40 mindən 53 minə çatdı.

1924-cü ildə İngiltərədə dörd aviaşirkətin bazası əsasında yaradılan "İmpiriel eyrveyz" konserni, iki ildən sonra 2500 mildən* artıq məsafəsi olan aviaxətlərdə xidmət göstərə bilirdi. 1926-cı ildə bu aviaşirkət 16,0, 1938-ci ildə isə 222,0 min nəfər sərnişin daşımışdı. Ötən əsrin 30-cu illərinin sonunda aviaşirkətlər ümumilikdə 350 min mil məsafəlik aviaxətlərdə xidmət göstərmiş, sərnişinlərin sayı isə 23 mln. nəfərdən çox olmuşdur.

Beləliklə, nəqliyyatın yeni növlərinin ixtirası, turizmin sonrakı inkişafına güclü təkan vermişdi. Amma, həmin dövrdə turizmin inkişafına mənfi təsir göstərən amillər də ortaya çıxmışdı. Bunların arasında xarici turizmin kəskin surətdə azalmasına səbəb olan, 1929-1933-cü illərin dərin iqtisadi böhranını qeyd etmək olar. 1932-ci ildə İngiltərəyə gələn turistlərin sayı azalaraq, 253374 nəfər təşkil etmiş və 20-ci illərin əvvəlləri səviyyəsinə enmişdi. 1937-ci ildə yüksəliş nəticəsində İngiltərəyə gələn xarici qonaqların sayı 488 min nəfərə çatmış, 1938-ci ildə yenə də azalaraq, 437 min nəfər olmuşdu. Müharibədən əvvəlki illərdə İtaliya daha çox - 4 mln. nəfərə yaxın xarici turist qəbul etmişdi. Həmin il Belçikaya - 1,8, İsveçrəyə - 1,5, Avstriya və Fransaya - 1,2 mln. nəfər xarici turist gəlmişdi.

Ötən əsrin 30-cu illərində xarici turizmin inkişafında tempin azalmasına - iqtisadi böhranla yanaşı, faşist Almaniyasının müharibəyə hazırlığı ilə əlaqədar Avropada ümumi siyasi gərginliyin artması səbəb olmuşdu. Xarici turizmin - insanlar arasında ünsiyyətin kütləvi forması kimi bir spesifik xüsusiyyətini də qeyd etmək lazımdır. Beynəlxalq vəziyyət gərginləşdikdə, irticaçı qüvvələr xarici turizmdən siyasi və pozucu fəaliyyət kanalı kimi istifadə etməyə maraq göstərirlər.

Qeyd etmək lazımdır ki, Birinci və İkinci Dünya müharibələri arasındakı dövrdə, xarici turist səfərləri keyfiyyətcə yeni xarakter alırdı. Bu səfərlər yalnız əyləncə xatirinə deyil, sırf dərketmə

---

* ***Mil*** (ingilis uzunluq vahidi) - əsasən dəniz nəqliyyatında istifadə olunur. Bir dəniz mili 1852, bir quru mili 1609 metrə bərabərdir.

məqsədi güdür, turistlərdə tarixi yerlərə baxmaq, qədim abidələri, sənət və memarlıq incilərini görmək meyli artırdı.

Beynəlxalq turizm hərəkatının böyük hissəsi Avropanın payına düşürdü. Çünki belə səfərləri əsas etibarı ilə, Avropa ilə bir sıra qitələrin əhalisi arasında olan qohumluq və dil əlaqələri stimullaşdırırdı. Amma o da qeyd olunmalıdır ki, bu dövrdə xarici turizm əsas etibarı ilə, ayrı-ayrı fərdlərin səfərlərindən ibarət idi.

İkinci Dünya müharibəsi beynəlxalq turizm əlaqələrini dayandırdı və turizmin maddi-texniki bazasına ciddi ziyan vurdu. *Ərzaq məhsullarının, ixtisaslı kadrların çatışmaması, valyuta məzənnəsinin qeyri-sabitliyi, ciddi gömrük nəzarəti və valyuta məhdudiyyəti beynəlxalq turizmin inkişafına mənfi təsir göstərdi.*

Müharibədən sonrakı ilk illər, ümumiyyətlə beynəlxalq turizmin xarakter və strukturuna elə bir əsaslı dəyişikliklər gətirmədi. Bu dövrdə yalnız müharibə nəticəsində qırılmış turizm əlaqələri bərpa olunmağa başladı. 1950-ci ildə bütün dünya üzrə qeydiyyatdan keçən turistlərin sayı, müharibədən əvvəlki səviyyədən bir qədər yüksək olmuş və 25 mln. nəfər təşkil etmiş, turizmdən əldə edilən ümumi gəlir isə 21 mlrd. dollar olmuşdur.

Qeyd etmək lazımdır ki, Qərbi Avropaya gələn turistlərin sayı ildən-ilə artsa da, bu artım ölkələr arasında mütənasib bölünmürdü. Skandinaviya ölkələrinə, Avstriya, AFR, İspaniya, İtaliya və Fransaya daha güclü turist axını var idi. Turizmin artımı əsasən qonşu ölkələrə səfərlər hesabına baş verirdi. ABŞ-dan Avropaya turist axını hələ zəif idi.

Ötən əsrin 50-ci illərində beynəlxalq turizmin inkişafında yeni mərhələ açıldı. 1960-cı ildə xarici səfərlərdə iştirak edən turistlərin sayı 71 mln. nəfərə çatdı, əldə edilən gəlirin həcmi isə 3 dəfə artdı.

Beynəlxalq turizmin inkişafına bir sıra amillər müsbət təsir göstərmişdir. Dünyada siyasi vəziyyətin nizama salınmasını və beynəlxalq münasibətlərin tənzimlənməsini ilk növbədə qeyd etmək lazımdır. Bu dövr, aparıcı kapitalist ölkələrində iqtisadi yüksəliş və müharibədən sonra sənaye istehsalının yenidən qurulması dövrü idi. Beynəlxalq turizmin inkişafına elmi-texniki tərəqqi də öz təsirini göstərmişdi. Xüsusilə də aviasiya nəqliyyatı sahəsindəki tərəqqi - yeni reaktiv texnikanın tətbiq edilməsi nəticəsində daşınma xərci kəskin surətdə ucuzlaşmışdı.

Tək-tək səfər edən varlılar üçün nəzərdə tutulan fərdi turizmi kütləvi turizm əvəz etməyə başladı. Bu cür turizm, orta həyat səviyyəli, geniş əhali kütləsi üçün əlverişli idi. Bütün bunlar beynəlxalq turizm sahəsində, əhalinin məhdud, varlı təbəqəsinin səyahətlərinin, kütləvi surətdə təşkil edilən səfərlərlə əvəz olunmasının təməlini qoydu. Kommersiya əsasında təşkil olunmuş turlarda 25 mln. turistin iştirak etdiyi 1950-ci ili bazis kimi qəbul etsək, turizm dövriyyəsinin əhatə etdiyi insanların sayının 1950-ci il ilə müqayisədə aşağıdakı artımını müşahidə etmək olar: 1960-cı ildə - 2,8, 1970-ci ildə - 6,5, 1980-ci ildə - 10, 1990-cı ildə - 18, 2000-ci ildə - 27,6 dəfə (bax, cədvəl 1).

**Cədvəl 1**

**Beynəlxalq turizmin inkişaf dinamikası**

| İl | Turist səyahətlərində iştirak edənlər (mln. nəfərlə) | İl | Turist səyahətlərində iştirak edənlər (mln. nəfərlə) |
|---|---|---|---|
| 1950 | 25,3 | 1980 | 285,0 |
| 1955 | 43,0 | 1985 | 327,0 |
| 1960 | 71,0 | 1990 | 458,2 |
| 1965 | 116,0 | 1995 | 567,4 |
| 1970 | 165,8 | 1998 | 636,7 |
| 1975 | 213,0 | 2000 | 698,0 |

Müəlliflərin fikrincə, beynəlxalq turizm, tarixi inkişafına görə, aşağıdakı mərhələləri keçmişdir: birinci 1841-ci ilə qədər; ikinci 1841-ci ildən 1914-cü ilə qədər; üçüncü 1914-cü ildən 1945-ci ilə qədər; dördüncü 1945-ci ildən 1990-cı ilə qədər; beşinci - 1990-cı ildən sonra.

**Turizm - asudə vaxtda zövq almaq və istirahət etmək, sağlamlıq və müalicə, qonaqgetmə, dərketmə, dini və ya professional - işgüzar məqsədlə (amma getdiyi yerdə ödəniş mənbəyi olan məşğuliyyətin olmaması şərti ilə) insanla-**

**rın daimi yaşayış yerini tərk edərək, başqa ölkəyə və ya öz ölkəsi daxilində başqa yerə müvəqqəti olaraq səfər etməsidir.**

Qeyd etmək lazımdır ki, müxtəlif dövlətlərin turizm və onunla əlaqəli sahələri tənzimləyən milli qanunları və normativ aktlarında turizm və turistə münasibət eyni deyildir. Ona görə də, kateqoriyaların təyin edilməsi və anlayışların izah olunmasına təsir göstərən əsas amil - siyasət, sonra isə iqtisadiyyatdır.

Səyahətdən fərqli olaraq, turizm - insanların kifayət qədər qısa zaman çərçivəsində (24 saatdan çox, 6 aydan az olmaq şərti ilə) bir yerdən başqa yerə müvəqqəti olaraq getməsidir.

Turizm asudə vaxtda icra olunur. Onun icrası üçün iki əsas şərtin olması vacibdir: istirahət üçün nəzərdə tutulan asudə vaxt və gündəlik işdən ayrılmaq şərti ilə (ödənişli məzuniyyət) həmin istirahət müddətinin keçirilməsi üçün, lazımi vəsait. Turizm uzun müddət varlı təbəqəli fərdlərə nəsib olan həyat tərzi olmuşdur[1].

Turizmin kütləvi şəkil alması və əhalinin daha böyük hissəsinin cəlb olunması üçün, lazımi vəsaitin əldə edilməsi - yəni istirahətin təmin edilməsi məqsədi ilə ailə büdcəsindəki vəsaitin bir hissəsinin ayrılması imkanının olması vacibdir. Bir qayda olaraq, qısa müddətli istirahət üçün tələb olunan vəsait, adi tərzdə və adi iş rejimi şəraitində yaşayış üçün lazım olan vəsaitdən xeyli çoxdur. Bu, bir yerdən başqa yerə getmək, həmin yerdə yaşamaq, yemək və əyləncə xərcləri, istirahət üçün seçilmiş ölkə və ya bölgə əhalisinin ümumi həyat səviyyəsi ilə də əlaqəlidir.

İkinci Dünya müharibəsindən sonrakı iqtisadi dirçəliş dövründə avropalılar, öncə "Doyunca yemək", sonra "Normal geyinmək", daha sonra "Öz evim və avtomobilim" və nəhayət "Turist dalğası" mərhələlərini yaşamışlar.

Turizm müsbət emosiyalar[*] qazanmaq və ümumiyyətlə zövq almaq məqsədi daşıyır. Dini və müalicəvi turizm istisna olmaqla, bu məqsəd turizmin bütün növlərinə şamil olunur.

---

[1] Demək lazımdır ki, planetimizin sakinlərinin heç də hamısı bu gün turizmə cəlb olunmamışdır, amma turistlərin sayı və turizmin inkişaf dinamikasının göstəriciləri qənaətbəxşdir.

[*] ***Emosiya*** (fransızca həyacanlandırmaq, əsəbiləşdirmək mənalarını bildirir) - gerçəkliyin əks etdirilməsi prosesində insanda yaranan hissi hal.

Beynəlxalq turizmin inkişafı, dövlətlər arasında müqavilə münasibətləri əsasında həyata keçirilir. Əsas mövzusu turizm olan belə müqavilələrin mahiyyəti dəqiq müəyyən olunmadan, turizmin ölkələrarası inkişafı mümkün deyil.

Dövlətlər arasında bağlanan müqavilə və sazişlərdə beynəlxalq turizmin təkcə prinsipləri, məqsəd və vəzifələri deyil, eyni zamanda turistlərin ölkə daxilində hərəkəti və səyahətin sığorta şərtləri, onların dövlət sərhəddindən buraxılması və ərazidən tranzit keçid qaydaları da öz əksini tapır.

Ona görə də turizmin (o cümlədən, beynəlxalq turizmin) lazımi səviyyədə anlaşılması və dövlətlərin bu sahədə beynəlxalq əməkdaşlığının tənzimlənməsi üçün "turist" anlayışının özünü dəqiq müəyyən etmək lazımdır. Xatırladaq ki, "Turist" termini uzun təkamül dövrü keçsə də, onun tam açıqlanması cəhdi indi də davam edir.

**1937-ci ildə Millətlər Liqasının Ekspertlər Komitəsi ilk dəfə olaraq bu terminin izahı barədə tövsiyyələr vermişlər. Həmin tövsiyyələrdə göstərilirdi ki, "yaşamadığı yad ölkədə 24 saatdan az olmamaq şərti ilə qalan hər bir şəxs, turist hesab olunur"**[1]. Xarici turistin statusunun bu cür təyin edilməsi üsulu qeyri-müəyyən olduğundan bunu yad ölkədə 24 saatdan artıq qalan hər bir əcnəbiyə şamil etmək olar. Məsələn, mühacir, tranzit sərnişin, muzdlu işçi, qaçqın, səyyah və s. belə qəbildən olanlardır.

1963-cü ildə BMT-nin turizm və səyahətlərə həsr olunmuş Roma konfransında "Turist" termininin yeni açıqlanmasını verməyə cəhd göstərilsə də, konfrans iştirakçıları vahid rəyə gələ bilmədiklərindən "turist" terminindən hələlik statistika məqsədi ilə istifadə etmək qərara alındı. Roma konfransının tövsiyyələrində deyilir: "Statistik məlumat üçün "müvəqqəti gələn" - daimi yaşadığı ölkədən başqa, istənilən ölkəyə, istənilən məqsədlə (bu ölkədə mükafatlandırılan professional fəaliyyətlə məşğul olmamaq şərti ilə) gələn istənilən şəxsdir"[2].

---

[1] Millətlər Liqasının İqtisadi Komitəsinin məruzəsi. "Turizm səfərlərinin beynəlxalq faktor kimi tədqiqi". Cenevrə, 1937.

[2] BMT-nin məruzəsi. E/con. 47/7. 26 sentyabr 1965-ci il. Əlavə 3 - Roma 1965. Bölmə E, bənd 4, səh.18.

"Müvəqqəti gələn" termininə isə aşağıdakılar aid edilir: getdiyi ölkədə 24 saatdan az olmayaraq, qalan turistlər, daha doğrusu "müvəqqəti gələnlər". Səyahətin səbəbləri isə müxtəlif (istirahət, sağlamlığın bərpası, ziyarət, idmanla məşğul olma, işgüzar məqsəd, ezamiyyət, konfrans və konqreslərin işində iştirak etmə, ailə vəziyyəti və s. ilə əlaqədar) ola bilər.

**Ekskursiyaçılar** getdiyi ölkədə 24 saatdan az müddətdə qalan (kruiz* turistləri də daxil olmaqla), həmin ölkədə gecələməyən, gecələməyə öz gəmisinə, yaxtasına, qatarına qayıdan turistlər "müvəqqəti gələnlər" qrupuna aid edilir.

Roma konfransı, dövlət xidməti ilə əlaqədar səfər edənləri (dövlət xadimləri, parlament və hökumət nümayəndələrinin səfərləri, diplomatik və ticarət missiyaları) və ya elmi ekspedisiya (coğrafi, geoloji, hidroloji, arxeoloji və s.) iştirakçılarını turistlərin statistik göstəricilərinə daxil etməməyi tövsiyə etmişdir.

Ölkəyə hüquqi mənada daxil olmayan səyahətçilər (məsələn, təyyarə ilə səyahət edən və aeroportun tranzit zonasını tərk etməyən vətəndaşlar) statistik göstəricilərə daxil edilmirlər. Turistlərin müəyyən edilməsi üzrə Roma konfransının tövsiyyəsində, xarici ölkədə təhsil alan tələbə və şagirdlər də turist hesab olunurlar. Beləliklə, mütəxəssislər tərəfindən turistlərin aşağıdakı əsas qrupları müəyyən edilmişdi:

- Ailə vəziyyəti, müalicə və digər məqsədlərlə istirahətə gedən vətəndaşlar.
- Toplantılarda və qurultaylarda (elmi, inzibati, idman və s.) iştirak etmək üçün gedən vətəndaşlar.
- Xidməti işlə əlaqədar yola çıxan vətəndaşlar.
- 24 saat müddətindən az olmayaraq dəniz səyahətinə çıxan vətəndaşlar.

Turist hesab olunmayanlar:

- Müqavilə və ya müqavilə olmadan, iş tapmaq məqsədi ilə ölkəyə gələn vətəndaşlar.
- Ölkədə daimi yaşamaq üçün qalan vətəndaşlar.
- Sərhəddin bir tərəfində yaşayan və digər tərəfində işləyən sərhədyanı rayonların sakinləri.

---

* ***Kruiz*** (ingilis mənşəli sözdür, dəniz səyahəti mənasını bildirir) - beynəlxalq turizmin inkişaf etmiş formalarından biridir. Kruiz gəmisi - üzən oteldir.

Turist termininin bu cür müəyyən edilməsi Rəsmi Turist Təşkilatlarının Beynəlxalq İttifaqı (IUOTO) tərəfindən tanınmışdır. Amma, bir sıra dövlətlər "turist" termininin birmənalı izahını hazırladıqlarından turizm sahəsində əməkdaşlıq üzrə beynəlxalq müqavilələrin və sazişlərin predmetini özləri üçün dəqiq müəyyənləşdirə bilməmişlər.

Turizm haqqında Azərbaycan Respublikasının 1999-cu il 4 iyun tarixli qanunu, turist anlayışını aşağıdakı kimi müəyyənləşdirir:

**Turist - sağlamlaşdırıcı, dərketmə, tanışolma, professional, işgüzar, idman, dini və digər məqsədlərlə, haqqı ödənilən fəaliyyətlə məşğul olmamaq şərti ilə 24 saatdan 12 aya qədər müddətdə müvəqqəti olaraq ölkəyə gələn vətəndaşdır.**

1985-ci ildə Ümumdünya Turist Təşkilatının Baş Assambleyasının birinci sessiyası Turizm xartiyasını bəyəndi. **Turizm xartiyası - turistin siyasi və sosial tələblərini əks etdirən, Turistin kodeksini də özündə birləşdirən proqram sənəddir. Turistin kodeksi - turist səfəri zamanı, turistin davranış qaydaları və etik normalarının məcmusudur** (bax. III hissə).

Turizm xartiyası, hər bir insanın istirahət və asudə vaxt, illik ödənilən məzuniyyət, məhdudiyyətsiz səyahət etmək azadlığı hüquqlarını təntənəli surətdə elan etdi. Bu hüquqların davamı olaraq dövlətlər daxili və xarici turizmin harmonik* inkişafının təmin edilməsinə yönəlmiş siyasət hazırlamalı, həyata keçirməli və eyni zamanda istirahətdən istifadə edənlərin rifahı naminə, onun təşkili ilə məşğul olmalıdırlar.

Bu məqsədlə dövlətlər, Ümumdünya Turizm Təşkilatının imkanlarından istifadə edərək, turizm sahəsində həm iki, həm də çoxtərəfli əməkdaşlığı genişləndirməlidirlər; gənclik turizminə, ahıllar və fiziki çatışmazlıqları olan şəxslər üçün turizmə xüsusi diqqət yetirməli; indiki və gələcək nəslin naminə, bütün bəşəriyyətə məxsus olan turizm mühitini, o cümlədən insanı, təbiəti, ictimai münasibətləri və mədəni irsi qorumalı; səyahətə qoyulan

---

* ***Harmonik***, harmoniya (yunanca əlaqə, nizam-intizam, mütənasiblik mənalarını daşıyır) - təzahür və proseslərin daxili və zahiri nizam-intizamı, uyğunluğu, bütövlüyü kimi başa düşülür.

məhdudiyyətləri dönmədən azaltmaq şərti ilə lazımi sənədləşdirmədə formallığını aradan qaldırmalıdırlar.

Turistin kodeksi, xarici turistin gəldiyi ölkədə, onun hüquq və vəzifələrini təsbit etdi.

**Turistin hüquqları.** Səyahətə hazırlaşan zaman və səyahət müddətində, tranzit[**] də daxil olmaqla, turist aşağıdakı hüquqlara malikdir:

- müvəqqəti olaraq gəldiyi ölkəyə daxilolma, orada yaşamaq (qalmaq) qaydaları haqqında lazımi və dürüst məlumat almaq; yerli əhalinin adət-ənənələri, dini mərasimləri, müqəddəs yerləri haqqında, xüsusi mühafizə altında olan təbii, tarixi, mədəni və turistlərə göstərilən digər tarixi-memarlıq abidələri, ətraf mühitin vəziyyəti barədə məlumat almaq;
- sərbəst hərəkət etmək, müvəqqəti gedilən ölkədə məhdudlaşdırıcı ölçülər nəzərə alınmaqla, turizm obyektlərinə sərbəst daxil olmaq;
- şəxsi təhlükəsizliyi, alıcılıq hüququ, əşya və avadanlığının qorunması, maneəsiz ilk tibbi yardım almaq;
- turoperator və ya turagent tərəfindən turist məhsulunun alqı-satqısı zamanı müqavilə şərtlərinin yerinə yetirilmədiyi təqdirdə, nəzərdə tutulmuş qaydada ziyanın ödənilməsi və mənəvi zərərin kompensasiyası;
- müvəqqəti gəldiyi ölkədə hüquqi və digər kömək növlərinin göstərilməsi lazım gəldikdə, hökumət orqanlarından (yerli idarəetmə orqanlarından) yardım almaq;
- rabitə vasitələrindən maneəsiz istifadə etmək.

**Turistin vəzifələri.** Turist, tranzit də daxil olmaqla səyahət zamanı aşağıdakıları yerinə yetirməlidir:

- müvəqqəti gəldiyi ölkənin qanunvericiliyinə, ictimai quruluşuna, adət-ənənələrinə, dini etiqadına hörmət etmək;
- müvəqqəti gəldiyi ölkədə ətraf mühiti qorumaq; təbiət, tarix və mədəniyyət abidələrinə qayğı ilə yanaşmaq;
- müvəqqəti gəldiyi ölkənin giriş və çıxış, orada yaşamaq, o cümlədən ölkələrdən tranzit keçid qaydalarına riayət etmək;

[**] ***Tranzit*** (latın mənşəli sözdür, keçmə, keçid mənalarını daşıyır) - sərnişinlərin və ya yükün ara məntəqələri keçməklə bir məntəqədən digər məntəqələrə daşınması. Tranzit həm ölkə daxilində, həm də ayrı-ayrı ölkələr arasında mümkündür.

- səyahət zamanı özünün təhlükəsizliyi qaydalarına riayət etmək.

## 1.3. Səyahətin səbəbləri

Səyahətlə əlaqədar stressə*, pul və enerji sərfinə baxmayaraq, insanlar yenə də səyahət etməyə üstünlük verirlər. Səfər üçün mümkün olan yerlərin seçimi çox genişdir və insan səfər edəcəyi yeri on minlərlə adın içərisindən seçə bilər. Səyahət yeri maliyyə, səfərin məqsədi və s. kimi amillər əsasında seçilir. Bütün bunlar insanı məcbur edir ki, öz məzuniyyətini dağda, dəniz sahilində, meşədə və ya şəhər ətrafında keçirəcəyini həll etsin.

Səyahət səmtinin seçimində dörd əsas komponentin həlledici təsiri vardır: əyləncə, şoppinq, komfort və qiymət.

Ümid və reallıq, səyahətin qənaətbəxşlik və ya məyusluq dərəcəsi səyahətə hansı nəzər nöqtədən yanaşılmasından asılıdır. Heyranedici qürub çağları, əsrarəngiz dağlar, təklikdə səyahət edən turist üçün cansıxıcı ola bilər. İştahın olmadığı anlarda, restorandakı ən yaxşı servis və yeməklər də turist üçün adi və faydasız görünə bilər.

Bir turist yağışı sevir, digərinin isə ondan xoşu gəlmir. Dağlar qoynu biri üçün zövq mənbəyi, digəri üçün cəza deməkdir. Hər şey insanın səyahətdən nə gözlədiyindən, onun zövqündən və s. asılıdır. Başqa sözlə desək, səyahət həmişə eksperimentdir. O, yorğunluq və ya unudulmaz təəssürat, sevinc və ya məyusluq, xatirələr, yeni təəssüratlar isə insanları dönədönə səyahət etməyə sövq edər.

Kurortlar haqqında məlumatlar və videomateriallar bir çox hallarda reallıqdan o qədər uzaq olur ki, bura gələn turist həmin mənbələrdən aldığı informasiyaların reallığa uyğun olmadığını anlayır. Hovuzu əslində olduğundan daha geniş göstərən, real olmayan təbiət rənglərinin çəkilişi, təsadüfi çəkilmiş heyranedici qurub çağı, bütün bunları əslində görməyən insan məyus olur.

---

* ***Stress*** - ingilis mənşəli sözdür, təzyiq, təsiretmə, sınma, əzmə, gərilmə, gərginləşmə mənalarını bildirir.

Fikrimizcə, səyahətin həyata keçirilməsinin əsas səbəb və amillərini nəzərdən keçirərkən, aşağıdakılar üzərində dayanmaq, onları araşdırmaq məsləhətdir.

*Maliyyə.* Səyahətin marşrutu, səyahətçinin malik olduğu vəsaitdən və imkandan, səfər üçün xərcləmək arzusundakı məsrəfdən asılıdır.

*Reklam.* Bir çox turizm agentlikləri ucuz və etibarlı səyahət marşrutlarını reklam edirlər.

*Ailə statusu.* Ailə üzvlərinin sayı nə qədər çoxdursa, səfərin qiymətini və uşaqların istəyini nəzərə almaq bir o qədər vacibdir.

*İstirahət etmək arzusu.*

*Macəra arzusu.*

*Tarixi nöqteyi-nəzərdən maraq.*

*Mədəni tədbirlərə və idman tamaşalarına maraq.*

*Biznes səfər.*

*Zövq almaq xatirinə səyahət.* Yeni yerlərə səyahət etməkdən alınan zövq-insanın daimi yaşadığı şəraitdən və həyat ehtiyaclarından asılıdır.

*İdman tamaşalarına baxmaq xatirinə səyahət.* Milyonlarla turist müxtəlif idman tədbirlərinə baxmaq üçün səfər edir. Həm iştirakçı, həm də tamaşaçı rolunda idmana həvəs və maraq cəmiyyətin bütün təbəqələrinə sirayət etmişdir.

*Alver xatirinə edilən səyahət.* Nə qədər təəccüblü olsa da, bir çox insanlar üçün öz məzuniyyətlərini supermarketlərdə, mağazalarda keçirmək xatirinə səfər etmək adi haldır. Alınmış əşya və mallar bu və ya digər ölkəyə səfərin şahidi kimi, insanı keçmiş təəssüratları xatırlamağa vadar edir.

*Sağlamlığı bərpa etmək üçün səyahət.* Sağlamlığı bərpa etmək, ömrü uzatmaq üçün marşrutların axtarışı, insanları müalicə əhəmiyyətli mineral suları olan və ya dəniz kənarında yerləşən kurortlara getməyə sövq edir. Müalicəvi mineral sular həmişə populyar olmuş, bir çox otellər, palçıq və mineral vannalarda müalicəni öz xidmət servislərinə daxil etmişlər.

*Maariflənmək xatirinə səyahət.* Səyahət, insana yeniliyi dərk etmək arzusunu həyata keçirməyə imkan verir. Avropaya istirahətə gələn amerikalıların xeyli hissəsini məktəb müəllimləri təşkil edir. Bir çox Amerika universitetlərinin avropalı həmkarları

ilə geniş əlaqələri vardır, bu da onların tələbələrinə mübadilə proqramında iştirak etmək imkanı yaradır.

*Azart (ehtiras) xatirinə səyahət.* Azartlı oyunlara aludəçiliyə, risk etməyə meylliliyə, praktiki olaraq istənilən ən sadə və ən sivil mədəniyyətlərdə təsadüf etmək olar. Risk elə bir əyləncəni təmin edə bilər ki, bu cür əyləncəni şəhər ətrafının təhlükəsiz zolağında tapmaq mümkün deyil. Risk, az sərf etməklə, çox qazanmaq şansı təklif edir.

Azartlı oyunçulara kiçik risk etməklə həzz almaq imkanı yaradan Atlantik Siti, Las Veqas, Monte-Karlo və digər yerlər, həyatın darıxdırıcı yeknəsəqliyindən ayrılmağı və istirahət etməyi təklif edir. Hər ay minlərlə avtobusun gətirdiyi sərnişinlər, sonradan oyun avtomatlarına pərçim olaraq, nə vaxt üç eyni rəngli şarın düşəcəyini və çoxlu miqdarda dəmir jetonların şən, cingiltili səslə qalibin podnosuna töküləcəyini gözləyirlər. Las Veqasa hər il 14 milyon qonaq gəlir.

*Səyahətçinin snobizmi*[*]*.* Gördükləri yerlər, yaşadıqları otellər, nahar etdikləri restoranlar haqqında ağız dolusu danışmaq, snob səyahətçilərə çox xoşdur, çünki onlar öz tərəf-müqabillərinin həmin yerlərdə ümumiyyətlə olmadıqlarına əmindirlər.

*Səyahətə qədər və səyahətdən sonrakı zövq.* Səyahətdən alınan məmnuniyyət hissini, zövqü üç hissəyə ayırmaq olar: səfərə qədərki, səfər müddətindəki və səfərdən sonrakı. Bunlardan hər birinin öz xüsusi çəkisi vardır. Səfəri planlaşdırmaq - özü də bir növ əyləncə və məşğuliyyətdir. Bəzən insanlar geniş əhatəli, böyük səfərlər planlaşdırır və bu səfərlərə bir neçə ay, hətta bütün il boyu hazırlaşırlar. Bir çox insanlar səfəri planlaşdırır, həyata keçirir və həmin səfər başa çatmamış, növbəti səfəri planlaşdırmağa başlayırlar. Səyahət etmək, belə insanlar üçün həyat tərzinə çevrilir.

Bundan əlavə, turizmə olan ehtiyacların ödənilməsində rolu olan amilləri aşağıdakı qruplara bölmək olar: dərketmə, regional, iqtisadi və psixoloji. Bu qruplardan hər biri özündə müxtəlif amil

[*] ***Snobizm*** (ingilis mənşəli sözdür) kübarlara bənzəyən, onların davranışlarını səylə yerinə yetirən və bunlardan kənara çıxan heç nəyi qəbul etməyən şəxs, başqa sözlə incə zövqlü adam.

yarımqruplarını, daha dəqiq desək, motivlərin[**] müxtəlif növlərini birləşdirir.

*Dərketmə qrupu* - insanın tarix, mədəniyyət, təsərrüfat, təbii-iqlim amillərinə olan marağıdır. Ölkənin bütün mədəni irsi, tarixi və arxeoloji abidələri tarixi cəhətdən maraq doğuran amillərdir.

*Mədəni motivlər* - insanın öz ölkəsinin müxtəlif abidələr, muzeylər, rəsm qalereyaları, teatrlar və s. obyektləri əhatə edən mədəni irsini öyrənmək arzusudur. Adət-ənənələr, geyim, mətbəx və xalq yaradıcılığının digər təzahürləri, etnoqrafiya baxımından diqqətəlayiq irs kimi böyük maraq doğurur.

*Təsərrüfat amilləri* - təsərrüfatın özünəməxsus surətdə aparılması formalarını özündə birləşdirir.

*Təbii-iqlim amilləri* - turistlər üçün çox maraqlı və cəlbedicidir. Yer kürəsinin relyefi, flora və faunası, turizmin müəyyən növlərinin, xüsusilə də qış idmanı, dəniz, dağ və digər növlərinin yaradılmasında böyük rol oynayır. Turizmin motivlərində təbii iqlim elementi, şəhər əhalisinin psixoloji və bioloji tələbatına aid edilir. Coğrafi və iqlim şərtləri, yay və qış idman növlərinin inkişafı üçün əlverişli şərait üçün əsas meyardır. Turistlərin müalicəsi və sağlamlığı üçün şəraiti olan o cümlədən, kurort zonaları yerləşən rayonlar xüsusi maraq doğurur və cəlbedicidir.

*Regional amillər qrupuna* hər hansı bir regiona turistləri cəlb edən səbəb, bu regionla bağlı hadisələrin dolğunluğu da ola bilər. Məsələn, teatr, musiqi və kino festivalları, müxtəlif növ idman yarışları (olimpiadalar, spartakiadalar və s.) yarmarkalar, karnavallar, sərgilər və s.

*İqtisadi amillər qrupuna* turist səyahətlərinin sosial-iqtisadi şərtləri daxildir. Bura, turist məhsulu alıcılarının gəliri, turların qiyməti, turistləri qəbul edən yerlərdə xidmət və malların məzənnəsi, turizm sənayesinin inkişaf səviyyəsi, eyni zamanda ümumiyyətlə, xidmət sahəsinin, nəqliyyat sisteminin, ticarətin (o cümlədən, xarici turistlərə malları ucuz qiymətlərlə satan mağazaların sayı) inkişaf səviyyəsi və s. aid edilir. İqtisadi amillər ucuz malların assortimentinin yaradılmasında birinci dərəcəli rol oynayır və orta gəlirli turistlərin sayının artımına təsir göstərir.

---

[**] **Motiv** - müəyyən tələbin ödənilməsi ilə əlaqədar insanı bilavasitə konkret fəaliyyətə təhrik edən səbəb.

*Psixoloji amillərə* turistlərdə səyahət etməyə həvəs yaradan və onların psixoloji tələbatına cavab verən motivlər daxildir. Bura, insanın dini baxışları, onun xüsusi maraqları və meylləri, reklama münasibəti və s. aid edilir.

Tədqiqat göstərir ki, iqtisadi və sentimental* motivlər istisna olmaqla turistlərin az bir hissəsi, əvvəllər olduqları yerlərə yenidən səfər edirlər. İnsan, öz gəlirinin artımına uyğun olaraq, yeni turist marşrutlarının seçimində psixoloji motivlərə üstünlük verir. Yaxın gələcəkdə insanlar daha çox səyahət edəcəklər, bu da sözsüz ki, turist biznesinin inkişafına təsir göstərəcəkdir. Bugünkü həyatımızın bir sıra faktları, bu fikri təsdiq edir.

*Ömrün uzanması.* İnkişaf etmiş ölkələrdə orta ömür səviyyəsi getdikcə yüksəlir. Bu onu göstərir ki, müharibədən sonrakı illərdə anadan olmuş nəsl tezliklə "layiqli istirahətə" gedəcək.

*Çevik iş günü.* Hazırda bir çox insanlar həftənin sonundakı istirahətin müddətini artırmaq xatirinə, gündə on saat işləyirlər. Bununla əlaqədar, bir çox başqa xidmət sahələrində çalışanlar üçün (o cümlədən turizm sənayesində) isə gərgin iş, həftənin sonuna, istirahət isə həftənin əvvəlinə təsadüf edir.

*Təqaüdə erkən çıxmaq.* Dövlət idarələrində və ya özəl şirkətlərdə 30-35 il işləyən insanların sayı getdikcə artır və onlar 55-60 yaşlarında təqaüdə çıxmaq imkanı qazanırlar.

*Səyahət etmək asanlaşır.* İstənilən nəqliyyat növü ilə istirahət və bayram günlərində səyahət etmək problem deyil. İnsanlar asudə vaxtlarının artmasından səmərəli istifadə edərək, daha tez-tez səyahət edirlər.

*Qısamüddətli, amma tez-tez məzuniyyət götürmək meyli.* Avropalıların məzuniyyət müddəti, amerikalıların məzuniyyətlərinə nisbətən daha çoxdur. Kifayət qədər iş stajı olan əməkdaşlar üçün adi məzuniyyət müddətinin altı həftə olmasına baxmayaraq, avropalılar iş ilinin ortalarında dörd həftəlik məzuniyyətə çıxmağı normal hal hesab edirlər. İnsanlar ildə bir dəfə uzunmüddətli məzuniyyətə çıxmaqdansa, ildə bir neçə dəfə qısamüddətli məzuniyyət götürməyə üstünlük verirlər.

---

* ***Sentimental*** (fransızca hiss, ingiliscə həssas mənalarını bildirir) - təbii hissləri, həssaslığı yüksək qiymətləndirən, ona pərəstiş edən, hissiyyatı güclü inkişaf etmiş şəxs.

*Həyat səviyyəsinin yüksəlməsi.* Son illərdə hətta inkişaf etməkdə olan ölkələrdə də insanlar öz həyat səviyyəsini yüksəltməyə nail olmuşlar. Məsələn, Çində Azad İqtisadi Zonaların[**] yaradılması nəticəsində imkanlı adamların sayı artır, onlar da öz növbəsində tez-tez xarici səyahətlərə çıxmağa meyl edirlər. Şərqi Avropa və keçmiş SSRİ məkanında olan ölkələrdə yaşayan insanlar da səyahət etmək hüququ qazanmışlar.

Məşhur Amerika ictimaiyyətçisi Stenli Ploq[1] səyahəti sevənləri iki tipə ayırır:

1) Tanış və sınanmış marşrutlara üstünlük verən psixosentriklər;
2) Yeni və naməlum marşrutlara üstünlük verən allosentriklər.

Bu əks qütblərdən birinə xalis halda təsadüf etmək mümkün deyil. Psixosentriklər, milyonlarla turistin getdiyi populyar yerlərdə olmağa üstünlük verirlər. Onların seçdikləri marşrutlar daimi və öncədən bəlli olan marşrutlardır. Allosentriklər isə, öz maraqları, fəallıqları və hətta macəralara meylli olmaları ilə fərqlənirlər. Sakit okeanın və Karib hövzəsinin ekzotik adaları, Afrika və Asiya onları daha çox cəlb edir. Turistlərin böyük əksəriyyəti, allosentrikliyə meyl nümayiş etdirirlər və bu amil isə ekzotik ölkələrin turizm biznesinin aparıcı qüvvəsi hesab edilir. Allosentriklər tərəfindən "kəşf edilən" yerlərə (kurort, şəhər, kənd və s.) sonradan gediş-gəliş artır.

---

[**] ***Azad İqtisadi Zona*** - dövlətin xarici iqtisadi fəaliyyətində iştirak etmə formalarından biri. Bu cür zonalar hüquqi statuslarına görə gömrük sərhəddindən kənar olan ərazilərdə təşkil olunur.

[1] Djon R.Uoker. Vvedenie v qostepriimstvo (perevod s anqliyskoqo). Moskva. İzd-vo "ÖNİTİ", 1999.

# FƏSİL 2.

## TURİZMİN FORMALARI, NÖVLƏRİ VƏ NÖV MÜXTƏLİFLİYİ

Turizm biznesinin çoxsaylı problemlərini təkbaşına həll etmək, ayrı-ayrı turist təşkilatları (turagentlər) üçün olduqca çətindir. Turist xidməti ilə məşğul olan yerləşdirmə və qidalanma müəssisələri, ekskursiya büroları və s. firmaların axtarışı və əməkdaşlıq haqqında müqavilələrin bağlanması bu cür problemlərə aiddir.

Bu öncə, turagentlərin potensial müştərilərinin ən müxtəlif məqsəd və şərtlərlə səyahət etmək arzusunda olmaları ilə əlaqədardır. Müştərilərini itirməmək üçün, turagent dünyanın müxtəlif guşələrində turizm biznesinin imkanlarından xəbərdar olmalı, təklif olunan marşrut üzrə səyahətin həyata keçirilməsinə etibarlı zəmanət verməlidir. Məsələn, SSRİ-nin süqutundan sonra, respublikamızda da bir çox turist firmaları yaradıldı. Amma onların fəaliyyət miqyasının genişlənməsinə bir sıra ənənəvi istirahət regionlarına (Krım, Baltikyanı ölkələr, Şimali Qafqaz, Qafqazın Qara dəniz sahilləri, Qafqaz mineral suları və s.) girişin bağlanması və ya çətinləşməsi mane olur.

Bundan başqa bir tərəfdən çoxsaylı rəsmiyyətçiliyin (formallıqların), məzənnəsi daim artıb-azalan milli valyutaların dəyişdirilməsi, gömrük məhdudiyyətləri, siyasi və iqtisadi məhdudiyyətlər və s., digər tərəfdən, potensial turistlər arzuolunmaz vəziyyətdə olan bir sıra regionlara, məsələn hərbi əməliyyatlar gedən, ekoloji vəziyyəti ağır olan, milli və dini münaqişələrin baş verdiyi yerlərə getmək istəmirlər.

Respublikamızda fəaliyyət göstərən turist firmalarının əksəriyyəti uzaq ölkələrin turizm bazarını öyrənir, əsasən dünya turizmi üçün ənənəvi olan marşrutlar təklif edirlər. Turizm biznesinin imkanları turizmin yalnız ekskursiya növü ilə məhdudlaşmır. Firmalar öz fəaliyyət miqyaslarını genişləndirmək üçün, başqa növ turlardan da istifadə edə bilərlər. Bu, ilk növbədə, turist firmalarına turist xidmətlərindən istifadə edənlərin daha böyük qisminin tələbatının ödənilməsi imkanı verər.

Turizm fəaliyyətinin iqtisadi effektliliyi, çox zaman onun for-

malarının dərəcələri ilə müəyyən edilir. Turizm formalarının dərəcələrə bölünməsi dedikdə, müəyyən praktiki məqsədlərdən asılı olaraq, eyni tipli qruplara ayrılması nəzərdə tutulur.

Turizmin hər bir forması, turistlərin özünəməxsus tələbatı ilə xarakterizə olunur və bu tələbatı təmin edən müvafiq xidmət kompleksini nəzərdə tutur. Turizmin istehsalat-xidmət prosesində aşağıdakılar ayrılır:

- turizmin formaları;
- turizmin növləri;
- turizmin növ müxtəlifliyi.

**Turizmin forması**, turistin öz ölkəsi sərhədlərindən çıxıb-çıxmaması ilə bağlıdır, daha doğrusu, turizmin formalara bölünməsinin əsasını «ölkə» prinsipi təşkil edir. Bu bölgüyə görə turizm daxili və beynəlxalq formalara ayrılır.

**Daxili turizm** - bu milli turizm, daha doğrusu ölkədaxili turizmdir. Ümumdünya Turist Təşkilatı tərəfindən təşkil edilən və 1980-ci il sentyabrın 27-dən oktyabrın 10-dək Manila şəhərində (Filippin) keçirilən Turizm Üzrə Beynəlxalq Konfrans, daxili turizmin müəyyən edilməsinə həsr olunmuşdu.

Daxili turizm - müxtəlif professional məqsədlər daşıya bilər: əyləncə, gündüz vaxtı iş yerinə hərəkət və s. Yerli əhali üçün getdiyi istirahət yerində 24 saatdan artıq qalmaq məcburi deyil, daha doğrusu, turist həmin yerdə gecələyə də bilər və ya evə qayıda bilər.

**Beynəlxalq turizm** - başqa ölkəyə turizm səyahəti etmək deməkdir, daha doğrusu xarici turizmdir. Beynəlxalq turizm - turizm məqsədi ilə daimi yaşadığı ölkənin hüdudlarından kənara çıxan səfərdir, daha dəqiq, beynəlxalq turizm - dövlətlərarası müqavilələrə əsasən həyata keçirilən səyahətlər sistemidir.

Beynəlxalq turizm münasibətlərinin təsir dairələri:

- ümumi beynəlxalq hüquqlarla tənzimlənən dövlətlərarası münasibətlərə;
- beynəlxalq şəxsiyyət hüquqları ilə tənzimlənən əcnəbi vətəndaşlara münasibətə;
- turist mübadiləsi zamanı yaranan, iştirakçı dövlətlərdən hansısa birinin çərçivəsi daxilində olmayan və vətəndaş-hüquqi tənzimləməyə aid olan münasibətlərə.

Bu sahədə qanunvericiliyin tədbiqi ilə əlaqədar problemlər

yaranır. Dövlətlərarası turizm müqavilələrində belə problemlərin olması, bu münasibətlərin xüsusiyyətlərini müəyyən etməklə yanaşı, hüquqi-müqavilə reqlamentində də çətinliklər yaradır. Beynəlxalq turizm getmə (ölkədən səfər etmə) və gəlmə (ölkədə qəbul etmə) kimi iki hissəyə bölünür.

**Gəlmə (qəbul etmə) turizmi** - başqa ölkələrdə yaşayan vətəndaşların Azərbaycan Respublikasına (nümunə kimi göstərilir) gəlməsi və ölkə daxilində səyahətidir.

**Getmə (səfər etmə) turizmi** - Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrə səyahətidir.

Beynəlxalq turizm, beynəlxalq iqtisadi münasibətlərdə də mühüm rol oynayır. Elmi-texniki inqilab, beynəlxalq inteqrasiya*, beynəlxalq əmək bölgüsünün dərinləşməsi, elmi, mədəni, idman və digər sahələrdə dövlətlərarası əlaqələrin inkişafı zəminində, xalqlar öz maddi və mənəvi dəyərlərinin yaradılmasında başqa ölkələrin təcrübəsindən istifadə etməyə can atırlar.

Beynəlxalq turizm, dövlətlərarası iqtisadi, mədəni, sosial, elmi-texniki əlaqələrlə yanaşı, qarşılıqlı etimadın, sülhün qorunmasında, dövlətlərarasında qarşılıqlı dostluq əlaqələrinin möhkəmlənməsində mühüm amillərdən biri kimi əhəmiyyətli rol oynayır.

**Turizm** - milli və beynəlmiləl amillərin birləşdiyi qarşılıqlı surətdə uyğunlaşan və tarixən formalaşan bir prosesin təzahürüdür. Turist mübadiləsi, beynəlmiləl əlaqələrin forma və vasitəsi kimi çıxış etməklə ictimai təşkilatların fəaliyyətinin zəruri ünsürüdür. Beynəlxalq turizm, çoxsaylı amillərin təsiri altında inkişaf edir. Bu amilləri üç: demoqrafik, iqtisadi və sosial qrupda birləşdirmək olar.

**Demoqrafik amillərə** dünya əhalisinin artımı, urbanizasiya** prosesi nəticəsində əhalinin şəhərlərdə cəmləşməsi, daim hərəkətdə olan həyat tərzinin stereotipinin*** formalaşması aiddir. Fi-

---

* ***İnteqrasiya*** (latın mənşəli sözdür, bərpaetmə, tamamlama mənalarını daşıyır) - ayrı-ayrı hissələrin tamda birləşməsi haqqında sistemlər nəzəriyyəsi anlayışı.

** ***Urbanizasiya*** (latın mənşəli sözdür, şəhərlə bağlılıq mənasını bildirir) - cəmiyyətin inkişafında şəhərlərin rolunun artmasını göstərən tarixi proses.

*** ***Stereotip*** (yunan mənşəli sözdür, iz qoymaq mənasını bildirir) - əgər müşahidə etdiyimiz adamlar gözə çarpmaqla bizdən hər hansı bir işlərə görə fərqlənirlərsə, onlar bizdə standart nümunələrinin stereotipini oyadır.

ziki və mənəvi qüvvəsini bərpa etmək üçün iri şəhərlərin sakinləri gündəlik həyat şəraitlərində dəyişiklik etməyin zəruriliyini hiss edirlər. Ayrı-ayrı ölkələrdə yaşayan, qohum dillərdə danışan xalqların bir-birinə marağı artır. Bu da dil maneəsinin olmaması, ümumi maraq və mədəniyyətin təzahürləri ilə izah olunur.

**İqtisadi amillər** - dünya iqtisadiyyatının inkişafı ilə bağlıdır. Dünya iqtisadiyyatında əmtəə istehsalına nisbətən, xidmət istehsalı artımının daha yüksək olması meyli nəticəsində xidmət istehlakı payının artması müşahidə edilir. Bütün sahələrdə elmi-texniki tərəqqinin sürətlənməsi, əhalinin gəlirlərinin artması da iqtisadi amillərə aiddir. Xarici turizmin maddi-texniki bazasının inkişafı, turistlərin qəbulu və xidmətin yeni formalarının yaranması, turist təkliflərinin intensivləşməsinə imkan verir.

**Sosial amillər** - insanın həyat və fəaliyyət şəraiti ilə bağlı olan amillərdir. Beynəlxalq turizmə birbaşa təsiri, haqqı ödənilən məzuniyyət müddətlərinin artması, o cümlədən bir sıra ölkələrdə məzuniyyət müddətlərinin iki hissəyə bölünməsinin mümkünlüyüdür. Bu isə öz növbəsində turistlərə ildə iki dəfə (əsasən yayda və qışda) səyahət etmək imkanı verir. Təqaüdə çıxmaq üçün yaş həddinin azalması da turizmin genişlənməsinə kömək edir, belə ki, ömrün uzanması faktını nəzərə alsaq, «üçüncü yaş dövrü»nü keçirən turistlərin artdığını müşahidə etmək olar.

**Turizmin növləri.** Əlamətlərinə görə turizm aktiv və passiv növlərə ayrılır.

Xarici turistlərin ölkəyə gəlişi və ya ölkə vətəndaşları olan turistlərin həmin regiona gəlişi *aktiv turizmdir. Aktiv turizm* - ölkəyə və ya regiona pul (valyuta) gətirilməsi ilə müəyyən edilir. Bir ölkə vətəndaşlarının digər ölkəyə səyahəti və ya həmin regiondan olan turistlərin başqa yerlərə səfərləri *passiv turizmdir.* Passiv turizm - ölkədən və ya regiondan pul (valyuta) çıxarılması ilə müəyyən edilir.

Xarakterik əlamətlərinə görə, turizmin formaları aşağıdakı növ müxtəlifliyinə bölünür: səyahətin əsas məqsədi, səyahətin təşkilinin xarakteri, turist axınının intensivliyi, turun (səyahətin) davamiyyət müddəti, qrupda olanların yaş fərqi, istifadə edilən nəqliyyat növü, əməkdaşlıq forması və s.

Təşkilinin xarakterinə görə səyahətlər - qrup şəklində, fərdi, öncədən təşkil olunmuş, özfəaliyyət (öncədən təşkil olunmamış),

stasionar, səyyar (daim hərəkətdə) və sosial turizmə bölünür.

**Qrup (kollektiv) şəkildə səyahətlər** dedikdə, adətən bir neçə şəxsin eyni marşrut üzrə, eyni şərtlərlə birgə səyahəti nəzərdə tutulur. Səyahətçilərin bir qrupda birləşməsinin səbəbləri - maraqların və səfərin məqsədinin ümumiliyi, qruplara edilən güzəştlə əlaqədar, fərdi turlara nisbətən, qrup turlarında qiymətlərin daha ucuz olmasıdır. Beynəlxalq normalara görə, səfərdə 15 və daha çox adam iştirak edərsə o, qrup şəklində səyahət hesab edilir.

Əgər, qrupun toplandığı çıxış məntəqəsindən marşrutdakı ilk yerləşmə məntəqəsinədək və son məntəqədən geriyə nəqliyyat xərci də qrup turunun qiymətinə daxil edilirsə, belə turlar çox zaman *transtur* adlanır.

**Fərdi səyahət**, bir və ya bir neçə şəxsin bir qayda olaraq daha bahalı qiymətlərlə, şəxsi xarakter daşıyan müstəqil səyahətidir. Beynəlxalq təcrübədə fərdi səyahətlərdə iştirak edənlərin sayı bir qayda olaraq 15 nəfərdən az olur.

**Stasionar turizmdə** turistin yaşadığı məkan (dəniz sahili, turbaza və s.) turist putyovkası (yollayışı) müddətində dəyişmir.

**Səyyar turizm** səyahət müddətində daim hərəkətlə bağlı turizmdir (kruizlər, turlar).

**Sosial turizm**, dövlət və ya həmkarlar təşkilatları tərəfindən sosial ehtiyaclara ödənilən maddi yardımlar hesabına təşkil edilən turizmdir.

Əməkdaşlıq formasına görə turist qruplarının mübadiləsi valyuta və valyutasız olur. Valyutasız turist qruplarının mübadiləsi, hər iki tərəfin turist qruplarına qarşılıqlı surətdə, bərabər günlər müddətində, eyni xidmət növünün göstərilməsi nəticəsində həyata keçirilir. Turist təsərrüfat subyektlərinin valyuta əsasında olan əməkdaşlığı zamanı, qarşılıqlı razılığa və ikitərəfli sazişlərə əsasən, müəyyən olunduğu kimi, hər bir xidmət günü üçün valyuta ödənilir.

Beynəlxalq turizm statistikasında, nəzarət, hesaba alma, təsnifat və təhlil vahidi kimi «gələn» (qonaq, müştəri) terminindən istifadə edilir. Gələnlərin (turistlərin və ekskursiyaçıların) fəaliyyəti, gəlməkdə məqsəd, gəldiyi yer (ölkə, rayon, region), istifadə olunan nəqliyyatın növü, yerləşdirmə vasitəsi (otel, mehmanxana, turbaza və s.) ilə müəyyən olunur. Gəldiyi yerdə

gecələyənlər - turist, bir günlük gələnlər isə ekskursant hesab olunur. Gəmi ilə kruiz səyahəti zamanı hər hansı bir ölkəyə gələn və həmin ölkədə yerləşdirmə vasitələrindən istifadə etməyərək, gəmiyə qayıdan turistlər də ekskursiyaçılar adlanır.

Səyahətin məqsədindən asılı olaraq, yerləşdirmə üzrə kompleks xidmət, turistlərin daşınması və qidalanması, ekskursiya xidməti, gid* - tərcüməçi və turmenecerlər (qrup rəhbərləri) xidməti və digər xidmətləri-tur termini ilə ifadə etmək olar. Turların daha çox yayılmış növləri - inklüziv və insentiv turlardır.

**İnklüziv tur** - turist firmaları tərəfindən tam kompleks (xidmət paketi) şəklində satılan səyahətdir. Bura, səyahət marşrutu üzrə vizaların alınması, daşınma, oteldə yerləşdirmə, qidalanma, transfer*, ekskursiya xidməti daxildir. İnklüziv turlar həm fərdi, həm də qrup səyahətləri kimi təşkil olunur. Qrup şəklində turizm, səyahətlərin aparıcı formasıdır.

**İnsentiv tur** - əməkdə qazandıqları nailiyyətlərə görə (satış həcminin artması, effektli reklam, personalın təhsilinə kömək və s.) müəssisələr tərəfindən öz işçiləri üçün firmanın hesabına təşkil edilən həvəsləndirici səyahətdir.

Turizm növlərinin təsnifatı, müxtəlif əlamətlərə görə verilir. Bunlardan ən mühümləri - turizmin məqsədi, müvəqqəti xarakteristikası, müştərinin şəxsi tələbatı və maliyyə imkanlarıdır.

## 2. 1. Məqsədinə görə turizm növlərinin təsnifatı

**Ekskursiya** - dərketmək məqsədi ilə həyata keçirilən səyahətdir. Ekskursiya həmçinin müasir turist firmalarının məşğul olduğu, turizmin daha çox yayılmış formalarından biri olmaqla yanaşı müxtəlif region və ölkələrin tarixi, mədəni, təbii və b. diqqətəlayiq sərvətləri ilə insanların tanış olmaq arzusudur. Nəzərə

---

* ***Gid*** (fransız mənşəli sözdür, bələdçi mənasını bildirir) - turistlərin səyahət etdiyi ölkə (ərazi) haqqında xüsusi məlumatı olan, bu ölkənin və yaxud turistlərin gəldiyi ölkənin dövlət dilini bilən və səyahət iştirakçılarına təşkilati və informasiya xarakterli professional şəkildə xidmətlər göstərə bilən şəxs.

* ***Transfer*** (ingilis mənşəli sözdür, yerdəyişmək, yerini dəyişdirmək mənalarını bildirir) - turist qrupları və yaxud fərdi turistlərin qəbul olunması və yola salınması üçün (bir qayda olaraq bələdçi-tərcüməçi ilə birgə) nəqliyyat vasitələrinin, aeroport-otel-aeroport və ya dəmiryol vağzalı-otel-vağzal marşrutu üzrə verilməsi.

almaq lazımdır ki, dərketmənin məqsədi, istirahətetmə ilə uyğun gələ bilər. Dərketmə kurortda istirahət zamanı da həyata keçirilə bilər, yəni istirahət müddətində turistlər ekskursiyalarda iştirak edərək hətta, başqa şəhərlərə getmək imkanı da qazanırlar.

Bir çox ölkələrdə dərketmə səyahətlərinin xarakterik xüsusiyyəti, onun uzaq məsafələrə təşkil edilməsi və bir səyahət müddətində daha çox ölkə və şəhərlərdə olmaq şansının verilməsidir.

**Rekreasiya turizmi** (latınca recreatio - bərpa etmək) - istirahət və müalicə məqsədi ilə həyata keçirilən səyahətdir. Turizmin bu növü bütün dünyada geniş yayılmışdır. Xarici turistlərin məsələn, İspaniya, İtaliya, Rumıniya, Çexiya, Bolqarıstana səfərləri əsasən bu məqsədlə həyata keçirilir. Belə səfərlərin xarakterik xüsusiyyəti, onun müddətinin böyük olması, marşruta daxil olan şəhərlərin sayının az, bir şəhərdə qalma müddətinin isə çox olmasıdır.

**Müalicə məqsədli səfərlər** turizmin digər növlərindən xüsusilə fərqlənir. İlk növbədə bu olduqca fərdi səyahət növüdür. Amma nəqliyyat xərcində güzəşt əldə etmək məqsədi ilə, ayrı-ayrı turistlər, turist firması vasitəsi ilə qrup şəklində birləşə bilərlər. Müalicə turlarının davamiyyət müddəti adətən 24-28 gündür. Bu isə turizmin digər növlərindən xeyli artıqdır. Qeyd etmək lazımdır ki, vətəndaşların sanatoriyalara gəlişi (xəstə üçün yer olub olmamasından asılı olmayaraq) turizmə şamil edilmir, çünki sanatoriyalar xəstəxanaların bir növüdür.

İstirahət etmək, əylənmək, idmanla məşğul olmaq məqsədi ilə, istirahət günlərində hər hansı bir yerə hərəkət etmək **«həftə sonu turizm»** adlanır.

**Elmi və ya konqress turizm.** Müxtəlif konqresslərdə*, simpoziumlarda**, yığıncaqlarda iştirak etmək məqsədi daşıyan səyahətləri özündə birləşdirən turizmin bu növü, müasir beynəlxalq turizmdə böyük yer tutur. Əldə olan məlumatlara görə, beynəlxalq tədbirlərdə iştirak edənlər, xarici turistlərin ümumi sayının 6-

---

* ***Konqress*** (latınca görüş, yığıncaq mənalarını bildirir) - dövlət, region, təşkilat rəhbərlərinin, yaxud nümayəndələrinin görüşü, yığıncağı, həmçinin beynəlxalq konfransların bir növü.

** ***Simpozium*** (latın mənşəli sözdür, hərfi mənası ziyafət) - hər hansı elmi məsələyə dair (əsasən, beynəlxalq problemlər) keçirilən yığıncaq.

7 faizini təşkil edir. Konqress turizmində adam başına (bir turistə) düşən gəlir göstəriciləri daha yüksəkdir. Ona görə də dünyanın bir çox ölkələri özlərində beynəlxalq görüşlərin keçirilməsi üçün müəyyən tədbirlər görürlər. Məsələn, iclas zalları və qonaqların yerləşdirilməsi imkanları olan nəhəng konqress mərkəzləri yaradılır. Bir sıra turist təşkilatları isə beynəlxalq tədbirlərin keçirilməsi üzrə tam ixtisaslaşır, hətta, Konqress Təşkilatçılarının Beynəlxalq İttifaqı da fəaliyyət göstərir.

Müşayiət edən şəxslərin çoxluğu, müasir beynəlxalq tədbirlərin xarakterik xüsusiyyətidir. Bir çox konqreslərdə onların sayı iştirakçıların üçdə-birinə çatır. Professional proqramla yanaşı, iştirakçıları müşayiət edən ailə üzvləri üçün əyləncə tədbirləri də təklif olunan konqresslər daha populyardır.

**İşgüzar turizm.** İşgüzar məqsədlə edilən səfərlərə, müasir turist mübadiləsinin mühüm tərkib hissəsi kimi baxılır. Bu cür səyahətlər ən perspektivli turizm növlərindən biri hesab edilir, çünki o, beynəlxalq əmək bölgüsünün obyektiv qanunauyğunluqlarına əsaslanır.

İşgüzar səfərlərin təhlili göstərir ki, belə səfərlər konkret iki ölkə arasındakı iqtisadi münasibətlərin vəziyyətinə əsaslanır. Mövsüm amilindən asılı olmadığı üçün, işgüzar səfərlər iqtisadi baxımdan çox səmərəlidir. Çünki, qızğın turist mövsümündə, işgüzar səfərlər əksinə bir qədər səngiyir. İşgüzar turizmdə, ticarət və ya elmi-texniki əməkdaşlıq məsələləri üzrə beynəlxalq və ikitərəfli yığıncaqları da qeyd etmək olar. Elmi-texniki və mədəni əməkdaşlıq üzrə hökumətlərarası sazişlərin gedişini izləyən müxtəlif işçi qrup və komissiyaların yağıncaqları xüsusi ilə geniş yayılmışdır.

Beynəlxalq və milli sərgilərdə, yarmarkalarda iştirak etmək, işgüzar səfərlərin bir növüdür. Belə tədbirlərin iştirakçıları, sərgilərdə iştirak etməklə yanaşı, onların montaj və demontaj edilməsi ilə əlaqədar, nisbətən uzun müddətli səfərdə olurlar. Son illərdə işgüzar turizmin yarımnövü olan «məkik turizmi» - xırdavat mallarının topdansatışı ilə məşğul olanların xarici ölkələrə və ya ölkəsinin müəyyən regionuna alqı-satqı ilə əlaqədar səfərləri inkişaf etməyə başlamışdır.

**Etnik*** **və ya nostalji**** **turizm** - beynəlxalq turizmdə əhəmiyyətli yer tutan, qohumlarla görüşmək və ya valideynlərin anadan olduqları ata-baba yurduna səyahət etməklə bağlı olan turizm növüdür. Son illərdə, turizmin bu özünəməxsus növündə, onun xarakterini dəyişən müəyyən struktur dəyişikliklər baş verir. Əvvəllər yaxın qohumları ilə görüşmək və doğulduğu yerlərə, tarixi vətənə səfər etmək, turizmin bu növünün əsasını təşkil edirdi. Son illərdə isə, əsli başqa ölkələrdən olan birinci nəsil nümayəndələrinin sayı azalır. Artıq üçüncü və dördüncü nəslin nümayəndələrinin isə öz vətənlərində ən yaxın qohumları olmadığı üçün, onlar əsasən, öz ata-baba yurdunu görmək məqsədi ilə səyahət edirlər. Belə turistlər qohumlarının evində deyil, mehmanxanalarda yaşamağa üstünlük verir, səfər proqramına səfərin motivi ilə əlaqədar dəyişiklik etməyi təklif edirlər.

Etnik turizmin yarımnövü olan qonşu ölkələr arasında sərhədyanı turist mübadiləsinin iqtisadi səmərəsi az olsa da, müvəqqəti gələnlərin sayı üzrə statistikada böyük rəqəmlərlə əks olunur. ÜTT-nın müəyyən etdiyi kimi, turistlərin bu kateqoriyası **ekskursiyaçı** adlanır.

**Macəra turizmi** - fiziki cəhətdən ağır, çox vaxt isə həyat üçün təhlükəli olan anlayışdır. Belə turların təşkili zamanı «macəralar komplekti» çox vaxt öncədən, xüsusi olaraq hazırlanmaqla yanaşı eyni zamanda turistlərin təhlükəsizliyi üçün bütün mümkün vasitə və imkanlardan istifadə olunur. Son illərdə, öncədən planlaşdırılmamış, macəralarla zəngin olan, az tədqiq olunmuş və məskunlaşmamış bölgələrə (cunqli, hündür dağlar, tundra, səhralar və s.) səyahətlər daha çox populyarlıq qazanır.

**Kənd turizmi** - turistlərin kənd yerlərinə müvəqqəti səfəridir. Turistlər kəndlərdə və ya kəndlərə yaxın yaşayış yerlərində məskunlaşaraq yerli həyat tərzi ilə tanış olurlar. Müəyyən hallarda ətraf rayonların tədqiqi üçün kənddən baza kimi istifadə edilir. Hər hansı bir tədbir zamanı (idman oyunları, festivallar,

---

* ***Etnik*** (yunan mənşəli sözdür) - müəyyən bir xalqa məxsus olan kimi başa düşülür, əhalinin etnik tərkibi dedikdə onu təşkil edən müxtəlif millətlərin cəmi başa düşülür.

** ***Nostalji*** (yunan mənşəli sözdür, qayıtmaq və ağrı-acı sözlərindən yaranmışdır) - vətən həsrəti, vətən haqqında düşüncələr kimi başa düşülür.

karnavallar, yarmarkalar və s.) kütləvi insan axını olması ilə əlaqədar, gələnlərin bir hissəsi yaxın kəndlərdə yerləşdirilir. Bu da yaşayış probleminin həll olunması ilə yanaşı, şəhərli turistlər üçün kənd ekzotikası*, yəni əlavə zövq deməkdir.

**Kəndli-fermer turizmi** - fəaliyyətdə olan fermaların (ranço**, plantasiya) turizm fəaliyyətinin ayrı-ayrı növlərindən (yerləşdirmə, qidalanma fermada işə cəlb edilmə) əlavə gəlir götürmək məqsədi ilə, özlərində turizm bölmələri yaratmasıdır. Yaşayış müddəti bir neçə gündən başlayaraq, bütöv mövsüm ərzində davam edə bilər. Uşaqlı ailələr, təbiət qoynuna can atan və öz bacarıqlarını kənd təsərrüfatında sınamaq istəyən gənclər, turizmin bu növündən daha çox istifadə edirlər.

**Ekoturizm** - təbiət turizminin xüsusi forması kimi, ətraf mühitə qayğı ilə bağlı turizmdir. İxtisaslaşmış səfərlər adətən, kiçik qruplarla təşkil olunur. Belə səyahətlər zamanı gid-bələdçilər təbiətə məhəbbətlə yanaşmağın, təbii sərvətlərin mühafizəsinin və ətraf mühitin qorunmasının vacibliyini turistlərə izah etməyə səy göstərir. Ekoturizm, bir sıra ölkələrdə turizmin digər növlərinin ayrılmaz hissəsinə çevrilmişdir.

**Xüsusi məqsədli turizm** - ictimai tədbirlərdə iştirak etmək üçün həyata keçirilən səyahətdir. Müxtəlif siyasi partiyaların, fondların, cəmiyyətlərin və digər ictimai təşkilatların keçirdikləri mitinqlər, yürüşlər, nümayişlər, kütləvi çıxışlar və s. belə tədbirlərə aiddir. Turist firmaları bu tədbirlərin təşkilatçıları ilə razılığa əsasən, tədbir iştirakçılarını nəqliyyatla təmin edir, lazım olduqda yerləşdirməyə kömək edir və hətta əlavə xidmətlərin (məişət xidməti və ticarət müəssisələrinin göməyi ilə transparantların, vımpellərin, suvenirlərin və s. əşya və malların hazırlanması və paylanması, folklor qruplarının, mədəniyyət və incəsənət xadimlərinin tədbirə dəvət edilməsi və s.) təşkilində yardımçı olurlar.

**Məqsədli turizm** - müxtəlif kütləvi tədbirlərdə təşkil olunan səyahətdir. Turizmin bu növü, xüsusi məqsədli turizmlə oxşar

---

* ***Ekzotika*** (yunan mənşəli sözdür, xarici, yad mənalarını bildirir) - uzaqda yaşayanlara məxsus xüsusiyyətlər kimi başa düşülür.

** ***Ranço*** (ispan mənşəli sözdür, malikanə sözünə uyğun gəlir) - Latın Amerikası ölkələrində şəhərətrafı malikanə, ABŞ-da heyvandarlıqla məşğul olan ferma.

olsa da, onun əsas məqsədi ictimai missiyaların* deyil, bir qayda olaraq, kommersiya və qeyri-kommersiya tədbirlərində iştirak etmək istəyən ayrı-ayrı vətəndaşların arzusunun yerinə yetirilməsidir. Turist firması, iştirakçının yarmarka, sərgi, konsert, yürüş, festival və s. tədbirlərə gedib qayıtmasını (müəyyən hallarda, eksponatların, mal və avadanlığın daşınmasını) təşkil edir. Çox zaman, qısa müddətə gələn turistləri yerləşdirmək tələb olunmur, amma lazım olduqda, turist firması yaşayış üçün şərait yaratmaqda yardımçı ola bilər. Məsələn, yürüş zamanı turist ləvazimatının kirayəsi və satın alınması, regionlararası və beynəlxalq yarmarkalara gələnlər üçün müxtəlif komfortlu otellərin, qidalanmanın, əyləncə proqramının və s. təşkili.

**Dini turizm** - hər hansı bir dini mərasimlərin, missiyaların, ibadətlərin yerinə yetirilməsi məqsədi ilə həyata keçirilən səyahətdir. Turist firmaları bir qayda olaraq, bu kateqoriyadan olan turistlərə ənənəvi dini marşrutlar üzrə xidmət göstərir. Məsələn, dindarların müqəddəs yerlərə daşınması və müqəddəs ziyarətgahlara yaxın ərazidə yerləşdirilməsi, dini obyektlərə ekskursiyaların təşkili və s. Bir sıra hallarda turist firması ayrı-ayrı vətəndaşların arzusuna əsasən, dini yerlərə marşrut da hazırlaya bilər.

**Ritual** turizm** - qohumların, həlak olan döyüşçülərin məzarlarının ziyarət edilməsi məqsədi ilə həyata keçirilən səyahətdir.

Hərəkət vasitəsi kimi nəqliyyatın hansı növündən istifadə olunmasından asılı olaraq, turizm formalarının aşağıdakı növ müxtəlifliyi vardır:

a) turistin şəxsi nəqliyyatından istifadə etməklə həyata keçirilən turizm;

b) ictimai nəqliyyatdan, daha doğrusu turist təsərrüfat subyektinə məxsus olan və ya icarəyə götürdüyü nəqliyyatdan istifadə etməklə həyata keçirilən turizm. Avtoturizm, karvan, dəniz və çay kruizləri turizmin bu növünə aiddir.

**Karavaninq turizm** - təkərlər üzərində olan kiçik, mobil ev-

---

* ***Missiya*** (latın mənşəli sözdür; göndərmək, göndəriş, tapşırıq mənalarını bildirir) - beynəlxalq tədbirlərdə iştirak edən dövlətin nümayəndə heyəti. Missiya həmçinin nümayəndəlik kimi başa düşülür.

** ***Ritual*** (latın mənşəli sözdür, ayin, mərasim mənalarını daşıyır) - hər hansı bir ayin və mərasimin keçirilməsinin nizama salınmış forması.

lərdə həyata keçirilən səyahətdir. Əsasən məzuniyyət dövründəki səyahətlər zamanı istifadə olunur.

**Su turizmi** - çaylarda, kanallarda, göllərdə, dənizlərdə üzən teploxodda, yaxtada və çay, dəniz gəmilərinin digər növlərində səyahətdir. Turizmin bu növü coğrafi və zaman baxımından çox rəngarəngdir: əsasən yerli əhali üçün nəzərdə tutulan, yaxınlıqdakı su hövzələrinə bir neçə saatlıq və ya bir günlük marşrutlardan başlayaraq, dəniz və okeanlarda çox həftəlik kruizlərə qədər.

**İxtisaslaşmış turizm -** hər hansı bir yerin spesifik xüsusiyyətlərini öyrənmək, fərdi təcrübəsini artırmaq, idman normativlərini yerinə yetirmək, aktiv (fəal) istirahət və digər ixtisaslaşmış tur alan turistləri müəyyən etmək üçün istifadə olunan termindir. İxtisaslaşmış turlarda ərazinin təbii şəraitinin, eyni zamanda səyahətçinin professional və müxtəlif idman-turist maraqları ilə bağlı geniş diapazonlu məsələlərin öyrənilməsinə diqqət verilir. Bu turizmi çox zaman **özfəaliyyət və ya idman turizmi** adlandırırlar.

## Turizm formalarının başqa növləri

**Safari** - ovçuluq və ya fotoovçuluq, balıq ovu, heyvanları müşahidə etmək məqsədi ilə təbiət qoynuna edilən səyahət.

**İdman** - idman tədbirlərində iştirak etmək üçün səyahət. Turist firmalarının xidmətlərindən istifadə etmək üçün idman komandalarının rəhbərləri, azarkeşlər, yarışların təşkilatçıları və tək-tək vətəndaşlar müraciət edirlər.

**Trofi** - avtomobillə müəyyən marşrut üzrə çətin keçilən ərazilərdən təşkil olunmuş superçətin tur.

**Şop** - bazarlıq etmək məqsədi ilə səyahət.

**Müəmmalı (sirli)** - məkanı və məqsədi öncədən elan edilməyən səyahət. Macəra turizminin növlərindən biridir.

**Şəhərətrafı** - məzuniyyət dövründə və ya istirahət günlərində şəhər sakinlərinin şəhərətrafına səyahəti.

**Piyada** - nəqliyyatdan istifadə edilməyən səyahət (turizmin şəhərətrafı, kənd, dini, ritual və s. formalarının növ müxtəlifliyi).

Xatırladaq ki, turizmin bütün növləri bir-biri ilə sıx əlaqəlidir, onların birini digərindən təcrid olunmuş halda, tamamlanmış şə-

kildə təsəvvür etmək mümkün deyil. Məsələn, işgüzar turizmi ekskursiya və ya idman turizmi, etnik turizmi idman və ya dini turizm, məqsədli turizmi rekreasiya və ya sosial turizmlə birləşdirmək olar.

Bununla əlaqədar, turizm təşkilatlarının vəzifəsi, turizmin müxtəlif növlərindən əlaqəli istifadə etmək üçün müştəriyə maksimum imkan yaratmaqdır.

Son illərdə informasiya şəbəkəsinin genişlənməsi nəticəsində alternativ* turizm inkişaf etməyə başlamışdır. Burada səyahətin təşkilatçısı rolununda turist firması deyil, turist xidmətlərini yayan, reklam materiallarından istifadə edərək informasiya şəbəkəsi vasitəsilə bu xidmətləri sifariş edən turist və ya səyahətçi özü çıxış edir.

## 2. 2. Zamana (müddətə) görə turizm növlərinin təsnifatı

Turizm müxtəlif tərzdə təsnif oluna bilər. Ən mühüm əlamətlər - mövsümilik, hadisələrlə bağlılıq və müştərinin səyahətə ayırdığı vaxtdır. Turist regionlarına müntəzəm olaraq, il boyu davam edən turist axını, ***daimi turizm*** adlanır. Turizm formasının bu növ müxtəlifliyi ilk öncə, məşhur sivilizasiya, mədəniyyət və sağlamlıq mərkəzləri üçün - dünyanın məşhur şəhərləri və kurortları, nadir müalicəvi mineral suları və palçığı olan bölgələr üçün səciyyəvidir.

Bir sıra regionlar turistləri əsasən ilin müəyyən mövsümündə özünə cəlb edir. Bu, **mövsümi turizmdir**. İlin yalnız müəyyən aylarında (əsasən yayda və ya qışda) turistlərin gəldikləri regionlar bir mövsümlü, ilin istənilən vaxtı (həm yayda, həm də qışda) gəldikləri regionlar isə iki mövsümlü kimi xarakterizə olunur. Turistlərin regiona gəlişinin intensivlik dərəcəsinə görə: a) **qızğın** (turistlərin ən çox olduğu); b) **sakit** (turistlərin sayının orta səviyyədə olduğu); v) **ölü** (turistlərin ən az olduğu və ya tamamilə olmadığı) mövsümlərə ayırmaq olar.

Səyahət müddətinə görə, turizmi iki hissəyə ayırmaq olar: qısa müddətli və uzun müddətli. **Qısa müddətli** turizmdə səyahət 3 gündən artıq davam etmir. **Uzun müddətli** (davamiyyətli) turizmdə isə səyahət müddəti 3 gündən artıq olur. Səyahətin davamiyyət müddətindən asılı olaraq, turizmin tələbatı da əsaslı

---

* ***Alternativ*** (fransızca hərfi mənası ikisindən biri deməkdir) - bir-birini istisna edən iki, ya daha çox imkandan birini seçmək zərurəti.

surətdə dəyişir.

**Mövsümilik** - turizm biznesində mühüm göstəricidir. İl ərzində turist axınının qeyri - bərabərliyi deməkdir. Turist axını tempinin iki əsas meyarını qeyd etmək olar: səyahətin müəyyən məqsədlərinə turistlərin bağlılığı (kurort, istirahət yerləri) və regionda turist fəallığının mövsümiliyi (məsələn, məzuniyyətlərin və ya işgüzar fəallığın qızğın və azalma dövrü). Səfərin marşrutu və məqsədi, müştərinin özü tərəfindən və ya turagentin köməyi ilə seçilir. Bu zaman mövsüm göstəricisi də nəzərə alınır. Böyük şəhərlərin sakinləri yay məzuniyyəti dövründə şəhəri tərk etməyə və səyahətə çıxmağa səy köstərirlər: bir qism şəxsi bağlara, digərləri kurortlara, üçüncülər isə kruizlərə gedir. Bəziləri sakit, digərləri isə fəal istirahətə üstünlük verirlər. Kim isə sanatoriya-kurort müəssisələrində öz sağlamlığını möhkəmləndirmək, kim isə dəniz sahilində qaralmaq istəyir. Eyni zamanda iri paytaxt şəhərlərinə və onların görməli yerləri ilə tanış olmaq üçün can atan turist axını güclənir.

Turist təşkilatları, mövsümilik amilini nəzərə alaraq, bu və ya digər marşrut üzrə turist tələbatının artıb-azalmasına hazırlıqlı olmalıdırlar. Turizmin inkişaf etdiyi hər bir ölkənin qarşısında dayanan qlobal məsələlərdən biri, qızğın turist mövsümündə gərginliyi nisbətən zəiflətmək, turist axınını maksimum dərəcədə bərabər bölüşdürməkdir. Dövlətin və bu işdə maraqlı tərəf olan turist təşkilatlarının birgə səyi ilə bu problem həll olunur.

Turizmin bir sıra növlərində, səyahətlərin hər hansı bir hadisə ilə bağlılığı, turizm sənayesi işçilərinin bu hadisələrə (xüsusilə, iri miqyaslı hadisələr olduqda) ciddi hazırlığını tələb edir (məsələn, olimpiya oyunları, beynəlxalq yarmarkalar, dini tədbirlər və s.). Turistin səyahətə ayırdığı vaxt məhdudiyyəti obyektiv (məzuniyyət və istirahət günlərinin müddəti) və subyektiv (bir-iki günlüyə «aradan çıxmaq» arzusu) səbəblərə görə müəyyən edilir. Turfirma müştərinin imkanları və arzularına müvafiq olaraq, ayrılmış vaxt məhdudiyyəti və mümkün imkanlar çərçivəsində maraqlı marşrut seçə bilməlidir.

## 2. 3. Müştərinin fərdi sorğusu və maliyyə imkanlarına görə turizm növlərinin təsnifatı

Müştərilərin bir hissəsi öz səyahətləri üçün ənənəvi marşrutlar seçirlər. Təbii ki, fəaliyyətdə olan marşrutlar üzrə kollektiv gedişlər təşkil etmək daha asandır. Amma, fərdi marşrutlara üstünlük verən turistlərin sayı da gündən-günə artmaqdadır.

Müştərilərinin bir hissəsini itirməmək üçün, turagentlər bu kateqoriyadan[*] olan səyahətçilərə də qayğı göstərməlidirlər.

«Müştərinin fərdi sorğusu» əlamətinə görə turagent, müştərinin arzusu kimi aşağıdakı sorğulara hazır olmalıdır:

- Səyahətin marşrutu haqqında: gedəcəyi yerlərin siyahısını, bəzən isə, hətta ardıcıllığını da müştəri özü müəyyən edə bilər;
- Səyahətin vaxtı haqqında: səyahətin konkret vaxtını (müddəti və başlanma vaxtı), ayrı-ayrı məntəqələrdə dayanacaqların arzu olunan müddətini, mümkün olan qısa müddətli tranzit dayanacaqları, müştəri turagentlə razılaşdıra bilər;
- Əyləncə proqramının hazırlanması haqqında: müəyyən hallarda, idman yarışlarına və digər kütləvi tamaşalara bilet alınmasında, turagent müştəriyə kömək edə bilər, səyahətçinin gələcək dayanacaq yerlərində olan müxtəlif əyləncə proqramları barədə informasiya təqdim edə bilər və s.
- Nəqliyyat vasitələrinin (avtomobil, velosiped, qayıq, yaxta, təyyarə və s.), xüsusi ləvazimatların (fototüfəng, su xizəyi, şezlonq, turist çantası, çadır və s.) icarəsi, eyni zamanda yemək rejiminə və ya pəhrizə fərdi tələbə uyğun olaraq qidalanmanın təşkili, arzu edilən komfort səviyyəsinə uyğun olaraq yaşayış yerlərinin ayrılması və s. kimi əlavə xidmətlər.

Müştərinin maliyyə imkanları çox hallarda gələcək səyahət marşrutunu müəyyənləşdirir, eyni zamanda hərəkət vasitəsinin seçiminə, komfortun səviyyəsinə və s. təsir göstərir.

Bundan başqa, müştərinin maliyyə vəziyyəti səyahətin növünə də təsir edə bilər. Bu əlamətə görə turizmin aşağıdakı növlərini ayırmaq olar:

**Qrup halında, işlənilmiş marşrutlar üzrə** - digər bərabər şərtlər daxilində səyahətin daha ucuz forması. Ucuzluq, iki və daha çox adam olan turist qruplarına olan güzəştli endirimlə izah olunur (qrupda turistlərin sayı artdıqca, güzəştin miqdarı da artır). Turist firmasının ənənəvi marşrutları seçildiyi təqdirdə də qiymətlər aşağı salına bilər (nəqliyyat, iaşə, yerləşdirmə müəssisələrinin verdiyi güzəştlər hesabına, turfirma tərəfindən aşağı salınan endirimlər).

**Fərdi, işlənməmiş marşrutlar üzrə** - səyahətin nisbətən bahalı növüdür. Belə səyahətlərin sənədləşdirilməsi və təşkili

---

[*] ***Kateqoriya*** (yunan mənşəli sözdür, mülahizə, ittiham, əlamət mənalarını daşıyır) - insan onu əhatə edən aləmi kateqoriyalar vasitəsilə dərk edir.

zamanı, qrup üçün verilən güzəştlər nəzərdə tutulmur.

**Fərdi marşrutlar üzrə qrup halında** - qrupun optimal sayı toplandığı təqdirdə (məsələn turist avtobusundakı yerlər tam satıldıqda) və ənənəvi istirahət yerləri fərdi marşrutlara daxil edildikdə güzəştlər verilə bilər.

**Fərdi marşrutlar üzrə, fərdi halda** - səyahətin ən bahalı formasıdır, yuxarıda qeyd edilən endirim güzəştlərin heç biri bu səyahətlərə şamil edilmir. Səyahətin miqyasından asılı olaraq, müstəsna hallarda müştəriyə güzəşt edilə bilər, məsələn hər hansı bir oteldə qalma müddəti nə qədər çox olarsa, otel sahibi tərəfindən uyğun olaraq qiymətlər aşağı salına bilər.

Üçüncü minilliyin əvvəllərində turizmin yeni sahəsi - **kosmik turizm** meydana gəlmişdir. İnsanlar öz maraq dairələrini daha da genişləndirmək, əvvəllər onlara məlum olmayan yeni hiss və duyğular keçirmək məqsədilə çox baha qiymətə başa gələn kosmik səfərlərdə iştirak etməyə can atırlar. 2001-ci ilin aprelində kosmosa uçmuş ilk turist, ABŞ vətəndaşı Denis Titoya "kosmik turist xidmətləri" 20 mln. dollara başa gəlib. Bu hadisədən 3 ay keçməmiş CAR vətəndaşı Mark Şattluort Rusiya Federasiyasının Aviasiya Kosmik Agentliyinə yazılı şəkildə müraciət edib kosmosa kommersiya uçuşunda iştirak etmək, başqa sözlə, ikinci kosmik turist olmaq arzusunu bildirib. O, artıq kosmonavtlarla bərabər bir aylıq xüsusi təlim-məşq də keçib.

Kosmik turbiznesi inkişaf yollarındadır. Rusiyanın kosmonavtlar hazırlayan mərkəzi "Kosmik macəralar" adlı teleşou keçirmək barədə Avstraliya və ABŞ-la müqavilə imzalayıb. Bu uçuşa 13 ölkədən 26 nəfər hazırlaşır[1].

### 2.4. Turist marşrutları

İstənilən hər hansı bir səyahətin (müvəqqəti qalma, səfər etmə, turlar) öncədən seçilmiş marşrutu, gecələmək proqramı, müəyyən davamiyyəti və məqsədi olur.

**Marşrut** - siyahı üzrə qeyd olunmuş bütün coğrafi məntəqələrə və yerlərə gedilməsi nəzərdə tutulan və səyahət müddətində dayanacaqdan - dayanacağa qədər turistlər tərəfindən

[1] "Итоги" журналы, №48, 2001. Москва.

gedilən yoldur. Səyahətin başlanğıcı və sonu marşrutun çıxış və son nöqtələri hesab olunur. Marşrutun başlanğıcı - müqavilədə nəzərdə tutulduğu kimi, turistə ilk, sonu isə axırıncı turist xidməti göstərilən məntəqədir.

Marşrut üzrə gedilən istiqamətdə yerdəyişmədən asılı olaraq, **marşrutun xətti, dairəvi, radial** (radius istiqamətli) və **kombinasiyalı** (quraşdırılmış) növləri vardır.

**Xətti marşrut** - başlanğıcı və sonu müxtəlif coğrafi məntəqələrdə olan marşrut, məsələn, Bakı-Şamaxı-Şəki-Tbilisi (şəkil 1).




**Şəkil 1**

**Dairəvi marşrut** - başlanğıcı və sonu eyni coğrafi məntəqədə olan marşrut, məsələn «Türkiyə turu» (İstanbul-Bursa-İzmir-Quşadası-Pamukqala-İstanbul) (şəkil 2).




**Şəkil 2**

**Radial marşrut** - başlanğıcı və sonu eyni coğrafi məntəqədə olan marşrut. Dairəvi marşrutdan fərqli olaraq, başlanğıc nöqtəsində yerləşən turist, həmin nöqtədən müxtəlif istiqamətlərə səyahət edərək yenidən başlanğıc məntəqəsinə qayıdır. Məsələn, Bakı-Şamaxı-Bakı, Bakı-Gəncə-Bakı, Bakı-Şəki-Bakı, Bakı-Nabran-Bakı (şəkil 3).






**Şəkil 3**

**Kombinasiyalı marşrut** - Xətti, dairəvi və radial marşrut elementlərinin ixtiyari kombinasiyasını özündə birləşdirən marşrut. Məsələn, Bakı-Şəki-Qəbələ-Şəki-Zaqatala-Qax-Zaqatala-Tbilisi şəkil 4).




**Şəkil 4**

Marşrut üzrə hərəkət zamanı, marşrut daxili adlanan müxtəlif nəqliyyat vasitələrindən istifadə edilə bilər.

**Turist səyahətinin proqramı** - marşrutdakı dayanacaq məntəqələrində, mehmanxanalarda qalmanın tarixi və müddəti göstərilən, turistlər üçün maraqlı yerlərə gedilməsi (ekskursiyalar) qidalanma, proqramda nəzərdə tutulan nəqliyyat vasitələrinin köməyi ilə yerdəyişmə və s. qeyd edilən tədbirlər planı. Müvəqqəti qalma proqramı, müqavilədə nəzərdə tutulmuş və səyahətçiyə satılan turist xidmətlərinin reallaşma planıdır. Turistə, onun olduğu yerlərdə pulu ayrıca ödənilmək şərti ilə və özünün şəxsi məsuliyyəti zəminində əlavə xidmətlər göstərilə bi-

lər (əgər müqavilədə belə xidmətlər nəzərdə tutulmayıbsa).

Müvəqqəti qalmanın və ya səfərin müddəti mühüm statistik göstərici kimi son həddin müəyyən edilməsində əsas rol oynayır və bu müddət başa çatdıqdan sonra, səfər artıq turist səyahəti hesab olunmur. Beynəlxalq qaydalara görə turist səyahətinin maksimal müddəti - bir ildir. Azərbaycan Respublikasının qanunvericiliyində də bu müddət - 12 aya qədər nəzərdə tutulmuşdur. Müvəqqəti qalmanın və səyahətin minimum müddəti - bir sutkadır. Turistlər və ekskursiyaçılar arasında zaman ölçüsü də mövcuddur. Səyahətin müddəti aşağıdakı kimi hesablanır:

Bir günlük səfər üçün - **səfərdə olan saatların cəmi ilə.**

Müvəqqəti qalmada - **gecələrin miqdarı ilə.**

Beynəlxalq turizmdə səyahətlərin davamiyyəti zamanla (saat və ya gecələmə) getdiyi ölkədə yaşama müddəti ilə (getmə turizmi) və ya daimi yaşayış yerindən kənarda olduğu müddətlə (daxili turizm) hesablanır.

# FƏSİL 3.

## DÜNYA İQTİSADİYYATINDA BEYNƏLXALQ TURİZMİN YERİ VƏ ROLU

**Turizm** - təsərrüfat fəaliyyətinin mühüm sahəsi, dövlətlər arası iqtisadi əməkdaşlığın formalarından biridir. Beynəlxalq turizmə, yalnız sülhün möhkəmləndirilməsi və xalqlar arasında mədəni əlaqələrin genişlənməsi roluna görə müasir həyatda gözəçarpan amil kimi baxmaq olmaz. O, həmçinin mühüm iqtisadi amil kimi bütün dünyada sürətlə inkişaf edən və «Turizm sənayesi» adlanan xidmət sahəsidir.

Son illərdə, beynəlxalq turizmin yüksək sürətlə inkişafı müşahidə olunur. Turizmdən əldə edilən valyutanın miqdarı da daim artır. Məsələn, 1939-cu ildə dünya üzrə xarici turizmdən 1 mlrd, 1950-ci ildə 2,1 mlrd., 1971-ci ildə 19,9 mlrd., 2000-ci ildə isə 500 mlrd. dollardan artıq gəlir əldə edilmişdir. İnkişaf sürətinə görə turizm iqtisadiyyatın əksər sahələrini üstələyir hazırda o, yaratdığı kəlirə körə, neft və neft məhsulları ticarəti və avtomobil satışından sonra dünyada 3-cü yeri tutur.

ÜTT-nın 2000-ci ilə olan məlumatına görə, bütün dünyada turizm və səyahətlər sahəsində 260 mln.-dan çox adam çalışır. Bu sahənin illik tədavül həcmi isə, 3,8 trln. ABŞ dolları təşkil edir. Dünya milli məhsulunun 10, investisiyalarının 11 faizi, hər 16 işçi yerindən biri, dünya istehlak xərclərinin 11 faizi turizm sahəsinin payına düşür. Bu rəqəmlər, dünya turizm sənayesinin fəaliyyətinin birbaşa iqtisadi effektliyi ilə izah olunur, Turizm sənayesinin inkişaf meylləri ilə ümumi iqtisadi, texniki və sosial nailiyyətlər arasında birbaşa əlaqə vardır.

Dünyanın inkişaf etmiş sənaye ölkələrində həyat səviyyəsinin yüksəlməsi, işçilərin məzuniyyət müddətlərinin artmasına, təqaüd təminatının yüksəlməsinə doğru aparır. Bu da öz növbəsində turizmin inkişafına müsbət təsir göstərir.

Turizm baxımından bütün ölkələr iki qrupa bölünür: - **turist tədarükçüsü olan dövlətlər** (yəni turist göndərən ölkələr) və **turist qəbul edən ölkələr**. Birincilərə - ABŞ, Almaniya, Böyük Britaniya, Belçika, Danimarka və s., ikincilərə - Fransa, ABŞ, İspaniya, İtaliya, Yunanıstan, Polşa, Türkiyə və s. aid edilə bilər.

ÜTT-nın statistikası göstərir ki, son illərdə beynəlxalq səyahətlər və bu sahədən əldə olunan gəlirlər, dünyanın bütün regionlarında artmışdır (bax, cədvəl 2).

**Cədvəl 2**

**Dünya regionları üzrə beynəlxalq turistlərin hərəkəti (mln. nəfərlə)**

| Dünya üzrə | 1985 | 1990 | 1995 | 1998 | 1999 | 2000* |
|---|---|---|---|---|---|---|
| | 327,2 | 458,2 | 567,4 | 636,7 | 656,9 | 698 |
| **Afrika** | **9,7** | **15,1** | **20,3** | **25,0** | **27,3** | |
| Şərqi Afrika | 1,8 | 2,9 | 4,8 | 5,8 | | |
| Mərkəzi Afrika | 0,3 | 0,4 | 0,3 | 0,5 | | |
| Şimali Afrika | 5,2 | 8,3 | 7,3 | 8,7 | | |
| Cənubi Afrika | 1,3 | 2,0 | 5,9 | 7,7 | | |
| Qərbi Afrika | 1,1 | 1,5 | 2,0 | 2,5 | | |
| **Amerika** | **64,3** | **93,6** | **109,7** | **122,0** | **126,7** | |
| Karib hövzəsi | 8,0 | 11,4 | 14,1 | 16,0 | 16,4 | |
| Mərkəzi Amerika | 1,2 | 1,7 | 1,6 | 3,4 | 4,2 | |
| Şimali Amerika | 48,3 | 71,6 | 80,5 | 85,0 | 86,8 | |
| Cənubi Amerika | 6,8 | 8,7 | 13,5 | 17,5 | 19,3 | |
| **Asiya-Sakit okean regionu** | **31,1** | **54,7** | **81,4** | **87,1** | **93,7** | |
| Şimali-Şərqi Asiya | 17,9 | 28,0 | | 49,6 | 53,7 | |
| Cənubi-Şərqi Asiya | 10,3 | 21,5 | 29,2 | 29,2 | 31,4 | |
| Okeaniya | 2,9 | 5,2 | 8,1 | 8,3 | 8,6 | |
| **Avropa** | **212,1** | **282,8** | **338,5** | **382,0** | **385,9** | |
| Mərkəzi və Şərqi Avropa | 26,8 | 43,8 | 78,9 | 83,9 | 81,3 | |
| Şimali Avropa | 24,2 | 29,1 | 37,6 | 41,4 | 41,8 | |
| Cənubi Avropa | 71,6 | 88,7 | 93,7 | 112,2 | 117,5 | |
| Qərbi Avropa | 85,2 | 113,8 | 116,7 | 131,4 | 133,9 | |
| Şərqi Aralıq dəniz bölgəsi | 4,3 | 7,4 | 11,4 | 13,1 | 11,4 | |
| **Yaxın Şərq** | **7,5** | **9,0** | **12,4** | **15,3** | **18,0** | |
| **Cənubi Asiya** | **2,5** | **3,2** | **4,2** | **5,2** | **5,4** | |

ÜTT-nin ekspertləri, turizmin inkişaf meylləri ilə ölkə iqtisa-

* Kitab çap olunan ərəfədə cədvəldə göstərilən regionlar üzrə 2000-ci il üçün rəsmi statistik məlumatlar dərc olunmamışdır.

diyyatının ümumi vəziyyəti arasında bilavasitə əlaqə olduğunu qeyd edirlər. Səyahətin dinamikası, iqtisadiyyatın yüksəliş vəziyyətində olması və ya enməyə doğru getməsinə çox həssasdır. Turizm sənayesində, «görünən» və «görünməyən» ticarət, «görünən» və «görünməyən» ixrac və idxal anlayışları da mövcuddur.

«Görünən» ticarət, hazır məhsul və xammal kimi maddi məhsulların ixrac və idxalı ilə əlaqədardır. Bu zaman ölkənin ticarət balansı, görünən ixrac qiyməti ilə idxal qiyməti arasındakı fərqlə ölçülür. Görünməyən ticarət isə xidmət sahəsinin idxal və ixracı ilə əlaqədardır. Turist xidmətinin görünməyən ixrac gəlirinin böyük hissəsi ölkəyə gələn xarici turistlərdən əldə olunur.

Ölkənin "görünməyən" idxalı, həmin ölkə vətəndaşlarının xarici səfərlər zamanı xərclədikləri pul, getdikləri ölkələrdə nəqliyyat və digər xərclərin ödənilməsi, eyni zamanda turizmin xarici investorlarlarına* ödənilən dividendləridir**.

Məhsulların, mal və xidmətlərin ixracı (o cümlədən, məhsul, mal və xidmətlərin ölkəyə gələn xarici turistlər tərəfindən alınması) ölkənin gəlirini təmin edir. Başqa ölkələrdən məhsulların, malların və xidmətlərin idxalı üçün verilən ödənişlər, həmin ölkənin xərclərini (o cümlədən, xarici səfərdə olarkən həmin ölkə vətəndaşları tərəfindən məhsulların, malların və xidmətlərin alınması) təşkil edir.

Ölkənin ixracatdan (görünən və görünməyən) əldə olunan gəliri ilə idxalın məbləği arasındakı fərq, **ödəniş balansı** adlanır. Ödəniş balansı mənfi (defisit) və müsbət ola bilər. Böyük defisit zamanı, ölkədən pul ehtiyatlarının azalması baş verir (bax 3, 4, 5 saylı cədvəllərə).

---

* ***İnvestisiya*** (alman mənşəli sözdür, geyindirirəm mənasını bildirir) - mənfəət qazanmaq məqsədilə həm ölkə daxilində, həm də xaricdə təsərrüfatın müxtəlif sahələrinə uzunmüddətli əsaslı vəsait (kapital) qoyuluşu.

** ***Dividend*** (latın mənşəli sözdür, bölünməli olan şey mənasını daşıyır) - əldə edilən mənfəətin bölüşdürülən hissəsi kimi başa düşülür.

**Cədvəl 3**

## Müsbət saldolu turist balansı olan 10 ölkə (mln. ABŞ dolları ilə)

| | Ölkələr | Gəlir | Xərc | Saldo[***] |
|---|---|---|---|---|
| 1 | İspaniya | 25892,2 | 4620,7 | 21271,5 |
| 2 | İtaliya | 28245,2 | 12681,5 | 15563,7 |
| 3 | ABŞ | 64374,0 | 52567,0 | 11807,0 |
| 4 | Fransa | 28181,3 | 17505,0 | 10676,3 |
| 5 | Türkiyə | 6000,0 | 1108,0 | 4820,0 |
| 6 | Meksika | 6897,0 | 3335,7 | 3561,3 |
| 7 | Yunanıstan | 3684,1 | 1176,8 | 2507,3 |
| 8 | Portuqaliya | 4325,2 | 2321,5 | 2003,7 |
| 9 | Avstriya | 13821,5 | 12104,9 | 1716,6 |
| 10 | Macarıstan | 2260,1 | 930,2 | 1329,9 |

**Cədvəl 4**

## Mənfi saldolu turist balansı olan 10 ölkə (mln. ABŞ dolları ilə)

| | Ölkələr | Xərc | Gəlir | Saldo |
|---|---|---|---|---|
| 1 | Almaniya | 49557,5 | 15787,5 | 33770,0 |
| 2 | Yaponiya | 37977,4 | 4281,0 | 33696,4 |
| 3 | Böyük Britaniya | 25046,1 | 20019,7 | 5026,4 |
| 4 | Niderland | 11112,0 | 6144,3 | 4967,7 |
| 5 | Belçika-Lüksemburq | 9038,1 | 6593,7 | 3444,4 |
| 6 | İsveç | 6263,8 | 3674,0 | 2589,8 |
| 7 | Kanada | 11168,2 | 8811,3 | 2356,9 |
| 8 | Norveç | 4144,6 | 2342,6 | 1802,0 |
| 9 | Danimarka | 4141,9 | 3425,0 | 716,9 |
| 10 | Finlandiya | 2366,4 | 1673,9 | 692,5 |

[***] ***Saldo*** (italyan mənşəli sözdür, hesablaşma, qalıq mənalarında işlədilir) - xarici ticarət münasibətlərində idxalat və ixracatın cəmləri arasındakı фярг.

**Cədvəl 5**

## Turist dövriyyəsinin həcminə görə 10 ölkənin düzülüşü (mln. ABŞ dolları ilə)

| | Ölkələr | Gəlir | Xərc | Dövriyyə |
|---|---|---|---|---|
| 1 | ABŞ | 64374,0 | 52567,0 | 116941,0 |
| 2 | Almaniya | 15787,5 | 49577,0 | 65364,5 |
| 3 | Fransa | 28181,3 | 17505,0 | 45686,3 |
| 4 | Böyük Britaniya | 20019,7 | 25046,1 | 45065,8 |
| 5 | Yaponiya | 4281,0 | 37997,4 | 42278,4 |
| 6 | İtaliya | 28245,2 | 12681,5 | 40926,7 |
| 7 | İspaniya | 25892,2 | 4620,7 | 30512,9 |
| 8 | Avstriya | 13821,5 | 12104,9 | 25926,4 |
| 9 | Kanada | 8811,3 | 11168,2 | 19979,5 |
| 10 | İsveçrə | 8723,2 | 7789,6 | 16512,8 |

**Qeyd. 3, 4 və 5 saylı cədvəllərdəki rəqəmlər 1996-cı ildəki vəziyyəti əks etdirir.**

Ona görə də, yalnız kiçik ölkələr deyil, ABŞ, Almaniya və Böyük Britaniya kimi ölkələr də turizmdən gələn gəliri artırmağa çalışır, öz ölkələrinə xarici turistlərin cəlb olunması üçün ciddi səy göstərirlər. Amma gəldiyi ölkədə turistlər tərəfindən xərclənən bütün pullar həmin ölkənin ödəniş balansını avtomatik olaraq artırmır. Turistləri qəbul edən tərəfin çəkdiyi xərclər dünya təcrübəsinə məlumdur. Bu ilk növbədə xarici turizm şirkətləri tərəfindən alınan əşya və mallardır, o cümlədən mehmanxanaların tikintisinə sərf olunan materiallar, mehmanxanalara məxsus olan avadanlıqlar, mebel və idman ləvazimatından başlayaraq, yeyinti məhsulları, içki və suvenirlərə qədər.

Xarici turistlərin qəbulunun artması, yerli infrastrukturun* -

* ***İnfrastruktur*** (latın mənşəli sözdür, aşağı struktur, aşağı mövqe mənalarını daşıyır) - sənaye və kənd təsərrüfatı istehsalına xidmət edən köməkçi təsərrü-

su, elektrik enerjisi, kanalizasiya, zibilin yığılması, yol, nəqliyyat, rabitə, təhlükəsizlik xidməti işinin əlavə yüklənməsinə səbəb olur. Bununla əlaqədar aeroportların, vağzalların, dəniz və ya çay portlarının, mehmanxanaların, yolların və s. genişləndirilməsi və inkişaf etdirilməsinin zəruriliyi də meydana çıxır. Bunun üçün isə, iri həcmli vəsaitlərin yatırımı lazımdır. Turizm sənayesini inkişaf etdirən ölkələrdə, bu bir qayda olaraq, xarici investorların hesabına edilir.

Xarici investorları cəlb edən ölkə, öz gəlirinin bir hissəsini həmin investora qaytarmalı olur. Bir sıra ölkələrdə turizmin inkişafı, əcnəbi mövsümi işçilərin cəlb olunmasına, o cümlədən əlavə valyuta xərclənməsinə və yerli xidmət sahələrinin yüklənməsinə səbəb olur.

Son nəticədə «turizm» bəndi üzrə davamlı müsbət ödəniş balansını təmin etmək üçün, dövlətin gəlmə turizmindən əldə etdiyi gəlir, qəbul üçün sərf olunan xərclərə, o cümlədən investor ölkəyə borcun qaytarılması, mehmanxanaların, yolların, aeroportların, rabitə vasitələrinin tikintisinə və abadlaşdırılmasına, xarici turistlər üçün komfort şəraitin yaradılması məqsədi ilə personalın hazırlığına və s. sərf olunan xərclərlə uzlaşdırılmalıdır.

Aşağıda göstərilən 6 saylı cədvəldə, xidmət göstərilmiş turistlərin sayına və beynəlxalq turizmdən alınan gəlirə görə dünyanın 20 aparıcı ölkəsinin reytinqi[**] verilmişdir.

**Cədvəl 6**

### Xidmət göstərilmiş turistlərin sayına və əldə olunan gəlirə görə dünyanın aparıcı dövlətləri

| Reytinq | | | Ölkə | gələn turistlərin sayı, min nəfərlə | dünya turizm bazarında payı % | turizm fəaliyyətindən alınan gəlir (mln. doll.) | dünya turizm bazarında payı % |
|---|---|---|---|---|---|---|---|
| 1990 | 1995 | 1998 | | | | | |

fat sahələri (yol, port, anbar tikililəri, enerji və su təchizatı, internet şəbəkəsi və s.).

[**] ***Reytinq*** (ingilis mənşəli sözdür, vəziyyəti qiymətləndirmək mənasında başa düşülür) - hər hansı bir nailiyyətin qiymətləndirilməsinin fərdi rəqəm göstəricisi.

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 1 | 1 | 1 | Fransa | 70000 | 11,2 | 29700 | 6,7 |
| 3 | 3 | 2 | İspaniya | 47143 | 7,6 | 29585 | 6,7 |
| 2 | 2 | 3 | ABŞ | 47127 | 7,5 | 74240 | 16,6 |
| 4 | 4 | 4 | İtaliya | 34829 | 5,6 | 30427 | 6,8 |
| 7 | 5 | 5 | Böyük Britaniya | 25475 | 4,1 | 21295 | 4,8 |
| 12 | 8 | 6 | Çin | 24000 | 3,8 | 12500 | 2,8 |
| 8 | 7 | 7 | Meksika | 19300 | 3,1 | 7850 | 1,8 |
| 27 | 9 | 8 | Polşa | 18820 | 3,0 | 8400 | 1,9 |
| 10 | 11 | 9 | Kanada | 18659 | 2,8 | 9133 | 2,1 |
| 6 | 10 | 10 | Avstriya | 17282 | 2,6 | 12164 | 2,7 |
| 9 | 13 | 11 | Almaniya | 16504 | 2,6 | 16840 | 3,8 |
| 16 | 12 | 12 | Çexiya | 16325 | 2,6 | 3509 | 0,8 |
| 17 | 18 | 13 | Rusiya | 15810 | 2,5 | 7104 | 1,6 |
| 5 | 6 | 14 | Macarıstan | 14660 | 2,3 | 2568 | 0,6 |
| 14 | 17 | 15 | Portuqaliya | 11800 | 1,9 | 4772 | 1,1 |
| 13 | 16 | 16 | Yunanıstan | 11077 | 1,8 | 3925 | 0,9 |
| 11 | 14 | 17 | İsveç | 11025 | 1,8 | 3755 | 0,8 |
| 19 | 15 | 18 | Honkonq | 9600 | 1,5 | 7114 | 1,6 |
| 24 | 20 | 19 | Türkiyə | 9200 | 1,5 | 8300 | 1,9 |
| 21 | 21 | 20 | Tayland | 7720 | 1,2 | 3231 | 0,7 |
| **Dünya üzrə** | | | | **625,236** | **100,0** | **444,741** | **100,0** |

ÜTT-nın ekspertlərinin proqnozuna görə, dünya turizm sənayesi, səyahətlər və ekskursiyaların həcminin daim genişlənməsi, qəbulu ilə məşğul olan ölkələr arasında rəqabətin artması dövrünə qədəm qoyur.

Xarici turizm bir sıra ölkələrin ödəniş balansında sabit-

ləşdirici rol oynayır. Əsasən kənd təsərrüfatı məhsullarının satışı (bu isə çox zaman bazardakı qiymət dəyişkənliyindən asılıdır) ilə məşğul olan, inkişaf etməkdə olan ölkələr üçün xarici turizmdən əldə olunan gəlir mühüm əhəmiyyət kəsb edir. Ona görə də əsas turist axınından kənarda qalan, inkişaf etməkdə olan ölkələr, xarici turizmin inkişafına böyük ümidlər bəsləyirlər. Ödəniş balansının vəziyyətinə xarici turizmin təsirini təhlil edərkən, xarici turistlərin gəldikləri ölkədə suvenir, geyim, ərzaq məhsulları və s. aldıqlarını da nəzərə almaq lazımdır. Bunlar isə turizm balansında əks etdirilmir.

Xarici turistlər tərəfindən gəldikləri ölkədə suvenir və digər malların alınmasına, xarici ticarət əməliyyatlarının sərfəli forması kimi baxmaq olar, çünki belə satış, həmin malların daxili bazarda sərfəli qiymətlərlə satılması deməkdir. Məsələn, xarici turistlər Yaponiyada - elektron-məişət cihazları, İsveçrədə - saat, Fransada - ətriyyat malları və gözəllik salonlarının məhsullarını, İtaliyada - ayaqqabı, Böyük Britaniyada - viski və s. almağa üstünlük verirlər.

Beynəlxalq turizmin yaxın illərdə, beynəlxalq xidmətlər siyahısında daha yüksək yer tutması gözlənilir. Mütəxəsislərin fikrincə 2020-ci il ərəfəsində səyahət edənlərin sayının 1,6 mlrd. nəfərə çatması güman edilir.

**Cədvəl 7**

**1950-1999-cu illərdə turist qəbulu və dünya turizm biznesindəki payına görə ölkələrin reytinqi**

| | 1950 | | 1970 | | 1990 | | 1999 | |
|---|---|---|---|---|---|---|---|---|
| 1. | ABŞ | 71 % | İtaliya | 43% | Fransa | 38% | Fransa | 35% |
| 2. | Kanada | | Kanada | | ABŞ | | İspaniya | |
| 3. | İtaliya | | Fransa | | İspaniya | | ABŞ | |
| 4. | Fransa | | İspaniya | | İtaliya | | İtaliya | |
| 5. | İsveçrə | | ABŞ | | Macarıstan | | Çin | |
| 6. | İrlandiya | 17% | Avstriya | 22% | Avstriya | 19% | Böyük Britaniya | 15% |
| 7. | Avstriya | | Almaniya | | Çin | | Meksika | |
| 8. | İspaniya | | İsveçrə | | Meksika | | Kanada | |
| 9. | Almaniya | | Yuqoslaviya | | Almaniya | | Polşa | |
| 10. | Böyük Britaniya | | Böyük Britaniya | | Kanada | | Avstriya | |
| 11. | Norveç | 9 % | Macarıstan | 0 | İsveçrə | 0 | Almaniya | 2 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 12. | Argentina | | Çexoslova-kiya | | Böyük Britaniya | | Rusiya | |
| 13. | Meksika | | Belçika | | Yunanıstan | | Yunanıstan | |
| 14. | Niderland | | Bolqarıstan | | Portuqaliya | | Macarıstan | |
| 15. | Danimarka | | Rumıniya | | Malayziya | | Portuqaliya | |
| | Qalan ölkələr | 3% | | 2[illegible] % | | 3[illegible] % | | 3[illegible] % |
| **cəmi mln. nəfər** | **25,3** | **100%** | **165,8** | **100%** | **458,2** | **100%** | **656,9** | **100%** |

Beynəlxalq turizmin inkişafı, ilk növbədə istehsal qüvvələrinin (o cümlədən kütləvi turist səyahətlərinin təşkilinə keçid üçün imkan yaradan yeni nəqliyyat vasitələrinin istehsalı) inkişafının, həmçinin beynəlxalq iqtisadi və mədəni əlaqələrin möhkəmlənməsinin təzahürüdür.

Müasir həyat və əmək ritmində istirahət üçün ayrılan xərclər, xüsusilə də səyahətlərlə bağlı olan xərclər həyat üçün zəruri olan ilk növbəli xərclər siyahısına daxil olur. Belə ki, sənayecə inkişaf etmiş ölkələrdə əhalinin istirahətə və təhsilə ayırdığı xərclər ümumi istehlak xərclərinin 18 faizini təşkil etməklə ərzaq məhsullarının alınmasına sərf edilən xərcləri üstələyir və hətta geyim, ayaqqabı və s. ümdə xərclərdən 2-3 dəfə artıqdır.

ÜTT-nın göstəricilərinə görə turizmə və ərzaq məhsullarına tələbat, rədd edilməsi mümkün olmayan zərurətdir. İnsanlar yeni soyuducu, televizor və ya yeni pal-paltar almaqdan imtina edərək, bu xərcləri maraqlı turist səyahətlərinə yönəltməyə üstünlük verirlər.

Beynəlxalq turizmin inkişafının sosial - iqtisadi zəmininin müsbət tərəflərini deməklə yanaşı, onun yüksəlişinə əngəl törədən amillər üzərində də dayanmaq lazımdır. İqtisadi böhranlar, inflyasiyalar*, işsizliyin artması, mal tədavülü şərtlərinin pozulması, təbii və əmək ehtiyatlarından istifadənin düzgün planlaşdırılmaması belə amillərdəndir. Turizmin artımı, əhalinin xərclərində struktur irəliləyişlərin təzahürüdür və fərdi tələbatın ümumi dinamikasından birbaşa asılıdır.

Ona görə də fərdi tələbat həcminin ixtisarına səbəb olan

* ***İnflyasiya*** (latın mənşəli sözdür, hədsiz artırılma, şişmə mənalarını daşıyır) - pulun qiymətdən düşməsi kimi başa düşülür.

1974-1975-ci illərdəki iqtisadi böhran, turist fəallığının da ixtisarına səbəb olmuşdu. 1974-cü ildə turizmin son dövrdə ilk dəfə olaraq zəiflədiyi müşahidə olunmuşdur. Yanacaq xərclərinin artması, nəqliyyat xərclərinin üstünlük təşkil etdiyi uzaq məsafələrə səfərlərin azalmasına gətirib çıxarmışdır. Buna baxmayaq xarici turistlərin ümumi sayı az da olsa artırdı. Bu onunla izah olunur ki, son illərdə hətta iqtisadi çətinliklərin artdığı şəraitdə belə, səfərlər ilk növbədə istehlak tələbatına çevrilmişdir.

İnflyasiyanın artımı bir sıra hallarda, məsələn valyuta dəyişmə kurslarının sərfəli olduğu ölkələrə turist səfərlərinin çoxalmasına səbəb olan amil ola bilər Beləliklə, turizm iqtisadi böhranın təsirini, digər iqtisadi sahələrə nisbətən daha az hiss edir, inflyasiya isə müəyyən qısa dövr ərzində onun inkişafına mane ola bilər.

**Cədvəl 8***

**Beynəlxalq turist səfərləri (getmə turizmi)**

| Reytinq | | | Ölkələr | 1995 | 1997 | 1999 |
|---|---|---|---|---|---|---|
| 1995 | 1997 | 1999 | | min nəfər | | |
| 1 | 1 | 1 | Almaniya | 51562 | 55800 | 73400 |
| 2 | 2 | 2 | ABŞ | 50763 | 52944 | 58386 |
| 5 | 3 | 3 | Polşa | 36387 | 48610 | 55097 |
| 4 | 5 | 4 | Böyük Britaniya | 41345 | 45957 | 53881 |
| 3 | 4 | 5 | Çexiya | 44873 | 46070 | 39977 |
| 7 | 6 | 6 | Malayziya | 20642 | 26165 | 26067 |
| 10 | 8 | 7 | İtaliya | 15991 | 19078 | 18962 |
| 9 | 7 | 8 | Kanada | 18206 | 19111 | 18368 |
| 8 | 9 | 9 | Fransa | 18686 | 17115 | 16709 |
| 11 | 10 | 10 | Yaponiya | 15298 | 16803 | 16358 |
| 13 | 11 | 11 | Niderland | 12320 | 12860 | 14180 |
| 6 | 14 | 12 | Rusiya | 21331 | 11182 | 12631 |
| 14 | 12 | 13 | İsveçrə | 11148 | 12515 | 12009 |
| 12 | 13 | 14 | Macarıstan | 13083 | 12173 | 10622 |
| 15 | 15 | 15 | İsveç | 10127 | 10818 | 10500 |
| 16 | 17 | 16 | Meksika | 8450 | 8910 | 10352 |
| 20 | 20 | 17 | Çin | 4520 | 5324 | 9232 |
| 19 | 18 | 18 | Belçika | 5645 | 7773 | 7920 |
| 17 | 16 | 19 | Ukrayna | 6660 | 10074 | 7399 |
| 18 | 19 | 20 | Rumıniya | 5737 | 6243 | 6274 |

* Compendium of Tourism Statistics. WTO, Madrid, 2001.

## 3. 1. Turizmin «qeyri-turizm» sahələrinə təsiri

Beynəlxalq turizmin inkişafı, aeroportların, yolların, mağazaların, kinoteatrların tikintisinə və modernləşdirilməsinə, şəhərlərin abadlaşdırılmasına, abidələrin, meşə massivlərinin bərpa edilməsinə, su hovuzlarının təmizlənməsinə və s. təkan verir. Turizmlə ənənəvi əlaqəsi olan sahələrdən əlavə, iqtisadiyyatın mühüm sahələri olan nəqliyyat, yeyinti, toxuculuq, ayaqqabı və digər sənaye sahələrinə də təsir göstərir. Məsələn, mehmanxanaların tikintisinə sərf olunan kapital qoyuluşu, tikinti sənayesinin ümumi inkişafını stimullaşdırır. Tikinti sənayesinin inkişafı isə öz növbəsində bir çox sahələrin, ilk növbədə sement istehsalının inkişafına təsir göstərir.

Xarici turizm, yeyinti sənayesinin inkişafına da gözə çarpan dərəcədə təsir göstərir. Qeyd edildiyi kimi, turistlərin bir qismi mehmanxana xidmətlərindən istifadə etmir, qohumlarının və tanışlarının mənzillərində yaşayırlar. Xarici turistlərin bu kateqoriyası ancaq ərzaq məhsullarının alınmasına pul xərcləyirlər.

Avtoturizmin inkişafı, avtomobil ilə səyahət edənlər üçün dondurulmuş yarımfabrikatların xüsusi dəstlərinin böyük miqdarda buraxılmasına səbəb olmuşdur. Avtoturizmdən danışarkən xarici turistlərin yanacaq - sürtkü materiallarına xərclədikləri vəsaiti də nəzərdən qaçırmaq olmaz.

Turizmin yüksəlişi ölkənin ümumi iqtisadi göstəricilərindən biri olan yol tikintisinin, ictimai istehsal sahələrinin genişlənməsinə və strukturlarının yaxşılaşdırılmasına, iqtisadiyyatın bir çox sahələrində, hətta turizmlə birbaşa əlaqəsi olmayan sahələrdə əmək məhsuldarlığının yüksəlməsinə səbəb olur.

Beynəlxalq turizm həm də çoxsahəli iqtisadi prosesləri stimullaşdırır, qeyri-turist sahələrinin məhsulları üçün əlavə bazarlar açır, bununla da istehsalın artımına şərait yaratmaqla, yeni texnikanın və istehsalın mükəmməl texnologiyasının tətbiqinə və əmək məhsuldarlığının yüksəlməsinə səbəb olur. Turizmin, iqtisadiyyatın qeyri-turist sahələri ilə inteqrasiyası bu nəticələri təsdiq edir. Özləri üçün əlavə satış bazarı yaradılması məqsədi ilə beynəlxalq turizmin inkişafı ilə fəal məşğul olan iri şirkətləri

misal göstərmək olar.

Beynəlxalq turizmin, ilk baxışda onunla birbaşa əlaqəsi olmayan bir sıra sahələrin inkişafına təsirinin etiraf edilməsini, Fransanın 10 nazirliyinin öz büdcəsindən turizm sənayesinin inkişafı məqsədi ilə vəsait ayırması faktı da təsdiq edir. Beynəlxalq turist istehlakı öz hərtərəfli xarakteri ilə bir çox istehsal sahələrinin *diversifikasiyasına*[*] kömək etmiş olur, «lüks» növ məhsullardan başlayaraq, dağ xizək idmanı üçün mexaniki qaldırıcılara qədər kifayət edəcək dərəcədə müxtəlif məhsul növlərinin yaranmasına səbəb olur. «Lüks» növ məhsullara, tətbiqi incəsənət əsərləri, zərgərlik məmulatları, parfümeriya və ətriyyat (kosmetika) və s. məhsullar daxildir.

Fransa üçün bu növ məhsulların istehsalı, İsveçrə üçün saatların, Yaponiya üçün radio-elektron, Almaniya üçün optik cihaz dəstləri və s. istehsalı qədər mühüm sahədir. «Lüks» çeşidinə «Kristian Dior», «Şanel», «İv-Sen-Loran», «Lanven» kimi bütün dünyada məşhur olan fransız ətirləri və geyimləri, o cümlədən büllur, çini, saxsı, dəri, xəz və zərgərlik məmulatlarını və s. aid etmək olar. «Lüks» növlü məhsulların istehsal dövriyyəsi, qara metallurgiya müəssisələrinin dövriyyəsinə bərabərdir. «Lüks» növlü məhsulların istehsalı ilə dörd yüz minə yaxın adamın çalışdığı 10 minə qədər sənaye və sənətkarlıq müəssisələri məşğul olur.

Kempinqdə[†] yerləşdirmə şərti ilə təşkil edilən turların artması, yeni növ - karvan tipli (təkərlər üzərində evcik) avtomobillər istehsalının artmasına səbəb olmuşdur. Avtomobil istehsalının yeni növü olan kempinq-kar (kempinq üçün santexnika və mətbəx avadanlığı olan özüyeriyən evlər) istehsalı sürətlə artır. Aralıq dənizi, Atlantik okeanı sahillərində, Korsikada turizm mərkəzlərinin tikintisi, turist gəmiləri, yaxta, avarlı qayıq və katerlər istehsalının genişlənməsinə səbəb olur.

Dağ qış turizminin kütləvi inkişafı, dağ xizəklərindən başlay-

---

[*] ***Diversifikasiya*** (latın mənşəli sözdür, müxtəliflik, dəyişkənlik mənalarını daşıyır) - hər hansı bir obyektin fəaliyyətinin genişlənməsi, öyrənilməsi kimi başa düşülür.

[†] ***Kempinq*** (ingilis mənşəli sözdür, düşərgə salmaq mənasını bildirir) - avtoturistlər üçün çadırları və ya yüngül tipli, evləri, həmçinin avtomobil dayanacağı olan yay düşərgəsi.

araq mexaniki qaldırıcılara qədər, dağ-xizək avadanlıqları istehsalının artımını zəruri edir. Aparılan tədqiqatlar göstərir ki, beynəlxalq turizmin təsiri, ödəniş balansı çərçivəsindən çıxaraq, bir çox sahələrə daxil olur və turist tələbatı həmin sahələr üçün əlavə bazarlar yaradır.

## 3. 2. Turizmin regional inkişafa təsiri

Turizmin inkişafı ilə məşğul olan ölkələrin əksəriyyətində turizm siyasəti, iqtisadi inkişafın regional proqramı çərçivəsində həyata keçirilir və beynəlxalq turizmin köməyi ilə geridə qalmış regionların canlanmasına yönəlir.

İnkişaf etmiş sənaye ölkələrində əhalinin, əmək ehtiyatlarının, istehsalat müəssisələrinin, ümumiyyətlə istehsal qüvvələrinin yerləşməsi çox qeyri-bərabər vəziyyətdədir. Milli ərazilərin ayrı-ayrı hissələrində inkişafın qeyri-bərabərliyi, regional uyğunsuzluğun dərinləşməsi, əhalinin gəlirlərində kəskin fərqlərin yaranmasına, həyatın sosial və məişət şərtlərinin müxtəlifliyinə, kəndlə şəhər arasında sosial bərabərsizliyin güclənməsinə səbəb olur.

İnzibati rayonların iqtisadi tarazlığının pozulmasında - kənd əhalisinin kütləvi şəkildə öz yurdlarını tərk etməsi, istehsal qüvvələrinin mütənasib yerləşdirilməməsi, iqtisadi cəhətdən inkişaf etmiş sənaye və geridə qalmış aqrar rayonlarda (xüsusilə dağ rayonlarında) yaşayan əhalinin həyat səviyyəsi və gəlirlərində olan fərqlər mühüm rol oynayır.

Zəif inkişaf etmiş ölkələr, iqtisadiyyatın ləng irəliləyişi əhalinin sıxlığı isə orta səviyyədən aşağı olması ilə xarakterizə olunur. İndi hər yerdə kənd əhalisinin azalması prosesi gedir. İnkişaf etmiş ölkələrdə, sənayesi geri qalan ucqar rayonların problemlərinin həllində və regional mütənasibsizliyin yumşaldılmasında iki əsas üsul üstünlük təşkil edir. Birinci,  geridə qalan bölgələrdə iqtisadi inkişaf mərkəzləri və ya zonaların yaradılması; ikincisi - zəif inkişaf etmiş rayonların iqtisadiyatına kapitalın tədricən yeridilməsi.

İri turist mərkəzləri bir çox ölkələrdə, o cümlədən Fransada özünü doğruldan regional siyasətin birinci üsulunun nümunəsidir. Bu ölkədə turist mərkəzlərinin tikintisinə İkinci Dünya mü-

haribəsindən sonra başlanılmışdır. Həmin dövrə qədər, xarici turistlər bələdiyyə mehmanxanalarında yerləşdirilir və yerli əhalinin istifadə etdiyi xidmət sahəsi müəssisələri şəbəkəsindən istifadə edirdilər. Amma, xarici turist axınının güclənməsi ilə yerli əhalinin və xarici turistlərin tələbatını təmin edə biləcək xüsusi avadanlıqlı, xidmət sahəsi müəssisələrinin yaradılması zərurəti meydana çıxdı.

İkinci Dünya müharibəsindən sonra, beynəlxalq turizmin sürətli inkişafı ilə əlaqədar, beynəlxalq dərəcəli turist mərkəzlərinin tikintisi də aktual məsələyə çevrilir. İlk yaranan belə mərkəzlər, dövlətin iştirakı ilə inşa edilən dağ turizmi mərkəzləri oldu. Fransada beynəlxalq səviyyəli dağ turizmi mərkəzlərinin yaradılması, dağ rayonlarında iqtisadiyyatın inkişafına, kənd əhalisinə yardım etməyə yönəlmişdi. Beynəlxalq turizm mərkəzində tikilən hər 100 yaşayış yeri, 20-25 nəfər üçün əlavə işçi yerinin açılması demək idi. 10 il ərzində (1970-80) Fransada turizmin maddi-texniki bazasının tikintisi, 30 min nəfərin işlə təmin olunmasına kömək etdi. Qış turizminin inkişafı ilə əlaqəli olan maddi istehsal sahələrində də təxminən bir o qədər iş yeri yaradıldı. Bu, əsas etibarilə aksessuar*, toxuculuq, tikiş və ayaqqabı məmulatları, mexaniki qaldırıcılar istehsalı və tikinti sənayenin payına düşən yerlərdir.

İnşası ötən əsrin 60-cı illərində başlanan turist mərkəzlərindən alınan gəlirlər, artıq 80-ci illərə qədər infrastrukturun yaradılmasına: avtostradaların, yeraltı yolların, turist komplekslərində daxili yol şəbəkəsinin çəkilməsinə su təmizləyici, su təchizatı, poçt-teleqraf rabitəsi sistemlərinin yaradılmasına sərf olunan xərclərin ödənilməsini təmin etdi.

Beynəlxalq turizmin inkişafı, əksər kənd rayonlarında iş yerlərinin açılmasına, kənd təsərrüfatı məhsullarının yerindəcə satılmasına və kənd əhalisinin həyat səviyyəsinin yüksəlməsinə imkan yaradır.

İsveçrənin Alp dağları bölgəsi buna ikinci nümunə ola bilər. Beynəlxalq turizm bu ölkənin iqtisadi cəhətcə zəif inkişaf etmiş yüksək dağ rayonlarında iqtisadi geriliyin aradan qaldırılmasında mühüm rol oynamışdır. Bu rayonlarda xarici turizmin artımı, tikin-

---

* ***Aksessuar*** (fransız mənşəli sözdür) - nəyə isə məxsus olan və onu tamamlayan, bütövləşdirən əşya. Məsələn, geyimdə şərf, əlcək, qalstuk və s.

ti sənayesinin inkişafına təkan vermişdir. Belə ki, 5 il ərzində İsveçrədə 70 min yerlik yüksək səviyyəli dağ evcikləri tikilib istifadəyə verilmişdir. Beynəlxalq turizm tələbatı, kənd təsərrüfatı məhsullarının satışı üçün əlavə bazar yaradır. İsveçrədə hər il 1300 tondan çox kərə yağı (bu təqribən 4 min inəyin bir illik sağımı deməkdir), 20 min ton tərəvəz və 13 min ton meyvə satışı beynəlxalq turizmin payına düşür.

Dağ rayonları, beynəlxalq turizmin kənd yerlərinin rifahına təsirinin yeganə nümunəsi deyil. Son illərdə bir çox ölkələrdə şəhər sakinlərinin fermalarda turizm vasitəsilə istirahət etmək təcrübəsi geniş yayılır və sürətlə inkişaf edir. Kənd sakinlərinin turizmlə bağlı ikinci ixtisasa yiyələnməsinə imkan yaranır, kənd yerlərində turist komplekslərinin tikilməsi nəticəsində kənd sakinləri turistlərlə birgə infrastrukturdan (su təchizatı, enerji sistemi, yollar, telekommunikasiya və s.) istifadə edə bilirlər. Bu isə nəticə etibari ilə kənd yerlərində həyat səviyyəsinin yüksəlməsinə səbəb olur.

Turizm sənayesi, xidmət sahələrinin (kommunal, məişət, mədəni) ümumi inkişafında, çox zaman məişət tərzinin yaxşılaşmasında və bölkə əhalisinin gəlirlərinin artmasında yardımçı olur. Beynəlxalq turizm həcminin artması ilə xidmət sahələri müəssisələrinin sayının artması müşahidə edilir. Bu zaman böyük miqdarda müxtəlif müəssisələr turizmin təsir dairəsinə daxil olurlar. Belə müəssisələr turizm mövsümündə daha rentabelli işləyir, turist axınına uyğun olaraq, onların əmtəə və valyuta dövriyyəsi də böyüyür.

Ərzaq məhsulları, geyim, ayaqqabı, zərgərlik məmulatları, antikvariat* (əntiq), ətriyyat, xırdavat, gül, tütün məmulatı, kitab, idman malları, foto, elektrik məişət əşyaları, avtomobil satışı ilə məşğul olan mağazalar, tikinti və təmir idarələri, yuyucu, kimyəvi təmizləmə və digər məişət xidməti müəssisələri, avtoservis, benzindoldurma məntəqələri, taksi və digər şəhər nəqliyyatı, kinoteatrlar, teatrlar, kazinolar və s., beynəlxalq turizmin təsir dairəsində olan xidmət sahələridir.

Bir sıra hallarda beynəlxalq turizmin inkişafı, rayonun iqtisadi yüksəlişinə özünəməxsus tərzdə yardımçı olur. Avropada

---

* ***Antikvariat*** (latın mənşəli sözdür, qədimliyi sevən, onu başa düşən mənalarında işlədilir, dilimizdə əntiq əşya kimi başa düşülür).

turistlər üçün 3 ziyarət mərkəzindən biri olan Lurd şəhərini buna nümunə göstərmək olar. 5 min əhalisi və 3,5 min hektar ərazisi olan bu fransız şəhərciyində bəsit turizm resursları - sıldırım qaya üzərində qəsr, zindan kimi istifadə edilmiş qədim qalanın qalıqları, daş karxanaları, əhəngdaşlı dağda bir neçə karst mağarası var idi. 1858-ci ildə bu şəhərcikdə möcüzə baş verdi: bu ərazidə yerləşən Masavyel mağarasında guya Müqəddəs Məryəm (İsa peyğəmbərin anası), Lurd sakini olan bir qadınla görüşmüşdür. Şəhər ərazisindəki bu mağara «möcüzəli yer» elan edilmiş və Lurd şəhərinə başqa yerlərdən zəvvarlar gəlməyə başlamışdılar.

1858-ci ildə, yəni möcüzə baş verdiyi zaman şəhərdə cəmi 2 mehmanxana vardı. 100 ildən sonra isə Lurd, Avropanın iri ziyarət mərkəzlərindən birinə çevrildi. Mehmanxana yerlərinin sayına görə Lurd, Fransa şəhərləri arasında ikinci (Parisdən sonra) yer tutur. 230 turist mehmanxanasında 3 mindən çox adam işləyir. Artıq 18 min nəfər əhalisi olan bu şəhər, hər il 3,5-3,6 mln. turist qəbul edir. Gələnlərin təqribən 60 faizini əcnəbi vətəndaşlar təşkil edir.

Turizmin monomədəniyyətə çevrildiyi belə hallarda, turizm tələbatının azalması kimi qorxulu vəziyyət yarana bilər və həmin bölkəyə turist səfərləri azala bilər. Xatırladaq ki, dəbin dəyişməsi və xarici turistlərin gəlişinin azalması ilə əlaqədar, maddi-texniki bazanın bərpasına şəxsi kapitalın maraq göstərməməsi nəticəsində turizm mərkəzi «qocalır». Bu isə mehmanxanaların kütləvi surətdə bağlanmasına, bölgə iqtisadiyyatının böhran vəziyyətinə düşməsinə səbəb ola bilər.

Bu və ya digər rayonda turizmin inkişaf perspektivlərini müəyyən etmək üçün, maddi - texniki bazanın xarici turizmə uyğunluğu dəqiq qiymətləndirilməli, turist ehtiyatlarının miqdarı təyin edilməli və turist məhsuluna olan tələbat öyrənilməlidir. Bu zaman, turist ehtiyatlarının dəyərinin şişirdilməsinə yol vermək olmaz. Hər hansı bir tarixi abidə həmin əraziyə müəyyən marağın yaranmasına səbəb ola bilər, amma beynəlxalq miqyasda, daha qiymətli memarlıq abidələri ilə müqayisədə böyük əhəmiyyət kəsb etmədiyi üçün çoxsaylı xarici turistləri cəlb etməz.

Ona görə də belə ərazidə turizmin maddi-texniki bazasının yaradılması üçün iri kapital qoyuluşunun təsiri az olacaq. Turizm

ehtiyatlarını qiymətləndirərkən, qonşu rayonlar və ölkələrdə oxşar ehtiyatların olub-olmadığını nəzərə almaq lazımdır. Bundan əlavə, turizm dəbi ilə əlaqədar yaranan tələbat, məsələn, at belində, velosipedlə, qayıqla piyada gəzintilər və s. də nəzərə alınmalıdır.

Turizmə, bütün iqtisadi fəlakətlərin *panaseyası* (bütün çətinliklərdən, böhranlardan xilas edən vasitə) kimi baxmaq olmaz və beynəlxalq turizmin inkişafı ilə, hər-hansı bir ölkənin birdən-birə çiçəklənəcəyinə ümid etmək düzgün olmaz. Qeyd olunmalıdır ki, turizm bir sıra hallarda yerli iqtisadiyyat üçün arzu edilən nəticələr gətirmir, bəzən hətta, mənfi nəticələr verir. Məsələn, turist müəssisəsinin tikintisi yerli vəsait hesabına deyil, bir çox şəhərlərdə və ya ölkələrdə «mehmanxanalar şəbəkəsi» yaradan iri firmaların hesabına aparılır. Belə hallarda, firmalar yerli işçi qüvvəsindən istifadə etmədən, xarici turistlərə xidmət edən bütün personalı özləri kənardan gətirə bilərlər. Bu cür turist müəssisələri həmin yerdən yüz km-lərlə uzaqda yerləşən vahid mərkəz tərəfindən təchiz edilirlər. Belə olan halda yerli istehsal, ilk növbədə kənd təsərrüfatı öz məhsullarının satışı üçün əlavə bazar əldə etmir.

Beynəlxalq turizmin inkişafı, məhsullara və xidmətə olan tələbatın artmasına, bu da öz növbəsində onların satış qiymətlərinin yüksəlməsinə səbəb olur. Bunun nəticəsində qazanılan gəlir, turist müəssisələri sahiblərinin cibinə axır, qiymətlərin artması isə yerli əhalinin həyat səviyyəsinin pisləşməsinə səbəb olur. İqtisadi cəhətcə geridə qalmış bir rayonda, ayrıca inkişaf mərkəzinin, yəni beynəlxalq turizm kompleksinin inşası, həmin rayonun inkişafını cüzi stimullaşdırır. Turizm siyasəti regional inkişafın marağına uyğun olaraq, məqsədyönlü şəkildə aparılmırsa, beynəlxalq turizm öz-özlüyündə yerli iqtisadiyyatın inkişafı üçün zəmin ola bilməz.

# FƏSİL 4.

## TURİZM SƏNAYESİ

**Turizm sənayesi** - səyahəti həyata keçirmək prosesində turisti zəruri olan hər şeylə (xidmət, iş, məhsul və s.) təmin edən müəssisələrin və sahibkarların qarşılıqlı əlaqə sistemi kimi başa düşülür. Kütləvi turizmin coşğun inkişafı, bütün dünyada turizm sənayesinin və təsərrüfatın qarışıq sahələrinin, elm və mədəniyyətin, təhsil sisteminin adekvat* inkişafına səbəb olmuşdur. Başqa sözlə desək, **turizm sənayesi - yerləşdirmə və nəqliyyat vasitələri, ictimai iaşə, əyləncə, dərketmə, işgüzar, sağlamlıq, idman və digər təyinatlı obyektlərin, turoperator, turagent, ekskursiya və gid-tərcüməçi xidmətləri göstərən təşkilatların məcmusudur.**

Sanballı maddi-texniki bazaya malik olan turizm sənayesi milyonlarla insanın məşğulluğunu təmin etməklə xalq təsərrüfatı kompleksinin demək olar ki, bütün sahələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Turizm sənayesi daha geniş anlamda belə başa düşülür:

1. Sərnişin nəqliyyatının (hava, su, avtomobil, dəmiryolu) texniki xidmətinin çoxşaxəli şəbəkəsi ilə birgə fəaliyyət;
2. Müxtəlif sahələrdə ixtisaslaşmış müəssisələrinin, əsasən turizm xarakterini birbaşa biruzə verməyən və turizm üçün "ikinci dərəcəli" hesab edilən müəssisələr (o cümlədən, nəqliyyat maşınqayırması, yanacaq, yeyinti, kənd təsərrüfatının bir çox sahələri və s.) ilə birgə fəaliyyət;

Deməli, **turizm sənayesi** turistin istifadə etdiyi geniş xidmət sahələrini birləşdirən təsərrüfat kompleksidir.

**Turizm xidmətlərinə** aşağıdakılar aiddir:

- Turistlərin yerləşdirilməsi üzrə (mehmanxana, motel, otel, pansionat, sanatoriya, turist bazaları və s.) göstərilən xidmətlər. Turistlər həmçinin yerli əhalidən icarəyə götürülən şəxsi mən-

---

* ***Adekvat*** (latın mənşəli sözdür, bərabərləşdirilmiş, bərabər mənalarını bildirir) - uyğun, dəqiq kimi başa düşülür. Başqa sözlə, hər hansı bir şeyin gerçəklikdəki orijinala uyğun gəlməsini bildirir.

zillərdə və evlərdə, eyni zamanda çadır, avtomobilə qoşulan qoşqu evcikləri, karavaninqlər, gəmi, qatar, yaxta və s.-də yerləşə bilərlər.

- Turistin qidalanmasının təmin edilməsi üzrə (restoran, yeməkxana, kafe, qəlyanaltı, kafeteri, bar və s.) xidmətlər.

- Turistin səfər etdiyi ölkədə sərnişin nəqliyyatının müxtəlif növləri (qatar, dəniz və çay gəmiləri, aviaçarter reysləri, avtobuslar və s.) və hərəkəti üzrə göstərilən xidmətlər. Xatırladaq ki, nəqliyyat sisteminin inkişafı və ixtisaslaşmış turist nəqliyyatının meydana çıxması, az vəsait sərf etməklə xarici ölkələrə turist səfərlərini daha əlverişli etmişdir. Nəqliyyat vasitələrinin seçimi, turistin gəldiyi ölkənin coğrafi mövqeyindən, turisti göndərən ölkədən hansı məsafədə yerləşməsindən, eyni zamanda turistin sosial vəziyyəti və onun maliyyə imkanlarından asılıdır.

**-** Reklam xidməti. Bu ictimai informasiyanın, daha doğrusu insanlar arasında münasibətlərin növ müxtəlifliyindən biridir. Bu informasiya, yeniliyin fəal elementini özündə daşıyır. Turizmdə reklamın rolu böyükdür, çünki reklam turist məhsuluna olan tələbatın xarakteri və ölçülərinə bilavasitə təsir göstərir. Bu və ya digər bir ərazinin turizm resursları* və bazar təklifləri barədə əhalinin xəbərdar edilməsi səviyyəsini məhz reklam müəyyən edir.

- Turist agentlikləri tərəfindən həyata keçirilən xidmətlər (səyahət marşrutunun hazırlanması, mehmanxanada və nəqliyyat vasitəsində yerlərin bronlaşdırılması**, Yer kürəsinin hər hansı bir bölgəsinin turizm resursları haqqında bilgilər, turistin getdiyi ölkədə olan yerləşdirmə vasitələri, gömrük və sərhəd rəsmiyyəti, valyuta məzənnəsi və s. haqqında informasiya verilməsi). Səyahət və ekskursiya büroları tərəfindən həyata keçirilən xidmətlərə isə gid-tərcüməçi, ekskursiya bələdçisi, qrup rəhbərləri ilə təminat və s. aiddir.

---

* ***Turizm resursları*** - turistlərin mənəvi tələbatını ödəyən, onların fiziki və mənəvi qüvvəsinin bərpasına və inkişafına kömək edən, nümayiş obyektləri də daxil olmaqla təbii, tarixi, sosial-mədəni və digər obyektlər ola bilər.

** ***Bronlaşdırma*** (rus mənşəli sözdür, bronya - zirehlə örtmək, saxlamaq mənasını bildirir) - turoperator tərəfindən əsas və ya əlavə xidmətlər üçün müxtəlif yerləşmə obyektlərinə öncədən sifariş verilməsi.

- Turistlərin mənəvi tələbatlarının ödənilməsi (teatr, kino və konsert zalları, muzey, sərgi, rəsm qalereyaları, parklar, tarixi və təbiət qoruqlarına gedişlərin təşkili, tarix və mədəniyyət abidələrinə baxışların keçirilməsi, festivallarda, idman yarışlarında və digər tədbirlərdə iştirakın təmin edilməsi) üzrə göstərilən xidmətlər.

- Turistlərin işgüzar və elmi maraqlarının təmin edilməsi (konqress, assambleya, konfrans, simpozium, toplantı, seminar, yarmarka və sərgilərdə iştirak etmək) üzrə göstərilən xidmətlər.

- Həm ümumi, həm də məqsədli (suvenir, hədiyyə, açıqca və s. satışı) ticarət müəssisələrinin göstərdiyi xidmətlər.

- İnzibati-nəzarət orqanlarının (sərhəd, valyuta, karantin, polis xidmətləri, pasport, viza və s. sənədlərin hazırlanması) göstərdikləri xidmətlər.

- Təbiətin mühafizəsi, tarixi və mədəni irsin qorunması sahəsində göstərilən xidmətlər.

- İnformasiya vasitələrinin (qəzet, jurnal, radio, televiziya və s.) göstərdikləri xidmətlər.

- Dövlət turizm idarələrinin (komitə, departament, nazirlik və s.) göstərdikləri xidmətlər.

- Turist birliklərinin göstərdikləri xidmətlər.

**Beləliklə, turizm sənayesinə ümumi tərif versək qeyd etməliyik ki o, iqtisadi nöqteyi-nəzərdən, maddi texniki bazanı, xammal və işçi qüvvəsini birləşdirən vahid istehsalat-əmlak kompleksidir.**

## 4.1. Turizmin maddi-texniki bazası

Turizm təsərrüfatı ilə məşğul olan subyektlər öz fəaliyyətlərini daimi etmək üçün müxtəlif əmək vasitələrinə malik olmalıdırlar. Turizmdə istifadə olunan əmək vasitələrinin məcmusu onun maddi-texniki bazasının əsasını təşkil edir.

*Turizmin maddi-texniki bazasına*, turizm tikililəri (binalar), onların texniki təchizatı (avandanlıq), nəqliyyat vasitələri və digər əsas fondlar daxildir. Maddi-texniki baza, mütəşəkkil turizmin inkişafının əsasını təşkil edir, belə ki, turistlərə tam kompleks xidmət göstərilməsi (yerləşdirmə, qidalanma, daşınma, müalicə, ekskursiya və s.) üçün bütün zəruri şəraiti yaradır.

*Turizmin maddi-texniki bazasının tərkibinə* - turist firmaları (turoperatorlar və turagentlər), mehmanxanalar, turist bazaları, iaşə, ticarət, avtonəqliyyat müəssisələri, turist ləvazimatı və avadanlığının girayə məntəqələri, turist yollayışının (putyovka) satışı büroları, nəzarət-xilasetmə xidmətləri, turist klubları və s. daxildir.

*Xidmət növlərinə* görə turizm müəssisələrinin aşağıdakı tipləri mövcuddur:

- turistləri bütün xidmət kompleksi ilə təmin edən müəssisələr (öz mehmanxanaları olan turist firmaları);
- turizmin təşkili məqsədi ilə təsis edilən müəssisələr (turagentliklər, səyahət və ekskursiya, yollayış satışı, turist qəbulu büroları);
- turistlərin yerləşdirilməsi, daha doğrusu yaşaması və gecələməsi məqsədi ilə təsis edilmiş müəssisələr (mehmanxanalar, turbazalar və s.);
- yeyinti, ərzaq müəssisələri (restoranlar, barlar və s.);
- nəqliyyat xidməti müəssisələri;
- turistlərə mədəni xidmət obyektləri (teatrlar, konsert zalları və s.) və ekskursiya xidmətini (ekskursiya büroları) təmin edən müəssisələr.

Maddi-texniki bazaya aid olan obyektlər mülkiyyət növünə görə *xüsusi* (turist təsərrüfat subyektinin özünə məxsus olan) və bu subyektin digər subyekt (məsələn, şəhər tabeliyindəki mehmanxanalarda yerlərin icarəsi) və *fiziki* şəxslərdən icarəyə götürdüyü (mənzillər, evlər) obyektlərdir.

Turizmin hər hansı bir regiondakı maddi-texniki bazası tərkibinə, gücünə, miqdarına və keyfiyyətinə görə turistlərin tələbatına uyğun olmalıdır. Əks təqdirdə, əhaliyə turist xidmətinin səviyyəsi və keyfiyyəti kəskin surətdə pisləşir, bu da öz növbəsində turist məhsulunun satışı həcminin azalmasına səbəb olur.

Turistlərin yerləşdirilməsi (yaşaması və gecələməsi) məqsədi ilə təsis olunmuş müəssisələrə mehmanxanalar (otellər), turist bazaları, motellər*, botellər**, kempinqlər və s. aid edilir. Mar-

---

* ***Motel*** (ingilis mənşəli sözdür) - avtomobil yolları üzərində salınmış mehmanxana.

** ***Botel*** (Holland dilində bot - gəmi, fransızca - otel sözlərinin birləşməsindən əmələ gəlmişdir) - sahilə daimi pərçimlənmiş gəmi-mehmanxanalar.

şrut zamanı qrupların bir gecəlik dayanacaqları üçün turist bazalarının və ya turist firmalarının nəzdində düşərgələr və ya komalar da yerləşdirmə obyekti ola bilər.

**Yerləşdirmə** - turizmin ən mühüm elementidir. Yerləşdirmə (gecələmə) yoxdursa, turizm də yoxdur. Yerləşdirmə vasitələrinin yaradılması, turist qəbulundan və turizm resurlarının istismarından böyük gəlir götürməyə can atan hər hansı bir turist regionu və ya mərkəzinin iqtisadiyyatı üçün qəti və sərt tələbdir.

Ümumdünya Turizm Təşkilatının tövsiyyələrinə görə bütün yerləşdirmə vasitələrini iki qismə ayırmaq olar: **kollektiv və fərdi** surətdə yerləşdirmə. Turistlərin kollektiv surətdə yerləşdirilməsi vasitələrinə mehmanxanalar və ona müvafiq müəssisələr, ixtisaslaşmış müəssisələr, kollektiv yerləşdirilməyə imkanı olan digər müəssisələr aiddir.

Turistlərin yerləşdirilməsi ilə məşğul olan müəssisələri, *tutum* (yerlərin sayı), *komfortluq* (rahatlıq) və *fəaliyyət dövrünə* görə üç qrupa ayrılır. Bir çox ölkələrdə mehmanxanaların komfortluq səviyyəsi dərəcələrlə göstərilir, bu dərəcələr "ulduz" anlayışı ilə ifadə edilir. Mehmanxanalar üçün ulduzların beş dərəcəsi müəyyən edilmişdir: bir ulduzdan (ən aşağı dərəcə) beş ulduza (ən yüksək dərəcə) qədər. Mehmanxanaların (otellərin) dərəcələrinin müəyyən edilməsi, turizm biznesinin mühüm vəzifəsidir.

Dərəcələrə ayırmaq barədə ÜTT-nın tövsiyyələri mövcud olsa da, əfsuslar olsun ki, hər bir ölkə bu tövsiyyələri özünə məxsus surətdə şərh edir. Otelin dərəcəsi anlayışında, otelin özündə göstərilən xidmətlər məcmusu və əlaqədar turist infrastrukturunun inkişaf səviyyəsi nəzərdə tutulur. Hər hansı bir otel üzrə son qərarı, həmin ölkənin (regionun) turizm nazirliyi, departamenti və s. qəbul edir. Bütün dünya turistləri tərəfindən bəyənilən Paris şəhərində "beş ulduzlu" otelin olmaması faktı da bununla izah edilir. Müxtəlif ölkələrdə fəaliyyət göstərən eyni ulduzlu mehmanxanaların komfortluluğu eyni deyil.

## 4.2. Turizm təşkilatlarının növləri

Turistlərə xidmət göstərən kommersiya və qeyri-kommersiya təşkilatlarını əsas fəaliyyət növünə görə bir neçə qrupa

ayırmaq olar: turagentlər, turoperatorlar, turizm sənayesi firmaları və turist birlikləri.

**Turagentlər** - digər müəssisələrin - turoperatorların, nəqliyyat, qidalanma müəssisələrinin, yerləşdirmə vasitələrinin və s. xidmətlərini təklif edən vasitəçi turist təşkilatlarıdır. Bir qayda olaraq, onlar bilavasitə müştəriyə xidmət göstərən kommersiya təşkilatlarıdır.

Turagentlər, istehlakçı üçün sərfəli, rahat formada, müştərinin arzusu ilə turist xidmətlərini komplektləşdirir, hərəkət marşrutunu razılaşdırır, nəqliyyat və yerləşdirmə vasitələrində yerlərin, ekskursiya bələdçiləri, gid və tərcüməçilərin ayrılması üzrə, əlaqədar təşkilatlarla müvafiq iş aparır.

Turagent firmalar bir qayda olaraq, digər firmaların (qeyri turist təşkilatı da ola bilər) şöbələri və ya törəmə müəssisələri olurlar. Turoperatorlardan savayı, ticarət və nəqliyyat firmaları, iri banklar, sığorta cəmiyyətləri, turistlərin istifadəsi üçün məhsul istehsalçıları da turagent firmalar yaradırlar.

Müstəqil turagentlər adətən turizm biznesi sahəsində rəqabətin zəif olduğu ölkələrdə fəaliyyət göstərirlər. Bu halda turagentlər maliyyə cəhətdən müstəqil olurlar. Onlar öz kommersiya fəaliyyətlərini normal surətdə, çoxsaylı firmalar, mehmanxanalar, nəqliyyat müəssisələri, topdansatış turist firmaları və s. ilə sıx əlaqədə həyata keçirirlər.

**Turoperatorlar** - xüsusi və ya icarəyə götürülmüş turist xidməti vasitəsinə malik olan öz müştərisinə kompleks xidmət təklif edən turist təşkilatları, eyni zamanda turagentlərlə turizm sənayesi müəssisələri arasında vasitəçilərdir. Bu təşkilatların böyük əksəriyyəti kommersiya müəssisələridir.

Turoperatorlar - nəqliyyat (su, quru və hava), yerləşdirmə (mehmanxana, motel, kempinqlər və s.), servis (müvafiq avadanlığı olan idman meydançaları, sağlamlıq mərkəzləri, əyləncə müəssisələri və s.) vasitələrinin, səyahət müddətində sığortanın, ekskursiya, gid və tərcüməçi xidmətlərinin və s. seçimi və istifadəsi üzrə geniş imkanlar yaradırlar. Həmkarlar təşkilatları və buna oxşar təşkilatlar adətən qeyri kommersiya tipli turoperatorlar olsalar da, turizmdən əlavə fəaliyyətin digər növləri ilə məşğul olduqları üçün, onları xalis turoperator adlandırmaq olmaz.

**Turist birlikləri** - turizm həvəskarlarının klubları, ittifaqları və digər könüllü birlikləridir. Turoperatorlardan və turagentlərdən fərqli olaraq, turist birliklərinin fəaliyyətlərinin məqsədi, gəlir əldə etmək olmasada bu təşkilatlara və onların keçirdikləri tədbirlərə yardım etmək üçün vəsait tələb olunur. Turist birlikləri bir qayda olaraq, yığılan üzvlük haqqları, ictimai və xüsusi fondlardan yardım, eyni zamanda kommersiya tədbirləri hesabına fəaliyyət göstərir.

Üzvlük haqqları əsasən, təşkilatın fəaliyyətinə yardım üçün yönəldilir. Müxtəlif fondlardan verilən yardımlardan təşkilatın saxlanılması, hər hansı bir tədbirin (yadetmə marşrutları, zəvvarlıq, hündür dağlara qalxma və s.) həyata keçirilməsi, regionda turizmin inkişafı, peşə təhsilini artırmış turizm təlimatçılarına, əməkdar turist işçilərinə təqaüdlər ödənilməsi məqsədilə istifadə edilir.

Təşkilatın özünün təşkil etdiyi kommersiya tədbirləri, yuxarıda göstərilən hər hansı bir proqramın həyata keçirilməsi məqsədini daşıyır. Qeyri-kommersiya təşkilatları olan turizm birliklərinin kommersiya tədbirləri keçirməsinin səbəbi onunla izah olunur ki, belə tədbirlər zamanı əldə olunan gəlir, hər hansı bir layihənin reallaşdırılması üçün istifadə edilir və vəsait kənara çıxarılmır.

## 4.3. Turizm sənayesi müəssisələri

Belə müəssisələr - turistlərə xidmətlə məşğul olan, amma turizmə birbaşa aidiyyəti olmayan və iqtisadiyyatın başqa sahələrinə şamil edilən firmalardır. Məsələn, yerləşdirmə vasitələri, turist tələbatı malları istehsalçıları, nəqliyyat şirkətləri, ictimai-iaşə, ticarət müəssisələri, maliyyə-kredit idarələri, sığorta cəmiyyətləri buna aid ola bilər.

Başqa sahələrə aid olmalarına baxmayaraq, bu cür müəssisələrin turizm sənayesində rolu böyükdür. Son onilliklərdə turistlərə xidmət edən müəssisələrlə turist firmaları arasında olan

hədd, tədricən silinir. Belə ki, müəssisələrin çoxu birləşərək, vahid birlik yaradırlar.

Banklar və sığorta cəmiyyətləri, nəhəng turist tələbatı məhsulları istehsalçıları və mehmanxana şəbəkələri, dünyanın hər yerində özlərinin turagent və turoperator firmalarını yaradır, geniş miqyaslı reklam kompaniyaları aparır, müxtəlif kurortlar, tarixi, mədəni və dərketmə baxımından diqqətəlayiq və maraqlı yerlər haqqında informasiya xarakterli kataloq və digər çap məhsulları, kino və fotomateriallar hazırlayır və yayır.

İkinci Dünya müharibəsindən sonra bazar iqtisadiyyatı yönümlü ölkələrdə turist firmalarının birləşərək böyüməsi və onların fəaliyyət miqyasının genişlənməsi prosesi başlanmışdır. Ötən əsrin 60-cı illərinin sonunda, pərakəndə turist firmalarının iri firmalara tabe edilməsi bu prosesi daha da sürətləndirdi. İndi turizm korporasiyaları, konsorsiumları və kooperativləri kimi iri birlik formalarına daha tez-tez rast gəlinir. Bundan əlavə, yerləşdirmə sənayesində mehmanxana kompleksləri, mehmanxana şəbəkələri yaradılır və son illərdə onlar da turizm biznesinin ayrılmaz tərkib hissəsinə çevrilir.

**Turkorporasiyalar.** Müasir dövrdə turoperator və turagent firmalarını birləşdirən və adətən korporasiyalar adlanan çoxsaylı nəhəng turist firmaları fəaliyyət göstərir.

Turist korporasiyaları bir qayda olaraq müxtəlif istiqamətli çoxlu sayda turist firmalarını özündə birləşdirir. Korporasiyalar, firmaların ümumi fəaliyyətdə işgüzar iştirakı şərti ilə, könüllülük əsasında xırda turist firmalarının - turoperatorların və turagentlərin birləşdirilməsi yolu ilə yaradılır. Bir çox ölkələrdə nəhəng firmalar turist xidməti bazarında monopoliya yaradırlar. Belə ki, Fransada 13 iri korporasiya öz ölkəsinin turist bazarının 50, Almaniyada isə 3 iri korporasiya öz ölkəsinin turist bazarının 70 faizini zəbt etmişlər.

Korporasiyalar turist xidməti göstərməkdən əlavə, öz fəaliyyətlərini əsasən turizmlə əlaqəli sahələr istiqamətində də genişləndirirlər: onlar nəqliyyat müəssisələrinin, mağazalar şəbəkəsinin və ictimai-iaşə təşkilatlarının, turist ləvazimatı istehsal edən müəssisələrin, bankların, sığorta cəmiyyətlərinin və s. sahiblərinə çevrilirlər.

Beynəlxalq turizmdə birliyin bu forması, son otuz ildə (1970-2000) onlarla sahə müəssisələrini birləşdirən bir neçə transmilli korporasiyaların, yəni daha nəhəng firmaların yarandıqları yerlərdə yaxşı inkişaf etmişdir.

**Mehmanxana kompleksləri** - yerləşdirmə və turistlərə xidmət üzrə iri mərkəzlərdir. Yerləşdirmə xidməti ilə yanaşı təklif edilən xidmətlər əsasən, qidalanmanın, mehmanxanada yaşayanlar üçün nəqliyyat biletlərinin alınması və əyləncə proqramlarının təşkili, taksi sifarişi və avtonəqliyyatın kirayə edilməsi, simpozium və toplantılar keçirilməsi üçün yer (zal) ayrılması, ticarət, mədəni-sağlamlıq və əyləncə xidmətlərindən və s. ibarətdir. Mehmanxana biznesində iflasa uğramamaq üçün yollar axtarmaq məcburiyyəti qarşısında qalan, pərakəndə halda fəaliyyət göstərən mehmanxanalar birləşirlər. Belə birliklərin yaradılması aşağıdakı şərtlər əsasında həyata keçirilir:

- Hər bir iştirakçının maliyyə müstəqilliyinin saxlanılması şərti ilə "könüllü mehmanxana şəbəkəsi" kimi yaradılan birliklər şəklində.
- Nisbətən xırda firmaların iri firmalar tərəfindən ilhaq edilməsi (udulması) yolu ilə. Təbii ki, bu zaman kiçik firmalar öz maliyyə və hüquqi müstəqilliklərinin bir hissəsini itirirlər.
- Hər hansı bir firma tərəfindən vahid layihəyə əsasən çoxlu sayda mehmanxana komplekslərinin inşa edilməsi yolu ilə.

Birliyin son iki növü çox vaxt "mehmanxana şəbəkəsi" adlanır.

**Mehmanxana şəbəkəsi** - vahid siyasət yeritmək və topdansatış firmaları olan turoperatorlarla bağlanan sazişlərin şərtlərini hazırlamaq məqsədi ilə bir neçə mehmanxana kompleksininin birləşməsidir. Avtomatlaşdırma sisteminin inkişafı, mehmanxanalar şəbəkəsinə daxil olan müəssisələrin vahid avtomatlaşdırılmış sistemlə idarə edilməsinə və bu sistem vasitəsilə mehmanxana fondunun bölünməsinə səbəb olmuşdur.

XXI əsrin əvvəli üçün bütün dünyada 100-dən artıq mehmanxana şəbəkəsi fəaliyyət göstərir. Mehmanxanalar şəbəkəsində olan yaşayış fondunun 78 faizi, 13 ən iri şəbəkənin (Amerikada altı, Qərbi Avropada yeddi) payına düşür. Dünya turizm biznesində fəaliyyət göstərən bir neçə iri mehmanxana şəbəkəsinin səciyyəsi aşağıdakı cədvəldə verilmişdir (bax, cədvəl 9).

**Cədvəl 9**

| Mehmanxana şəbəkəsi | | Mehmanxanaların miqdarı | Mehmanxanaların əhatə etdiyi ölkələrin sayı |
|---|---|---|---|
| Adı | Ölkə | | |
| Xolidey İNNZ | ABŞ | 1800-dən çox | 50 |
| Şaraton | ABŞ | 420 | 52 |
| Trast-xauz-Forte | Böyük Britaniya | 810 | 25 |
| Etap-otel | Fransa-Böyük Britaniya | 170 | 80 |

Maliyyə müstəqilliyinin saxlanılması şərti ilə şəbəkənin bütün iştirakçıları arasında müştərilərin daha effektli və mütənasib mübadiləsi (bölüşdürülməsi) məqsədi ilə kiçik mehmanxana müəssisələrinin birləşməsi nəticəsində yaranan könüllü mehmanxana şəbəkələri çox iri olmasalar da kifayət qədər yayılmışlar.

XIX əsrin əvvəlləri üçün dünya ümumi mehmanxana fondunda 11 min belə şəbəkə fəaliyyət göstərir. Bu cür birliklər əsasən kiçik mehmanxanalara rəqabət mübarizəsi şəraitində, iflasa uğramadan fəaliyyət göstərmək imkanı yaradır.

**Turizm konsorsiumu** - bütün iştirakçıların maliyyə və hüquqi müstəqilliyinin saxlanılması şərti ilə, vahid siyasət yeritmək, turoperatorlar və digər topdansatış turist firmaları ilə sazişlərin ümumi şərtlərini hazırlamaq məqsədilə, müvəqqəti müqavilə əsasında bir neçə turagentliyin yaratdığı könüllü birlik. Turizm konsorsiumları çox zaman aşağıdakı prinsiplər əsasında təşkil olunur:

- Hər bir iştirakçının birliyə könüllü surətdə daxil olması şərti ilə.

- Hər bir iştirakçının maliyyə müstəqilliyinin, özünüidarəsinin və iqtisadi maraqların ümumiliyinin saxlanılması şərti ilə.

- Müştərək məsələlərin həllində bütün iştirakçıların eyni hüquqa malik olması şərti ilə.

- İştirakçılar arasındakı münasibətlərin müqavilə əsasında təşkili (müqavilə şərtləri bütün iştirakçılar tərəfindən mütləq yerinə yetirilməlidir) şərti ilə.

Konsorsium iştirakçıları bir qayda olaraq, kiçik və orta turagentliklər olurlar. Konsorsiuma daxil olmaq bu firmalara turoperatorlarla müqavilə şərtlərini dəqiq müəyyənləşdirməyə və yerinə yetirilməsinə, yerləşdirmə vasitələri, nəqliyyat və ekskursiya xidməti təklif edən firmalarla iş zamanı vahid siyasət hazırlamağa kömək edir.

**Turizm kooperativləri.** Turagent birliklərinin digər forması turizm kooperativləridir. Turizm kooperativi nizamnaməsində göstərilən istiqamətdə müştərək fəaliyyətin həyata keçirilməsi üçün üç və daha çox turizm firmasının könüllü birliyidir.

Son onilliklərdə kooperativ hərəkatı, inkişaf etmiş ölkələrin iqtisadiyyatının bütün sahələrində fəaliyyət göstərən daha çox firmaları əhatə edir. Bunun səbəblərindən biri, marketinq* tədqiqatının həyata keçirilməsi, populyarlığın yüksəldilməsi, daha çox potensial müştərilərin cəlb edilməsi və reklam tədbirlərində fəallığın artırılması üçün birlikdə fəaliyyət göstərməyin vacibliyi, kiçik firmaların birləşərək birlik yaratmaq təşəbbüsləridir. Reallaşdırma üçün vəsait olmadan heç bir kiçik müəssisə bu işi təkbaşına, müstəqil surətdə həyata keçirmək iqtidarında deyil.

Turizm bazarındakı sərt rəqabətə dözmək və fəaliyyət göstərmək üçün, hər bir firma marketinq tədqiqatına və reklam tədbirlərinə yüz minlərlə dollar xərcləmək məcburiyyətində qalır. Bir neçə əməkdaşın işlədiyi kiçik firmalar belə xərcləri ödəmək iqtidarında olmadıqlarından vəziyyətdən çıxış yolunu, kooperativlərə birləşməkdə görürlər.

Onlar və yüzlərlə kiçik turist firmaları (adətən turagentlər) birləşərək, ümumi qüvvə ilə marketinq və reklam tədbirləri üçün vəsait ayırmaq imkanı qazanırlar. Marketinq tədqiqatı və reklam kompaniyası ilə çox vaxt kooperativlər özləri bilavasitə məşğul olmur, bu barədə ixtisaslaşmış firmalara müraciət edərək, onların pulunu ümumi vəsaitdən ödəyirlər. Aparılan marketinq tədqiqatlarının nəticələri, kooperativin bütün üzvlərinin nəzərinə çatdırılır.

---

* ***Marketinq*** (ingilis mənşəli sözdür, bazar mənasını bildirir) - ümumən bazar fəaliyyətinin konsepsiyasıdır.

Yaddan çıxarmaq olmaz ki, turizm biznesində olan çoxsaylı problemləri həll etmək, ayrı-ayrı turagentlərin imkanı daxilində deyil. Yerləşdirmə, qidalanma, nəqliyyat müəssisələri, ekskursiya büroları və turistlərə xidmətlə məşğul olan digər firmaların axtarışı və əməkdaşlığı haqqında müqavilələrin bağlanması da belə problemlərə aid edilir.

Bu ilk növbədə onunla əlaqədardır ki, turagentin potensial müştəriləri müxtəlif məqsəd və istiqamətlər üzrə səyahət etmək arzusunda ola bilər. Müştəriləri itirməmək üçün, turagentin dünyanın istənilən guşəsində turizm biznesinin imkanları barədə yaxşı məlumatı olmalı, təklif olunan səyahət marşrutları üzrə etibarlı zəmanət verməyi bacarmalıdır.

Kooperativə daxil olan turagentlər, nəqliyyat və yerləşdirmə vasitələrində, yerlərin bronlaşdırılmasında, müştəri mübadiləsində, turların satışı üzrə turoperatorlarla müqavilələrin bağlanmasında birgə fəaliyyət göstərə bilirlər.

Turizm kooperativləri bir ölkə çərçivəsində (məsələn, 210 turagentliyi birləşdirən ABŞ kooperativi “Cayents”) və beynəlxalq miqyasda məsələn, müxtəlif ölkələrdən 240 turagentliyin daxil olduğu Ümumdünya Turagentlər Assosiasiyası yaradıla bilər.

## 4.4. Mehmanxanaların növləri və dərəcələri

Turizm fəaliyyətinin əsas istiqamətlərindən biri, turistlərin yerləşdirmə vasitələri ilə əlaqəli məsələlərin həll edilməsidir. Bu gün dünyanın otellər şəbəkəsi istənilən zövqü təmin edə bilər. Dünyada bütün zövqlərə uyğun gələn mehmanxanalar mövcuddur.

Dünyanın ən hündür mərtəbəli üzən oteli Niderlandın paytaxtında yerləşir. Bu beşmərtəbəli, komfortabelli “gəmi” Amsterdamın burazları (gəmilərin yan aldıqları sahillər) arasında üzərək, əsl dəniz gəzintisi təsəvvürü yaradır.

Fars körfəzinin dibində, Bəhreyn dövləti ərazisində sualtı mehmanxana fəaliyyət göstərir. Bu mehmanxana, bir-biri ilə orijinal keçidlərlə birləşən 6 korpusdan ibarətdir. Ekzotika və dənizin dibini görmək həvəsində olanlar, şəffaf divarlı xüsusi liftlərin köməyi ilə mehmanxanaya enə bilirlər.

Floridada (ABŞ) buna oxşar, amma cəmi 6 nəfər üçün nəzərdə tutulmuş mehmanxana var. Bu mehmanxana dünyada ən kiçik (sahəsi 135 kv. metr) mehmanxana hesab edilir.

Ən çox yerli mehmanxana, 1980-ci illərdə Yay Olimpia oyunlarının keçirilməsi ilə əlaqədar, Moskvada xüsusi olaraq inşa edilən "İzmaylovo" mehmanxana kompleksidir. Burada eyni zamanda doqquz min beş yüz qonaq yerləşə bilər.

Dünyanın ən hündür oteli Sinqapurda yerləşən 73 mərtəbəli oteldir. Kuala-Lumpurda (Malayziya) və Çikaqoda (ABŞ) da hündür otellər var.

Trinidad və Tobaqo Respublikasının paytaxtı Port-of-Speyndə yerləşən kiçik otel, qorxulu hisslər keçirmək həvəsində olanlar üçün nəzərdə tutulmuşdur. Bu otel qayanın kənarında, yarğan üzərində asılmışdır, otelə yalnız damdan (tavandan) daxil olmaq mümkündür.

1300  nömrəsi olan Tokio mehmanxanalarından biri, dünyada ən tez (sürətli) servis təklif edir. Sənədləşmə, ödəniş, açarların alınması və s. üçün qonaq 45-50 saniyə vaxt sərf edir. Bütün əməliyyatlar avtomatlaşdırılmış qaydada, xüsusi videonəzarət qurğularının köməyi ilə aparılır.

Dünyada ən bahalı "lüks" nömrə San-Fransiskodakı (ABŞ) "Fermont" otelinin əsas binasında yerləşir. Otel 1927-ci ildə tikilmişdir. Burada "lüks" nömrənin qiyməti, vergilər nəzərə alınmadan bir sutka üçün 6 min dollar təşkil edir. Müştəri bütün sutka ərzində camaşir dəyişən, köməkçi, rabitə xidməti, şəxsi sürücü və s. ilə təmin olunur.

1999-cu ilin aprelində Venice Simplon Orient-Express şirkəti Böyük Cənubi-Sakit okean Ekspressi adlanan 5 ulduzlu qatar-mehmanxananın fəaliyyətə başlaması barədə elan verdi. Avstraliyanın Kvinslend ştatının Kuranda şəhərciyindən yola düşən qatar-mehmanxana iki gün yarımdan sonra Sidney şəhərində son məntəqəyə çatır.

Bu səyahəti daha maraqlı və yadda qalan etmək üçün onun təşkilatçıları retro* üslubunda hazırlanmış qatar-mehmanxananın turist-sərnişinlərinə gözlənilməyən bir sürpriz** də hazırlamağı da unutmamışlar. Marşrut üzərində yerləşən Prosperin stansiyasına

---

* ***Retro*** - qədim, köhnə, yaddan çıxmış mənalarında işlədilir.
** ***Sürpriz*** - gözlənilməz şey, gözlənilməz hadisə və ya gözlənilməz xəbər.

çatandan sonra sərnişinləri qatardan düşürüb vertolyotlara mindirirlər. Vertolyotlar 45 dəqiqə ərzində turist-sərnişinləri Böyük Sədd Rifi*** üzərində gəzdirdikdən sonra onları dənizin ortasında qurulmuş pantonlara**** düşürürlər. Bu vaxt sualtı ov, rifin qarşısında üzmək və xatirə fotoşəkil çəkdirmək həvəskarları, bir sözlə, Böyük Sədd Rifi ilə yaxından tanış olmaq istəyənlər üçün əlverişli imkan yaranır. Bir saatdan sonra vertolyotlar turist-sərnişinləri yenidən qatar-mehmanxanaya çatdırır.

Müxtəlif ölkələrdə mehmanxanaların dərəcələrə bölünməsi üçün müxtəlif sistemlərdən istifadə edilir. Bu gün belə sistemlərin sayı otuzdan çoxdur. Bütün dünyada mehmanxanaların vahid sistem üzrə dərəcələrə bölünməsinə bir sıra amillər, məsələn, turizm ilə məşğul olan dövlətlərin mədəni-tarixi inkişaf səviyyəsi, onların milli xüsusiyyətləri, xidmət keyfiyyətinin qiymətləndirilməsində müxtəlif kriteriyaların* olması və s. maneçilik törədir.

Dərəcələrə bölgünün ən geniş yayılmış növləri aşağıdakılardır:

- Fransa, Avstriya, Macarıstan, Misir, Çin, Rusiya, Azərbaycan və beynəlxalq turizm mübadiləsində iştirak edən digər ölkələrdə tədbiq edilən “ulduz” sistemi.
- Yunanıstanda istifadə edilən hərf sistemi.
- Böyük Britaniya üçün xarakterik olan “tac” sistemi.
- Bir çox ölkələrdə istifadə olunan dərəcələr sistemi və s.

Yuxarıda qeyd edilən dərəcələrə bölgü növlərinin xüsusiyyətlərini nəzərdən keçirək.

**Fransada** milli dərəcələrə bölgü sistemi üzrə mehmanxanaların, komfortabellik kateqoriyasına uyğun olaraq “ulduzlarla” dərəcələrə bölünməsinə daha çox rast gəlinir.

**Avstriya** - turist qəbulu üzrə dünyanın tanınmış liderlərindən biridir. Ölkənin yalnız dağlıq bölgəsində 20 mindən çox otel

---

*** ***Böyük Sədd Rifi*** - Avstraliyanın şimal-şərq sahili boyunca, uzunluğu 2000, eni şimalda 2, cənubda 150 km-ə çatan mərcan poliplərindən ibarət sədd. Poliplərin (isti dənizlərdə olan heyvan sümüklərinin qalıqları) əcayib formalı, naxışa bənzər strukturları olur.

**** ***Panton*** - müvəqqəti körpü üçün dayaq rolunu oynayan yastıdibli qayıq və ya üzən körpü.

* ***Kriteri*** (yunan mənşəli sözdür, mühakimə vasitəsi mənasını bildirir) - hər hansı şeyə qiymət və tərif vermək, yaxud onu təsnif etmək üçün əsas əlamət. Dilimizdə meyar kimi başa düşülür.

vardır. Yerləşdirmənin daha ucuz vasitələrindən sayılan "youth hotels"lərin sayı Avstriyada 100-dən artıqdır (müqayisə üçün: Rusiyada 10-dan azdır). Arzu edənlər (əsasən gənclər üçün nəzərdə tutulmuş) belə yataqxanalarda ucuz qiymətlə gecələyə bilərlər, amma burada xüsusi rahatlıq üçün zəmanət verilmir.

Avstriyada otellər beş ulduz sistemi ilə qiymətləndirilir. Amma, kənd yerlərində çox vaxt "kateqoriyadan kənar mehmanxanalara" - bir-iki-üç mərtəbəli, əsasən fermer ailəsi tərəfindən xidmət edilən evlərə rast gəlinir. Avstriyanın üç-beş ulduz dərəcəli otelləri, ilk baxışda bir-birindən az fərqlənirlər. Belə mehmanxanaların əksəriyyətində hovuz, sauna, restoran, bufet və solyarilər** vardır. Avstriyanın əksər mehmanxanalarının interyerlərini bəzəyən "romantik üslub", onların arasındakı oxşarlığı daha da artırır. Bu üslub, qədim məişət əşyalarının müasir texnika ilə harmonik uyğunlaşdırılmasıdır.

Bəzən üç ulduzlu mehmanxananın avadanlığı (məsələn, hovuz) dörd ulduzlu mehmanxananın avadanlığından daha yaxşı ola bilər. Ümumiyyətlə iki və daha yüksək dərəcəli otellər, nömrələrinin genişliyi və təklif edilən xidmətin müxtəlifliyi ilə seçilirlər. Beş ulduzlu mehmanxanalar, əlavə "xırdalıqlar" və daha yüksək xidmət səviyyəsi ilə dörd ulduzlu mehmanxanalardan fərqlənir.

**Misirdə** də mehmanxanaların dərəcələnməsində ulduzlardan istifadə edilir. Amma nəzərə almaq lazımdır ki, Avropa sistemi ilə müqayisədə onların dərəcələri təxminən yarım ulduz şişirdilir.

1999-cu ilin əvvəlində **Çində** 400 mindən artıq yerləşdirmə obyekti var idi. Onların qiymətləndirilməsi zamanı, geniş yayılmış beş ulduzlu sistemdən istifadə olunur. Bundan əlavə, ölkədə yerli spesifik şkaladan da istifadə edilir. Bu şkalaya görə, "qonaq evləri" (zhaodaisuo), qəbul üçün nəzərdə tutulmuş daha primitiv bazalara aid edilir. Bu karvansaralar və ya xostellər*, tələbə yataqxanaları ilə müqayisə edilə bilər.

"Qonaq üçün evlər" (binguan) daha komfortabelli və mahiyyət etibarı ilə iki-üç ulduzlu mehmanxana səviyyəsində olurlar.

---

** ***Solyari*** (latın mənşəli sözdür, günəş mənasında başa düşülür) - günəş vannaları qəbul etmək üçün xüsusi hazırlanmış yerlər.

* ***Xostel*** (ingilis mənşəli sözdür) - gecələmək üçün ucuz qiymətli tələbə mehmanxanası.

Turist mehmanxanalarını, üç-dörd ulduzlu mehmanxanaların tələblərinə cavab verən, daha yüksək yerləşdirmə vasitələrinə, “şərab evlərini” (jindian) isə dörd-beş ulduzlu otellərə aid etmək olar. Bu bölgülərdə Çin standartları, Avropa standartlarından heç də geri qalmır.

**Yunanıstanda** dərəcələrin “hərf” sistemi ilə bölgüsü geniş yayılsa da, otellərin fasadlarında, adətən, hərflərlə yanaşı ulduzları da görmək olar. Bütün yunan mehmanxanaları dörd kateqoriyaya bölünürlər: A, V, S, D. “A” kateqoriyalı mehmanxanalar dörd, “V” - üç, “S” - iki  ulduzlu dərəcələrə uyğun gəlir. Yüksək səviyyəli mehmanxanalara “de luxe” (D) kateqoriyası verilir. Yunanıstanın yerləşdirmə vasitələrində kateqoriyalara ayırma sisteminin olmasına baxmayaraq, bəzən eyni kateqoriyaya mənsub olan mehmanxanalar bir-birindən fərqlənirlər.

“S” kateqoriyalı (iki ulduzlu) otellərdə minimum xidmət dəsti təklif edilir və onlar dəniz sahillərindən uzaqda yerləşirlər.

“V” kateqoriyalı (üç ulduzlu) otellər əksər hallarda ya kurort zonasında ya da dəniz sahillərində yerləşirlər.

Ən yüksək səviyyəyə iddia edən mehmanxanalar, adətən, beynəlxalq tələblərə cavab verirlər.

**Böyük Britaniya** mehmanxalarının dərəcələrə bölgüsü daha mürəkkəbdir. Bir sıra kataloqlar, ənənəvi ulduz dərəcəsini təklif etsələr də otellərin fasadlarında bir qayda olaraq, ulduz əvəzinə tac əks olunur. Mehmanxanaların dərəcələrini “tac dilindən” “ulduz dilinə” çevirmək üçün tacların ümumi sayından bir çıxmaq lazımdır. Məsələn, Londondakı “Royal Norfok Hotel” üç ulduzlu və ya dörd taclı mehmanxana kimi təqdim edilə bilər.

Britaniya turagentləri assosiyasiyasının (British Travel Authority) təklif etdiyi dərəcə bölgüsü daha münasib hesab olunur:

- Büdcə mehmanxanaları (□). Şəhərin mərkəzi hissəsində yerləşirlər və minimal rahatlığa malikdirlər.
- Turist dərəcəli mehmanxanalar (□□). Bu mehmanxanalarda restoranlar və barlar vardır.
- Orta dərəcəli mehmanxanalar (□□□). Bunlarda xidmət səviyyəsi kifayət qədər yüksəkdir.
- Birinci dərəcəli mehmanxanalar (□□□□). Çox yüksək yaşayış və əla xidmət səviyyəsi ilə seçilirlər.

- Ali dərəcəli mehmanxanalar (□□□□□). Xidmət və yaşayış səviyyəsinin ekstra dərəcəsi ilə fərqlənirlər.

Digər ölkələrlə müqayisədə, Britaniya mehmanxanalarının bir sıra özünəməxsus xüsusiyyətləri vardır. Nəzərə almaq lazımdır ki, London mehmanxanalarının bir hissəsi şəxsi mülkiyyətə, bir hissəsi isə səhmdar cəmiyyətlərə, şirkətlərə və s. məxsusdur. Eyni və bərabər şərtlər daxilində otellərin seçimi zamanı, bir sahibkarın əlində olan otellərə üstünlük verilir. Böyük Britaniya mehmanxanalarının müəyyən bir hissəsinin yerli menecerlər* tərəfindən idarə edilməsinə baxmayaraq, onların əksəriyyəti iri beynəlxalq şəbəkələrə daxil olurlar.

**İtaliyanın** mehmanxana bazası, bütün ölkə ərazisinə səpələnmiş 40 min mehmanxanadan ibarətdir. Səyahətçilərin çox zaman otellərin qapılarında təsadüf etdikləri tanış ulduz işarələrinin olmasına baxmayaraq, italyan mehmanxanalarının dərəcələrə bölünməsi işində böyük çətinliklər mövcuddur. Ölkədə rəsmi "ulduz" şkalası yoxdur. İtaliyada qəbul olunmuş normalara görə, otellər üç kateqoriya ilə fərqlənirlər. Hesab etmək olar ki, şərti olaraq birinci kateqoriya dörd, ikinci üç və üçüncü isə iki ulduza uyğun gəlir. Bundan əlavə, hər kateqoriya çərçivəsində ixtiyari bölgü də mövcuddur.

İtalyan mehmanxanalarının nəzərə çarpan xüsusiyyətlərindən biri, onların kiçik ölçüdə olmalarıdır (50-80 nömrə). Kiçik mehmanxanalar bir qayda olaraq, çox nadir hallarda yüksək kateqoriyaya iddia edirlər və adətən iki ulduz səviyyəsində olurlar. Amma Alp kurortlarında, təchizatın və xidmətin səviyyəsi ən yüksək tələblərə cavab verən kiçik otellərə də rast gəlmək olur.

Dörd ulduzlu mehmanxanalar üç ulduzlu mehmanxanalardan rahatlığın səviyyəsi ilə seçilirlər. İtalyan mehmanxanalarının bir sıra çatışmazlıqları, müəyyən üstünlüklərin, məsələn, çoxsaylı və yaxşı təchiz edilmiş konfrans zalların olması ilə kompensasiya olunur.

**İsrail** dövləti Aralıq və Qırmızı dəniz sahillərində yüksək səviyyəli kurort-mehmanxana komplekslərinə malikdir. Otellərin sayının artmasına baxmayaraq, hələ ötən əsrin 90-cı illərindən tətbiq edilən ulduz dərəcələri artıq ləğv edilmişdir. Bunun əvəzinə mehmanxanaların dərəcə bölgüsü üç kateqoriya üzrə aparı-

---

* ***Menecer*** (ingilis mənşəli sözdür, idarə etmək məzmununu daşıyır) - hər hansı bir təşkilatın ayrı-ayrı bölmələrinin peşəkar rəhbəri.

lır. Müştərilər tərəfindən rahat anlaşılması üçün, turfirmaların əməkdaşları İsrailin otellərini yenə də ulduz şkalası ilə qiymətləndirməkdə davam edirlər.

Məlum olan sadəliklərinə baxmayaraq, İsrailin üç ulduzlu otellərində mükəmməl istirahət üçün müştəriyə lazım olan minimum xidmət dəsti təqdim edilir. Dörd ulduzlu otellər təkcə yüksək rahatlığı ilə deyil, həmçinin yerləşdiyi əraziyə və daha yüksək xidmət keyfiyyətinə görə, üç ulduzlu otellərdən fərqlənir. Yüksək kateqoriyalı otellər, xüsusi gözəlliyi və kübarlığı ilə fərqlənir və zəruri tələbata tam cavab verirlər.

**İspaniyada** yerləşdirmə vasitələrinin kateqoriyalar üzrə bölgüsü aşağıdakı kimi tədbiq edilir:

- Mehmanxanalar (hoteles) bir ulduzdan beş ulduzadək, beş kateqoriya üzrə.
- Mehmanxana tipli evlər, bunqalo* və s. (hoteles-apartmentes) bir ulduzdan dörd ulduzadək, dörd kateqoriya üzrə.
- Karvansaralar (hostales) bir ulduzdan üç ulduzadək, üç kateqoriya üzrə.
- Pansionatlar (pensiones) üç kateqoriya üzrə.

Bundan əlavə, İspaniyada turizm nazirliyinin tabeliyində olan və turistlərin qəbulu üçün nəzərdə tutulmuş dövlət müəssisələri də (paradores) fəaliyyət göstərirlər. Onlar əsasən, daha mənzərəli və səfalı, turistlərin yerləşdirilməsi üçün digər imkanların olmadığı ərazilərdə yerləşirlər. “Lüks” otel səviyyəsində təchiz edilmiş qədim qalalar, qəsrlər və malikanələr belə müəssisələrə aiddir.

Dediklərimizi yekunlaşdıraraq qeyd etmək lazımdır ki, mehmanxanaların dərəcələrə bölgüsü hər bir ölkədə özünəməxsus tərzdə həyata keçirilir, hətta eyni kateqoriyaya aid edilən, amma müxtəlif ölkələrdə yerləşən mehmanxanalar arasında nəzərə çarpacaq dərəcədə fərqlər mövcuddur.

---

* ***Bunqalo*** (əsası hindulardan götürülmüş ingilis mənşəli sözdür) - yüngül, aynabəndli şəhərkənarı ev.

# FƏSİL 5.

## BEYNƏLXALQ TURİZM VƏ TƏBİƏTİN MÜHAFİZƏSİ

Beynəlxalq turizm bir tərəfdən misli görünməmiş miqyasda genişlənir, digər tərəfdən turizm ilə təbiətin qarşılıqlı münasibətlərində təzadlıq yaradır. Beynəlxalq turizmin coğrafi mühitdən asılılığı təkzibedilməz fakt olsa da turizmin özü də bu mühitə, onun dəyərlərinin ölçülərinə, xarakter və strukturuna təsir göstərir. Məsələn, turizmin landşaftın görünüşünə təsiri nəticəsində «turist landşaftı» termini, yəni iri otellər, restoranlar, müasir avadanlıqlı çimərliklər olan xüsusi istirahət və əyləncə yerləri nəzərdə tutulur.

Məşhur İsveçrə coğrafiyaşünası Hans Beş düzgün olaraq qeyd edir ki, turizmin, landşaftın görünüşünə təsirinin labüdlüyü ilə yanaşı, bu təsir iki, bir-birinə əks istiqamətdə baş verir: bir tərəfdən landşafta müəyyən ziyan vurulur (təbiətin mühafizəsinin pozulması və təbiətlə harmonik uyğunluğu olmayan eybəcər turizm mərkəzlərinin yaradılması), digər tərəfdən təbiətin, xüsusilə təbii abidələrin turizmin tələbatına cavab verə biləcək səviyyədə toxunulmazlığı və qorunmasına diqqət verilir.

Turizm bir qayda olaraq, təbii ehtiyatların və mədəni-tarixi dəyərlərin aşkar edilməsi, bərpası və səmərəli istifadə olunmasını stimullaşdıran amil kimi çıxış edir. Bunun səbəbi odur ki, əcnəbi turistləri qəbul edən ölkə, qonaqları layiqli qarşılamaq, onları öz ərazisində mümkün qədər çox saxlamaq, ilk öncə isə, ölkəyə gələ biləcək potensial turistlər üçün reklam məqsədi ilə ən gözəl təəssürat aşılamaq üçün rekreasiya ehtiyatlarını toplayır və tam istifadə etməyə çalışır. İkincisi, xarici turist səfərləri zamanı səyahətçilərin qarşılıqlı olaraq, yeni, xeyirli və maraqlı nə isə axtarmaq və tapmaq həvəsində olmalarıdır. Üçüncüsü isə, turizmdən əldə olunan gəlirin bir hissəsinin milli sərvətlərin bərpası və mühafizəsi üçün istifadə edilməsini mümkünlüyüdür.

Bir çox dövlətlər təbiət və tarixi sərvətlərin pasportlaşdırılmasını həyata keçirmişlər. Bu isə, turizmin inkişaf yollarının və milli sərvətlərin mühafizəsinin istiqamətləndirilməsinə kömək edir. Son illərdə bir sıra ölkələrdə təbiətin mühafizəsinə yönəlmiş qəti tədbirlərin həyata keçirilməsi, yeni milli parkların və qoruqla-

rın yaradılması, təbiətin yüklənməsinə yol verilən həddin elmi surətdə müəyyən edilməsinə cəhd göstərilməsi və s. üzrə görülən qəti tədbirlər - coşğun inkişaf edən xarici turizmin neqativ tərəflərini maksimum dərəcədə neytrallaşdırmağa səy göstərmək, eyni zamanda turizm üçün daha münasib şərait yaratmaq, təbii-coğrafi mühiti qorumaq və yaxşılaşdırmaq məqsədi ilə həyata keçirilir. Şəhərlərin yaşıllaşdırılması, səs-küyə qarşı mübarizə və təmizlik yaradılması özü də, müəyyən dərəcədə turizmin inkişafı tələblərinin nəticəsidir.

Bir sıra Avropa dövlətlərində meşələrin mühafizəsinin gücləndirilməsi və bərpasını, beynəlxalq turizmin xidmətləri sırasına aid etmək olar. Havay adalarında tropik quşların mindən çox növünün məskən saldığı «Cənnət parkı»nı, Viktoriya gölündəki (Tanzaniya) Saa-Nana adasında yaradılmış qoruğu və s. buna misal göstərmək olar.

Mağaralara ekskursiyaların təşkili, son illərdə bir çox ölkələrə böyük gəlir gətirir. İsveçrə, Fransa, Çexiya, Yuqoslaviya, Rusiya, Macarıstanda və b. ölkələrdə karst mağaraları kütləvi surətdə turistləri özünə cəlb edir. Xüsusi tədbirlər həyata keçirilmədikdə, bu mağaraların stalaktit* və stalaqmitlərdən** ibarət olan və elm üçün böyük mahiyyət kəsb edən nadir «bəzəklərinin» məhv olmasına səbəb ola bilər.

Turistlərin maraqlarının təmin edilməsinə və eyni zamanda yeraltı sərvətlərin qorunmasına, yalnız avadanlığa və mağara təbiətinin mühafizəsi üçün kapital qoymaq yolu ilə nail olmaq mümkündür. Livandakı 6 km-lik Ceyt mağarasının elektriklə təmin edilməsi və turistlərin çayla aparılması üçün kiçik gəmilərin işə salınması nəticəsində, həmin mağaraya gələnlərin sayı aşağıdakı göstərilən sürətlə artmışdı: 1958-ci ildə - 43, 1995-ci ildə - 250 min nəfər.

Beynəlxalq turizm də daxil olmaqla, ümumiyyətlə turizm ilk öncə kütləvi istirahət və səyahətlər üçün nəzərdə tutulmuş ayrı-

---

* ***Stalaktit*** (yunan mənşəli sözdür, damcı-damcı sızılmış mənasını daşıyır) – karst mağaralarının tavanından çubuq, boru, buz lüləsi formasında inkişaf edən əhəngli mineral törəmə.

** ***Stalaqmit*** (yunan mənşəli sözdür, damcı mənasını daşıyır) - mağara və s. yeraltı karst boşluğunun dibindən inkişaf edən konusşəkilli, sütunvari və başqa formalı əhəngli mineral törəmə.

ayrı rayonların və bölgələrin təbii sərvətlərinə mənfi təsir göstərir. Toxunulmayan, təbii meşə landşaftı turistlər üçün xüsusilə cəlbedici olur. Tonqal qalanması nəticəsində baş verən meşə yanğınları əsasən beynəlxalq turizmlə deyil, daxili turizmlə bağlı hallardır. Çünki, xarici turistlər üçün nəzərdə tutulan komfortabelli marşrutlarda bir qayda olaraq, tonqallarda yemək bişirmək nəzərdə tutulmur. Amma meşələrin qırılması yolu ilə tikinti üçün sahələrin təmizlənməsi (adətən mənzərəli, yaşıl ərazilərdə) tələb edilən turist komplekslərinin yaradılması özü də beynəlxalq turizmin inkişafına zəmin yaradan amillərdəndir.

Milli parklar turistləri cəlb edən yerlərdəndir. Belə ki, ABŞ-ın milli parklarına gəzməyə gələn yerli və əcnəbi turistlərin sayı 20 mln. nəfərə çatır. Səyahətlərin təşkilatçıları və iştirakçıları, təbiətə qarşı nə qədər xeyirxah olsalar da gələnlərin sayının çoxluğu və milli park ərazilərinin məhdudluğu nəticəsində fauna aləminin oranı tərk etməsi və bitkilərin tapdalanması baş verir. Turistlər üçün servis yaratmaq və yüksək gəlir əldə etmək məqsədi ilə, qoruqların ərazisində kommunikasiya sisteminin təkmilləşdirilməsi, ticarət şəbəkəsinin və otellərin yaradılması, landşaftın təbii halda saxlanılmasına imkan vermir. Hər bir qoruğun qəbul imkanlarının elmi əsaslandırılmış normaları olmadıqda və onlara ciddi şəkildə riayət edilmədikdə, turizm ilə təbiətin qarşılıqlı münasibətlərində təhlükəli təzahürlər meydana çıxır.

Turizmin, o cümlədən xarici turizmin kütləvi inkişafı heyvanat aləmi üçün də təhlükə törədir. Belə ki, əksər turistlər, xüsusilə Avropa və Şimali Amerikanın inkişaf etmiş ölkələrinin varlı təbəqəsindən olan turistlər, yalnız müşahidə etmək, fauna və flora nümunələrinin kino-foto şəkillərini çəkməklə kifayətlənmir, ovda iştirak etməyə cəhd göstərir, nadir və qorunan heyvanların ovlanması ilə təbiətə vurduqları ziyan haqqında fikirləşmirlər. Bir çox ölkələrdə buna qarşı tədbirlər görülməsinə baxmayaraq, Afrika, Asiya və Latın Amerikasının bir sıra bölgələrində əcnəbilərin brakonyerliyi indi də davam edir.

Turistlərə xidmətin yaxşılaşdırılması məqsədi ilə, sərnişin gəmilərinin çimərliklərə yaxın ərazilərdə hərəkətinin artması, son nəticədə istirahət zonalarının neft məhsulları tullantıları və s. ilə zibillənməsinə səbəb olur. Təhlükəli qar uçqunlarının olduğu dağ rayonlarına turistlərin, alpinistlərin yürüşləri, dağ çaylarının hidro-

loji rejimləri üçün müəyyən təhlükə yaradır. Yerli xüsusiyyətlərin kifayət qədər hesaba alınmaması, dağ idman növlərinin keçirilməsi qaydalarının pozulması, qar uçqunlarının yaranmasının bilavasitə günahkarları olan insanların həlak olması ilə yanaşı, eyni zamanda böyük bir ərazinin hidrorejiminin pozulması və bütöv turist kompleksinin sıradan çıxması ilə nəticələnə bilər.

«İstirahət şəraitinin» mühüm elementləri - təmiz hava, dağ və meşə rayonlarının sakitliyi, mühüm təbii sərvətlər sayılır. Amma məskunlaşmamış rayonlara turistlərin kütləvi surətdə, nəqliyyatın yeni növləri ilə daxil olmaları, kommunikasiya şəbəkəsinin genişlənməsi, bu yerlərin ilkin gözəlliklərini itirməsinə, eyni zamanda bir çox səyahətçilər üçün də maraqsız olmasına səbəb olur. Beləliklə, turizmin inkişafı məqsədi ilə təbiət üzərinə həddindən ziyadə hücum edilməsi, nə təbii sərvətlərin qorunmasına, nə də turistlərin istirahətinin yaxşılaşdırılmasına xidmət göstərir.

Parisin mərkəzində yerləşən, bir zamanlar gözəl bir park kimi tanınan Bulon meşəsini kütləvi turizmin mənfi effektinə misal göstərə bilərik. Hazırda bu park xarici görünüşcə qaçqınlar üçün düşərgəyə bənzəyir. Treylerlər* harada oldu çəpəki saxlanılır, iplərdə camaşır qurudulur, itlər çadırların arasında qaçışır. Bu «mənzərənin» yaradılmasına səbəb turistlərə burada düşərgə salmağa icazə verilməsidir. Dünyanın ən gözəl şəhərlərindən birinin necə deyərlər «ürəyində» sanki hansısa bir qaraçı köçü məskən salmışdır.

Fransanın cənubundakı məşhur çimərlikləri də turizmin ətraf mühitə mənfi təsirinin nümunəsi kimi göstərmək olar. Mavi Sahil (Fransa Rivyerası), uzun illər varlı və məşhur adamları özünə cəlb etmişdir. Ötən əsrin 50-60-cı illərində Nitsa, San-Trope kimi şəhərlərin «kəşf edilməsi» ilə buralar dünya elitasının sevimli istirahət yerlərinə çevrilmişdir. Qızğın mövsümdə ümumi çimərliklərdə iynə atsan yerə düşməz. Şəxsi çimərliklərdə «göbələk» şəkilli bir çətir və onun altında bir parça yer icarəyə götürmək üçün bir gündə təxminən 40 ABŞ dolları həcmində pul ödəmək lazım gəlir.

---

* ***Treyler*** (ingilis mənşəli sözdür, dartmaq, sürümək mənalarını daşıyır) – avtomobillərin arxasına qoşulan çarxlı evcik. Avtomobillə səyahətə çıxanlar treylerlərdən geniş istifadə edirlər.

Turistlərin kütləvi axını, yerli idarəçilik orqanlarını məhdudlaşdırıcı tədbirlər görməyə məcbur edir. Parisdəki Müqəddəs Məryəm məbədinə bir gündə 400 nəfərdən artıq zəvvar buraxılmır (əvvəllər bir neçə min adam buraxılırdı). Çünki zəvvarların sayının çoxluğu nəticəsində tarixi binaya ciddi ziyan dəyə bilər. 1964-cü ildə Fransanın cənubundakı Lakso kəndi yaxınlığındakı, çox qədim zamanlara aid məşhur qayaüstü rəsmlərlə zəngin olan mağaraya giriş qadağan olunmuşdur. Belə ki, insanlar nəfəs aldıqları vaxt xaric etdikləri karbon qazı qaya divarlarına həkk olunmuş şəkillər üçün zərərlidir. Turistlər üçün xüsusi olaraq, divarlarında həmin şəkillərin surətləri əks etdirilmiş digər mağara istifadəyə verilmişdir. Amma bu mağara da həmin səbəblərə görə çox ağır vəziyyətə düşmüşdür.

Bu mühüm və adi olmayan problemlərin həlli, turizmin, o cümlədən beynəlxalq turizmin ümumi mədəni səviyyəsinin yüksəldilməsi, qanunvericilik və mühafizə tədbirlərinin gücləndirilməsi, hər turist obyektinin yüklənmə normalarının elmi mövqedən hazırlanması xətti ilə getməlidir. Yay mövsümündə kurorta gələnlərin çimərliklərdə həddindən artıq olması, beynəlxalq turizmin qarşısında duran kəskin problemlərdən biridir. Bolqarıstan mütəxəssisləri müəyyən etmişlər ki, istirahət edən hər bir şəxsə orta hesabla 5-8 kv. m çimərlik sahəsi lazımdır. Bu, turistlərin normal istirahəti, istirahət zonasının müalicəvi, gigiyenik və estetik keyfiyyətlərinin qorunub saxlanılması üçün zəruridir.

Təbii turist ehtiyatlarının xüsusiyyəti, tələb edildiyi təqdirdə və lazım olduqda onların bərpa edilməsinin mümkün olmamasıdır. Məsələn, toxunulmayan təbiət qoynuna avtoturizmin təşkili, bu yerlərə avtomobil yollarının salınması, nəticə etibarilə meşə sahələrinin azalmasına səbəb olur. Meşələrin məhv olması kimi ekoloji fəlakətin yaxınlaşması ilə Almaniyada yaranmış vəziyyət buna nümunə ola bilər. Alimlərin rəyinə görə meşələrin korlanmasının əsas səbəbini havanın, xüsusilə də onun tərkibində olan zəhərli qazların təsiri nəticəsində çirklənməsində axtarmaq lazımdır.

ÜTT-nın ekspertləri tərəfindən aparılan tədqiqatların birində göstərilir ki, ətraf mühit tez korlanır, amma çətinliklə bərpa edilir: ətraf mühitin məhdud miqdarda olmasına baxmayaraq, ondan istifadə edən turistin mühitə qarşı «tələbatı» daim artır.

Yüksək keyfiyyətli ətraf mühit turizm üçün bir növ «xammaldır». Ona görə də ətraf mühitin ehtiyatlarından qənaətlə istifadə ilə yanaşı onun mühafizəsini də təmin etmək lazımdır. Ətraf mühitin qayğısına qalmaqla yanaşı nəzərə almaq lazımdır ki, tənəzzülə uğrayan ətraf mühit mütləq həm turizmə həm də həmin regionun iqtisadi inkişafına da ziyan vuracaqdır.

Xatırladaq ki turizmin ətraf mühitin vəziyyətinə neqativ təsiri, özünü tez bir zamanda biruzə vermir, bu təsir müəyyən müddət keçdikdən sonra, tədricən təbii turist ehtiyatlarının bərbad vəziyyətə düşməsinə səbəb olur. Planlaşdırma olmadan turizmin inkişafı xüsusi sahibkarların öhdəsinə buraxıldıqda, bunun ətraf mühitə mənfi təsirinin nəticələri özünü daha qabarıq göstərir. Buna nümunə olaraq, Azərbaycan Respublikasının Yalama-Nabran zonasını qeyd etmək olar. Bu ərazinin dəniz sahili çimərliklərində və meşə massivlərində şəxsi turist obyektlərinin sistemsiz tikintisi indi də davam edir.

Bir sıra hallarda mehmanxana tikintisinin geniş vüsət alması, ətraf mühitin korlanmasına səbəb olur. Belçikanın La-Manş boğazı sahillərində yerləşən Ostenda şəhəri ərazisində 62 km-lik bir sahədə mehmanxana tikintisini buna nümunə göstərmək olar: bu tikintilər zamanı dənizdə müdafiə dambalarının qurulmaması nəticə etibarilə təbiətin tarazlığını pozmuş və çimərlikdə qumun fəlakətli dərəcədə azalmasına səbəb olmuşdur.

Turizmin inkişafının ətraf mühitə neqativ təsirindən danışarkən, bir faktı da nəzərə almaq lazımdır ki, insan fəaliyyətinin istənilən növü ətraf mühitdə həm pozitiv, həm də neqativ xarakterli dəyişikliklərə səbəb olur. Turizmin ətraf mühitə vurduğu ziyanı həddindən artıq şişirtmək də əsassızdır. Təbii ki, sənayeləşmə və urbanizasiya ilə əlaqədar hər bir əməliyyatın ətraf təbii və mədəni mühitə vurduğu ziyan, turizmin vurduğu ziyandan daha çoxdur. Turizmin inkişafı düzgün planlaşdırıldıqda ətraf mühitin mühafizəsinə kömək edə bilər.

Sənayeləşmə və urbanizasiyanın ətraf mühitə zərər vurmaması üçün, regional səviyyədə planlaşdırma zamanı fəaliyyətin bu və ya digər növünün, o cümlədən turizmin inkişaf tempinin ətraf mühitə göstərə biləcəyi təsiri nəzərə almaq lazımdır. Turizmin inkişaf planı bütünlükdə regionun inkişaf planına daxil edilməlidir. Belə şəraitdə turizm, nəinki ətraf mühitin vəziyyətinə

dağıdıcı təsir göstərir, əksinə onun müdafiəçisinə çevrilir. Bu məqsədə nail olmaq üçün ölkədə turizmin inkişafı dövlət siyasətinə çevrilməlidir yəni:

- Mövcud təbii turizm ehtiyatlarının qorunması məqsədilə onlara yaxın yerlərdə sənaye obyektləri tikilməməlidir.
- Su hövzələrinin təmizlənməsi və abad çimərliklərin salınmasına nail olmaq lazımdır.
- Əsas turizm ehtiyatlarından sayılan təbiətin toxunulmazlığını mühafizə məqsədi ilə qoruqların və yasaqlıqların yaradılması məqsədə uyğundur.
- Əvvəllər turizm və istirahət üçün yararsız olan bölgələrin mənimsənilməsi yolu ilə yeni turist mərkəzlərinin yaradılmasına nail olmaq lazımdır.

Fransanın Lanqedok-Russilyon turist kompleksi buna parlaq nümunədir. Aralıq dənizinin 200 km-lik bu sahil bölgəsi turizm üçün yararsız (bataqlıq torpaqlarının geniş yer tutması, cansıxıcı mənzərəsi, təbii yaşıllığın demək olar ki, olmaması, ağcaqanadların bolluğu və s.) vəziyyətdə idi. Belə bir ərazidə 300 min nəfərlik ümumi tutumu olan bir neçə turizm mərkəzinin yaradılması qərara alındı.

Turistləri cəlb edə biləcək ətraf təbii mühitin yaradılması və qorunması üzrə geniş miqyaslı işlər aparıldı: bataqlıqlar quruduldu, ağcaqanadlar məhv edildi, meşələr salındı. Görülən işlərin nəticəsində cəlbedici bir landşaft yaradıldı: üzərində gözəl körpülər salınmış kanallar çəkildi, süni torpaq təpələr yaradıldı, landşaftın cansıxıcılığı ləğv edildi. Nəticədə, bir tərəfdən Lanqedok-Russilyon bölgəsinin ətraf mühiti yaxşılaşdı, digər tərəfdən Aralıq dənizi sahillərindəki ənənəvi kurort yerlərindəki ətraf mühitin qorunmasına yardım göstərilmiş oldu. Belə ki, həmin yerlərə istiqamətlənən turist axınının bir hissəsi, yeni yaradılmış turizm mərkəzlərinə yönəldildi.

Təbii sərvətlərin mühafizəsi xüsusi texniki vəsaitlərin yaradılmasını tələb edir. İlk növbədə çimərliklərin, çirkli suların, dəniz suyunun, göllərin və hovuzların təmizlənməsi üçün müxtəlif növ maşınlardan istifadə edilməsi, ikincisi, təbiətin durumunu və istirahət edənlərin davranışlarını müşahidə etmək üçün texnikadan (patrul avtomobilləri, katerlər və vertolyotlar) istifadə edilməsi;

üçüncüsü nəqliyyatın və avadanlığın təbiətə xələl gətirməyən yeni növləri ilə turistlərin təmin edilməsi.

Təbiətin mühafizəsi üçün, istirahət prosesində təbii komplekslərdən istifadə texnologiyasının elmi əsaslandırılması çox mühümdür. Çünki bu zaman ərazinin insanlar tərəfindən eyni vaxtda istifadə edilməsi və istifadənin müddəti normaları, eyni vaxtdakı istifadədən sonra təbii kompleksinin «təmiri» də nəzərə alınmalıdır.

Turist kompleksinin və ya hər hansı bir bölgənin kurort şəbəkəsindən vaxtaşırı «çıxarılması» ilə bağlı qaçılmaz çətinliklər və bununla əlaqədar müvəqqəti maliyyə çətinlikləri, əsas məsələnin - təbiətin mühafizəsi məsələsinin həlli üçün maneə olmamalıdır.

Daha yüksək inkişaf etmiş ölkələrdə torpaq üzərində xüsusi mülkiyyətin olması, turizm biznesi ilə bağlı olan xüsusi firma və turist təşkilatlarının bolluğu, planlaşdırmada çətinliklər yaradır. Belə ki, bu cür təşkilatlar, təbiətin mühafizəsi tələblərinə məhəl qoymadan, əcnəbi turistlərin qəbulundan daha çox gəlir qazanmağa səy göstərirlər.

Turizmin inkişafında və eyni zamanda milli sərvətlərin qorunmasında bütün cəmiyyətin maraqlı olması, daxili və beynəlxalq turizmin yüksək sürəti və iqtisadi effektliliyi, istehsal qüvvələrinin dönmədən inkişafı və xalqın rifahı - bütün bunlar adı çəkilən məsələlərin müvəffəqiyyətlə həll olunmasına imkan yaradır.

Ötən əsrin 80-ci illərindən başlayaraq ekoturizm fəaliyyəti sürətlə genişlənməyə başlamışdır. Mütəxəssislər bu sahənin gələcəkdə daha da inkişaf etməsinə dair müxtəlif fikirlər irəli sürürlər. Ekoturizmin Ümumdünya əhəmiyyətini qəbul edən BMT, 2002-ci ili Beynəlxalq ekoturizm ili elan etmişdir. BMT-nin sabit inkişaf üzrə komissiyası isə bütün beynəlxalq təşkilatlara, hökumətlərə və xüsusi bölməyə bu təşəbbüsə dəstək vermək üçün tədbirlərin həyata keçirilməsini təklif etmişdir.

Bununla əlaqədar ÜTT, üzv dövlətləri, həmçinin digər beynəlxalq və regional təşkilatlarla birlikdə Beynəlxalq ekoturizm ilinə həsr olunmuş tədbirlərin hazırlanması və həyata keçirilməsini məsləhət bilmişdir. ÜTT özünün hazırlıq çərçivəsində ekoturizmlə əlaqədar bir sıra regional tədbirlərin keçirilməsini də planlaşdırıb. Belə tədbirlərdə səslənən təklif və nəticələrə isə 2002-ci

ilin mayında Kanadanın Kvebek şəhərində keçiriləcək sammitdə baxılması nəzərdə tutulub.

# FƏSİL 6.

## BEYNƏLXALQ, REGİONAL VƏ MİLLİ TURİZM TƏŞKİLATLARI

Bir çox ölkələrin xarici siyasi və iqtisadi fəaliyyətində beynəlxalq turizmin nəzərə çarpacaq dərəcədə artması, BMT-nin və onun ixtisaslaşmış orqanlarının, həmçinin digər beynəlxalq təşkilatların, beynəlxalq əməkdaşlığın sürətlə inkişaf edən bu sahəsinə daha böyük diqqət yetirməsinə səbəb olmuş, turizm üzrə çoxsaylı ixtisaslaşmış təşkilatlar yaranmışdır.

Müasir dövrdə, bütün dünyada xarici turizmin inkişaf problemləri ilə bu və ya digər səpkidə məşğul olan 300-dən artıq beynəlxalq təşkilat fəaliyyət göstərir. İlk öncə qeyd etmək lazımdır ki, beynəlxalq turist mübadiləsi məsələləri ilə məşğul olmaq, BMT-nin fəaliyyətində də müəyyən yer tutur.

**1963-cü ildə Romada BMT xətti ilə turizm və səyahətlərə həsr olunmuş birinci konfrans keçirilmişdir.** Konfrans turizmlə bağlı məsələləri geniş müzakirə etmiş, insanlar arasında kütləvi ünsiyyət forması olan turizmin inkişafının sürətlənməsinə yönəlmiş tövsiyyələr hazırlamışdır. **Konfrans müvəqqəti gələn (müsafir), turist, ekskursiyaçı kimi bu vaxta qədər müxtəlif cür yozulan anlayışları rəsmi surətdə müəyyənləşdirərək müvafiq qərar qəbul etdi.**

Bu, turizm statistikasında müəyyən unifikasiyanı* və müqayisəni təmin etmək üçün çox zəruri idi. Sərhəd və gömrük formallıqlarının azaldılması, kadr hazırlığı sistemi, turizmin inkişafının ümumi istiqamətləri və s. ilə əlaqədar məsələlər də konfransın gündəliyində mühüm yer tuturdu. Roma konfransının tövsiyyələrinə uyğun olaraq, 1968-ci ildə Berndə (İsveçrə) BMT-nin İqtisadi və Sosial Şurasının İnkişaf etməkdə olan ölkələrdə turizm problemlərinə həsr olunmuş regionlararası seminarı keçirildi.

Qeyd etmək lazımdır ki, 1946-cı ildən 1975-ci ilədək, yəni Ümumdünya Turizm Təşkilatının yaradılması və fəaliyyətə başlamasına qədər, BMT sistemində turizm sahəsinin təşkili və ölkə-

---

* ***Unifikasiya*** (latın mənşəli sözdür, vahid şəklə salmaq mənasını bildirir) - vahid şəklə, formaya, sistemə salma, eyni funksiyalı obyektlərin sayının səmərəli azaldılması.

lərarası əməkdaşlığın inkişafı üzrə əsas iş, İqtisadi və Sosial Şura (ECOSOC - Economic and Social Council) tərəfindən aparılırdı. Bu Şura ümumi rəhbərliyi həyata keçirmək, əlaqədar orqanlar, ixtisaslaşmış təşkilatlarla BMT proqramı sistemi üzrə əlaqələndirici iş aparmaq səlahiyyətinə malik idi. ECOSOC-un (Azərbaycan abbreviaturası İSŞ) turizm sahəsindəki praktiki fəaliyyəti əsasən, İqtisadi və Sosial Məsələlər üzrə şöbənin (departamentin) nəzarəti və çərçivəsi daxilində həyata keçirilir.

Şöbə, geniş məruzələrin hazırlanması, turizmə marağı olan digər təşkilatlarla məsləhətləşmələrin aparılması, bu sahə ilə əlaqədar BMT Baş Məclisinin və bilavasitə İSŞ-nın tapşırıqlarının yerinə yetirilməsi üzrə tədbirlər görülməsi üçün məsuliyyət daşıyır. Müntəzəm iş proqramına uyğun olaraq, şöbə bir sıra layihələrin həyata keçirilməsinə texniki yardım göstərmişdir. Qeyd etmək lazımdır ki, həmin dövrdə beynəlxalq turist mübadiləsi fəal surətdə formalaşdığından turizm sahəsində əməkdaşlığın yeni forma və şərtləri də meydana çıxırdı.

İSŞ-nın iş proqramında turizmin maddi-texniki bazasının inkişafı məsələləri, o cümlədən turizmin inkişafı üzrə ölkələrin kompleks imkanları və tələbatları ümumilikdə əks etdirilən regional və şəhərlər səviyyəsində planlaşdırma, xüsusi vurğulanırdı. Artıq o dövrdə, ətraf mühitin mühafizəsi ilə əlaqədar məsələlərə xüsusi diqqət yetirilir və bu məsələlər turizmin iqtisadi və maddi-texniki planlaşdırılması ilə qarşılıqlı surətdə həll edilirdi.

Beynəlxalq turizm məsələləri, BMT-nin Ticarət və İnkişaf Konfransının (ingilis abbreviaturası UNCTAD) fəaliyyət sahəsinə də daxildir. 1972-ci ildə UNCTAD-ın III sessiyasında qəbul olunmuş «Turizmin inkişafı» qətnaməsində beynəlxalq turist mübadiləsində statistikanın rəhbər prinsipləri haqqında məsələlər öz əksini tapmışdır.

BMT-nin iqtisadi komissiyaları, xüsusilə Avropa İqtisadi Komissiyası (AİK), BMT çərçivəsində turizmin inkişaf məsələlərinə böyük diqqət yetirirlər. Belə ki, 1975-ci ildə Yuqoslaviyanın Dubrovnik şəhərində AİK, Avropada xarici turizmin inkişafı üzrə böyük konfrans təşkil etmişdi. Xarici turizm sahəsində kapital qoyuluşunun iqtisadi cəhətdən əsaslandırılması və iri turist kompleksləri yaradılarkən ətraf mühitin mühafizəsi metodlarının hazırlanmasına böyük diqqət verilmişdi.

Turizm məsələləri ilə bir sıra digər beynəlxalq təşkilatlar, o cümlədən, elm və mədəniyyət məsələləri ilə məşğul olan və qısaca şəkildə UNESCO kimi tanınan, həmçinin Beynəlxalq Əmək Təşkilatı (BƏT), Nəqliyyat Aviasiyasının Beynəlxalq Assosiasiyası (NABA) və s. fəal məşğul olurlar.

Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirə (Helsinki, 1975-ci il) kimi iri beynəlxalq forumda turizmə verilən qiymətin üzərində xüsusi dayanmaq lazımdır. Müşavirənin yekun aktında «Turizmin inkişafı» adlı xüsusi bölmə ayrılmışdır. Bu mühüm tarixi sənəddə qeyd olunmuşdur:

İştirakçı dövlətlər:

- beynəlxalq turizmin, xalqlar arasında qarşılıqlı anlaşmanın inkişafına, başqa dövlətlərin müxtəlif sahələrdə qazandıqları nailiyyətlərlə tanış olmağa, o cümlədən iqtisadi, sosial və mədəni inkişafa töhvə verdiyini etiraf etməklə;
- turizmin inkişafı ilə iqtisadiyyatın digər sahələrində görülən tədbirlər arasında qarşılıqlı əlaqəni etiraf etməklə, həm fərdi, həm də kollektiv əsaslarla turizmin inkişafını həvəsləndirmək niyyətini ifadə edir.

**1980-cı ildə Manila şəhərində (Filippin) keçirilən Ümumdünya Turizm Konfransının işində 107 dövlətin, 91 beynəlxalq hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak etmişlər. Konfransda beynəlxalq turizmin müasir beynəlxalq münasibətlərdə rolunun dərin təhlili verilmişdir. Konfransın qəbul etdiyi beynəlxalq turizm haqqında Deklarasiyada qeyd edilmişdir: «Turizm, dövlətlərin sosial, mədəni və iqtisadi sahələrinə və onların beynəlxalq münasibətlərinə bilavasitə təsir göstərən fəaliyyət kimi anlaşılır»**. Deklarasiyada göstərilir ki, turizmin mövcudluğu və inkişafı sülhün möhkəm təminatından tam asılı olmaqla yanaşı əmin-amanlığın möhkəmlənməsinə də öz töhfəsini verməlidir.

Manila konfransı turizmin böyük iqtisadi əhəmiyyətini qeyd etməklə yanaşı, onun sosial əhəmiyyətini də xüsusi vurğuladı. Konfrans həmçinin qeyd etdi ki, beynəlxalq turizm fəaliyyəti «müasir milli cəmiyyətin və beynəlxalq ictimaiyyətin həyatının ayrılmaz hissəsidir». Xatırladaq ki, Manilada keçirilən Ümumdünya Turizm Konfransı, BMT-nin qərarı ilə, 130 ölkənin turizm

sahəsi üzrə hökumət orqanlarını birləşdirən Ümumdünya Turizm Təşkilatı tərəfindən təşkil edilmişdi.

**Ümumdünya Turizm Təşkilatı.** Təşkilatın yaranma tarixi - Millətlər Liqası çərçivəsində 1925-ci ildən başlanır. Uzun illər boyu bu təşkilat, rəsmi turist təşkilatlarının Beynəlxalq İttifaqı adlanmış və BMT-nın ixtisaslaşmış təşkilatları sisteminə daxil olmamışdır. Bu təşkilat BMT-nin ixtisaslaşmış orqanı rəsmi statusunu və indiki Ümumdünya Turizm Təşkilatı adını, öz Baş Məclisinin 1975-ci ildə keçirilən I sessiyasında (Madrid, İspaniya) almışdır. **ÜTT-nın əsas məqsədi, iqtisadi inkişafa, beynəlxalq münasibətlərə, sülhə, tərəqqiyə, qarşılıqlı hörmətə töhvə vermək naminə turizmin inkişafına imkan yaratmaqdan ibarətdir.**

ÜTT-nın fəaliyyəti, iki ildə bir dəfə keçirilən Baş Məclis vasitəsilə Avropa, Afrika, Amerika, Yaxın Şərq, Cənubi Asiya, Asiya-Sakit okean bölgələri üzrə 6 regional komissiya çərçivəsində həyata keçirilir. ÜTT-nın Madriddə yerləşən katibliyi tərəfindən nəşr edilən beynəlxalq turizmin statistikası BMT tərəfindən tanınır və qəbul edilir. ÜTT əslində, xarici turizm sahəsində ixtisaslaşmış yeganə beynəlxalq hökumətlərarası təşkilatdır.

Xarici turizm sahəsində çoxsaylı ixtisaslaşmış beynəlxalq qeyri-dövlət təşkilatları da fəaliyyət göstərirlər. 1966-cı ildə yaradılmış Turist agentlikləri birliyinin Ümumdünya Federasiyasını (ingilis abbreviaturası UFTAA) nümunə göstərmək olar. Federasiya, 1919-cu ildən fəaliyyət göstərən Turist Agentliklərinin Beynəlxalq İttifaqı ilə, 1964-cü ildə təşkil olunmuş Turist Agentlikləri Birliyinin Ümumdünya Təşkilatının birləşməsi nəticəsində yaradılmışdır. Federasiyanın əsas məqsədi - turist agentliklərinin peşəkar maraqlarının qorunması və onlara zəruri peşə, texniki və hüquqi köməklik göstərməkdən ibarətdir. UFTAA-□□ □□□□□□-□□□□□□□□□ □□□□□□□□□ (Belçika) yerləşir.

1951-ci ildə yaradılmış, turizm üzrə Elmi ekspertlərin beynəlxalq assosiasiyası (AIEST), 1969-cu ildə ÜTT-nın himayəsi ilə təşkil edilmiş turizmdə peşə təhsili üzrə Ümumdünya Assosiasiyası (WAPTT) kimi bir sıra beynəlxalq təşkilatlar peşəkar istiqamətdə fəaliyyət göstərirlər.

Avtomobillə xarici ölkəyə səfərə çıxanların sığortası üzrə ixtisaslaşmış Beynəlxalq Turizm Alyansı (ITA), peşəkar konqres

təşkilatçılarının Beynəlxalq Assosiasiyası (IAPCO) kimi bir sıra beynəlxalq təşkilatlar kommersiya xarakteri daşıyırlar.

Bir sıra həmkarlar təşkilatlarının təşəbbüsü ilə, 1963-cü ildə yaradılmış Beynəlxalq Sosial Turizm Bürosu (BITS), zəhmətkeşlərin geniş təbəqələrinin beynəlxalq turizmdə iştirakını təmin etmək məqsədi ilə şərait yaradılmasında mühüm rol oynayır.

Turizm üzrə Beynəlxalq təşkilatların çoxşaxəli olması, turizmin beynəlxalq əlaqələrdə rolunun artması, bir çox hökumət və qeyri-hökumət, beynəlxalq və milli təşkilatların turizmə olan maraqları ilə izah olunur.

Aşağıda bir sıra iri beynəlxalq turist təşkilatları haqqında qısa məlumat verilir:

WATA - *Ümumdünya Turizm Agentlikləri Federasiyası.* 1949-cu ildə təsis edilmişdir. Mənzil qərargahı Cenevrədədir (İsveçrə). **Məqsədi:** üzvlərinin iqtisadi maraqlarının müdafiəsinə təminatlı xidmət və informasiya verməklə yardım etmək, işgüzar əlaqələr yaratmaq, bronlaşdırma sistemini sadələşdirmək və əməliyyatlara görə mükafatlandırmanın təminatlı strukturunu təşkil etmək; mərkəzləşdirilmiş sənədləşdirmə və reklam fəaliyyəti sisteminin inkişafına kömək etmək.

ISTA - *Ekskursiya və Turizm Təşkilatçılarının Beynəlxalq Assosiasiyası.* 1952-ci ildə təsis edilmişdir. Mənzil-qərargahı Lissabondadır (Portuqaliya). **Məqsədi:** qarşılıqlı informasiya mübadiləsi vasitəsi ilə üzvləri arasında əlaqə və əməkdaşlığın inkişafına yardım etmək; digər təşkilatlarla dostluq münasibətləri və əməkdaşlığı inkişaf etdirmək; üzv ölkələrdə ekskursiya xidmətini təkmilləşdirmək; ekskursiya xidmətinin yaxşılaşdırılması, həmçinin qanunvericilik xarakteri daşıyan müvafiq qanun, norma və qərarların qəbulu məsələsində turizmlə bağlı hökumət orqanları ilə əməkdaşlıq etmək.

FICT - *Beynəlxalq Turizm Mərkəzləri Federasiyası.* 1948-ci ildə təsis edilmişdir. Mənzil-qərargahı Vadusdadır (Lixtenşteyn). **Məqsədi:** Turizm və informasiya xidməti rəhbərləri arasında daimi əlaqələrin yaradılması; texniki sənədlərin yığılması, nəşri və yayılması, həmçinin əməkdaşlıq hərəkatının təşkilidir.

IFTO - *Beynəlxalq Turoperatorlar Federasiyası.* 1970-ci ildə təsis edilmişdir. Mənzil-qərargahı Londondadır (Böyük Britaniya). **Məqsədi:** mehmanxana yerləşdirilməsi və xidməti, aviabi-

letlərin alınması üçün lisenziya verilməsi, gömrük, turist və mehmanxana qanunvericiliyi, hökumət və qeyri-hökumət turizm təşkilatları ilə əməkdaşlıq məsələlərini həll etməkdir.

WLRA - *Asudə Vaxt və İstirahət Məsələləri ilə bağlı Ümumdünya Assosiasiyası.* 1956-cı ildə təsis edilmişdir. Mənzil-qərargahı Nyu-Yorkdadır (ABŞ). **Məqsədi:** inkişaf etməkdə olan ölkələrdə gənclərin, yaşlıların, əlillərin həyat səviyyəsinin yaxşılaşdırılması, asudə vaxtın və istirahətin düzgün təşkili; cəmiyyətin sosial inkişafı məsələlərində istirahətin təşkilinin rolu və əhəmiyyətinin açıqlanması; bu problemlə bağlı bütün məsələlərə dair beynəlxalq forumların çağrılması; regional, milli və yerli assosiasiyaların təşkilinə yardım edilməsi; üzv ölkələrdə istirahət və asudə vaxtın təşkili məsələlərində milli siyasət və milli proqramların hazırlanmasına yardım etməkdir.

IATL - *Zəhmətkeşlərin Turizm və İstirahət üzrə Beynəlxalq Assosiasiyası.* 1964-cü ildə təsis edilmişdir. Mənzil-qərargahı Praqadadır (Çexiya). **Məqsədi:** sülhün, dostluğun və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi vasitəsi kimi sosial turizmin inkişafı, ödənişli məzuniyyətdən istifadə etməklə zəhmətkeşlərin hüquqlarının müdafiəsi, asudə vaxtın istifadəsi məsələləri üzrə Həmkarlar İttifaqlarının ümumi konsepsiyasının hazırlanması; müxtəlif ölkələrdə sosial turizmin inkişafı ilə bağlı təcrübə mübadiləsinin aparılması, həmçinin bu sahə ilə əlaqədar beynəlxalq təşkilatlarla əməkdaşlıq etməkdir.

IFPTO - *Sosial Turizm Təşkilatlarının Beynəlxalq Federasiyası.* 1950-ci ildə təsis edilmişdir. İqamətgahı Parisdədir (Fransa). **Məqsədi:** turizm məsələləri ilə bağlı bütün üzv təşkilatlar arasında əməkdaşlığın möhkəmləndirilməsi; turizm assosiasiyalarının təsisinə yardım edilməsi; bu təşkilatın maraqlarının BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Komitəsi (UNESKO), Beynəlxalq Əmək Təşkilatı (BƏT), həmçinin beynəlxalq avia, dəniz, avtomobil, dəmiryolu və digər nəqliyyat təşkilatlarında müdafiə edilməsi; əməkdaşlığın mübadiləsi proqramının həyata keçirilməsi; reklam və maarif məqsədli səfər və proqramların təşkilidir.

BITEJ - *Gənclər Turizmi və Mübadiləsi üzrə Beynəlxalq Büro.* 1960-cı ildə təsis edilmişdir. Mənzil-qərargahı Budapeştdədir (Macarıstan). **Məqsədi:** gənclər turizminin və mübadiləsinin dərketmə, tərbiyə nöqteyi-nəzərindən inkişafına şərait ya-

ratmaq; gənclər arasında anlaşma və dostluğun əldə edilməsinə yönəlmiş digər təşkilatlarla əlaqələrin inkişafına nail olmaq; gənclərlə bağlı səyahət bürolarının iş təcrübəsini, turizmin və turizm proqramlarının yeni formalarını, gənclər turizminin inkişafı tendensiyalarını öyrənməkdir.

ACIT - *Beynəlxalq Turizm Akademiyası*. 1951-ci ildə təsis edilmişdir. Mənzil-qərargahı Monte-Karlodadır (Monako). **Məqsədi:** beynəlxalq turizmin mədəni dəyərlərinin, beynəlxalq turizmin humanist istiqamət və tendensiyalarının mühafizəsi və inkişafı; xüsusi professional turizm terminləri lüğətinin hazırlanması və nəşr edilməsi ilə bağlı praktiki işlərin aparılmasıdır.

AIDT - *Turizm üzrə Parlamentlərarası Assosiasiya.* 1949-cu ildə təsis edilmişdir. Mənzil-qərargahı Berndədir (İsveçrə). **Məqsədi:** milli qanunvericilik orqanların (parlamentlər) və ictimai təşkilatların cəlb edilməsi ilə həm milli, həm də beynəlxalq səviyyədə turizmin inkişafına kömək etməkdir. Parlamentlərarası İttifaqla (Inter Parliamentary Union) əlaqələri vardır. 1989-cu ilin aprelində Haaqada (Niderland) bu ittifaqın təşəbbüsü ilə Ümumdünya Turizm Təşkilatı ilə birlikdə turizm məsələləri ilə əlaqədar beynəlxalq konfrans keçirilmişdir. Konfransda yekun sənəd kimi turizm üzrə Haaqa deklarasiyası qəbul edilmişdir.

Bir sıra beynəlxalq turist təşkilatları regional xarakter daşıyır. Məsələn, 1954-cü ildə yaradılmış Turizm üzrə Ərəb İttifaqı (ATU), Ərəb ölkələrinin milli turizm təşkilatlarını birləşdirir. 1966-cı ildə yaradılmış Afrika Turizminin İnkişafı Təşkilatı (ODAT) Afrikanın fransız dilli ölkələrini birləşdirir. Mərkəzi Afrika, Cənubi Amerika, Şərqi Asiya bölgələri ölkələrində də regional təşkilatlar fəaliyyət göstərir.

Qeyd etmək lazımdır ki, ötən əsrin 50-ci illərinin əvvəllərində ayrı-ayrı ölkələr yardım almaq üçün sifarişilə beynəlxalq təşkilatlara müraciət edirdilərsə, 60-cı illərin sonu, 70-ci illərin əvvəllərində bütöv regionlardan yardım üçün sifarişlər daxil olmağa başlamışdı. Bu, turizmin inkişafında və beynəlxalq turizm əlaqələrində yeni dövrün başlanması demək idi.

Turizmin regional sistemi, həmçinin regional əlaqələndirmənin, təşkil etmənin və nəzarətin olması, ayrı-ayrı ölkələrə, ümumi problemlərin həllinə birgə yanaşmaq, ümumi imkanlar-

dan istifadə etmək və birgə mövqedən çıxış etmək üstünlüyü verir.

Regional yanaşma, ətraf mühitin mühafizəsi və bioloji tarazlıq, yeni rayonların mənimsənilməsi, mədəni irsin qorunması, turizm sahəsində ümumi siyasətin formalaşmasının əsasları kimi rayonların (regionun) və ya onların ayrı-ayrı hissələrinin ümumi xarakteristikasının müəyyən edilməsi kimi böyük məsələlərin və problemlərin müvəffəqiyyətlə həll olunmasına, eyni zamanda turizm fəaliyyətində standartların, norma və qaydaların təsdiq edilməsinə imkan yaradır.

Bundan əlavə, turizm sahəsinin inkişafına bu və ya digər dərəcədə yardım göstərən digər beynəlxalq təşkilatları da qeyd etmək lazımdır. İlk növbədə, bütün beynəlxalq aviaxətlərin fəaliyyətini tənzimləyən, Ümumdünya təşkilatı olan - Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasını (IATA) göstərmək olar. Onun məqsədi, insanların və yüklərin daşındığı marşrut üzrə işin yaxşılaşdırılmasına yardımçı olmaqdan ibarətdir.

Müxtəlif aviaxətlər arasında daha operativ qarşılıqlı əlaqənin yaradılmasına kömək məqsədi ilə aviabiletlərin və hesablama uçotunun standartlaşdırılması bu Assosiasiyanın səlahiyyətinə daxildir. O, mülki aviasiyanın bütün aspektlərinin inkişafını əlaqələndirir. Qeyd etmək lazımdır ki, inkişaf məsələləri ilə məşğul olan bütün beynəlxalq təşkilatlar, turizmin inkişafından kənarda qala bilməzlər. Bunların arasında turizmin inkişafına iri məbləğdə borclar verən, tanınmış təşkilatlar aşağıdakılardır:

*Ümumdünya Bankı* inkişaf etməkdə olan ölkələrə vaxtaşırı, aşağı faizlə kreditlər verir.

*Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı*. Ümumdünya Bankına oxşar təşkilatdır.

*BMT nəzdində İnkişaf Proqramı*. İnkişaf etməkdə olan ölkələrə, turizm də daxil olmaqla bir çox layihələrin həyata keçirilməsində yardım göstərir.

*İqtisadi Kooperasiya və İnkişaf üzrə Təşkilat*. 1960-cı ildə Beynəlxalq Konvensiya* tərəfindən Parisdə təsis edilmişdir. Təşkilat aşağıda göstərilənləri özünün məqsədi hesab edir:

---

* ***Konvensiya*** (latın mənşəli sözdür, saziş, müqavilə mənalarını daşıyır) – hər hansı beynəlxalq sazişi təsdiq edən dövlətlər arasında qarşılıqlı hüquq və vəzifələr başqa sözlə desək, dövlətlərin münasibətlərini nizamlayan saziş.

1. Sürətli və fasiləsiz iqtisadi artım üçün şərait yaratmaq, iştirakçı dövlətlərin əhalisinin həyat səviyyəsini yüksəltmək, əhalini işlə təmin etmək, eyni zamanda həmin ölkələrdə maliyyə stabilliyinə nail olmaqla dünya iqtisadiyyatının inkişafına öz töhfəsini vermək.

2. Təkcə iştirakçı ölkələrin deyil, həmçinin Konvensiyaya daxil olmayan ölkələrin iqtisadiyyatına yardım göstərmək.

3. Beynəlxalq öhdəliklərə uyğun olaraq, qarşılıqlı səmərəli surətdə və ayrı-seçkilik salınmadan, beynəlxalq ticarətin genişlənməsinə yardım göstərmək.

Bu təşkilatın nəzdində fəaliyyət göstərən turizm üzrə komitə, turizmin bütün aspektləri ilə məşğul olur, qarşıya çıxan problemləri təhlil edir və iştirakçı dövlətlərə müəyyən tövsiyələr verir. O, həmçinin məlumatlar toplanmasının üsul və metodlarının standartlaşdırılması üzərində işləyir.

Oxşar maraqları olan banklar və təşkilatlar arasında, Asiya İnkişaf Bankını, Xarici İnvestisiya Korporasiyasını, İnter-Amerika İnkişaf Bankını, Beynəlxalq İnkişaf üzrə Agentliyi göstərmək olar.

**Sakit okean Regionu Səyahətlər Assosiasiyası**. Bu Assosiasiya Okeaniya və Asiyanın 34 ölkəsinin turizm sənayesinin və səyahətlərin təkmilləşdirilməsi üzrə ümumi maraqlarını təmsil edir. Regionda səyahətlərin inkişaf perspektivləri planının hazırlanması, inkişaf, təhsil və marketinq sahəsində tədqiqatların aparılması, bu Assosiasiyanın fəaliyyət sahəsidir.

Çoxsaylı xarici üzvləri olan Amerika Turizm Agentlikləri Cəmiyyəti, Britaniya Turist Agentlikləri Assosiasiyası, Latın Amerikası Turizmi üzrə Təşkilatların Konfederasiyası kimi bir sıra təşkilatlar, öz fəaliyyət xarakterinə görə beynəlxalq təşkilatlara çox yaxındırlar. Bu təşkilatlar beynəlxalq miqyasda fəal iş aparırlar.

Xatırladaq ki, müxtəlif ölkələrdə milli turizm inzibati strukturlarının rəsmi adları və funksiyaları müxtəlifdir.

Azərbaycan Respublikasında turizmi idarə edən dövlət orqanı, 2001-ci ilin aprel ayına qədər Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Xarici Turizm Şurası olub. ÜTT-nın terminologiyasına görə bu Şura milli turizm baxımından inzibati təşkilatdır. 2001-ci ilin aprelindən Şuranın fəaliyyəti Respublika

Gənclər və İdman Nazirliyinə həvalə olunur. Nazirlik isə Gənclər, İdman və Turizm nazirliyi adlanır.

Nazirliyin funksiyalarına - respublikada turizmin inkişafı üzrə dövlət siyasətinin və prioritet istiqamətlərinin hazırlanması; respublika vətəndaşlarının xarici səfərlərinin təşkili; respublikanın turizm potensialının mənimsənilməsi üzrə əlaqədar təşkilatlar, nazirliklər və müəssisələr ilə birgə iş aparılması; turizmin maddi-texniki bazasının inkişaf proqramının hazırlanması; turist xidmətlərinin rəqabətə davamlılığının və keyfiyyətinin yüksəldilməsi; xarici turizm sahəsində xarici iqtisadi fəaliyyətin tənzimlənməsi; turizm sahəsində qanunvericiliyin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması və s. daxildir.

# FƏSİL 7.

## DÜNYA REGİONLARI ÜZRƏ BEYHƏLXALQ TURİZMİN MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAFI

Turizm, texnika, texnologiya və ictimai elmlərin sürətli inkişaf əsri olan XIX əsrin sonunda yaranmış, təşəkkül tapmış, sonradan "XX əsrin fenomeni*" titulunu qazanmışdır.

Dünya üzrə Ümum Daxili Məhsulun dəyərcə 10 faizə qədərini təşkil edən turizm böyük əmək ehtiyatlarının çalışdığı, əsas vəsait və kapitalın cəlb edildiyi inkişaf etmiş dünya sənayesidir. Başqa sözlə desək, bu nəhəng biznes, böyük həcmdə vəsait və qlobal səviyyəli ciddi siyasət deməkdir. 1997-1998-ci illərdə Asiyada baş vermiş maliyyə böhranı ilə əlaqədar fəallığın nisbi azalmasına baxmayaraq, 1985-1999-cu illərdə ümumiyyətlə səyahət edənlərin daimi sabit artımı (ildə orta hesabla 3,5 faiz) müşahidə edilmişdir (bax, cədvəl 10).

YTT-nın hesablamalarına görə, 1999-cu ildə turist səyahətlərində iştirak edənlərin sayı 657 mln. nəfər olmuşdur[1]. Beynəlxalq turizmdən əldə olunan gəlir 455, beynəlxalq nəqliyyat daşımalarından əldə olunan gəlir isə 93 mlrd. ABŞ dollarına bərabər olmuşdur (bax, cədvəl 11).

Bütün planet üzrə hərəkət edən bu qədər insana xidmət göstərmək, turizm sənayesi və infrastrukturunu təşkil edən əlaqədar sahələrdə çalışmaq üçün milyonlarla işçi qüvvəsinin cəlb edilməsi tələb olunur. Qeyd etmək lazımdır ki, turizm, böyük miqdarda iş yerlərinin yaradılmasını təmin edir. XX əsrin sonları üçün Yer kürəsində yaşayan hər 16 nəfərdən biri turizm və onunla əlaqədar sahələrdə çalışırdı.

Həzərə alınmalıdır ki, dünyanın, hətta ən yaxşı turist - rekreasiya ehtiyatlarına malik olan bölgələri belə tam öyrənilməmiş və kütləvi turizm üçün hələlik əlçatmaz hesab olunur. Hər hansı sosial-iqtisadi proses kimi beynəlxalq turizm də cəmiyyət qanunlarına uyğun olaraq inkişaf edir. Beynəlxalq turizm axınının for-

---

* ***Fenomen*** (yunan mənşəli sözdür) qeyri-adi hadisə, nadir fakt kimi başa düşülür.

[1] Bu dünya üzrə səyahətlərdə iştirak edən və rəsmi qeydiyyatdan keçən turistlərin sayını göstərən rəqəmdir.

malaşmasının və istiqamətlərinin müasir mənzərəsi, bir sıra amillərin fəaliyyətinin nəticəsi kimi yaranmışdır. Tədqiqatçıların böyük əksəriyyəti dörd amilə istinad edirlər;

Bax: axırda əlavə 1-2

- sosial-iqtisadi amillər (ilk öncə ərazinin sosial-iqtisadi səviyyəsi, siyasi stabillik və s.);
- ehtiyat - rekreasiya potensialına aid edilən amillər (həm təbiət, həm də antropogen* mənşəli);
- infrastruktur xarakterli amillər;
- coğrafi mövqe amili (xüsusilə, əsas turist bazarlarına münasibətdə).

Bu qrup amillərin birgə fəaliyyəti, nisbətən stabil turizm axınının formalaşmasına səbəb olur, bu da öz növbəsində rekreasiya hərəkatının müəyyən intensivliyi, beynəlxalq turist regionlarının yaranması və mövcudluğu ilə müşahidə edilir.

Tarixi baxımdan dünya miqyasında formalaşmış turist regionlarını nəzərdən keçirək. Ən çox inkişaf etmiş regionlara: Avropa, Şimali və Cənubi Amerika, Şərqi Asiya - Sakit okean bölgələri aid edilir. Xatırladaq ki, bu regionlar bölgüsü YTT-nın göstəricilərinə əsasən ayrılır. Əlbəttə gələcəkdə buraya yeni regionlar da daxil edilə bilər.

1998-ci ildə bütün turist səfərlərinin 92,9 (və ya 591,1 mln. turist), dünya turizm sənayesi gəlirinin 94,7 faizi yuxarıda adı çəkilən üç regionun payına düşür. Bu üçlüyün arasında əsas rol Avropaya məxsusdur (səfərlərin 60 faizi, 381,9 mln. turist və pul mədaxilinin 50,8 faizi). İkinci yeri Amerika regionu tutur. (səfərlərin 19,2 faizi, 122 mln. turist, pul mədaxilinin 27,2 faizi). Üçüncü yer Asiya və Sakit okean regionuna məxsusdur (bu regionu sonradan qısaca şəkildə ASR adlandıracayıq) - 87,2 mln. turist (13,7 faiz) qəbul etmiş və dünya turizm biznesi gəlirinin 16,6 faizini yarada bilmişdir.

---

* ***Antropogen*** – müəyyən ərazidə tarixən əmələ gəlmiş fiziki əlamətlərə (dərinin, saçın, gözün rəngi, baş və sifətin quruluşu, boy və s.) görə mənşəcə ümumi insan qrupları.

Planet əhalisinin üçdə birinin yaşadığı digər üç regionda - Afrika, Yaxın Şərq və Cənubi Asiyada cəmi 45,5 mln. turist (7,1 faiz) qəbul olunmuş və dünya üzrə turizm gəlirinin 5,7 faizi bu regionların payına düşmüşdür. Turizm sahəsinin inkişafındakı bu qeyri-bərabərlik, əsasən sosial-iqtisadi amillərin nəticəsidir.

Beynəlxalq turizmin inkişaf səviyyəsinə görə **Avropa qabaqcıl regiondur**, çünki burada daha əlverişli, sosial-iqtisadi, siyasi, mədəni-tarixi və nəqliyyat-rabitə şəraiti mövcuddur. Bütün əsas göstəricilər üzrə üstünlüyə malik olan Avropa regionu gərgin turist axını ilə də digər regionlardan seçilir.

"Vahid Avropa" konsepsiyasına uyğun olaraq, qitə dövlətləri Vahid Avropa Turist Regionu (VATR) yaradılması siyasəti yeridirlər. VATR-nun yaradılacağı təqdirdə, təqribən 300 mln. vətəndaşın yaşadığı Qərbi Avropa ölkələri, qitənin ən nəhəng turizm bazarına çevrilməsinə nail ola biləcəklər. Amma, Avropanın müxtəlif subregionlarında (əsasən ölkələrində), turizm-rekreasiya sahəsinin inkişaf səviyyəsi qeyri-bərabərdir. Bu sahədə kommersiya effektliliyi baxımından aparıcı subregionlar - Qərbi, Cənubi və Şimali Avropadır.

Mərkəzi və Şərqi Avropa, yəni SSRİ-nin süqutundan sonra yaranmış yeni müstəqil dövlətlər, həmçinin sabiq sosialist ölkələri və Aralıq dənizinin şərqində yerləşmiş ölkələr (Türkiyə, Kipr, İsrail) turizmin inkişafı baxımından, Avropanın inkişaf etmiş regionlarına "çatmağa" cəhd göstərirlər.

Bununla belə indiyədək Şərqi Avropa ölkələri ilə qitənin digər dövlətləri arasında turist mübadiləsi üzrə bərabər qarşılıqlı münasibətlər yaradılmamışdır. Avropanın ondan artıq dövlətinin ərazisinə daxil olmaq üçün Şengen sazişinə* əsasən, ümumi viza rejiminin tədbiq edilməsi ilə bu qeyri-bərabərliyi daha da dərinləşdirmişdir.

Beynəlxalq turizmin ənənəvi şəkildə təşəkkül tapdığı Avropada regiondaxili turist mübadiləsi üstünlük təşkil edir (304 mln. nəfər, 79,6 faiz). Uzaq turizm (Avropa hüdudlarından kənar) isə səfərlərin 20,4 faizi və ya 78 mln. turisti əhatə edir.

---

* ***Şengen sazişi*** – bu sazişi imzalamış Qərbi Avropa ölkələrinə səyahət etmək üçün verilən viza. Şengen vizası olan turist bu sazişi imzalamış bütün ölkələrə əlavə viza almadan səyahət edə bilər.

Avropaya turist göndərən əsas bazar, Şimali Amerikadır (270-280 mln. nəfər), Avropa, hüdudlarından kənardan gələn turistlərin 34,9 faizi ABŞ, Kanada və Meksikanın payına düşür. Qitə çərçivəsində turist axınının əsas mənbələri, "isti dənizlərə" çıxışı olmayan, inkişaf etmiş dövlətlərdir.

**Cədvəl 12***

### Turist qəbulu üzrə aparıcı dünya ölkələri

| Reytinq | Ölkələr | Beynəlxalq turist qəbulu (mln. nəfər) | | 1999/1998 nisbəti (faizlə) | Dünya turist bazarında payı 1999 (faizlə) |
|---|---|---|---|---|---|
| | | 1998 | 1999 | | |
| 1 | Fransa | 70,0 | 73,0 | 4,3 | 11,1 |
| 2 | İspaniya | 47,7 | 52,0 | 8,8 | 7,9 |
| 3 | ABŞ | 46,4 | 48,5 | 4,5 | 7,4 |
| 4 | İtaliya | 34,8 | 36,1 | 3,7 | 5,5 |
| 5 | Çin | 25,1 | 27,0 | 7,9 | 4,1 |
| 6 | Böyük Britaniya | 25,7 | 25,7 | 0,0 | 3,9 |
| 7 | Meksika | 19,8 | 20,2 | 2,0 | 3,0 |
| 8 | Kanada | 18,8 | 19,6 | 3,8 | 2,9 |
| 9 | Polşa | 18,8 | 17,9 | -4,5 | 2,7 |
| 10 | Avstriya | 17,4 | 17,6 | 1,6 | 2,7 |
| 11 | Almaniya | 16,5 | 17,1 | 3,5 | 2,6 |
| 12 | Rusiya | 15,8 | 16,4 | 3,9 | 2,5 |
| 13 | Çexiya | 16,3 | 16,0 | -1,8 | 2,4 |
| 14 | Macarıstan | 15,0 | 12,9 | -13,8 | 2,0 |
| 15 | Portuqaliya | 11,3 | 11,6 | 2,7 | 1,8 |

Beynəlxalq turizm üzrə ən yüksək xərclər də bu ölkələrin payına düşür. Məsələn, Skandinaviya ölkələrində adam başına

* Cədvəl - ÜTT nəşr etdirdiyi materiallar əsasında tərtib olunmuşdur.

bu xərclər 500-1100, Almaniyada 460, Benilüks ölkələrində 600 dollardan artıq təşkil edir. Yuxarıda göstərilənlərdən bəlli olur ki, turist axını şimaldan cənuba doğru hərəkət edərək, turist qəbulu üzrə böyük dövlətlər sayılan Fransa (73,0 mln.), İspaniya (52 mln.) və İtaliyada (36,1 mln.) başa çatır.

Tədqiqatçılar qeyd edirlər ki, avropalıların Aralıq dənizi ölkələrinə səfərlərinin sayının artması ilə əlaqədar, son illərdə Cənubun dünya turizm bazarındakı payı da artmaq üzrədir.

**Amerika regionu** beynəlxalq turizmin inkişafına görə, yalnız Avropadan geri qalır. Bu regionda turizm sənayesinin ən yüksək inkişaf etdiyi ölkələr, ABŞ, Kanada və Meksikadır. 62 mln. turist qəbulu, turist axınının 51,3 faizi və Qərb yarımkürəsində beynəlxalq turizmdən əldə olunan gəlirin 75 faizi bu üç ölkənin payına düşür. Dünyanın ən iri turizm ölkələrindən biri olan ABŞ-ın rolu xüsusilə böyükdür. Belə ki, xarici turistlərin qəbulu üzrə dünya reytinqində ABŞ üçüncü (48,5 mln. nəfər, 1999-cu il), buradan səyahətə çıxanların sayına görə (56,1 mln. nəfər, 1999-cu il) isə birinci yer tutur. Səyahətlərdə ABŞ turistlərinin xərclədikləri vəsait də ən yüksək hesab edilir (56 mlrd. dollar, 1999-cu il).

Bundan əlavə ABŞ, Avropa, ASR üçün rekreasiya tələbatının iri bazarı rolunu oynayır. ABŞ turizm sənayesi inkişafının əsas göstəricilərinin dinamikası, bu sahənin bütün Amerika regionunda inkişaf tempini müəyyənləşdirir. Avropada olduğu kimi, Qərb yarımkürəsində də regiondaxili mübadilə, regionlararası mübadiləni üstələyir (27,8 faizə qarşı 72,2 faiz). Regiondaxili turist axınının 85 faizi, ABŞ, Kanada və Meksika arasında həyata keçirilir, çünki, səyahət edənlərin böyük əksəriyyətinin əsas məqsədi, adı çəkilən bu üç ölkədən birinə getməkdir.

**Şimali Amerika** subregionundan Karib dənizi ölkələrinə turist miqrasiyası, daha doğrusu, şimaldan cənuba hərəkət, öz intensivliyinə görə ikinci yer tutur. Əla təbii-rekreasiya potensialına malik olması, turist tələbatının iri bazarlarına coğrafi yaxınlığı, turizm biznesinin yerli dövlətlər tərəfindən məqsədəuyğun şəkildə müdafiə olunması sayəsində, **Karib subregionu** dünyanın ən yaxşı ixtisaslaşmış rekreasiya rayonlarından biri hesab olunur. 1998-ci ildə bu subregiona gələn əcnəbi turistlərin ümumi sayı

16 mln. nəfər olmuş, beynəlxalq turizmdən əldə olunan gəlir isə milli məhsul dövriyyəsini 30 faiz üstələmişdir.

Karib subregionu, dəniz kruizi turizminin miqyasına görə də seçilir, bu isə səyahətlərin bu növünün güclü xüsusiyyətləri (nüfuzu, müstəqilliyi və uzunmüddətliyi) nəticəsində əlavə gəlir əldə edilməsinə şərait yaradır. Son illərdə Puerto-Riko, Dominikan Respublikası və Baham adalarında da turizm sürətlə inkişaf etməyə başlamışdır.

**Cənubi Amerika** üzrə turist səfərlərində iştirak edən 17,5 mln. nəfərdən (1999) 12,5 mln.-u, yəni 68,6 faizi regionun sosial-iqtisadi inkişaf səviyyəsinə görə qabaqcıl olan dörd aparıcı ölkəsinə - Argentina, Braziliya, Uruqvay və Çiliyə səyahət edənlərdir.

Beynəlxalq turizmin regional xüsusiyyətlərini nəzərdən keçirərkən, **ASR regionunu** xüsusilə qeyd etmək lazımdır. ASR, dünyanın ən sürətlə inkişaf edən turizm bölgəsidir. Əgər, 1990-cı ildə regiona 54,6 mln. turist gəlmişdisə, 1999-ci ildə bu rəqəm 88,2 mln.-a qədər artmışdır. Təbii ki, turizm fəaliyyətindən əldə olunan gəlir də müvafiq olaraq, 39,2 mlrd.-dan 75,7 mlrd. ABŞ dollarına qədər artmışdır.

**ASR-da** beynəlxalq turizmin inkişafında canlanma, bir sıra səbəblərlə izah olunur. Əsas səbəb, qabaqlayıcı iqtisadi yüksəlişin uzun müddətli olmasıdır. Regionun dinamik iqtisadi artımı, turizm sənayesinə investisiya qoyuluşuna və ümumilikdə turizmin inkişafına təsiri olmuş, adambaşına düşən gəlirin və asudə vaxtın artması ilə müşahidə edilmişdir. Bundan əlavə siyasi gərginliyin zəifləməsi və regiondaxili inteqrasiya prosesinin genişlənməsi beynəlxalq turizmin inkişafının sürətlənməsinə kömək etmişdir.

Regiondaxili turizm, ASR üzrə bütün turizmin 72,6 faizini təşkil edir və yaxud 66,5 mln. nəfəri əhatə edir. Regiondaxili turizmin genişlənməsi, adambaşına düşən gəlirin (Yaponiyada 30, Yeni Sənaye Ölkələrində 10-15 min dollar) və asudə vaxtın artımının, turizmdə hökumət məhdudiyyətlərinin azaldılmasının, nəqliyyat şəbəkəsinin və turizm infrastrukturunun təkmilləşdirilməsi ilə izah olunur.

ASR bazarında rekreasiya axınını cəlb edən əsas ölkə, Yaponiyadır. Ötən əsrin 90-cı illərində ASR ölkələrindən xaricə sə-

fərlərlə əlaqədar turizmin daha yüksək sürəti, Koreya Respublikasında və Tayvanda müşahidə edilmişdir. ASR-un regiondaxili coğrafi mənzərəsini müəyyənləşdirən ölkələrarası intensiv axın, yüksək inkişaf etmiş Yaponiya ilə Yeni Sənaye Ölkələri və işgüzar fəallıq mərkəzləri (Çinin xüsusi iqtisadi zonaları olan Honkonq, Aomın) arasında bərqərar olmuşdur.

Bununla əlaqədar, bir sıra ölkələr və ərazilər, beynəlxalq turizmdən iri məbləğdə gəlir əldə edirlər: məsələn, Honkonq - 9, Çin - 12,5, Sinqapur - 7,55 mlrd. dollar. ASR-a turist göndərən regiondan kənar ölkələr ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Hindistan və İtaliyadır. ASR-a regiondan kənar gələn turist axınının 63 faizi, adı çəkilən bu altı ölkənin payına düşür. ASR-in turizm sənayesinin inkişafı proqnozuna görə, 2010-cu ildə bu regiona gələn turistlərin sayı 190 mln. nəfərə çatacaq və 1995-ci il səviyyəsindən 2,5 dəfə artıq olacaqdır, buna səbəb isə regiondaxili turizmin inkişafı olacaqdır.

**Afrika regionu** beynəlxalq turizm baxımından hələlik zəif mənimsənilmiş rayonlardandır. 700 mln.-a yaxın əhalinin yaşadığı Afrikaya gələn turistlərin orta illik miqdarı cəmi 25 mln. nəfər təşkil edir. Belə vəziyyət ilk növbədə bu qitənin əksər ölkələrində sosial-iqtisadi inkişafın aşağı səviyyəsi, turizm infrastrukturunun zəif olması, siyasi stabilliyin olmaması ilə izah edilir. Regiondaxili turizm, başqa regionlardan bu qitəyə təşkil edilən turist səfərlərinin 42 faizi səviyyəsindədir. Ölkələr və materikin subregionları arasında turist mübadiləsi kifayət qədər inkişaf etməmişdir. Bu, rekreasiya xidmətlərinin əhali tərəfindən ödəmə qabiliyyətlərinin zəif olması ilə bağlıdır.

Afrikaya gələn turistlərin 88 və valyuta mədaxilinin 90 faizi üç subregionun - *Şimali, Cənubi və Şərqi Afrikanın payına düşür*. O da qeyd olunmalıdır ki, yalnız bir neçə ölkə (CAR, Tunis, Mərakeş, Zimbabve, Keniya, Botsvana, Tanzaniya) rekreasiya sahəsinin genişlənməsinə diqqət yetirir və beynəlxalq standartlara cavab verən keyfiyyətli turist xidməti kompleksinə malikdirlər. Bununla yanaşı, turbiznes regionda qabaqlayıcı templə inkişaf edir və qənaətbəxş perspektivlərə malikdir.

Afrikaya turist göndərən əsas xarici ölkələr - Fransa, Böyük Britaniya, İtaliya, İspaniya, ABŞ və İsveçrədir. Qeyd etmək la-

zımdır ki, CAR - ölkədən çıxış turizminin formalaşdığı yeganə Afrika ölkəsidir.

**Yaxın Şərq** müasir dövrdə beynəlxalq turizmdə əhəmiyyətli rol oynamır. Bu regionda turizm sahəsinin inkişafı qeyri-sabit və sıçrayış şəkillidir. Səbəbi isə, siyasi vəziyyətin gərginliyi, turbiznesin dövlətlər tərəfindən lazımi səviyyədə müdafiə edilməməsi, bir sıra ölkələrdə əcnəbi turistlərin təhlükəsizliyinin zəif təşkil olunmasıdır. Regionda dünyavi dinlərin (iudaizm, xristianlıq və islam) mərkəzlərinin yerləşməsi ilə əlaqədar, beynəlxalq dini turizmdə ziyarət mərkəzi kimi mühüm rol oynayır.

Yaxın Şərqin dünya turizmindəki payı, turist qəbulu üzrə - 15,3 mln. nəfər (2,35 faiz), beynəlxalq turizmdən əldə olunan gəlir üzrə isə 2,2 faizdir. Misir, Bəhreyn, BƏƏ və Səudiyyə Ərəbistanı, regionda nisbətən inkişaf etmiş rekreasiya sahəsinə malikdirlər. Regiondaxili turizm, regionlararası turist qəbulundan geri qalır, ümumi qəbulun 55 faizi sonuncunun payına düşür. Bu regiona turist göndərən əsas xarici bazarlar - Avropa (Böyük Britaniya, Almaniya, Fransa, İtaliya), ABŞ və Yaponiyadır.

**Cənubi Asiyanın** demoqrafik potensialını (əhalisi 1,3 mlrd.) nəzərə alsaq, müasir dövrün qlobal turizmində bu regionun rolu çox cüzidir. 1998-ci ildə bu regiona gələn turistlərin qeydiyyat üzrə sayı 5,2 mln. nəfər (dünya üzrə 0,8 faiz), valyuta mədaxili isə 4,4 mlrd. dollar (dünya üzrə 1 faiz) olmuşdur. O da maraqlıdır ki, turist axınının üçdə iki hissəsi ancaq bir ölkənin - Hindistanın payına düşür.

Cənubi Asiya dövlətləri, İkinci Dünya müharibəsindən sonra, müstəqillik qazandıqları vaxtdan, geriliyin aradan qaldırılması üzrə çətin problemlərin həllinə çalışır. Xarici turizmə valyuta və iş yerlərinin açılmasının mühüm mənbəyi kimi baxırlar. Bu ilk növbədə, beynəlxalq turizmi dövlət siyasəti səviyyəsinə qaldıran kiçik ölkələrə (Maldiv, Hepal, Şri-Lanka) aiddir. Region ölkələrində turbiznesin müasir, yüksək gəlirli fəaliyyət sahəsinə çevrilməsi, təxirəsalınmaz vəzifə olaraq qalır.

Müasir beynəlxalq turizm, iqtisadi və sosial inkişaf çərçivəsində çətin və çox zaman ziddiyyətli proses olmaqla, həm də regional səviyyədə son dərəcə qeyri-bərabər inkişafı ilə seçilir. Turizm rekreasiya sahəsinin səviyyəsini müəyyənləşdirən amillər arasında sosial-iqtisadi amillər aparıcı rol oynayır. Xatırladaq

ki, turizm müəyyən dərəcədə planetimizin ölkə və regionlarının sosial-iqtisadi inkişaf səviyyəsini əks etdirir, bir tərəfdən təsərrüfat və sosial yüksəlişi stimullaşdıra bilir, digər tərəfdən əlavə iş yerlərinin yaradılmasına səbəb olur.

Sonuncu hal, ölkələrin gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində, zəif inkişaf etmiş regionlar üçün xüsusilə mühümdür. Qeyd etmək lazımdır ki, beynəlxalq turizmdə İkinci Dünya müharibəsindən sonrakı dövrün ən parlaq nüməsi, Asiya-Sakit okean regionunun rolunun dəyişməsi və əhəmiyyətinin artması, inkişaf etmiş regionlara sıx yaxınlaşa bilməsi olmuşdur.

**Afrika, Yaxın Şərq və Cənubi Asiyada** beynəlxalq və daxili turizmin inkişaf səviyyəsi indiyədək yüksək deyil. Ona görə də, bu üç autsayderin* bu sahədə geriliyini aradan qaldırmaq problemləri aktual olaraq qalır.

1989-cu ildə keçmiş SSRİ-yə gələnlərin sayı 7,8 mln. nəfər olmuş, bunlardan 2,7 mln. nəfərini turistlər təşkil etmişlər. Sonrakı illərdə turistlərin sayı azalmış, 1990-cı ildə 2,3, 1991-ci ildə isə, 2,2 mln. nəfər olmuşdur. Bütün ilkin şərtlərin olmasına baxmayaraq, keçmiş SSRİ, turizmin inkişaf səviyyəsinə görə, iqtisadi cəhətdən inkişaf etmiş əksər ölkələrdən geri qalırdı. Səbəb - turizm sənayesinin zəif inkişaf etməsi, assortimentin** çatışmaması və turist xidmətlərinin keyfiyyətinin aşağı səviyyədə olması idi. Dünya təcrübəsi göstərir ki, turizm sənayesinin inkişafı üçün əlverişli iqtisadi mühit ancaq bazardır.

Ümid etmək olar ki, MDB ölkələrində, o cümlədən Azərbaycanda azad sahibkarlıq üçün zəruri iqtisadi və hüquqi zəmin yaradılması, mehmanxana təsərrüfatı, ictimai iaşə, nəqliyyat infrastrukturu, turizm agentlikləri və turizm sənayesinin digər həlqələrinin xidmətləri üzrə zəruri tələbatın ödənilməsi, bu sahədə işgüzar fəallığın yüksəlməsinə səbəb ola bilər.

## 7.1. Beynəlxalq turist istiqamətlərinin coğrafiyası

---

* ***Autsayder*** (ingilis mənşəli sözdür) – hərfi mənası geridə qalan, axırıncı gələndir.

** ***Assortiment*** (fransız mənşəli sözdür) – hər hansı bir məmulatın tərkibi və nisbətini bildirir.

Dünya turist istiqamətlərinin mənşəyi və təyinat yerinin tədqiq edilməsi, turistlərin əsasən haraya getdiklərini və haradan gəldiklərini əks etdirir (bax, cədvəl 13). Turistlər bir qayda olaraq, öz regionları daxilində səyahət etməyə üstünlük verirlər, məsələn, Yaxın Şərqdəki 59 faizdən Avropada 87 faizədək. Şərqi Asiya regionu istisnalıq təşkil edir, burada regiondaxili turizm cəmi 24 faiz həcmindədir.

Afrikadan səyahət edənlərin 20 faizi Avropaya (əsasən Cənubi və Qərbi Avropaya), 8 faizi Yaxın Şərqə yollanır. Şərqi Asiya və Sakit okean regionundan əsasən Avropaya (15 faiz) və Amerikaya (11 faiz) uzun müddətli səyahətlər təşkil edilir.

Regiondaxili səyahətlər üzrə Avropanın payı ən böyükdür (87 faiz). Səyahətlərin uzun müddətliliyinə görə, avropalılar bütün digər regionları üstələyirlər. Onların əksəriyyəti, Amerikaya (ümumi səyahətlərin 6 faizi), sonra Şərqi Asiya və Sakit okean regionuna (3,1 faiz) və Afrikaya (2,6 faiz) səyahət edirlər.

Orta Şərqdən səyahət edənlərin 21 faizi Avropaya, 10 faizi isə Afrikaya, əsasən Şimali Afrikaya istiqamət götürürlər.

Cənubi Asiyadan səyahət edənlərin 26 faizi Avropaya, 25 faizi Şərqi Asiya və Sakit okean regionuna, 17 faizi Cənub-Şərqi Asiya və Orta Şərq regionuna üstünlük verirlər.

1999-cu ildə beynəlxalq turist qəbulu 657 mln. nəfər olmuş, 1998-ci il ilə müqayisədə artım 3,2 faiz təşkil etmişdir. Eyni zamanda beynəlxalq turizm fəaliyyətində daxil olmalar (mədaxil) 3,2 faiz artaraq, 455 mlrd. ABŞ dollarına çatmışdır.

İki illik tənəzüldən sonra Asiya-Sakit okean regionu, beynəlxalq turizm üçün yenidən cəlbedici bölgə olmuş, 1999-cu ildə artım 7,5 faiz olmaq şərti ilə qəbul üzrə yeni rekorda (94 mln. turist) nail olunmuşdur. Dünyanın digər regionları, qəbulun artımı üzrə aşağıdakı göstəricilərə malik olmuşlar: Mərkəzi Amerika - 23, Yaxın Şərq - 17,5, Cənubi Amerika - 10, Afrika - 9 faiz.

Bax: axırda əlavə 3-4

**Beynəlxalq turizmin regionlar üzrə artımı (faizlə, 1999)**

**Diaqram 1.**




*1. Dünya üzrə*
*2. Yaxın Şərq regionu*
*3. Afrika regionu*
*4. Asiya - Sakit okean regionu*
*5. Amerika regionu*
*6. Cənubi Asiya regionu*
*7. Avropa regionu*

1999-cu ildə turistlər Aralıq dənizinin qərbində yerləşən ölkələrə daha çox səfər etmişlər. Kosovodakı siyasi və silahlı münaqişələr və Türkiyədə baş vermiş zəlzələlərin nəticələrindən çəkinən turistlər Şərqi Aralıq dəniz ölkələrinə demək olar ki,

getməmişlər. Elə bu səbəbdən İspaniyada turistlərin sayı 9, Mərakeşdə isə 22 faiz artmışdır. Minilliyə həsr olunmuş səyahətlərlə bağlı ümidlər də özünü doğrultmadı. Ona görə də əldə edilən gəlir, gözləndiyindən xeyli az olmuşdur.

**Afrika regionu** qəbul üzrə 9 faiz artım göstərmişdir, bu isə ümumdünya artımından 3 dəfə çoxdur. Regionda ən yüksək göstəricilərə Mərakeş - 22, Zimbabve - 17, Zambiya - 26 faiz nail oldular. Regionun əsas turizm ölkələri olan Tunis və CAR uyğun olaraq 3 və 3,2 faiz olmaq şərti ilə stabil artım göstərməkdə davam etmişlər.

**Amerika regionu.** Şimali Amerika üzrə turist qəbulunun ümumi artımı, dünya üzrə artımdan cəmi 3,8 faiz çox olmuşdur. Bu, regionun üç əsas ölkəsindəki (ABŞ-da - 1,3, Meksikada - 2, Kanadada - 3,8 faiz) ləng artımla əlaqəlidir. Cənubi və Mərkəzi Amerikada artım nisbətən yüksək (Argentinada - 12,3, Qvatemalada - 29,0, Salvadorda - 26 faiz) müşahidə edilmişdir.

**Karib dənizi hövzəsi regionu** ölkələrinin də nəticələri müxtəlif olmuşdur. Kuba - 16, Dominikan Respublikası - 12,6 faiz artım olmaqla region üzrə öndə gedirlər. Puerto-Rikoda isə əksinə qəbul - 10,4 faiz azalmışdır.

**Asiya-Sakit okean regionu (ASR).** İki illik tənəzzüldən sonra, ASR, 1999-cu ildə turist qəbulunda güclü sıçrayış etdi. 1999-cu ildə regiona gələn turistlərin sayı, 1996-cı rekord ilindən də 5 mln. nəfər artıq olmuşdur. Belə yüksək artım, Sinqapur (11 faiz), Yaponiya (9,6 faiz), Cənubi Koreya (9,6 faiz), Malayziya (8 faiz), Çin (7,9 faiz), Honkonq (9 faiz) və Taylandın (5,6 faiz) payına düşmüşdür.

**Avropa regionu**. 1999-cu ildə region üzrə artım cəmi 10 faiz olmuşdur. Həmin il, Cənubi Avropa ölkələri, xüsusilə İspaniya (8,8 faiz), Yunanıstan (5 faiz) və Portuqaliya (5,5 faiz) üçün uğurlu olmuşdur. Bu ölkələr 1998-ci ildə 11 faiz artıma nail olduqlarına baxmayaraq, 1999-cu ildə artımı yenidən 3 faiz yüksəltmişlər. Hiderland (5,3 faiz) və İrlandiya (7,4 faiz) yaxşı nəticələr əldə etmişlər. Digər tərəfdən, Balkanlardakı böhran və Rusiyadakı qeyri-stabillik, Mərkəzi və Şərqi Avropa üçün problem yaratmış, nəticədə Macarıstan (- 13,8), Polşa (-4,5) və Çexiya Respublikasında (-1,8 faiz) turizmin tənəzzülü baş vermiş-

dir. Estoniya (10,3 faiz), Latviya (5,8 faiz) və Gürcüstan (10,4 faiz) isə turistləri maraqlandıran yeni bölgələr olmuşlar.

**Yaxın Şərq regionu.** Turizm baxımından kiçik regionlardan biri olan Yaxın Şərqə 1999-cu ildə 18 mln. nəfər xarici turist gəlmişdir. Qeyd etmək lazımdır ki, qəbul üzrə ən yüksək artım bu regionun payına düşür - 17,5 faiz. Yaxın Şərq regionunun böyük dövlətlərindən biri olan Misir böyük artım (40 faiz) göstərmiş, Luksor faciəsinə qədərki dövrün nailiyyətini xeyli yüksəltmişdir. Suriya da yaxşı göstəricilər əldə etmişdir. Burada artım təxminən 10 faiz olmuşdur.

**Cənubi Asiya regionu.** Ymumi region üzrə turist qəbulunun artımı 3,7 faiz təşkil etmişdir. Regionun böyük dövlətləri sayılan Hindistanda artım 1,1, Pakistanda - 1,6, Banqladeşdə - 2,3 faiz qeydə alınmışdısa da, Şri-Lanka (16) və Maldiv (10 faiz) artıma nail olmuşlar.

* * *

Turizm fəallığının əhəmiyyətli yüksəlişi, onun XX əsrin ən böyük iqtisadi və sosial müstəsnalıqlardan birinə çevrilməsinə səbəb olmuşdur. Beynəlxalq turizmdə, turistlərin sayının 1950-ci ildəki 25 mln. nəfərdən, 1999-cu ildəki 657 mln. nəfərədək artımı və illik artımın 7 faiz təşkil etməsi, turizmin sürətli yüksəlişinə əyani sübutdur. Bu dövr ərzində beynəlxalq turizmdən cari qiymətlərlə əldə edilən gəlirin orta hesabla illik artımı 12 faiz (beynəlxalq nəqliyyat qiymətlərinin çıxılması şərti ilə) təşkil etmişdir.

Müasir turizmin inkişafı, turizmin Yer kürəsinin bütün guşələrinə yayılması ilə xarakterizə olunur. Turist xidmətlərinin müxtəlifliyi və turizm mərkəzləri arasında rəqabətin artması ilə bərabər, əksər ölkələr hazır “turizm piroqundan” öz paylarını götürməyə nail olmuşlar.

## Dünya miqyasında turist qəbulu üzrə regionların payı (faizlə, 1999-cu il)

**Диаграм 2.**




## Regionlar üzrə beynəlxalq turist qəbulu (mln. nəfərlə 1999-cu il)

**Diaqram 3.**




*1. Avropa regionu.*
*2. Amerika regionu.*
*3.  Asiya-Sakit okean regionu.*

*4. Afrika regionu.*
*5. Yaxın Şərq regionu.*
*6. Cənubi Asiya regionu.*

Şərqi Asiya, Afrika və Yaxın Şərqdə beynəlxalq qəbulun orta artımının yüksəlişi, Avropa, Amerika kimi daha ənənəvi regionlarda orta artımın azalmasını əks etdirir.

Son bir neçə ildə meydana çıxan təyinat yerlərinin yüksəlişi olduqca dinamikdir. Amma, bu yeni təyinat yerləri, siyasi və iqtisadi durumlarına görə, məşhur yerlərdən hələlik zəifdirlər. Bu isə turizm bazarında onların imicinə mənfi təsir göstərə bilir. Həticədə sürətli yüksəliş dövrünü, zəif artım və ya geriləmə dövrü, növbəli şəkildə əvəz edir.

Bütün bunlara baxmayaraq, Avropa və Amerika daha məşhur turizm regionları olmuş və olaraq qalırlar. 1950-ci ildən 1999-cu ilədək bu iki region üzrə turist qəbulu, ildə orta hesabla, müvafiq olaraq 6,6 və 5,9 faiz artmışdır. Digər turist regionları daha yüksək templə inkişaf etdikləri üçün, 1999-cu ildə ümumdünya göstəricilərində Avropa və Amerikanın payları azalaraq, müvafiq surətdə 59-19 faizə enmişdir.

Turizm bazarındankı bu dəyişikliklərdən Şərqi Asiya və Sakit okean regionu (1997-1998 illərdə regionda maliyyə böhranının baş verməsinə baxmayaraq) daha yüksək gəlir əldə etmişdir. 1999-cu ilin göstəriciləri, böhrandan sonra turizmin bərpasının yaxın gələcəkdə mümkün olacağını göstərir.

1950-ci ildən başlayaraq, turizmin dinamik şəkildə inkişafı ilə yanaşı, səyahət edilən yerlər də əsaslı surətdə dəyişmişdir. Müasir dövrdə turizm daha rəngarəng olmuşdur. Səyahətlər həm bütün il boyu keçirilir, həm də müxtəlif məqsədli və müddətli olurlar. Mədəni, idman və kənd turizmlərində, müxtəlif kruizlərdə əyləncə bölməsi daha çox inkişaf etmişdir.

Konqress turizminin daim genişlənməsi ilə işgüzar bölmə daha da zənginləşmişdir. Beynəlxalq turizm, satış bazarı üzrə yenə də Avropa və Amerikanın inkişaf etmiş ölkələrində, Şərqi Asiya və Sakit okean regionunda cəmləşmişdir. İnkişaf etmiş regionlarda beynəlxalq turizm, aşağıdakı təmayüllərlə müəyyənləşdirilə bilər:

- Beynəlxalq turist qəbulunun yarıdan çoxu Avropanın payına düşür. 1985-ci ildən başlayaraq, Avropanın artım sürəti Ümumdünya səviyyəsindən aşağıdır. Bu da dünya turizm bazarında Avropanın payının azalmasına səbəb olmuşdur. Avropaya gələn hər beş turistdən biri amerikalıdır.

- Asiya-Sakit okean regionu, 1985-1998-ci illərdə illik artımın sürəti (8,3 faiz) ilə seçilir. Turist qəbulu üzrə artım 1985-ci ildə 10 faiz olduğu halda, 1999-cu ildə 14 faizə çatmışdır. Qeyd etmək lazımdır ki, 1997-1998-ci illərdəki maliyyə böhranı, regionda turizm sahəsində nisbi sakitlik yaratmışdı. Ona görə də qısa müddət üçün nəzərdə tutulmuş inkişaf perspektivlərində dəyişikliklər edilə bilər, amma orta və uzun müddətli perspektivlərdə artımın yüksəlişi gözlənilir, çünki region çox böyük turizm ehtiyatlarına malikdir.

Dünya üzrə turist qəbulunun 5 faizi Afrika, Yaxın Şərq və Cənubi Asiya regionlarının birgə payına düşür. 1985-ci ildən 1999-cu ilədək bu regionlarda artım sürəti dünya səviyyəsindən aşağı olmuşdur.

**Beynəlxalq turist xərcləri.** Beynəlxalq statistikaya əsasən 1998-ci ildə beynəlxalq turizm xərcləri üzrə qabaqcıl yerləri inkişaf etmiş ölkələr tutmuşlar. Məsələn, ABŞ, Almaniya, Böyük Britaniya və Yaponiya bir ildə 56 mlrd.-dan 29 mlrd-a qədər xərcləyirlər (bax, cədvəl 15).

Bu ölkələrin turizmə sərf etdikləri xərclər, beynəlxalq turizmin ümumi xərclərinin üçdə birini təşkil edir. Fransa, İtaliya, Niderland, Kanada, Avstriya, ÇXR, Belçika, Lüksemburq və Rusiya sonrakı yerləri tuturlar. Bu ölkələrin hər biri 8 mlrd. ABŞ dollarından 17 mlrd. dollara qədər pul xərcləyirlər. Bu isə beynəlxalq turizmin ümumi xərclərinin beşdə bir hissəsini təşkil edir.

**Cədvəl 15**

## Dünyanın 15 ölkəsinin turizm üzrə xərcləri

| Rey-tinq 1998 | Ölkələr | Beynəlxalq turist xərcləri (mlrd.$) | | Fərq faizlə |
|---|---|---|---|---|
| | | 1997 | 1998 | |
| 1 | ABŞ | 52,1 | 56,1 | 7,8 |
| 2 | Almaniya | 46,3 | 46,9 | 1,3 |
| 3 | Böyük Britaniya | 27,7 | 32,3 | 16,4 |
| 4 | Yaponiya | 33,0 | 28,8 | -12,8 |
| 5 | Fransa | 16,6 | 17,8 | 7,3 |
| 6 | İtaliya | 16,6 | 17,6 | 5,7 |
| 7 | Niderland | 10,3 | 11,2 | 8,3 |
| 8 | Kanada | 11,5 | 10,8 | -6,2 |
| 9 | Avstriya | 10,1 | 9,5 | -5,9 |
| 10 | Çin | 8,1 | 9,2 | 13,2 |
| 11 | Belçika-Lüksemburq | 8,3 | 8,8 | 6,7 |
| 12 | Rusiya | 9,4 | 8,3 | -11,6 |
| 13 | İsveç | 6,9 | 7,7 | 12,0 |
| 14 | İsveçrə | 7,0 | 7,1 | 2,4 |
| 15 | Braziliya | 5,4 | 5,7 | 5,2 |

İqtisadi statistikada, beynəlxalq turizmdən əldə olunan gəlirlərə - ixrac, xərclərə isə idxal kimi baxılır. Beynəlxalq turizm, bir çox ölkələr üçün valyuta mədaxilinin mühüm mənbəyi sayılır. YTT mütəxəssislərinin hesablamalarına görə turizm, dünya ölkələrinin 83 faizində ixracın beş əsas maddəsindən biridir, ölkələrin 38 faizində isə iqtisadiyyatın aparıcı sahəsini təşkil edir.

**Beynəlxalq turizm gəlirləri.** 2000-ci ilin əvvəlinə olan məlumata əsasən, 1999-cu ildə ümumdünya miqyasda beynəlxalq turizm üzrə gəlir - 455, beynəlxalq nəqliyyat daşınmaları üzrə isə gəlir - 93 mlrd. ABŞ dolları təşkil etmişdir.

Beynəlxalq turizm fəaliyyətindən qazanılan gəlirə görə ABŞ birinci yerdədir (73 mlrd. dollar). Sonrakı üç yeri tutan İspaniya, Fransa və İtaliya hər biri 30 mlrd. dollar gəlir əldə etmişlər. Sonrakı yerləri Böyük Britaniya, Almaniya, ÇXR, Avstriya və Kanada tutur (bax, cədvəl 16).

**Cədvəl 16**

**Beynəlxalq turizmdən daxil olan gəlirlər**

| Reytinq 1999 | Ölkələr | Beynəlxalq turizmdən əldə edilən gəlir (mlrd. ABŞ dolları ilə) | | Fərq (faizlə) | Dünya turist biznesində ölkələrin payı (faizlə) |
|---|---|---|---|---|---|
| | | 1998 | 1999 | | |
| 1 | ABŞ | 71,3 | 74,4 | 4,3 | 16,0 |
| 2 | İspaniya | 29,7 | 32,9 | 10,8 | 7,2 |
| 3 | Fransa | 29,9 | 31,7 | 6,0 | 7,0 |
| 4 | İtaliya | 29,8 | 30,4 | 2,0 | 6,7 |
| 5 | Böyük Britaniya | 21,0 | 21,0 | 0,0 | 4,6 |
| 6 | Almaniya | 16,4 | 16,8 | 0,9 | 3,7 |
| 7 | Çin | 12,6 | 14,1 | 11,9 | 3,1 |
| 8 | Avstriya | 11,2 | 11,3 | 0,9 | 2,5 |
| 9 | Kanada | 9,4 | 10,0 | 6,4 | 2,2 |
| 10 | Meksika | 7,9 | 7,9 | 0,0 | 1,7 |
| 11 | Rusiya | 6,5 | 7,8 | 20,0 | 1,7 |
| 12 | Avstraliya | 7,3 | 7,5 | 2,7 | 1,7 |
| 13 | İsveçrə | 7,8 | 7,4 | -5,1 | 1,6 |
| 14 | Niderland | 6,8 | 7,1 | 4,4 | 1,5 |
| 15 | Honqkonq (Çin) | 7,1 | 7,1 | 0,0 | 1,5 |

## 7. 2. Turist tələbatının struktur dəyişikliklərinin təmayülləri

Turizm bütün dünyada inkişaf etsə də, müxtəlif regionlar üzrə onun inkişaf səviyyəsi eyni deyil. Avropa və Şimali Amerika ölkələri, xarici turistlərin qəbulu və öz vətəndaşlarının xarici səfərlərə göndərilməsi üzrə aparıcı mövqe tutduqlarından Şimali Afrika və Asiya ölkələri, Aralıq dənizi hövzəsindəki Cənubi Avropa ölkələrinin əsas rəqiblərinə çevrilirlər. İnkişaf etmiş sənaye ölkələrində beynəlxalq turizmin üçdə iki hissəsini regiondaxili səyahətlər təşkil edir. İnkişaf etməkdə olan ölkələrin əksəriyyətində isə əksinə. Bu onunla izah olunur ki, Avropa və Şimali Amerika ölkələrində turist mübadiləsi, əsasən qonşu ölkələr arasında baş verir.

Turizmin inkişafı üçün şəhər əhalisinin artımının böyük əhəmiyyəti vardır, belə ki, bütün dünyada turist səfərlərinin sayının artmasının ilkin şərtlərindən biri də sənayeləşmədir. Şəhər

əhalisinin artımı, həm daxili, həm də beynəlxalq turizmin gələcəkdə də artmasına kömək edəcəkdir. Turist tələbatı strukturunun dəyişilməsi, turist xidmətlərində təklifin dəyişməsinə səbəb olacaq. Qrup halında turist səfərlərinin payı artacaqdır. Çünki, bu cür səfərlər zamanı mehmanxana müəssisələrinin rəhbərliyi tərəfindən qrupların qəbulu zamanı həm gecələmək, həm də nəqliyyata güzəştli tarif* qiymətlərinin tətbiqi nəticəsində turların ümumi qiymətlərini endirmək mümkün olur.

Az gəlirli sosial qrupların beynəlxalq turizmə cəlb olunması ilə, turist xidmətləri standartlarının dəqiqliklə ayrılması prosesi baş verə bilər. Bir tərəfdən əhalinin imkanlı təbəqəsi, ekzotik yerlərə səfərlərə üstünlük verməklə yanaşı, daha yüksək komfort tələb edəcək, digər tərəfdən isə turist səfərlərində iştirak edən əsas kütlə, istirahət xərclərinin azalmasına səy göstərmək və xidmətin nisbətən daha bəsit səviyyəsinə qane olmaqla yanaşı, səyahət zamanı daha çox görməyə və gəzməyə cəhd göstərəcəklər. Turist tələbatının sosial-sinfi differensiasiyası**, turizmin maddi-texniki bazasının inkişafında da özünü göstərəcəkdir.

Xidmət üçün təklif olunan yüksək qiymətlərə görə narahat olmayan fərdi turistlərin qəbulu məqsədi ilə "lüks" dərəcəli, yüksək səviyyəli mehmanxanaların tikintisi davam etdiriləcək. Digər tərəfdən isə, yerələşdirmə vasitələrinin tikintisi zamanı kütləvi turistlərin qəbulu üçün qiymətlərin ucuzlaşdırılması məqsədi ilə mehmanxana otaqlarının sahələrinin kiçildilməsi, mebelin miqdarının minimuma endirilməsi təmayüllərini də nəzərə alınmalıdır. Şəxsi mənzillərdə yerləşmək, yalnız fərdi turistlər üçün deyil, turist qrupları üçün də adi hal ola bilər.

"Kənd turizm"inin (fermalarda istirahət) daha rahat olması gözlənilir. Belə ki, turizmin bu növünə əhalinin təminatlı təbəqəsi arasında tələbat daha yüksək olacaqdır. Böyük şəhərlərin səs-küyündən uzaqlaşaraq, özlərini əsl kənd sakinləri kimi hiss etmək, heyvandarlıq və ya əkinçiliklə qısa müddətdə məşğul ol-

---

* ***Tarif*** (fransız mənşəli sözdür, izah etmə, müəyyən etmə mənalarını daşıyır) – xidmətə görə (nəqliyyat, kommunal, kömrük və s.) ödənilməsi nəzərdə tutulan qiymət sistemi.

** ***Differensiasiya*** (fransız mənşəli sözdür) – tamın müxtəlif hissələrə, dərəcələrə ayrılması kimi başa düşülür.

maq istəyən varlı təbəqə, eyni zamanda tam komfort şəraitdə yaşamağa üstünlük verir. Yüksək komfortabelli gəmilərdə kruiz səyahətlərində iştirak etmək, əhalinin daha imkanlı təbəqəsi üçün mümkün olacaqdır.

Beynəlxalq turizmdə regiondaxili turizmin (Avropa ölkələri, və ya ABŞ ilə Kanada və ya Avstraliya ilə Yeni Zelandiya arasında), regionlarası turizm üzərində üstünlüyü müşahidə edilir. Amma bir sıra makrorayonlar (Asiya, Afrika və Cənubi Amerika) bu xüsusiyyətlərə malik deyil. Burada regiondaxili turizm öz miqyasına və iqtisadi roluna görə Avropadan və Şimali Amerikadan gələn turist axınından geri qalır.

Turist səfərlərinin əsas məqsədi əvvəlki kimi istirahət olaraq qalacaqdır. Bütün turist səfərlərinin 71 faizi onun payına düşür. Konqresslərdə iştirak etmək də daxil olmaqla, işgüzar səfərlər 13 faiz təşkil edir. Amma bu nisbət, dünyanın bütün regionlarında eyni deyildir. Məsələn, Afrika ölkələrində istirahət səfərlərinin payı xeyli az (30 faiz), işgüzar səfərlərin payı isə dünya üzrə göstəricidən xeyli çoxdur (40 faiz). Digər qitələrdə isə xarici turistlərin qəbulu, təxminən dünya üzrə orta göstəricilərə uyğundur. Belə ki, Qərbi Avropada istirahət məqsədli səfərlərinin payı - 68 Amerikada - 76, Cənubi Asiyada - 73 faiz təşkil edir. Afrika istisna olmaqla, işgüzar səfərlərin payı hər yerdə orta hesabla 12-14 faizdir.

Müasir nəqliyyat vasitələrinin sürətli inkişafı və insanların xeyli hissəsinin dünyanın ucqar və ekzotik guşələrinə səfər etmək səyləri, qitələrarası əlaqələrin artmasına səbəb olmuşdur. Səyahət və istirahət üçün rayonun seçimində “antipodluq”* təmayülü güclü surətdə müşahidə edilir. Şimallıların əksəriyyəti cənuba, cənublular isə şimala gedirlər; düzənlik ərazilərdə yaşayanlar dağlara, dağlıq ərazilərdə yaşayanlar isə düzənlik yerlərə üstünlük verirlər.

İsti dənizlərin sahillərində kurortları olmayan inkişaf etmiş ölkələrdən, kurortların olduğu ölkə və bölgələrə turist axınının güclənməsi təmayülü davam edir. Turistlərin eyni bir yerdə qalma müddətinin azalması da müşahidə edilir. Bu, səyahətçilərin

---

* ***Antipod*** (yunan mənşəli sözdür) – Yer kürəsində diametral əks məntəqələrin sakinləri və yaxud müxtəlif düşüncəli, xarakterli, zövqlü insanlar.

özlərinin daha çox ölkə və şəhərlərdə olmaq təşəbbüslərindən irəli gəlir.

Beynəlxalq turizmin sosial-iqtisadi zəminini tədqiq edərkən, onun inkişafına mane olan amillərin də üzərində dayanmaq lazımdır. Turizmin genişlənməsi, əhalinin xərclərinin struktur artımının aynasıdır və şəxsi tələbatın ümumi dinamikasından birbaşa asılı vəziyyətdədir. Ona görə də, iqtisadi böhranla əlaqədar neqativ amillər, şəxsi tələbat həcminin azalmasına və eyni zamanda turist fəallığının zəifləməsinə səbəb ola bilir.

ƏLAVƏ 1-2

**Cədvəl 10***

## Dünya regionları üzrə beynəlxalq turizmin inkişaf dinamikası (mln. nəfərlə)

| Regionlar | 1985 | 1990 | 1991 | 1992 | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Afrika** | 9.7 | 15.1 | 16.2 | 18.0 | 18.5 | 19.1 | 20.3 | 21.8 | 23.4 | 25.0 | 27,3 |
| **Amerika** | 64.3 | 93.6 | 96.7 | 103.6 | 103,6 | 106,4 | 110,7 | 116,9 | 118,3 | 122,0 | 126,7 |
| **Asiya-Sakit okean regionu** | 31,1 | 54,6 | 56,4 | 64,2 | 71,2 | 76,8 | 81,4 | 89,0 | 88,3 | 87,2 | 93,7 |
| **Avropa** | 212,1 | 282,9 | 283,0 | 303,0 | 310,8 | 331,5 | 338,5 | 350,3 | 370,6 | 381,9 | 385,9 |
| **Yaxın Şərq** | 7,5 | 9,0 | 8,4 | 10,9 | 11,4 | 12,8 | 12,4 | 14,1 | 14,3 | 15,3 | 18,0 |
| **Cənubi Asiya** | 2,5 | 3,2 | 3,3 | 3,6 | 3,5 | 3,9 | 4,2 | 4,4 | 4,8 | 5,2 | 5,4 |
| **Dünya üzrə** | **327,2** | **458,4** | **464,0** | **503,3** | **519,0** | **550,5** | **567,5** | **596,5** | **619,7** | **636,6** | **657,0** |

* Cədvəl - ÜTT nəşr etdirdiyi materiallar əsasında tərtib olunmuşdur.

**Cədvəl 11***

## Beynəlxalq turizmdən əldə olunan gəlirlər
## (mlrd. ABŞ dolları ilə)

| Regionlar | 1985 | 1990 | 1991 | 1992 | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Afrika** | 2,9 | 5,3 | 5,0 | 6,2 | 6,3 | 6,8 | 1,4 | 8,7 | 9,0 | 9,6 | 9,8 |
| **Amerika** | 45,8 | 70,0 | 77,8 | 85,5 | 91,1 | 95,2 | 102,7 | 112,4 | 118,8 | 121,2 | 125,3 |
| **Asiya-Sakit okean regionu** | 16,9 | 39,2 | 40,4 | 47,4 | 53,9 | 63,4 | 14,5 | 82,3 | 76,6 | 73,7 | 73,4 |
| **Avropa** | 90,1 | 148,0 | 148,1 | 168,2 | 164,5 | 179,1 | 209,5 | 219,0 | 218,2 | 226,1 | 231,2 |
| **Yaxın Şərq** | 2,2 | 4,4 | 3,8 | 5,1 | 5,7 | 6,4 | 7,5 | 8,2 | 9,1 | 9,7 | 10,4 |
| **Cənubi Asiya** | 1,7 | 2,1 | 2,3 | 2,8 | 2,7 | 3,1 | 3,5 | 3,9 | 4,3 | 4,4 | 4,9 |
| **Dünya üzrə** | **159,6** | **269.0** | **277.4** | **315.2** | **324.2** | **354.0** | **339,1** | **434.5** | **436.0** | **444.7** | **455.0** |

* Cədvəl - ÜTT nəşr etdirdiyi materiallar əsasında tərtib olunmuşdur.

ӘLAVӘ 3-4

**Cədvəl 13**

## Regionlap üzpə beynəlxalq tupist qəbulu (min nəfərlə - 1998)

| Реэиона эялмя / Реэиондан эетмя | Dünya üzrə | Afrika | Amerika | ASR | Avropa | Yaxın Şərq | Cənubi Asiya | Başqa regionlar |
|---|---|---|---|---|---|---|---|---|
| ***Dünya üzrə*** | **636,676** | **15,601** | **123,795** | **91,464** | **348,529** | **9,082** | **5,258** | **42,947** |
| **Afrika** | **25,023** | **10,5** | **970** | **565** | **9,05** | **1,04** | **104** | **2,814** |
| Şərqi Afrika | 5,683 | 2,626 | 348 | 202 | 2,048 | 20 | 50 | 388 |
| Mərkəzi Afrika | 488 | 137 | 26 | 5 | 142 | 1 | 0 | 176 |
| Şimali Afrika | 8,678 | 873 | 176 | 55 | 4,745 | 971 | 5 | 1,853 |
| Cənubi Afrika | 7,667 | 5,780 | 278 | 200 | 1,199 | 17 | 23 | 170 |
| Qərbi Afrika | 2,507 | 1,062 | 141 | 103 | 921 | 28 | 26 | 227 |
| ***Amerika*** | **122,027** | **344** | **88,159** | **9,481** | **20,139** | **256** | **300** | **3,348** |
| Karib hövzəsi | 16,014 | 9 | 9,732 | 68 | 3,604 | 1 | 5 | 2,596 |
| Mərkəzi Amerika | 3,433 | 1 | 2,916 | 64 | 423 | 0 | 1 | 28 |
| Şimali Amerika | 85,042 | 286 | 62,009 | 9,109 | 13,068 | 238 | 288 | 43 |
| Cənubi Amerika | 17,538 | 48 | 13,502 | 240 | 3,045 | 17 | 5 | 681 |
| ***ASR*** | **87,183** | **380** | **6,276** | **66,55** | **9,433** | **323** | **1,317** | **2,905** |
| Şimal-Şərqi Asiya | 49,612 | 138 | 3,741 | 40,190 | 4,300 | 64 | 444 | 735 |
| Cənub-Şərqi Asiya | 29,241 | 153 | 1,570 | 20,759 | 3,640 | 227 | 823 | 2,069 |
| Avstraliya və | 5,652 | 88 | 680 | 3,471 | 1,259 | 32 | 50 | 72 |
| Okeaniya | 2,678 | 1 | 285 | 2,130 | 234 | 0 | 0 | 29 |
| ***Avropa*** | **381,939** | **3,095** | **27,229** | **13,267** | **304,0** | **1,730** | **1,297** | **31,317** |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Mərkəzi və Şərqi Avropa | 83,824 | 78 | 1,273 | 1,258 | 61,532 | 160 | 216 | 19,307 |
| Şimali Avropa | 41,369 | 574 | 6,504 | 2,340 | 30,473 | 406 | 269 | 804 |
| Cənubi Avropa | 112,233 | 783 | 8,068 | 3,587 | 93,025 | 297 | 65 | 6,408 |
| Qərbi Avropa | 131,388 | 1,521 | 10,471 | 5,811 | 107,958 | 485 | 402 | 4,740 |
| Şərqi-Aralıq dənizi bölgəsi | 13,125 | 139 | 914 | 271 | 11,015 | 383 | 345 | 58 |
| ***Yaxın Şərq*** | **15,314** | **1,173** | **670** | **956** | **3,425** | **5,530** | **1,006** | **2,554** |
| **Cənubi Asiya** | **5,190** | **130** | **491** | **645** | **2,475** | **206** | **1,235** | **9** |

**Cədvəl 14**

## Regionlap üzpə beynəlxalq tupist qəbulu (faizlə 1998-ci il)

| Реэиона турист ахыны / Реэиондан турист ахыны | Dünya üzrə | Afrika | Amerika | ASR | Avropa | Yaxın Şərq | Cənubi Asiya | Başqa regionlar |
|---|---|---|---|---|---|---|---|---|
| ***Dünya üzrə*** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100** | **100** |
| **Afrika** | **3,7** | **66,0** | **0,7** | **0,6** | **2,6** | **10,4** | **1,9** | **6,1** |
| Şərqi Afrika | 0,9 | 17,0 | 0,3 | 0,2 | 0,6 | 0,2 | 1,0 | 0,8 |
| Mərkəzi Afrika | 0,1 | 0,9 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,3 |
| Şimali Afrika | 1,3 | 5,5 | 0,1 | 0,1 | 1,3 | 9,7 | 0,1 | 3,9 |
| Cənubi Afrika | 1,2 | 35,9 | 0,2 | 0,2 | 0,4 | 0,2 | 0,4 | 0,5 |
| Qərbi Afrika | 0,4 | 6,7 | 0,1 | 0,1 | 0,3 | 0,3 | 0,4 | 0,4 |
| ***Amerika*** | **19,2** | **2,3** | **71,6** | **10,5** | **6,0** | **3,2** | **6,5** | **6,9** |
| Karib hövzəsi | 2,5 | 0,0 | 8,2 | 0,1 | 1,1 | 0,0 | 0,1 | 4,1 |
| Mərkəzi Amerika | 0,5 | 0,0 | 2,1 | 0,1 | 0,1 | 0,0 | 0,0 | 0,0 |
| Şimali Amerika | 13,7 | 2,0 | 51,3 | 10,1 | 4,0 | 3,1 | 6,3 | 0,1 |
| **Cənubi Amerika** | **2,6** | **0,2** | **10,0** | **0,2** | **0,7** | **0,1** | **0,1** | **2,7** |
| ***ASR*** | **14,2** | **2,7** | **5,5** | **72,6** | **3,1** | **3,2** | **25,2** | **1,2** |
| Şimal-Şərqi Asiya | 7,8 | 1,0 | 3,1 | 41,4 | 1,4 | 0,8 | 8,9 | 1,1 |
| Cənub-Şərqi Asiya | 4,9 | 1,2 | 1,7 | 24,4 | 1,4 | 2,1 | 15,4 | 0,0 |
| **Okeaniya** | **1,5** | **0,5** | **0,7** | **6,8** | **0,5** | **0,3** | **0,9** | **0,1** |
| ***Avropa*** | **59,7** | **20,3** | **21,2** | **14,5** | **86,5** | **21,1** | **25,6** | **80,0** |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Mərkəzi  və Şərqi Avropa | 13,9 | 0,6 | 1,0 | 1,3 | 17,4 | 1,2 | 3,8 | 55,2 |
| Şimali Avropa | 6,5 | 3,7 | 4,9 | 2,8 | 9,0 | 5,3 | 5,5 | 1,7 |
| Cənubi Avropa | 16,9 | 4,9 | 6,5 | 3,7 | 25,9 | 3,8 | 1,2 | 13,3 |
| Qərbi Avropa | 20,2 | 10,2 | 8,1 | 6,4 | 30,9 | 6,0 | 7,8 | 9,7 |
| Şərqi-Aralıqdənizi Avropası | 2,1 | 1,1 | 0,7 | 0,3 | 3,3 | 4,9 | 7,3 | 0,1 |
| ***Yaxın Şərq*** | **2,4** | **7,8** | **0,6** | **1,1** | **1,2** | **59,5** | **16,9** | **5,8** |
| **Cənubi Asiya** | **0,8** | **0,9** | **0,4** | **0,7** | **0,7** | **2,6** | **23,9** | **0,0** |

# II HİSSƏ

## MATERİKLƏR (QİTƏLƏR) ÜZRƏ BEYNƏLXALQ TURİZMİN VƏZİYYƏTİ VƏ İNKİŞAFI

**FƏSİL 8. Avropa ölkələrində beynəlxalq turizm.**
**FƏSİL 9. Qərbi və Mərkəzi Avropa ölkələrində beynəlxalq turizm.**
**FƏSİL 10. Şimali və Şərqi Avropa ölkələrində beynəlxalq turizm.**
**FƏSİL 11. Cənubi Avropa ölkələrində beynəlxalq turizm.**
**FƏSİL 12. MDB ölkələrində beynəlxalq turizm.**
**FƏSİL 13. Asiya ölkələrində beynəlxalq turizm.**
**FƏSİL 14. Şərqi Asiya ölkələrində beynəlxalq turizm.**
**FƏSİL 15. Cənubi və Cənub-Şərqi Asiya ölkələrində beynəlxalq turizm.**
**FƏSİL 16. Yaxın və Orta Şərq ölkələrində beynəlxalq turizm.**
**FƏSİL 17. Afrika ölkələrində beynəlxalq turizm.**
**FƏSİL 18. Amerika ölkələrində beynəlxalq turizm.**
**18.1.** Şimali Amerika ölkələrində beynəlxalq turizm.
**18.2.** Karib hövzəsi ölkələrində beynəlxalq turizm.
**18.3.** Cənubi Amerika ölkələrində beynəlxalq turizm.
**FƏSİL 19. Avstraliya və Okeaniya ölkələrində beynəlxalq turizm.**
**FƏSİL 20. Azərbaycan Respublikasında turizmin müasir vəziyyəti və inkişafı.**
**20.1.** Azərbaycanın turizm bölgələri.
**20.2.** Azərbaycan Respublikasında turizmin yaranması və qısa inkişaf tarixi.
**20.3.** Azərbaycan Respublikasında beynəlxalq turizmin statistikası.

# FƏSİL 8.

## AVROPA ÖLKƏLƏRİNDƏ BEYNƏLXALQ TURİZM

*Qitə ilə ümumi tanışlıq*

**Ərazisi: 10,5 mln. kv.km. (Rusiyanın və Türkiyənin Avropa hissəsi və Cənubi Qafqaz respublikaları daxil olmaqla).**
**Əhalisi: 600 mln. nəfər (2000-ci il).**
**Müstəqil dövlətlər: 44.**
**Asılı ərazilər: 1.**
**Ən böyük ölkə: Rusiya Federasiyası (Rusiya ərazisinin 25%-i Avropaya, 75%-i Asiyaya aiddir).**
**Ən kiçik ölkə: Vatikan.**
**Ən yüksək zirvə: Elbrus, Rusiyanın Avropa hissəsi – 5633 m.**
**Ən böyük göl: Xəzər dənizi – 376 min kv.km. Dənizin bir hissəsi Avropaya, bir hissəsi isə Asiyaya aiddir.**
**Ən uzun çay: Volqa – 3690 km.**

Avropa dünyanın inkişaf etmiş əsas turizm regionudur. Əlverişli təbii-iqlim şəraitinə malik olan və turistlərin diqqətini cəlb edən müxtəlif görkəmli yerlərin bol olduğu, turizmi daha çox inkişaf etmiş ölkələr Avropa qitəsində yerləşir. Mütəxəssislərin hesablamalarına görə beynəlxalq turizmin ümumi həcminin 60 faizi Avropa ölkələrinin payına düşür.

İqlim baxımından Avropanın əksər hissəsi mülayim qurşaqda yerləşir. Qitənin ucqar şimalı subarktika və arktika, cənubi isə subtropik zonaya daxildir. Avropa cənubda, qərbdə və şimali qərbdə Atlantik, şimalda isə Şimal Buzlu okeanı dənizlərinin suları ilə əhatə olunmuşdur.

Avropa bütün tarixi boyu dünya siyasətinə böyük təsir göstərmişdir. Qədim yunanlar eramızdan 450 il əvvəl demokratik cəmiyyət yaratmışdılar. Hökumətin xalq tərəfindən seçilməsi sistemi, bizim dövrümüzdə də geniş yayılmışdır. XVIII əsrin əvvəllərində avropalılar müstəmləkəçilərə çevrildilər. İri dəniz dövlətləri olan İspaniya, Hollandiya, İngiltərə və Fransa dünyanın böyük bir hissəsinə ağalıq edirdilər. Bu ölkələr Asiyanı, Afrikanı və hər iki Amerikanı, Avstraliyanı istismar edərək sürətlə varlanırdılar. Bu müstəmləkələrin əksəriyyəti iyirminci yüzillikdə müstəqillik əldə etmişlər.

Hər iki Dünya müharibəsi Avropa qitəsində başlanmışdır. İkinci Dünya müharibəsindən sonra, qitə ictimai-siyasi quruluşuna görə iki

hissəyə ayrıldı: Şərqdə Sovet İttifaqı başda olmaqla sosialist sisteminə daxil olan ölkələr, Qərbdə ABŞ-ın himayə etdiyi kapitalist ölkələri yarandı. Müharibədən sonra Avropa, iki fövqəldövlətin "Soyuq müharibə" adlanan mübarizə meydanına çevrildi. Ötən əsrin 80-ci illərinin sonu - 90-cı illərinin əvvəllərində keçmiş sosialist ölkələrinin əksəriyyətində demokratik dəyişikliklərin baş verməsi ilə "Soyuq müharibə" sona çatdı. 1996-cı ildə 16 Avropa ölkəsi Avropa İttifaqı adlanan təşkilatda birləşdi. Xatırladaq ki, dünyanın ən güclü iqtisadi təşkilatı olan bu İttifaq, Avropanın müxtəlif ölkələrinin siyasi və iqtisadi birliyinə nail olmağa səy göstərir.

Qərbi Avropanın relyefi, sahil xəttinin girintili-çıxıntılı olması və dünyanın digər yerləri ilə müqayisədə yarımadaların çoxluğu (ərazinin 27 faizi), bu regiona aid edilən ölkələrin özünəməxsus landşaftını təşkil edən dağların, yaylaların və ovalıqların bir-birini əvəz etməsi xarakterik haldır. Qitənin şimalında, cənub qərbdən – şimal şərqə doğru uzanan Skandinaviya yaylası, qərbdə okeana tərəf sərt, hündür, şərqdə isə alçaq yamaclıdır. Şimali Avropanın dağlıq ölkələrindən cənuba doğru ovalıq ərazilərin geniş zolağı uzanır İsveçin cənub hissəsi, Şimali Fransa, Cənub-Şərqi İngiltərə, Benilüks ölkələri (Belçika, Niderland, Lüksemburq), Danimarka, Almaniyanın şimal hissəsi, Polşanın böyük bir hissəsi bu zolaqda yerləşir. Bir qədər cənubda, Mərkəzi Avropa üçün xarakterik olan orta yüksəklikli dağ silsilələri uzanır. Daha cənubda isə yüksək dağlar yerləşir. Alp dağlarının möhtəşəm qövsvari zirvələri (Monblan, 4807 m) Qərbi Avropanın, ən uzun çayı olan Dunayın (2850 km) keçdiyi Vyana çökəkliyi ilə Karpat dağlarından ayrılır.

İqlim şəraitinə görə istirahət üçün daha münasib olan ərazilər Aralıq dənizinə çıxan üç yarımadadır (Pireney, Apennin və Balkan). Pireney yarımadasının sahil xətti nisbətən az girintili-çıxıntılıdır. Aralıq dənizi sahilində yerləşən bu yarımada və İspaniyaya məxsus olan Balear adaları istirahət üçün əlverişli imkanlara malikdir. Dağ turizmi üçün çox əlverşili olan Pireney dağları, yarımadanı Avropanın qalan hissəsindən ayırır və ona xususi görkəm verir.

Apennin yarımadasının sahil xətti, Pireney yarımadasına nisbətən daha çox girintili-çıxıntılıdır. Yarımada ərazisinin böyük bir sahəsində orta yüksəklikli Apennin yaylası yerləşir.

Balkan yarımadası adını çəkdiyimiz yarımadalardan fərqli olaraq, Avropanın digər ərazilərindən dağlarla ayrılmır. Sahil xətti girintili-çıxıntılı olan Balkan yarımadasının qərb hissəsində yerləşən Dinar dağları (2600 m), Pind dağları ilə əvəz edilir. Yarımadanın şimal-şər-

qində geniş Balkan yaylası uzanır. Yarımadanın mərkəzi hissəsinin relyefi dağlıqdır, bunların arasında ən yüksəyi isə Rodop (2924 m) dağıdır.

Avropa ölkələrinin iqlimi ilk növbədə onların coğrafi mövqeyi, o cümlədən Atlantik okeanından Avropaya isti və rütubətli dəniz havası gətirən Holfstrim ılıq dəniz axınına yaxın olması ilə müəyyənləşir. Avropa qitəsinin Qərb hissəsi demək olar ki, tamamilə mülayim qurşağa daxildir. Qərbdən gələn hava axınının üstünlüyü, Aralıq dənizi hövzəsində quru, isti yayı olan və Aralıq dənizi iqlimi adlanan xüsusi iqlim növünün yaranmasına səbəb olmuşdur.

Avropa atmosfer yağıntılarının kəskin qeyri-bərabərliyi ilə də seçilir. Yağıntıların maksimal miqdarı, Qərb bölgələrdə, dəniz havasının keçə bildiyi dağətəyi rayonlarda, xüsusilə Norveçin, Böyük Britaniyanın, Balkan və Pireney yarımadalarının qərb sahillərində, o cümlədən, Alp dağlarının cənub və şimal ətəklərində və Qərbi Pireneydə müşahidə olunur. Avropa qitəsinin Xarici Avropa adlanan Qərb hissəsindəki yarımadaların cənub-şərq rayonları və ümumiyyətlə Aralıq dənizi zonasının ucqar cənubu daha quru iqlimə malikdir. Əlverişli iqlim şəraitinin olması, bu zonanın Avropanın əsas turizm mərkəzinə çevrilməsinə səbəb olmuşdur.

Avropa ölkələrinin hüdudları daxilində təbii-coğrafi amillər, ilk öncə ərazinin relyefi və iqlimi, turist axınının intensivliyini* və istiqamətini müəyyən edir. Aralıq dənizi hövzəsi daha çox turist cəlb edir. Avropa turistlərinin yarıdan çoxu və digər qitələrdən gələn turistlərin təqribən 30 faizi bu ərazidən keçir. Günəşli Aralıq dənizi hövzəsi, rütubətli və soyuq Mərkəzi və Şimali Avropa sakinlərini özünə cəlb edir. Tarixi və mədəniyyət abidələrinə maraq da buna əlavə olunur.

Qərbi Avropa hüdudları daxilində turizm əlaqələri əsasən, qonşu ölkələr arasında inkişaf etmişdir. Bunun əsas səbəbi, qonşu ölkələrin tarixi keçmişi və talelərinin oxşarlığı, iqtisadi və mədəni əlaqələrin sıx olmasıdır.

Beynəlxalq turizm Avropanın bütün inkişaf etmiş ölkələrini əhatə etsə də, heç də hamısında eyni səviyyədə inkişaf etməyib. Ayrı-ayrı dövlətlərin beynəlxalq turizmdə iştirakı xarakteri də əsaslı surətdə fərqlənir və bu iştiraka görə həmin ölkələri dörd qrupa ayırmaq olar.

Əhalisi sıx, urbanizasiya və həyat səviyyəsi yüksək olan ölkələr. Belə ölkələri **birinci qrupa** aid etmək olar. Böyük Britaniya, Fransa,

* ***İntensiv*** (fransız mənşəli sözdür, gərginləşmə, güclənmə, sürətlənmə mənalarını daşıyır) – gərgin, gücləndirilmiş, kəsərli məhsullar və ya fəallığın gücləndirilməsi.

Almaniya, Benilüks və Skandinaviya ölkələri bu qrupa məxsusdur.

**İkinci qrup** ölkələr, dünya üzrə xarici turistlərin dörddə bir hissəsindən çoxunu özünə cəlb edən dövlətlərdir. Bunlar saysız-hesabsız buxtalara, adalara, rəngarəng dağ və dağətəyi-göl landşaftına malik olan, subtropik Aralıq dənizi iqlimi qurşağında yerləşən ölkələrdir. Avropanın bu hissəsi özünün füsunkar təbiəti və çoxsaylı tarixi-mədəni abidələri ilə turistləri cəlb edir. İspaniya, İtaliya, Portuqaliya, Yunanıstan, Malta və b. bu qrupa daxil edilir.

**Üçüncü qrup** ölkələrə Alp dağlarının əzəmətli massivləri, heyranedici gözəlliyi olan gölləri, saysız-hesabsız memarlıq abidələri ilə beynəlxalq turizmin inkişafı üçün əlverişli şəraitə malik İsveçrə və Avstriyanı aid etmək olar. Bu yerlərə hər il milyonlarla əcnəbi turist gəlir.

Keçmiş Qarşılıqlı İqtisadi Yardım Şurasına daxil olan ölkələr – Çexiya, Slovakiya, Bolqarıstan, Macarıstan, Rumıniya, Polşa və həmçinin Yuqoslaviya **dördüncü qrupa** aid edilir. Ötən əsrin 50-ci illəri ilə müqayisədə bu ölkələrdə beynəlxalq turizm fəal inkişaf etməyə başlamışdır.

44 müstəqil dövlətin yerləşdiyi Avropa qitəsi beynəlxalq turizmin inkişaf səviyyəsinə görə dünyanın lider regionu olsa da, beynəlxalq turizmin inkişafı bütün ölkələrdə eyni səviyyədə deyildir. Turizm mütəxəssisləri statistik hesabatların tərtibi zamanı Avropanı beş subregiona bölürlər: Qərbi, Şimali, Mərkəzi, Şərqi və Cənubi Avropa.

# FƏSİL 9.

## QƏRBİ VƏ MƏRKƏZİ AVROPA ÖLKƏLƏRİNDƏ BEYNƏLXALQ TURİZM

### 9.1. BÖYÜK BRİTANİYA

**Ərazisi: 244,8 min kv.km. Dünyada 71-ci yer.**
**Əhalisi: 60,0 mln. nəfər (2000). Dünyada 19-cu yer.**
**Paytaxtı: London (ətrafı ilə birlikdə 9,0 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - İngilis dili.**
**Əsas din: Protestantlıq.**
**Milli pul vahidi: Funt sterlinq.**

Böyük Britaniya Avropanın şimal-qərbində, Britaniya adalarında (Böyük Britaniya, İrlandiyanın şimal hissəsi, Normand, Men, Anqlsi, Daxili və Xarici Hebrid, Şotlandiya və s. adalar daxil olmaqla təxminən 5 min xırda ada) yerləşmişdir. Bundan əlavə, dünyanın başqa bölgələrində yerləşmiş bir sıra asılı ərazilər də Böyük Britaniya dövlətinin tərkibinə daxildir. Məsələn, Angil, Bermud, Virciniya, Müqəddəs Yelena, Kayman, Montserrat, Pitkern, Terks və Kaykos, Folklend, Cənubi Georg və Cənubi Sandviç adaları və Cəbbəlütariq Britaniyaya məxsusdur. Böyük Britaniyanın özü isə ərazisinə görə bir çox Avropa ölkələrindən, o cümlədən Fransa, Almaniya, İtaliya, Polşadan kiçikdir.

Böyük Britaniyanın tərkibinə 4 tarixi-coğrafi əyalət: İngiltərə, Uels, Şimali İrlandiya və Şotlandiya daxildir. Men və Normand adaları – müstəqil inzibati vahidlərdir.

Ölkə əhalisinin 81,5 faizini ingilislər, 9,6 faizini şotlandlar, qalanlarını irlandlar, uelslilər (və ya vallilər) təşkil edir. Ölkədə həmçinin Hindistan və Pakistandan gələnlər, ərəblər, çinlilər, afrikalılar da yaşayır. Orta ömür kişilər üçün 76, qadınlar üçün isə 80 ildir.

1 iyun 1801-ci il, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının yarandığı gün - Milli bayram kimi qeyd olunur.

Böyük Britaniya – parlamentli monarxiyadır. Ölkədə vahid, əsas qanun kimi fəaliyyət göstərən konstitusiya yoxdur. Parlament tərəfindən qəbul edilən qanunvericilik aktları və məhkəmə presedentləri*,

---

* ***Presedent*** (latın mənşəli sözdür, əvvəlki, əvvəllər olmuş mənalarını bildirir) - hüquqda konkret iş üzrə çıxarılmış məhkəmə qərarı.

konstitusiya maddələri əhəmiyyətini daşıyır. Dövlətin başçısı – Kraliça II Yelizavetadır. Kraliça həmçinin məhkəmə sisteminin başçısı, silahlı qüvvələrin ali baş komandanı, anqlikan kilsəsinin dünyəvi rəhbəri hesab edilir. Dövlətin qanunverici orqanı Lordlar və İcmalar palatalarından ibarət olan parlamentdir. Kraliçanın doğum günü (16 iyul, 1926), Milli bayram kimi qeyd olunur.

İri şəhərləri: Birmingem (995 min), Lids (710 min) və Qlazqodur (690 min). Ölkənin əsas portları: Duvr, Liverpul, London, Sauthempton, Felikstou və Xartlpuldur.

Böyük Britaniya yalnız İrlandiya ilə həmsərhəddir (sərhəd xəttinin uzunluğu – 360 km). Qərbdə Atlantik okeanın, şərqdə Şimal dənizinin suları ilə əhatə olunur. Cənub-şərqdə La-Manş boğazı Böyük Britaniyanı Avropa qitəsindən ayırır. Sahil xəttinin uzunluğu 12429 km-dir. Digər dövlətlər, məsələn, İrlandiya (Şimali İrlandiya məsələsi), İspaniya (Cəbəllütariq məsələsi), Argentina (Folklend/Malvin adaları) və b. ilə mübahisəli ərazi məsələləri var.

Böyük Britaniyanın sahilləri çox girintili-çıxıntılıdır. Sahil boyu məhsuldar ovalıqlar uzanır. Ölkənin qərbində və şimalında dağlıq relyef – Şimal-Qərb yaylası və İngiltərə adasının ən yüksək zirvəsi olan Snoudonun (1085 m) yerləşdiyi Qrampion dağları üstünlük təşkil edir. Şimali İrlandiyada Antrim yaylası və Mon dağları vardır.

Ölkənin əsas çayları: Temza, Severn, Trent, Mersi, Klayddır. Göllərin əksəriyyəti Şotlandiya və Şimali İrlandiya ərazisindədir. Onlardan ən böyüyü – Lox-Neydir (400 kv. km).

Əsas faydalı qazıntılar: neft, təbii qaz, və ehtiyatı xeyli azalmış dəmir filizi, kömür, müxtəlif duzlar, qalay, qurğuşun, kvarsdır.

Böyük Britaniya ərazisinin cəmi 8 faizi meşə ilə örtülüdür. Buna baxmayaraq, ölkə özünəməxsus gözəlliyə malik olan, zəngin kənd landşaftı və qədim parklarla (müasir dövrdə əksəriyyəti idman meydançalarına çevrilmişdir) əhatə olunan orta əsr qəsrləri ilə də məşhurdur. Qədim qəsrlərin əksəriyyətində indi də yaşayırlar.

Şimali Atlantika axını, Böyük Britaniyanın iqliminə güclü təsir göstərir. Bununla əlaqədar, yağıntının miqdarının çoxluğu, vaxtaşırı güclü dumanlar, yumşaq qış, sərin və az günəşli yay, bir sözlə dəyişkən hava – ölkənin iqlimi üçün xarakterikdir. Qışda və yayda havanın temperaturu arasındakı fərq o qədər də kəskin olmur. Yanvarda orta temperatur, şimalda müsbət 3 və cənubda müsbət 7, iyulda müvafiq alaraq 13 və 17 dərəcə təşkil edir. Oktyabr-dekabr aylarında duman hadisələri tez-tez müşahidə edilir. Londonu dumanlı London adlandırırlar.

* * *

Böyük Britaniya əhalinin səfərlərə yüksək dərəcədə meylli olması və geniş beynəlxalq turizm əlaqələri ilə xarakterizə edilir. Ölkədə turistləri cəlb edən əsas mərkəzlər onun paytaxtı London (ətrafı ilə birgə), Temza vadisi, ölkənin cənub və cənub-qərb sahilləri, ölkənin mərkəzi, Midlend, Şərqi İngiltərə, Cersi, Uayt, Men kurort adaları, Uels, Şotlandiya və Şimali İrlandiyadır. İngiltərəyə gələn əcnəbi turistlərin əsas hissəsi Londona, oradan Midlendə, Şotlandiyaya, Uelsə, az qismi isə ölkənin digər bölgələrinə gedirlər. Daxili turizmin əsas mərkəzləri ölkənin sahil rayonlarıdır. Bu rayonlarda daxili turizmin 75 faizi cəmləşmişdir.

**London turizm mərkəzi**. Dövlətin paytaxtı, dünyanın ən iri turizm mərkəzlərindən biri olan Londona hər il 10 mln.-dan artıq daxili və əcnəbi turist gəlir.

İngilis krallarının tacqoyma mərasimlərinin keçirildiyi və dəfn edildikləri Vestminster abbatlığı*, Nyuton, Darvin və ölkənin digər məşhur şəxsiyyətlərinin dəfn edildiyi Müqəddəs Pyotr məbədi – Londonun görkəmli yerləri sırasındadır. Bu məbədin "Şairlər guşəsi" adlanan hissəsində dahi ingilis yazıçıları və şairləri dəfn edilmişlər. Şekspirin, Dikkensin, həmçinin ingilis ədəbiyyatının bütün dünyada tanınmış digər məşhur nümayəndələrinin məzarları da burada yerləşir.

Parlament binası və Biq-Ben adlanan saatlı qüllə turistlərin diqqətini cəlb edir. 900 illik dövr ərzində baş verən tarixi olayların lal şahidləri – London Taueri; Qvardiya keşikçilərinin təntənəli növbədəyişmə mərasimini seyr etməyin mümkün olduğu Bukenhem sarayı; külli miqdarda eksponatları və zəngin kitabxanası olan Britaniya muzeyi; fransız, ispan, flamand, holland, alman və ingilis rəssamlarının misilsiz əsərləri saxlanılan Milli Qalereya; Teyt Qalereyası; Viktoriya və Albert muzeyi Londona gələn turistlərin diqqətindən yayınmayan yerlərdir. Madam Tüssonun mum fiqurları toplusu muzeyi də turistləri cəlb edir.

Şəhərin mərkəzində gözəl, geniş meydanlar çoxdur. Məsələn, 1805-ci ildə baş vermiş Trafalqar döyüşündə qələbə çalan ingilis donanmasına başçılıq edən admiral Nelsonun 56 metrlik sütun üzərində 5 metrlik abidəsi ucalan Trafalqar meydanı; gecə və gündüz izdihamlı

* ***Abbatlıq*** (latınca ata mənasını daşıyır) - abbat katolik kilsəsində ruhani rütbəsi. Abbatlıq abbatın idarə etdiyi katolik monastırı.

olan Pikadilli meydanı; Hayd-park; Kensinton, Qrin-park; Ricent-park və s. turistlərin diqqət mərkəzində olan yerlərdir.

Turistlər adətən Londondan o qədər də uzaq olmayan, Kral VIII Henrixin iqamətgahı Hemptonkort sarayına (sarayın ətrafındakı bağ ölkənin ən gözəl parkı hesab edilməklə yanaşı orada zəngin rəsm qalereyası da fəaliyyət göstərir) və Fateh Vilhelm (XI əsr) dövründə əsası qoyulan Vindzor sarayına qısa müddətli ekskursiyalarda iştirak edirlər.

Bu saray əsrlər boyu ingilis krallarının əsas şəhərkənarı iqamətgahı olmuşdur. Sarayda Rubens və Van-Deykin əsərləri, Leonardo da Vinçi, Rafael, Mikelancelonun rəsm kolleksiyaları, eyni zamanda qobelen* və silah kolleksiyaları da daxil olmaqla, incəsənət əsərlərinin zəngin sərgisi yerləşir. Vindzor sarayının yaxınlığında 1440-cı ildə əsası qoyulmuş, əsasən varlı ailələrin uşaqları təhsil alan məşhur İton kolleci yerləşir.

**Temza çayı hövzəsi turizm bölgəsi.** Bu bölgənin rayonları arasında Temzanın mənbəyi sayılan Kotsuold-Hils yüksəkliyi və ona bitişik olan şərq hissəsi turistləri daha çox cəlb edir. Bu rayon, sakit xutorları** olan mənzərəli kənd görünüşü ilə, müasir sivilizasiyanın toxunmadığı orta əsr meydanları və küçələri olduğu kimi saxlanılan kiçik şəhərləri ilə fərqlənir. Broduey, Morton-in-Marş, Ctoun-te-Uold, Şipton-ander-Uiçvud, Sayren-Sester kimi kiçik şəhərlər turistlər üçün cəlbedicidir. Əsas etibarı ilə iri şəhərlərdə yaşayan ingilis turistləri və qismən İngiltərədən gedən emiqrantların nəsillərindən olan əcnəbilər bu rayona səyahətə gəlirlər.

Kotsuold-Hilsdən qərbdə, müalicəvi mineral suları ilə məşhur olan dəbdəbəli Çeltnem kurortu yerləşir. Kotsuold-Hilsdən şərqdə Temza çayı axınının aşağı hissəsində yerləşən orta əsrlərin universitet şəhəri olan Oksford əcnəbi və ingilis turistlərinin diqqətini cəlb edir. Oksford universiteti XII əsrdə yaradılmış, İngiltərənin ən iri və qədim aristokrat*** universitetlərindən biridir. Universitetin çoxsaylı kollecləri bütün şəhər boyu səpələnmişdir.

Londondan 45 km aralı, Temzanın yuxarı axarında londonluların sevimli istirahət zonaları - Meydenhed, Henli-on-Tems, Marlou yer-

---

* ***Qobelen*** (fransız mənşəli sözdür) - əl ilə toxunmuş şəkilli divar xalçası. Qobelen sözü XV əsrdə Parisdə boyaqçılar ailəsi Qobelenlərin soyadından götürülüb.

** ***Xutor*** - yeni torpaqların mənimsənilməsi zamanı yaradılan yaşayış yeri. Varlı kəndlilərin şəxsi torpaq sahəsində yaratdıqları malikanə.

*** ***Aristokrat*** (yunan mənşəli sözdür, hərfi mənası ən yaxşı, adlı-sanlı) - sinifli cəmiyyətdə ali silk, imtiyazlı təbəqə.

ləşir.

**Kent, Susseks və Hempşir qraflıqlarının, cənub sahilləri turizm bölgəsi**. Qumlu çimərlikləri və mənzərəli buxtaları ilə yay istirahətinin təşkili üçün əlverişli bölgədir. Burada əsasən yay mövsümü üçün nəzərdə tutulmuş, avadanlıqla yaxşı təchiz edilmiş yerləşdirmə vasitələri və qidalanma müəssisələri olan çoxsaylı kurort qəsəbələri vardır. Lap cənubda isə dəbdəbəli mehmanxanaları, çoxsaylı restoranları və əyləncə müəssisələri ilə zəngin olan iri kurort şəhərləri yerləşir. Duvrdan-Bornmuta qədər olan bütün sahil ərazisini "İngilis Rivyerası"* adlandırırlar.

**Brayton** - tanınmış İngiltərə kurortudur. 200 il öncə burada kiçik balıqçı qəsəbəsi var idi. 1754-cü ildə doktor Riçard Rassel həmin ərazidə dəniz suyunun müalicəvi xüsusiyyətini aşkar etmiş və onu populyarlaşdırmağa başlamışdı. Bir neçə il sonra gənc Uels şahzadəsinin Braytona gəlişi ilə əlaqədar burada şahzadə üçün saray inşa edilmişdir. Həmin saray indiyədək qorunub saxlanılır. Şahzadənin ardınca ingilis zadəganlarının bu yerlərə axını ilə əlaqədar ərazidə dəbdəbəli mülklərin, mehmanxanaların tikintisinə başlanılmışdı. Beləliklə, Brayton Böyük Britaniyanın ən dəbdə olan kurortuna çevrilmişdi. Bu kurort ərazisində çimərlik, otellər, restoranlar, müxtəlif əyləncə mərkəzləri fəaliyyət göstərir. Kurortda yeni, hündür mərtəbəli - göydələn otellərin tikintisi aparılır.

**Bornmut** - İngiltərənin cənub sahillərində, 150 min nəfər əhalisi olan digər məşhur kurortdur. Hərtərəfdən geniş şam meşələri ilə əhatə olunmuş kurort özünün saf havası ilə şöhrət qazanmışdır. Braytonda olduğu kimi burada da dəbdəbəli mehmanxanalar və restoranlar çoxdur. Bu müəssisələr il boyu turistlərə xidmət göstərir. Brayton və Bornmutda qış aylarında turistləri cəlb etmək məqsədi ilə festivallar, sərgilər, müsabiqələr və s. təşkil olunur.

**Duvr** – ölkənin iri portu və məşhur dənizkənarı kurortudur. Duvrdan qərbdə Folkston, Hayt, Ray, Qastinqs kimi dəbdəbəli kurortlar yerləşir. Qastinqsin bir neçə km-də Batlda, 1066-cı ildə normandlar I Vilhelmin başçılığı altında, Kral Haroldun anqlo-saks ordusunu darmadağın etmişlər. Qastinqsdən qərbdə Bekshill, İstborn, Nyuheyven kurortları yerləşir.

Braytonun yaxınlığında yerləşən Boqnor Ricisdən bir qədər aralı, qədim Çiçester şəhəri yerləşir. Burada qədim romalılar Britaniyada

---

* ***Rivyera*** - əlverişli iqlimi olan ensiz dəniz sahili zolaq. Rivyeralarda beynəlxalq dərəcəli turizm və istirahət mərkəzləri yerləşir.

özlərinin ön mövqeyini yaratmış, oradan da Londona qədər öz əsas yollarını çəkmişlər. Şəhərdə Normand kilsəsi və əsrlər boyu ticarət mərkəzi kimi tanınan qədim meydan qorunub saxlanılır. Çiçesterin ətrafı tipik ingilis kənd mənzərəsi ilə diqqəti cəlb edir.

İngiltərənin cənub sahillərində yerləşən dənizkənarı kurortlarda hər il milyonlarla ingilis, həmçinin Fransa, Belçika, Niderland və digər ölkələrdən gələn yüz minlərlə turist istirahət edir. İngiltərənin cənubunda iki turizm mərkəzi formalaşmışdır: Qərb zonasında – Uinçester, şərqdə – Kenterberi.

**Uinçester** - İngiltərənin ən böyük dəniz sərnişin portu olan Sauthemptondan şimalda yerləşir. Uinçester XI əsrə qədər uzun müddət Britaniyanın paytaxtı olmuşdur. Şəhərdə orta əsrlərə aid çoxsaylı memarlıq abidələri, o cümlədən 1382-ci ildən fəaliyyətə başlamış ölkənin ən qədim məktəblərindən birinin yerləşdiyi bina, Uinçester qəsri, Kafedral kilsə və s. qorunub saxlanılır.

**Kenterberi** – ölkənin dini mərkəzidir. Burada ingilis kilsəsinin başçısı, Kenterberi arxiyepiskopunun* iqamətgahı yerləşir. Kenterberi şəhəri XII-XV əsrlərdə salınmışdır. Bu şəhərdə görkəmli tarixi və memarlıq abidələri çoxdur. XVI əsrədək Kenterberi anklikan və katolik kilsə başçılarının daimi iqamətgahı olmuşdur.

**İngiltərənin cənub-qərb sahilləri turizm bölgəsi.** Bu bölgə Kornuell yarımadasının "Kornuell Rivyerası" adlanan dəniz sahili düzənliyi əhatə edir və ölkənin mühüm daxili turizm mərkəzlərindən biri sayılır. Bu bölgənin iqlimi okean tipli olduğundan qışda İngiltərədə ən isti yer hesab edilir. Rahat qumlu çimərliklərin bolluğu, bura hər il milyonlarla turistləri cəlb edir.

Bu rayonun məşhur dənizkənarı kurortları (Yeston-Super-Mer və b.) ilə yanaşı, həmçinin mineral mənbələri (Maynhed, Linton, İlfraum, Byüd, Sent-Ayvs, Penzans, Falmut, Mevaqissi, İst-Lu, Solkom, Dartmut) vardır. Torki kurortu ölkədə çox məşhurdur. Burada geniş, rahat çimərliklər, çoxlu müasir mehmanxana və restoranlar, eyni zamanda çoxsaylı kiçik, rahat, yay üçün nəzərdə tutulan yerləşdirmə vasitələri və yeyinti müəssisələri vardır. Devonşir qraflığında yerləşən bu kurort şəhərini "Devonşir Rivyerasının kraliçası" adlandırırlar. Torkidən şərqdə Sidmut, Laym-Ricis, Yemut, Seyonic kurortları yerləşir.

Böyük Britaniyanın cənub-qərb bölgəsində turist axını, dənizkənarı kurortlardan başqa, ölgənin ən məşhur balneoloji kurortların-

---

* *Arxiyepiskop* (yunanca böyük yepiskop deməkdir) - yepiskop isə müşahidəçi mənasını bildirir. Xristian dinində ali ruhani rütbə.

dan biri sayılan Bat kurortuna da istiqamətlənir. Bu kurortun müalicəvi mənbələrindən qədim romalılar da geniş istifadə etmişlər. Qədim romalılar tərəfindən əsası qoyulan istilik sistemi qorunub saxlanıldığından ondan indiyədək istifadə olunur. Bu zonada Dorçester, Şaftsbern, Qlantonbri, Uels kimi əfsanələrlə zəngin bir sıra qədim ingilis şəhərləri, eyni zamanda Bristol kimi iri port və sənaye şəhəri yerləşmişdir.

**Midlend turizm bölgəsi.** Midlendin əsas turizm mərkəzi Stratford – on - Eyvon şəhəridir. Dahi ingilis şairi Vilyam Şekspir bu şəhərdə anadan olmuşdur. Şairin yaşadığı ev və məzarı burada yerləşir. Şəhərə hər il on minlərlə ingilis və əcnəbi turist gəlir.

Möhtəşəm kilsə və VII əsrə aid olan monastırın yerləşdiyi, ölkənin ən qədim şəhərlərindən biri olan Vuster, orta əsrlərdə salınmış qəsrin yerləşdiyi Uorik şəhəri, qədim qəsrin qalıqları olan və Valter Skottun "Keniluert" romanında təsvir edilən Keniluert şəhəri kimi kiçik, lakin bir zamanlar məşhur olmuş şəhərlər İngiltərənin orta əsrlər tarixi ilə maraqlanan turistləri özünə cəlb edir. Müalicəvi əhəmiyyəti hələ orta əsrlərdə məşhur olan Leminqton balneoloji kurortu da bu bölgədə yerləşir.

Çoxsaylı tarix və mədəniyyət abidələrinin, teatr və rəsm qalereyalarının bol olduğu, bölgənin ən iri şəhərləri sayılan Birmingem və Nottingemə, eyni zamanda, 1940-cı ildə faşist aviasiyası tərəfindən tam darmadağın edilən Koventri şəhərinə hər il çoxlu sayda ingilis və əcnəbi turist gəlir.

**Şərqi İngiltərə turizm bölgəsi.** XIII əsrdə əsası qoyulan, Böyük Britaniyanın ən böyük və qədim universitetlərindən birinin yerləşdiyi Kembric şəhəri, bu bölgənin əsas turizm mərkəzidir. Nyuton, Tomson, Rezerford və digər məşhur alimlər burada işləmişlər. Darvin 1873-cü ildə Kembric universitetində magistr dərəcəsi almışdır. Kembricdə müxtəlif dövrlərə aid olan böyük miqdarda memarlıq abidələri qorunub saxlanılmışdır. Hər il şəhərə on minlərlə ingilis və əcnəbi turistlər səyahətə gəlirlər. Bu turizm bölgəsində əsasən, ingilislərin istirahət etdikləri bir sıra sahil kurortları (Oldboro, Loustoft, Qreyt-Yarmut, Kromer və b.) fəaliyyət göstərir.

**Cersi və Gernsi kurort adaları.** La-Manş boğazında, Fransa sahilləri yaxınlığında yerləşmiş yumşaq dəniz iqliminə malik bu adalar istirahət üçün əlverişli yerdir.

**Uayt adası.** La-Manş boğazında, İngiltərənin cənub sahillərində yerləşir. Ada yumşaq qışı və isti yayı olan dəniz iqliminə malikdir. Kurortlar əsasən, adanın əlverişli çimərlikləri olan cənub-şərq hissə-

sində yerləşir. Bu kurortlar çoxsaylı ingilis turistlərini cəlb edir.

**Men adası.** İrlandiya dənizində yerləşir və ingilis turistlərinin istirahət yerlərindən biri sayılır. Adada yüksək səviyyəli mehmanxana bazası, yeyinti müəssisələri, eyni zamanda istirahət və əyləncə üçün şərait vardır. 7 min cütlük üçün nəzərdə tutulmuş, dünyanın ən böyük rəqs zalı bu adada tikilmişdir.

**Uels.** Böyük Britaniyanın bir hissəsi olmaqla, Uels yarımadasından və ona qonşu olan Anqlsi adasından ibarətdir. Sahil xətti güclü şəkildə parçalanmışdır. Yarımadanın böyük hissəsini yüksək olmayan (500-700 m) Kembric dağ massivi təşkil edir. Yarımadanın şimalında ucalan Snoudon dağı İngiltərə tarixi-coğrafi bölgəsinin ən yüksək zirvəsidir. Həmin zirvədən yaxşı hava şəraitində Uelsin əzəmətli, geniş mənzərələrini seyr etmək olur. Çayların vadilərində və dağətəyi yerlərdə enli yarpaqlı meşələr zolağı uzanır. Düzənlik ərazilərdə tarlalar və bağlar salınmışdır. Yarımada rütubətli dəniz iqliminə malikdir.

Uels V-VI əsrlərdə Britaniyanın anqlosakslar tərəfindən zəbt edilməsindən sonra formalaşmış xalqın – uelslilərin və ya vallilərin vətənidir. Bu məğrur xalqın çox əsrlik tarixi anqlosaks işğalçıları ilə apardığı amansız mübarizə ilə zəngindir. Yalnız XIII əsrdə anqlosakslar Uelsi özlərinə tabe edə bildilər.

Uels paytaxtının (***Kardif şəhəri***) görkəmli yerləri, eyni zamanda Llanqollen və Karmarten şəhərlərinin zənkin tarixi və memarlıq abidələri, turistləri cəlb edən amillərdir. Uels, müalicəvi mineral mənbələrlə zəngindir. Bunların arasında, Llandrindod-Uels, Llanurtid-Uels daha məşhurdur. Uelsin dəniz sahili kurortları – Tauni, Aberistuit, Tenbi, Suonsi turistlərin diqqətini cəlb edir. Bu şəhərlərdə çoxsaylı tarixi və memarlıq abidələrinə rast gəlmək olar.

**Şimali İngiltərə turizm bölgəsi.** İngiltərənin şimal rayonlarının relyefi (ölkənin əsas hissəsi kimi) dağlıqdır. Burada meridional şəkildə uzanan Pennin dağları (893 m) yerləşir. Ərazi dəniz iqliminə malikdir. İrland dənizi sahillərindəki Sautport, Blekpul, Morkam kimi məşhur kurortlar, Şimal dənizi sahillərindəki Bridlinqton, Skarboro kurortları və qədim abbatlığın xarabalıqlarının qaldığı Uitbi şəhəri, Harrogit və Bakston balneoloji kurortları bu turist bölgəsində yerləşir.

Riçmond, Darem, Heksem, Lankaster, York, Çester kimi kiçik şəhərlər, İngiltərənin şimalında turistlərin toplaşdıqları əsas mərkəzlərdir. Bu şəhərlərdə qorunub saxlanılan çoxsaylı tarixi-memarlıq abidələri – onların qədim zamanlarda möhtəşəm şəhərlər olduğunu göstərir.

Liverpul, Şeffild, Mançester, Lids, Qull kimi iri sənaye şəhərlərinin muzeylərində, qalereya və kitabxanalarında incəsənət əsərlərinin zəngin külliyyatı toplanmışdır. Bu turizm bölgəsi, İngiltərənin üç şimal qraflığının – Kamberlend, Lankaşir və Çestmorlendin kəsişdiyi yerdə, dağlar arasında yerləşən dərin, gözəgəlimli gölləri ilə şöhrət qazanmışdır. Bu diyarın gözəllikləri məşhur ingilis şairləri Vordsvort, Şelli, Kits, Tennis tərəfindən vəsf edilmişdir.

**Şotlandiya turizm bölgəsi.** Bu bölgə təbii şəraitinə görə Skandinaviya ölkələrinə daha çox bənzəyir. Ərazisinin böyük bir hissəsini dağlar təşkil edir. Bu dağların ən uca zirvəsi – Ben-Nevisdir (1343 m). Şotlandiyanın iqlimi İngiltərənin iqlimindən xeyli fərqlənir. Burada demək olar ki, daim buludlu, tutqun hava şəraiti, çox zaman güclü küləklər və fırtına ilə müşahidə olunur. Bu ərazidə yağıntının miqdarı il ərzində İngiltərənin cənub-şərq rayonlarına düşən yağıntıdan üç-dörd dəfə çoxdur.

Ölkənin bu bölgəsində olan dağların və göllərin əsrarəngiz gözəlliyi, Şotlandiyaya "Kiçik İsveçrə" adının verilməsinə səbəb olmuşdur. Şotlandiya həmçinin, yerli xalqın milli adət və ənənələrinin orijinallığı ilə də məşhurdur.

Şotlandiyada çoxsaylı turizm mərkəzləri vardır. Turistlərin marağını ilk növbədə özünə cəlb edən yer Şotlandiyanın paytaxtı, Böyük Britaniyanın ən gözəl şəhərlərindən biri olan **Edinburqdır**. Hündür təpənin üstündə yerləşmiş şəhərin ən yüksək hissəsində, hündürlüyü 100 metrə yaxın olan möhtəşəm Edinburq qəsri yüksəlir. Şəhərdə muzeylər və teatrlar çoxdur. Burada hər il incəsənət festivalları keçirilir.

Əcnəbi turistlərin əksər hissəsi, Şotlandiyanın ən böyük port şəhəri və Böyük Britaniyanın ən iri sənaye mərkəzlərindən biri olan Qlazqoya üstünlük verirlər. Şotlandiya əhalisinin üçdə biri bu şəhərdə yaşayır. Qlazqo-mədən, və dəniz fəhlələri (dokerlər) şəhəridir. Burada muzeylər, teatrlar və rəsm qalereyaları çoxdur.

Çoxsaylı ingilis turistləri və qismən də əcnəbilər, Şotlandiyanın şimalında yerləşən, tarixi və me'marlıq abidələri ilə zəngin olan böyük şəhərlərdən birinə – Aberdinə gəlirlər. Şotlandiyanın qədim paytaxtı Pertdə, Kriff, Dankeld kimi kiçik, qədim şəhərlərdə bu bölgənin əski mədəniyyət abidələri qorunub saxlanılmışdır. Dahi şotland şairi Robert Bernsin yaşadığı və məzarının yerləşdiyi Damfris şəhəri çoxsaylı turistləri özünə cəlb edir.

Yay mövsümündə Qlazqo, Edinburq, Aberdin və digər iri şəhərlərdən daxili turist axını, dənizkənarı və yerli iqlim kurortlarına isti-

qamətlənir. Şotlandiyanın dənizkənarı kurortları arasında Er, Oban, Dornoh Montros, Karnusti, Kirkoldi, Nort-Berik, eyni zamanda Bürt, Ayley, Skay kurort adaları seçilir. Şotlandiyanın daxili rayonlarının iqlim kurortları arasında Kallander, Aberfoyl, Ballater, Banhori, Breymar daha məşhurdur.

**Şetland adaları.** Böyük Britaniyanın ən şimal ərazisidir. Bu adalar əsasən Şimali Atlantikanın özünəməxsus sərt təbiətini sevən turistləri cəlb edir. Şetland adalarının ümumi sayı 100-dən çoxdur.

**Şimali İrlandiya (Olster) turizm bölgəsi.** Şimali İrlandiya ərazisinin böyük hissəsini tutur. Ucqarlarında hündür olmayan dağların yerləşdiyi təpəli relyefə malik ərazidir. Sahilləri müəyyən yerlərdə ovalıqlardan, bəzi yerlərdə isə qayalıqlardan ibarətdir. İqlimi, yumşaq qışı və sərin yayı ilə seçilən okean tiplidir. Bol sulu çayları və gölləri çoxdur. Əcnəbi turistlərin toplaşdığı əsas mərkəzlər, Şimali İrlandiyanın paytaxtı **Belfast** və qədim Londonderri şəhərləridir. Belfast və Londonderrinin sakinləri, eyni zamanda Şotlandiyadan İrlandiyaya gələn turistlər, yay mövsümündə Portraş, Ballikasl, Uaythed, Banqor, Nyukasl kimi sahil kurortlarına üz tuturlar.

* * *

Böyük Britaniyanın bütün dövrlərdə turizm sənayesinin artımı və inkişafı, əhalinin sayından deyil, onun struktur dəyişikliyindən və istirahəti keçirmək adət-ənənələrindən asılı olmuşdur. İkinci Dünya müharibəsindən sonra, britaniyalılar daha fəal səyahət etməyə başlamışlar. Ötən əsrin 70-ci illərinin ortalarında başlanan neft böhranı, 80-ci illərdə baş verən iqtisadi böhran, səyahətlərin xeyli azalmasına səbəb olmuşdu. Yalnız 80-ci illərin ortalarından başlayaraq səfərlərin ümumi sayı artmış və 70-ci illərin əvvəllərindəki səviyyəni ötüb keçmişdir. Bu dövr ərzində britaniyalıların xarici səfərləri ilə daxili turizm arasındakı balans da əsaslı şəkildə dəyişildi.

Böyük Britaniyanın daxili turizminin coğrafi mənzərəsi belədir: ən çox turist axını əsasən Qərbə (25 faiz) və Cənub-Şərqə (14 faiz) istiqamət götürür. Belə ki, bu bölgələr istirahət üçün daha isti və əlverişli zona sayılır. Daxili turizm həcminin 12 və 11 faizi müvafiq olaraq Uelsin və Şotlandiyanın payına düşür. Daxili turistlərin qalan hissəsi isə ölkənin digər rayonlarına səyahət edirlər.

Daxili bazarın həcmi, ümumiyyətlə böhrandan əvvəlki 1987-ci il səviyyəsinə çatmışdır. Bu dövr ərzində britaniyalıların ölkənin sahil kurortlarına iki həftəlik ənənəvi məzuniyyətləri 14 faiz azalmış, eyni zamanda şəxsi bölmədə özünəxidmət xarakterli istirahətə üstünlük verilmişdir. Hətta daxili turizmin tənəzzülü dövründə belə, işgüzar tu-

rizm müəyyən artım əldə etmişdir. Məsələn, 1978-ci ildə ki, 17 mln. nəfərdən, 1980-ci ildə ki 20 mln. nəfərə qədər.

Bazar strukturundakı bu dəyişikliklər, ölkənin turizm sənayesi vasitələrinin təyinatına da müəyyən təsir göstərmişdi. Məsələn, kurort zonasında otellərə tələbatın azalması ilə əlaqədar, sahibkarlar həmin otellərdən həftənin ara günlərində biznes turizm, qocalar evi və s. məqsədlər üçün istifadə etməyə məcbur olmuşdular.

Ötən əsrin 70-ci illərindən başlayaraq xarici ölkələrə səyahət edən britaniyalıların sayı, bu ölkəyə gələn əcnəbi turistlərin sayından çox olub. Belə ki, britaniyalılar yenə də öz məzuniyyətlərini İspaniya, Fransa, Yunanıstan, Kipr, Portuqaliya, Tunis və Türkiyənin ən yaxşı kurortlarında keçirməyə üstünlük verirlər.

Digər tərəfdən, ölkənin əcnəbi qonaqlar üçün bahalı olan milli valyuta amilini də nəzərə almaq lazımdır. Ötən əsrin 80-ci illərinin sonlarında "Səhrada fırtına" müharibəsi və milli valyutanın qeyri-sabitliyi, Böyük Britaniyada getmə turizminin ixtisarına səbəb oldu. Belə ki, 1989-cu ildə 31,03 mln. nəfərdən, 1990-cı ildə 30,5 mln. nəfərədək azalma müşahidə edilmişdir. Amma, 90-cı illərdə getmə turizmi yenidən artmağa başladı: 1996-cı ildə 41,87, 1998-ci ildə isə 50,87 mln. nəfər oldu.

Böyük Britaniyanın turist axınının yüksəlişi, bir sıra amillərlə izah olunur. Əsas amillər sırasında – nəqliyyat qiymətlərinin ucuzlaşmasını, səyahətçilərin sosial tərkibinin genişlənməsini, yeni turizm mərkəzlərinin yaranmasını və inkişafını qeyd etmək lazımdır. Xarici ölkələrə gedən Britaniyalıların dörddə üç hissəsi istirahət, 12-13 faizi işgüzar, qalan 12-13 faizi isə digər məqsədlərlə səfər edirlər. Son illərdə Britaniyalıların xarici səfərlərinin orta müddəti, təxminən 15 gün davam edir. Onların xarici turizmə sərf etdikləri xərclərin həcmi 1997-ci ildə 27,7, 1998-ci ildə 32,2, 1999-cu ildə isə 35,6 mlrd. ABŞ dolları təşkil etmişdir.

Böyük Britaniyanın getmə turizmində mühüm yer tutan Şimali Amerikaya səyahətlər (43 faiz) dollar kursunun funt sterlinqə nisbətinin dəyişkənliyindən asılı olur. Yay mövsümündə Amerikanın Mayami kurortu britaniyalılar üçün daha populyar olur. İlin digər fəsillərində qohumlar və dostlarla görüş məqsədi ilə səfərlər üstünlük təşkil edir. Britaniyalılar eyni zamanda ekzotik: Tayland, Qambiya, Karib hövzəsi və b. ölkələrə inklüziv turlar* üzrə uzaq uçuşlarda da iştirak edirlər.

---

* ***İnklüziv turlar*** (ingilis mənşəli sözdür) - mütəşəkkil turizm sahəsində realizə edilən fərdi və ya qrup halında həyata keçirilən tur.

Neft böhranına baxmayaraq, Böyük Britaniyaya gələn əcnəbi turistlərin sayı ötən əsrin 70-ci illərində artmağa başladı və 1977-1979-cu illərdə özünün yüksək nöqtəsinə – 12,5 mln. nəfərə çatdı. Amma 80-ci illərin əvvəllərində xarici qonaqların sayı azalmağa başladı və 1981-ci 11,4 mln. nəfərə endi. Bundan sonra, göstərici artaraq 1992-ci ildə 18,1 mln. nəfərə çatdı. Bu dövr ərzində turizmdən əldə olunan gəlirin miqdarı da artdı.

Böyük Britaniya beynəlxalq turizmin dinamik inkişaf etdiyi aparıcı dünya dövlətlərindəndir. Belə ki, ölkəyə gələn turistlərin sayı 1995-ci ildə 24, 1996-cı ildə 25,2, 1997-ci ildə 25,6, 1999-cu illərdə isə 25,7 mln. nəfər olmuşdur. Böyük Britaniya 1999-cu ildə beynəlxalq turizmdən 21 mlrd. ABŞ dollarından çox gəlir əldə etmişdir.

Turistlər Böyük Britaniyaya müxtəlif məqsədlərlə gəlirlər: məzuniyyətlərini keçirmək məqsədi ilə gələnlər say etibarı ilə çoxluq təşkil edirlər (43 faiz), sonrakı yerləri işgüzar səyahətə çıxanlar (21 faiz), qohumlar və dostlarla görüşmək məqsədi ilə səfər edənlər (21 faiz) tutur. Əcnəbi turistlərin 50 faizə yaxını Avropa İttifaqı ölkələrindən gələnlərdir. Onlardan da 40 faizi məzuniyyətə çıxanlar, 26 faizi isə biznes turistlərdir.

Şimali Amerika da Böyük Britaniya üçün mühüm turist bazarıdır. Böyük Britaniyanın xarici qonaqlarının bir hissəsini, iri şəhərlərə gələn biznes-səyahətçilər təşkil edir. Bu şəhərlər mədəni turizmin cəmləşdiyi mərkəzlərdir. Məsələn, ölkəyə gələnlərin 49 faizi və gəlirin 63 faizi Londonun payına düşür.

Xarici turizmin yüksək iqtisadi effektliliyi, Böyük Britaniyanın turizm əlaqələri üçün səciyyəvidir. Bu, ilk öncə onu göstərir ki, qəbul edilən hər əcnəbi turist müqabilində ölkənin gəliri, xarici ölkələrə səyahət edən turistlərin xərclərindən xeyli çoxdur.

Xarici turizm Böyük Britaniya üçün valyutanın ölkəyə daxil olmasının mühüm mənbəyidir. Ümumiyyətlə bu daxil olma, ölkənin ixrac mənbələri siyahısında maşınqayırma, nəqliyyat avadanlığı və elektrotexnika məhsullarından daxil olmalardan sonra dördüncü yer tutur. Perspektivdə Böyük Britaniyanın beynəlxalq turizm əlaqələrinin fəallaşması və ölkəyə əcnəbi turistlərin axınının artması gözlənilir. Bunun üçün yaxşı zəmin var. 2000-ci ilə olan məlumata əsasən Böyük Britaniyada turistlərin yerləşməsi üçün 1,1 mln. nəfərlik mehmanxana yeri var.

## 9.2. FRANSA

| |
|---|
| **Ərazisi: 551 min kv km. Dünyada 47-ci yer.**<br>**Əhalisi: 60,0 mln. nəfər (2000). Dünyada 20-ci yer.**<br>**Paytaxtı: Paris ətrafı ilə birlikdə (10,0 mln. nəfər - 2000).**<br>**Dövlət (rəsmi) dili: Rəsmi dil - Fransız dili.**<br>**Din: Katolisizm**<br>**Milli pul vahidi: Fransa frankı.** |

Avropanın qərbində yerləşmiş Fransa cənubda İspaniya (sərhəddin uzunluğu 623 km), Andorra (60 km) və Monako, şimal-şərqdə Belçika (620 km) və Lüksemburq (73 km), şərqdə İsveçrə (573 km) və İtaliya (488 km) ilə həmsərhəddir. Şərqdən və şimal – şərqdən Almaniya torpaqları ilə (451 km.) hüdudlanır. Ölkə cənubda - Aralıq dənizi, qərbdə – Atlantik okeanının Biskay körfəzi, şimal-qərbdə - La-Manş və Pa-de-Kale boğazları ilə əhatə olunur.

Aralıq dənizindəki Korsika adası (əlahiddə ərazi-inzibati vahid kimi) və dənizaşırı dörd departament (Martinika, Qvadelupa, Reyunyon və Fransa Qvianası), həmçinin dənizaşırı dörd ərazi (Fransa Polineziyası, Yeni Kaledoniya, Uollis və Futuna), bunlardan başqa Sakit okeanda yerləşən bir neçə ada (Mayotta, Sen-Pyer, Mikelon və b.) Fransaya məxsusdur.

Ölkənin qərbində və şimalında alçaq, dairəvi təpəlikləri olan geniş düzənliklər (Paris hövzəsi, Luara, Sena və Haronna çaylarının vadiləri) uzanır. Ölkənin mərkəzində və şərqində orta hündürlüklü – Mərkəzi Massiv, Vogez və Yura dağları yerləşir. Cənub-qərbdə ucalan Pireney dağları, İspaniya ilə təbii sərhəd yaradır. Bu dağ silsiləsinin ən yüksək zirvəsi – Pik-de-Vinmaldır (3298 m). Ölkənin cənub-şərqində yerləşən Fransız Alplarının ən uca zirvəsi olan Monblan (4807 m) Fransanın və eləcə də Qərbi Avropanın ən yüksək nöqtəsidir. Sena, Rona, Luara, Haronna və Reynin bir hissəsi ölkənin əsas çaylarıdır. Fransada göllər azdır, ən böyük gölü olan Cenevrənin böyük hissəsi İsveçrə ərazisindədir. Əsas təbii ehtiyatları: kömür, dəmir filizi, uran, boksit, sinkdir.

Əhalinin 90 faizi fransızlardır. Bunlardan başqa burada bretonlular, basklar, elzaslılar, katalonlar, almanlar kimi etnik qruplar da vardır. Ölkədə həmçinin, ərəblər, italyanlar, portuqallar, ermənilər, türklər də yaşayır. Orta ömür müddəti: kişilər üçün 76, qadınlar üçün 82 ildir.

Ən böyük şəhərləri Marsel (1,3 mln. nəfər), Lill (1,2 mln.), Tuluza və Nitsadir. Bordo, Havr, Dünkerk, Nant-Sen-Nazer və Ruan ölkənin mühüm portlarıdır.

Fransa unitar respublikadır. 1958-ci ildə qəbul olunmuş konstitusiya müəyyən dəyişikliklər edilməklə qüvvədədir. Dövlət başçısı 7 il müddətinə seçilən prezidentdir. Ali qanunverici orqan olan parlament 2 palatadan – Milli Məclis və Senatdan ibarətdir. 14 iyul – Bastiliyanın alınması günü (1789) Milli bayram kimi geniş qeyd olunur.

Fransa, yüksək səviyyədə inkişaf etmiş sənaye və kənd təsərrüfatı ehtiyatlarına malik dünyanın zəngin ölkələrindən biridir. Sənayenin ən mühüm sahələri: maşın, avtomobil, təyyarəqayırma, kimya, elektron, metallurgiya, dağ-mədən, toxuculuq və yeyintidir. Xidmət sahəsi, ölkə iqtisadiyyatında mühüm yer tutur. Avropa İttifaqı (Aİ) çərçivəsində iqtisadi inteqrasiyanın artımı, ölkə iqtisadiyyatının xarakterik xüsusiyyətidir.

Fransanın iqlim şəraiti il boyu turizmin inkişafı üçün çox əlverişlidir. Yumşaq qışı və sərin yayı olan dəniz iqlimi ölkənin şimal sahilləri üçün daha səciyyəvidir. Şimaldaki dağlarla soyuq küləklərdən qorunan Aralıq dənizi sahilləri, Aralıq dənizi tipli subtropik iqlimi ilə seçilir. Burada qış mülayim, yay isə isti keçir. Fransanın dağlıq bölgələri, xüsusilə Alp və Pireney dağlarının iqlimi bir qədər sərtdir.

Fransa inzibati cəhətdən onlarla (95) departamentə bölünsə də, ölkənin bir çox əyalətləri öz tarixi-coğrafi adlarını qoruyub saxlamışlar. Lotaringiya, Elzas, Şampan, İl-de-Frans, Normandiya, Bretan, Burqundiya, Qaskon, Savoy, Provans, Langedok belə əyalətlərdəndir.

* * *

Ölkənin paytaxtı Paris şəhəri və ətrafı, həmçinin İl-de-Frans, Normandiya, Bretan, Burqundiya, (Provans və Langedok) əyalətləri, Luara və Rona çaylarının vadiləri, Fransa Rivyerası, Korsika adası, Fransa Alpları və Pireney dağları Fransanın əsas turizm mərkəzləri və bölgələridir.

**Paris turizm mərkəzi**. Paris hələ XIX əsrdə turizmin hamı tərəfindən sevilən məkanlarından biri olmuş, bu da öz növbəsində şəhərin həyatına özünəməxsus təsir göstərmişdir. Hazırda bu şəhər dünyanın ən iri turizm mərkəzlərindən biri sayılır.

Parisin Həmrəylik, Vandom, Karusel kimi möhtəşəm və gözəl meydanları, Yelisey xiyabanı (prospekt 1667-ci ildə salınmış, 1709-cu ildə indiki adını almışdır) turistlərin görmək istədikləri tarixi yerlərdir. Bu şəhər eyni zamanda dar küçələr, sakit parklar şəhəridir, onun müxtəlif guşələrində həyatın axını elə həmin əraziyə xasdır. Məsələn,

tələbələrin Latın, rəssamların Monmartr məhəllələri buna misal ola bilər.

Parisin ürəyi sayılan – Site adası şəhərin qədim hissəsidir, başqa sözlə desək bura açıq səma altında qədim abidələr muzeyidir. Qədim Roma məbədinin yerində, 1163-cü ildə inşa edilən, orta əsrlərin memarlıq möcüzəsi sayılan Müqəddəs Məryəm kilsəsi burada yerləşir. 9 min nəfərlik tutumu olan bu kilsə, əsrlər boyu böyük tarixi hadisələrin şahidi olmuşdur. Parisin Müqəddəs Məryəm kilsəsini hər il 350 mindən çox turist ziyarət edir.

Fransanın görkəmli şəxsiyyətlərinin, o cümlədən Volterin, Russonun, Hüqonun məzarları yerləşən möhtəşəm Panteon, naməlum əsgərin məzarı önündə əbədi məşəl yanan Zəfər tağı, milli teatr – Qrand Operanın binası, Ədalət məhkəməsi sarayı, Müqəddəs Maqdalina kilsəsi, Bonapart Napoleonun məzarı olan Əlillər məbədi və bir çox başqa tikililər Parisə təkrarolunmaz xüsusiyyət verir.

Eyfel qülləsi Parisin simvolu hesab edilir. İki min il yaşı olan və həmişəcavan şəhərin mənzərəsini seyr etmək üçün hər il 3 mln-a yaxın turist hündürlüyü 300 metr olan bu qülləyə qalxır.

Paris həmçinin dünyanın ən böyük mədəniyyət mərkəzlərindən biridir. Çoxsaylı muzeyləri arasında xüsusi yer tutan, dünya miqyasında tanınmış Luvrun əzəmətli binası, fransız memarlıq sənətinin misilsiz nümunəsidir. Luvr, 1793-cü ildən muzey kimi fəaliyyətə başlamışdır. Muzeydə kataloq üzrə eksponatların sayı 4 mln.-a çatır. Burada müxtəlif xalqlara və dövrlərə aid olan misilsiz mədəniyyət abidələri qorunub saxlanılır. Muzeyə hər il bir milyondan artıq turist gəlir.

Parisin tarixi böyük inqilablarla zəngindir. Bunlardan bir çoxunun bəşəri əhəmiyyəti olmuşdur. 18 mart 1871-ci ildə Monmartrda dünyanın ilk proletar inqilabı başlamış və Paris Kommunası yaradılmışdı. Burada ilk dəfə Qırmızı bayraq qaldırılmış və Beynəlmiləl İnternasional oxunmuşdur. Paris kommunarları ilə versalçılar arasında son, gərgin döyüşün baş verdiyi Pyer-Laşez qəbristanlığında Paris kommunarlarının güllələndikləri divar, Paris kommunası qəhrəmanlarının abidəsinə çevrilmişdir.

**İl-de-Frans turizm bölgəsi.** Fransa dövlətinin tarixi-coğrafi özəyini təşkil edən bu əyalət görkəmli yerlərlə: Versal, Sen-Jermen, Kompyen, Rambule, Fontenblo, Şantiyi kimi çoxsaylı tarixi və memarlıq abidələri ilə zəngindir. Enliyarpaq meşələrin geniş massivləri ilə məşhur olan bu qədim əyalətin landşaftı kimi harmonik olan landşafta, Fransanın heç bir guşəsində rast kəlmək olmaz.

Parisdən 18 km cənub-qərbdə yerləşən, XIV Lüdovikin Versal

sarayı – fransız dünyəvi memarlığının zirvəsidir. Bir çox tarixi olaylar Versal sarayı ilə bağlıdır. 1793-cü il inqilabına qədərki dövrdə saray XIV, XV və XVI Lüdoviklərin iqamətgahı olmuşdur. 1919-cu ildə sarayın güzgülü qalereyasında Birinci Dünya müharibəsinin başa çatması münasibəti ilə sülh müqaviləsi imzalanmışdır. Saraydan terraslarla enişdə yerləşən, fəvvarəli hovuzları və çiçək ləkləri olan təmtaraqlı parkın gözəl, valehedici mənzərəsi vardır. Versal sarayına hər il 1,5 mln.-dan çox turist gəlir.

Versaldan cənub-qərbdə, Parisdən təqribən 50 km aralıda böyük parkla əhatə olunmuş qədim Kral qəsrinin qorunub saxlanıldığı Rambuye, geniş meşə massivində yerləşir. Hazırda ölkə prezidentinin yay iqamətgahı Rambuyedədir.

Parisdən təqribən 75 km aralı, Şartr şəhərində, Er çayının hündür sahilində, yerləşən qotik üslubda tikilmiş yeganə abidə olan Notr-Dam kilsəsi (XIII əsr) uzaqdan görünür. Versal sarayı fransız dünyəvi memarlığının zirvəsi olduğu kimi, Nort-Dam kilsəsi də fransız dini memarlığının zirvəsidir.

Parisdən 60 km cənubda, geniş meşə zolağı, park və fransız krallarının qədim şəhərkənarı iqamətgahı olan məşhur Fontenblo sarayı yerləşir. Erkən orta əsrlərdə tikilmiş ovçuluq qəsri, I Napoleonun dövrünədək, yüz illər ərzində dəfələrlə yenidən qurulmuşdur. Fransız parksalma sənətinin gözəl nümunəsi olan saray-park və Fontenblonun ətrafındakı meşələr, çoxsaylı turistlərin diqqətini cəlb edir.

Parisdən 41 km şimalda, Şantiyi meşə massivində qorunub saxlanılan XVI əsrə aid qəsr hazırda zəngin rəsm kolleksiyası olan muzey kimi fəaliyyət göstərir.

Parisdən daha şimalda, Qərbi Avropanın ən gözəl meşə massivlərindən biri, Fransanın tarixində bir çox dramatik hadisələrin şahidi olan Komiyen yerləşir. Bu zonanın tarixi memarlıq abidələri içərisində seçilən, XV Lüdovikə məxsus qəsrdə hazırda bir neçə muzey yaradılmışdır. Parisə gələn əcnəbi turistlərin çoxu İl-de-Frans əyalətinin əsrarəngiz gözəlliyi olan guşələrinə ekskursiyalarda iştirak edirlər. Komiyen meşə massivi - Parislilərin istirahət günlərini keçirdikləri sevimli yerdir.

**Normandiya turizm bölgəsi.** Fransanın şimal-qərbində yerləşən bu tarixi coğrafi əyalətdə La-Manş boğazı sahilində qranit qayanın üzərində minillik tarixi olan monastır və Mon-Sen-Mişel kilsəsinin ucaldığı Mon-Sen-Mişel şəhəri, Normandiyanın əsas şəhəri olan Ruan və dəniz sahili kurortları, yerli və xarici turistlərin toplaşdıqları əsas mərkəzlərdir.

Normandiyanın qədim paytaxtı olan Ruan şəhəri, özünün çoxsaylı tarixi-bədii abidələri ilə diqqəti cəlb edir. Onların arasında Notr-Dam, Sent-Uan, Sen-Maklu, Sen-Vensen kilsələri xüsusilə seçilir. Şəhərin bir çox görkəmli yerləri, Yüzillik müharibənin (1337-1453) gedişi dövründə, ingilis işğalçılarına qarşı fransız xalqının milli azadlıq mübarizəsinə başçılıq edən qəhrəman qadın Janna D'Arkın həyatı və ölümü ilə bağlıdır. İngilislər, fransız vətənpərvər qadınını Sent-Uan kilsəsində qətlə yetirmiş və 30 may 1431-ci ildə Ruan şəhərində tonqalda yandırmışdılar.

Normandiyanın dəniz sahili kurortları, yerli turistlərin güclü axınını özünə cəlb edir. Dəniz sahilində yerləşmiş Div kurortu bütün Avropada tanınır. Truvil, Etreta kurortları da çox məşhurdur.

**Bretan turizm bölgəsi.** Bretan ölkənin qərbində yerləşmiş tarixi-coğrafi əyalətdir. Relyefin, iqlimin və digər şərtlərin uyğun ahəngdarlığı bu əyalətin təbiətinə özünəməxsus gözəllik verir. Səliqəli kottecləri və tənha kiçik kilsələri olan mənzərəli balıqçı qəsəbələri, sakit, qumlu çimərliklərdə istirahət üçün əlverişli imkanın olması, eyni zamanda yerli kənd sakinlərinin özünəməxsus adət və ənənələri turistləri cəlb edən amillərdir. Bretanın Sen-Malo şəhəri, öz qədim müdafiə tikililəri ilə turistlər üçün maraqlıdır.

Sen-Malo şəhəri yaxınlığında dəbdəbəli sahil kurortu olan Dinar yerləşir. Burada XIX əsrdə, fransız burjuaziyası, o cümlədən XIX əsrdə buralara gəlməyə başlayan ingilislər üçün qotik üslubda tikilmiş çoxsaylı villalar vardır. Bretanın dənizkənarı kurortları arasında Peros-Girek, Konkarno, La-Bol seçilir. Əyalətin baş şəhəri olan Nantın tarixi-memarlıq abidələri və muzeyləri turistlərin diqqətini cəlb edir.

**Burqundiya turizm bölgəsi.** Məhsuldar vadilər və üzümlüklər, mənzərəli landşaft və çoxsaylı tarixi abidələr diyarıdır. Burqundiyanın baş şəhəri Dijondur. 1940-cı ildə, Fransanın Hitler Almaniyası tərəfindən işğalından sonra, bu şəhərdə nasist işğalçıları və onların oyuncaq marionetləri - vişilərə qarşı müqavimət hərəkatı başlanmışdı.

**Luara çayı vadisi turizm bölgəsi.** Bu çayın, Orleandan – Anjiyədək olan orta axarını "Fransanın bağı" adlandırırlar. Bu ərazidəki geniş bağ və meşə massivləri, üzümlüklər bu adın həqiqiliyini təsdiq edir. Luara çayı vadisi, mənzərəli təbiəti və fransız memarlığının təkrarolunmaz abidələri ilə turistləri özünə cəlb edir.

Fransanın keşməkeşli tarixinin şahidləri olan, Lanje, Aze-le-Rido, Şenonso, Ambuaz, Şomon, Blua, Villandri və Şamborun XV və XVI əsrlərə aid məşhur qəsrləri, bu turizm bölgəsinin görkəmli yerləri sayılır. Bu bölgənin əsas şəhərləri Tur və Orleandır. Tur, özünün

çoxsaylı tarixi-memarlıq abidələri ilə diqqəti cəlb edir. Onların arasında fransız qotikasının misilsiz nümunəsi olan kilsə, xüsusilə seçilir.

**Rona çayı vadisi turizm bölgəsi.** Rona-Fransanın ən bol sulu çayıdır. Çay axarının böyük hissəsinin sahilləri, sərt və hündür dağ yamacları ilə əhatə olunmuşdur. Rona çayı vadisinin təbii şəraitinin rəngarəngliyi və çoxsaylı tarixi-memarlıq abidələrinin olması, bu rayonun daxili və əcnəbi turistlər arasında böyük populyarlığına səbəb olmuşdur.

Bizim eradan bir neçə yüz il öncə salınmış və e.ə. 181-ci ildə Roma tərəfindən işğal olunmuş Nim, bu bölgənin ən qədim şəhərlərindəndir. Şəhərdə Roma amfiteatrı, antik məbədlər, hamamlar və digər tikililər yaxşı qorunub saxlanılmışdır. Nimdən 24 km aralıda, antik dünyanın ən möhtəşəm tikililərindən biri olan üçyaruslu Akveduk yerləşir.

Oranj şəhərində e.ə. 1-ci əsrdə tikilmiş Roma amfiteatrı və Zəfər tağı əla vəziyyətdə qorunub saxlanılmışdır. Arl şəhərindəki 25 min yerlik amfiteatr və bir qədər sonrakı dövrlərə aid olan qədim Roma abidələri turistlərin marağına səbəb olur.

Fransanın tarixi-memarlıq abidələri ilə zəngin olan şəhərlərindən biri də Rona çayı vadisində yerləşmiş Avinyondur. 1309-1377-ci illərdə bu şəhər katolik Papasının iqamətgahı olmuşdur. Çoxsaylı məbəd və kilsələrdən əlavə, şəhərdə XVI əsrdə, qala və Papanın iqamətgahı kimi inşa edilmiş saray qorunub saxlanılır.

**Fransa Rivyerası turizm bölgəsi.** Rona çayının mənsəbindən şərqə doğru, əhalisinin sayına görə Parisdən sonra ikinci şəhər olan Marsel yerləşir. Marseldən İtaliya sərhəddinə qədər Aralıq dənizi sahilləri Fransa Rivyerası adlanır. Təmtəraqlı otellər, müxtəlif əyləncə mərkəzləri və sakit balıqçı qəsəbələri bir-birini növbəli şəkildə əvəz edir. Fransa Rivyerasının kurort mərkəzi olan Kann şəhərindən Mentona kurortunadək 60 km.-lik ərazi, Dənizsahili Alp dağları ilə soyuq şimal küləklərindən qorunur. Bu ərazi – Mavi sahil adı ilə tanınır. Subtropik meyvələri ilə məşhur olan bu qeyri-adi mənzərəli zolaqda Fransanın ən dəbdəbəli sahil kurortları – Kann, Antib, Krode-de-Kan, Nitsa, Mentona yerləşir.

**Nitsa** Fransa Rivyerasının tanınmış kurortlardan biri və beynəlxalq turizm mərkəzidir. Bu şəhər, böyük çimərlikləri, çiçək xiyabanları, hər il keçirilən gül və kitab festivalları, həmçinin karnavalları ilə məşhurdur.

Fransa Rivyerasının **Kann** şəhəri qrammofon yazıları firmalarının yarmarkaları, yelkənli qayıq idmanı, kinofestivalları ilə beynəlxalq

turizm mərkəzi kimi məşhurdur.

Mavi sahildə orta illik temperatur müsbət 15,5, o cümlədən, qışda 8,9, yazda 14,2, payızda 16,5, yayda isə 24,1 dərəcədir. Günəşli günlərin sayına görə Mavi sahil – Avropanın ən önəmli ərazilərindən biridir, belə ki, hətta oktyabrda burada açıq, buludsuz günlərin sayı 16-ya, yağmurlu günlərin sayı isə 7-yə yaxın olur. Mavi sahilin iqlimi ağ ciyər vərəmi, xroniki bronxit xəstəliklərinin müalicəsi, o cümlədən ahıllar, müxtəlif xəstəlik və cərrahiyyə əməliyyatı keçirmiş şəxslər üçün münasib və əlverişlidir. Mavi sahilə hər il yüz minlərlə əcnəbi və fransız turisti gəlir.

**Pireney turizm bölgəsi.** Fransanın mühüm turizm bölgələrindən biridir. Pireneyin Atlantik okeanına çıxışında, zəngin və rəngarəng folkloru və özünəməxsus mədəniyyəti olan dağlı xalq – basklar (130-140 min nəfər) yaşayır. Bu rayonun əsas şəhəri olan Bayonnanın yaxınlığında, Atlantik okeanı sahilində məşhur Biatris və Sen-Jan-de-Lüz kurortları yerləşir.

Bayonnadan cənub-şərqdə, Pireneyin ətəyində, katoliklərin Fransadakı əsas ziyarətgahlarından biri olan Lurd şəhəri yerləşir. Dini əfsanəyə görə, burada gənc kəndli qızı Bernaletta Subiranın gözünə Müqəddəs Məryəm görünmüş və həmin yerdə möcüzəli bulaq qaynamağa başlamışdı. Lurdun mineral sularında "şəfa tapmaq üçün" hər il buraya 2 mln.-dan artıq xəstə zəvvar və turist gəlir. Pireney və ona yaxın yerləşmiş ərazilər, kurort və müalicəvi mineral su mənbələri ilə zəngindir. Bu kurortların arasında, hələ qədim romalıların istifadə etdikləri mineral suları olan Daks, Kotre, Banyer-de-Biqor, Vanyer-de-Lüşon, Aks-le-Term xüsusilə seçilir.

Mərkəzi dağ massivində yerləşən La-Burbul, Mon-Dor, Vişi kurortlarının mineral su mənbələrinin müalicəvi əhəmiyyəti hələ qədim romalılara da məlum idi. Fransada ümumiyyətlə 1200 mineral su mənbəyi olan yüzə yaxın balneoloji kurort vardır.

**Fransa Alpları turizm bölgəsi.** Fransanın cənub-şərq sərhədi boyunca, Qərbi Avropanın ən hündür dağları olan Fransa Alplarının möhtəşəm zirvələri ucalır. Alp dağlarında dünya miqyasında tanınmış dağ idmanı kurortları – Şamoni, Val-d'İzer, Alp-d'Hez, Kurşevel, Villar-de-Lans və əyalətin inzibati mərkəzi-məşhur Qrenobl şəhəri yerləşir. Alp dağlarında, Cenevrə gölünün mənzərəli sahillərində Eyvanle-Ben və Tenon-le-Ben, Burje gölünün sahilində isə Eks-le-Ben və digər məşhur balneoloji kurortlar yerləşir.

* * *

Fransa, əhalisi daimi hərəkətdə olmaq meyli ilə fərqlənir. Hər il

30 mln.-a yaxın fransız səyahət edir, onlardan 18,5 mln. nəfəri xarici ölkələrə səfərə yollanır.

Fransanın daxili turizm bazarı, Qərbi Avropanın turizm bazarından fərqlənir. Əvvəla fransızların az bir hissəsi öz məzuniyyətlərini xarici ölkələrdə keçirir. İkincisi, bu ölkədə məzuniyyət verilməsinin əsas dövrləri vardır: iyul və avqustda məktəb tətilləri, yeni il tətilləri, fevralda və Pasxa bayramı dövründə verilən tətillər. Üçüncüsü, fransızlar əsasən avtomobillə səyahət etməyə üstünlük verirlər (daxili turistlərin 80 faizi). Dördüncüsü, səyahət edənlərin əksəriyyəti – şəhər sakinləridir.

Fransızlar səyahət zamanı mehmanxanalarda deyil, digər yerləşdirmə vasitələrində yaşamağa üstünlük verirlər. Otellər, istirahət edənlər arasında o qədər də cəzbedici deyil.

Fransızların 50 faizə yaxını yay məzuniyyətlərini dəniz kənarında, 25 faizi kənd yerlərində, 17 faizi isə dağ kurortlarında keçirirlər. Qışda bu mənzərə dəyişir. Belə ki, fransızların yalnız 17 faizi dəniz kənarına, 28 faizi kənd yerlərinə, 40 faizi isə dağlara istiqamətlənir.

Getmə turizminə gəldikdə isə, fransızların yalnız 5 faizi pegic, 6 faizi aviaturlarla səyahət edirlər. Yay mövsümündə səyahət üçün qonşu İspaniya və İtaliya xüsusilə populyardır (yay səyahətlərinin 40 faizi).

1998-ci ildə Fransadan İtaliyaya 8 mln., İspaniyaya 7,5 mln. turist səyahət etmişdir. Fransızlar son zamanlar səyahət üçün ABŞ, Asiya ölkələri, Fransanın Karib hövzəsində yerləşmiş adaları, Fransa Polineziyası kimi uzaq regionları da seçirlər. İşgüzar səfərlərin çoxu Almaniyanın və Böyük Britaniyanın payına düşür. 1998-ci ildə xarici səyahətlərdə 18 mln. fransız iştirak etmişdir. 1980-1999-cu illərdə Fransaya gələn əcnəbi turistlərin sayı xeyli artaraq 30 mln.-dan 73,0 mln. nəfərə çatmışdır. Fransanı turistlərlə təmin edən əsas bazar Almaniyadır, qonaqların 25 faizə yaxını bu ölkədən gəlir. Almaniyadan sonra, Fransaya daha çox turist göndərən ölkələr – Böyük Britaniya, Belçika, İtaliya, İsveçrə, Hollandiya və İspaniyadır.

Fransaya gələn turistlər, Fransa Rivyerasında istirahət etməyə üstünlük verirlər. 1967-ci ildə Fransa hökuməti, Akvitaniya bölgəsində kənd təsərrüfatı və turizmin birgə inkişaf planını qəbul etdi. Planın maliyyələşdirilməsi xüsusi bölmə, inkişafın əlaqələndirilməsi isə hökumət komissiyası tərəfindən həyata keçirilirdi. Plana görə sahil boyu ərazi 16 bölgəyə ayrılmış, bunlardan 9-unda turizm inkişaf etməli idi. Belə ki, bu 9 bölgədə çimərliklər abadlaşdırılmalı, göllərin sahillərində istirahət zonalarının və su idman növləri ilə məşğul olanlar üçün

yerləşdirmə vasitələrinin yaradılması nəzərdə tutulurdu.

Yaşıl zona adlandırılan digər 7 bölgədə landşaftın və təbiətin qorunub saxlanılması təklif olunurdu. Bu planda – Arkaşon və Biaris kimi fəaliyyət göstərən kurortların saxlanılması, Lakano kimi qəsəbələrin genişləndirilməsi və nəhayət Moliyes kimi yeni kurortun yaradılması nəzərdə tutulurdu. Yeni yerləşdirmə vasitələrinin planlaşdırılması və tikintisi, ölkədaxili turizmin tələbatının ödənilməsi məqsədi daşıyırdı. 1982-ci ilədək, gecələmək üçün nəzərdə tutulan yerlərin 28, istirahət düşərgələrinin 13, mehmanxana və qonaq evlərinin 46 faizi isə "ikinci dərəcəli" evlərin payına düşürdü. Bu layihənin reallaşdırılmasına başlanıldıqdan sonra, turizm xeyli inkişaf etməyə başladı (hətta ötən əsrin 80-ci illərinin iqtisadi böhranı dövründə də).

Langedok – Russilyon sahilləri ötən əsrin 60-cı illərinədək turizm və istirahət üçün yararsız vəziyyətdə idi. 1964-cü ildə turizm sənayesinin inkişafı məqsədilə, Fransa hökuməti regionun inkişaf proqramını tərtib etdi. Bu proqrama görə, sürətli avtomobil yolları ilə bir birilə əlaqələndirilən 5 turist qəsəbəsinin yaradılması nəzərdə tutulurdu. Kurortların şimal qrupu qədim Aja-Morte şəhərindən 20 km cənuba və qərbə doğru, qumlu dəniz sahili boyunca yerləşirdi. Bu ərazinin abadlaşdırılmasına 1990-cı ildə, bütün regionun inkişafı üçün nəzərdə tutulmuş vəsaitin 24 faizi ayrılmışdı. Turistlər arasında daha məşhur olan Sarnon və Palava kurortları bərpa edildi, Kamarq və Laq-Qrand-Mot kurortları isə tikildi. Sonuncu – məşhur yaxt-klubu olan iri kurort hesab olunur.

Tu ümumi adını daşıyan digər kurortlar qrupu, dənizin qumlu sahili boyu 30 km ərazidə yerləşir. Bu ərazidə nisbətən köhnə Set, Meze, Marsel və yeni Kap-d'Arq kurortları yerləşir. Süni yaradılmış Tu gölündə su idmanı növləri inkişaf etmişdir. Bütün region üzrə yataq-yerlərin dörddə biri bu kurortlar qrupunun payına düşür. Daha sonra Valras-Qrusson, Lüka-Barkares qrupu (region üzrə yataq yerlərinin 22 faizi və Barkares şəhəri yaxınlığında əla yaxt-klub) və Kane-Arjeles qrupu (region üzrə yataq yerlərinin 13 faizi və qrupun əsas mərkəzi olan Sen-Sipriyenin yaxınlığında yaxt-klub) gəlir.

Proqram tərtibçilərinin fikrincə avtomobil yollarının abadlaşdırılması, turizmin inkişafını stimullaşdırmalı idi. Proqram iki dəfə (1969 və 1972) modifikasiya olunduqdan sonra regiona turist axının artması hiss olunmağa başlanmışdır. Fransa hökuməti regionun iqtisadiyyatında turizmin inkişaf rolunu etiraf edərək yeni avtomobil yolları şəbəkəsinin salınmasına və ətraf mühitin qorunmasına böyük vəsait qoydu.

Langedok-Russilyon regionu əsasən daxili turistlərə xidmət göstərir. Buraya xarici qonaqlar əsasən Belçika, Almaniya və Hollandiyadan gəlir. La-Manş boğazından keçən sualtı tonnelin fəaliyyətə başlaması nəticəsində Böyük Britaniyadan turist axını artmış, bu isə qəbul turizmində tədbiq olunan modelin dəyişilməsinə səbəb olmuşdur.

Göründüyü kimi, Fransa dünyanın aparıcı turizm dövlətidir. Turistlərin sərəncamında 13,3 mln. yataq yeri vardır. Bunlardan 1,2 mln. yer – 40800 mehmanxanada, 12,1 mln. yer isə kənd mehmanxanaları, kempinqlər, turist bazaları və digər yerləşdirmə vasitələrindədir.

1200-ə yaxın muzeyə hər il on milyonlarla ekskursiyaçı gəlir. Yalnız Luvr, Versal və d'Orse muzeylərinə hər il təxminən 12 mln. adam gəlir. 1500-dən artıq abidələrə ekskursiyalar təşkil edilir (gələnlərin sayı hər il 8 mln. nəfər olur). 38000 bina və tikili, tarixi abidə kimi siyahıya alınmış və dövlət tərəfindən mühafizə olunur.

Fransa, əcnəbi turistlərin qəbulu üzrə dünya miqyasında son 15 ildə daim birinci yer tutmuşdur. 1999-cu ildə turizm fəaliyyətindən 31,7 mlrd. ABŞ dolları həcmində gəlir əldə olunmuşdur.

## 9.3. ALMANİYA

> **Ərazisi: 357 min kv. km. Dünyada 61-ci yer.**
> **Əhalisi: 82,5 mln. nəfər (2000). Dünyada 12-ci yer.**
> **Paytaxtı: Berlin (4,0 mln. nəfər - 2000).**
> **Dövlət (rəsmi) dili: Rəsmi dil - Alman dili.**
> **Əsas din: xristianlıq (protestant və katoliklər).**
> **Milli pul vahidi: Alman markası.**

Avropanın mərkəzində yerləşmiş Almaniya cənubda Avstriya (sərhəddin uzunluğu 784 km) və İsveçrə (334 km), qərbdə Niderland (577 km), Fransa (451 km), Belçika (167 km) və Lüksemburq (138 km), şərqdə Polşa (456 km) və Çexiya (646 km), şimalda Danimarka (68 km) ilə həmsərhəddir. Almaniyanın Şimal və Baltik dənizlərinə çıxışı onun coğrafi və hərbi-strateji mövqeyini əlverişli edir.

Ölkənin relyefi üç əsas təbii zonaya bölünür: şimalda - düzənlik ərazi; mərkəzdə - çay vadiləri ilə kəsilmiş təpəlik və orta yüksəklikli dağlıq ərazi; cənubda - dağlıq ərazi. Sahildən bir qədər aralı isə adalar qrupu yerləşir. Şimal dənizində Şimali və Şərqi Friz, Gelqoland, Baltik dənizində Fermarn, Uzedom, Rügen adaları yerləşir. Sahillər alçaq, hamar və qumludur. Ölkənin mərkəzi hissəsində orta və yüksək hündürlüklü dağlar, yaylalar və çay vadiləri bir-birini əvəz edir. Ucqar cənubda Alp dağlarının şimal yamacları yerləşir. Ən yüksək zirvə Tsuqşpitse dağıdır (2963 m). Almaniyada - Reyn, Slants, Harts, Şvarsvald, Filiz, Türingiya meşəsi adlanan dağlar vardır. Ölkənin əsas çayları - Reyn (qolu Mayn ilə birgə), Rur, Mozel, Dunay və Elbadır. Ən böyük göl - Boden gölüdür. Ölkənin əsas faydalı qazıntıları - kömür, dəmir filizi, mis, təbii qaz və nikeldir.

Berlin (4 mln.), Hamburq (1,6 mln.), Münhen (1,2 mln.), Göln (1 mln.) ən iri şəhərlərdir. Hamburq, Bremenhafen, Vismar, Kil, Lübek, Rostok, Emden həm də ən böyük portlardır.

Əhalinin böyük əksəriyyətini almanlar (95 faiz) təşkil edir. Ölkədə həmçinin italyanlar, yunanlar, türklər, luj sorbları*, ispanlar, polşalılar və b. yaşayır. Hakim din - xristianlıq olsa da, ölkədə islam və yəhudi dininə etiqad bəsləyənlər də vardır. Orta ömür müddəti: kişilər üçün 75, qadınlar üçün 80 ildir.

Almaniyanın iqlimi şimal-qərbdə dəniz, cənubda isə nisbətən

---

* ***Luj sorbları*** və ya lujitianlar - Almaniyada yaşayan kiçik xalq. Dilləri - luj dilidir. Bəzən onlara vendlər və ya luj serbləri də deyilir.

kontinentaldır. Dəniz kənarı rayonlarda qış yumşaq, yay nisbətən sərin və yağıntılı keçir. Cənuba doğru yay daha isti, qış isə soyuq olur. Dağ rayonlarının iqlimi müxtəlifliyi ilə seçilir.

Almaniya inzibati cəhətdən 16 torpaqdan ibarət federativ respublikadır. Onlardan onu Baden-Vürtemberq, Bavariya, Bremen, Hamburq, Gessen, Şimali Reyn-Vestfaliya, Reynland-Pfalts, Saar, Aşağı Saksoniya və Şlezviq-Hölşteyn köhnə, Aşağı Saksoniya, Berlin, Saksoniya-Anhalt, Brandenburq, Turingiya və Maklenburq isə yeni torpaqlardır.

Almaniya 18 yanvar 1871-ci ildən müstəqil dövlətdir. AFR-in əsas qanunu - federasiya konstitusiyası, 1949-cu ilin 23 mayında qəbul edilmişdir. 3 oktyabr 1990-cı il - AFR ilə ADR-in birləşdiyi gün Milli bayram elan olunmuşdur. Dövlət başçısı prezidentdir, amma real hakimiyyət, başda Federal Kansler olmaqla hökumətin əlindədir. Qanunverici hakimiyyət - ikipalatalı (Bundestaq və Bundesrat) parlamentə məxsusdur.

Almaniya, yüksək inkişaf etmiş sənaye - aqrar ölkədir. Sənaye istehsalına görə dünyanın aparıcı dövlətlərindən biri və iri kapital ixracatçısıdır. Sənayenin - metallurgiya, elektrotexnika, elektron, kimya, avtomobilqayırma (dünyada üçüncü yer), gəmiqayırma (dünyada üçüncü yer), aeroekosmik, tikinti sahələri daha yaxşı inkişaf etmişdir. Kənd təsərrüfatının aparıcı sahəsi isə ətlik-südlük heyvandarlıqdır.

* * *

Almaniyanın əsas turizm mərkəzləri ölkənin paytaxtı Berlin şəhəri və ətrafı, Reyn çayı axarının mərkəzi hissəsi, Baden-Vürtemberq, Bavariya tarixi-coğrafi əyalətləri, dəniz sahilləri, Maklenburq göllər diyarı, Harts, Türingiya meşəsi və Filiz dağları bölgələridir.

**Reyn hövzəsi turizm bölgəsi.** Reynin orta axarı, xüsusilə də Mayns şəhərindən Köln şəhərinə qədər olan ərazi çox mənzərəlidir. Çayın hər iki sahilində göz oxşayan üzümlüklər salınmış, ətrafdakı təpəliklərin üzərində isə qədim qəsr və qalaların qalıqları görünür.

Almaniyanın mühüm inzibati və iqtisadi mərkəzi olan Bonn şəhəri Reyn çayının sahilində yerləşir. Ölkənin ən qədim şəhərlərindən biri olan Bonn eramızın I əsrində romalılar tərəfindən möhkəmləndirilmiş düşərgə kimi salınmışdır. Şəhərdə qədim və müasir memarlıq nümunələri çoxdur. Bonnda çoxsaylı muzeylər və teatrlar vardır. Dahi bəstəkar Bethoven bu şəhərdə, flamand mənşəli ailədə anadan olmuş və böyümüşdür. Digər alman bəstəkarı Şuman da həyatının son illərini burada keçirmişdir. Böyük bəstəkarların yaşadıqları evlər indi mu-

zeylərə çevrilmişdir.

Bonnun tarixi-memarlıq abidələri içərisində Roma kilsəsi (XI-XIII əsrlər), Ratuşa (XVIII əsr), Hammerştad villası (ölkə prezidentinin iqamətgahı), Şaumburq sarayı (Federal kanslerin iqamətgahı) şəhərin görkəmli yerlərindəndir.

Reyn hövzəsi turizm bölgəsində Bonndan əlavə çoxsaylı tarixi-memarlıq abidələri olan kiçik şəhərlər vardır. Məsələn, Bingen şəhərində XV əsrə aid olan qala və digər tikililər qorunub saxlanılmışdır. Reynin sahilində, orta əsrlərə aid memarlıq abidələri ilə zəngin, mənzərəli, orta əsr şəhəri olan Rüdesgeym yerləşir. Rüdesgeymin şərab muzeyi çox məşhurdur.

Gözəl mənzərəli şəhərlər arasında - qədim Roma müdafiə tikililərinin qalıqları və XIV əsrə aid memarlıq abidələri olan Boppard şəhərini, orta əsrlərə aid çoxsaylı tikililərin, o cümlədən XIV əsrin yadigarı olan daş körpünün olduğu Könnqsvinter, Brül şəhərlərini qeyd etmək olar.

Reyn hövzəsi balneoloji kurortlarla zəngindir. Bunlardan, Taunus dağının ətəyində, üzümlüklər vadisində yerləşən Visbaden şəhəri bütün dünyada tanınır. Şəhər eramızdan əvvəl I əsrdə salınmışdır. Şəhərin yaxınlığında Roma imperiyası dövrünün tikililərinin qalıqları saxlanılır. Kurort şəhərində geniş mehmanxana şəbəkəsi və yeyinti müəssisələri vardır. Şəhərin mədəni həyatında baş verən hadisələr də turistləri cəlb edir. Burada hər il müxtəlif festivallar və sərgilər keçirilir.

Frankfurt-Mayn şəhəri - ölkənin əsas səma qapısı olmaqla, həmçinin çoxsaylı tarixi-memarlıq abidələri, muzey və teatrları olan iri turizm mərkəzidir. Almaniyanın məşhur şəxsiyyətlərinin bir neçəsinin yaradıcılıq fəaliyyəti bu şəhərlə bağlıdır. Məsələn, Höte bu şəhərdə doğulmuş və yaşamışdır. Feyerbax, Şiller, Qrim qardaşlarının, çapçılığın Avropa üsulunun ixtiraçısı Tutenberqin yaradıcılığı Frankfurtla bağlıdır. Frankfurtun yaxınlığında Bad-Homburq və Bad-Naugeym kimi iki böyük balneoloji kurort yerləşir.

Reynin qolu Mozel çayının üzümlüklərlə əhatə olunmuş mənzərəli sahillərində, ölkənin ən qədim şəhərlərindən biri, əsası romalılar tərəfindən qoyulmuş Trir yerləşir. Trirdə, Mozel çayı üzərində qədim romalıların tikdikləri körpü, bazilika*, amfiteatr və şəhər darvazası qorunub saxlanılmışdır. Bunlardan başqa şəhərdə orta əsrlər mədə-

---

* ***Bazilika*** (yunanca hökmdar evi mənasını bildirir) - uzunsov, düzbucaqlı, içərisi sıra sütunlarla ayrılan bina. Qədim Romada Bazilikadan məhkəmə binası, bazar, birja tikintisində istifadə edilirdi.

niyyətinə aid edilən çoxlu abidələr vardır.

Bonn şəhərindən qərbdə, Almaniyanın Belçika və Niderland ilə sərhəddi yaxınlığında yerləşən Aaxen şəhəri, eramızın I əsrində, müalicəvi mineral su mənbəyi üzə çıxan yerdə, Roma müstəmləkəsi kimi salınmışdır. Aaxen XVI əsrədək, alman imperatorlarının tacqoyma mərasimlərinin keçirildiyi yer olmuşdur. Şəhərdə IX-XIV əsrlərə aid memarlıq abidələri qorunub saxlanılmışdır. Hazırda Aaxen – iri balneoloji kurort və sənaye mərkəzi kimi fəaliyyət göstərir.

Bonndan şimalda Köln, Düsseldorf, Essen, Dortmund kimi mühüm sənaye, inzibati və mədəni mərkəzlər yerləşib. Məsələn, Köln şəhərində 1248-1280 illərdə qotik üslubda tikilmiş, hündürlüyü 157 metr, iki şiş uclu qülləsi olan Müqəddəs Pavel və Müqəddəs Məryəm kafedral kilsəsi, Roma-Alman muzeyi, fil dişindən nadir məmulatlar kolleksiyası olan Falraf-Riçers muzeyi, rəqs edən fəvvarələri olan Reyn parkı yerləşir.

Reyn çayının Mayns şəhərindən – Bonnadək olan ərazisi əsasən daxili, Bonn və digər iri sənaye və inzibati mərkəzlər isə həm əcnəbi, həm də daxili turistləri cəlb edir.

**Baden-Vürtemberq turizm bölgəsi.** Bu bölgə Şvarsvald, Şvab Yurası dağ massivlərini, Nekkar çayı hövzəsini və Boden gölünü əhatə edir. Dunay çayının mənbəyi, Şvarsvald dağ massivinin şərq yamaclarından başlayır. Şvarsvald, kiçik göllərlə, gur axan şəlaləli çaylarla zəngindir. Çoxsaylı müalicəvi isti su mənbələrinin ətrafında balneoloji kurortlar yerləşir. 50 min əhalisi olan Baden-Baden kurortu bütün dünyada məşhurdur. Kurort, istiliyi 68 dərəcəyə çatan müalicəvi su mənbəinin yüksək keyfiyyəti, əlverişli iqlimi və mənzərəli təbiəti ilə şöhrət qazanmışdır. Baden-Badenin abadlığı, mədəni həyatının zənginliyi hər il on minlərlə əcnəbi və daxili turisti özünə cəlb edir.

Şvarsvaldın digər mühüm balneoloji kurortu Badenveyler mineral mənbələrinin müalicəvi əhəmiyyəti hələ qədim romalılara da məlum idi. Müasir dövrə qədər qorunub saxlanılan su vannaları bunu sübut edir. Vildbad və Bayersbronn balneoloji kurortları, dağ idmanı və iqlim kurortları kimi də tanınırlar. Şvarsvald rayonunun əsas şəhəri olan Freyburqun tarixi-memarlıq abidələri, çoxsaylı turistlərin diqqətini cəlb edir.

Şvab Yurası – sıldırım qayalar, iti axan çaylar, geniş meşələr, möhtəşəm qalalar diyarıdır. Şvabiş-Hall, Şvetsingen, Tubingen, Reytmingen kimi qədim şəhərlər, turistlərin toplaşdıqları əsas mərkəzlərdir. Dünyanın ən möhtəşəm qotik kilsələrindən biri (beş yüz il müddətində tikilmişdir) Ulma şəhərində yerləşir. Dahi alim Albert Eyn-

şteyn bu şəhərdə anadan olmuşdur.

Şvab Yurası rayonunda Bad-Valdze və Bad-Vursah balneoloji kurortları da vardır. Nekkar çayı vadisində Şvarsvald və Şvab Yurası dağ massivləri arasında Almaniyanın cənub-qərbində ən iri şəhər olan, Baden-Vürtemberq torpağının inzibati mərkəzi - Ştutqart yerləşir. Şəhərdə muzeylər və teatrlar çoxdur. Ştutqart - məşhur filosof Hegelin vətənidir.

Nekkar çayı vadisində turistlərin toplaşdıqları əsas mərkəz, Heydelberq şəhəridir. XIV əsrdə son qotik üslubda inşa edilmiş möhtəşəm abidələrdən biri olan Müqəddəs Ruh kilsəsi və Nekkar çayı üzərindəki qədim körpü, bu şəhərin tarixi-memarlıq abidələri arasında xüsusilə seçilir. Keninqsştul dağında yerləşən və şəhərin üzərində yüksələn "Alman Əlqambra" qəsri, şəhərin ən yaraşıqlı tikilisi hesab olunur. Bu qəsrin tikintisinə XIII əsrin sonunda başlanılmış və XVII əsrin ortalarında başa çatdırılmışdır. Ona görə də, qəsr orta əsrlərin və İntibah dövrü memarlığının özünəməxsus muzeyini xatırladır. İndiki dövrdə qəsrin bir hissəsi dağılmışdır. Bu möhtəşəm qəsrin xarabalığı fonunda hər il dram tamaşalarının festivalı və klassik musiqi konsertləri keçirilir.

Heydelberqdə əsası 1386-cı ildə qoyulmuş, ölkənin ən qədim universitetlərindən biri yerləşir. Nekkar çayı üzərində yerləşən Heylbronn şəhəri də tarixi abidələrlə zəngindir. Nekkar çayının Reynə qovuşduğu ərazidə, ölkənin iri sənaye mərkəzlərindən biri olan Manheym şəhəri yerləşir. Şəhərin çoxsaylı tarixi - memarlıq abidələri arasında əsası 1030-cu ildə qoyulmuş, dünya miqyasında roman üslubunda tikilən ən böyük kilsələrdən biri xüsusilə seçilir.

Almaniyanın ən böyük gölü olan Boden, İsveçrə və Avstriya ilə sərhəddə yerləşir. Gölün sahilində çoxlu balneoloji kurortlar salınıb. Onların arasında Konstans, Mersburq və Lindaunu xüsusilə qeyd etmək olar. Konstans və Mersburq tarixi-memarlıq abidələri ilə də turistləri cəlb edir. Adada yerləşən Lindau kurortu, Boden gölünün ən mənzərəli guşəsindədir.

**Bavariya turizm bölgəsi.** Bavariyanın cənub hissəsi, ölkənin ən yüksək zirvəsi olan Tsuqşpitsenin yerləşdiyi Algey Alpları ərazisindədir. Ölkənin ən yaxşı dağ kurortları olan Qarmiş-Partenkinhen və Mittenvald burada yerləşir. Noyabrın sonlarından - mayın ortalarınadək, buludsuz səma və qar örtüyü bu yerlər üçün səciyyəvidir.

Tsuqşpitsedən qərbdə, Avstriya ilə sərhəddə, yüksək dağ sağlamlaşdırıcı kurort olan Füssen şəhəri yerləşir. Kral qəsrləri - Neyşvanstey və Hoppenşvanqau, bu kurortun yaxınlığındadır. Neyşvanstey qəsrində hər il Vaqnerin musiqi əsərlərinin festivalı keçirilir.

Tsuqşpitsedən bir qədər də qərbdə ölkənin mühüm balneoloji kurortları və məşhur dağ idmanı mərkəzləri olan Oberstdorf və Oberştaufen yerləşir. Ölkənin ən ucqar cənub-şərqində mühüm balneoloji mərkəzlərdən biri, dağ idmanı və iqlim kurortu – Bad-Reyhenhall və yüksək dağ idmanı və iqlim kurortu – Berhtesqaden yerləşir.

Bavariyanın əsas şəhəri – Münhen ölkənin mühüm sənaye, inzibati və mədəni mərkəzidir. Münhen həmçinin mühüm nəqliyyat qovşağıdır. On minlərlə Münhen sakini öz istirahət vaxtlarını şəhərin görkəmli yerləri olan iri və gözəl parklarda keçirirlər. Münhendə muzeylər çoxdur: Heykəllər (abidələr) muzeyi, Rəsm qalereyaları, Milli Bavariya muzeyi və s. XX əsrin 20-30-cu illərində Münhendə faşist ruhlu Milli-sosialist partiyasının mənzil-qərargahı yerləşirdi. Şəhərin yaxınlığında yerləşən Alp dağlarındakı göllər – Ştarnberger – Zes və Ammer, Münhen sakinlərinin sevimli istirahət yerləridir.

Bavariyanın digər iri şəhəri – Nürnberqdir. Müharibəyə qədərki dövrdə şəhər, orta əsrlər memarlığının açıq muzeyi adlanırdı. Müharibə dövründə Nürnberqin bir çox memarlıq abidələri amerikan-ingilis aviasiyası tərəfindən dağıdılmışdır. 1945-1946-cı illərdə əsas alman hərbi canilərini mühakimə edən Beynəlxalq hərbi tribunal, iclaslarını bu şəhərdə keçirmişdir.

Bavariyanın qədim və kiçik şəhərləri olan Auqsburq, Vürsburq, Koburq, Bamberq, Regensburqa çoxsaylı daxili və əcnəbi turistlər gəlir. Auqsburq, X əsrdə inşa edilmiş kilsəsi, XVII əsrə aid Ratuşası və bir sıra qədim qəsrləri ilə tanınır. Eramızdan əvvəl III əsrdə əsası qoyulmuş Regensburq şəhərində, 179-cu ildə hazırlanmış Roma darvazaları, Dunay üzərindən salınmış üç yüz metrlik körpü və bir çox digər tarixi – memarlıq abidələri vardır.

**Sahil ərazilərin turizm bölgəsi.** Travemündə şəhəri ölkənin təmtəraqlı sahil kurortudur. Bu kurort, sahildən geniş iynəyarpaqlı meşələrlə müdafiə olunur, abad çimərlikləri, çoxsaylı komfortabelli mehmanxanaları, kafe və restoranları vardır. Şimal dənizi sahillərində yerləşən Dame, Heyligenhafen, Flensburq kurortları da populyardır.

Almaniyanın məşhur sahil istirahət mərkəzlərindən biri də Şimal dənizində, Danimarka sərhəddi yaxınlığında yerləşən Zilt adasıdır. Şimal dəniz sahillərində Kukshafen, Vilhelmhafen kurortları da fəaliyyət göstərir. Şərqi Friz adalarının əlverişli qumlu sahilləri: Vangeroq, Spigeroq, Langeroq, Norderney, Yuyet və Borkum komfortabelli sahil kurortlarına çevrilmişlər.

Almaniyanın şimal hissəsində yerləşən Hamburq, Bremen, Hannover kimi iri şəhərlərdə olan çoxsaylı tarixi-me'marlıq abidələri və

muzeyləri görmək üçün bu bölgəyə yüz minlərlə daxili və əcnəbi turist gəlir. Hamburqdan 70 km aralı alman "Disneylendi" - Heide Park yerləşir.

Baltik dənizində Almaniyaya məxsus olan bir sıra adalar vardır. Bu adalar arasında nisbətən böyük olanları Rügen (926 kv km) və Uzedomdur (445 kv km). Almaniya ilə uzunluğu 2,5 km olan damba ilə birləşən Rügen və Uzedom adaları öz mənzərəli təbiəti ilə turistləri cəlb edir. Uzedom adasında yerləşmiş Albek, Herinqsdorf və Sinnovits kurortları daha abaddırlar. Rügen adasında isə Zelmin, Bints, Zasnits və Ştubbenkammer kurortları yerləşir. Zasnits təkcə kurort deyil, İsveçlə dəmiryolu - bərə əlaqəsi olan mühüm port şəhəridir.

Narın qumlu çimərlikləri, gözəl parkları, komfortabelli mehmanxanaları olan Külunqsborn şəhəri Baltik dənizi sahilində yerləşir. Rostok, Varnemyünde, Vismar və Ştralzund şəhərləri də turistlərin toplaşdıqları mərkəzlərdir.

Rostok - Almaniyanın mühüm sənaye və gəmiqayırma mərkəzi və iri dəniz portudur. Rostokda 1419-cu ildə əsası qoyulmuş qədim universitet yerləşir. Vismarda XII-XIV əsrlərə aid olan memarlıq abidələri qorunub saxlanılmışdır. Ştralzund şəhəri də tarixi abidələri ilə məşhurdur. Şəhərdə monastırlar, qədim kilsələr və qotik üslubda tikilmiş ratuşa qorunub saxlanılmışdır.

**Maklenburq göllər diyarı turizm bölgəsi**. Bu bölgə Baltik dənizi sahilləri zonasından cənuba doğru, Şimali Almaniya ovalığını əhatə edir. Almanların sevimli istirahət yeri olan Mürits gölü bu diyarın ən mənzərəli sahəsidir. Burada yaxşı təchiz olunmuş turist və idman bazaları vardır. Şverin və Noybrandenburq şəhərləri Maklenburq göllər diyarının iri turizm mərkəzləridir. Şverin şəhəri, göllərin və meşələrin arasında, mənzərəli bir ərazidə yerləşir. Şəhərdə çoxlu memarlıq abidələri və XVII yüzilliyə aid zəngin incəsənət əsərləri kolleksiyası vardır. Noybrandenburq şəhərindəki müasir memarlıq üslubunda tikilmiş binalar, şəhərin qədim abidələri ilə ahəngdar uyğunluq təşkil edir.

Dağ massivi olan Hartsın rütubətli və soyuq iqliminə baxmayaraq, burada kurortlar çoxdur. Onların arasında Kvedlinburq, Vernigerod, Bode vadisi xüsusilə seçilir. Kvedlinburqu - çiçəklər şəhəri adlandırmaq olar. Şəhərin memarlıq abidələri, qədim binaları, kilsələr və s. qorunub saxlanılmışdır. Vernigerod kurortu da memarlıq abidələri ilə zəngindir. Bode vadisi - Hartsın şimalında mənzərəli ərazidir. Bode çayının dağlardan gələn soyuq suları, meşələr və sağlam iqlim, istirahət üçün çox əlverişlidir. Meşələrlə əhatə olunmuş bu dağ ray-

onunda Rapp-Bode və Kif-Heyzer kurortları yerləşir.

**Turingiya meşəsi turizm bölgəsi.** Bu bölgə uzunluğu 100, eni 15-20 km olan dağ massivini əhatə edir. Burada çoxsaylı gözəl kurortlar və turist bazaları vardır. Turingiya meşəsinin ən gözəl iqlim kurortları, İnzelsberqin yaxınlığında yerləşən Fridrixroda və Tabaratsdır. Mineral su mənbələrində müalicə olunmaq üçün bu kurortlara gələnlərin sayı çoxdur.

İlboyu fəaliyyət göstərən Oberhof dağ kurortuna əsasən, qan dövranı pozulmasından əziyyət çəkən xəstələr gəlirlər. Bu zonanın iri kurortu sayılan Zaalfeld, Zaale çayının mənbəyində yerləşir. Mənzərəli təbiət və "Feenqrot" (Mələklər mağarası) stalaktit mağarası hər il çoxsaylı turistləri cəlb edir.

Turingiya meşəsindən şimalda yerləşən, müasir dövrdə sürətlə inkişaf edən, tarixi qədim olan Türingin, Veymar, Yena, Erfurt şəhərlərinə də çoxlu sayda turist gəlir. XVIII əsrin sonu - XIX əsrin əvvəllərinə aid alman mədəniyyəti tarixi ilə sıx əlaqəli olan Veymar şəhəri də turistlərdə böyük maraq doğurur. Dahi şairlər Höte və Şiller, bəstəkar Bax və digərləri müəyyən dövrlərdə bu şəhərdə yaşamış, öz ölməz əsərlərini burada yaratmışlar.

Bu turizm bölgəsində yerləşmiş Yena şəhəri - Almaniyanın iri sənaye mərkəzlərindən biridir. Şəhərin müəssisələrində istehsal edilən optik cihazlar və dəqiq alətlər bütün dünyada məşhurdur. 1558-ci ildə əsası qoyulmuş, ölkənin qədim universitetlərindən biri Yenada yerləşir. Hegel, Fixte, Şiller kimi dahilər bu universitetdə müəllimlik etmişlər.

**Filiz (Mədən) dağları turizm bölgəsi**. Bu bölgə çoxsaylı iqlim kurortları ilə seçilir. Mineral mənbələr və müalicəvi palçıq əsasında salınan Bad-Elster kurortu, rodon vannaları müalicəsi olan Bad-Brambax, Bad-Şandau və digər kurortlar daha məşhurdur. Filiz dağları turizm bölgəsinin qış kurortları arasında İohann Georq-Anştadt və mineral su mənbəyi olan Obervizental seçilir.

**Berlin şəhəri turizm mərkəzi.** Almaniyada ən müxtəlif turist tələbatını ödəyə bilən təbii turist ehtiyatlarının olmasına baxmayaraq, ölkənin paytaxtı Berlin şəhərinin çoxsaylı tarixi-memarlıq abidələri və muzeyləri turistləri daha çox cəlb edir. Hər iki alman dövləti birləşdikdən sonra (3 oktyabr 1990) Berlin yenidən vahid Almaniyanın paytaxtına çevrildi. 1307-ci ildə əsası qoyulmuş Berlin 1486-cı ildən Brandenburq (sonra Prussiya), 1871-ci ildən Almaniya, 1949-cu ildən 1989-cu ilədək şəhərin şərq hissəsi ADR dövlətlərinin paytaxtı olmuşdur.

10 noyabr 1989-cu ildə dağıdılmış Berlin divarlarının qalıqları; klassisizm üslubunda tikilmiş ilk memarlıq obyekti və Berlinin simvolu olan Brandenburq darvazası (1788-1791); Reyxstaqın binası (1884-1894) (1999-cu ilin mayında təmir edildikdən sonra, burada Almaniya Bundestaqı yerləşir, hər gün səhər saat 8-dən gecə yarıyadək, bütün arzu edənlər Reyxstaqa ekskursiyaya gələ bilərlər); XIII-XIV əsrlərə aid qotik üslubda tikilmiş kilsələr; barokko və klassisizm üslubunda tikilmiş XVII-XIX əsr memarlıq ansamblları; ən gözəl Prussiya qəsrlərindən olan Şarlottenburq qəsri (1695-1699; Kral I Fridrixin arvadının şərəfinə qəsrə bu ad verilmişdir) turistlərin xoşladıqları tarixi abidələrdir. Berlinin muzeyləri arasında Prussiya Mədəniyyət Xəzinəsi Dövlət Muzeyini qeyd etmək olar. Milli qalereya, Rəsm qalereyası, Misir muzeyi və Perqama muzeylərindən ibarət Berlin Dövlət muzeylər kompleksi (1830) dünyanın ən böyük muzeylərindən və turistlərin xoşladığı yerlərdən biridir.

1949-cu ildə Treptov parkda Berlinin faşizmdən azad edilməsi uğrunda həlak olanların şərəfinə möhtəşəm tarixi xatirə abidəsi ucaldılmışdır. Berlində, turistlərin diqqətini cəlb edən Avropanın ən böyük zooparkı və digər maraqlı obyektlər də vardır. Əcnəbi turistlərin böyük hissəsi Berlin yaxınlığında yerləşən Potsdam, Drezden və Leypsiq şəhərlərinə gəlirlər.

**Potsdam** - saray-park ansamblı (XVIII əsr şəhər qəsri də daxil olmaqla) və San-Susi (1745-1762) sarayı ilə beynəlxalq turizmdə tanınan mərkəzlərdən biridir.

**Drezden** - Elbanın hər iki sahilində yerləşir. Şəhərin hər iki hissəsi körpülərlə birləşir. Drezdenin qədim hissəsi (Alştadt) Elbanın sağ sahilində salınmışdır. Kral qəsri (XV-XIX əsrlər), məşhur Evinger sarayı (XV əsr), Opera teatrının binası və Yeni muzey (XIX əsr) şəhərin bu hissəsindədir. Drezden rəsm qalereyası bütün dünyada məşhurdur.

**Leypsiq -** şəhərinin görkəmli yerləri sırasında ratuşa və yaşayış binalarını (XVI-XVIII əsrlər), "Xalqlar döyüşü" abidəsini, muzeylərindən isə Almaniya kitab və ədəbi yazılar muzeyini göstərmək olar.

* * *

Almaniya, əhalinin yüksək hərəkətliliyi və geniş turizm əlaqələrinin olması ilə tanınan ölkələrdən biridir. Yaxın zamanlara qədər özünəxidmət bölməsində olan yaşayış yerləri də müəyyən qədər populyarlığını saxlamışdır. Onların böyük hissəsi Bavariyadadır. Ötən əsrin 90-cı illərində Şərqi Almaniyada beynəlxalq standartlara cavab verən otellərin çatışmaması nəticəsində, turizm lazımi səviyyədə in-

kişaf edə bilmirdi.

Birləşməyə qədər, Qərbi Almaniya bir çox ölkələrdən müxtəlif məqsədlərlə gələn çoxsaylı turistləri qəbul edirdi. Milli valyuta (marka) kursunun yüksək olması, ölkə üzrə səyahətin baha başa gəlməsi istirahət məqsədilə gələn əcnəbi turistlərin Almaniyada çox qala bilməmələrinə səbəb olurdu. Qohumların və dostların görüşünə gələnlərin (xüsusilə ABŞ və Böyük Britaniyadan) sayının çoxluğu bu ölkədə NATO-nun silahlı qüvvələrinin olması ilə bağlıdır. İşgüzar səfərə gələnlərin əksəriyyəti Böyük Britaniya, Fransa, İsveçrə və Yaponiyadandır. Hannover, Hamburq, Düsseldorf, Ştutqart, Münhen və digər şəhərlərdə çoxsaylı beynəlxalq ticarət, sərgi və konfransların keçirilməsi, işgüzar səfərlərin artmasında böyük rol oynayır.

Alp dağları, Fransaya, Aralıq dənizi sahillərinə gedən strateji yolların ayrıcında olduğu üçün, ölkədə gecələmədən, tranzit yolla keçən turistlərin sayı da çoxdur. Almaniyanın özünə isə Şərqi Avropadan, xüsusilə də qonşu Polşadan şop-turlarla bir günlük çoxsaylı turist gəlir.

Getmə turizminə gəldikdə isə, Almaniyada turizmin bu növü daim artmaqdadır. Məzuniyyətlərini xarici ölkələrdə keçirən almanların sayı ildən-ilə artır. Eyni zamanda, pekic-turların və ucqar guşələrə səyahət edənlərin sayı da artır. Almanlar, məzuniyyət dövründə çox pul xərcləməkdə yalnız Şimali amerikalılardan geri qalırlar. 1997-ci ildə almanların turizm xərcləri - 47,9, 1998-ci ildə - 48,9, 1999-cu ildə - 48,5 mlrd. ABŞ dolları təşkil etmişdir. Bir çox Avropa ölkələrinin turizm sahələri, Almaniya bazarı ilə sıx bağlıdır.

Almanlar arasında məzuniyyəti keçirmək üçün ən populyar yerlər Aralıq dənizi sahilləridir. Ötən əsrin 90-cı illərinin sonlarından almanlar İspaniyaya istirahətə getməyə üstünlük verməyə başladılar. İtaliyada ekoloji vəziyyətin ağırlaşması ilə əlaqədar, bu ölkə öz populyarlığını itirdi və Almaniyadan buraya gələn turistlərin sayı 20 faiz azaldı. Digər Alp ölkələri olan İsveçrə və Avstriyaya səyahət edən almanların sayı, xarici ölkələrə gedən almanların ümumi sayının 18,4, Skandinaviya ölkələrinə gedən almanların sayı isə cəmi 5,1 faiz təşkil edir.

Almaniyanın birləşməsi, Yuqoslaviyanın parçalanması, "Səhrada fırtına" müharibəsi və digər siyasi hadisələr, eyni zamanda iqtisadi böhranlar, ölkənin getmə turizminin bərqərar olmuş modelinə də təsir göstərmişdi. İspaniya, Portuqaliya, Türkiyə, Kipr kimi ölkələrə səyahətlərin sayı artmışdı. 1990-1991-ci illərin iqtisadi böhranı dövründə belə uzaq səfərlərin sayı azalmamış, əksinə artmışdır. Milli valyuta

kursunun enib-qalxmasına baxmayaraq, uzaq səyahətlərdə ABŞ-ın payı yüksəkdir. ABŞ-dan sonra, Uzaq Şərq, alman turizm bazarı üçün cəlbedici ikinci region hesab olunur. Yaponiya, Sinqapur, Honkonq kimi ölkələrə biznes-turlar da artmaqda davam edir. Tayland, Maldiv adaları, Şri-Lanka, Keniya və digər ölkələrdə istirahət edən almanların sayı da kifayət qədər çoxdur.

Ötən əsrin 90-cı illərinin əvvəllərinə qədərki dövrdə Qərbi və Şərqi Almaniya, ayrı-ayrı turist mərkəzləri kimi fəaliyyət göstərirdi.

Avropanın digər sosialist ölkələri kimi, Şərqi Almaniyada da daxili turizm yaxşı təşkil olunmuşdu. Xarici ölkələrdən qəbul məhdud olduğundan və əcnəbi turistlər əsasən digər sosialist ölkələrindən gəlirdi. Almanlar da əsasən həmin ölkələrə, xüsusilə də dəniz sahili rayonlara səyahətə gedirdilər (məsələn, keçmiş SSRİ-nin Qara dəniz sahili bölgələrinə).

Qərbi Almaniya isə əksinə İkinci Dünya müharibəsindən sonrakı dövrdə Qərbi Avropa ilə inteqrasiyaya can atmışdır. Amma ötən əsrin 90-cı illərinin əvvəllərində iqtisadi tənəzzüllə əlaqədar, Qərbi Almaniyadan getmə turizmi də azalmışdı. Digər tərəfdən Almaniyanın qərb hissəsində getmə turizminin azalması, Birləşmiş Almaniyanın şərqində getmə turizmin artması ilə kompensasiya* edilir. 1999-cu ildə 74,3 mln. alman xarici səyahətlərdə iştirak etmişdir. Almaniyanın güclü iqtisadiyyatı sayəsində, bu ölkə bütün dünyada əsas turizm mərkəzlərindən biri olaraq qalır. 1998-ci ildə Almaniyaya – 16,5, 1999-cu ildə – 17,0 mln.-a yaxın əcnəbi turist gəlmişdir. Turizm fəaliyyətindən 16,8 mlrd. dollardan artıq gəlir əldə edilmişdir. Qərblə-Şərq arasında turizm əlaqələri imkanlarının artması, ümumiyyətlə Avropa ölkələrində, o cümlədən Birləşmiş Almaniyada turizmin yeni modelini yarada bilər. Qeyd edək ki, 2000-ci ilə olan məlumata əsasən Almaniyada turistlərin gecələməsi üçün 1,6 mln. artıq mehmanxana yeri var.

Almaniyanın daxilində inkişaf edən daxili turizmin yeni modeli isə gələcəkdə beynəlxalq turizm modellərində öz əksini tapacaqdır. Qeyd etmək lazımdır ki, öz ölkəsində istirahət etməyə üstünlük verən almanların sayı 1999-cu ildə 1 faiz artmış və 49,3 mln. nəfərə çatmışdır.

Almaniyanın turizm biznesi üçün daxili turizmə marağın artması faktı öz-özlüyündə qənaətbəxş haldır. Digər tərəfdən isə, bu hal ölkədə iqtisadi vəziyyətin pisləşməsi və orta təminatlı təbəqənin öz ev-

---

* ***Kompensasiya*** – müqabil ticarətin müxtəlif növləri, yəni hər hansı bir alıcı tərəfindən əldə edilən malların qismən pul ilə ödənilməsi.

lərinə yaxın və ucuz istirahət etmək təşəbbüsü ilə izah olunur.

## 9.4. İSVEÇRƏ

**Ərazisi: 41,1 min kv. km. Dünyada 131-ci yer.**
**Əhalisi: 8,0 mln. nəfər (2000). Dünyada 91-ci yer.**
**Paytaxtı: Bern şəhəri (330 min nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dillər - alman, fransız və italyan.**
**Əsas dinlər: katolisizm və protestantlıq.**
**Milli pul vahidi: İsveçrə frankı.**

Mərkəzi Avropada yerləşmiş İsveçrə cənubdan və cənub-şərqdən İtaliya (sərhəddin uzunluğu 740 km), qərbdən, cənub-qərbdən və şimal-qərbdən Fransa (573 km), şimaldan Almaniya (334 km), şərqdən Avstriya (164 km) və Lixtenşteyn (41 km) ilə həmsərhəddir. Dənizlərə birbaşa çıxışı yoxdur.

İsveçrə dağlıq ölkədir, ərazinin böyük bir hissəsini Alp dağları tutur. Ölkənin ən yüksək zirvəsi olan Düfur dağı (4634 m) Alplardadır. Alp buzlaqlarının sahəsi 2000 kv. km-ə qədərdir. Şimal-qərbdə Yura dağları ucalır. Mərkəzi hissədə isə İsveçrə yaylası yerləşib. Reyn, Rona, Tiçino ölkənin ən böyük çayları, Cenevrə və Boden isə gölləridir.

Sürix (840 min), Cenevrə (400 min), Bazel (310 min), Lozanna (270 min) böyük şəhərlərdir. İsveçrədə ən böyük etnik qrup – almanlardır (əhalinin 65 faizi), əhalinin 18 faizini fransızlar, 10 faizini isə italyanlar təşkil edir. Orta ömür müddəti: kişilər üçün 75, qadınlar üçün 82 ildir.

İsveçrə – konfederativ parlamentli respublika kimi idarə olunur. İnzibati cəhətcə 23 kantondan ibarətdir. Hər kantonun öz konstitusiyası, parlament və hökuməti vardır. Hazırda qüvvədə olan konstitusiya 1848-ci ildə qəbul olunmuş, 1874-cü ildə yenidən işlənilmişdir. Dövlətin başçısı parlamentin rotasiya* prinsipi əsasında bir il müddətinə federal məsləhətçilər sırasından seçilmiş konfederasiya prezidentidir. Qanunverici hakimiyyət iki palatadan ibarət parlamentə – Federal Məclisə məxsusdur. Ali icraedici orqan – Federal Şuradır (hökumət).

1 Avqust – İsveçrə Konfederasiyasının yaradılması günü Milli bayram (1291-ci ildən) kimi qeyd olunur.

Yüksək inkişaf etmiş sənaye ölkəsi olan İsveçrə, əhalinin adam başına düşən milli gəlirinə görə (25,0 min ABŞ dollarından artıq)

---

* ***Rotasiya*** (latın mənşəli sözdür, dairəvi hərəkət mənasını bildirir) – yəni müəyyən müddətə təkrar olunan fəaliyyət.

dünyada aparıcı yerlərdən birini tutur. Faydalı qazıntıların yoxluğuna baxmayaraq, İsveçrə dünya bazarında müvəffəqiyyətlə rəqabət aparır, iqtisadi sabitliyi və əhalinin yüksək dərəcədə məşğulluğunu qoruyub saxlaya bilir. İqtisadiyyatın daha çox inkişaf etmiş sahələri – metalemalı, maşınqayırma, dəzgahqayırma, kompüter texnikası, nəqliyyat vasitələri, turizm, saat istehsalı, kimya, yeyinti və əczaçılıqdır. İsveçrə eyni zamanda dünyanın əsas maliyyə mərkəzlərindən biridir. Kənd təsərrüfatı əsasən ətlik-südlük heyvandarlıq üzrə ixtisaslaşmışdır.

Ölkə ərazisinin dörddə-birini buzlaqlar, qayalıqlar və mənzərəli göllər təşkil etməsinə baxmayaraq, İsveçrə Qərbi Avropanın ən yaşıl ölkələrindən biridir. 800 m yüksəkliyə qədər mədəni bitkilər, 800-2000 metrədək olan yüksəklikdə meşələr (alt hissədə fıstıq ağaclarının üstünlük təşkil etdiyi enliyarpaq, üst hissədə isə iynəyarpaqlı meşələr) üstünlük təşkil edir. Ölkə ərazisinin 25 faizi meşələrlə örtülüdür.

Meşə zolağından yuxarıda, 2000-3000 m yüksəklikdə, şirəli, əlvan çiçəklərlə zəngin olan subalp və alp çəmənlikləri yerləşir. Çəmənliklərdən yuxarıdakı bölgələr isə sərt qayalar, buzlaqlar və daimi qarlar səltənətidir.

İsveçrənin dağ relyefi, onun iqliminin müxtəlifliyinə səbəb olan əsas amillərdən biridir. Məsələn, İsveçrə yaylasının iqlimi mülayim, yağıntılı, qışı yumşaq, yayı isti və davamiyyətli olması ilə seçilir. Alp dağlarının cənub yamaclarının iqlimi Aralıq dənizi iqliminə oxşayır. Yumşaq və isti iqlim, təmiz hava, mehmanxana və yeyinti müəssisələrinin geniş şəbəkəsi, yaxşı təşkil olunmuş sərnişin nəqliyyatı və əla təchiz edilmiş kurortlar – İsveçrəyə çoxdan bəri "dünya kurortu" şöhrəti qazandırmışdır.

1815-ci ildə Vyana konqresinin qərarı ilə İsveçrə Bitərəf dövlət statusu aldıqdan sonra, XIX əsrdə və XX əsrin əvvəllərində siyasi baxışlarına görə təqib edilən şəxslər (o cümlədən Rusiya, Polşa, Fransa, İtaliya inqilabçıları) bu ölkədə sığınacaq tapırdılar. İsveçrə BMT-nin üzvü olmasa da, çoxsaylı beynəlxalq təşkilatların mənzil-qərargahları burada yerləşir. Uzun müddətdir ki, ölkədə müxtəlif səviyyəli beynəlxalq konfranslar və konqreslər keçirilir.

* * *

Bern və ölkənin mərkəzi hissəsi, Qraubünden, Tessin, Cenevrə və ölkənin cənub-qərb hissəsi, Bazel və ölkənin şimal-qərb hissəsi, Sürix və ölkənin şimal-şərq hissəsi, İsveçrənin əsas turizm mərkəzləridir.

**Bern və ölkənin mərkəzi hissəsinin turizm bölgəsi.** Bern, İs-

veçrənin paytaxtı, ölkənin ən böyük mədəni, siyasi və elmi mərkəzlərindən biridir. Aare çayı şəhəri iki hissəyə bölsə də, hissələr bir neçə böyük körpü vasitəsilə bir-biri ilə birləşir. Bernin tarixi-memarlıq abidələrindən, inşası 1421-ci ildə başlanmış Müqəddəs Vinsent kilsəsi, XV əsr Ratuşası, qədim saat qülləsi xüsusilə seçilir. Muzeylər arasında – Alp, Tarix, Poçt muzeyləri, Rəsm qalereyası turistləri daha çox maraqlandıran yerlərdir. Şəhərdə universitet və dövlət kitabxanası yerləşir.

Cenevrə gölündən şərqə, Aare çayının keçdiyi Qasli vadisinə qədər olan ərazidə, İsveçrənin yüksək Bern Alpları dağ yaylası uzanır. Yaylanın ən yüksək zirvəsi Finsteraarhorndur (4275 m), Yunqfrau dağ massivi (4158 m) çox mənzərəlidir. Bu zonanın, iqlim şəraiti, dekabrdan-martadək burada dağ xizək idmanının təşkili üçün çox əlverişlidir.

Adelboden, Qrindelvald, Kanderşteq, Venger, Qştadt və Mürren, bu bölgənin daha çox tanınmış kurortlarındandır. Qərbi Avropanın ən yüksək dağ dəmiryolu Mürren şəhərindən keçir. Tun və Briens gölləri arasında yerləşən mənzərəli sahə Bern Alplarının şimal qapısı hesab olunur.

İsveçrənin mərkəzi hissəsində yerləşən, əlverişli iqlim kurortu olan Lüsern, Firvaldştet gölünün sahilində salınmış kiçik bir şəhərdir. Bu gölün möhtəşəm sakitliyi, dağ zirvələrinin qar örtüyü, buraya istirahətə gələnlərin zövqünü oxşayır. Şəhərdə orta əsrlərə aid bir sıra memarlıq abidələri vardır. Lüserndən cənubda Altdorf, Andermatt, Engelburq kimi Alp kurortları yerləşir.

**Qraubünden turizm bölgəsi.** Qraubünden ərazisinə görə İsveçrənin ən böyük kantonlarından biridir. Bu bölgə ölkənin cənub-şərqində, Alp dağlarının yüksək hissəsində yerləşir. Quru, sağlam dağ iqlimi və günəşli günlərin bolluğu ilə seçilir. Bu bölgə İsveçrədə əcnəbi turistlərin toplaşdığı əsas mərkəzlərdən biridir. Qraubündenin dağ vadilərində ciyər xəstəlikləri üçün nəzərdə tutulmuş, bütün dünyada məşhur olan Davos kurortu, ölkənin ən yüksək dağ kurortu – Aroza, eyni zamanda dağ turizmi mərkəzləri olan Sankt-Moris, Pontrezina, Klosters şəhərləri yerləşir. Ölkənin ən ucqar şərqində İnn çayından şərqdə milli qoruq salınmışdır.

**Tessin turizm bölgəsi.** Tessin – Qraubündendən cənub-qərbdə, uca dağ zirvələrinin, dərin dərələrin, məhsuldar vadilərin, mənzərəli Laqo-Macore, Luqano gölləri sahilində yerləşən təbii bölgədir. Bu ərazidə Luqano gölü sahilində yerləşən eyni adlı kurort, həmçinin Lokarno, Askona və Brissaqo kurortları yerləşib.

**Cenevrə və ölkənin cənub-qərb hissəsinin turizm bölgəsi.** Cenevrə gölünün sahilində yerləşmiş Cenevrə şəhəri eyni adlı kantonunun inzibati mərkəzidir. XX əsrdən başlayaraq Cenevrə beynəlxalq həyatın mühüm mərkəzlərindən birinə çevrilmişdir. 1919-1946-cı illərdə Millətlər Liqasının Assambleya sessiyaları, müxtəlif konqress və müşavirələri bu şəhərdə keçirilmişdir. Hazırda 170-dən artıq beynəlxalq təşkilatın mənzil-qərargahları Cenevrədədir. İkinci Dünya müharibəsindən sonra, BMT-nin bir sıra ixtisaslaşmış qurumlarının sessiyaları, müxtəlif beynəlxalq müşavirələri Cenevrədə keçirilir.

Cenevrə sakinlərinin əksəriyyəti fransız dilində danışır. Şəhərdə çoxlu sayda müasir inzibati binalar, parklar, otellər və restoranlar vardır. Qədim memarlıq abidələri içərisində Kafedral kilsə (1150-ci il), Ratuşa (XVI əsr), 1559-cu ildə əsası qoyulmuş Universitet binası turistlərin diqqətini cəlb edir. Cenevrədə anadan olmuş, dahi fransız maarifçisi və mütəfəkkiri Jan Jak Russonun heykəli olan Russo adası turistlərin marağına səbəb olur. Şəhərdə bir sıra muzeylər, o cümlədən Təbiət, Jan Jak Russo, Reformistlər*, Volter, Tarix muzeyləri fəaliyyət göstərir.

Cenevrə gölünün şərq sahilində, dəb-dəbəli iqlim kurortu olan, hər il musiqi festivalları və sərgilər keçirilən Montre şəhəri yerləşir. Montrenin yaxınlığında Cenevrə gölü sahilindəki qaya üzərində 900 il öncə tikilmiş möhtəşəm Şilyon qəsri çoxsaylı turistləri cəlb edir. Qəsrin, gölün səthindən aşağıda yerləşən zirzəmisindən orta əsrlərdə zindan kimi istifadə olunurdu. XIV əsrin ortalarında Savoy hertsoqu Fransua Bonivara qarşı mübarizə aparan cenevrəlilərin rəhbərlərindən biri bu zindanda 7 il həbsdə olmuş, bu hadisə ingilis şairi Corc Bayronun (1788-1824) "Şilyon məhbusu" əsərinin məzmununu təşkil etmişdir. Montredən bir neçə km qərbdə dəbdə olan, təmtəraqlı Veve kurortunun əla təchiz olunmuş çimərliyi vardır.

Cenevrə gölünün şimal sahilində İsveçrənin ən böyük şəhərlərindən biri olan Lozanna xarici turizmin iri mərkəzidir. Lozanna sərgilər və beynəlxalq məclislər şəhəridir. Burada maraqlı tarixi memarlıq abidələri, muzeylər çoxdur. Tarixi – memarlıq abidələri arasında, tikintisi XII əsrdə başlamış Notr-Dam kilsəsi, Ratuşa, Müqəddəs Məryəm məbədi seçilir. Şəhərin Tarix muzeyi və Rəsm qalereyası da turistlərin diqqətini cəlb edir. Lozannada beynəlxalq teatr və musiqi festivalları, kənd təsərrüfatı və sənaye sərgiləri keçirilir.

---

* ***Reformasiya*** (latınca dəyişiklik, düzəliş mənalarını bildirir) - XVI əsrdə katolik təliminə və kilsəsinə qarşı dini mübarizə forması almış antifeodal xarakterli ictimai-siyasi və ideoloji hərəkat.

Cenevrə gölündən cənub-şərqdə, Vale kantonunda Sermatt, Zas-Almagel, Orsyer, Şampe, Martinyi, Villar kimi dağ turizmi mərkəzləri yerləşir.

**Bazel və ölkənin şimal-qərb hissəsinin turizm bölgəsi.** Bazel, əhalisinin sayına görə Sürixdən sonra ölkənin ikinci şəhəri, mühüm iqtisadi və tarixi mərkəzidir. Şəhərdə, əsası 1460-cı ildə qoyulmuş qədim universitet fəaliyyət göstərir. Bazelin sakinləri əsasən alman dilində danışırlar. Rotterdamlı Erazmın məzarı olan Kafedral kilsəsi (XI əsr), Ratuşa, Rəsm qalereyası, dünyanın ən zəngin zooparklarından biri olan Bazel zooparkı, Avropanın ilk mehmanxanalarından olan "Üç kral" mehmanxanası, şəhərin görkəmli yerlərindəndir. Mehmanxananın qeydiyyat kitabında on əsr öncə burada yaşayan qonaqların adları qorunub saxlanılmışdır. Bazeldən şərqdə İsveçrənin qədim balneoloji və iqlim kurortu olan Baden şəhəri yerləşir.

**Sürix və ölkənin şimal-şərq hissəsinin turizm bölgəsi.** Sürix kantonunun inzibati mərkəzi olan Sürix, İsveçrənin ən böyük şəhəri, iri sənaye, maliyyə və mədəni mərkəzidir. Şəhər, Sürix gölünün şimal sahilində, Limmat çayının mənbəyində yerləşir. "İsveçrənin qapısı" funksiyasını yerinə yetirən Sürix ölkənin mühüm dəmir və şosse yolları qovşağı, beynəlxalq aviasiya xəttləri mərkəzidir. Şəhərin sakinləri əsasən alman dilində danışır. Sürix həmçinin çoxsaylı muzey, teatr və konsert zalları şəhəridir. Burada hər il incəsənət festivalları keçirilir. Şəhərin sağ sahilində (köhnə şəhər) qədim dövrə aid çoxlu abidələr qorunub saxlanılmış, bir sıra məhəllələr isə orta əsr simasını demək olar ki, dəyişməmişdir. Sürixdə universitet, bir neçə kitabxana, o cümlədən bir milyon cilddən artıq kitabın olduğu Mərkəzi kitabxana fəaliyyət göstərir.

XIX əsrdən başlayaraq, əsasən Böyük Britaniyadan gələn kübarlar, İsveçrənin çoxsaylı göllərinin mənzərəli sahillərində istirahət edirdilər. Cenevrə gölünə ilk turist qrupunu isə 1863-cü ildə Tomas Kuk şirkəti təşkil etmişdi. Dağ kurortlarında (məsələn, alpinizm mərkəzi kimi yaradılan Sermatda) istirahəti də ilk dəfə ingilislər populyarlaşdırmışlar. 1870-ci ildə Alp dağları keçidlərindən dəmiryolu xətti çəkildikdən sonra, turizm inkişaf etməyə başlamış, İsveçrədə Sankt-Moris, Avstriyada – Bad-İşl kimi məşhur Alp sağlamlıq kurortları tikilmişdi.

XX əsrin 20-ci illərinə qədər Alp dağlarında turizmin yay istirahət növü üstünlük təşkil edirdi. 1924-cü ildə Şamonidə (Fransa) ilk dəfə olaraq, Qış Olimpiadası keçirildikdən sonra, İsveçrədə dağ xizək idmanı trassaları çəkilməyə başlandı. İkinci Dünya müharibəsinədək olan döv-

rdə bu yerlərə turistlər əsasən Britaniya adalarından gəlirdilər.

* * *

İqtisadi böhran, İkinci Dünya müharibəsi və onun ağır nəticələri, İsveçrə turizm biznesinə böyük ziyan vurdu. Buna baxmayaraq, bir qədər sonra ölkədə yeni turizm mərkəzləri tikilməyə başlandı və artıq ötən əsrin 50-ci illərinin əvvəllərində İsveçrə Alp turizmində birinci yeri tutsa da 1955-ci ildə Avstriya onu ötüb keçdi.

Ötən əsrin 80-ci illərində İsveçrə turizmi durğunluq dövrünü keçirirdi. Mehmanxana və digər yaşayış obyektlərində yaşayış fondlarının modernləşdirilməsinə başlanılsa da bu işlər həm ləng aparılır, həm də müştərilərin müasir tələblərinə cavab vermirdi. Digər tərəfdən qışın nisbətən isti keçməsi və qar örtüyünün zəif olması bir sıra yeni problemlər yaradırdı. Bütün bunlara baxmayaraq, idmanın qış növlərinin artım meylləri, mehmanxana biznesi sabitliyini qorumaqla və hər ay 2-3 mln. nəfərə yaxın turisti qəbul etmək imkanına malik idi. Özünəxidmət bölməsi isə yalnız "qızğın mövsüm" dövründə tam gücü ilə işləyə bilirdi.

Ötən əsrin 90-cı illərinin əvvəllərində İsveçrədə yay turizmi əvvəlki məşhurluğunu nisbətən itirsə də, yenə üstünlük təşkil edir və il boyu bu ölkəyə gələnlərin 57 faizi yay mövsümünün payına düşürdü (həm daxili həm də xarici turizm üzrə).

İsveçrədə turizm statistikası üçün informasiya, turistlərin yerləşdikləri müxtəlif yerlərdən toplanılır, çünki, gələnlər haqqında ölkə sərhədlərində heç bir statistik məlumat alınmır (bu, turistlərin ölkəyə müxtəlif yollarla gəlmək imkanlarının olması ilə izah olunur), nəticədə ayrı-ayrı turist bazarlarını qiymətləndirməkdə çətinliklər yaranır. Əcnəbi turistlərin təxminən 60 faizi mehmanxanalarda, daxili turistlərin 62 faizi özünəxidmət bölməsində (mənzil, şəxsi evlər, şalelərdə* və düşərgələrdə) yerləşirlər.

Turistlərin yerləşdirilməsində mehmanxana bölməsinin böyük rolu vardır. Amma bu bölmə üzrə adam-günlərin miqdarı turist zonalarında heç də eyni səviyyədə deyildir. Məsələn, dağ kurortları daha məşhurdur. Sonrakı yerləri göllər ətrafında salınmış kurortlar və iri şəhərlər tutur.

İsveçrə, özünə məxsus turizm ehtiyatlarına və coğrafi mövqeyə

---

* ***Şale*** (fransız mənşəli sözdür) – İsveçrənin dağlıq bölgələrində kiçik kənd evləri, bəzi Qərb ölkələrində şəhərkənarı kiçik bağ evləri. Dağ kurortlarında turistlərin yerləşdirilməsində şalelərdən istifadə olunur.

malik olduğu üçün, həm şimal, həm də cənub ölkələrindən turist qəbul edir. İsveçrəyə ən çox turist göndərən dövlət – Almaniyadır. Niderland, Böyük Britaniya, Fransa, Belçika, İtaliya, ABŞ, Yaponiya, İspaniya sonrakı yerləri tuturlar.

İsveçrəyə birgünlük gəzintiyə və tranzit yolla çoxsaylı qonaqlar gəlir. Onların təqribən üçdə birini Almaniya, bir o qədəri İtaliya, beşdə birini Fransadan gələnlər təşkil edir.

Ötən əsrin 80-ci illərinin ortalarında digər ölkələrin valyutalarına nisbətdə İsveçrə frankının məzənnəsinin, məhsul və xidmət qiymətlərinin yüksəlməsi nəticəsində ölkəyə gələn turistlərin qalma müddətləri azalmışdı. Aralıq dənizi hövzəsində yerləşmiş ölkələrin çimərliklərdə əla yay istirahəti təklifi, İsveçrədə beynəlxalq turizmin nisbətən tənəzzülünə səbəb olmuşdur.

Beynəlxalq turizm İsveçrənin iqtisadiyyatında mühüm rol oynayır. Hər il ölkəyə 11 mln-dan artıq əcnəbi turist gəlir. Ölkə turizm fəaliyyətindən 8 mlrd. ABŞ dolları həcmində gəlir əldə edir.

İsveçrəlilər özləri də səyahət etməyi sevirlər. 1999-cu ildə 12 mln. isveçrəli turist başqa ölkələrə səyahətə getmişdir. Getmə turizminin coğrafi tədqiqi göstərir ki, İspaniya, Yunanıstan, İtaliya, Misir, Fransa, Avstriya, Çexiya, Slovakiya, ABŞ, Karib hövzəsi ölkələri İsveçrə sakinləri arasında daha məşhurdur. Mövsümlər üzrə fərq yoxdur, yəni bu ölkələr həm qış, həm də yay mövsümündə öz populyarlıqlarını saxlayırlar. Belə ki, turistlərə yay mövsümündə – kurortlar, qış mövsümündə isə dağ xizək idmanı təklif olunur.

İsveçrədə "Özbaşına turist səfərləri" də xeyli populyardır. Qış mövsümündə, hava şəraitindən asılı olmayaraq, hər həftənin cümə günü, isveçrəlilərin əksər hissəsinin ölkənin müxtəlif bölgələrinə və ya qonşu Avropa ölkələrinə miqrasiyası müşahidə edilir. Əhalinin praktiki olaraq 76 faizi dağ xizək idmanının qızğın pərəstişkarıdır. Ona görə də bu məqsədlə çoxlu miqdarda xizək marşrutları və otellər şəbəkəsi olan bütöv turist kompleksləri yaradılmışdır.

Yay mövsümündə əhalinin çox hissəsi dəniz kənarı kurortlarda olmağa üstünlük verir. Üç günlük avtobus marşrutları da dəbdədir. Hazırda İsveçrədə fəaliyyət göstərən 7 minə yaxın turist firması öz müştərilərinə müxtəlif, turist marşrutları və xidmətləri təklif edir. Əhalisi 8,0 mln. olan İsveçrədə, turizm sahəsində 30 mindən çox adam çalışır. Turizm sənayesi, yaratdığı gəlirə görə ölkə iqtisadiyyatında bank-maliyyə fəaliyyətindən sonra ikinci yeri tutur. 6 min otel, 11 minə yaxın kempinq, motel və turist bazası turistlərə xidmət göstərir.

İsveçrədə turizm fəal surətdə tədqiq olunur. Hələ İkinci Dünya müharibəsi illərində, Bern universitetinin tərkibində Turizm Tədqiqatı İnstitutu və Sankt-Qallen İqtisadiyyat məktəbi kimi iri tədris-tədqiqat mərkəzləri yaradılmışdı. Bundan əlavə, turizmin inkişafı, hökumət və ictimai təşkilatlar tərəfindən müdafiə edilirdi. Belə ki, dağlıq rayonlarda turizm, kənd təsərrüfatına yeganə alternativ formadır.

## 9.5. AVSTRİYA

| |
|---|
| **Ərazisi: 83,9 min kv. km. Dünyada 112-ci yer.**<br>**Əhalisi: 8,2 mln. nəfər (2000). Dünyada 87-ci yer.**<br>**Paytaxtı: Vyana (1,6 mln. nəfər - 2000).**<br>**Dövlət (rəsmi) dili: Rəsmi dil - Alman dili.**<br>**Din: Xristianlıq (əsasən katoliklər və protestantlar).**<br>**Milli pul vahidi: Avstriya şillinqi.** |

Mərkəzi Avropada yerləşmiş Avstriya cənubda İtaliya (sərhəddin uzunluğu 430 km), cənubda və qərbdə İsveçrə (164 km), qərbdə Almaniya (784 km) və Lixtenşteynlə (37 km), şimalda Çexiya (362 km), şərqdə Macarıstan (366 km), şimal-şərqdə isə Slovakiya (91 km) ilə həmsərhəddir.

Avstriya ərazisinin dörddə üç hissəsi bir-birinə paralel olan girintili-çıxıntılı dağ silsilələrindən (Şərqi Alp dağları) və vadilərdən (Dunay vadisi) ibarətdir. Avstriya ərazisində Alp dağlarının ən yüksək zirvəsi Qrosqloknerdir (3793 m). İki min il öncə Alpın qarlı dağ keçidlərindən (2600 m yüksəklikdə) "Roma yolu" keçirmiş. Hazırda 1371 m yüksəklikdə olan Brenner aşırımından keçən dəmiryolu Avstriyanı İtaliya ilə birləşdirir. Qrosqloknerə dolanan spiral şəkilli şosse yolu ilə yay mövsümündə turist daşıyan minlərlə avtomaşın şütüyür.

Avstriyanın çoxsaylı çayları arasında yalnız Dunay gəmiçilik üçün yararlıdır. Amma, Avstriya ərazisində Dunayın təhlükəli, iti axan yerləri də var. Avstriyanın dənizə çıxışı olmasa da, ölkə Alp dağlarının çoxsaylı aşırımları və vadiləri ilə Mərkəzi Avropanın yolayrıcında, əlverişli strateji mövqedə yerləşir. Avstriyanın iqlimi, Orta Avropa iqlimi kimi mülayim olsa da, ucqar şərq bölgələrinin iqlimi nisbətən kontinental və qurudur. Dağlar və dağ yamacları, ərazinin yüksəkliyindən və yerli şəraitdən asılı olaraq, mikroiqlimin müxtəlifliyi ilə seçilir.

İri şəhərləri: Qrats (240 min), Lints (205 min) və Zaltsburqdur (140 min). Vyana və Lints şəhərləri həmçinin əsas çay portlarıdır. Əhalinin 98 faizini avstriyalılar təşkil edir. Ölkədə həmçinin xorvatlar (əhalinin 0,3 faizi), sloveniyalılar (0,2 faiz) və digər etnik qruplar yaşayır. Əhalinin 200 minini etnik almanlar təşkil edir. Orta ömür müddəti: kişilər üçün 73, qadınlar üçün 80 ildir.

Avstriya federativ respublikadır. Aşağı Avstriya, Yuxarı Avstriya, Burgenland, Ştiriya, Karintiya, Tirol, Zaltsburq, Forarlberq və

inzibati baxımdan onlarla eyni statusa malik olan Vyana federal torpaqlardır. Dövlət başçısı – federal prezidentdir, icra hakimiyyəti Kanslerin (Baş nazirin) əlindədir. Ali qanunverici orqan iki palatadan: Milli Şura (Aşağı palata) və Federal Şura (Bundesrat və ya Yuxarı palata) ibarət parlamentdir. 26 Oktyabr – Avstriyanın bitərəfliyi haqqında Qanunun parlament tərəfindən qəbul olunduğu gün (1955) – Milli bayram kimi qeyd olunur.

Avstriya faydalı qazıntılarla zəngin deyil. Ölkədə dəmir filizi, neft, alüminium xammalı, qurğuşun, mis, daş və qonur kömür ehtiyatlarının olması məlumdur.

Avstriya inkişaf etmiş sabit iqtisadiyyata malik ölkələrdən biridir. Əsas sənaye sahələri: metallurgiya, maşınqayırma, yeyinti, toxuculuq, əczaçılıq, energetika, kağız və sellüloz istehsalı və s.-dir. Bank-maliyyə bölməsi yaxşı inkişaf etmişdir. İşləmək qabiliyyəti olanların 8 faizi kənd təsərrüfatında çalışır. Kənd təsərrüfatı, ölkəni əsas ərzaq məhsulları ilə təmin edə bilir. Avstriyadan maşın və avadanlıq, qara metallar, taxta-şalban, kağız məhsulları, toxuculuq və kimyəvi məhsullar və s. ixrac, neft, çatışmayan ərzaq məhsulları, təbii qaz, nəqliyyat vasitələri, əhali tərəfindən çox işlənən məmulatlar və s. idxal olunur.

* * *

Avstriya respublikasında turistlərin toplaşdıqları əsas mərkəzlər – Vyana və ölkənin tarixi-coğrafi əyalətləridir.

**Vyana turizm mərkəzi.** Vyana əsrlər boyu Habsburqlar imperiyasının paytaxtı olmuş qədim şəhərdir. O, Avropa mədəniyyətinin iri mərkəzlərindən biri, intibah, barokko, rokoko üslubunda tikilmiş nadir memarlıq abidələri, çoxsaylı muzey, teatr və parklar şəhəridir. Vyananın görkəmli yerlərindən, Müqəddəs Stefan kilsəsini, Hofburq, Şenbrunn, Belveder və digər saray-qəsrləri qeyd etmək olar.

Müqəddəs Stefan kilsəsi (XIV-XV əsrlər) Avropanın ən gözəl qotik üslublu tikililərindən biridir. Kilsənin, hündürlüyü 137 metr olan cənub qülləsi, Vyananın rəmzi sayılır. Hofburq sarayı Habsburqların qış iqamətgahı olmuşdur. Saray kompleksinə, müxtəlif dövrlərə aid edilən bina və tikililər daxildir. Sarayın ən qədim hissəsi XIII əsrə aiddir. Şenbrunn sarayı – Habsburqların yay iqamətgahı olub. Sarayın zəngin otaqları və zalları məşhur incəsənət əsərləri ilə gözəl bəzədilmişdir. Sarayın ətrafında barokko üslubunda əla park salınmışdır. Belveder sarayı memar Lukas fon Gildebrant tərəfindən tikilmişdir. Sarayın üst mərtəbəsində yerləşən təmtəraqlı zal və sarayın qarşısında barokko üslubunda salınmış park öz gözəlliyi ilə

diqqəti cəlb edir.

Vyananın muzeyləri arasında Bədii-tarixi, İncəsənət, Şəhər muzeyləri xüsusilə seçilir. Vyanada dahi bəstəkarlar Haydn, Motsart, Bethoven, Brams, Ştrausun həyat və yaradıcılığı ilə bağlı çoxlu xatirə yerləri vardır. Şəhərin park və meydanlarını heykəllər və fəvvarələr bəzəyir. Vyanada Milli kitabxana (1,2 mln. cild), bir sıra ali tədris müəssisələri, o cümlədən universitet fəaliyyət göstərir.

**Aşağı Avstriya turizm bölgəsi.** Bu bölgə ölkənin şimal-şərqində yerləşən ən böyük əyalətdir. Aşağı Avstriyanın məhsuldar vadiləri, paytaxtdan qərbdə yerləşən məşhur Vyana meşəsinin geniş massivi, çoxsaylı tarixi-memarlıq abidələri, əlverişli iqlim şəraiti, əyalətə böyük miqdarda, xüsusilə də Avstriyanın digər bölgələrindən gələn turistləri cəlb edir.

Bu turist bölgəsində, Dunay çayının yuxarı axarının qədim Krems şəhərindən Melk şəhərinədək olan hisəssi (Vahau vadisi) gözəl təbiəti və tarixi-memarlıq abidələri ilə seçilir. Gəminin göyərtəsindən bu diyarın əsrarəngiz təbiət mənzərələrini seyr etmək insana zövq verir. Dağ yamaclarından Dunaya enən yaşıllıqlar, mənzərəli kəndlər, çayın sıldırım sahillərində ucalan qədim qəsrlər öz gözəlliyi ilə turistləri heyran edir. Vyanadan 26 km aralıda ümumdünya miqyasında tanınmış Baden balneoloji kurortu yerləşir. Kurortun kükürdlü mineral su mənbələrinin müalicəvi əhəmiyyəti hələ qədim romalılara da məlum idi.

**Burkenland turizm bölgəsi.** Bu əyalət Avstriyanın cənubunda, Macarıstanla sərhəd zonasında yerləşir. Əyalətin o qədər də böyük olmayan ərazisində, orta əsrlərə aid bir sıra qəsr-qalalar qorunub saxlanılmışdır. Onların arasında Eyzenştadt şəhərində yerləşən Esterqazi qəsri daha məşhurdur. Dahi bəstəkar Haydn bu şəhərdə yaşayıb-yaratmış və dəfn olunmuşdur. Şəhərdə Haydn muzeyi fəaliyyət göstərir. Burkenland əyalətində, Macarıstanla sərhəddə yerləşən Neyzidler-Zee gölü daxili turistlərin toplaşdıqları mühüm mərkəzlərdən biridir.

**Yuxarı Avstriya turizm bölgəsi.** Bu bölgə Aşağı Avstriyadan qərbdə, mənzərəli və mavi göllər zonasında yerləşir. Bu ərazidə balneoloji və iqlim kurortları üstünlük təşkil edir. Bölgənin mərkəzi Lints şəhəridir. Şəhərdə çoxsaylı tarixi-memarlıq və bədii abidələr vardır. Zaltskammerqut dağları Yuxarı Avstriyanın əsas rekreasiya bölgəsidir. Bu bölgənin çoxsaylı gölləri arasında Atter mənzərəli təbiəti ilə seçilir. Atterin sahilində Atterze, Kammerr, Veyreqq, Traun gölünün sahilində isə təmtəraqlı Ebenze kurortları yerləşir. Tarixi-memarlıq abidələri ilə zəngin olan Hmunden şəhəri, iri, müasir ku-

rortlardan biridir. Bad-İşl balneoloji kurortu da Yuxarı Avstriyanın iri kurortlarından hesab edilir.

**Zaltsburq turizm bölgəsi.** Çoxsaylı göllər, mineral bulaqlar mədəniyyət abidələri ilə zəngin olan bu mənzərəli dağlıq əyalət, Yuxarı Avstriyadan cənub-qərbdə yerləşir. Əyalətin baş şəhəri olan Zaltsburq, Zaltsax çayı vadisində yerləşir. Şəhərin zəngin tarixi keçmişi, çoxsaylı memarlıq və bədii abidələrində əks olunmuşdur. Avstriyanın ən gözəl şəhərlərindən biri hesab olunan Zaltsburqun görkəmli yerlərindən, barokko üslubunda tikilmiş Kafedral kilsəni (XV əsr), Mirabel qəsrini (XVIII əsr) qədim qala tikililərini qeyd etmək olar. Zaltsburq Motsartın vətənidir. Burada dahi bəstəkarın doğulduğu ev qorunub saxlanılmışdır. Şəhərdə hər il musiqi və teatr festivalları, müxtəlif sərgilər keçirilir.

Zaltsburqun yaxınlığında tanınmış Halleyn balneoloji kurortu və dağ idmanı mərkəzi yerləşir. Zaltsburqdan cənubda Sell, Zalbax dağ idmanı mərkəzləri, əyalətin ucqar cənubunda, Qasteyn çayı vadisində, radioaktiv mənşəli isti bulaqlar olan Bad-Qasteyn və Bad-Hofqasteyn balneoloji mərkəzləri yerləşir.

**Ştiriya turizm bölgəsi.** Ərazisinin böyüklüyünə görə bu bölgə ölkənin ikinci əyalətidir. Avstriyanın mərkəz və cənub-şərq hissəsini əhatə edən Ştiriya, möhtəşəm dağ zirvələri, məhsuldar vadilər, iti axan çaylar, Alp çəmənləri, enli və iynəyarpaq meşə massivləri diyarıdır.

Əyalətin inzibati mərkəzi olan Qrats, əhalisinin sayına görə Avstriyanın ikinci böyük şəhəridir. Şəhərə çoxlu sayda turist gəlir, burada tez-tez musiqi və teatr festivalları keçirilir. Qratsın görkəmli yerlərindən Universitet binasını (XVI əsr), Qədim kilsəni (XV əsr), Folklor muzeyini, Rəsm qalereyasını, Kriminalistika muzeyini, dünya üzrə orta əsrlərə aid silahların ən böyük kolleksiyasının (30 min nüsxə) toplandığı Arsenal muzeyini qeyd etmək olar.

Qratsdan cənub-şərqdə Bat-Qleyhenburq balneoloji kurortu, şimalda isə mənzərəli Mariasel kurort mərkəzi yerləşir. Ştiriyanın şimal-qərbində dağ xizək idmanı üçün əla təchiz olunmuş, Bat-Ausze iri balneoloji kurortu yerləşir. Burada o qədər də böyük olmayan, amma əsrarəngiz təbiət mənzərəsinə malik Toplis və Qrandl gölləri yerləşir.

**Karintiya turizm bölgəsi.** Avstriyanın cənubunda yerləşmiş Karintiya uca dağlar, Alp çəmənləri, mənzərəli ılıq dağ gölləri diyarı kimi tanınır. Əyalətin baş şəhəri – Klagenfurq mənzərəli Verter – Ze

gölünün sahilində yerləşir. Bu şəhər orta əsr memarlıq abidələri ilə turistləri cəlb edir.

Karintiyanın gölləri may ayından – oktyabrın əvvəllərinədək turistlərin (xüsusilə də daxili turistlərin) toplaşdıqları mühüm mərkəzlərdir. Əyalətin ən böyük gölü olan Verter – Ze gölünün sahilində əla təchiz edilmiş çimərlikləri, idman meydançaları, qayıq stansiyaları olan Felden və Perçax kurortları, Milştatter-Ze gölünün sahilində isə Milştatt və Zbenden kurortları yerləşir. Ölkənin ən yüksək dağ zirvəsi olan Qrosqlokner, çoxsaylı turistlərin diqqətini cəlb edir. Bu turist bölgəsinin dağ iqlim kurortlarından Fillax və Şpitalı qeyd etmək olar.

**Tirol turizm bölgəsi.** Tirol özünəməxsus təbii və iqlim şəraiti ilə fərqlənən dağlıq əyalətdir. Tirol, alpinizm, turizm və xizək idmanı üçün əlverişli təbii rayon olduğundan Avropanın başlıca iqlim və dağ idmanı mərkəzlərindən birinə çevrilmişdir. Tirolda olan kurortların əksəriyyəti, əyaləti kəsib keçən İnn çayının sahilində yerləşir. Tirolun inzibati mərkəzi olan İnsbruk ölkənin mənzərəli kurortlarından biridir. Şəhərdə dağ idmanının bütün növləri ilə məşğul olmaq üçün əla şərait, eyni zamanda gözəl qəsr-saraylar və muzeylər vardır. 1964-cü ildə burada Qış olimpiya oyunları keçirilmişdir.

İnsbrukun yaxınlığında İqls və Zefeld dağ kurortları vardır. Digər kurortlar arasında isə, İnn çayı vadisində yerləşən Zolbad – Hall və Vörhl kurortları seçilir. Bu zona Tirol sakinlərinin özünəməxsus məişət, adət və ənənələri ilə turistləri cəlb edir.

**Forarlberq turizm bölgəsi.** Forarlberq Avstriyanın ucqar cənub-qərbində dağlıq əyalətdir. Forarlberqin inzibati mərkəzi olan Brekens şəhəri Boden gölü sahilində iqlim kurortudur. Dağ idmanı kurotları arasında təmtəraqlı Lex, həmçinin, Şrunts, Lanken, Zurs, San-Anton kurortları diqqəti cəlb edir.

* * *

Ölkənin əlverişli təbii-iqlim şəraiti görkəmli yerlərin zənginliyi, coğrafi mövqeyi, müasir nəqliyyat yolları, turizmin inkişaf etmiş maddi-texniki bazası əcnəbi turistləri Avstriyaya cəlb edən əsas amillərdir. Əcnəbi qonaqlar Avstriya sakinlərinin yüksək mədəniyyətini həmişə qeyd edirlər. Yerli əhali səyyahlara qarşı çox mehribandır. Avstriyada xarici turizmin inkişafının stabilliyi və intensivliyinin səbəbi, turizmin istirahət və qış idmanı növlərinin ucuz qiymətlərlə təklif edilməsidir.

Avstriyaya turizm səfərlərinə tələbat səyahət marşrutlarından,

əyləncələrin az-çoxluğundan asılı olmur. Bu ölkəyə gələn turistlər əsasən mənzərəli təbiət qoynunda dincəlir, idmanla məşğul olurlar. İnkişaf etmiş digər ölkələrə nisbətən turistlər burada turizm üçün daha gözəl şəraitin olduğunun şahidi olurlar.

Avstriyanın coğrafi mövqeyi Şimali Avropanı Cənubi Avropa, Şərqi Avropanı Qərbi Avropa ilə birləşdirən yol ayrıcında yerləşməsi müasir avtomobil yolları, tranzit turistlərin (əsasən Şimali Avropa ölkələrindən Aralıq dənizi sahillərinə doğru) bu ölkədən keçməsinə səbəb olur. Sabiq sosializm düşərgəsi ilə Avropa arasında "dəmir pərdənin" aradan qaldırılması, tranzit turistlərin artmasına səbəb olmuşdur. Ötən əsrin 90-cı illərinin əvvəllərindən ölkəyə qonşu Macarıstan, Çexiya, Slovakiya, həmçinin Polşadan turist axınının güclənməsi hiss olunur. Bu səfərlər bir qayda olaraq, şop tur xarakteri daşıyır.

Son illərdə avstriyalılar özləri də səyahət etməyə meylli olmuşlar. 1999-cu ildə 3,9 mln. avstriyalı xarici səfərə çıxmış, onların yarısı Aralıq dənizi sahillərinə getmişlər. Avstriya idmanın qış növləri üzrə dünya mərkəzləri arasında liderlik edən ölkədir. Beynəlxalq turizm əsasən, ölkənin qərbində, dağlıq hissəsində daha yaxşı inkişaf edib. 1999-cu ildə Avstriyaya gələn qonaqların 70 faizi öz istirahətlərini üç əyalətdə – Forarlberq, Tirol və Zaltcburqda keçirmişlər.

Avstriyaya turist göndərən əsas ölkələr – Almaniya, Niderland və Böyük Britaniyadır. Əcnəbilərin ölkədə keçirdikləri turist - günlərin təqribən 80 faizi bu üç ölkənin payına düşür. Onların da təqribən yarısını almanlar təşkil edir. Niderland, Böyük Britaniya, İsveçrə, Fransa, ABŞ, Belçika, Şərqi Avropa ölkələri isə sonrakı yerləri tutur.

Avstriya Almaniyanın turist bazarından çox asılıdır. 1999-cu ildə Avstriyaya gəlmiş 17,6 mln. əcnəbi turistin 9,9 mln. alman turistləri təşkil etmişdilər. Alman turistlərini cəlb edən amillər istirahət üçün əlverişli şəraitin olması, dilin ümumiliyi, valyuta dəyişmə kursunun sərfəli olmasıdır. İstirahət üçün yer seçimində almanlar, digər avropalılarla müqayisədə bir qədər daimidirlər. Almanlar yaxşı xidmət müqabilində, uzun illər boyu, eyni yerdə istirahət etməyə üstünlük verirlər. Əcnəbi turistlərin Avstriyada qalma müddətləri orta hesabla 7 gündür.

Avstriyanın təbii-iqlim şəraiti ilin çox hissəsində istirahətin təşkili üçün əlverişli olmasına baxmayaraq, əksər Avropa ölkələrində olduğu kimi bu ölkədə də xarici turizm mövsümi xarakter daşıyır. İsveçrədə olduğu kimi, Avstriyada da turizmin iki yüksəliş dövrü vardır: ən qızğın turizm mövsümləri, qışda - fevral, yayda avqust ay-

larıdır.

Qış turizminin geniş yayılması, digər Alp dövlətləri olan İsveçrə, İtaliya, Fransa, Almaniya və Sloveniya kimi, Avstriyanın da qarşısında idmanın qış növlərinin inkişafının ekoloji sistemə təsiri problemi dayanır. Digər tərəfdən, adı çəkilən bu ölkələrdə turizmin yay növlərinin populyarlığı azalır.

1998-1999-cu illərdə xarici turizmdən əldə olunan gəlir, müvafiq olaraq – 12,6 və 12,5 mlrd. ABŞ dolları təşkil etmişdir. Turizm üzrə valyuta daxil olmalarından əhalinin adam başına düşən gəlirə görə, Avstriya dünyada öncül yerlərdən birini tutur.

# FƏSİL 10.

## ŞİMALİ VƏ ŞƏRQİ AVROPA ÖLKƏLƏRİNDƏ BEYNƏLXALQ TURİZM

### 10.1. İSVEÇ

**Ərazisi: 450 min kv. km. Dünyada 54-cü yer.**
**Əhalisi: 8,8 mln. nəfər (2000). Dünyada 84-cü yer.**
**Paytaxtı: Stokholm (ətrafı ilə birgə – 1, 5 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi dili): Rəsmi dil - İsveç dili.**
**Din: Xristianlığın təriqətlərindən olan lüteranlıq.**
**Milli pul vahidi: İsveç kronu.**

Şimali Avropada, Skandinaviya yarımadasında yerləşmiş İsveçə Baltik dənizindəki Qotland və Aland adaları, həmçinin sahildən bir qədər aralı yerləşən bir sıra kiçik adalar da məxsusdur. Qərbdə və şimalda Norveç (sərhəddin uzunluğu 1619 km), şimal-şərqdə Finlandiya (586 km) ilə həmsərhəddir. Şərqdə Baltik dənizi və Botnik körfəzi, cənub-qərbdə Katteqat və Skagerrak boğazları ilə əhatə olunur. Eresunn boğazı İsveçi, Danimarkaya məxsus olan Zeland adasından ayırır. Ölkənin şimal-qərbində yerləşən Skandinaviya dağlarının İsveçdəki ən yüksək zirvəsi Kebnekaysedir (2123 m).

İsveçin cənub hissəsini zəmi və çəmənlərin, enli və iynəyarpaqlı meşələrin üstünlük təşkil etdiyi geniş məhsuldar vadilər tutur. İsveç ərazisinin yarıdan çoxunu tutan meşələr, ölkənin qiymətli təbii sərvəti hesab olunur.

İsveçdə müxtəlif hündürlükdə yerləşən təxminən yüz min göl vardır. Onların əksəriyyəti bir-birləri ilə çaylar vasitəsilə birləşərək göllər şəbəkəsi yaradırlar. Bir sıra iri göllər isə bir-biri ilə gəmiçilik üçün yararlı kanallarla birləşdirilib. Stokholmdan Geteborqa qədər, uzunluğu 50 km-dən artıq olan kanal vasitəsi ilə gəmi ilə səyahət etmək olar. İri göllər: Vettern və Venern, əsas çaylar isə Kaliks-Elv, Şellefte-Elv, Ume-Elv və Turne-Elvdir.

Geteborq (şəhər ətrafı ilə birgə 700 min), Malme (230 min) iri şəhərlər, Evle, Kalmar, Malme, Stokholm, Helsinqborq isə portlardır. Əhalinin 90 faizdən çoxu isveçlilərdir, ölkədə həmçinin finlər, saamilər, danimarkalılar, norveçlilər, yunanlar, türklər, çilililər də yaşayır.

Dindarların böyük əksəriyyəti, Yevangel lüteranlarıdır (90 faiz), qalan əhali katolik, islam və yəhudi dininə mənsubdur. Orta ömür

müddəti: kişilər üçün 75, qadınlar üçün 81 ildir.

İsveçin iqlimi mülayimdir, qış ayları şimalda şaxtalı və qarlı, cənubda qısa və yumşaq keçir. Qış və yay aylarında turizm üçün əlverişli bölgə ölkənin cənubudur.

Ölkənin rəsmi adı – İsveç Krallığıdır. Dövlət quruluşuna görə - konstitusiyalı monarxiyadır. İnzibati cəhətcə İsveç 25 lenə (quberniya) bölünür. Dövlətin başçısı – kraldır. Ali icraedici hakimiyyət Nazirlər Kabinəsinə rəhbərlik edən Baş nazirə məxsusdur. Qanunvericilik hakimiyyətini bir palatalı parlament (Riksdaq) yerinə yetirir. 6 iyun – İsveç Bayrağı günü, Milli bayram kimi qeyd olunur.

İsveç, əhalinin yüksək həyat səviyyəsini, praktiki olaraq tam məşğulluğunu təmin edən, sosial təminatlı yüksək inkişaf etmiş sənayeyə malik dövlətdir. Ağacemalı, sellüloz- kağız, metallurgiya, avtomobilqayırma, sənayesi və hidroenergetika, iqtisadiyyatın əsasını təşkil edir. Kənd təsərrüfatı heyvandarlıq istiqamətində inkişaf edir. Əsas əkinçilik məhsulları – dənli bitkilər, şəkər qamışı və kartofdur.

İsveçin əsas turizm bölgələri – Stokholm və ətrafı, Botnik körfəzi və Baltik dənizi sahilləri, Geteborq və ölkənin qərb sahilləri, Qotland adası, həmçinin Dalarna və Laplandiya tarixi-coğrafi vilayətləridir.

**Stokholm turizm bölgəsi.** İsveçin paytaxtı olan Stokholm, Botnik körfəzinin qayalıq sahilində, bir-biri ilə körpülərlə birləşən çoxsaylı adalarda yerləşir. Stokholm, iri beynəlxalq dəniz, dəmir və hava magistralları qovşağıdır. Şəhər, tarixi-memarlıq abidələri, muzeyləri, teatrları, rəsm qalereyaları ilə çoxsaylı turistlərin diqqətini cəlb edir. Üzərində kilsə qüllələri ucalan sərt formalı binalar, Stokholmun özünəməxsus memarlıq simasını müəyyənləşdirir. Stokholmun tarixi özəyi olan Staden adası şəhərin digər rayonları ilə körpülər vasitəsilə birləşir.

Burada yerləşən əzəmətli Kral sarayı turistlərin marağına səbəb olur. Stadenin yaxınlığındakı adada İsveç parlamentinin binası yerləşir. Şəhərin digər görkəmli yerlərindən, tikintisi 1923-cü ildə başa çatmış möhtəşəm Ratuşa binasını, Kral sarayını, XIII əsrə aid Böyük kilsəni, Cəngavər evini, Birja binasını, Milli muzeyi, Opera teatrının binasını, Kral stadionunu, Konsert evini qeyd etmək olar. Stokholmda İsveç Elmlər Akademiyası, Mühəndis Elmləri Akademiyası, Universitet, Nobel İnstitutu, digər elm və tədris müəssisələri yerləşir. Kral kitabxanasında 1 mln.-dan artıq kitab nüsxəsi vardır.

Stokholmun muzeyləri arasında Dövlət, Dəniz tarixi, Milli, Şimal, Tarix-etnoqrafiya muzeyləri daha diqqətəlayiqdir. Açıq səma al-

tında yerləşən və müxtəlif dövrlərə aid İsveç yaşayış tikililəri toplanmış Sansen muzeyi və Millesin heykəlləri toplusundan ibarət olan Millesqorden muzeyini xüsusilə qeyd etmək lazımdır. Kral opera və dram teatrları Stokholmun məşhur teatrlarıdır.

Stokholmun yaxınlığında yerləşən yüzlərlə kiçik adalar tozağacı meşələri ilə örtülmüşdür. Yusteryö və Urnyö adaları turistlər arasında daha məşhurdur. Stokholmun sakinlərinin əksəriyyəti öz istirahət günlərini və məzuniyyətlərini burada keçirirlər. Bu adalarda çoxlu miqdarda yay tipli evlər və komalar tikilmişdir. Yay aylarında ətraf çəmənliklərdə əlavə olaraq çoxlu turist çadırları da qurulur.

Stokholmdan 70 km şimalda, ölkənin qədim mədəniyyət mərkəzi – Upsala şəhəri yerləşir. Şəhərin tarixi-mədəniyyət abidələri arasında XIII-XV əsrlərdə tikilmiş, İsveç qotikasının görkəmli nümunələrindən olan kilsə xüsusilə seçilir. Şəhərdə, əsası 1477-ci ildə qoyulmuş universitet və XVIII əsrin görkəmli təbiətşünası Karl Linneyin muzeyi fəaliyyət göstərir.

**Botnik körfəzi və Baltik dənizi sahilləri turizm bölgəsi.** Bu bölgə İsveçin daxili turizm zonasıdır. Stokholmdan şimala bütöv zolaq şəklində (100 km) qumlu çimərliklər uzanır; bu istirahət zonası ən müasir yerləşdirmə vasitələri, yeyinti müəssisələri, əyləncə mərkəzləri və idman tikililəri ilə təchiz olunmuşdur. Daha şimalda, Botnik körfəzi sahillərində isə çoxsaylı kurortlar yerləşir. Bu kurortlar arasında Evle, Ala, Hudiksvall, Sundsvall, Kernosand xüsusi ilə fərqlənir. Ölkə paytaxtından cənubda, Baltik dənizi sahillərində Okselosund, Qamlebü, Karlskruna kimi məşhur kurortlar vardır.

**Geteborq və ölkənin qərb sahilləri turizm bölgəsi.** Geteborq, İsveçin iri şəhərlərindən biri və İsveçə gələn xarici turistlərin toplaşdığı ikinci böyük mərkəzdir. Şəhər, çoxsaylı muzey, teatr, konsert zalları ilə turistləri cəlb edir. Geteborqun küçələri demək olar ki, başdan-başa yaşıllaşdırılmış, meydanlarda çoxlu parklar salınmış və fəvvarəli hovuzlar tikilmişdir. Ölkənin qərb sahillərindəki çoxsaylı dənizkənarı kurortlar əsasən daxili turistlərə xidmət göstərir. Geteborqdan cənuba doğru, Malme şəhərinədək olan ərazidə Varberq, Falkenberq, Holmstad, Bostad, Engelholm, Helsinkborq, cənubda isə Skanor, Falsterbu, Trelleborq, İstad kurortları yerləşir.

Geteborqdan şimala doğru, Stromstada qədər, təxminən 150 km ərazidə, Geteborq – Bohus ümumi adı altında tanınmış sahil kurortları və kurort-adalar yerləşir.

**Qotland adası turizm bölgəsi.** Ada İsveç sahillərindən təxminən 100 km aralıda yerləşir. Daxili və xarici turizmin mühüm mər-

kəzlərindən biridir. Qotland, sabit iqlimi, mənzərəli portları və rahat çimərlikləri ilə tanınır. Adanın əsas şəhəri – Visbüddə qorunub saxlanılan orta əsrlərə aid divarlar, çoxlu kilsə qalıqları, şəhərin möhtəşəm keçmişindən xəbər verir. Visbü, XI-XIII əsrlərdə Novqorodla Qərbi Avropa şəhərləri arasında su yolunun üzərində olduğu üçün, Baltik dənizində mühüm dəniz ticarəti mərkəzi kimi inkişaf etmişdi.

**Dalarna turizm bölgəsi.** Dalarna - Stokholmdan şimal-qərbə doğru, ölkənin daha bir daxili turizm bölgəsidir. Bu rayon xizək yürüşləri üçün çox əlverişlidir. Dalarna – özünəməxsus mədəniyyət, qədim sənətkarlıq və əski adət-ənənələr diyarıdır. İstirahət mərkəzləri arasında Serna, Selen, xüsusilə də Silyan gölü ətrafındakı Mura, Retvik, Leksand kurortları seçilir.

**Laplandiya turizm bölgəsi.** Ölkənin şimal hissəsində yerləşən bu turist bölgəsi, gözəl təbiəti və aborigenlərin özünəməxsus mədəniyyəti ilə daxili və əcnəbi turistləri cəlb edir.

* * *

İsveç əhalisi üçün səyahətə meyillik səciyyəvi xüsusiyyətdir. Əhalinin böyük əksəriyyəti hər il (hətta bəzən ildə bir neçə dəfə) ölkə daxilində müxtəlif yerlərə səyahət edir və xarici səfərlərə gedirlər. 1999-cu ildə 11 mln.-dan çox İsveç turisti xarici səfərlərdə iştirak etmişlər. Bu qədər də əcnəbi turist İsveçə gəlmişdir. Dünya üzrə turist qəbulunda İsveçin payı 1,8 faizdir. Turizm fəaliyyətindən əldə olunan gəlir 4 mlrd. ABŞ dollarına yaxındır. 1999-cu ildə turizmə daha çox pul xərcləyən ölkələr reytinqində İsveç 13-cü yer tutmuşdur (7,7 mlrd. ABŞ dolları).

Qeyd edək ki, İsveç müxtəlif zövqə və maddi imkana malik olan turistlərə və iş adamlarına ölkədə gecələmək üçün, hər cür yerləşmə vasitələri (kənd evləri, kempinq, turist bazaları, pansionatlar, adi və lyuks otellər) təklif edə bilər. Bunun üçün ölkədə 185 min (2000-ci il) gecələmə yeri var. İsveçin ən bahalı oteli Stokholmdakı Qrand Oteldir. Xatırladaq ki, Nobel mükafatı laureatları adına layiq görülən görkəmli şəxsiyyətlər burada yaşayırlar.

## 10.2. NORVEÇ

**Ərazisi: 324,2 min kv km. Dünyada 66-cı yer.**
**Əhalisi: 4,5 mln. nəfər (2000). Dünyada 114-cü yer.**
**Paytaxtı: Oslo (500 min nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Norveç dili.**
**Din: Xristianlığın təriqətlərindən olan lüteranlıq.**
**Milli pul vahidi: Norveç kronu.**

Şimali Avropada yerləşmiş Norveç Skandinaviya yarımadasının şimal və qərb hissəsini tutur. Şpitsbergen arxipelaqı*, Yan-Meyen və ölkəyə yaxın yerləşmiş digər adalar da Norveçə məxsusdur. Şərqdə, İsveç (sərhəddin uzunluğu 1619 km), şimal-şərqdə Finlandiya (729 km) və Rusiya (167 km) ilə həmsərhəddir. Qərbdə Atlantik okeanına, şimalda Barens, cənubda isə Şimal dənizlərinə çıxışı var.

Norveç, sahilləri çox girintili-çıxıntılı olan ölkələrdən biridir. Bir çox bölgələrdə əzəmətli sıldırım qayalar sahil boyu şaquli divarlar kimi uzanır və ya dərin oyuqlar yaradaraq, sanki dəniz üzərində asılı vəziyyətdə qalırlar. Bu oyuqlar sahil dalğalarının qayalara çırpılması nəticəsində yaranır. Bu cür qayalıq sahillərin önündən yalnız kiçik gəmilər və qayıqlar keçə bilir.

Dəniz sahilinə yaxın ərazilərdə çoxsaylı sahil adaları, sualtı qayalar və adsız kiçik adalar səthə çıxır. Ölkənin qərb sahilləri uzun və dərin fyordlarla** parçalanmışdır. Norveçin ən böyük fyordu, uzunluğu 200 km.-dən çox olan Soqnefyorddur. Hardangerfyord, Tronheymsfyord, Oslofyordu böyük fyordlara aid etmək olar. Gəmiçilik üçün yararsız olan Norveç çaylarından fərqli olaraq, fyordlar ölkənin əlverişli su yolları sayılır. Norveç dənizinin fyordları, dəniz tərəfdən çoxsaylı adalarla əhatə olunduğudan, fırtına, külək və dəniz cərəyanları dalğalarından yaxşı qorunur. Fırtına zamanı fyordlar, həmçinin gəmilər üçün yaxşı daldanacaq rolu oynayır.

Norveç ərazisinin 70 faizini təşkil edən orta yüksəklikli Skandinaviya dağları cənub-qərbdən – şimal-şərqə doğru butün ölkə boyu uzanır. Ölkənin ən yüksək zirvəsi Qalhöpiggen dağıdır (2469 m). Norveçdə çoxlu göllər və iti axan astanalı və şəlaləli dağ çayları var-

---

* ***Arxipelaq*** (yunan mənşəli sözdür) - bir-birindən az aralı olub, vəhdət təşkil edən adalar qrupu. Onlar materik, mərcan və vulkan mənşəli olur.

** ***Fyord*** (norveç mənşəli sözdür) - dağlıq sahildə dar girintili-çıxıntılı və dərin körfəzlər.

dır. Şəlalələr Norveç çaylarına qeyri-adi gözəllik verir. Əsas çaylar – Logen, Beqna və Qlommadır.

Sahilə doğru gələn mülayim dəniz cərəyanı və daim əsən mülayim qərb və cənub dəniz küləkləri, Norveç iqliminə böyük təsir göstərir. Norveç sahillərində dəniz donmur, fyordlar isə ilboyu naviqasiya* üçün açıqdır. Şimal en dairəsi istiqamətində uzanmasına baxmayaraq Norveç, Şimali Avropanın ən isti ölkəsidir. Osloda və şimal sahillərdə, yanvarın orta temperaturu mənfi 2-dən mənfi 4 dərəcəyədək olur. Yay fəsli isti keçmir. Ölkənin ancaq cənub-qərbində iyulun orta temperaturu müsbət 12, Oslo ətrafında 17, bəzən 25, hətta 30 dərəcəyə çatır.

Stavangerdən Namsusa qədər olan sahil ərazidə isə ümumiyyətlə orta aylıq temperatur il boyu mənfi olmur. Amma ölkənin bir sıra daxili rayonlarında iqlim olduqca sərtdir. Elə rayonlar var ki, qış yeddi ay davam edir, bəzi günlərdə temperatur mənfi 50 dərəcəyə enir.

Bergen (220 min), Tronheym (150 min), Stavanger (105 min) Norveçin iri şəhərləri, Kristiansann, Berken, Oslo, Tronheym isə əsas portlarıdır. Əhalinin böyük əksəriyyəti – norveçlilərdir. Ölkədə digər etnik qruplardan – saamilar danimarkalılar, isveçlilər, finlər yaşayır. Orta ömür müddəti: kişilər üçün 74, qadınlar üçün 81 ildir.

Ölkənin rəsmi adı – Norveç Krallığıdır. Dövlət quruluşuna görə konstitusiyalı monarxiyadır. İcraedici hakimiyyət, Dövlət Şurasına rəhbərlik edən Baş nazirin əlindədir, qanunverici hakimiyyət – ikipalatalı parlamentə (yerli dildə Stortinq) məxsusdur. İnzibati cəhətcə Norveçə aid edilən 19 fülkedən (əyalət) əlavə, Buve, Yan-Mayen, Şpitsbergen kimi adalar onun tərkibindədir Norveç 26 oktyabr 1905-ci ildə İsveçdən ayrılaraq, müstəqillik qazanmışdır. 17 may – Konstitusiya günü kimi (1814) Milli bayram şəklində qeyd olunur.

Zəngin təbii ehtiyatlara malik olan Norveç iqtisadi cəhətdən yüksək səviyyədə ingişaf etmiş sənaye ölkəsidir. Sənayenin mühüm sahələri: neft və təbii qaz çıxarılması, yeyinti, sellüloz-kağız, metallurgiya, kimya, ağacemalı və gəmiqayırmadır. Norveç dünya bazarına böyük həcmdə balıq və balıq məhsulları çıxaran dövlətlər sırasındadır. Kənd təsərrüfatında əsas bölmə – heyvandarlıqdır. Ölkəyə lazım olan ərzaq məhsullarının yarıdan çoxu idxal edilir.

Norveçin qayalı sahilləri, mənzərəli fyordları, Şimalın toxunulmamış təbiəti, tarixi-memarlıq abidələri əcnəbi turistləri cəlb edir.

---

* ***Naviqasiya*** (latın mənşəli sözdür, gəmi ilə üzürəm mənasını bildirir) - gəmi hərəkəti üçün təhlükəsiz və əlverişli yol seçmələr kimi başa düşülür. Hər hansı bir iqlim şəraitində gəminin üzməsi üçün yaradılmış imkan müddəti.

Norveçdə turistlərin toplaşdıqları əsas mərkəzlər – Oslo və ətrafı, Myosa göllər zonası və Qudbransdal, Bergen və ölkənin cənub-qərb sahilləri, Tronheym və Norveç dənizi sahilləri, fyordlar və ölkənin şimal bölgələridir.

**Oslo turizm mərkəzi.** Oslo (Norveç dilində Uşlu kimi səslənir) ölkənin paytaxtı və əcnəbi turistlərin toplaşdığı əsas mərkəzlərdən biridir. Onun memarlıq abidələri arasında Ratuşa, XIV əsrdə salınmış Kral qəsri, XVII əsrdə inşası başa çatmış Kafedral kilsə xüsusilə seçilir. Şəhər muzeylərlə zəngindir. Onların arasında Taxta tikililər muzeyi, Milli bədii qalereya, Vikinq gəmiləri muzeyi, Kon-Tiki muzeyi, Norveç Texnika muzeyi, Norveç Dəniz muzeyi diqqəti cəlb edir.

Şəhərdə Norveç Elmlər Akademiyası, 1,5 mln. cildli kitabxanası olan Universitet fəaliyyət göstərir. Osloda yerləşən Milli teatrın qarşısında məşhur Norveç dramaturqları İbsen və Börnsondun heykəlləri ucalır. Skandinaviya ölkələrində məşhur olan Oslo universitetində tanınmış alim, Arktika tədqiqatçısı Frityov Nansen təhsil almışdır.

Yay mövsümündə Oslo sakinlərinin əksəriyyəti mənzərəli Oslofyord sahillərinə, qışda isə Oslo ətrafındakı Sunvollen və Holmenkollen rayonlarına xizək gəzintisinə çıxırlar. İsti yay günlərində Oslonun minlərlə sakini Oslofyordun qurtaracağında Skagerrak boğazı yaxınlığında yerləşən sahil kurortlarına, əsasən məşhur Lavrik kurortuna gəlirlər. Oslodan Lavrikə gedən yolun üzərində Norveçin ən qədim şəhəri olan (əsası 871-ci ildə qoyulub) Tönsberq yerləşir. Şəhərin görməli yerlərindən – şəhər qala divarlarının qalıqlarını, bir neçə muzeyi göstərmək olar.

**Myosa gölü və Qudbransdal turizm bölgəsi.** Oslodan şimalda yerləşən Myosa, ölkənin ən böyük gölüdür. Onun mənzərəli sahilləri, məşhur çimərlikləri, dağlardan gölə enən yamacların dağ xizək idmanı üçün əlverişli olması, bu bölgənin daxili turizmin tanınmış mərkəzlərindən birinə çevrilməsinə səbəb olmuşdur. Lillehammer, Hamar, Yevin və digər kurort mərkəzlərində rahat mehmanxanaların, müxtəlif idman avadanlıqlarının olması, turizmin qış və yay növləri üçün əlverişli şəraiti təmin edir.

Bol sulu dağ çayı olan Logenin Myosa gölünə töküldüyü ərazi – Qudbrandal adı ilə tanınmış turizm zonası, qeyri-adi gözəlliyi ilə seçilir. Burada yaxşı təchiz olunmuş Tretten, Vinsstra, Dombos və digər qış və yay kurortları fəaliyyət göstərir.

**Bergen və ölkənin cənub-qərb sahilləri turizm bölgəsi.** Bergen əhalisinin sayına görə ölkənin ikinci şəhəridir. 1070-ci ildə əsası qoyulmuş şəhər, materikdən dağlar vasitəsilə ayrılan yarımadada am-

fiteatr şəklində yerləşir. Bergen öz tarixi – memarlıq abidələri və muzeyləri ilə əcnəbi turistlərin diqqətini cəlb edir. Orta əsr memarlıq abidələri arasında Qala (XIII əsr), Müqəddəs Məryəm kilsəsi (XII əsr) seçilir.

Dəniz portu, Balıq bazarı, Balıqçılıq muzeyi, Teatr muzeyi turistlərin diqqətini cəlb edir. Norveçin məşhur bəstəkarı Edvard Qriq, Bergen yaxınlığındakı Troldhaugen villasında yaşayıb yaratmışdır. Ölkənin cənub-qərb sahillərində əcnəbi turistlərin qəbulu üzrə əsas mərkəz Stavenger şəhəridir. Bu şəhər orta əsr memarlıq abidələri, o cümlədən XII əsrdə tikilmiş kilsə, XIII əsr abbatlığı, muzey və rəsm qalereyaları ilə tanınır.

**Tronheym və Norveç dənizi sahilləri turizm bölgəsi.** Tronheym, əhalisinin sayına görə Norveçin üçüncü böyük şəhəridir. Şəhərin müasir binaları, geniş küçələri, orta əsr memarlıq abidələri ilə vəhdət təşkil edir. Orta əsr abidələrindən XI əsr kilsəsini, XII əsr arxiyepiskop sarayını, XVII əsr şəhər qalasını göstərmək olar.

Norveç dənizi sahillərində əcnəbi turistlərin toplaşdığı əsas mərkəzlər Kristiansunn və Malme şəhərləridir. Kristiansunn geniş küçələri və müxtəlif boyalarla rənglənmiş evləri ilə seçilir. Bu mənzərəli şəhər üç adada yerləşir və körpülər vasitəsilə birləşir. Malmeni – “qızıl güllər şəhəri" adlandırırlar. Şəhərdə görməli yerlərdən ən maraqlısı, açıq səma altında Qədim evlər muzeyidir.

**Fyordlar turizm bölgəsi.** Bu bölgə əcnəbi və daxili turistlərin ən çox toplaşdığı mərkəzlərdəndir. Norveç dənizi sahilləri fyordlarla zəngindir. Lakin, daha mənzərəli və asan keçilə bilənləri Stavangerdən Kristiansunna qədər olan ərazidədir. Norveç fyordlarını görənlərinin böyük əksəriyyətinin fikrincə ölkənin ən mənzərəli fyordu, sahilləri alma bağları ilə örtülü olan Hardangerdir. Hardangerdin mənzərəli sahillərində və ona bitişik dağlıq ərazidə Voss, Ulvik, Hinsarvik, Olvik kimi müasir tələbatlara cavab verən dağ-idman kurortları yerləşir.

Qeyd etdiyimiz kimi, ölkənin ən uzun fyordu olan Soqnefyordun dərinliyi 1245 metrə, eni 1,5-6 km-ə sıldırım qayalı sahillərin hündürlüyü isə 1500 m-ə çatır. Bu nəhəng, olduqca mənzərəli fyordun sahillərində və ona bitişik ərazidə dünya üzrə tanınmış Balestrann və Leykanger kurortları yerləşir.

**Ölkənin şimal bölgələri turizm bölgəsi.** Sərt təbiəti ilə cəlbedici olmaqla yanaşı dağ-xizək idmanı və balıq ovu üçün əlverişli bölgədir. Ölkənin şimalında əcnəbi və daxili turistlərin toplaşdıqları əsas mərkəzlər – Budö, Narvik, Hammerfest, Kirkenes kimi port şəhərləridir.

**Şərqi Vadi meşə turizm bölgəsi.** Ölkənin iri turist regionlarından biridir. Norveçin mehmanxana biznesinin yaşayış fondunun 30 faizə qədəri burada cəmləşmişdir. Yaşayış fondunun 10 faizi isə digər məşhur turist regionunda – Bergen şəhəri ətrafındadır. Tronheym şəhərində isə ölkənin yaşayış fondunun 7,4 faizi yerləşir.

* * *

İl ərzində Norveç əhalisinin təxminən yarısı səyahətdə olur. Norveçin beynəlxalq turizm əlaqələri fəal inkişaf edir. 1999-cu ildə 1 mln.-dan artıq Norveç vətəndaşı xarici səfərlərdə iştirak etmişdir. Onlar səfər etdikləri ölkələrdə 4,7 mlrd. ABŞ dolları həcmində pul xərcləmişlər. Həmin ildə Norveçə 4,5 mln.-a yaxın əcnəbi turist gəlmişdir. Norveçdə xarici turizmin mövsümiliyi özünü açıq şəkildə biruzə verir. Turistlərin yarıdan çoxu ölkəyə iyun, iyul və avqust aylarında gəlirlər. 1999-cu ildə ölkə turizm fəaliyyətindən təqribən 2,3 mlrd. ABŞ dolları həcmində gəlir əldə etmişdir. Baxmayaraq ki, Norveçdə turistlərin gecələməsi üçün 190 min yer mövcuddur.

## 10.3. FİNLANDİYA

| |
|---|
| **Әразиси: 338 мин кв.км. Дүнјада 63-чү јер.**<br>**Әһалиси: 5,1 млн. нәфәр (2000). Дүнјада 103-чү јер.**<br>**Пајтахты: Һелсинки (500 мин нәфәр - 2000).**<br>**Дөвләт (рәсми) дили: Рәсми дил - Фин вә исвеч дилләри.**<br>**Дин: Христианлығын тәригәтләриндән олан лүтеранлыг.**<br>**Милли пул ваһиди: Фин маркасы.** |

Şimali Avropada yerləşmiş Finlandiya cənubda və şərqdə Rusiya (sərhəddin uzunluğu 1313 km), şimalda Norveç (729 km), qərbdə İsveçlə (586 km) həmsərhəddir. Qərbdə Fin görfəzinə çıxışı var. Ölkə ərazisinin üçdə biri Qütb dairəsi* hüdudlarındadır. Əhalinin böyük əksəriyyəti cənub-qərb bölgəsində məskunlaşmışdır. Ölkənin relyefində təpəlik ərazilər üstünlük təşkil edir. Ucqar şimalda əraziyə Skandinaviya dağları daxil olur.

Finlandiyanı meşə, göl və bataqlıqlar ölkəsi adlandırırlar. Ərazinin təxminən 70 faizi meşə ilə örtülüdür. 60 mindən artıq olan göllər isə ölkə ərazisinin təxminən onda birini tutur. Pyaynne, Sayma, İnari, Pielenen ən iri göllərdir. Göllər suyunun şəffaflığı və bol balıq ehtiyatı ilə seçilirlər. Torno, Kemi və Oulu ölkənin əsas çaylarıdır.

Atlantik okeanın Holfstrim mülayim cərəyanı ölkənin kontinental iqlimini bir qədər yumşaldır. Skandinaviya dağları isə onu Arktikanın soyuq küləklərindən qoruyur. Tampere (173 min), Espoo (Helsinkinin peyk şəhəri, 170 min), Turku (160 min), Vantaa (Helsinkinin peyk şəhəri, 155 min) ölkənin iri şəhərləri, Kotka, Helsinki, Turku isə əsas dəniz portlarıdır.

İnzibati-ərazi cəhətdən Finlandiya 12 lyaniyə (quberniya) bölünür. Finlandiyanın tərkibinə daxil olan Aland adaları xüsusi siyasi – inzibati vahid statusuna malikdir.

Milli tərkibinə görə əhalinin 93 faizi finlərdən, 6 faizi isveçlilər və şimalda yaşayan az saylı saamilərdan ibarətdir. Orta ömür müddəti: kişilər üçün 72, qadınlar üçün 80 ildir.

Finlandiya, parlament respublikasıdır. Ali icra hakimiyyəti prezidentə və Baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Ali qanunverici orqan – bir palatalı parlamentdir. 6 Oktyabr Milli bayram – Müstəqillik günüdür. Rusiyanın tərkibində Finlandiya Böyük Knyazlığı kimi qalan bu ölkəyə 6 oktyabr 1917-ci ildə müstəqillik verilmiş-

* ***Qütb dairəsi*** - Ekvatordan 66 dərəcə 33 dəqiqə şimal və cənubdakı Yer paralelləri. Qütb dairəsi ilə qütblər arasındakı sahə Yerin qütb qurşaqları adlanır.

dir. Finlandiyanın qanunvericiliyi, İsveç hüquqları əsasında tərtib edilmişdir.

Finlandiya inkişaf etmiş bazar iqtisadiyyatına malik sənaye ölkəsidir. İqtisadiyyatın əsasını emaledici sahələr (ən mühümlərdən biri - ağacemalıdır) təşkil edir. Bundan əlavə, maşınqayırma, gəmiqayırma, kimya, yeyinti, toxuculuq sənayesi yaxşı inkişaf etmişdir. İqlim şəraitindən asılı olaraq, kənd təsərrüfatı məhdud (əsasən heyvandarlıq və taxıl əkininləri) şəkildə inkişaf etmişdir.

Finlandiya əsas turizm yollarından kənarda qalan ölkələrdəndir. Ona görə də 20-25 il öncə bu ölkənin turizm ehtiyatları, təbiətinin gözəlliyi və özünəməxsus xüsusiyyətləri haqqında informasiya çox bəsit idi. Finlandiyanın turizm mərkəzləri: Helsinki, Turku, Tampere, Lahti və Hyamenminnadır. Turistlərin əsas toplanış bölgələri – Sayma gölü və Laplandiya tarixi - coğrafi əyalətidir.

**Helsinki turizm mərkəzi**. Helsinki Fin körfəzinin qayalıq sahilində yerləşmiş mənzərəli, müasir və nisbətən cavan şəhərdir. Helsinki memarlıq abidələri, muzeyləri və digər görkəmli yerləri ilə turistləri cəlb edir. Mərmər sütunlu Parlament binası, Prezident sarayı, Müqəddəs Nikolay kilsəsi, Olimpia stadionu və s. belə görkəmli yerlərdən hesab olunur. Muzeylərdən, fin, rus və Qərbi Avropa incəsənətinin misilsiz nümunələrinin toplandığı Atensum Bədii muzeyi, Seurasari adasında açıq səma altında yerləşən Tarix – etnoqrafiya və memarlıq – məişət muzeyi, Suomenlinin Qala – muzeyini qeyd etmək olar. Helsinkidə bir neçə teatr, o cümlədən Fin opera teatrı, Fin milli və fəhlə teatrları, dahi fin bəstəkarı Yan Sibeliusun adını daşıyan konservatoriya fəaliyyət göstərir. Hər il yayda burada "Sibelius həftəsi" beynəlxalq musiqi festivalı keçirilir.

**Tampere** (Tammerfors) **turizm mərkəzi.** Əhalinin sayına görə ölkənin ikinci böyük şəhəridir. Şəhər, memarlıq abidələri və muzeyləri ilə turistlərin diqqətini cəlb edir.

**Lahti turizm mərkəzi.** Ölkənin yeni və sürətlə inkişaf edən şəhərlərindən biridir. Şəhər müasir tikililəri, muzey və rəsm qalereyalarının zəngin ekspozisiyası* ilə turistləri cəlb edir.

**Turku turizm mərkəzi.** Turku ölkənin qədim şəhərlərindən biridir. Şəhərin muzeyləri, geniş meydanları, parkları, həmçinin tarixi – memarlıq abidələri turistlərin marağına səbəb olur. Ən maraqlı memarlıq abidəsi XIII əsrdə tikilən kilsədir.

---

* ***Ekspozisiya*** (latın mənşəli sözdür, şərhetmə, göstərmə mənalarını bildirir) - bədii əsərləri nümayiş etdirmək üçün onların müəyyən prinsip əsasında xüsusi sistem və qayda ilə muzey və sərgilərdə yerləşdirilməsi.

**Hyamenlinna turizm mərkəzi.** Şəhər dahi fin bəstəkarı Sibeliusun vətənidir. Şəhərə gələn turistlərə Sibeliusun ev muzeyi, XIII əsr qəsri, Ratuşa binası nümayiş etdirilir. Şəhər kənarında Avropanın ən gözəl parklarından biri olan Aulanko milli parkı yerləşir.

**Sayma gölü turizm bölgəsi.** Sayma ölkənin ən böyük və gözəl gölüdür. Hər il bu gölün sahillərinə Finlandiyanın özündən minlərlə turist istirahətə gəlir. Sayma gölünün və onun yaxınlığındakı göllərin sahillərində Lappenranta, Lauritsala, İmatra kimi tanınmış kurortlar yerləşir.

**Laplandiya turizm bölgəsi**. Laplandiya ildən – ilə Finlandiyanın daha tanınmış turizm mərkəzlərindən birinə çevrilir. Qış mövsümündə turistlər bu əraziyə xizək yürüşlərində iştirak etmək üçün gəlirlər. Yay mövsümündə isə Laplandiya şimal təbiətini və balıq ovunu sevənləri cəlb edir.

* * *

Finlandiyanın daxili və xarici turizmində, İsveçdəki analoji vəziyyət müşahidə edilir. Yəni ölkəyə gələn əcnəbi turistlər əsasən paytaxta – Helsinkiyə üstünlük verirlər. 1999-cu ildə əcnəbi turistlərin qəbulu üzrə tur-günlərin 38 faizi ölkə paytaxtının payına düşmüşdür. Lakin həmin dövrdə ölkənin daxili turistlərinin yalnız 9,8 faizi Helsinkiyə gəlmişdir. Daxili turistlərin üçdə-biri fin göllərinin sahillərində istirahətə üstünlük verirlər. Fin turistlərin digər qismi isə şimaldakı ərazilərə, daha dəqiq desək, Laplandiyaya gedirlər.

Fin turistlərinin böyük hissəsi qonşu Skandinaviya ölkələrinə səyahət edir. 1999-cu ildə 5 mln.-dan çox Finlandiya vətəndaşı ölkə hüdudlarından kənara səfər etmişlər. Səfərlərin əksəriyyəti İsveç, Estoniya və Rusiyaya istiqamətlənmişdir. 2 mln.-a yaxın turist isə Aralıq dənizi sahilləri, Kanar adaları, həmçinin Qərbi Avropaya səfər etməyə üstünlük vermişlər 1999-cu ildə Finlandiyaya 3 mln. yaxın əcnəbi turist (o cümlədən, Almaniya, Rusiya, ABŞ və qonşu Skandinaviya ölkələrindən) gəlmişdir.

Gəlmə turizmdən əldə edilən gəlir 1,5 mlrd. ABŞ dolları həcmində olmuşdur. Baxmayaraq ki, ölkədə gecələmək üçün 115 min yer var. Finlandiyada indiyədək turizm haqqında vahid qanun yoxdur. 1995-ci ildə Finlandiya parlamenti turizm məsələlərinə dair iki əsas qanun: “Tur satışı hüququna malik olan subyektlər” və “Turlar haqqında” qanun qəbul etmişdir. Finlandiyanın Avropa Birliyinə (AB) daxil olması və turizm sahəsində fin qanunlarının AB tələblərinə uyğunlaşdırılması məqsədi ilə, 4 may 1995-ci il tarixdə Ticarət və sə-

naye nazirliyinin (turizm sahəsini tənzimləyir), İstehlakçıların hüquqlarının müdifiə bürosu ilə, Finlandiyanın turist Büroları Assosiasiyası arasında Müqavilə bağlandı. Müqavilənin əsasını – müştərinin (turistin) hüquqlarının dəqiq izahı və onun dəyərini ödədiyi bütün marşrut müddətində (mehmanxana, nəqliyyat, ekskursiya və s.) xidmətin keyfiyyətinə görə turfirmanın hüquqi cavabdehliyi göstərilmiş "Turlar haqqında" qanun təşkil edir.

## 10.4. ÇEXİYA

**Ərazisi: 78,9 min kv. km. Dünyada 114-cü yer.**
**Əhalisi: 10,5 mln. nəfər (2000). Dünyada 73-cü yer.**
**Paytaxtı: Praqa (1,2 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Çex dili.**
**Din: Katolisizm.**
**Milli pul vahidi: Çex kronu.**

Çexiya şimalda Polşa (sərhəddin uzunluğu 658 km), şimalda və qərbdə Almaniya (646), cənubda Avstriya (362), şərqdə Slovakiya (214) ilə həmsərhəddir. Ölkə ərazisini şərti olaraq 2 əsas regiona: qərbdə – Bogemiya və şərqdə – Moraviyaya ayırmaq olar. Ərazisinin qərb hissəsi əsasən düzənliklərdən, alçaq dağlarla əhatə olunmuş təpəliklərdən və yaylalardan ibarətdir. Filiz Çex meşəsi və Şumava dağları bu regionda yerləşir. Ölkənin ən yüksək zirvəsi, Sudet silsiləsindəki Snejka dağıdır (1603 m). Ölkənin şərq regionu əsasən təpəlik ərazidir. Əsas çaylar: Vltava, Morava, Laba (Elba), Oder, təbii ehtiyatları: kömür, kaolin, qrafit və polimetal filizlərdir.

Çexiyanın iqlimi mülayim kontinentaldır. Kontinentallıq şərq istiqamətində daha da güclənir. Ayrı-ayrı vilayətlərdə relyefin müxtəlifliyi iqlimə xeyli təsir göstərir. Belə ki, əgər Podunay və Potissa ovalıqlarında, iyulun orta temperaturu müsbət 20 dərəcə olursa, Çex massivinin yaylalarında temperatur müsbət 13-15 dərəcədən yuxarı qalxmır, Karpatın nisbətən yuxarı hissələrində isə daha az, müsbət 8-13 dərəcə olur. Yanvarda orta temperatur, dağlarda mənfi 7-8, ovalıq və yaylalarda isə mənfi 2-4 dərəcə olur.

Brno, Ostrava, Plzen, Qrades ölkənin iri şəhərləridir. Ölkə əhalisinin əksəriyyətini (94 faiz) çexlər təşkil edir. Ölkədə həmçinin slovaklar, polyaklar, almanlar, macarlar, qaraçılar da yaşayır. Əhalinin yarıdan çoxu katolik dininə etiqad edir. Dindarlar arasında yevangel* – pravoslav və yunan-katolik kilsəsinin tərəfdarları da çoxdur. Orta ömür müddəti: kişilər üçün – 70, qadınlar üçün – 77 ildir.

Keçmiş sosialist bloku ölkələri arasında Çexiyanın iqtisadiyyatı başqa ölkələrlə müqayisədə inkişaf etmiş sayılırdı. Sənayenin daha inkişaf etmiş sahələri: yanacaq-energetika, maşınqayırma, kimya, toxuculuq və yeyintidir. Ölkədən maşınqayırma və nəqliyyat avadan-

* ***Yevangel kilsəsi*** (Yevangeliya yunanca xoş xəbər mənasını bildirir) – dedikdə protesantların, əsasən Lüteran etiqadlıların kilsəsi kimi başa düşülür.

lığı, yanacaq, kimyəvi məhsullar, metallar, kənd təsərrüfatı məhsulları və s. ixrac olunur. Kənd təsərrüfatının inkişafı Çexiyaya əhalinin ərzaq məhsullarına tələbatın tam ödənilməsinə imkan verir.

Dövlət quruluşuna görə Çexiya unitar* respublikadır. İnzibati cəhətcə ölkə 8 diyara bölünür. 1993-cü ilin yanvarın birində Çexoslovakiya Sosialist Respublikası ləğv olunmuş, Çexiya və Slovakiya adlanan müstəqil dövlətlər yaranmışdır. 5 iyul-slavyan maarifçiləri Kiril və Mefodi**, 6 iyul – milli qəhrəman Yan Qusun yandırılması günü – Milli bayram kimi qeyd olunur.

Dövlətin başçısı prezidentdir. Ali icra hakimiyyəti Sədr başda olmaqla, hökumətə məxsusdur. Ali qanunverici orqan – ikipalatalı parlamentdir. Parlament Senatdan (Yuxarı palata) və Nümayəndələr palatasından (Aşağı palata) ibarətdir.

Çexiyada çoxsaylı müalicəvi palçıq və mineral su mənbələri vardır. Onların bazası əsasında yaradılmış bir çox kurortlar bütün dünyada məşhurdur. Avropanın mərkəzində yerləşən bu ölkə səyahət sevərlərin diqqətini cəlb edir.

Çexiyanın əsas turist zonaları – respublikanın paytaxtı Praqa, Qərbi Çexiya, Şumava dağları, Filizli dağları və Sudet bölgəsidir.

**Praqa turizm bölgəsi.** Praqa tarixi-memarlıq abidələri, muzeylər, parklar, gözəl körpülər, yaraşıqlı meydanları olan dünyanın ən gözəl şəhərlərindən biridir. Onun qədim və zəngin tarixi, şəhər memarlığında öz əksini tapmışdır: burada qotik*** və barokko**** üslubunda tikilmiş və İntibah dövrünə aid binalar çoxdur. Yeni dövrə aid olan bir sıra məşhur, gözəl memarlıq abidələri və heykəllər, Praqaya xüsusi gözəllik verir.

Vltava çayının sol sahilində, hündür təpənin üzərindö Praqa Kremli ucalır. Şəhərin memarlıq abidələri və bədii sərvətləri, onun çoxəsrlik tarixi boyu yaranmışdır. Praqa Kremlindəki Kral sarayı və Müqəddəs Vita Kafedral kilsəsi turistlərin diqqətini daha çox cəlb

---

* ***Unitar dövlət*** – dövlət idarəçiliyinin bir forması. Bu cür dövlətlərdə, dövlət ərazisi federasiya idarəçiliyindən fərqli olaraq federativ vahidlərə (ştat, respublika, torpaq və b.) deyil, inzibati-ərazi vahidlərinə (vilayət, mahal, rayon və b.) bölünür.

** ***Kiril və Mefodi*** – Slavyan maarifçiləri, Slavyan əlifbası və ədəbiyyatının baniləri. Doğma qardaşlardır. Kiril 863-cü ildə Slavyan əlifbasını yaratmış və qardaşının köməyi ilə bir neçə ilahiyyat kitabını yunan dilindən slavyan dilinə tərcümə etmişdir.

*** ***Qotik üslub*** (italyanca qotsayağı, german tayfası qotların adından meydana gəlmişdir) – orta əsr incəsənətinin inkişafında son mərhələ təşkil edən bədii üslub.

**** ***Barokko üslubu*** – XVI əsrin sonlarından XVIII əsrin ortalarınadək Avropa incəsənətində, əsasən memarlıq, təsviri və dekorativ sənətdə hakim bədii üslub. Barokko İtaliyada yaranmış, sonradan başqa ölkələrə yayılmışdır.

edir. Kral sarayı bir neçə əsr ərzində tikildiyi üçün, onun memarlıq üslubunda müxtəlif dövrlərin izlərinə rast gəlmək olar. Saray tikililəri arasında seçilən Vladislavski zalı (1486-1500) qotik üslubda tikilmişdir. Vladislavski Avropanın ən böyük zallarından biridir. Zalın uzunluğu 62, eni 16, hündürlüyü 13 metrdir. Sarayın bütün üçüncü mərtəbəsini tutan bu zal, təntənəli mərasimlər və cəngavər turnirləri üçün nəzərdə tutulmuşdu. Cəngavərlər zala at üstündə, "atlılar üçün" xüsusi pilləkənlər vasitəsilə qalxırdılar.

İnşası 1344-cü ildə kral IV Karlın dövründə başlanan Müqəddəs Vita məbədi altı əsr ərzində tikilmişdir. Məbəd Çexiya ərazisində yerləşən ən böyük və qiymətli kilsə tikilisidir. Praqada qotik memarlığının zirvəsi sayılan Müqəddəs Vatslav kilsəsi xüsusilə seçilir. Praqa Kremlinin yaxınlığında memarlıq abidələri ilə zəngin olan Mala Strana (Kiçik şəhər və ya Kiçik tərəf kimi başa düşülür) yerləşir. Orta əsrlərin dar küçələri, barokko üslubunda qədim monastırlar*, saraylar, kiçik, sakit parklar və bağları ilə Mala Strana, müasir, böyük şəhərin coşğun həyat burulğanında sakit bir adaya bənzəyir.

Vltava çayının əks sahilində Praqanın tarixi mərkəzi olan Staro Mesto (Qədim Şəhər) yerləşir. Staromest meydanı Praqanın bu bölgəsinin mərkəzi hesab olunur. Meydanda ratuşa**, Qols-Kinskilərin sarayı, Kinski kostyolu*** kimi nadir tarixi-memarlıq abidələri yerləşir. Mala Stranani Staro Mesto ilə birləşdirən Karlovo körpüsü 1357-1380-ci illərdə tikilmişdir.

Hər iki tərəfindəki girişləri heykəllərlə bəzədilmiş bu qülləli körpü, qotik memarlığın nadir nümunələrindəndir. Praqanın digər görməli yerlərindən, əsası 1384-cü ildə qoyulmuş Karl universiteti, Müqəddəs Vaslavın möhtəşəm heykəli olan Vaslav meydanı, Milli Muzey, Milli qalereya, Şvarsenberq, Toksan və Arxiyepiskop saraylarının yerləşdiyi İradçan meydanı diqqəti cəlb edir.

Praqa yaxınlığında Zbraslav şəhərində XIV Karlşteynin möhtəşəm qəsri, barokko üslubunda tikilmiş gözəl kral sarayı, Dobrjiş şəhərində Çexiyanın barokko üslubunda tikilmiş ən gözəl qəsrlərindən biri, Kutna-Qradada isə Müqəddəs Barbara məbədi yerləşir. Çexiya paytaxtının sakinləri yay mövsümündə, həftə sonu istirahətlərini Be-

---

* ***Monastır*** (yunan mənşəli sözdür; zahidin hücrəsi mənasını bildirir) - əsasən xristian dinlərində vahid həyat tərzi (nizamnamə) qəbul etmiş rahib (kişi monastırı) və rahibə (qadın monastırı) icması.

** ***Ratuşa*** (alman mənşəli sözdür) - şəhər bələdiyyə idarələrinin binası, Qərbi Avropanın əksər ratuşalarının qülləsində zəngli saat qurulur.

*** ***Kostyol*** - katolik məbədin polyak dilində adı.

rounki çayının mənzərəli sahillərində, xüsusilə də çayın yuxarı axarında yerləşən Rjevnitsada, Laba və Yizera çaylarının Çelakovitsadan şərqdəki, Sazava çayı hövzəsinin Çerçanadan Ratayeyə qədər olan hissəsində keçirirlər.

**Qərbi Çexiya turizm bölgəsi.** Dünya miqyasında tanınmış balneoloji* kurortlar olan Karlovi Vari, Frantişkovi-Lazne və Marianske-Lazne bu bölgədə yerləşir. Bu məşhur kurortlardan əlavə bölgədə Yaximov, Kinjvart, Konstantinovi-Lazne kimi hələlik az tanınmış balneoloji kurortlar da fəaliyyət göstərir.

Karlovi Vari - Avropanın ən böyük və məşhur balneoloji kurortlarından biridir. Karlovar suyunun müalicəvi əhəmiyyəti qədim zamanlardan məlum olmuş, 1348-ci ildə IV Karlın göstərişi ilə burada kurort yaradılmış o, tezliklə böyümüş və 1370-ci ildə kral tərəfindən şəhər statusu almışdır. Kurortun o qədər də böyük olmayan ərazisində on iki isti bulaq qaynayır, bulaqların suyunun tərkibində olan karbon anhidridi, suyun isti temperaturunda (40-dan - 72 dərəcəyədək) ondan ayrılır. Daha tanınmış və daha güclü Vrjidlo isti bulağı 12 m yüksəkliyə vuran qeyzer** şəklində yerin altından çıxır. Onun suyunun temperaturu 72 dərəcədir. Karlovi-Vari, gözəl mənzərəli təbiəti ilə də diqqəti cəlb edir. XVIII-XIX əsrin görkəmli siyasi və ictimai xadimləri burada müalicə olunmuş və istirahət etmişlər. Karlovi Vari beynəlxalq mədəni tədbirlər, məsələn, kinofestivalları ilə də tanınır.

Frantişkovi-Lazne - balneoloji kurortunun müalicəvi əhəmiyyəti hələ erkən orta əsrlərdə insanlara məlum idi. Amma bu kurorta geniş şöhrət qazandıran, mineral suyundan daha çox, müalicəvi palçığı olmuşdur. Frantişkovi - Laznedəki çoxsaylı sanatoriyalar və mehmanxanalar, yaşıl və mənzərəli parkların içərisində yerləşir, bu parklar isə ətrafda yerləşən sıx meşələrlə birləşir.

Marianske-Lazne, dünya miqyasında tanınmış balneoloji kurortlardan biridir. Kurort, dəniz səviyyəsindən 600 m yüksəklikdə, bağların və parkların əhatəsində yerləşir.

Ölkənin nəzərdən keçirilən bu turizm bölgəsində Xeb, Loket, Domajklitse qoruq şəhərləri yerləşir. Bölgənin baş şəhəri olan Plzen, "Şkoda" avtomobillərinin istehsalı, həmçinin artıq orta əsrlərdən məşhur olan "Prazdroy" pivəsi ilə tanınır.

**Şumava turizm bölgəsi.** Çexiyanın cənub-qərbində Şumava dağ

---

* ***Balneoloji*** (latın mənşəli sözdür) - mineral sular əsasında salınmış sanatoriyalar və digər istirahət müəssisələri.

** ***Qeyzer*** (island mənşəli sözdür, fışqırmaq mənasını bildirir) - fasilə ilə isti su və buxar fəvvarəsi vuran isti bulaqlar.

massivi uzanır. Bu ərazi, yaşıl dağlar, şəffaf və iti axan çaylar və göllər diyarı olduğundan o, təbii qoruq elan olunmuşdur. Avropanın ən qədim meşələrindən biri burada yerləşir. Şumava - ölkənin daha məşhur turist bölgələrindən biridir. Şumavanın yay-iqlim və qış dağ-xizək mərkəzləri arasında Jelezna-Ruda, Staxi, Volari seçilir. Praxatitse və Klatovi kimi qoruq-şəhərlər də turistlərin toplaşdıqları mərkəzlərdir.

**Filizli dağlar turizm bölgəsi.** Çexiyanın şimal-qərbində, Almaniya ilə sərhəddə orta yüksəklikli Filizli dağlar massivi yerləşir. Mənzərəli dağ zirvələri, ovçuluq və balıq ovu üçün əla şəraitin olması, çoxsaylı turistləri Çexiyanın bu bölgəsinə cəlb edir. Balneoloji kurortlar zonası olan Teplitse bütün dünyada tanınır.

**Sudet turizm bölgəsi.** Çexiyanın şimal-şərqində yerləşən Sudetdə ən böyük dağ massivi - Krkonoşedir (Nəhəng dağlar). Krkonoşe silsiləsinin uzunluğu 40, eni 20-25 km-dir. Massivin orta hündürlüyü, dəniz səviyyəsindən 1300 m yüksəklikdədir. Snejka zirvəsinin hündürlüyü 1603 metrdir.

Krkonoşe zonasına qış mövsümündə çoxlu qar yağır, bu qarın zirvələrdə may ayınadək qalmasına baxmayaraq, rəsmi qış mövsümü 20 dekabrdan - 31 martadək olan dövr hesab olunur.

Krkonoşe - Çexiyanın məşhur turizm mərkəzlərindən biridir. Burada turizm üçün bütün lazımi şərait: mənzərəli dağ təbiəti, əlverişli yollar şəbəkəsi, yaxşı xidmət göstərən çoxsaylı mehmanxanalar və restoranlar vardır: Qarraxov, Şpindleruv-Mlin, Pets-pod-Snejkoy, Yanske-Lazne, Krkonoşenin əsas turizm mərkəzləridir.

Qarraxov, dəniz səviyyəsindən 700 m yüksəklikdə, soyuq küləklərdən hündür dağlarla qorunan mənzərəli vadidə yerləşir. Turistlər buradan mənzərəli dağların zirvələrinə, Laba çayının mənbəyinə yürüşlər təşkil edirlər.

Pets-pod-Snejkoy, dəniz səviyyəsindən 750 m yüksəklikdə yerləşən kurortdur. Şpindleruv-Mlin, dəniz səviyyəsindən 780 m yüksəklikdə yerləşir. Bu kurort, Krkonoşenin ən məşhur turizm mərkəzlərindən biridir. Bu bölgənin bütün əsas marşrutları burada kəsişir. Yanske-Lazne, Krkonoşenin dağ-iqlim və dağ-idman mərkəzi olmaqla yanaşı, Çexiyanın tanınmış balneoloji kurortlarından biridir.

Krkonoşenin şərqində yerləşən Orlits dağlarının orta hündürlüyü 800-900 metrdir. Orlits dağları meşələr, əsasən şam meşələri ilə örtülmüşdür. Bu zonada müasir tələbatlara cavab verən mehmanxanalar, istirahət evləri və xizək cığırlarının geniş şəbəkəsi vardır. Orlits dağlarında yerləşən istirahət mərkəzləri arasında Deştna, Zdorbnitse,

Çiqak xüsusilə fərqlənirlər.

**Moraviya turizm bölgəsi.** Moraviya tarixi-coğrafi əyalətinin mərkəzi və keçmiş paytaxtı olan Brno, əhalisinin sayına görə ölkənin ikinci böyük şəhəri, iri iqtisadi və mədəni mərkəzidir. Brnonun tarixi-memarlıq abidələri arasında Şpilberk qəsri, kaputsinlərin* monastır kastyolu, Müqəddəs Yakob məbədi, Müqəddəs Pyotr və Pavel kastyolu turistlərin diqqətini cəlb edir. Şəhərin müasir memarlıq üslubunda tikilmiş hissəsində hər il beynəlxalq yarmarkalar keçirilir. Brnodan 30 km şimalda, mənzərəli bir ərazidə məşhur Punkva mağarası yerləşir. Mağaranın dərinliyi 138 metrdir.

Moraviyanın şimal-qərbində yerləşən Yesenik dağlıq vilayətinin orta yüksəkliyi 1000-1100, ən uca zirvəsinin hündürlüyü isə 1492 metrdir. İynəyarpaqlı meşələrlə örtülü dağ yamacları, qış xizək turizminin inkişafı üçün çox əlverişlidir. Bu bölgədə Yesenik, Dolni, Lipova, Velke-Losini, Karlova-Studanka və digər balneoloji kurortlar fəaliyyət göstərir.

Moraviya ilə Slovakiyanın sərhəddində Beskid dağ silsiləsi uzanır. Dağların orta hündürlüyü 800-900 m yüksəklikdədir. Ən yüksək zirvə Lısaya Qoradır (1324 m). Meşəli dağ ətəkləri və yamaclar, qış və yay mövsümlərində istirahət üçün əlverişlidir.

* * *

Çexiya Şərqi Avropada sabiq sosialist dövlətləri içərisində ən iri turist dövləti olduğundan, ölkədə turizm sənayesi yaxşı təşkil olunmuşdu. 1989-cu ilədək o vaxtadək Çexoslovakiya adlanan ərazidə mövcud olan gəlmə turizmi, Şərqi Avropanın sosializm düşərgəsi ölkələri arasında ən inkişaf etmiş hesab olunurdu. Ölkəyə gələn 24,6 mln. qonağın əksəriyyəti qonşu sosialist ölkələrinin sakinləri idi. Qeyri-sosialist ölkələrindən gələn qonaqların səfər məqsədi, sosialist ölkələrindən gələnlərdən fərqlənirdi. Bunların 18 faizi - ekskursiyaçılar, 17 faizi - işgüzar səfərə gələnlər, böyük əksəriyyəti isə istirahət və zövq almaq məqsədi ilə gələn turistlər idi.

Çexoslovakiyadan xarici səfərlərə getmə, əsasən qonşu sosialist ölkələrinə istiqamətlənir və bir günlük ekskursiyalar səfərlərin üçdə birini təşkil edirdi. Macarıstan, Şərqi Almaniya və Polşa, Çexoslovakiya vətəndaşları üçün daha məşhur turizm mərkəzləri sayılırdı. Qərb ölkələrinə (əsasən Şərqi Almaniya və Avstriyaya) edilən səfərlər az idi və əsasən işgüzar məqsədlər daşıyırdı.

1989-1991-ci illərdə Çexoslovakiyada iqtisadi islahatların başlanması ilə, ölkədə daxili və xarici turizm sürətlə inkişaf etməyə baş-

* ***Kaputsinlər*** (italyan mənşəli sözdür, paltarın yuxarısına tikilmiş başlıq) - katolik rahib ordeninin üzvləri.

ladı. Getmə turizmi 1989-cu ildəki 8,5 mln. nəfərdən, 1990-cı ildə - 20,6 mln. nəfərə, 1991-ci ildə isə - 39,6 mln. nəfərə qədər artdı. 1996-cı ildə 48 mln. nəfərdən artıq Çexiya vətəndaşı xarici səfərlərdə iştirak etmişdir. Onların əksəriyyətini bir günlük səyahətə gedənlər təşkil edirdi.

Çexiya əhalisi tərəfindən edilən səfərlərin üçdə ikisi Qərb ölkələrinin, əsasən də Almaniyanın (15,3 mln. nəfər) və Avstriyanın (14,1 mln. nəfər) payına düşmüşdür. Bu dövrdə qonşu Polşaya gedənlərin də sayı xeyli artmışdı (1990-cı ildə - 1,3 mln., 1996-cı ildə - 5 mln. nəfər). Sonrakı illərdə Çexiyadan xaricə səfər edənlərin sayı xeyli azaldı və 1999-cu ildə 39,9 mln. nəfərə endi.

Gəlmə turizmində də böyük dəyişikliklər oldu. Çexiyaya gələnlərin sayı 2 dəfə artdı. Qonaqların əksəriyyətini Almaniyadan gələnlər (41 faiz) təşkil edirdi. Polşadan gələn turistlərin sayı 11,5 faizədək artmışdı. Eyni zamanda macar turistlərinin sayı kəskin surətdə azalmışdır.

1993-cü ildən başlayaraq Çexiyanın iqtisadi infrastrukturuna xüsusilə turizmə iri kapital qoyuluşu geniş vüsət aldığından bu öz növbəsində əcnəbi turistlərin ölkəyə axınının güclənməsinə səbəb olmuş, nəticədə 1999-cu ildə Çexiyaya 16,5 mln. turist gəlmişdir (dünyanın aparıcı turist ölkələrinin reytinqində 12-ci yer). Həmin dövrdə beynəlxalq turizm fəaliyyətindən əldə olunan gəlir 3,5 mlrd. ABŞ dolları təşkil etmişdir.

Xarici turistlər Çexiyaya müxtəlif məqsədlər: qohumlarla görüşmək, təhsil almaq, işgüzar səfərlər, dərketmə, istirahət, müalicə üçün gəlirlər. Çexiyaya gələn turistlərin məqsədi, çox vaxt turistin gəldiyi ölkədən asılı olur. Məsələn, Avstriyadan gələn turistləri ilk növbədə ovçuluq qoruqları, gözəl təbiət mənzərələri; Almaniyadan gələnləri idmanın qış növləri, ölkənin təbiəti və sakit guşələri; Macarıstandan gələnləri dağ turizmi; Xorvatiya və Bolqarıstan turistlərini isə kurortlarda müalicə daha çox maraqlandırır.

Ölkənin coğrafi mövqeyi, xarici turizmin gələcək inkişafı üçün əlverişlidir. Çexiyanın sərhədləri kifayət qədər uzundur. Bu isə əcnəbi turistlərin ölkəyə daxil olması imkanlarını artırır. Ekspertlərin hesablamalarına görə, təxminən 13 mln. avstriyalı, alman, polyak və macar Çexiyanın diqqətəlayiq turist mərkəzlərindən təxminən iki saatlıq məsafədə yaşayırlar.

Yeri gəlmişkən, qeyd edək ki, xarici turistlərin qəbulu üçün ölkədə 230 minə yaxın mehmanxana yeri mövcuddur.

## 10.5. POLŞA

**Ərazisi: 312, 7 min kv. km. Dünyada 68-ci yer.**
**Əhalisi: 39,0 mln. nəfər (2000). Dünyada 29-cu yer.**
**Paytaxtı: Varşava (1,7 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Polyak dili.**
**Din: Katolisizm.**
**Milli pul vahidi: Zlotı.**

Polşa cənubda Çexiya (sərhəddin uzunluğu 790 km) və Slovakiya (539 km), şərqdə Ukrayna (529 km), Belorus (416 km) və Litva (103 km), qərbdə Almaniya (467 km), şimalda Rusiya (Kaliningrad vilayəti, 210 km) ilə həmsərhəddir.

Polşanın ərazisi əsasən hamardır. Ərazinin üçdə iki hissəsini, xüsusilə şimalda və mərkəzdə Polşa düzənliyi tutur. Şimal hissədə Baltik dənizinə çıxışı vardır. Ölkənin cənub və cənub şərqində Malopolskoye (Kiçik Polşa) və Lyublin yaylaları yerləşir. Cənub sərhəddi boyunca Karpat və Sudet dağları uzanır.

Əsas çaylar - Visla və Odradır. Ölkənin şimalında çoxlu göllər vardır. Polşada kömür, təbii qaz, mis, gümüş, qurğuşun yataqları aşkar edilmişdir.

Polşanın iqlimi, dəniz iqlimindən kontinental iqlimə keçən mülayim iqlimdir. Belə iqlim üçün yayda tutqun və yağmurlu, qışda isə tez-tez istiləşmə və dumanlı havalar xarakterikdir. İyundan avqustadək davam edən yay çox da isti keçmir. Varşavada orta iyul temperaturu müsbət 18 dərəcə olur. Payız (sentyabr və oktyabr) əsasən mülayim, günəşli və yağmursuz keçir. Orta yanvar temperaturu mənfi 2 dərəcədir. Dağlarda qışın qarlı və günəşli keçməsi, turizmin qış növlərinin inkişafı üçün əlverişlidir.

Lodz (830 min), Krakov (750 min), Vrotslav (650 min), Poznan (600 min), Qdansk (480 min), Şetsin (430 min) Polşanın iri şəhərləri, Qdansk, Qdınya və Şetsin isə iri dəniz portlarıdır.

Əhalinin böyük əksəriyyətini polyaklar (96 faiz) təşkil edir. Ölkədə digər etnik qruplardan ukraynalılar, almanlar, beloruslar, çexlər, slovaklar, litvalılar da yaşayır. Orta ömür müddəti: kişilər üçün 67, qadınlar üçün 74 ildir.

Ötən əsrin 90-cı illərində aparılan iqtisadi islahatlar, daxili bazarı sabitləşdirməyə, Polşa valyutasını stabilləşdirməyə, büdcə kəsirini

azaltmağa və xarici borcların artmasının qarşısını almağa imkan yaratdı. Sənayenin nisbətən inkişaf etmiş sahələri maşınqayırma, gəmiqayırma, metallurgiya, kimya, yeyinti və toxuculuqdur. Polşa buğda, kartof, çovdar kimi kənd təsərrüfatı məhsullarının iri istehsalçısıdır.

Dövlət quruluşuna görə Polşa unitar respublikadır. 1998-ci ildə Polşanın inzibati idarəetmə sistemində dəyişikliklər edilmiş, 49 voyevodluğun (rayonlar) əvəzinə 1 yanvar 1999-cu ildə 16 voyevodluq yaranmışdır. 11 noyabr 1918-ci ildə Polşa müstəqil respublika elan olunmuşdur. Milli bayram - 3 may, Konstitusiya günüdür (1791-ci ildən). İcraedici hakimiyyət prezidentə və Nazirlər Sovetinə rəhbərlik edən Baş nazirə məxsusdur. Ali qanunverici orqan - iki palatalı parlamentdən (Milli Məclis), yuxarı (Senat) və aşağı (Seym) palatadan ibarətdir.

Zəngin və rəngarəng təbiəti, şimalda qumlu çimərlikləri, cənubda nadir heyvan növlərinin yaşadığı dağ massivləri və geniş meşələri, mənzərəli yaylalar və meşələr arasında yerləşən çoxsaylı gölləri, minillik tarixi olan abidələri, gözəl kurortları və müasir, abad şəhərləri (müharibə dövründə bir çox qədim Polşa şəhərləri hitlerçilər tərəfindən tamamilə dağıdılmış, müharibədən sonrakı illərdə bərpa olunmuşdur) hər il Polşaya çoxsaylı əcnəbi turistləri cəlb edir. Ölkə, rəngarəng turist səfərlərinin və istirahətinin təşkili üçün bütün lazımi imkanlara malikdir.

Polşa muzeylərində nadir incəsənət əsərləri toplanmışdır. Ölkənin mədəni həyatı da zəngindir və hərtərəfli inkişaf edir. Polşada keçirilən musiqi festivalları, müxtəlif bədii-teatr görüşləri və bir sıra digər mədəni tədbirlər əcnəbi turistlərin diqqətini cəlb edir.

Polşa Respublikasında xarici turizmin əsas mərkəzləri sayılan qədim şəhərlər - Varşava, Krakov, Vrotslav və Poznan ilə yanaşı Baltik dənizi sahilləri, Mazur və Kabuş gölləri ətrafı, Belovej meşəsi, Sudet və Karpat dağları əcnəbi və daxili turistlərin zövqünə oxşayan yerlərdir.

**Varşava turizm mərkəzi.** Varşava Polşa Respublikasının paytaxtı, ölkənin iri sənaye, mədəni və elm mərkəzidir. Heç bir Qərbi Avropa şəhəri Varşava kimi hitlerçilər tərəfindən müharibə dövründə qəsdən və vəhşicəsinə dağıdılmamışdı. Faşistlər geri çəkilərkən Varşavanı yalnız xarabalıqları qalmışdı. Xalq hakimiyyəti illərində polyak xalqı Varşavanı bərpa etmiş və onu Avropanın ən gözəl və abad şəhərlərindən birinə çevirmişdir. Polşa memarlığının qədim abidələri bərpa edilmiş və müasir üslubda tikilmiş binalarla harmonik uyğunluq təşkil edir. Visla çayının sol sahilində yerləşən Varşavanın qədim

mərkəz rayonlarından sayılan Staro Myasto öz əvvəlki simasında bərpa edildi. Bu rayonun orta əsrlərə aid memarlıq ansamblı, şəhərin tarixi abidələridir.

Qədim saraylar, kastyollar, Nikolay Kopernik və Adam Mitskeviçin heykəlləri olan Krakov küçəsi, Varşavanın müharibədən sonra bərpa olunmuş və yenidən qurulmuş iri şəhərətrafı küçələrindən biridir. Müqəddəs Xaç kastyolunda dahi polyak bəstəkarı Şopenin doğulduğu ev qorunub saxlanılmışdır. Hazırda bu evdə dahi bəstəkarın ev muzeyi yerləşir.

**Krakov turizm mərkəzi.** Krakov əfsanələr və əsatirlərlə zəngin qədim Polşa şəhəridir. Mariatsk kostyolunun hündür qülləsindən düşmən qoşunlarının şəhərə yaxınlaşdığını görərək həyəcan şeypuru çalan və beləliklə Krakovu qəfil düşmən basqınından qoruyan keşikçi haqqında əfsanə indi də xalq arasında yaşayır. Keşikçi şeypurunun səsi düşmən oxunun ölümcül yarası ilə yarımçıq kəsilmiş, o qüllədən yerə yıxılaraq həlak olmuşdur. Hər gün saat 12-də bütün ölkə üzrə vaxt radiosiqnalı verilir. Radiosiqnal şeypur çalan keşikçinin melodiyasını ifa edir.

Krakov, 1596-cı ilədək Polşanın paytaxtı olmuşdur. Şəhərin çoxsaylı memarlıq abidələri arasında Polşa krallarının iqamətgahı olan və hündür təpənin üzərində yerləşən Vavel qəsri daha məşhurdur. Vavel Kafedral kilsəsinin zirzəmisində polyak xalqının milli qəhrəmanı Tadeuş Kostyuşko, dahi şair Adam Mitskeviç, Polşanın bir sıra tanınmış şəxsiyyətləri dəfn olunmuşlar. Vavel qəsrində cəngavər turnirlərinin keçirildiyi həyət də qorunub saxlanılmışdır. Təkcə 1999-cu ildə qəsrə 1,5 mln-dan artıq xarici və yerli turist gəlmişdir.

Qədim tikililər arasında polyak memarlığının nadir abidələrindən sayılan "Mahudçular sexi" binası (XV əsr), Mariatski kastyolu (XIII-XV əsrlər), Universitet binası (XV əsr), gözəgəlimli yaşayış binaları (XVI əsr) və s. xüsusilə seçilir. Krakov Polşanın iri sənaye və mədəniyyət mərkəzidir. Şəhərdə bir sıra Ali təhsil müəssisələri, əsası 1364-cü ildə qoyulmuş universitet, çoxlu muzey və teatrlar fəaliyyət göstərir.

Krakovun yaxınlığındakı duz mədənləri (XI əsrdən buradan duz çıxarılır), yeraltı şor göllər, büllur mağaranın yerləşdiyi Veliçka şəhəri və Polşanın gənc şəhərlərindən biri olan Nova-Quta, turistlərin diqqətini cəlb edir.

Oytsovda ecazkar formalı qayalarla əhatə olunmuş dərin dərələr və çoxsaylı mağaraları olan Oytsov milli parkı yerləşir. Osventsim şəhəri yaxınlığında hitlerçilərin 1939-cu ildə yaratdıqları həbs düşərgəsi

bütün dünyada məşhurdur. Bu düşərgənin ərazisində muzey yaradılmışdır.

**Vrotslav turizm mərkəzi.** Vrotslav Odra çayının sahilində yerləşən qədim Polşa şəhəridir. O, həmçinin Polşa Respublikasının cənub qərbində iri sənaye və mədəniyyət mərkəzidir. Uzun müddət Prussiyanın hakimiyyəti altında olan bu şəhər həmişə Polşa torpaqlarının azad edilməsi uğrunda milli-azadlıq mübarizəsinin mərkəzi olmuşdur. 1945-ci ildə Berlin konfransının qərarı ilə Vrotslav, digər Qərbi Polşa torpaqları ilə birgə Polşaya qaytarıldı. Müharibə illərində (1941-1945) böyük dağıntılara məruz qalan şəhər, hazırda sürətlə böyüyür və inkişaf edir. Qədim polyak memarlığına aid olan çoxsaylı abidələr bərpa edilmişdir. Qotik üslubda tikilmiş ratuşa (XIII-XV əsrlər), Kafedral kilsə (XII əsr), kostyollar, barokko üslubunda tikilmiş universitet binası və s. turistlərdə böyük maraq doğurur. Şəhərin Tarix, Sileziya, Etnoqrafiya və digər muzeylərində toplanan qiymətli eksponatlar, Qərbi Polşa torpaqlarında, polyak xalqının şanlı tarixi keçmişini əks etdirir. Şəhərdə 10 ali təhsil müəssisəsi, o cümlədən universitet, çoxlu teatrlar vardır. Vrotslavın pantomima* teatrı daha çox tanınır.

**Poznan turizm bölgəsi.** Poznan Polşanın ən böyük və ən qədim şəhərlərindəndir. Hər il bu şəhərə çoxlu turist gəlir. Poznanın yaranması X əsrə aid edilir. Əsrlər boyu yadelli işğalçılar tərəfindən dəfələrlə dağıdılmasına baxmayaraq, şəhər həmişə mühüm iqtisadi, elm və mədəniyyət mərkəzi olaraq qalmışdır. İkinci Dünya müharibəsindən sonra dağıntılar tezliklə aradan qaldırıldı və şəhərin intensiv inkişaf dövrü başlandı. Sənaye müəssisələri yenidən quruldu və genişləndirildi, yeni, abad yaşayış məhəllələri tikildi. Hazırda şəhər mühüm sənaye, elm və mədəniyyət mərkəzi kimi tikilir və genişlənir.

Poznanda hər il Beynəlxalq yarmarka keçirilir. Bu yarmarkaya müxtəlif ölkələrin işgüzar dairələrinin çoxsaylı nümayəndələri və çoxlu əcnəbi turist gəlir. Bundan əlavə, Poznanda ildə iki dəfə (yaz və payız) Ümumpolşa yarmarkası təşkil olunur. Şəhərdə 40-dan artıq elmi-tədqiqat institutu, 8 Ali təhsil müəssisəsi (o cümlədən 30 min tələbənin təhsil aldığı Adam Mitskeviç adına universitet) fəaliyyət göstərir. Şəhərin mədəni həyatı da zəngin və rəngarəngdir. Monyuşko adına Opera və balet teatrı, oğlanlardan ibarət tanınmış xorun fəaliyyət göstərdiyi Poznan filarmoniyası, Polşada və onun hüdudların-

---

* ***Pantomima*** (yunan mənşəli sözdür, təqlid edən mənasını bildirir) - səhnə sənəti növü. Pantomimada bədii obraz başlıca olaraq mimika, ifadəli hərəkətlər vasitəsilə yaradılır.

dan uzaqlarda da məşhurdur. Bu filarmoniyada skripkaçıların Vinyavski adına beynəlxalq müsabiqəsi keçirilir.

Poznan musiqi alətləri muzeyi bu qəbildən dünyada ən böyük muzeylərdən biridir. Şəhərdə yerləşən Milli muzey, eksponatların dəyərinə və sayına görə yalnız Varşava və Krakov muzeylərindən geri qalır. Poznanın çoxsaylı görməli yerlərindən, renessans* üslubunda tikilmiş ratuşa (XIII-XIV əsrlər), Kafedral kilsə (XIV-XV), saraylar, Müqəddəs Frantişka kostyolu (XVII-XVIII) və b. memarlıq abidələri diqqəti daha çox cəlb edir. Müharibədən sonra bərpa edilən köhnə bazar tikililərinin memarlıq ansamblı, qədim Poznanın gözəl abidələrindən hesab olunur.

Poznana gələn turistlər, şəhər ətrafında yerləşən görməli və abad istirahət yerlərinə təşkil olunan ekskursiyalarda iştirak edirlər. Poznandan 20 km aralıda yerləşən Kurnik şəhərindəki qədim qəsrdə (XVI əsr) cəngavər geyimləri və silahları, qiymətli rəsm və tətbiqi incəsənət əsərləri kolleksiyası olan zəngin muzey yaradılmışdır. Dendrari** parkında, Avropa, Asiya və Amerikada bitən 2 mindən çox ağac və kol növləri vardır.

Şəhərdən 25 km aralıda yerləşən Roqalindəki XVIII əsrə aid olan qəsrdəki yaşayış otaqlarında mebellər, keramika və başqa əşyalar qorunub saxlanılmışdır. Bu qəsrin rəsm qalereyasında məşhur Polşa rəssamları Yan Mateykonun, Yuzef Helmonskinin, Yasek Malçevskinin və b. çoxsaylı rəsm əsərləri toplanmışdır. Roqalin parkında bitən qədim palıd ağaclarının çoxunun yaşı yüz illərlə ölçülür. Gövdəsi 6,7, 7,3 və 9 metr olan, bir-biri ilə yaxınlıqda yerləşən üç iri palıd ağacı əfsanəvi slavyan qardaşları - Çex, Lyax və Rusun adlarını daşıyır.

Poznanın 10 km-liyində yerləşən Velikopolsk qoruğu da görməli yerlərdəndir. Poznanın ətrafında olan böyük gölün sahilindəki Kekş, Stjeşinsk, Stenşev kəndləri əla istirahət yerləridir.

**Baltik dənizi turizm bölgəsi.** Polşanın Baltik dənizi sahillərində, 500 km-dən artıq ərazidə yerləşən iyirmidən artıq iri kurort və qumlu çimərliklər, meşə örtüyü və təpəliklər vasitəsilə soyuq şimal küləklərindən qorunur. Dəniz sahili kurortlar, əsas etibarı ilə Pomorsk rayonunda və Qdansk buxtasında cəmləşmişdir. Svinouysse, Mendzızdros, Kamen-Pomorsk kurortları daha çox tanınır.

---

* ***Renessans*** (fransız mənşəli sözdür, dirçəlmiş, dirçəltmək mənalarını bildirir, türk dilli ölkələrdə intibah kimi başa düşülür) - orta əsrlər mədəniyyətindən yeni dövr mədəniyyətinə keçid dövrü.

** ***Dendrologiya*** (dendrari) - (yunan mənşəli sözdür, dendron yunanca ağac deməkdir) - açıq tarlalarda becərilən ağac və kol kolleksiyası salınmış sahə.

Svinouysse, Şetsin və Pomorsk buxtaları arasındakı Uzedom adasının şərq hissəsində yerləşir. Kurort yumşaq iqlimi, günəşli günlərin bolluğu, şimal küləklərindən yaxşı qorunan geniş çimərlikləri ilə məşhurdur. Artıq iki əsrə yaxındır ki, Svinouysse şəhəri dəniz balneoloji kurortu kimi tanınır. Svinouyssedən İsveçə bərə ilə birbaşa əlaqə vardır.

Mendzızdros - meşələrlə əhatə olunmuş narın qumlu çimərliklərin olduğu Volin adasında yerləşən iri kurortdur. Adada gözəl təbiət mənzərələri, gölləri və meşə örtüyü olan dövlət qoruğunun yerləşməsi, bu kurortun rekreasiya əhəmiyyətini artırır. Kamen-Pomorsk isə mineral mənbələri olan kurortdur.

Baltik dənizinin şimal-qərb sahilində, Polşa Respublikasının mühüm sənaye, elm və mədəniyyət mərkəzi, ölkənin dəniz və çay portu olan Şetsin şəhəri yerləşir. X əsrdən başlayaraq, Şetsin əsrlər boyu Qərbi Polşanın iri mərkəzlərindən biri sayılmışdır. İkinci Dünya müharibəsindən sonra Şetsin də qədim polyak torpaqları ilə birgə Polşaya qaytarılmışdır.

Hazırda bu şəhər Avropanın iri gəmiqayırma mərkəzlərindən biridir. Şəhərdə olan qədim dövrün nadir abidələri, qotik, renessans və barokko dövrünün memarlığı, heykəllər və rəsm əsərləri, bu torpaqda qədim polyak mədəniyyətinin mövcud olduğunu sübut edir.

Polşa sahillərinin mərkəzi hissəsində, hələ XIX əsrin birinci yarısından, balneoloji kurort kimi tanınan Kolobjeq, Skandinaviya ölkələrindən gələn turistlərin sevimli istirahət yeridir. Leba kurortu hündürlüyü 40 metrə çatan "yerini dəyişən" qum təpələri (dyunlar) ilə tanınır. Bu kurortlar arasında Morske, Melna, Darlovo, Ustka kimi nisbətən az tanınmış kurortlar da fəaliyyət göstərir.

Uzunluğu 35 km, eni 300-3000 m-dək olan Xelski burnunun, həmçinin Qdansk buxtası sahillərinin geniş rekreasiya imkanları vardır. Xel, Yastarnya, Yurata, Kuznitsa kurortları Xelski burnunda yerləşir. Xelski burnundan qərbdə, hündür meşəlik sahildə gözəl Yastjembya - Qura kurortu yerləşir.

Polşanın daha məşhur və böyük sahil kurortu olan Sopot, Qdansk və Qdınya şəhərləri arasında yerləşir. Sopotda geniş qumlu çimərlik, Avropada ən uzun gəzinti körpülərindən biri (600 m), gözəl dənizkənarı park, böyük yaşıl teatr vardır. Burada beynəlxalq mahnı və teatr mədəniyyəti festivalları, digər beynəlxalq mədəni tədbirlər keçirilir.

Qdansk və Qdınya şəhərləri də turistlərin diqqətini cəlb edir. Qdınya şəhəri xalq hakimiyyəti illərində ucqar, geridə qalmış bir məntəqədən müasir port şəhərinə çevrildi. Sahilə pərçim olunmuş

"Buja" hərbi gəmisi, Hitler hərbi dəniz donanmasına qarşı döyüşlərdə iştirak etmiş, hazırda muzey kimi fəaliyyət göstərir.

Qdansk - Polşanın qədim şəhərlərindən biridir. Hələ X əsrdən, iri slavyan məskəni kimi mövcud olmuşdur. Şəhərin tarixi-memarlıq abidələri arasında Silah palatası, Şəhər ratuşası, Dluçiy Tarq meydanı və Dluqa küçəsinin memarlıq ansamblları, 25 min adam yerləşən Müqəddəs Məryəm kostyolu (XIV əsr) xüsusilə seçilir. Dəniz, Arxeologiya və digər muzeylərin eksponatları da diqqəti cəlb edir.

Qdansk yaxınlığında (Olivada) yerləşən, XIII əsrə aid kostyolda, polyak və əcnəbi musiqiçilərin iştirakı ilə orqan konsertləri təşkil edilir. Qdanskdan cənubda, Noqat çayı sahilində Malbork şəhərində ucalan qəsr (XI əsr), Avropanın ən nəhəng orta əsr qəsrlərindən biridir.

Polşanın bu turizm bölgəsində yerləşən Frombork şəhərində, dahi polyak astronomu Nikolay Kopernik uzun illər yaşamış, işləmiş və burada vəfat etmişdir. Şəhərdə orta əsr binaları qorunub saxlanılmış, Kopernik muzeyi yaradılmışdır. Mazur və Kaşub gölləri sahillərinə də çoxsaylı turistlər gəlir.

**Mazur gölləri turizm bölgəsi.** Bu bölgə təpəliklərin və meşələrin arasında yerləşən çoxsaylı gölləri olan turizm zonasıdır. Burada quşların və bitkilərin nadir növləri vardır. Olştın, Gijisko, Rusyane, Avqustov şəhərləri, Mazur göllərinə səyahətin çıxış nöqtələri sayılır.

**Mazur və Kabuş gölləri ətrafı turizm bölgəsi.** Qdanskdan 40-60 km məsafədə yerləşən Kabuş gölləri rayonu, təbiətinin gözəlliyi, yaşıl meşələri və çəmənləri ilə tanınır. Bu rayonu çox vaxt "Kabuş İsveçrəsi" adlandırırlar.

Mazur göllər rayonundan cənub-şərqdə, Avropanın ən qədim və geniş meşə massivi, zəngin və rəngarəng faunaya malik Belovej meşəsi yerləşir. Bu meşənin mərkəzində, onun flora və faunasına aid çoxlu eksponatın* toplandığı, maraqlı Təbiət muzeyi vardır. Ümumiyyətlə, Polşanın dağlıq rayonlarında, qış və yay istirahətinin, idmanın və müalicənin təşkili üçün imkanlar böyükdür.

**Sudet turizm bölgəsi.** Sudetlər 100-150 km-lik məsafədə uzanan Yizer, Stolov, Orlits və Krkonoşe dağ silsilələri, istirahət və müalicə üçün əlverişli turizm rayonudur. Burada əla kurortlar, yaxşı təchiz olunmuş mehmanxanalar, pansionantlar və turist bazaları vardır. Yizer dağları və Krkonoşe arasında mənzərəli ərazidə yerləşən Şklyarska-Poremba, həmçinin Snejkanın ətəyində yerləşən Karpat, dağ-xizək

* ***Eksponat*** (latın mənşəli sözdür, şərhetmə, göstərmə mənalarını bildirir) - muzey və sərgilərdə seyr olunmaq üçün, hər hansı bir şəxs və ya təsisçi təşkilat tərəfindən təqdim olunan əşya.

idman mərkəzləri, Sudetin il boyu fəaliyyət göstərən kurortlarıdır.

**Karpat turizm bölgəsi.** Polşa ərazisindən keçən Karpat dağları, turizmin təşkili üçün gözəl təbii bölgədir. Karpatın ən yüksək dağ massivi – Tatradır. Bu ərazi özünün gözəl təbiət mənzərələri, çoxsaylı mavi gölləri, səs-küylü şəlalələri, zəngin flora və faunası ilə turistləri cəlb edir. Polşanın ən yüksək zirvəsi olan Rısı dağı (2499 m) Tatradadır.

Tatra ərazisindəki Zakopane yüksək dağ kurortu dünya şöhrəti qazanmışdır. Bu kurortu adətən Polşanın qış paytaxtı adlandırırlar. Zakopane, hündürlüyü 850-1100 m olan dağ silsilələri ilə əhatə olunan mənzərəli bir yerdədir. Asma kanat yolu və qaldırıcı qurğu, 930 m yüksəkliyə qalxmaq üçün çəkilmiş uzunluğu 4200 m çatan xizək terrasına xidmət göstərir. Qış mövsümündə günəş işığının bolluğu və daimi qar örtüyünün olması, bu kurortda qış idmanı üçün əlverişli şərait yaradır. Burada dəfələrlə xizək idmanı üzrə dünya birincilikləri keçirilmişdir.

Tatradan şərqə Sondets-Beskid bölgəsi yerləşir. Avropanın ən gözəl çay vadiləri sayılan Dunayets və Poprad çaylarının mənzərəli vadiləri bu ərazidədir. Dunayets vadisində Şavnitsa, Poprad vadisində isə Jeqestuv balneoloji kurortları fəaliyyət göstərir. Sondets Beskidin şərqində Polşa kurortlarının incisi hesab edilən Krınitsa yerləşir. Bu ərazi çox əlverişli iqlimə malikdir. Yüzilliklər boyu bu kurort öz mineral mənbələrinin müalicəvi əhəmiyyəti ilə bütün Avropada məşhur olmuşdur. Krınitsa, ölkənin mühüm dağ-iqlim və dağ-idman mərkəzidir.

* * *

Polşa Şərqi-Avropa regionunda ən çox əhalisi olan ölkədir (39 mln. 2000). Sosializm düşərgəsinin süqutuna qədərki dövrdə də Polşa çox turist göndərən ölkələr sırasında olmuşdur. Belə ki, hələ ötən əsrin 70-ci illərində də polyaklar sərbəst səyahət edə bilirdilər. Hər il on milyondan artıq Polşa vətəndaşı, məzuniyyətlərini öz ölkələrində səyahətdə keçirirlər. İstirahət edənlərin əksəriyyəti (təqribən 60 faizi) məzuniyyət dövründə ölkənin cənubundakı dağlara, 25 faizi isə Baltik dənizi sahillərinə yollanırlar. Turistlər dəniz sahillərinə adətən yay mövsümündə, dağ rayonlarına isə, həm qış, həm də yay aylarında getdikləri üçün, ölkənin cənubundakı dağlıq ərazidə gecələmələrin miqdarı daha çox qeydə alınır.

1989-cu ildə Polşada gəlmə və getmə turizmi sürətlə inkişaf etməyə başladı, amma sonrakı iqtisadi problemlər, turizmin tənəzzülünə səbəb oldu (məsələn, 1992-ci ildə həyat səviyyəsi 3 faiz aşağı endi).

Xarici səfərə gedənlərin sayı 1990-cı ildə 22 mln. nəfər olduğu halda, 1991-ci ildə 20,8 mln. nəfərə endi. Sonrakı illərdə yüksəliş nəzərə çarpdı, ötən əsrin axırlarına yaxın xarici səyahətlərdə iştirak edənlərin sayı 45,0 mln. nəfəri ötdü. Ölkədən gedənlərin əksəriyyəti, ticarət və ya iş tapmaq məqsədi ilə səfər edirdilər.

Digər tərəfdən, 1991-ci ildə iqtisadi böhranın yüksək səviyyəsi ölkəni beynəlxalq turizm üçün ucuz və əlverişli etmişdi. Bu səbəbə görə də Polşaya gələn əcnəbi turistlərin sayı ləng də olsa artırdı: 1990-cı ildə - 3,4, 1991-ci ildə - 3,8, 1992-ci ildə 4,0. 1997-ci ildə xaricdən gələn turistlərin sayı 19,5 mln.-a qalxdı. Amma 1998-ci ildə bu rəqəm 18,8, 1999-cu ildə isə 18 mln. enmişdir.

Bu dövr ərzində Polşada getmə və gəlmə turizminin strukturunda əsaslı dəyişikliklər olmuşdur. Son illərdə Almaniya, MDB, Çexiya, Slovakiya və digər Qərbi Avropa ölkələrindən gələn turistlərin sayı artmışdı.

1997-ci ildə, turizm fəaliyyətindən 8,7, 1998-ci ildə - 8,0, 1999-cu ildə isə 6,1 mlrd. ABŞ dolları həcmində gəlir əldə edilmişdir. Polyaklar, əvvəllər olduğu kimi, yenə də əsasən Almaniyaya səyahət edirlər. Qərbi Avropanın digər ölkələrinə səfərlərin sayı da artmışdı. 1997-ci ildə xarici səfərlərdə 48,6, 1998-ci ildə - 49,3, 1999-cu ildə isə 55 mln.-dan artıq polşalı (əsasən şop-turlarda) olmuşdur.

Gedən və gələn turistlərin əksəriyyəti, ticarət, biznes və qohumlarla görüşmək məqsədi ilə, əsasən şəhərlərə səyahət edirlər. Bununla yanaşı, təbii və mədəni turizm ehtiyatları ilə zəngin olan Polşa bu ehtiyatlardan gələcəkdə istirahət turizminin inkişafı üçün istifadə edilə bilər. Qeyd edək ki, 2000-ci ilə olan məlumata əsasən, Polşada turistlərin qəbulu üçün 120 mindən artıq yer mövcuddur.

## 10.6. MACARISTAN

**Ərazisi: 93 min kv.km. Dünyada 109-cu yer.**
**Əhalisi: 10,6 mln. nəfər (2000). Dünyada 72-ci yer.**
**Paytaxtı: Budapeşt (2,0 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Macar dili.**
**Din: Katolisizm.**
**Milli pul vahidi: Forint.**

Mərkəzi Avropanın cənub-şərqində yerləşmiş Macarıstan şimalda Slovakiya (sərhəddin uzunluğu 515 km), şərqdə Rumıniya (443 km), şimal-şərqdə Ukrayna (103 km), cənubda Serbiya (151 km), Xorvatiya (329 km) və Sloveniya (82 km), qərbdə Avstriya (366 km) ilə həmsərhəddir.

Ölkə ərazisinin böyük hissəsi Orta Dunay ovalığında yerləşir. Qərb hissədə Alp dağlarının qolları, şimalda Bakon və cənubda Meşek adlanan hündür olmayan dağlar yerləşir. Mərkəzi Avropanın ən böyük gölü olan Balaton, bu dağların arasındadır. Şərqi Avropanın ən böyük çayları sayılan Dunay və Tissa ölkə ərazisində birləşir. Şimal hissədə Karpat dağlarının qolları uzanır. Ölkənin ən yüksək zirvəsi olan Kekeş dağı (1015 m) bu ərazidədir. Faydalı qazıntılarla zəngin ölkə sayılmır. Əsas faydalı qazıntıları boksit, kömür və təbii qazdır.

Ölkənin iqlimi yumşaq kontinentaldır. Macarıstanda orta illik temperatur bu ölkə ilə eyni en dairəsində yerləşən şərqdəki ölkələrə nisbətən daha yüksəkdir. Qış nisbətən yumşaq, yay isə davamlı və isti keçir. İyulda orta temperatur, ölkənin qərbində müsbət 20-21, cənub-şərqində isə 22-23 dərəcədir.

Debretsen, Mişkolts və Seged Macarıstanın ən böyük şəhərləridir. Dunay çayı üzərində əsas portlar Budapeşt və Dunayvaroş şəhərləridir.

Ölkə əhalisinin böyük əksəriyyəti (90 faiz) özlərini madyar adlandıran macarlardır. Ölkədə həmçinin rumın, serb, xorvat, alman, slovak, qaraçılar da yaşayırlar. Əhalinin 70 faizi katolik dininə etiqad edir. Əhalinin 25 faizini isə protestantlar (lüteranlar və kalvinistlər*) təşkil edir.

Orta ömür müddəti, kişilər üçün 68, qadınlar üçün 74 ildir.

---

* ***Kalvinizm*** (protestantlıq məzhəblərindən biri). Banisi Jan Kalvindir. Reformasiya dövründə meydana gəlmişdir. Kalvinistlər katolik kilsəsinin ehkamlarını rədd etmiş, Allaha ibadəti Bibliya və Zəbur oxumaqla məhdudlaşdırmışdılar.

Macarıstan hazırda bazar iqtisadiyyatına keçid dövrünü yaşayır. Daha yaxşı inkişaf etmiş sənaye sahələri: dağ-mədən, metallurgiya, maşınqayırma, kimya, yeyinti və toxuculuqdur. İqtisadiyyatın mühüm bölməsi olan kənd təsərrüfatı nəinki ölkənin ərzaq məhsullarına tələbatını ödəyir, həmçinin büdcəyə valyuta gətirir. Buğda, günəbaxan, kartof, paxla əsas kənd təsərrüfatı məhsullarıdır. Heyvandarlığın əsas sahələri - maldarlıq, qoyunçuluq, donuzçuluq və quşçuluqdur.

Dövlət quruluşuna görə Macarıstan parlamentli respublikadır. İnzibati cəhətdən ölkə 19 vilayətə (medye) bölünmüşdür. Avstriya-Macarıstan imperiyası dağıldıqdan sonra 1918-ci ilin 17 noyabrında Macarıstan müstəqil respublika elan olunmuşdur. 20 avqust - Macar dövlətinin əsasını qoyan Müqəddəs İştvan günü; 15 mart - 1948-1949-cu illərdə baş verən inqilabın başlandığı gün; 23 oktyabr - 1956-cı il inqilabı və Macarıstan Respublikası günü kimi Milli bayramlar şəklində geniş qeyd olunur. İcraedici hakimiyyət prezidentə və Baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunverici orqan - bir palatalı parlamentdir (Dövlət Məclisi).

Avropanın əsas magistrallarının kəsişdiyi ərazidə yerləşən Macarıstan, əlverişli təbii-iqlim və mədəni-tarixi rekreasiya şəraitinə malikdir. Bu şərtlər ölkənin beynəlxalq turizmdə məşhurluğunun artmasına səbəb olur. Qədim tarixi abidələrə ölkənin hər yerində rast gəlmək olur. Bunların ən qiymətliləri, Roma imperiyasına aid olan abidələrdir. Sonrakı dövrlərə aid olan çoxlu memarlıq şedevrlərinin* nümunələri də qorunub saxlanılmışdır.

Ölkənin paytaxtı Budapeşt, Dunay döngələri, Dunantul, Macarıstanın şimalı və Böyük Macarıstan ovalığı, Macarıstanda turistlərin toplaşdıqları əsas bölgələrdir.

**Budapeşt turizm mərkəzi.** Budapeşt Dunayın hər iki sahilində, mənzərəli bir ərazidə yerləşən dünyanın ən gözəl şəhərlərindən biridir. Şəhər bir tərəfdən orta hündürlüklü dağlar, digər tərəfdən isə ovalıqla əhatə olunmuşdur. Dunay çayı şəhərin ortasından gümüş kəmər kimi keçir. Budapeşt üzərində yüksələn Gellert dağından bütün şəhərin gözəl mənzərəsi açılır. Bu dağın zirvəsində yerləşən qədim qalada 36 metr hündürlüyündə Azadlıq rəmzi olan heykəl ucalır.

Qədim Roma yaşayış məskəni olan Akvinkum, qalada yerləşən orta əsr memarlıq abidələri, parlamentin neoqotik üslubda tikilmiş binası, 100 min tamaşaçı üçün nəzərdə tutulmuş Xalq stadionu, Budapeştin görməli yerlərindəndir. Dunayın üzərindəki körpülər şəhərə

---

* ***Şedevr*** (fransız mənşəli sözdür, bizim başa düşdüyümüz mənada şah əsər) - sənətkarlığın ən ali pilləsi olan əsər.

xüsusi gözəllik verir. Ən qədim körpü - Lanexid, ən yenisi isə - Ercebeddir. Şəhərdə on beş Ali təhsil müəssisəsi, o cümlədən Lorand Etveş adına universitet fəaliyyət göstərir. Şəhərdə çoxsaylı teatr, konsert zalı, muzey və kitabxana vardır. Budapeşt ölkənin siyasi, iqtisadi və mədəni mərkəzi olmaqla yanaşı, dünyanın mühüm balneoloji kurortu hesab olunur. Şəhər ərazisində bir çox isti mineral su mənbələri vardır. Müalicə ocaqları 123 mənbədən sutka ərzində 70 mln. litr isti (40 dərəcə) müalicəvi su alır.

Balaton gölündən təxminən 100 km şimalda, uzunluğu 40 km-ə çatan Bakon dağları yerləşir. Geniş meşə massivləri, mənzərəli dağ yamacları, iti dağ çayları, qayalar üzərində qədim qəsrlərin qalıqları, turistləri bu bölgəyə cəlb edir. Bakon dağlarında tarixi-memarlıq abidələri ilə zəngin olan Vesper şəhəri yerləşir.

**Dunay döngələri turizm bölgəsi.** Budapeştdən şimala sərt dönüş edən Dunay demək olar ki, düzbucaqlı döngə yaradır. Bu döngə üzərində ucalan hündür yayla budapeştlilərin sevimli istirahət yeridir. Buradan Dunayın və ətraf ərazinin gözəl mənzərəsini seyr etmək olur. Dunay üzərində yerləşən Sentendre, Vişeqrad və Esterqom şəhərlərinin qədim abidələri həm daxili, həm də xarici turistləri cəlb edir. Sentendre üçün XVIII əsr barokko və rokoko* üslubundakı tikililər xarakterikdir. Bu bənzərsiz şəhər rəssamların da diqqətini cəlb edir.

Vişeqrad tarixi və memarlıq abidələri ilə zəngindir. Macar krallarının qədim iqamətgahı bu şəhərdə yerləşir. Esterqomda ilk kral sülaləsinin iqamətgahı yerləşmişdir. Bu şəhərdə macar tarixinin və mədəniyyətinin çoxsaylı abidələri, o cümlədən qaya üzərində yerləşən Kral qəsri, XIX əsrdə klassik üslubda tikilmiş, Macarıstanın ən böyük kilsələrindən biri, eyni zamanda macar və italyan rəssamlarının əsərlərinin zəngin kolleksiyasının toplandığı Xristian muzeyi və s. vardır.

**Dunantul turizm bölgəsi.** Dunantul Dunaydan qərbdə, Macarıstanın mənzərəli, gözəl rayonlarından biridir. Bu ərazidə turistlərin toplaşdığı əsas mərkəzlər - Balaton gölü və Bakon dağlarıdır.

Balaton Mərkəzi Avropanın ən böyük gölüdür. Onu çox zaman "Macarıstan dənizi" adlandırırlar. Bu ad macarların dəniz həsrətini ifadə edir. Çünki, Macarıstanın dənizə çıxışı yoxdur. Macarların Balatona olan sevgisi, gölün əsrarəngiz gözəlliyi və ətrafının ürəkaçan mənzərəsi ilə izah olunur. Gölün bütün sahili boyu mehmanxanalar,

---

* ***Rokoko*** (fransız mənşəli sözdür) - XVIII əsrdə Avropa təsviri sənətində inkişaf etmiş üslub. 1760-cı illərdə Rokoko üslubu klassizmi sıxışdırıb aradan çıxarmışdır.

istirahət evləri, villalar yerləşir. Sahil ərazisində qayıq stansiyaları və idman tikililəri də çoxdur. Balatonun cənub sahili bütöv bir kurort təsəvvürü yaradır.

Gölün uzunluğu 77, eni 3-14 km-dir. Ərazisi 598 kv. km, orta dərinliyi 3-4 metrdir. Gölün suyu tez isinir, ona görə də çimərlik mövsümü də erkən başlanır. Suyun temperaturu müsbət 20-24 dərəcə olur. Balaton gölü bölgəsi iqliminin səciyyəvi xüsusiyyəti, günəşli günlərin bol olmasıdır (ildə 2000 saat və yayda - bir gündə 9,3 saat), çimərlik mövsümü mayın 20-dən sentyabrın 10-dək davam edir, 63 gün ərzində temperatur müsbət 25 dərəcədən az olmur. 13 günün temperaturu isə 32-33 dərəcəyə çatır. Göldən əsən sərin küləklər və yaşıllığın bolluğu, istini nisbətən yumşaldır. Balatonun sahillərində 40-a qədər kurort fəaliyyət göstərir.

Sahil boyu yerləşən ən tanınmış və yaxşı təchiz olunmuş kurortlardan biri olan Şifok, Budapeştə daha yaxındır. Burada mehmanxana, istirahət evləri və digər yerləşdirmə vasitələrinin sayı yüzdən artıqdır. Balatonzamardi və Balatonfoldvar kurortları da mənzərəli ərazilərdə yerləşirlər. Bu kurortlarda çoxsaylı sanatoriya və mehmanxanalar fəaliyyət göstərir. Burada keçirilən yelkənli qayıq idmanı yarışlarına minlərlə idmançı və azarkeş toplanır. Balatonfoldvar, karbonat mənbələri olan balneoloji kurort kimi də tanınır. Bir qədər cənub-qərbdə yerləşən, yaxşı təchiz olunmuş gənclik kurortu hesab edilən Balatonlelle, qumlu sahil boyu təxminən 4 km məsafədə uzanır. Balaton gölünün cənub sahillərində hündür təpənin üzərində ən iri kurortlardan biri olan Foniod yerləşir.

Balaton gölünün şimal sahilində Balatonalmadi və Balatonfüred kurortları xüsusilə seçilir. Bu kurortların ərazisindəki karbonatlı mineral su mənbələrinin müalicəvi əhəmiyyəti hələ qədim romalılara məlum idi. Balatonfüred artıq 300 ildən artıq müddətdə kurort kimi fəaliyyət göstərir.

Balatonun şimal sahilində yerləşən Badaqon kurortunun ətrafı üzüm bağları ilə zəngindir. Həmin üzümdən hazırlanan şərablar Macarıstanın hüdudlarından uzaqlarda da tanınır. Balaton gölü sahilində ən iri yaşayış məskəni olan Kestxeydə ("Balatonun paytaxtı") çox maraqlı Balaton muzeyi və gözəl Feşteteq sarayı yerləşir. Kestxeydən 6 km aralıda Macarıstanın ən isti gölü olan Xeviz və eyni adlı balneoloji kurort vardır. Gölün sahəsi 6 hektardır. Mineral mənbələrdən gölə daxil olan su 35 km dərinlikdə olan kraterdən daxil olur.

Macarıstanın şimal-qərbində yerləşən Kişalfyöld, kənd təsərrüfatının yüksək inkişaf etdiyi rayondur.

Avstriya ilə sərhəddin yaxınlığında, dağlıq ərazidə yerləşən Şopron, Türk istilası dövründə dağıntılara məruz qalmayan yeganə macar şəhəridir. Şəhərdə tarixi-memarlıq abidələri çoxdur. Şoprondan şərqdə Macarıstanın iri sənaye və mədəniyyət mərkəzlərindən biri olan qədim Dyor şəhəri, bir qədər də şərqdə isə Tata şəhəri yerləşir. Tata orta əsrlərdə cəngavər turnirlərinin və kral ovlarının keçirildiyi yerdir. Şəhər tarixi abidələrlə zəngindir və balneoloji kurort kimi fəaliyyət göstərir.

Macarıstanın cənub-qərbində ən qədim mədəniyyət mərkəzlərindən biri – Peç şəhəri yerləşir. 1367-ci ildə Peç şəhərində Macarıstanın ilk universiteti açılmışdır. Şəhərin görkəmli yerləri arasında, 2000 illik tarixi olan Məbəd meydanı memarlıq ansamblı və şəhər muzeyinin binası seçilir. Şəhər həmçinin, heykəllər və fəvvarələrlə bəzədilmiş bulvarı ilə tanınır.

Peçdən bir neçə km cənubda, termal* radioaktiv mənbələri olan Xarkanfürdö balneoloji kurortu yerləşir. Bu zonada Macarıstanın ən böyük sənaye mərkəzlərindən biri olan Dunauyvaroş şəhərində nəhəng metallurgiya zavodu, müasir yaşayış və inzibati binalar vardır.

**Şimali Macarıstan turizm bölgəsi.** Macarıstanın şimalı orta hündürlüklü dağlar, məhsuldar vadilər, sıx meşələr, qədim kəndlər və iri müasir sənaye mərkəzləri diyarıdır. Şimalın əsas şəhəri olan Mişkolts, əhalisinin sayına görə ölkənin ikinci şəhəridir. Venetsiya kimi burada da çoxsaylı kanallar olduğu üçün, onu "Sinva sahillərində Venetsiya" adlandırırlar.

Mişkolts ölkənin ən böyük sənaye və mədəniyyət mərkəzlərindəndir. Qədimliyin və müasirliyin çulğalaşması bu şəhər üçün səciyyəvidir. Mişkolts yaxınlığında yerləşən Topolse kurortunda müalicə hamamları hələ XVIII əsrdə tikilmişdir. Minerallı və kükürdlü isti su, karbon qazı ilə zəngin yeraltı çaylar müalicəvi əhəmiyyətə malikdir.

Mişkoltsdan cənub-qərbdə, Byükk və Matra dağları arasındakı vadidə yerləşən, Macarıstanın ən qədim şəhərlərindən olan Eqer, nadir tarixi abidələr vətənidir. Qala divarlarının qalıqları və bastionlar*. Macar xalqının monqol və türklərə qarşı çoxəsrlik mübarizəsinin cansız şahidləridir. Şəhərin görkəmli yerlərindən biri də tikintisi XIII əsrin ortalarında başlanmış qaladır. Eqer həmçinin, müalicəvi mineral su

---

* ***Termal*** (yunan mənşəli sözdür, isti mənasında başa düşülür) – Yer qabığının müsbət 20 dərəcə və daha yüksək temperaturlu yeraltı suları. Bəzi ölkələrdə bu cür sulardan enerji qurğularında və isitmə sistemlərində istifadə edilir.

* ***Bastion*** (fransız mənşəli sözdür) – qala divarlarından kənara çıxmış beş bucaqlı istehkam.

mənbələri və məşhur şərabları ilə tanınır.

Eqerdən qərbdə, ölkənin ən yüksək zirvəsi olan Kekeş dağının yerləşdiyi, fıstıq və palıd meşələri ilə örtülmüş Matra dağ massivi uzanır. Matra massivində Matrafüred, Matraxaza, Kekeştetö, Qayatetö, Paradfürd kimi tanınmış, komfortabelli dağ-idman kurortları yerləşir. Paradfürd həmçinin Macarıstanın mühüm balneoloji kurortudur.

**Böyük Macarıstan ovalığı turizm bölgəsi.** Çox vaxt Alfyöld adlanan bu ovalıq ölkənin bütün cənub-qərb hissəsini tutur. Ucsuz-bucaqsız məhsuldar torpaqlar, bağlar və çəmənlər, müasir şəhərlərin sənaye mərkəzləri, bir-birini əvəz edir. Ovalığın cənubunda Maroş çayının Tissaya qovuşduğu yerdə Seged şəhəri yerləşir. Segedin görkəmli yerləri arasında, hər il ənənəvi Seged teatr festivalının keçirildiyi Beloyanika meydanının memarlıq ansamblı, ratuşa, mədəniyyət sarayı xüsusilə seçilir.

Bu zonada turistlərin toplaşdıqları əsas mərkəzlərdən biri də ölkənin iri sənaye şəhəri olan Debretsendir. Şəhərin yaxınlığında Haydusoboslo balneoloji kurortu yerləşir. Mənzərəli, tarixi şəhər və balneoloji kurortu olan Solnok, tarixi şəhərlər - Bekeşçaba və Düla və digərləri də bu bölgədə yerləşirlər.

* * *

Macarıstanın ən müxtəlif guşələrində turizmin inkişafı üçün əlverişli şəraitin olmasına baxmayaraq, ölkənin əsas turizm zonaları Budapeşt və Balaton gölüdür. Turistlərin mehmanxana və motellərdə yaşadığı günlərin ümumi miqdarının 79 faizi Budapeştin, 12 faizi Balaton gölünün payına düşür.

Macarıstan Şərqi Avropanın iqtisadi və siyasi baxımdan nisbətən stabil ölkəsidir. İqtisadi islahatlar proqramı burada 1968-ci ildən başlamış və keçmiş sosialist ölkələrinə nisbətən bu sahədə daha çox irəliləyiş əldə olunmuşdur. 1989-cu ilə qədər Macarıstanın turizm sənayesi yaxşı təşkil olunduğundan regionda Çexoslovakiyadan sonra ikinci yer tuturdu. Ölkəyə turist axını Polşa, Çexoslovakiya və Şərqi Almaniyanın payına düşürdü. Macarıstan Qərbi Avropa turistlərini də cəlb edirdi. Ötən əsrin 80-ci illərinin ortalarında Qərbi Almaniya və Avstriyadan gələn turistlərin orta illik sayı 2 mln. nəfərdən çox olmuşdur. Həmçinin, Qərb ölkələrindən hər il 1,4 mln. qonaq ölkəyə bir günlük səyahətə gəlmişlər.

1988-ci ildə Macarıstana gələn 17,9 mln. qonağın 30 faizini qeyri-sosialist ölkələrindən olan turistlər təşkil etmişlər. 1991-ci ildə Şərqi Avropa ölkələrindən olan turistlərin sayının azalması nəticəsin-

də Macarıstana gələn turistlərin ümumi miqdarı da azaldı. Amma beynəlxalq vəziyyətdən asılı olmayaraq, Qərb turistlərinin sayı artmaqda davam edirdi.

1999-cu ildə Macarıstana 15 mln. xarici turist səfər etmişdir (dünyanın aparıcı ölkələrinin reytinqində 14-cü yer). 1999-cu ildə turizm fəaliyyətindən əldə olunan gəlir 3,4 mlrd. ABŞ dolları təşkil etmişdir. Ötən əsrin 80-ci illərində macarların Qərb ölkələrinə səfərləri də artmağa başladı və 1989-cu ildə özünün zirvəsinə çatdı. 1985-1989-cu illərdə getmə turizminin həcmi 2 dəfə artdı. Sonrakı illərdə isə artım azalmağa başladı. Son illərdə macarlar daha çox səyahət etməyə başladılar. 1999-cu ildə 10,6 mln. macar turisti, xarici ölkələrə səfər etmiş və orada 1,2 mlrd. ABŞ dolları həcmində pul xərcləmişlər.

Ölkədə turizmin maddi-texniki bazasının inkişafına böyük diqqət yetirilir. Hər il yeni turist mehmanxanaları istifadəyə verilir. 2000-ci ilə olan məlumata görə Macarıstanda turistlərin qəbulu üçün 133 mindən artıq gecələmə yeri mövcuddur.

# FƏSİL 11.

## CƏNUBİ AVROPA ÖLKƏLƏRİNDƏ BEYNƏLXALQ TURİZM

### 11.1. İSPANİYA

**Ərazisi: 505,9 min kv. km. Dünyada 50-ci yer.**
**Əhalisi: 40,0 mln. nəfər - 2000. Dünyada 28-ci yer.**
**Paytaxtı: Madrid (4,1 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - İspan dili.**
**Din: Xristianlıq (əsasən katoliklər).**
**Milli pul vahidi: İspan peseti.**

İspaniya Avropa qitəsinin cənub-qərbində, Pireney yarımadasında (yarımada ərazisinin 85 faizi) yerləşmişdir. Qərbdə Portuqaliya (sərhədin uzunluğu 1214 km), şimalda Fransa (623 km), Andorra (65 km), cənubda Cəbəllütariq (1,2 km) ilə həmsərhəddir. Şərqdə və cənubda Aralıq dənizi, qərbdə Atlantik okeanı, şimalda isə Biskay körfəzinin suları ilə əhatə olunur. Aralıq dənizindəki Balear və Pitiuss, Atlantik okeanında yerləşən Kanar adaları İspaniyaya məxsusdur.

Afrikanın şimal-qərb sahillərində Mərakeş ərazisində yerləşən Seuta və Melilya İspaniyanın tabeliyi altındadır. İspaniya ilə Böyük Britaniya arasında Cəbəllütariqin hansı dövlətə məxsusluğu barədə mübahisəsi vardır.

İspaniya mürəkkəb səth quruluşuna malik ölkədir. Syerra-de-Quadarramma, Syerra-de-Qredos, Syerra-de-Qatadan ibarət Mərkəzi Kordilyer sıra dağlarının yerləşdiyi geniş Meset yaylası, ölkənin mərkəzi hissəsini əhatə edir. Şimalda Kantabri dağları yerləşir. Fransa ilə sərhəd boyu Pireney dağları uzanır (maksimal hündürlük Aneto zirvəsində 3404 m), şərqdə İber və Katalon, cənubda isə Syerra-Morena və Əndəlus dağları yerləşir. İspaniyanın materikdə ən yüksək dağ zirvəsi Musalen (3482 m), ümumiyyətlə isə Əndəlus dağlarındakı Piko-de-Teydedir (3710 m). Kanar adalarının ən hündür zirvələri Tenerife adasındadır.

Taxo, Duero, Qvadalkvivir, Qvadiana və Ebro ölkənin əsas çaylarıdır.

Barselona (2,8 mln.), Saraqosa (850 min), Valensiya (780 min), Sevilya (650 min), Bilbao (400 min) və Malaqa (380 min), ən böyük şəhərlər, Alxesiras, Alikante, Almeriya, Barselona, Viqo, Kadis, Kartaxena, La-Korunya, Malaqa, Santander, Tarraqona, Valensiya və Xixon isə iri portlardır.

İspaniya çoxmillətli dövlət olsa da, əhalinin böyük əksəriyyəti (üçdə iki hissəsi) ispanlardır. Kataloniyalılar, qalisiyalılar, basklar ən böyük etnik qruplardır. Katoliklərlə yanaşı ölkədə protestantlıq, iudaizm və islam dininə mənsub olanlar da vardır. Orta ömür müddəti: kişilər üçün 75, qadınlar üçün 82 ildir.

Ölkənin rəsmi adı – İspaniya Krallığıdır. Dövlət quruluşuna görə İspaniya konstitusiyalı monarxiyadır. İnzibati cəhətdən 19 muxtar vilayətdən (Araqon, Asturiya, Balear adaları, Basklar ölkəsi, Əndəlus, Kanar adaları, Kantabriya, Kastilya-Leon, Kastilya-Lamança, Kataloniya, Seuta, Estremadura, Qalisiya, Madrid, Melilya, Mursiya, Navarra, Rioxa, Valensiya) ibarətdir. Bu vilayətlər 50 inzibati əyaləti özündə birləşdirir.

1492-ci ildə Mavrlar (ərəblər) ölkədən qovulduqdan sonra, İspaniya müstəqil dövlət olmuşdur. Milli bayram – 12 oktyabr, 1492-ci ildə X.Kolumb tərəfindən Amerikanın kəşf edildiyi gündür.

Dövlət başçısı kraldır, amma real icra hakimiyyəti hökumətə başçılıq edən Baş nazirin əlindədir. Qanunvericilik hakimiyyəti ikipalatalı parlamentə (Baş Korteslər) məxsusdur. Yuxarı palata – Senat, aşağı palata – Nümayəndələr Konqresi adlanır.

İspaniyanın iqtisadiyyatı son illərdə, xüsusilə də 1986-cı ildə Avropa İttifaqı təşkilatına daxil olduqdan sonra müvəffəqiyyətlə inkişaf etməyə başlamışdır. Xarici və daxili investistiyalar, iqtisadiyyatın yüksək sürətlə inkişafına təkan vermişdir. Toxuculuq, yeyinti, kimya, metallurgiya, gəmi, maşın və dəzgahqayırma sənayesi daha yaxşı inkişaf etmişdir. Kənd təsərrüfatının yüksək inkişaf etmiş sahələri – dənli bitkilər, üzüm (şərab istehsalı üzrə dünyada üçüncü yer), zeytun (zeytun yağı istehsalı üzrə dünyada ikinci yer), şəkər qamışı və sitrus meyvələri istehsalıdır. Heyvandarlıq da inkişaf etmişdir. Balıq ovuna görə dünya üzrə yüksək göstəricilərə malikdir.

İspaniya tamamilə subtropik Aralıq dənizi iqlimində yerləşir. Mürəkkəb relyef şəraitinin, həmçinin Atlantik okeanı və Afrika qitəsinin təsiri də iqlimdə özünü biruzə verir. Şimalda qışı mülayim, yayı çox isti keçməyən dəniz iqlimi hakimdir. Aralıq dənizi sahilləri isə yumşaq iqlimi və günəşli günlərin bolluğu ilə seçilir.

Təbiətinin rəngarəngliyi və əlverişli iqlim şəraiti ilin müxtəlif

fəsillərində İspaniyada turizmin geniş inkişafının əsas şərtləridir. Ölkə özünün çoxsaylı tarixi-memarlıq və bədii abidələri ilə də xarici turistləri cəlb edir.

Madrid, Barselona, Qranada, Kordova, Aralıq dənizinin kurort şəhərləri, həmçinin Balear və Kanar adaları turistlərin toplaşdıqları əsas mərkəzlərdir.

**Madrid turizm mərkəzi.** Madridin Prado rəssamlıq və heykəltaraşlıq muzeyi, dünyanın ən gözəl qalereyalarından olan rəsm qalereyası, turistlərin diqqətini daha çox cəlb edir. Dahi ispan rəssamları El-Qreko, Ribera, Surbaran, Velaskes, Murilyo və Qoyyanın, İntibah dövrü italyan rəssamlarının (Rafael, Titsian və b.), XV-XVI əsr holland rəssamlarının (Roqir, Vander-Veyden, Mor və b.), XVII əsr flamand rəssamlarının (Rubens və b.) məşhur rəsm əsərləri bu muzeydə nümayiş etdirilir.

Madriddə 1712-ci ildə yaradılmış və 1,5 milyon kitab nüsxəsi olan kitabxana fəaliyyət göstərir. Madrid, sırf ispan tamaşası olan öküz döyüşü (korrida) ilə də turistlərin diqqtini cəlb edir. Plasa Mayor ansamblı (XVIII əsr), barokko üslubunda tikilmiş San-Xines və San-İsidro el-Real kilsələri (XVII əsr), XVIII əsr abidələri: Kral sarayı, Ermite de-San-Antonio de la Florida və s. şəhərin görkəmli yerlərindən sayılır. Madrid Avropanın "gecə" paytaxtlarından biridir. Bu şəhərdə qonaqlara maraqlı və əyləncəli geniş gecə proqramları təklif olunur.

**Barselona turizm mərkəzi.** Aralıq dənizi sahilində yerləşmiş Barselona, Katalon muxtar vilayətinin paytaxtıdır. Əhalinin sayına görə İspaniyanın ikinci şəhəri və iri portu olan Barselona, tarixi-memarlıq abidələri ilə də zəngindir. 1992-ci ildə burada Yay Olimpiya oyunları keçirilmişdir. Hündürlüyü 60 metr olan Xristofor Kolumbun heykəli, onun təbii ölçülərdə düzəldilmiş "Santa Mariya" gəmisinin modeli, qotik üslubda tikilmiş yaşayış məhəllələri, Montxuaq dağındakı böyük Luna-park, şəhərin görkəmli yerlərindəndir. Barselonanın şimalında uca dağın üzərində Montserrat monastırı (XI əsr) yerləşir.

**Sevilya turizm mərkəzi.** Əndəlus tarixi vilayətinin inzibati mərkəzi olan Sevilyanın yaranma tarixi, e.ə. VIII əsrə aid edilir. Turistlərin diqqətini cəlb edən memarlıq abidələri arasında Herald qülləsi (XIII əsr), dünyanın ən gözəl kilsələrindən biri sayılan, qotik üslubda tikilmiş Kafedral kilsəsi (XV əsr, kilsə rəssam və heykəltaraş Murilyonun əsərləri ilə bəzədilmişdir), Əl-Kasar (XII əsr), San-Telmo sarayları (XVII-XVIII əsr), La-Hiralda minarəsi (XII əsr) və s. xüsusilə seçilirlər. Sevilya məşhur rəssamlar Velaskes və Murilyonun və-

tənidir.

**Qranada turizm bölgəsi**. Bu bölgə turistlərin sevdiyi guşələrdən biridir. Qranada şəhəri müxtəlif dövrlərə aid gözəl memarlıq abidələri ilə tanınır. Öncə, Əl-qambra* memarlıq kompleksini göstərmək olar. IX-XIV əsrlərdə tikilmiş bu kompleks böyüklüyü və möhtəşəmliyi ilə diqqəti cəlb edir.

**Kordova turizm bölgəsi.** Bu bölgənin ən böyük şəhəri olan Kordova İspaniyanın ən qədim şəhərlərindən biridir. Burada olan çoxsaylı tarixi-memarlıq abidələri arasında e.ə. I əsrdə tikilmiş Qvadalkvivir çayı üzərindəki qədim Roma körpüsü, ərəb dəyirmanları və sarayları xüsusilə seçilirlər. XIII əsrdə xristian məbədinə çevrilmiş məşhur məscid, qədim memarlığın gözəl incilərindəndir. 786-cı ildə ərəb əmirinin göstərişi ilə tikilən və şəhərin mərkəzində yerləşən bu məscid, həmin dövrdə öz gözəlliyinə görə dünyanın bütün məscidlərindən seçilməli idi.

Məscidin mərmərdən, yəşəm daşından və qranitdən hazırlanmış 850 ədəd sütun, iki mərtəbəli, nal şəkilli tağları öz üzərində saxlayır. Dörd min bürünc və mis çıraq, məscidin möhtəşəm salonunu işıqlandırır. Məscidin qübbələri naxışla gözəl işlənmiş və rənglənmiş sidr ağacından hazırlanmışdır. Məscidin sahəsi 22 min kv. metrdir. O, Məkkə şəhərindəki Müqəddəs Kəbədən sonra ikinci böyük məscid hesab olunur. Şəhərdə orta əsrlərin ispan memarlıq abidələri arasında San-Migel və San-Lorenso kilsələri (XIII əsr) də seçilirlər.

**Aralıq dənizi turizm bölgəsi**. Bu bölgənin kurort şəhərləri ölkənin Aralıq dənizi sahillərində Fransa sərhəddindən Barselona şəhərinə qədər olan bölgə daha məşhurdur. Bu mənzərəli, sahillərin qayalıqlardan ibarət ərazisi "Kosta Brava" (Qayalıq Sahil) adlanır. Bu ərazidə Rosas, La-Eskala, Palamos, San-Feliu-de-Qişols, Lyoret-de-Mar, Blanes, Aroens-de-Mar, Mataro, Badalona kurortları daha çox tanınır.

Barselonadan Tarraqona qədər olan sahil zolağının relyefi daha müxtəlifdir. Qayalıq sahillər müəyyən yerlərdə geniş çimərliklərlə əvəz olunur. Sahilin bu hissəsi "Kosta Dorada" (Qızıl Sahil) adlanır. Bu ərazidə yerləşən kurortlardan Sitjes, Vilyanuevau-Jeltru və Taraqqona xüsusilə seçilir.

Tarraqona, antik dövrdə romalıların Pireney yarımadasında ən iri və gözəl şəhərlərindən biri olmuşdur. Şəhərdə Roma amfiteatrı, ak-

---

* ***Əl qambra*** - İspaniyada hökmranlıq etmiş Ərəb hökmdarlarının tikdirdikləri qala saraylar.

veduk* və qədim müdafiə tikililərinin qalıqları qorunub saxlanılmışdır. Müqəddəs Pavel bu şəhərin sakinlərini xristianlığa dəvət etmişdir.

Tarraqonadan Deniyə qədər olan sahil zolağı "Kosta-del-Asaar" (Portağal gülü sahili) adlanır. Bu zonada Vinaros, Benikarlo, Benikasim, Kastelyon-de-la-Plana, Saqunto, Qandiya, Oliva, Deniya kurortları fəaliyyət göstərir. Antik dövrdə öz zənginliyi ilə şöhrət qazanan Saqunto kurort şəhərciyində 8 min tamaşaçı tutan Roma amfiteatrı qorunub saxlanılmışdır. Şəhərin qədim tarixi, yerli sakinlərin yadelli işğalçılara qarşı mübarizəsi epizodları ilə zəngindir.

Əsası e.ə. 138-ci ildə qoyulmuş, sakinlərinin sayına görə İspaniyanın üçüncü şəhəri olan Valensiya "Kosta del-Asaar" rayonunda yerləşir. Şəhərdə qədim qala divarlarının, qüllələrinin qalıqları və digər tikililər qorunub saxlanılmışdır. Sonrakı dövrlərə aid olan tikililər arasında XIII əsr Kafedral kilsə (qədim Roma məbədi - Diananın yerində tikilmişdir) xüsusilə seçilir.

Nao burnundan Qata burnunadək olan ərazidə sahil boyu qumlu çimərliklər uzanır. Sahil zonasının bu hissəsi "Kosta Blanka" (Ağ Sahil) adlanır. Kosta Blankanın kurortları arasında Altea, Vilyaxoyosa, San-Xuan-de-Alikante, Alikante, Torrevyexa, Kartaxena, Aqilas, Moxakar xüsusilə seçilir.

Qata burnundan Marroki burnunadək olan zona, istirahət məqsədli turizmin təşkili üçün daha əlverişlidir. Ölkənin bu hissəsinin iqlimi demək olar ki, bütün il boyu mülayimdir. Qayalı, sərt sahillər, kurortların kiçik çimərliklərini əhatəyə alır. Sahilin bu hissəsi "Kosta del-Sol" (Günəşli Sahil) adlanır. Dünya şöhrətli Almeriya, Motril, Almunekar, Malaqa, Marbelya, Alxesiras, Tarifa kurortları bu ərazidə yerləşir.

**Balear adaları turizm bölgəsi**. Pireney yarımadasından 200 km aralıda yerləşən Balear adaları turizm üçün çox əlverişli şəraitə malikdir. Rahat, qumlu çimərliklər, mülayim iqlim, sıx yaşıllıq, bu adalar (xüsusilə Malyorka, Menorka və İvisa) hər il milyonlarla əcnəbi turisti cəlb edir. Ən böyük ada sayılan Malyorkada bütün dünyada tanınmış Palma, Solyer, Polyensa, Alkudiya, Santani; Menorka adasında Maon, Syudadela, İvisa adasında, San-Antonio-Abad, Santa-Eulaliya-del Rio kurortları fəaliyyət göstərir.

**Kanar adaları (hərfi tərcüməsi "İtlər adası") turizm bölgəsi**. İspaniyanın Atlantik okeanı sahilləri turizm üçün nisbətən zəif inkişaf

* ***Akveduk*** (latın mənşəli sözdür) - yaşayış məntəqələrinə, suvarma və hidroenergetika sistemlərinə bu obyektlərin səviyyəsindən hündürdə olan mənbələrdən su gətirən qurğu.

etmişdir. Kanar adaları cənubda yerləşdiyi üçün, turistlər qış dövründə öz məzuniyyətlərini keçirmək məqsədi ilə buraya gəlirlər.

Roma tarixçisi Böyük Plininin yazdığına görə bu adaların birində böyük itlər saxlanılırdı. Kanar arxipelaqında nisbətən böyük adalar: Qran-Kanar, Tenerif və Fuerteventurdır. Tenerif – ən böyük adadır. Onun mərkəzi şəhəri – Santa-Krus-de-Tenerif beynəlxalq turizm mərkəzi və məşhur kurortdur.

* * *

İspaniyada turizmin inkişafı üçün əlverişli şəraitin olmasına baxmayaraq, İkinci Dünya müharibəsindən sonra, burada turizm digər Qərbi Avropa ölkələrinə nisbətən, gec inkişaf etməyə başlamışdır. Xarici turizmin maddi-texniki bazasının yaradılması iri vəsait qoyuluşu tələb edirdi. Əcnəbi turistlərin ölkəyə axınını artırmaq məqsədi ilə bir neçə il müddətində mehmanxana və yeyinti müəssisələri şəbəkəsi yaradıldı. 1950-ci ildə 3 mln. turist qəbul edən İspaniyaya, 1999-cu ildə 35,0 mln. turist gəlmişdir. İspaniya əsasən kütləvi çimərlik turizmi üzrə ixtisaslaşmış dünyanın aparıcı mərkəzlərindən biridir.

Birinci və İkinci Dünya müharibələri arasındakı dövrdə İspaniya yoxsul ölkə olduğu üçün (1936-1939-cu illərdə Vətəndaş müharibəsi nəticəsində iqtisadiyyat bərbad vəziyyətdə idi) turistləri cəlb etmirdi. Bu dövrdə İtaliya, Fransa Rivyerası və Alp dağları əsas turizm mərkəzləri hesab olunurdu. Ötən əsrin 50-ci illərinin əvvəllərində avtomobillə səyahət edən turistlərin ilk dəstəsi Fransadan Kosta-Brava sahillərinə gəldilər. Bundan sonra turizm sürətlə inkişaf etməyə başladı və artıq 1959-cu ildə turistlərin sayı 4,2 mln. nəfərə çatdı. Bu dövrdə İspaniya hökuməti, milli iqtisadiyyatın inkişafında turizm bölməsinin böyük rol oynayacağını başa düşdü və müxtəlif üsullarla (məsələn, otellərin tikintisinə vəsait buraxmaq və s.) turizmi inkişaf etdirmək siyasəti yeritməyə başladı.

1959-cu ildə İspaniya iqtisadiyyatı xarici investisiyalar üçün açıq elan olundu və eyni zamanda milli valyuta (peset) devalvasiya* edildi. Nəticədə İtaliya və Fransa sahilləri ilə müqayisədə İspaniya, turistlər üçün daha cəlbedici oldu. İspaniya iqtisadiyyatının xüsusi (şəxsi) bölməsi daha irəli gedərək, heç bir ümumi plan və koordinasiya siyasəti gözləmədən Aralıq dənizi sahillərində yeni otel-apartamentlər və villalar tikməyə başladı. Nəticədə, sonrakı on il ərzində turistlərin sayı təxminən dörd dəfə artaraq, 1970-ci ildə 24 mln. nəfərə çatdı.

---

* ***Devalvasiya*** (latın mənşəli sözdür) – xarici valyutaya nisbətdə milli valyuta kursunun rəsmi surətdə aşağı enməsi.

Turizm İspaniya iqtisadiyyatında mühüm rol oynamağa başladı. Ötən əsrin 60-cı illərinin ortalarında 500 min, 1975-ci ildə isə 1 mln. adam üçün yeni iş yerləri yaradıldı. Ölkəyə valyuta axını gücləndi. Ona görə sonrakı illərdə də İspaniya hökuməti turizm bölməsini fəal müdafiə etməkdə davam edirdi. Amma, turizmin sürətli və nəzarət edilməyən yüksəlişi, ətraf mühitin korlanmasına, Aralıq dənizi sahillərinin turizm mərkəzinə çevrilməsi isə əhalinin bu regiona axınına səbəb olmuşdur.

Ötən əsrin 70-ci illərinin ortalarında, turizmin coşqun inkişafı dövründə, İspaniyada kütləvi turizm tələbatının ödənilməsi üçün fəal surətdə iri, müasir mehmanxanaların tikintisinə başlanıldı. 80-ci illərdə turizm İspaniyanın iqtisadiyyatında fəal rol oynamaqda davam edirdi: ölkənin potensial işçi qüvvəsinin 11 faizini iş yerləri ilə təmin edir, ixracatdan gələn gəlirin 33,4, ölkənin milli gəlirinin 10,0 faizini təşkil edirdi. Amma 5 il ərzində (1988-1992) ölkəyə gələn xarici turistlərin sayı hər il eyni səviyyədə (34-35 mln. nəfər) qalmışdır.

İspaniyaya turist göndərən əsas ölkələrdən - Fransa, Almaniya, Niderland və İtaliyadan gələn qonaqların sayı 1988-1990-cı illərdə nisbətən azalmış, 1991-1992-ci illərdə yenidən artmağa başlamışdı. Məsələn, Böyük Britaniyadan gələn turistlərin sayı 1988-ci ildəki 7,6 mln. nəfərdən, 1991-ci ildə 6,1 mln. nəfərədək azalmışdı. Bunun əsas səbəbləri digər turizm mərkəzlərinin rəqabəti, köhnə İspaniya kurortlarında ekoloji problemlərin yaranması və ölkə miqyasında həyat səviyyəsinin aşağı enməsi olmuşdur.

Buna cavab olaraq, bir sıra kurort rayonlarında, xüsusilə Britaniya bazarı ilə əlaqədə olan kurortlarda ətraf mühitin yaxşılaşdırılmasına diqqət verilməyə başlanıldı. Bu məqsədlə turistlərin gur olduğu bölgələrdə avtomobil nəqliyyatının hərəkəti məhdudlaşdırıldı, ağaclar əkildi, yeni parklar salındı, küçə və çimərliklər təmizləndi, həmçinin yeni istirahət zonaları tikildi, əyləncə və mədəni istirahət vasitələri istifadəyə verildi, Benidorm, Salou, Terromolinos kurortları və Balear adalarındakı kurortlar yeni avadanlıqla təmin olundu. 1992-ci ildə Barselonada Olimpiya oyunları keçirildi, Sevilyada "Ekspo-92" Ümumdünya sərgisi açıldı, Madrid Avropanın mədəniyyət şəhəri elan olundu. Bütün bunlar dünyanın iri turizm ölkəsi kimi İspaniyanın imicinin yüksəlməsinə səbəb oldu.

Eyni zamanda Böyük Britaniya da öz turizm mərkəzlərini təbliğ etmək məqsədi ilə İspaniya turizminin inkişafına 1,9 mln. funt-sterlinq xərclədi. Bu tədbirlər turistlərin sayının artmasına kömək et-

di: pekic-turlarla gələnlərə nisbətən, müstəqil surətdə gələn turistlərin sayı xeyli artdı.

Ötən əsrin 70-80-ci illərində İspaniyada daxili turizm fəal inkişaf etməyə başladı. İspaniya vətəndaşlarının ölkənin sahil kurortlarına gəlişi artdı, bunların da 53 faizi məzuniyyətə çıxanların hesabına idi. 1991-ci ildə İspaniyanın daxili bazarı hesabına mehmanxanalara, düşərgə şəhərciklərinə (əsasən, Aralıq dənizi sahilləri) 22,7 mln. turistin gəlişi qeydə alınmışdı.

Həmin il regiondakı yerləşdirmə vasitələrində ümumiyyətlə 12,5 mln. ispan yaşamışdır. Benidorm kurortunda daxili turistlərin 3,2, Palma-de-Malyorkada isə 3 faizi istirahət etmişdir. Valensiya əyaləti ümumi daxili turistlərin 15,7 faizini qəbul edərək birinci yerdə olmuş, Əndəlus və Kataloniya ikinci və üçüncü yerləri bölüşdürmüşlər.

Beləliklə, Aralıq dənizi sahil kurortları həm xarici, həm də daxili turistləri qəbul edir, amma Fransa və İtaliyada olduğu kimi büsbütün dolmur və tam gücü ilə işləmirdi. Bu onunla izah olunurdu ki, İspaniyanın daxili bazarı, Qərbi Avropa ölçüləri baxımından o qədər də böyük deyil. Daxili turizmin artması zəminində, Böyük Britaniyadan (xüsusilə də Kosta-Brava, Kosta-Blanka, Kosta-del-Sol kurortlarına) gələn turistlərin sayı azalırdı.

İspaniyada getmə turizmi zəif inkişaf etmişdir. Birincisi, ölkədən uzaq səyahətlərə gedən turistlərin sayı çox olmasa da qonşu ölkələrə gedənlərin sayı ildən-ilə artmaqda davam edir. Məsələn, 1986-cı ildə Portuqaliyaya gedənlərin sayı 2,5 mln. nəfər olduğu halda, 1991-ci ildə 4,1 mln. nəfərə çatmış, Fransaya gedənlərin sayı isə həmin dövrdə bir milyon nəfərdən 2,8 mln. nəfərə qədər artmışdı.

İkincisi, Yunanıstan, Mərakeş, Portuqaliya, Tunis kimi nisbətən ucuz turizm mərkəzlərinə gedən turistlərin sayı sürətlə artmış, gedənlərin ümumi sayının 30-57 faizini təşkil etmişdir. Nisbətən bahalı ölkələrə (Fransa, İtaliya və Böyük Britaniya) gedənlərin sayı isə ləng artırdı.

Üçüncüsü, hava nəqliyyatı ilə səyahət edən ispanların sayı cəmi 7,5 faiz təşkil etdiyi halda, 90 faiz turist əsasən avtomobillə qonşu ölkələrə səyahət etmişlər. Uzaq uçuşlarda əsasən biznes turistlər iştirak etmiş, onların da 40,7 faizi Kanada, 44,5 faizi isə Yaponiyaya səfər etmişlər.

Son illərdə səyahət edən ispanların sayının artması müşahidə edilir. 1997-ci ildə - 12,6, 1998-ci ildə - 13,6 mln. turist xarici ölkələrə səyahət etmişlər. Son illərdə İspaniyada turizm dinamik surətdə inkişaf edir. Xarici turistlərin qəbulu və xidməti üzrə İspaniya dünya-

da aparıcı mövqe tutur. 1997-ci ildə İspaniyaya 47, 1999-cu ildə isə 51,8 mln. əcnəbi turist gəlmişdir (dünya üzrə ikinci yer). Turizm fəaliyyətindən əldə olunan gəlir, 1998-ci ildə - 29,7, 1999-cu ildə isə 32,9 mlrd. ABŞ dolları təşkil etmişdir. Bu isə dünya turizm bazarının 7,2 faizi deməkdir.

Qeyd edək ki, 2000-ci ilin məlumatına əsasən İspaniyada turistlərin qəbulu üçün 1,3 mln. yaxın yer mövcuddur.

## 11.2. İTALİYA

**Ərazisi: 301 min kv. km. Dünyada 69-cu yer.**
**Əhalisi: 58,3 mln. nəfər (2000). Dünyada 21-ci yer.**
**Paytaxtı: Roma (2,8 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - İtalyan dili.**
**Din: Katolisizm.**
**Milli pul vahidi: İtaliya lirəsi.**

Cənubi Avropada, Apennin yarımadasında yerləşmiş İtaliya şimalda Avstriya (sərhəddin uzunluğu 430 km) və İsveçrə (740 km), şimal-qərbdə Fransa (488 km), şərqdə Sloveniya (199 km) ilə həmsərhəddir. Aralıq dənizində yerləşmiş Sardiniya, Siciliya, Elba və bir sıra kiçik adalar da İtaliyaya məxsusdur. İtaliya sahilləri cənubdan və qərbdən Aralıq, şərqdən Adriatik dənizinin suları ilə əhatə olunur. Ölkənin sahillərində əla çimərliklər və mənzərəli buxtalar* vardır.

Landşaftına görə İtaliya dağlıq ölkədir. Ərazisinin yarıdan çoxunu dağlar və yaylalar təşkil edir. Qərbi Avropanın ən yüksək dağı olan Monblan (italyanca Monte Bianno, 4807 m), ölkənin şimalında yerləşən Alp dağlarının cənub hissəsindədir. Po çayı vadisinin uzandığı Padan (Lombard) düzənliyi, Alp və Apennin dağlarını bir-birindən ayırır. Apennin dağları bütün yarımada boyu uzanır, onun ən yüksək zirvəsi Karno dağıdır (2914 m). İtaliyada çoxsaylı vulkanlar, olsa da onlardan bir neçəsi, o cümlədən, Vezuvi (1277 m) və Etna (3323 m) fəaliyyət göstərir.

Po və Tibr – ölkənin əsas çaylarıdır. İtaliyada çoxlu göllər (xüsusilə də şimal hissədə) vardır. Onlardan ən böyükləri – Qarda, Laqo-Macore və Komodur. Bu göllər, suyunun şəffaflığı və mənzərəli sahilləri ilə seçilirlər. Göllərin sahillərində çoxsaylı kurortlar fəaliyyət göstərir.

Əsas faydalı qazıntılar: civə, mərmər, kömür və kükürddür. Müəyyən miqdarda təbii qaz və neft ehtiyatı vardır.

İtaliyanın iri şəhərləri: Milan (1,6 mln.), Neapol (1,2 mln.), Turin (1,1 mln.) və Genuyadır (0,7 mln.). Ankona, Venesiya, Genuya, Kalyari (Sardiniya), Livorno, Neapol, Palermo (Siciliya), Taranto və Triyest ölkənin mühüm portlarıdır.

---

* ***Buxta*** – okean, dəniz və göllərin açıq sulardan sahil xətti, yaxud adalarla, külək və dalğalardan qorunan kiçik hissəsi.

Əhalinin böyük əksəriyyətini (94 faiz) italyanlar təşkil edir. Ölkədə almanlar, fransızlar, sloveniyalılar, albanlar, yunanlar və b. xalqlar da yaşayır. Dindarların böyük əksəriyyəti katolik, az bir hissəsi protestant, yəhudi və müsəlmanlardır. Orta ömür müddəti: kişilər üçün 75, qadınlar üçün 81 ildir.

İtaliya – parlamentli respublikadır. 1948-ci ildə qəbul olunmuş konstitusiya qüvvədədir. Dövlət başçısı – prezidentdir. Qanunverici hakimiyyət parlamentə məxsusdur. Parlament iki: Respublika Senatı (Yuxarı palata) və Nümayəndələr palatasından (Aşağı palata) ibarətdir. 17 mart 1861-ci ildən İtaliya müstəqil dövlətdir. Qanunvericilik, kilsənin güclü təsiri olan Roma hüquq sisteminə əsaslanır. Milli bayram iyunun ilk bazar günü qeyd olunan Respublika günüdür (1946).

İnzibati cəhətdən ölkənin tərkibinə 20 vilayət: Abrusiya, Valle-d'Aosto, Bazilikata, Kalabriya, Kampaniya, Emiliya-Romanya, Frpuli-Venesiya-Culiya, Latsio, Lombardiya, Liquriya, Marke, Molize, Umbriya, Pyemont, Apuliya, Sardiniya, Siciliya, Toskana, Trentino-Alto-Adice və Venetsiya daxildir.

İtaliyanın iqtisadiyyatı ərazi üzrə qeyri-bərabər inkişaf etmişdir. İqtisadi baxımdan ölkəni şərti olaraq iki: sənayesi inkişaf etmiş şimal və nisbətən geri qalmış cənub hissəyə ayırmaq olar. Avtomobil istehsalı (dünyada beşinci yer), kimya, metallurgiya, poladəritmə, yeyinti, toxuculuq, geyim və ayaqqabı istehsalı daha çox inkişaf etmişdir. Ət və süd məhsulları istisna olmaqla, kənd təsərrüfatı ölkəni ərzaqla tam təmin edir. Əsas kənd təsərrüfatı məhsulları: üzüm (dünyada ən iri istehsalçıdır), meyvə, tərəvəz, kartof, şəkər qamışı və zeytundur (dünyada birinci yer).

İtaliyanın böyük hissəsinin iqlimi – isti, quru yayı və qısa, mülayim qışı olan Aralıq dənizi tipli subtropik iqlimdir. Ölkənin şimalında, Lombardiya vadisində subtropik iqlim, mülayim kontinental iqlimlə əvəz olunur. İtaliya Alplarında isə iqlim, yüksəklik zonasına uyğun olaraq müvafiq surətdə dəyişilir. İtaliyanın iqlimi ümumiyyətlə, turizm üçün çox əlverişlidir.

* * *

İtaliya eyni zamanda çoxsaylı, nadir tarixi abidələr ölkəsidir. Mütəxəssislərin rəyinə görə, hər bir şəhərdə yerləşən tarixi-bədii abidələrlə tanış olmaq üçün ölkənin 22 şəhərinə ayrı-ayrılıqda səyahətlər təşkil etmək olar. Bundan əlavə İtaliyanın mindən artıq şəhər və qəsəbəsi turistlərin diqqətini cəlb edən kifayət qədər maraqlı obyektlər vardır.

Əlverişli iqlim şəraiti, tarixi-memarlıq abidələrinin çoxluğu, in-

kişaf etmiş maddi-texniki bazanın olması İtaliyada xarici və daxili turizmin intensiv inkişafı üçün mühüm zəmin yaradır.

İtaliyanın əsas turizm bölgələri: Roma və Mərkəzi İtaliya, Neapol və Cənubi İtaliya, Florensiya və Şimali İtaliya, Lombardiya, ölkənin şimal-qərb və şimal-şərq hissələridir.

**Roma və Mərkəzi İtaliya turizm bölgəsi**. İtaliyanın paytaxtı – Roma, üç min illik tarixi olan qədim şəhərdir. Müasir dövrdə beynəlxalq turizmin ən böyük mərkəzlərindən biridir. Şəhər, Tibr çayının hər iki sahilində yerləşir. Çayın üzərindən salınmış körpülərin tarixi çox qədimdir. İlk körpü e.ə. 61-ci ildə tikilmişdir. Qədim dünyanın memarlıq abidələri və İntibah dövrünün misilsiz sənət nümunələri toplanmış ikinci belə şəhər yoxdur. Ona görə də yüz il ərzində bütün dünya üzrə ən çox turist qəbul edən şəhər – Romadır.

Roma, bədii abidələrin monumentliyinə* görə Avropanın birinci şəhəridir. Onların arasında antik dövrün abidələri xüsusi yer tutur. Artıq e.ə. IV əsrdə əhalisinin sayı 200 min nəfərə çatan şəhər, qədim dünyanın elmi, siyasi və mədəni mərkəzinə çevrilmişdi. E.ə. 312-ci ildə Romadan 16 km aralıda yerləşən mənbələrdən şəhərə su çəkilmişdi. Həmin dövrdə salınmış yollar, Romanı bütün istiqamətlərdə ölkənin digər bölgələri ilə birləşdirirdi. Bu isə, "bütün yollar Romaya aparır" kimi qədim, məşhur zərb-məsəlin yaranmasına səbəb olmuşdur. Senzor Appiy Klavdinin hakimiyyəti dövründə (e.ə. IV əsr) salınmış yollardan biri indi də istifadədədir.

Roma şəhəri Palatin və Kapitoliya təpəliklərində salınmış, həmin təpəliklərin arasında yerləşən bazar (Forum) tədricən şəhərin əsas siyasi mərkəzinə çevrilmişdi. Romanın qüdrəti artdıqca, onun əhalisi də çoxalmış, e.ə. I əsrin ortalarında 600 min, eramızın II əsrinin əvvəllərində isə 1,5 mln. nəfərə çatmışdı. Forumun ölçüləri şəhərin tələbatına cavab vermədiyi üçün, köhnə Foruma əlavə olaraq yeniləri tikildi və onlar daha geniş ərazini əhatə etdilər. Onlardan nisbətən daha böyük və daha gözəgəlimlisi imperator Trayanın saldığı forumunun qalıqları indi də qorunub saxlanılmışdır.

Roma Forumu Via Sakra ("Müqəddəs Yol") ilə kəsişirdi. Qələbə ilə Kapitoliyaya qayıdan sərkərdələr bu yolla Romaya daxil olurdular. İmperatorların qələbələrinin şərəfinə – "Müqəddəs Yolda" zəfər tağları, forumlarda isə sütunlar ucaldılırdı. Bu sütunlar arasında, indiyədək qorunub saxlanılmış imperator Trayanın şərəfinə ucaldılmış

---

* ***Monumental*** (latın mənşəli sözdür, xatirə mənasını bildirir) – heykəltaraşlıq və memarlıqda mühüm tarixi hadisələrin, görkəmli ictimai xadimlərin və s. şərəfinə ucaldılan böyük ölçülü abidə.

möhtəşəm sütun diqqəti cəlb edir. Sütun üzərindəki barelyeflərdə romalıların daklar* üzərinə yürüşləri əks etdirilmişdir.

Romanın yaranması əfsanəsi ilə bağlı olan Palatin təpəliyində qədim dövrdə imperator sarayları və məbədlər ucalırdı. Həmin tikililərin qalıqları müasir dövrə qədər gəlib çatmışdır. Kapitoliya təpəliyi ən qədim zamanlardan Romanın istehkam qalası və əsas dini mərkəzi olmuşdur. Yupiter, Yunona və Minevra məbədləri (sonralar Kapitoliyalı Yupiter məbədi və ya sadəcə Kapitoliya adlanırdı) burada yerləşmişdir. Bu məbəddə Senatın iclasları, məbədin önündəki meydanda isə Xalq yığıncaqları keçirilirdi.

Şəhərsalma memarlığının nadir incisi olan və Mikelancelo tərəfindən salınan Kapitoliya məbədi, hazırda Kapitoliya meydanının bəzəyidir. Mikelancelo tərəfindən yaradılmış möhtəşəm fəvvarə və çoxlu pillələnləri olan Senat sarayı, Konservatorlar sarayı (sarayın zallarında muzey, fundamental arxeologiya kolleksiyası və Kapitoliya rəsm qalereyası fəaliyyət göstərir) həmin meydanda yerləşir. Meydanın mərkəzində ucalan imperator və filosof Mark Avrelinin möhtəşəm tunc heykəli, bizim dövrümüzə qədər gəlib çatan antik dövrün yeganə atlı heykəlidir.

Qədim romalıların həyatı əsasən "çörək və tamaşa" üzərində qurulmuşdu. Çörəyin heç də həmişə çatışmamasına baxmayaraq, tamaşalar çox olurdu. Tamaşalara olan maraq, amfiteatrlarda**, stadionlarda olan yerlərin sayından da məlum olurdu. Romanın ən böyük amfiteatrı olan Flaviy amfiteatrı (b.e.-nın 80-ci ili) 50 min tamaşaçı üçün nəzərdə tutulmuşdu. Burada qladiatorların*** döyüşləri və digər tamaşalar göstərilirdi. Müasir dövrə qədər daha yaxşı qorunub saxlanılan, antik dövrün memarlıq abidələri arasında qədim Roma Panteonunun**** binasını göstərmək olar. Antik dövrün memarlıq abidələri arasında Konstantin tacı, Karakalla qülləsi və Müqəddəs Mələk qəsri xüsusilə seçilirlər.

Antik abidələr Romaya özünəməxsus və təkrarolunmaz görünüş

---

* ***Daklar***. Şimali Frakiya tayfaları qrupu. Qədim müəlliflərə görə Dunay çayı və Karpat dağları arasında yaşamışlar. Eramızın II əsrinin əvvəllərində romalılar tərəfindən zəbt olunmuşlar.

** ***Amfiteatr*** (yunan mənşəli sözdür) – Qədim Romada kütləvi tamaşalar (qladiatorların vuruşu, vəhşi heyvanların döyüşü, teatrvari digər tamaşalar) göstərilən monumental tikili. Amfiteatrın ortasında arena, onun ətrafında isə pillə-pillə qalxan tamaşaçı yerləri var idi.

*** ***Qladiator*** (latın dilindən tərcümədə qılınc mənasını bildirir) – Qədim Romada amfiteatr səhnələrində bir-biri və ya heyvanlarla silahlı döyüş üçün, xüsusi təlim keçmiş qullar, hərbi əsirlər, məhkum edilmiş cinayətkarlar və s. şəxslər.

**** ***Panteon*** – Romada bütün Allahlara həsr edilmiş məbəd. Qədim Roma memarlığının görkəmli abidəsi. Eramızdan əvvəl təqribən 125-ci ildə tikilmişdir.

verir. Müasir Romanın görkəmini, əsasən XV-XVIII əsrlərin tarixi – memarlıq abidələri müəyyənləşdirir. Romanın mərkəzi sayılan Venetsiya meydanında II Viktor Emmanuilin (XIX əsr) möhtəşəm abidəsi ucalır. Bütün baş magistrallar və küçələr bu meydandan şaxələnirlər. Saraylar və böyük binaların yerləşdiyi küçələr, daş pillələr düzülmüş dar küçələrin və dalanların olduğu qədim məhəllələrlə əvəz olunur.

Roma nadir, yüksək bədii tərtibatlı fəvvarələr şəhəridir. Onların arasında Bernininin layihəsi əsasında tikilmiş məşhur Tveri fəvvarəsi xüsusilə seçilir. Şəhərə gələn əcnəbi turistlər xatirə olaraq bu fəvvarənin hovuzuna xırda pul sikkələri atırlar. Romanın park və bağları arasında, Villa Barqoze parkı diqqəti cəlb edir. Burada dahi italyan heykəltaraş və rəssamlarının əsərləri toplanmışdır. Bernininin "Appolon və Dafna" əsəri (XVII əsr) bu parka gələnləri heyran edir.

Romada çoxlu sayda mədəni-maarif və elmi müəssisələr – 1303-cü ildə əsası qoyulan Roma Universiteti, Milli Akademiya (1603), müxtəlif ixtisaslar verən digər Ali təhsil müəssisələri, iki milyon kitabı olan Milli Kitabxana, Milli Muzey, Qədim Etnoqrafiya Muzeyi, Müasir mədəniyyət milli qalereyası, Culiya villa muzeyi və s. fəaliyyət göstərir.

Roma - katolik kilsəsinin beynəlxalq mərkəzidir. Roma Papasının iqamətgahı olan Vatikan şəhər-dövləti, Roma təpəliklərindən birində yerləşir. Vatikan muzeyi, əsrlər boyu toplanmış sərvətlərə görə Roma muzeyləri arasında birinci yeri tutur.

Romanın ətrafı da həmişə turistlərin diqqət mərkəzində olmuşdur. Romadan cənub-qərbdə yerləşən, hələ Roma imperiyası dövründə villaları* ilə şöhrət qazanan Fraskati şəhərciyi və ondan bir qədər aralıda yerləşən Albano gölü, Roma sakinlərinin sevimli istirahət yerləridir. Romalıların daha bir sevimli istirahət mərkəzi olan Tivoli, Romadan 35 km şərqdə yerləşir. Burada qədim Roma məbəd və villalarının qalıqları qorunub saxlanılmışdır. Onların arasında parkı və məşhur fəvvarəsi olan d'Este villası diqqəti cəlb edir.

İtaliya paytaxtı sakinlərinin əksəriyyəti, yay aylarında ən yaxın kurortların (Fümiçino və Lido-di Roma) yerləşdiyi Tirren dənizi sahillərində istirahət etməyə üstünlük verirlər. Bu iki kurortun arasında, Tibr çayı sahilində ölkənin mühüm turizm mərkəzi olan Ostiya-

---

* ***Villa*** (latın mənşəli sözdür, malikanə, mülk kimi başa düşülür) - bağı, yaxud parkı olan şəhərkənarı mülk. İlk villalar eramızdan əvvəl III əsrdə İtaliyada yaranmışdı. Bizim dövrümüzdə hər cür məişət şəraiti olan şəhərkənarı tək ailəlik ayrıca evi də çox vaxt villa adlandırırlar.

Antika yerləşir. Herodotun göstərdiyinə görə, e.ə. X əsrdə şərqdən üzüb gələn etrusklar* məhz bu sahilə çıxmışlar. Onlar həmin bölgədə yaşayan digər qəbilələri sıxışdırıb çıxarmış, Appenin yarımadasının içərilərinə doğru irəliləmiş və göllərin sahillərində, məhsuldar ərazilərdə məskunlaşmışlar.

E.ə. VIII-VII əsrlərdə, daş divarlarla əhatələnmiş etrusk şəhərləri yaranmağa başlamışdı. E.ə. IV-III əsrlərdə romalılar etruskları özlərinə tabe etmişlər. Həmin dövrün inkişaf etmiş şəhərlərindən olan Veyn, Tsere darmadağın edilmişdir. Bu şəhərlərdə olan Akropol**, məbəd və digər abidələrin, həmçinin Tarkuiniya, Peruca şəhərlərində etrusk mədəniyyətinin çoxsaylı abidələrinin qalıqları əcnəbi və italyan turistlərini cəlb edir.

Mərkəzi İtaliyanın Viterbo, Spoleto, Assizi, Qubbio və Orvieta şəhərlərindəki orta əsrlərin çoxsaylı mədəniyyət abidələri böyük maraq doğurur. İtaliyanın mərkəzi hissəsinin Adriatik dənizi sahillərində yerləşən Pezaro, Fano, Seniqaliya, Ankona, San-Benedetto-del-Tronto kurortları xüsusilə seçilirlər.

**Neapol və Cənubi İtaliya turizm bölgəsi.** Neapol, Neapolitan körfəzinin şimal sahillərində, Vezuvinin ətəklərində yerləşir. Yunanlar tərəfindən salınmış şəhər əvvəllər Neapolis (Yeni şəhər) e.ə. III əsrdə romalılar tərəfindən zəbt edildikdən sonra Neapol adlandırılmışdı. Müasir Neapol - Cənubi İtaliyanın mühüm sənaye və mədəni mərkəzidir. Buludsuz, mavi səma, əsrarəngiz dəniz, çoxsaylı mədəniyyət abidələri, hər il əcnəbi və yerli turistlərinin kütləvi surətdə bu yerlərə gəlişini təmin edir.

Eramızın əvvəllərinə aid yazıları olan kitabxanalar, Neapolun qədim abidələrindəndir. Orta əsrlərə aid memarlıq abidələri arasında San-Elmo, Kastel-del-Ovo və digər qalalar xüsusilə fərqlənirlər. Araqonlu Alfonsun Zəfər Tağı (XV əsr), "Porta Kapuana" qapısı (XV əsr), Kral muzeyi (XV-XVI əsrlər), San-Françesko-di Paolo kilsəsi və s. Neapolun İntibah dövrünə aid tanınmış abidələridir. Pompey və Herkulanumda aparılan qazıntılar zamanı tapılmış qədim abidələr Neapol Milli muzeyində saxlanılır.

İtaliyanın bu turizm bölgəsində ən gözəl yer - Kapri adasıdır.

---

* ***Etrusklar*** - eramızdan əvvəl birinci minillikdə Appenin yarımadasının şimal-qərbində yaşamış tayfa. Etrusklar romalılardan əvvəl inkişaf etmiş mədəniyyət yaratmışdı. Onların İtaliyanın mədəni inkişafında mühüm rolu olmuşdur.

** ***Akropol*** (yunan mənşəli sözdür, yuxarı şəhər mənasını bildirir) - qədim yunan şəhərlərinin istehkama çevrilmiş hündür hissəsi. Mühüm idarələr, məbədlər Akropolda tikilirdi. Müharibə zamanı Akropol qala kimi şəhər sakinlərinin sığıncağı idi.

Adanın mənzərəli landşaftı, təbiət möcüzəsi olan, təbii surətdə işıqlanan dərin mağaralar ("Mavi", "Mirvari" və s.), özünəməxsus məişət ənənələri olan kiçik şəhərlər, hər il çoxsaylı turistləri buraya cəlb edir. Əlverişli çimərlikləri və çoxlu mehmanxanaları olan İskya adası, Neapoldan bir qədər cənubda yerləşir.

Neapoldan cənubda, Vezuvinin ətəyində qədim İtaliya şəhəri olan Pompey yerləşir. Pompey və Herkulanum şəhərləri, b.e.-nın 79-cu ilində vulkan püskürməsi nəticəsində 7-8 m vulkan lavasının altında qalmışdır. Şəhər indiyədək, fəlakətin baş verdiyi zamanda olduğu kimi qorunub saxlanılır. Pompeydə imperator Siseronun bağı, imperator Klavdinin villası, varlı adamların malikanələri, kasıb komaları, sənətkarların emalatxanaları, dükanlar və s. saxlanılmışdır. Pompey, Qədim Romanın ən maraqlı muzeyidir. Şəhərdə aşkar olunan əşyalar Neapol Milli muzeyində nümayiş etdirilir. Muzeyin ekspozisiyası eramızın I əsrində həmin şəhər həyatının mənzərəsini çox gözəl əks etdirir.

Neapolitan körfəzinin cənub-qərbində məşhur Sorrento sahil kurortu yerləşir. Salerno körfəzi sahillərində isə tanınmış Pozitano, Amalfi, Ravello, Salerno kurortları fəaliyyət göstərir. Salernodan 43 km cənubda yaxşı vəziyyətdə saxlanılmış Poseydon yunan məbədi və e.ə. V-IV əsrlərə aid digər memarlıq abidələri qalmaqdadır.

İtaliyanın cənubunda gözəl və zəngin tarixi-memarlıq abidələri ilə tanınan Bari, Brindizi, Matera, Krotone, Qallipoli, Leççe, Foca, Kozensa və digər şəhərlər yerləşir. İtaliyanın bu hissəsində sahilboyu Paola, Amantea, Banyara-Kalabra kurortları, Qambaris - d'Aspromonte, San-Covannini kimi dağ kurortları fəaliyyət göstərir.

Siciliya adasındakı Taormika, Aqricento, Palermo şəhərlərində çoxsaylı tarixi-memarlıq abidələri vardır. Siciliyanın əsas turizm mərkəzi olan Sirakuz - antik dövrün möhtəşəm və zəngin şəhəri kimi, Afina, Roma və Karfagenlə rəqabət aparırdı. E.ə. V əsrə aid olan, Esxil və Platonun da ziyarət etdiyi qədim yunan teatrı, həmçinin qədim Roma amfiteatrı və s. şəhərin görkəmli yerlərindəndir.

Sardiniya adasında, xüsusilə onun şimal-şərq hissəsində narın, gümüşü qumlu çimərliklər turistlərin xoşladıqları yerlərdir. Bu bölgəyə gələn turistlər dünyanın ən böyük asma (dayaqları olmayan) körpüsünü də görə bilərlər. Piyadalar üçün nəzərdə tutulmuş, uzunluğu 362 m olan bu körpü 2001-ci ildə istifadəyə verilmişdir. Tirren dənizinin Neapolitan körfəzində Progida adasını sahil ilə birləşdirən bu körpü, dəniz səthindən 20 m hündürlükdə salınıb. Ginnesin Rekordlar kitabına düşmüş bu körpünün tikintisi zamanı - 40 borudan,

2500 m kanatdan, 500 m polad təbəqədən istifadə olunmuşdur. Asma körpü Vezuvi vulkanının yaxınlığında yerləşdiyindən turistlər ondan çox istifadə edəcəklər[1].

**Florensiya və Mərkəzi İtaliyanın şimal hissəsinin turizm bölgəsi.** İntibah dövrünün nadir rəsm əsərləri və memarlıq abidələri ilə zəngin olduğu üçün, Florensiyanı haqlı olaraq muzey-şəhər adlandırırlar. Leonardo da Vinçi, Mikelancelo, Qaliley kimi məşhur rəssam və alimlərin həyat və fəaliyyəti bu şəhərlə bağlı olmuşdur. Santa-Mariya-del-Fiore kilsəsi (XIII-XV əsrlər), San-Covanni baptist* məbədi (XI-XIII əsrlər), Mikelancelonun "David" heykəli, Santa-Trinita kilsəsi (XIII-XIV əsrlər) şəhərin görkəmli yerlərindəndir. Santa-Mariya Novella, San-Lorenso, Mikelancelonun məzarı yerləşən Santa-Kroçe, San-Marko muzey-monastırı, Podesta saray-muzeyi, Mediçi-Rikardo və s. misilsiz memarlıq abidələridir. Şəhərin muzeyləri, xüsusilə də Uffisa rəsm qalereyası incəsənət əsərləri ilə zəngindir.

Bu turist bölgəsində yerləşən Pistoya, Prato, Lukka kimi şəhərlər, tarixi-memarlıq abidələri ilə zəngindir. Bu ərazidə yerləşən, ölkənin dəbdə olan balneoloji kurortlarından biri Montekatini - Termenin mineral mənbələrinin müalicəvi əhəmiyyəti hələ qədim zamanlardan məlum idi.

Adriatik dənizi sahillərində yerləşən Adriatika Rivyerası, Ravennadan-Kattolikayadək sahəni tutur. Adriatika və Liqur Rivyeralarında yay isti və günəşli keçir. Liqur sahillərində payız nisbətən tez girir . Adriatika Rivyerasında Ravenna, Çerviya, Çezenatiko, Rimini, Kattolika kimi sahil kurortları fəaliyyət göstərir. Rimini kurortunun yaxınlığından, hələ Sezar dövründən məlum olan Rubikon adlı kiçik çay axırdı (hazırda qurumuşdur).

Bu turist bölgəsinin qərbində, Tirren dənizinin şimal hissəsində əlverişli iqlimi və qumlu çimərlikləri olan Elba adası yerləşir. 3 may 1814-cü ildən - 26 fevral 1815-ciilədək Fransa imperatoru Napoleon taxt-tacdan birinci dəfə məhrum edildiyi dövrdə burada sürgündə yaşamışdır.

**Lombardiya turizm bölgəsi.** Bu turizm bölgəsi Alp dağlarının ətəklərindən Po çayına qədər olan bütün Lombardiya vilayətini əhatə edir. Vilayətin baş şəhəri olan Milan, ölkənin iri sənaye və mədəniyyət mərkəzidir. Şəhər özünün çoxsaylı tarixi-memarlıq abidələri,

---

[1] "Итоги" jurnal, №30. Moskva, 2001.

* ***Baptistlər*** - Protestanlıq təriqətlərindən birinin tərəfdarları. Baptizmin təliminə görə, insanın xilası kilsənin vasitəçiliyi ilə deyil, yalnız İsaya şəxsi etiqad yolu ilə mümkündür.

muzey və teatrları ilə turistləri cəlb edir. İtalyan memarlığının nadir abidələrindən olan möhtəşəm, qotik üslubda ağ mərmərdən tikilmiş Kafedral kilsə (XIV-XIX əsrlər), həmçinin Santa-Mariya-della-Qratsiya qəsri (XV əsr) bu şəhərdə yerləşir.

Milanda fəaliyyət göstərən rəsm qalereyaları arasında Brera bədii qalereyası (XVII əsr) xüsusilə seçilir. Bütün dünyada məşhur "La Skala" opera teatrı Milandadır. Azərbaycanın məşhur müğənnilərindən Bülbül, Şövkət Məmmədova, Rəşid Behbudov və b. müğənnilik sənətini "La Skala" da daha da təkmilləşdirmişlər. Lombardiyanın mənzərəli gölləri olan Komo, Luqano, Loqo-Macoro, İzeo geniş tanınır. Bu göllərin sahillərində və adalarda dəbdəbəli kurortlar vardır. Laqo-Macore və Komo gölləri sahillərində daha çox kurort fəaliyyət göstərir:

Komo gölü sahillərində - Komo, Çernobbio, Bellaco, Bellano, Menaco kurortları, Laqo-Macore gölü sahillərində - İntra, Pallansa, Streza, Belcirate, Meyna, Arona kurortları seçilir. Luqano gölü sahillərində - Kampiene - d'İtaliya və Porlessa, İzeo gölü sahilində - Lovere, Pizonye, Marone, İzeo kurortları yerləşir.

Lombardiyanın şərqində, İtaliyanın ən böyük gölü olan Qarda sahilindəki çoxsaylı kurortlar arasında Qardone-Rivyera, Malçezine, Riva və Torbole xüsusilə fərqlənirlər. E.ə. VI əsrdə əsası qoyulmuş qədim Poviya şəhəri bu zonanın görməli yerlərindəndir. Şəhərin tarixi-memarlıq abidələri çoxdur. Breşna, Mantuya, Berqamo kimi şəhərlər də turistlərin diqqətini cəlb edir.

**İtaliyanın şimal-qərb hissəsinin turizm bölgəsi.** Bu bölgədə turistlərin toplaşdığı əsas mərkəz, Fransa sərhədindən - Piza şəhərinədək olan ərazini əhatə edən Liqur Rivyerasıdır. Rivyeranın iqlimi mülayim, çox da isti keçməyən yayı (iyulun orta temperaturu müsbət 25 dərəcə) və yumşaq qışı ilə xarakterikdir. Liqur Rivyerasının mənzərəli sahilləri, subtropik bitkilərlə örtülüdür.

Liqur Rivyerası üç: Fransa sərhədindən - Genuyayadək (Rivyeradi-Ponente), Genuyadan - Spesiyayadək (Rivyeradi-Livante) və Spesiyadan-Piza şəhərinədək (Rivyera-della-Versiliya) hissəyə ayrılır. Ventimilya, Bordigera, San-Remo, İmperiya, Diano-Marina, Alassio, Loano, Finale-Liqure və Savona, Rivyeradi-Ponentenin daha çox tanınmış kurortlarındandır. Rivyeradi-Livantedə - Nervi, Ranollo, Santa-Marqarita-Liqure, Levanto kurortları, Rivyera-della-Versiliyada isə - Massa, Marina-di-Massa, Ferte-di-Marmi, Viareco kurortları fəaliyyət göstərir.

İtaliyanın ən qədim şəhərlərindən olan Genuya, Liqur Rivyerası-

nın inzibati mərkəzidir, şəhərin zəngin, yüksək bədii üslubda tikilmiş abidələri arasında XVI-XVII əsrlərin mərmər sarayları, Dorian-Tiran palasso*, Rosso palasso və Bianko palasso, Santa-Mariya-di-Karinyano kilsəsi, San-Lorenso kilsəsi (XII-XVI əsrlər) daha çox tanınır. Stalneo qəbristanı (XIX-XX əsr heykəlləri ilə zəngindir), Liqur memarlıq və heykəltaraşlıq muzeyi, Xristofor Kolumbun evi Genuyanın görməli yerlərindəndir.

Fransa və İsveçrə ilə həmsərhəd olan Pyemont və Valle d'Aosta əyalətləri, çoxlu müalicəvi mənbələri və sağlam iqlimi ilə, yay və qış istirahətinin təşkili üçün çox əlverişlidir. Pyemont əyalətinin inzibati, sənaye və mədəni mərkəzi olan Turin şəhəri, həm də ölkənin avtomobil sənayesi mərkəzidir. Antik mədəniyyət muzeyinin yerləşdiyi Madama palassosu, qədim silahlar kolleksiyası toplanan Kral sarayı, qədim şəhər darvazası, Misir muzeyi və Sabauda zəngin rəsm qalereyası yerləşən Elmlər Akademiyası sarayı, şəhərin tarixi-memarlıq abidələri arasında xüsusilə seçilirlər.

Bu zonada yerləşən İvrsa, Aosta və Alba şəhərləri də çoxsaylı turistləri cəlb edir. İtaliyanın şimal-qərb turist zonasının dağ kurortları arasında Limone-Pyemonte, Sestriyere, Sen-Vensen, Kurmayer, Qressone-la-Trinite, Brey, Bardonekkya seçilir.

**İtaliyanın şimal-şərqi hissəsinin turizm bölgəsi.** İtaliyanın şimal-şərq hissəsində turistlərin toplaşdıqları əsas mərkəz olan Venetsiya, dünyanın ən gözəl və özünəməxsus şəhərlərindən biridir. Şəhər çoxsaylı kanallarla bir-birindən ayrılan onlarla adada yerləşir. Qondolalar** və motorlu qayıqlar şəhər nəqliyyatının əsas növüdür. Kanalların üzərindən çoxlu körpülər salınmışdır. Şəhərin əsas arteriyası sayılan Qrande kanalının sahillərində qədim saraylar və kilsələr yerləşir. Venetsiyanın tarixi mərkəzi Müqəddəs Mark meydanı, Müqəddəs Mark kilsəsi və Dojlar (respublika başçıları) Sarayı ilə əhatə olunmuşdur. Şəhərdəki Akademiya qalereyası, Korrer muzeyi xüsusilə seçilirlər. Dəbdəbəli dəniz sahili kurortu olan Lido, Venetsiya yaxınlığındadır.

Ölkənin şimal-şərqində yerləşən Paduya, Verona, Viçensa, Bolonya şəhərləri də turistlərin diqqətini cəlb edir. Paduya, özünün bədii

---

* ***Palasso*** (latınca mənası saray deməkdir) - İtaliya Renessansı üçün xarakterik olan saray, başqa sözlə mülk tipi. XV əsrdə meydana gəlmişdir. Palassoların birinci mərtəbəsində xidmət, ikincidə qonaq, üçüncüdə yaşayış otaqları yerləşirdi. Adətən, mülklər taclı sıra sütunlarla əhatələnən daxili həyətdən ibarət olurdu.

** ***Qondola*** (italyan mənşəli sözdür) - bir avarlı yastıdibli qayıq. Uc hissələri dikdir. Onlardan əsasən Venetsiya kanallarında turist gəzintisində istifadə edilir.

sərvətləri və 1222 ildə əsası qoyulmuş universiteti ilə tanınır. Nadir incəsənət əsərləri kolleksiyası olan Sant-Antonio kilsəsi, baptisteriya (XII əsr), pasasso-della-Racone (XIII əsr) dahi Cottonun misilsiz freskaları* ilə bəzədilmiş Kopella-del-Arena, Paduyanın memarlıq abidələri arasında daha maraqlılarıdır. "Yıxılan qüllə" də şəhərin görməli, yerlərindən sayılır.

Verona - İtaliyanın ən qədim şəhərlərindən biridir. Şəhərdə, antik mədəniyyətə, orta əsr və İntibah dövrünə aid çoxsaylı abidələr qorunub saxlanılmışdır. Şəhərin memarlıq abidələri arasında Romadakı Kolizeydən sonra ikinci böyük amfiteatr olan Arena, Kastilvekko qalası (XIV əsr, hazırda bədii muzey yerləşir), qotik üslubda tikilmiş Santa-Anastasiya kilsəsi (XIII əsr, Pizanellonun nadir freskaları ilə bəzədilmişdir), xüsusilə seçilirlər. Della-Skala sülaləsi hökmdarlarının (XIV əsr) məqbərələri üzərindəki heykəllər də diqqəti cəlb edir.

Viçensa - İntibah dövrünə aid memarlıq abidələri ilə tanınan şəhərdir. Andrea Palladionun yaradıcılığının məhsulu olan abidələr, Poloninin evi, palasso Byeqo, bazilika, Lociya-dal-Kapitano, Olimpiko teatrı və s. memarlıq abidələri arasında xüsusilə seçilirlər.

Bolonya - çoxsaylı tarixi-memarlıq abidələri olan şəhərdir. Onların arasında San-Petronio kilsəsi (yarımçıq qalmışdır), palasso-del-Podesta, "Neptun" monumental fəvvarəsi diqqəti cəlb edir. Şəhərdə bir sıra muzeylər, o cümlədən Rafaelin əl işləri olan rəsm qalereyası fəaliyyət göstərir. Bolonya, Avropada ilk universitet şəhərlərindən biridir (universitetin əsası 1088 ildə qoyulmuşdur). Alp dağları, bu turist bölgəsində turistlərin toplaşdıqları mühüm mərkəzlərdən biridir. Bu ərazidə dağ-idman turizminin intensiv inkişafı üçün çox əlverişli şərait vardır. Geniş vadilərlə kəsişən dağ massivləri çox mənzərəlidir. Bu vadilərdə Kortina-d'Ampesso, Bressanone, Merano, San-Martino-di-Kastrossa kimi bütün dünyada tanınmış dağ-idman kompleksi mərkəzləri yerləşir.

* * *

İtaliyada turizm sənayesinin inkişaf tarixi 100 ildən artıq bir dövrü əhatə edir. Bu müddət ərzində ölkə, dünyanın aparıcı turizm mərkəzlərindən birinə çevrilmişdir. 1991-ci ildə Aralıq dənizi hövzəsinə gələn turistlərin 36 faizi İtaliyanın payına düşmüşdür.

Ölkədə turizm sənayesinin və mehmanxana xidmətinin inkişafı

* ***Freska*** (italyan mənşəli sözdür) - boyakarlıq texnikası. Freska təmiz, yaxud əhəngli su ilə qarışdırılmış rənglərlə yaş suvaq üzərinə çəkilir. Freskada əhənglə birləşməyən və zaman keçdikcə dəyişməyən rənglərdən istifadə olunur.

məqsədi ilə 1983-cü ildə turizmin inkişafı və təkmilləşdirilməsi üzrə əsas Qanun qəbul edildi. Həmin qanunda regional səviyyədə turizmin idarə olunması və fəaliyyət qaydaları da öz əksini tapdı. Ölkənin mehmanxana təsərrüfatının təyinatı və dərəcələnməsi, nəqliyyat və turizm müəssisələrinin, ictimai cəmiyyətlərin turizm fəaliyyəti ilə məşğul olmasına icazə verilməsi şərtləri, dövlət tərəfindən turizm fəaliyyətinin müdafiə olunması və s. müəyyənləşdirildi.

Əcnəbi turistləri cəlb edən amillər - dağlar, göllər və mədəni sərvətlər İtaliyanın əsas turizm ehtiyatlarıdır. Mütəxəssislərin fikrincə, əcnəbi turistlərin ölkəyə gəlişinin əsas səbəbləri: ölkənin mədəni-tarixi sərvətləri (qonaqların 45 faizi), təbii-iqlim şəraiti (13 faiz), təbiət gözəllikləri (27 faizi), 30 faizi isə digər səbəblərə görə gəlmişlər.

İtaliyada beynəlxalq turizm əsasən, ölkənin şimalında cəmləşmişdir. 1990-cı ildə əcnəbilərin ölkədə keçirdikləri ümumi turist - günlərin 57 faizi bu ərazinin payına düşmüşdür. Xarici turistlərin qəbulu uzrə birinci yeri Venetsiya şəhəri (20 faiz) tutur, sonrakı yerləri Toskano və Alto-Adice şəhərləri (hər biri 13 faiz) tuturlar.

Daxili turistlər (39 mln. nəfərə yaxın) istirahətlərini əsasən öz vilayətləri ərazisində olan kurort zonalarında keçirməyə üstünlük verirlər. Bunun əsas səbəblərindən biri, məsələn, qonşu Fransada olduğu kimi, inkişaf etmiş avtomobil yolu şəbəkəsinin olmamasıdır. İtaliyanın şimal vilayətlərinin sakinləri, yaxınlıqda yerləşən əlverişli yay iqlimi olan dəniz sahillərində istirahət edirlər. Beləliklə, dənizə çıxışı olan Emiliya-Romanya, Venetsiya və Toskananın şəhərləri, həmçinin qış-idman növlərinin inkişaf etdiyi Lombardiya vilayəti, hər biri orta hesabla daxili turistlərin 10 faizini qəbul edir.

Turist axını (xüsusilə də yerli turistlər) iki yay ayı müddətində (iyul-avqust) xeyli artır, bir sıra vilayətlərin yerləşdirmə vasitələrində yerlərin tutulması 40 faiz çoxalır. Bu isə şəhərlər və ona yaxın kurortlar üçün bir sıra problemlər yaradır. Mehmanxanaların 46,1, mehmanxana yerlərinin 40,8 faizi ölkənin şimal-şərq hissəsinin payına düşür. Mehmanxanaların 18,5 faizi və yerlərin 13,7 faizi Trentino - Alto-Adice vilayətində cəmləşmişdir.

İtaliyanın mərkəzi hissəsinin sahil ərazilərində əsasən düşərgə şəhərcikləri yerləşir. Cənub hissədə isə mehmanxana yerlərinin çatışmaması ilə əlaqədar, icarəyə verilən yerlər üstünlük təşkil edir. Amma, turistlərin yerləşdirmə vasitələrinin plansız və nəzarətsiz artımı, ətraf mühitə mənfi təsir göstərir. Digər tərəfdən, turizm bölməsi bilavasitə sənaye zonalarına yaxın ərazilərdə inkişaf edir. Bu isə inki-

şaf etmiş həmin sənaye bölməsini turizmə cəlb etmək məqsədi güdür.

Ötən əsrin 80-ci illərində, İtaliyanın cənub regionu olan Medzocornoda ("Cənub ölkəsi") turizm infrastrukturunun inkişafı layihəsinin həyata keçirilməsi üçün Avropa Birliyi tərəfindən 34,9 mln. ekyu ayrıldı. Bu layihənin məqsədi - turizm sənayesinin inkişafı, iş yerlərinin açılması, immiqrasiyanın qarşısının alınması, geridə qalan yerli iqtisadiyyata investisiya ayrılması demək idi. Layihənin həyata keçirilməsi nəticəsində əlavə olaraq, 65 min mehmanxana yeri istifadəyə verildi.

İtaliyanın mehmanxanalarında və digər yaşayış vasitələrində hər il demək olar ki, 60 mln. turist yaşayır, onların 35 faizini isə bir qayda olaraq xarici turistlər təşkil edir. Yerli və əcnəbi turistlərin 85 faizinin yaşadıqları mehmanxanaların payına düşən turist - günlərin sayı 75 faiz təşkil edir. Xarici və daxili turistlərin əksər hissəsi üç ulduzlu mehmanxanalarda yaşamağa üstünlük verirlər (1996-cı ildə 85,2 mln. turist - gün).

1997-ci ildə İtaliyada 35870 mehmanxananın hər birində orta hesabla 49 yerin olması qeydə alınmışdır. Ölkədəki bütün mehmanxanaların 30,6 faizi bir ulduzludur. Yaşayış otaqlarının 15,1, ümumi yerlərin 14,2 faizi onların payına düşür. Digər mehmanxanaların payı üzrə faiz göstəriciləri belədir: iki ulduzlu mehmanxanalar - 32,4 faiz (yaşayış otaqları - 25 faiz, yerlərin sayı - 24,4 faiz); üç ulduzlu mehmanxanalar - 30 (42,3 və 44); dörd ulduzlu mehmanxanalar - 6,2 (16,3 və 16,4); beş ulduzlu mehmanxanalar - 0,3 (0,8 və 0,8 faiz). İtaliyada mehmanxanada yaşayış və qidalanmanın qiyməti, coğrafi zonadan, mövsümdən, otelin dərəcəsindən və digər amillərdən asılıdır.

İtaliyaya gələn turistlərin əksəriyyəti qonşu ölkələrin - Almaniya, Fransa, Avstriya və İsveçrə vətəndaşlarıdır, onların da yarıdan çoxunu bir günlük və ya tranzit turistlər təşkil edir.

Ölkəyə gələnlərin sayına və qalma müddətlərinə görə almanlar liderdir. Nəzərə almaq lazımdır ki, digər ölkələrdən, məsələn, ABŞ və Yaponiyadan gələn turistlər əsasən, üç mədəni mərkəz - Roma, Florensiya və Venetsiya arasında hərəkət etdikləri üçün, onların qalma müddətlərinin davamiyyət hesabının aparılmasında çətinlik yaranır. Xarici qonaqların hansı ərazilərdə istirahətə üstünlük verdiklərinə gəldikdə isə, qeyd etmək lazımdır ki, Avstriyalı turistlərin əksəriyyəti - Adriatik dənizi sahillərində, dörddə biri - şəhərlərdə, on faizi isə dağlarda istirahət edirlər. Fransızların 50 faizi şəhərlərə, 25 faizi isə dəniz sahillərinə gəlir.

Xarici ölkələrdə nümayəndəlikləri olan Milli Turizm İdarəsi

(italyan dilində abbreviaturası ENİT), ölkədə turizmin inkişafında böyük rol oynayır. Bu təşkilat bir sıra ölkələrdə öz fəaliyyətini dövlətəməxsus "Alitaliya" aviaşirkəti vasitəsilə həyata keçirir. ENİT-in əsas vəzifəsi, beynəlxalq turizm bazarının konyukturasının* öyrənilməsi, reklam tədbirlərinin həyata keçirilməsi və ölkəyə xaricdən turist axınının artırılmasıdır. Son illərdə İtaliyada beynəlxalq turizmin nisbətən tənəzzülə uğraması nəzərə çarpsa da, Şərqi Avropa ölkələrindən gələn turistlərin sayı sürətlə artır.

İtalyanların çox az hissəsi öz məzuniyyətlərini ölkə hüdudlarından kənarda keçirirlər. İtaliyanın turizm ehtiyatlarının müxtəlifliyi yerli əhaliyə öz ölkələrində istirahət etməyə imkan verir. Bununla yanaşı, iqtisadiyyatın inkişafı və sərhəd-valyuta nəzarətinin azaldılması, ölkədən getmə turizminin inkişafına təkan vermişdir. Məsələn, 1999-cu ildə 16,9 mln. italyan xarici ölkələrə səyahət etmişdir. Onlar əsasən yaxınlıqda yerləşmiş ölkələrə səfər edirlər.

Son zamanlar ölkədən getmə turizminin artması, İtaliya kurortlarının yüklənməsini nisbətən azaltmışdır. Bununla yanaşı, İtaliyanın tarixi-bədii abidələrinin unikal xarakteri, hələ uzun müddət xarici qonaqları cəlb edəcəkdir. Ona görə də, abidələrin mühafizəsi və turizm mərkəzlərinə gələn turist axınının idarə olunması aktual məsələ olaraq qalır.

İtaliya, xarici turistlərin qəbuluna görə (1999-cu ildə 36,1 mln. nəfər) Fransa, İspaniya və ABŞ-dan sonra dördüncü yer tutur. Ümumdünya miqyasında qəbulun 5,6 faizi İtaliyanın payına düşür. Turizm fəaliyyətindən daxilolmalar 30,4 mlrd. ABŞ dolları (ümumdünya daxilolmalarının 6,8 faizi) təşkil edir.

Onu da qeyd etmək lazımdır ki, İtaliyanın yerləşdirmə vasitələri (1,8 mln. yer - 2000-ci il) xarici turistlərin qəbulunu daha da artırmağa imkan verir.

---

* ***Konyuktura*** (latın mənşəli sözdür, birləşdirmə mənasını bildirir) - tələblə təklifin həmin anda nisbətini müəyyənləşdirən konkret iqtisadi, sosial, siyasi, təşkilatı və s. şərtlərin məcmui.

## 11.3. YUNANISTAN

| |
|---|
| **Ərazisi: 132,0 min kv.km. Dünyada 94-cü yer.**<br>**Əhalisi: 11,0 mln. nəfər (2000). Dünyada 70-ci yer.**<br>**Paytaxtı: Afina (3,5 mln. nəfər - 2000).**<br>**Dövlət (rəsmi) dili: Rəsmi dil - Yunan dili.**<br>**Din: Pravoslavlıq.**<br>**Milli pul vahidi: Drahma.** |

Yunanıstan Avropanın cənub-şərqində, Balkan yarımadasının cənub hissəsində Egey, İon və Aralıq dənizindəki adalarda yerləşir. Şimalda Bolqarıstan (sərhədin uzunluğu 494 km) və Makedoniya (228 km), şimal-qərbdə Albaniya (282 km), şimal-şərqdə Türkiyə (206 km) ilə həmsərhəddir. Cənubda Aralıq, şərqdə - Egey, qərbdə İon dənizlərinin suları ilə əhatə olunur. Ölkə ərazisinin beşdə birini: Krit, Evbeya, Rodos, Lesbos adaları təşkil edir.

Relyefinə görə Yunanıstan dağlıq ərazidir. Onun materik hissəsinin qərb və cənub-qərbində yerləşən uzun və hündür dağlar silsiləsi Pind sistemini təşkil edir. Ölkənin şərqində ucalan daha yüksək dağ massivində ən hündür zirvə olan Olimp dağı (2917 m) yerləşir. Ərazinin böyük hissəsi dəniz səviyyəsindən 200-1200 m yüksəklikdədir.

Ölkənin sahil xətti girintili-çıxıntılıdır. Sahillərinin girintili-çıxıntılığına görə, Yunanıstan dünyada birinci yeri tutur. Çaylar azsulu və gəmiçilik üçün yararsızdır. Alyakmon, Axeloos, Strimon (Struma), Nestos nisbətən böyük çaylardır. Ərazinin 11 faizi meşələrlə örtülüdür. Yunanıstanın iqlimi əsasən Aralıq dənizi tiplidir. Yay davamlı, isti və quru, qış isə qısa və yumşaq keçir. Dağlarda iqlim nisbətən soyuq (xüsusilə qış aylarında) və daha rütubətlidir. Ölkənin şimalında yanvarın orta temperaturu müsbət 4, Egey dənizinin cənub hissəsində 11-13 dərəcədir. Ovalıq ərazilərdə havanın orta temperaturu bəzi hallarda 40-45 dərəcəyə qədər yüksəlir. Sahil bölgələrdə dənizdən əsən yel havanın hərarətini nisbətən yumşaldır.

Saloniki, Patrı, İraklion və Volos Afinadan sonra ölkənin iri şəhərləri, Aleksandrupolis, İraklion, Patrı, Rodos və Saloniki isə əsas portlarıdır.

Əhalinin 95 faizindən çoxu yunanlardır. Etnik qruplardan nisbətən böyük olanları türk, alban və erməni icmalarıdır. Orta ömür müddəti: kişilər üçün 75, qadınlar üçün 80 ildir.

İnzibati cəhətdən Yunanıstan ərazisi 13 yeparxiyadan ibarətdir.

Yeparxiyalar öz növbəsində 51 noma (prefekturaya) bölünür. Ölkə qanunvericiliyi Roma hüququna əsaslanır. İcraedici hakimiyyət prezidentə (dövlət başçısı) və Baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunvericilik fəaliyyətini birpalatalı parlament həyata keçirir.

25 mart – İstiqlaliyyət günü (1821-ci ildə Yunanıstanın azadlığı uğrunda müharibənin başlanması günü) Milli bayram kimi qeyd olunur. 1830-cu ildə Türkiyə əsarətinə son qoyulmuş və Yunanıstan müstəqillik əldə etmişdir.

Yunanıstanda faydalı qazıntılardan liqnit, boksit, nikel, maqnezit, mərmər və s. çıxarılır. Naksos adasında dünyada ən iri najdak (sumbata) yataqları vardır.

Yeyinti, yüngül, toxuculuq, dağ-mədən, kimya və metallurgiya sənayesi daha çox inkişaf etmişdir. Kənd təsərrüfatı (balıqçılıq və meşəçilik də daxil olmaqla) ÜMM-nin 17 faizini təmin edir. Əsas kənd təsərrüfatı məhsulları: buğda, darı, zeytun, üzüm, tütün, kartof və şəkər qamışıdır. Ət və süd məhsulları istisna olmaqla, ölkə ərzaq məhsulları ilə özünü tam təmin edir.

* * *

Turizm, iqtisadiyyatın mühüm bölmələrindən biridir. Ölkənin ayrı-ayrı bölgələrinin xüsusiyyətləri (coğrafi mövqeyi, iqlimi, tarixi, turist axınının istiqaməti və s.) nəzərə alınmaqla, Yunanıstanı dörd turizm bölgəsinə ayırmaq olar: Orta və ya Mərkəzi Yunanıstan – qədim Ellada; Şimali Yunanıstan; Poleponnes yarımadası və Yunanıstan adaları.

**Mərkəzi Yunanıstan turizm bölgəsi.** Yunanıstanın paytaxtı və Avropanın ən qədim şəhərlərindən olan Afina, bu bölgədə turistlərin toplaşdıqları mühüm mərkəzlərdən biridir. Müasir Afina orta əsrlərədək kiçik şəhər olmuşdur. 1821-1827-ci illərdə türk işğalçılarına qarşı milli azadlıq mübarizəsi başa çatdıqdan sonra Afina ölkənin inzibati və mədəni mərkəzinə çevrilmişdir.

Qədim Afinada Yunanıstan tarixinin antik Roma və Bizans dövrünə aid olan abidələri çoxdur. Şəhər sakinlərinin düşməndən qorunması üçün tikilmiş Afina Akropolu məşhurdur. Akropolun müdafiə divarlarının bir hissəsi hələ e.ə. II minillikdə tikilmişdir. E.ə. VI əsrdə Akropolda bir çox əlavə binalar tikilmiş, heykəllər ucaldılmışdır. Onların böyük hissəsi dağıdılsa da, turistlərdə qədim Yunanıstanın memarlığı haqqında tam, təsəvvür yaradır. Akropolun memarlıq ansamblındakı bir sıra monumental binalar indiyədək qorunub saxlanılmışdır.

Afinaya təntənəli giriş – Propiley (e.ə. V əsr), Parfenon (Bakirə

Afina məbədi, Afina-Parfenos) və s. Akropolun yaxınlığında Dionis teatrı, Odeon, Zevs məbədi (b.e-nın II əsri) və s. yerləşir. Şəhərin arxeoloji və tarix muzeylərində qədim dünyanın mədəniyyət abidələri qorunub saxlanılır. E.ə. V əsrə, Perikl (Afina xalqının rəhbəri) dövrünə aid olan abidələr, onların arasında xüsusi yer tutur. "Tarixin atası" Herodot, filosof Anaksaqor, dahi yunan dramaturqu Sofokl, Heykəltaraş Fidiy və Qədim Yunanıstanın digər məşhur alim, yazıçı və rəssamları da həmin dövrdə Afinada yaşamışlar.

Qədim Yunanıstanın dini mərkəzlərindən biri olan Pireneyli Apollon məbədinin qalıqları, Mərkəzi Yunanıstanda, Parnas dağının cənub ətəyində - Delfada yerləşir. Həmin məbəd e.ə. 548-ci ildə yanmışdır. Delfada "Pifiya oyunları", müğənnilərin, musiqiçilərin, idmançıların yarışları keçirilirdi. Delfada, Apollon məbədinin qalıqlarından əlavə, Dionis teatrı və stadionun qalıqları da saxlanılır.

Afinadan 42 km aralıda məşhur Marafon ərazisi yerləşir. E.ə. 490-cı ildə Afina ordusu, bu ərazidə fars qoşunlarını məğlub etmişdir. Bu yerdə hündür təpəlik yaradılmış və həmin döyüşdə həlak olan afinalı döyüşçülər orada dəfn edilmişlər. Yunanların farslar üzərində qələbəsi xəbərini Marafondan Afinaya çatdırmaq üçün, döyüşçülərdən biri bu məsafəni dayanmadan qaçmış, Afinaya çatdıqdan sonra ölmüşdür. "Marafon qaçışı" ifadəsi də o zamandan qalmışdır. 1896-cı ildə Afinada keçirilən ilk Olimpia oyunları zamanı, Afina ilə Marafon arasındakı trassda* ilk dəfə olaraq qaçış üzrə yarış keçirilmişdir.

Qədim akropolun, antik teatrın və Bizans dövrünə aid iyirmi tağı olan körpünün yerləşdiyi Larisa şəhəri, ingilis şairi Bayronun Yunanıstanın azadlığı uğrunda döyüşdüyü və 1824-cü ildə vəfat etdiyi Mesolongion şəhəri (İon dənizi sahilində port), Bizans mədəniyyətinin nadir abidələrinin olduğu Dafni şəhəri (Afina yaxınlığında) bu bölgənin görməli tarixi yerlərindəndir.

Mərkəzi Yunanıstanın dəniz sahilləri, özünün bol günəşli çimərlikləri ilə əla istirahət zonasıdır. Afinadan cənuba doğru sahil zolağı, Yunanıstanın ən məşhur kurort ərazilərindəndir. Bu ərazidə eyni zamanda e.ə. V əsrə aid Paseydon məbədi və digər mədəniyyət abidələri də vardır. Qlifada, Muliaqmen, Loqonissi və s. kurortlar da burada yerləşirlər. Afinadan 14 km şimalda yerləşən Kifisiya kurortu zəngin flora və gözəl mənzərəsi ilə çoxsaylı turistləri cəlb edir. Afinadan şimalda və şimal-şərqdə yerləşən Porto-Fafti, Lutsa, Rafina, Nea-Marki və Şiniya narın qumlu çimərlikləri ilə seçilir.

---

* ***Trassa*** (alman mənşəli sözdür, xəttin, yolun istiqaməti mənasını bildirir) - hərəkətin yolunu müəyyən edən xətt, təsdiq olunmuş marşrut.

Afinadan qərbdə yerləşən Lutrakion balneoloji kurortu geniş şöhrət qazanmışdır. Mərkəzi Yunanıstanın şərq sahillərində yüksək radioaktiv suları olan Kammena, Vorla, İpati (Lamiya yaxınlığında) və Platistomon (Lamiyadan 30 km aralı) balneoloji kurortları fəaliyyət göstərir.

Volos şəhəri yaxınlığında, Pilion dağı (1651 m) və ətraf ərazilər, dağlarda istirahət üçün bütün Yunanıstanda ən əlverişli şəraiti olan yerlərdir. Larisadan 50 km şimal-qərbdə perspektivli Platamon kurortu yerləşir.

**Şimali Yunanıstan turizm bölgəsi.** Bu bölgə Makedoniya, Roma və Bizans dövrlərinin tarixi abidələri ilə zəngindir. Əhalisinin sayına və iqtisadi qüdrətinə görə ölkənin ikinci böyük şəhəri olan Saloniki bu ərazidə, Egey dənizinin eyni adlı körfəzi sahilində yerləşir.

E.ə. VI əsrdə Saloniki Bizans imperiyasının iri ticarət mərkəzi olmuşdur. Salonikidəki Bizans dövrünün mədəniyyət abidələri öz zənginliyinə görə yalnız İstanbulda olan Bizans abidələri ilə müqayisə edilə bilər. Müqəddəs Georgi rotondası* (V əsr), Müqəddəs Dmitri (V əsr), Müqəddəs Sofiya bazilikaları (VII-VIII əsrlər), Apostollar kilsəsi (XIV əsr) bu abidələr arasında xüsusilə seçilirlər. Salonikidən cənubda, Kasandra, Sitoniya yarımadalarında əla çimərliklər vardır.

**Peloponnes turizm bölgəsi.** Bu bölgə Peloponnes yarımadasını tamamilə əhatə edir. O, Balkan yarımadası ilə uzunluğu 6,3 km olan Korinf keçidi ilə birləşir. E.ə. XVI-XII əsrlərdə Aralıq dənizi rayonunda geniş yayılan Miken mədəniyyəti bu ərazidə bərqərar olmuşdur. Bu bölgəyə gələn turistlər Korinf, Miken, Epidavros, Sparta kimi qədim şəhərləri və Olimpin xarabalıqlarını ziyarət edirlər.

E.ə. IX əsrdə salınmış Korinf uzun əsrlər boyu Qədim Yunanıstanın zəngin şəhər-dövlətlərindən biri olmuş və Peloponnesdən Elladaya gedən yolu nəzarətdə saxlamışdır. Korinfdə Akrokorinf istehkamı (dəniz səviyyəsindən 900 m yüksəklikdə) kimi antik dövrün memarlıq abidəsi qorunub saxlanılmışdır. İstehkamın içərisində Afrodita və Apollon məbədləri yerləşir.

Mikendə e.ə. XIV əsr qalasının qalıqları saxlanılmışdır. Burada aparılan arxeoloji qazıntılar nəticəsində çar Aqamemnonun və onun arvadı Klitemnestranın məqbərələri, həmçinin qiymətli əşyalar saxlanılan anbar aşkar edilmişdir.

Epidavros, təəccüb doğuran akustikası (əks-səda) olan qədim

---

* ***Rotonda*** (latın dilindən tərcüməsi - dairəvi) - adətən gümbəz ilə tamamlanan dairəvi planlı tikili. Qədim yunan monumental dini tikililəri. XVIII əsrdən isə park və bəzi meydanlar rotonda üslubunda tikilirdi.

teatrı ilə tanınır. E.ə. IV əsrdə tikilmiş və 16 min tamaşaçı üçün nəzərdə tutulmuş həmin teatrda indi də müxtəlif musiqi və teatr tamaşaları təşkil olunur. Epidavros, qədim dövrlərdə təbiblik (sağlamlıq) Allahı Eskulapın ibadət yeri olmuşdur. Müxtəlif xəstəliklərə düçar olmuş insanlar bütün Aralıq dənizi rayonlarından buraya axışır və Eskulapa qurbanlar kəsirdilər. Epidavrosu dünyanın ilk balneoloji kurortu hesab etmək olar. Epidavrosda Eskulap məbədinin qalıqları qorunub saxlanılmışdır.

Qədim Yunanıstanın möhtəşəm şəhər-dövləti olan Sparta, hazırda kiçik bir şəhərdir. Şəhərdə qədim dövrün abidələrinin az bir hissəsi qorunub saxlanılmışdır. E.ə. XII əsrədək Spartada qədim Miken mədəniyyətinin bir neçə mərkəzi fəaliyyət göstərmişdir. E.ə. VIII əsrdə yaranmış Sparta dövləti uşaqların tərbiyə üsulu ilə də məşhur olub. Belə ki, 7 yaşdan 18 yaşadək olan oğlan uşaqları dövlətə məxsus xüsusi müəssisələrdə yaşayır və hərbi təlim-tərbiyə alırdılar. Qədim Yunanıstanın gələcək döyüşçüləri fiziki dözümlülük və hərbi təlimi Spartada öyrənirdilər. Bir neçə əsr ərzində Sparta öz hərbi üstünlüyünü saxlamış və Afinaya qarşı Peloponnes müharibəsində (e.ə. 431-404-cü illər) bütün Yunanıstan üzərində öz hegemonluğunu təsdiq etmişdir. E.ə. II əsrdə bütün Yunanıstan, o cümlədən Sparta Romanın əsarəti altına düşmüşdür.

Olimpiya qədim Yunanıstanın bədii-əyləncə mərkəzidir. E.ə. V əsrdə burada Allahların və insanların çarı və atası, ildırım, şimşək və yağış Allahı Zevsin şərəfinə məbəd tikilmiş və heykəl qrupları ilə bəzədilmişdir. Məbəddə dahi yunan heykəltaraşı Fidinin qızıl və fil sümüyündən hazırladığı Zevsin heykəli ucalırdı. Olimpiyada hər dörd ildən bir (e.ə. 776-cı ildən - 394-cü ilədək) Zevsin şərəfinə bayram günlərində məşhur Olimpia oyunları keçirilirdi. Bu oyunların keçirildiyi müddətdə bütün Yunanıstan ərazisində müharibələr qadağan olunurdu. Zevs məbədinin yaxınlığındakı sahədə bu oyunların qaliblərinə heykəl qoyulurdu.

Peloponnesin şimal sahillərində bir sıra dəniz kurortları fəaliyyət göstərir. Onların arasında, Eyon, Diapokton, Ksilokastron (Yunanıstanda ən geniş və uzun çimərlik sahəsi buradadır) kimi kurortlar xüsusilə seçilirlər. Patradan 92 km. aralıda Kilini, Pirqosdan cənubda isə Kayyafa kurortu yerləşir. Peloponnesin balneoloji kurortları arasında Kalini, Bani, Kalabriya, Metana və Milon daha çox tanınır.

**Yunanıstan adaları turizm bölgəsi.** Bu adalar turizmin inkişafı üçün əlverişli şəraitə malikdirlər. Krit, Evbeya və Rodos adalarında

istirahət üçün yaradılmış geniş imkanlar, görməli tarixi yerlərə baxış keçirilməsi ilə daha da zənginləşir.

Krit sahəsinə görə ən böyük adadır. Arxeoloji qazıntılar göstərir ki, e.ə. III əsrdə artıq bu adada yüksək inkişaf etmiş cəmiyyət yaranmış və iki min il ərzində çiçəklənmişdir. Adanın ərazisində Knossda qədim sarayın xarabalıqları (e.ə. XIV əsr) və Fastosdakı sarayın qalıqları qorunub saxlanılır. Burada Roma və Bizans dövrlərinə aid digər abidələr də vardır.

Egey dənizində yerləşən yunan adaları da tarixi abidələrlə zəngindir. Yunanıstanın materik hissəsindəki abidələr kimi, bu adalarda yerləşən mədəniyyət abidələri də əsasən e.ə. III-II minilliklərə - ibtidai-icma quruluşunun ləğvi və sinfi münasibətlərin yaranması dövrünə aiddir.

Egey dənizində Kritdan sonra ikinci böyük ada olan Evbeyada, müalicəvi mineral mənbələri olan Edipsos kurortu yerləşir. Hələ qədim romalılar bu sulardan istifadə etmişlər. Bu adanın rekreasiya imkanları çox böyükdür. Onun Xalkisdən Aliveriona qədər olan ərazisi əlverişli çimərlik təşkil edir.

Rodos adası əla çimərlikləri ilə tanınır. Burada antik dövrə aid çoxsaylı memarlıq abidələri (o cümlədən Lindosdakı akropol) vardır. Egey dənizində yerləşən kiçik adalardan: Deks adası (iki min il tarixi olan abidələr, o cümlədən saray və evlərin qalıqları, şir heykəlləri cərgəsi), Milos adası (burada məhəbbət ilahəsi olan Miloslu Afrodita Veneranın heykəli aşkar olunmuş, hazırda Luvr muzeyində saxlanılır), Egina adası (Afina ilahəsi məbədinin qalıqları adanın şərqində qorunub saxlanılmışdır), tanınmış kurort mərkəzi olan Samofrakiya adası (burada qədim məbədlərin xarabalıqları qalır, adada tapılmış qanadlı Qələbə ilahəsi olan Samofrakiyalı Nika heykəli Luvrdadır) daha çox tanınır.

Salamin adasında turistlərin qəbulu üçün lazımi maddi-texniki baza vardır. Egey dənizinin Saronikos körfəzində yerləşən Paros adası daha mənzərəlidir. Ada şam meşəsi ilə örtülüdür. Adada Poseydon məbədinin qalıqları saxlanılır. İon dənizində yerləşən Korfu adası özünün çoxsaylı mehmanxanaların və kazinoları ilə ölkənin təmtəraqlı kurortu hesab olunur.

* * *

Yunanıstanda uzun illər turizmin yalnız tarixi-mədəni istiqamətinə diqqət verildiyi üçün, kütləvi turizm nisbətən yeni sahə kimi inkişaf edir. Tarixi-mədəni turizm İkinci Dünya müharibəsindən sonra sürətlə inkişaf etmiş, əsasən ABŞ-dan olan turistləri daha çox ma-

raqlandırmışdır. 1967-ci ildə ölkədə hərbi çevriliş baş verdikdən sonra, turizm tənəzzül etmişdi. Həmin dövrdə Aralıq dənizi hövzəsində yerləşən digər qonşu ölkələrdə turizm sahəsi isə inkişaf edirdi.

1974-cü ildə Yunanıstan yenidən demokratiya yoluna döndükdən sonra, ölkədə çimərlik turizmi (xüsusilə də adalarda) coşğun inkişaf etməyə başlayaraq, Fransa, İspaniya və digər Aralıq dənizi sahili ölkələrinin məşhur kurortları ilə rəqabətə girdi.

Ötən əsrin 70-ci illərində Yunanıstana əsasən Böyük Britaniya və Almaniyadan turistlər gəlirdi. Artıq 80-ci illərdə konkret bazarlardan asılılığı ləğv etmək, Avropanın müxtəlif ölkələrindən turistləri cəlb etmək üçün Yunanıstan, turizmin kütləvi və digər növlərini inkişaf etdirməyə başladı. Ölkənin əlverişli coğrafi mövqeyi və stabil iqtisadi-siyasi vəziyyəti buna imkan yaradırdı. 1999-cu ildə ölkə cəmi 12,0 mln. qonaq qəbul etmişdir. Bu, dünya üzrə 13-cü yer deməkdir.

Yuxarıda deyildiyi kimi, Yunanıstanın turizm sahəsi üçün əsas bazar olan Britaniyadan gələnlərin sayı, son iki onillikdə 10 faiz artaraq, 1999-cu ildə ümumi qəbulun 22 faizini təşkil etmişdir. Sonrakı yerləri Almaniya - 19,9, İtaliya - 6,4, Niderland - 5,6, Fransa - 5,6 faiz və b. tuturlar. Ayrı-ayrı ölkələrdən gələn turistlərin səyahət məqsədi də müxtəlif olur. Məsələn, Britaniyadan gələn turistlərin əksəriyyəti istirahət (62 faiz), 3 faizi isə tarixi-mədəniyyət abidələri ilə yaxından tanış olmaq məqsədi ilə bu ölkəyə səyahət edirlər.

İspanların (41,0 faiz), yaponların (35 faiz) və italyanların (25 faiz) çoxu isə əksinə, mədəni-tarixi turizmə üstünlük verirlər. Turistlərin ölkə ərazisində hərəkəti də müxtəlif ölkələrdən gələnlər arasında fərqlidir: məsələn, ispanlar və amerikalılar əsasən, antik dövrün tarixi, memarlıq və mədəniyyət abidələri ilə zəngin olan paytaxtda dayanırlar, almanlar, britaniyalılar, isveçlilər və hollandlar isə adalarda olmağa üstünlük verirlər. Turistlərin yaş fərqinə gəldikdə isə, gənc turistlər, gəldikləri ölkədən asılı olmayaraq, bir yerdə dayanmamağa, ölkə üzrə səyahət edərək bir neçə turizm bölgələrində olmağa üstünlük verirlər.

Turistlərin böyük əksəriyyəti ölkəyə iyul-avqust aylarında, nisbətən az hissəsi iyunda və sentyabrda, martda və oktyabrda gəlir. Beləliklə, Yunanıstanda xarici turizmin mövsümiliyi, digər Aralıq dənizi ölkələrindən çox fərqlənmir. Ölkədə xarici turistlərin qəbulu üçün 585 min mehmanxana yeri mövcuddur. 1999-cu ildə xarici turizmdən daxil olmalar təxminən 8,8 mlrd. ABŞ dolları təşkil etmişdir.

Yunanıstan vətəndaşları əsasən iş axtarmaq və ya qohumları ilə görüşmək məqsədi ilə xarici ölkələrə səyahət edirlər. 1999-cu ildə 4

mln-a yaxın yunan xaricdə olmuşdur.

# 11.4. ANDORRA

**Ərazisi: 465 kv. km. Dünyada 176-cı yer.**
**Əhalisi: 68 min nəfər (2000). Dünyada 183-cü yer.**
**Paytaxtı: Andorra-la-Velya (25 min nəfər - 2000).**
**Dövlət (Rəsmi) dili: Rəsmi dil - Katalon dili.**
**Din: Katolisizm**
**Valyuta: Özünün pul vahidi yoxdur, dövriyyədə ispan peseti və fransız frankı işlənir.**

Avropanın cənub-qərbində yerləşmiş Andorra dövləti sahəsinə görə Avropanın Mikrodövlətləri içərisində ən böyüyü olsa da, sahəsi Moskva şəhərinin yerləşdiyi ərazidən iki dəfə kiçikdir. Ölkə Şərqi Pireney dağlarının cənub yamacında, Ebro hövzəsinə aid edilən Seqre çayının qolu Valiranın orta və yuxarı axın boyu dağ dərəsində yerləşmişdir. Onu qərbdən, şərqdən və eləcə də Fransa tərəfdən hündürlüyü 3000 m-ə qədər olan sıldırım dağlar əhatə edir.

Andorra Pireneyləri adlanan bu dağların ən hündür zirvələri ölkənin qərbindədir. Koma Pedros adlanan zirvənin dəniz səviyyəsindən hündürlüyü 2946, Kapa zirvəsinin hündürlüyü isə 2629 metrdir. Ölkənin səthi şimaldan cənuba meyilli olsa da, heç yerdə hündürlük 800 metrdən aşağı enmir. Daha doğrusu, ölkənin yerləşdiyi dərə İspaniyaya tərəf hündür deyil. Andorranın İspaniya ilə əlaqələrinin daha geniş olması bir çox səbəblər, o cümlədən ölkənin coğrafi mövqeyi və relyefi ilə bağlıdır.

Andorranın dağ massivlərinin əksəriyyəti bərk kristallik süxurlardan (qranit, qneys, kvarsit)* ibarətdir. Andorra relyefində buzlaq dövrünün təsiri güclü hiss olunur. Valira çayı dərəsində qədim buzlaqların fəaliyyəti açıq-aydın çoxdur. Dağlarda gözəl mənzərəli buzlaq mənşəli göllərə rast gəlmək olar. Çaylarda və göllərdə forel (alabalıq) balıqları üstünlük təşkil edir.

Valira və Ordino çay dərələrinin bir-birilərinə yaxınlaşdığı yerlər Andorranın ən məskunlaşmış bölgəsidir. Ölkə dağlıq ərazidə yerləşdiyindən buranın iqlim, torpaq və bitki örtüyü üçün hündürlük qur-

---

* ***Qranit*** - kristalik (dənəvari) maqmatik suxur. Yer qabığında ən çox yayılmış suxurlardan biridir. Tikintidə, heykəltaraşlıqda istifadə olunur.

***Qneys*** - şistvari və zolaqvari metomorfik suxur, çınqıl hazırlanmasında və üzlük material kimi işlədilir.

***Kvarsit*** - kvars dənələrindən ibarət sıx metomorfik suxur. Odadavamlı məmulatlar hazırlanmasında və inşaatda dekorativ material kimi istifadə olunur.

şaqlarının üstünlük təşkil etməsi səciyyəvidir. Andorranın yerləşdiyi coğrafi enliklərdə iqlim bir qədər yumşaq olmalı idi. Amma bu belə deyil. Dağlarda yay ayları sərin, qış isə əslində soyuq keçir. Yanvar ayının orta temperaturu dağlıq hissələrdə mənfi 15 dərəcəyədək enir. Bu hissələrə yağan qar altı ay ərimir. Hündür dağ yamaclarına bir ildə orta hesabla 1200, İspaniya ilə sərhəd bölgələrinə isə 500 mm-ə qədər yağıntı düşür. Ərazi kiçik olsa da, şimalına nisbətən cənubunun iqlimi sərt deyil. Cənubda yanvar ayının orta temperaturu mənfi 2, iyulun ki, isə müsbət 20 dərəcədir. Cənubda tez-tez quraqlıq baş verdiyindən əkin və otlaq yerləri süni suvarma tələb edir.

Andorra Mikrodövlət olsa da, faydalı qazıntılarla yaxşı təmin olunmuş ərazilərdən biridir. Burada yüksək keyfiyyətli dəmir filizi ilə yanaşı qurğuşun, gümüş yataqları da var. Ərazinin əksər yerlərində şist yataqlarına* rast gəlmək olar. Xrisoberil, əqiq, yaşma kimi qiymətli və yarımqiymətli daşlar aşkar edilib. Dağ yamaclarında və dərələrdə müxtəlif tərkibli müalicə və mineral bulaqlar üzə çıxır. Ekoloji tarazlığı pozmamaq məqsədilə bu sərvətlərdən demək olar ki, istifadə olunmur.

Andorra barədə ilk yazılı məlumat eramızın 778-ci ilinə təsadüf edir. O vaxtlar İspaniyanın Kataloniya tarixi-coğrafi əyalətinin Seude-Urxel şəhərində yaşayanlar ərəb ordusuna müqavimət göstərə bilmədiyindən şəhəri tərk edib üzü dağlara tərəf qaçaraq Pireney dağlarının hündür düzənliklərində məskunlaşırlar. O vaxtki, Fransa imperatoru Böyük Karl isə ərəb qoşunlarının şimala irəliləməsinin qarşısını alır və Pireney dağlarında sığınacaq tapmış İspaniya "köçkünlərini" İspaniyanın Urxel yepiskopunun sərəncamına verir. Orta əsrlərdə Andorra Fransanın de Fua qraf nəslinin və Urxel yepiskopluğunun himayəsi altında idarə olunub.

Əlbir rəhbərlik barədə Fransa ilə İspaniya arasında 1278-ci ildə xüsusi kompromis müqavilə (akt pareaj) imzalanır. Bundan sonra de Fua qraflarının Andorra üzərindəki hüquqları Fransa dövlətinin əlinə keçir.

Böyük Fransa inqilabından sonra Fransa hökuməti Andorra üzərindəki feodal hüquqlarından imtina etsə də, 1806-cı ildə Napoleon əvvəlki münasibətləri bərpa edir, yəni Andorra yenə də Fransadan asılı vəziyyətə düşür. 1993-cü ilə qədər Andorra rəsmi şəkildə Fransa və İspaniya protektoratlığı altında feodal knyazlıq şəklində idarə olunurdu. Əlbir rəhbərlər (Fransa prezidenti və Urxel yepiskopu) Vikari

---

* ***Şist*** – yanar şistlərdən aşağı keyfiyyətli yanacaq, kristallik şistlərdən isə tikinti materialı, həmçinin odadavamlı xammal kimi istifadə olunur.

adlanan ölkə başçısını təyin edirdilər. Vikari Fransa və İspaniyanın təyin etdiyi nümayəndə olsa da, mütləq andorralı və daima Andorra ərazisində yaşayan şəxs olmalı idi.

1993-cü ildə qəbul olunmuş yeni konstitusiyanın müstəqillik və dövlət quruluşu barədə maddələrinə müvafiq olaraq həmin ilin iyul ayında Fransa Respublikası və İspaniya krallığı Andorranın yeni, müstəqillik statusunun əsasını qoydu.

Yeni konstitusiyaya əsasən Andorra parlamentli knyazlıq şəklində idarə olunur. Tarixi ənənələrə müvafiq olaraq Urxel yepiskopluğu və Fransa prezidenti ölkə müstəqilliyinin təminatçıları (qarantları) funksiyasını öz üzərinə götürmüşlər. Konstitusiyaya görə Andorra beynəlxalq müqavilələr bağlayarkən, daxili təhlükəsizlik, müdafiə və sərhəd problemlərinə dair hər hansı əhəmiyyətli bir addım atsa, mütləq Fransa və İspaniya ilə məsləhətləşməlidir.

Ölkənin ali qanunverici orqanı bir palatalı parlamentdir. Andorrada bu Baş Şura adlanır. Maraqlıdır ki, Avropada İslandiyadan sonra tarixilik baxımından ikinci parlament Andorrada yaranıb. Ölkə parlamenti 1419-cu ildən fəaliyyət göstərir. Baş Şura hökumətin fəaliyyətinə nəzarət edir, dövlət büdcəsini təsdiq edir, sindik adlanan parlament sədrini, onun müavinlərini və Baş naziri seçir. Baş nazir öz fəaliyyətində parlament qarşısında məsuldur.

1999-cu ilin məlumatlarına əsasən Andorrada 68 min nəfərə yaxın adam yaşayır. Bunlardan 20 min nəfəri yerli andorralı, qalanları immiqrantlar, daha doğrusu 30 min nəfəri ispan, 8 min nəfəri portuqaliyalı, 5 min nəfəri fransız, digərləri isə başqa xalqların nümayəndələridir.

Andorrada yaşayanların üçdə-iki hissəsi şəhər sakinləridir. Bütün göstəricilərə görə ölkənin ən böyük şəhəri - paytaxtı Andorra-la-Velyadır. Şərqi Pireney dağlarının ətəklərində Valira çayı sahilində yerləşmiş bu şəhərin təbii mənzərəsi çox gözəgəlimlidir. Əvvəllər kiçik əyalət şəhərini xatırladan paytaxtda son 50 ildə ultramüasir mehmanxanalar, restoranlar, kempinqlər, dövlət müəssisələri, mədəni-maarif ocaqları tikilib istifadəyə verilmişdir. Ölkənin paytaxtı beynəlxalq əhəmiyyətli turizm mərkəzidir. Şəhərin mərkəzi hissəsində 1508-ci ildə tikilmiş və yerlilərin "Vadilər malikanəsi" adlandırdıqları bina ucalır. Uzun müddət ölkə parlamenti, hökuməti, məhkəməsi, mehmanxanası, hətta həbsxanası belə bu binada yerləşirdi. İndi isə bu bina turistlərin böyük marağına səbəb olan obyektlərdən biridir.

Andorranın memarlıq abidələri arasında Sant-Roma d'ovinya və Sant-Roma-dels-Vilars (IX-XI əsrlər), Sant-Culiya-de-Loriya, Sant-

Joan-de-Kasel-les və Santa-Koloma (XII əsr) kilsələri seçilirlər. VII-X əsrlərə aid ərəb qalalarının, Qədim Roma dövrünə aid iki ədəd tağlı körpünün qalıqları, Ankler dağında de'Fua qrafları qəsrinin (XII əsr) xarabalıqları, uca qülləleri və interyerində taxta oyamaları olan kiçik kilsə (XI-XII əsrlər) qorunub saxlanılmışdır.

İkinci Dünya müharibəsindən əvvəl Andorraya gələnlər əsas etibarilə onun balneoloji kurortlarında istirahət etməyə, müalicə olunmağa və ya qışda xizəkdə sürüşməyə üstünlük verirdilər.

XX əsrin əllinci illərindən Fransa və İspaniyada turizm sahəsi sürətlə inkişaf etməyə başladığından bunun əks-sədası Andorraya da təsir göstərdi, başqa sözlə desək Fransa və İspaniya turizmi ölkənin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırdı, çünki şimaldan, əsasən Fransadan İspaniyaya və əks istiqamətdə İspaniyadan Fransaya hərəkət edən turistlər Andorradan keçirdilər. Ona görə də bu ölkəyə gələn turistlərin təqribən yarısını fransızlar və ispanlar təşkil edir. Onların əksəriyyəti Andorraya istirahət günləri və bayramlarda gəlirlər.

1950-ci illərin əvvəllərində, ilin yeddi ayı qarla örtülü olan Soldeu kəndində fransızlar ilk Alp klubu təşkil etmişdilər. Hazırda burada ümumi məsafəsi 80 km olan beş dağ-xizək məntəqəsi fəaliyyət göstərir. Bu məntəqələr hər il təxminən 10 milyon turist və ekskursiyaçılara xidmət edir.

Andorra iqtisadiyyatının əsasını ticarət və xarici turistlərə xidmət sahələri yaradır. Turizm ilə yanaşı ölkə iqtisadiyyatında tütünçülük və onun emalı sahələri də xüsusi yer tutur. Paytaxt yaxınlığında pendir, mineral su hazırlayan bir neçə müəssisə var. Bundan başqa turistləri dünyanın bütün guşələrində özünə cəlb edən kustar məmulatlar, suvenir (xüsusilə qiymətli daşlar və ağac üzərində işləmələr) istehsal edən kiçik emalatxanalar fəaliyyət göstərir.

Andorrada xidmət sahəsi və turist-mehmanxana infrastrukturu yaxşı inkişaf etmişdir. Azad, rüsumsuz ticarət, yay və qış kurortları turistləri cəlb edən əsas amillərdir. Həmçinin Andorranın mənzərəli təbiəti və dağ-xizək idmanı ilə məşğul olmaq, əcnəbi turistləri bu ölkəyə cəlb edir.

## 11.5. VATİKAN (şəhər-dövlət)

**Ərazisi: 0,44 kv.km. Dünyanın həm ərazicə, həm də əhalinin sayına görə ən kiçik dövlətidir.**
**Əhalisi: 800 nəfər (2000).**
**Paytaxtı: Vatikan.**
**Dövlət (rəsmi) dili: Rəsmi dilləri - Latın və italyan.**
**Din: Katolisizm.**
**Valyuta: Vatikan lirəsi.**

İtaliyanın paytaxtı Roma ərazisində (Monte-Vatikano təpəliyi) yerləşən şəhər-dövlətdir. Romada və onun ətrafında, ümumi sahəsi 0,7 kv.km olan üç kilsə (Santa-Mariya Macore, San-Covanni Laterano və San-Paolo-fuori le-Mura), həmçinin bir sıra saraylar və villalar Vatikana məxsusdur. Roma yaxınlığında Kostel-Qandolfo qəsrində Papanın yay şəhərkənarı iqamətgahı yerləşir. Vatikanın 800 nəfər daimi vətəndaşı vardır. Onların böyük əksəriyyəti italyanlardan və isveçrəlilərdən (ənənəyə görə Vatikan qvardiyası isveçrəlilərdən təşkil olunur) ibarətdir.

Vatikan, katolik dininin dünyəvi mərkəzidir. Vatikanın əhalisi, 70 dini şəxsdən, 104 isveçrəli qvardiyaçıdan, 150 papa jandarmından təxminən 500-ə qədər də mülki şəxsdən ibarətdir. Dövlət quruluşuna görə Vatikan mütləq teokratik* monarxiyadır. Dövlət başçısı - Roma Papasıdır. 16 oktyabr 1978-ci ildən əslən polyak olan II İohann Pavel (Karol Voytıla) Roma Papası seçilmişdir. Ona qədər isə əsrlər boyu Papa dini rütbəsinə yalnız italyanlar seçilirdilər. Vatikanda mütləq hakimiyyət Papaya məxsusdur. Papanın yerində olmadığı vaxtlarda Müqəddəs Roma kilsəsinin Kamerlanqi Vatikanın işlərinə rəhbərlik edir. Vatikanın həmçinin öz hökuməti - Roma kuriyası var.

Vatikan iri multimilli şirkətlərin səhmlərinə malikdir. ABŞ, Böyük Britaniya, İtaliyanın iri bankları ilə əlaqələri sıxdır. Vatikanın səhmlərinin və digər qiymətli dəyərlərinin (o cümlədən qızıl ehtiyatı) ümumi məbləği, qeyri-rəsmi olaraq 13,0 mlrd. ABŞ dolları həcmdə qiymətləndirilir. Filatelistlər** üçün poçt markaları satışı, bütün dünya üzrə roma katoliklərinin üzvlük haqları, poçt açıqcaları və suvenir satışı Vatikanın daimi gəlirini təşkil edir.

---

* ***Teokratik*** (hərfi mənası Allahın hakimiyyəti) - siyasi və dini hakimiyyətin eyni şəxsə məxsus olduğu dövlət forması.

** ***Filatelist*** - marka və digər poçt ödənişi nişanlarını kolleksiya şəklində toplayan adam.

Xarici turizm Vatikan gəlirinin mühüm hissəsidir. Papa dövlətinin buraxdığı sikkələr əsasən numizmatlar* üçün nəzərdə tutulur. Vatikanda toplanan misilsiz, zəngin mədəniyyət və incəsənət xəzinəsi turistlərin böyük marağına səbəb olur.

Meydan və Müqəddəs Pyotr kilsəsi, saraylar və s. Vatikanın tikililər ansamblını təşkil edir. Dünyada ən böyük katolik kilsə sayılan Bramante, Rafael, Mikelancelo və Perussinin ölməz yaradıcılıq nümunəsi olan Müqəddəs Pyotr kilsəsi, İntibah dövrünə aid çoxsaylı kilsə tikililəri arasında birinci yer tutur. Kilsənin inşasına 1452-ci ildə başlanmış və tikinti işləri 120 il davam etmişdir. Kilsənin tutumu 50 min nəfərlikdir. Mikelancelonun "Piyetta" adlanan heykəllər qrupu kilsənin interyerini** bəzəyən nadir bədii sənət nümunələri arasında xüsusi yer tutur. Müqəddəs Pyotr kilsəsinin önündə, Bernini yaradıcılığının şedevri olan Meydan - dünyanın ən gözəl meydanlarından biridir. 4 sıra möhtəşəm sütunlarla əhatə olunmuş Meydan ərazisinin 400 min adam tutumu vardır.

Digər görməli yerlər arasında Sikstin (XV əsr), Paolina (XIV əsr, Mikelancelonun freskaları ilə bəzədilmişdir) və V Nikolay (XV əsr, Belto Ancelikonun freskaları ilə bəzədilmişdir) kapellaları; Reca saray kompleksi (XVI əsr) və Skala Reca (XVIII əsr, saray pilləkənləri); Borcanın aparmatentləri (XVI əsr, Rafael və onun davamçıları tərəfindən bəzədilmişdir), San-Demazo və Belvederin möhtəşəm sarayları (XVI əsr), IV Piyin bağları (XIV əsr) xüsusilə seçilirlər. Vatikanın saraylarında yerləşən bədii muzeylərdə Misir, qədim yunan mədəniyyətinə aid nadir əsərlər, Mikelancelo, Botiçelli, Rafael, Leonardo da Vinçi, Tisian, Veroneze və digər dahi rəssamların məşhur əsərləri saxlanılır.

1603-cü ildən fəaliyyət göstərən Papa Elmlər Akademiyası fizika, riyaziyyat və təbiət elmlərinin tədqiqinə yardım göstərir. Akademiyanın üzvləri müxtəlif ölkələrin tanınmış alimləri arasından seçilərək Papa tərəfindən təyin olunurlar.

Müxtəlif ölkələrdən Vatikana gələn zəvvar qrupları və turistlər Müqəddəs taxt-taca öz ianələrini (Müqəddəs Pyotrun payı) təqdim edirlər. 1999-cu ildə bu məbləğ 63 mln. ABŞ dolları təşkil etmişdir.

---

* ***Numizmat*** (latınca sikkə) - sikkələr (pullar) haqqında elm, pul tarixini öyrənən köməkçi fənn. Numizmat sikkələri və kağız pulları kolleksiya şəklində toplayan kolleksioner.

** ***İnteryer*** (fransız mənşəli sözdür, daxili kimi tərcümə olunur) - memarlıqda binanın daxili quruluşu və tərtibatı. İnteryerlərdə, əsasən məişət səhnələri və tarixi süjetlər təsvir olunur.

# FƏSİL 12.

## MDB ÖLKƏLƏRİNDƏ BEYNƏLXALQ TURİZM

### 12.1. RUSİYA FEDERASİYASI

**Ərazisi: 17,1 mln. kv. km. Dünyada 1-ci yer.**
**Əhalisi: 145,0 mln. nəfər (2000). Dünyada 7-ci yer.**
**Paytaxtı: Moskva (9,0 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Rus dili.**
**Din: Pravoslav, islam.**
**Milli pul vahidi: Rubl.**

İki qitədə - Avropa və Asiyada yerləşən Rusiya Federasiyası (RF) ərazisinə görə dünyanın ən böyük dövlətidir. RF-nin Avrasiyanın 14 dövləti ilə quru sərhədi var. Cənubda və cənub-şərqdə Çin (sərhədin uzunluğu 3645 km), şimal-şərqdə Şimali Koreya (19 km), cənubda Qazaxıstan (6846 km), Monqolustan (3441 km), Gürcüstan (723 km), Azərbaycan (284 km), cənub-qərbdə Ukrayna (1567 km), qərbdə Finlandiya (1313 km), Belorus (959 km), Estoniya (290 km), Latviya (217 km) və Norveçlə (167 km) həmsərhəddir. Bundan əlavə, Rusiya Baltik dənizi sahillərində yerləşən Kalininqrad vilayəti vasitəsilə Polşa (432 km) və Litva (227 km) ilə də həmsərhəddir.

Şimal Buzlu okeanında yerləşən Novaya Zemlya, Severnaya Zemlya, Vayqaç, Frans-İosif Torpağı arxipelağı, Novosibirsk adaları, Vrangel adası, Sakit okeanda yerləşən Kuril adaları (bu adalarının bir neçəsinə - İturup, Kunaşir, Şikotana Yaponiya iddia edir) Rusiyaya məxsusdur. Rusiya şərqdə - Yapon, Oxot, Berinq, qərbdə Baltik dənizi və Fin körfəzinin, cənubda Qara, Azov və Xəzər dənizlərinin suları ilə əhatə olunur. Rusiyanın Şimal Buzlu okeanının bütün dənizlərinə çıxışı var.

Ölkə ərazisinin dörddə üçü düzənliklərdir. Rusiyanın Avropa hissəsində dünyanın ən geniş düzənliklərindən biri olan Şərqi Avropa düzənliyi yerləşir. Bu düzənlik şimal-qərbdə, hündürlüyü 1191 m-dək olan Xibin, cənubda Böyük Qafqaz (Rusiyanın və Avropanın ən uca zirvəsi olan Elbrus - 5642 m burada yerləşir), şərqdə o qədər də hündür olmayan Ural dağları ilə (ən uca zirvəsi Narodnaya dağı - 1894 m) əhatə olunur.

Uraldan şərqdə, geniş bataqlıq sahələri olan Qərbi Sibir düzənliyi uzanır. Bu düzənlik cənub-şərqdə Altay dağları ilə əhatə olunur.

İri çayların vadiləri nəzərə alınmasa, ölkənin şərq hissəsi əsasən dağlıq ərazilərdir. Şərqə doğru dağlar daha sıldırımlıdır. Kamçatka yarımadasında 120 vulkan mövcuddur. Onlardan 23-ü fəaliyyətdədir. Vulkanların ən hündürü Klyuçevskaya Sopkadır (4750 m).

Rusiyada, uzunluğu 10 km-dən artıq olan 120 minə yaxın çay, müxtəlif böyüklükdə və müxtəlif mənşəli 2 mln-a yaxın göl vardır. Ölkənin ən böyük çayları - Volqa, Şimali Dvina, Don, İrtış, Ob, Anqara, Yenisey, Lena və Amurdur. Ən iri göllər - Xəzər dənizi (dünyanın ən böyük gölüdür - 376 min kv. km), Baykal (dünyanın ən dərin - 1620 m gölüdür), Ladoqa və Oneqadır.

Rusiya müxtəlif faydalı qazıntılarla zəngin ölkədir. Onlardan ən mühümləri - neft, təbii qaz, dəmir filizi, qızıl, kömür, müxtəlif polimetallar strateji məhsullardır. Digər təbii ehtiyatlar arasında meşə sərvətlərini qeyd etmək olar. Ölkə ərazisinin 45 faizi meşə və kol bitkiləri ilə örtülüdür.

Rusiya Federasiyasında ən böyük etnik qrup ruslardır (əhalinin 75 faizi). Tatarlar - 4,0, ukraynalılar - 3,0, çuvaşlar - 1,0, başqırdlar - 1,0, beloruslar - 1,0, mordvalılar - əhalinin 1,0 faizini təşkil edir. Rusiyada 100-dən artıq millət və xalq yaşayır. Dindarların böyük əksəriyyəti pravoslavdır. İslam, katolik, iudaizm*, buddizm** (əsasən Buryat, Kalmık və Tuvada) dininə etiqad edənlərdə çoxdur. Orta ömür müddəti: kişilər üçün 64, qadınlar üçün 72 ildir.

Ölkə ərazisinin böyük hissəsi mülayim iqlim qurşağında yerləşir. Ən ucqar şimal bölgələri və şimaldakı adalar Arktika qurşağına aiddir. Bir sıra cənub rayonları isə iqliminə görə subtropiklərə yaxındır. Rusiya ərazisinin iqlimi bütövlükdə demək olar ki, kontinentaldır. Qərb vilayətləri və Qara dəniz sahilləri üçün yumşaq dəniz iqlimi səciyyəvidir.

Ölkə ərazisinin böyük hissəsində qış davamlı keçir. Şərqi Yakut-Saxada daha güclü şaxtalar (mənfi 45-50 dərəcə) müşahidə olunur. Rusiyanın Avropa hissəsində qışda orta temperatur, sıfır – mənfi 5 dərəcəyə qədər olur. Yayda, mülayim qurşaqda temperatur 15-22 dərəcə arasında tərəddüd edir. Moskvada yanvarın orta temperaturu mənfi 9-16, iyulunki isə müsbət 18-23 dərəcə olur.

---

* ***İudaizm*** - dünyəvi dinlərdən biri. Eramızdan 2000 il əvvəl qədim yəhudi qəbilələri arasında yaranmışdır. Təkallahlığa istinad edir. 1948-ci ildən İsrail dövlətinin rəsmi dinidir.

** ***Buddizm*** - dünyəvi dinlərdən biri. Eramızdan əvvəl VI-V əsrlərdə Hindistanda yaranmışdır. Banisi Budda (mənası nurlu deməkdir) adı ilə məşhur olan Siddhartra Qautama hesab edilir. Hindistanla yanaşı, Çin, Hind-Çin, Şri-Lanka kimi ölkələrdə geniş yayılmışdır.

Ölkənin ən iri şəhərləri: Moskva (9,0 mln.), Sankt-Peterburq (4,8 mln.), Nijni-Novqorod (1,4 mln.), Novosibirsk (1,3 mln.), Yekaterinburq (1,2 mln.), Samara (1,2 mln.), Omsk (1,1 mln.), Ufa (1,09 mln.), Kazan (1,08 mln.), Çelyabinsk (1,08 mln.) və Permdir (1,02 mln.). Arxangelsk, Vladivostok, Kaliningrad, Murmansk, Novorossiysk, Naxodka, Maqadan, Sankt-Peterburq, Tuapse iri dəniz, Həştərxan, Volqoqrad, Kazan, Krasnoyarsk, Moskva, Nijni Novqorod, Rostov, Samara, Xabarovsk isə daxili portlardır.

SSRİ-nin süqutundan sonra, Rusiya Sovet iqtisadiyyatının potensialına varis olmaqla yanaşı, bir sıra ciddi problemlərlə: az səmərəli istehsal sahələri, hərbiləşdirilmiş iqtisadiyyat, kənd təsərrüfatının aşağı inkişaf səviyyəsi ilə qarşılaşdı. Ölkə sənayesi əslində bütün sahələrlə təmsil olunur. Neft və neft məhsulları, təbii qaz, kömür, dəmir filizi, əlvan metal, kimyəvi məhsullar, hərbi texnika, meşə materiallarından hazırlanan məhsullar, ölkə ixracının əsasını təşkil edir. Kənd təsərrüfatında ümumi məhsulun 40 faizə qədəri əkinçiliyin, 60 faizi isə heyvandarlığın payına düşür.

12 iyun (Dövlət suverenliyi haqqında Deklarasiyanın qəbul olunduğu gün) və 12 dekabr (Konstitusiya günü) Milli bayramlardır. Dövlət başçısı xalq tərəfindən 5 il müddətinə seçilən prezidentdir. İcraedici hakimiyyət Baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunvericilik fəaliyyətini ikipalatalı parlament (Federal Məclis) həyata keçirir. Parlament, Federasiya Şurasından (Yuxarı palata) və Dövlət Dumasından (Aşağı palata) ibarətdir.

* * *

Rusiyanın gözəl təbiət mənzərələri olan yerləri arasında Qara dəniz sahili kurort zonaları, Qafqaz mineral suları kurortlarını (Kislovodsk, Jeleznovodsk, Pyatiqorsk, Yessentuki), Baykal gölünün mənzərəli sahillərini, Qafqazın dağ-xizək turist bazalarını qeyd etmək olar. Rusiyanın "Qızıl dairə" adlanan turist marşrutu, qədim rus şəhərləri və onların tarixi-memarlıq abidələri ilə tanış olmağa imkan verir.

Rusiyada turistlərin toplaşdığı əsas mərkəzləri və rekreasiya ehtiyatlarını tədqiq etmək üçün, mütəxəssislər ölkəni 8 turist: Şimal-Qərb, Mərkəz, Volqaboyu, Ural, Şimali Qafqaz, Qərbi Sibir, Şərqi Sibir, Uzaq Şərq bölgəsinə ayırmağı məqsədəuyğun hesab edirlər.

**Şimal-Qərb turizm bölgəsi.** Bu bölgə Kareliya və Komi respublikalarını, Sankt-Peterburq, Novqorod, Pskov, Murmansk, Arxangelsk və Voloqda vilayətlərini əhatə edir.

Bölgə iynəyarpaqlı meşələrin, mənzərəli göl və çayların, düzən-

lik və dağlıq sahələrin bolluğu ilə fərqlənir. Bölgənin iqlimi mülayim-soyuq və rütubətli olduğu üçün, piyada, su və xizək idmanı turizmi nisbətən inkişaf etmişdir.

Şimal-qərb bölgəsi tarixi-mədəniyyət abidələri ilə də seçilir. Qədim rus şəhərlərinin tarixi-mədəniyyət abidələri, şimalın ağac məmulatı sənətkarlığı, şimalda yaşayan rus əhalisinin (pomorlar və b.) özünəməxsus məişəti, zəngin xalq folkloru*, nəqqaş ustalarının sümük, metal və ağac üzərindəki əl işləri və s. turistlər üçün böyük maraq doğurur.

**Mərkəz turizm bölgəsi.** Moskva, Kalinin, Vladimir, Ryazan, Tula, Smolensk, Yaroslavl, İvanovo, Kaluqa, Kostroma, Bryansk, Oryol, Belqorod, Voronej, Kursk, Lipetsk, Tambov vilayətləri bu bölgəyə daxildir. Bölgə üçün mülayim-isti yayı və qarlı qışı olan yumşaq – kontinental iqlim xarakterikdir. Dağ turizmi istisna olmaqla, turizmin bütün növləri geniş yayılmışdır.

Ölkənin paytaxtı Moskva şəhəri, daha çox tanınmış turist marşrutu olan "Qızıl dairə” marşrutu üzərindəki Vladimir, Yaroslavl, Suzdal, Zaqorsk, Aleksandrov, Rostov-Velikiy, Kostroma, İvanovo şəhərləri, mənzərəli “Moskva kənarı İsveçrə” (Zveniqorod), kurort zonaları olan Seliger, Valday, Palex, Bryansk meşəsi, Volqa, Klyazma, Moskva çayları, Moskva kanalı, Yasnaya Polyana, Borodino, Spasskoe-Lutovinovo və s. xatirə kompleksləri bu bölgənin ən mühüm turizm obyektləridir.

**Volqaboyu turizm bölgəsi.** Volqa-Vyatka iqtisadi rayonunu (Nijni Novqorod və Kirov vilayətləri), Mari, Mordva, Çuvaş respublikalarını, Orta və Aşağı Volqaboyunu (Tatarıstan, Başqırdıstan və Kalmık respublikaları), Samara, Simbirsk (Ulyanovsk), Volqoqrad, Həştərxan, Penza, Saratov vilayətlərini əhatə edir. Təbii zonaları özündə cəmləşdirən, meşə, meşə-çöl və çöl zonalarından keçən, Volqa və onun qollarını (Sura, Kama, Belaya) əhatə edən bu bölgənin meridianal uzunluğu gəmi ilə səyahətin və suda stasionar** istirahətin təşkili üçün çox əlverişlidir.

Mərkəzi bölgə ilə müqayisədə burada havanın orta illik temperaturu daha yüksək, buludsuz günlərin sayı çox, yağıntının miqdarı isə azdır. Nijni-Novqorod, Samara, Kazan, Volqoqrad, Saratov, Ufa, Ulyanovsk, Həştərxan kimi iri şəhərlərin, sənaye və mədəni mərkəz-

---

* ***Folklor*** (ingilis mənşəli sözdür, hərfi mənası xalq müdrikliyi) – hər hansı bir xalqın bədii yaradıcılıq (şifahi ədəbiyyat, musiqi, teatr, dekorativ – tətbiqi sənət, memarlıq və rəqs) fəaliyyətinin məhsulu.

** ***Stasionar*** – latın dilində tərpənməyən, daima öz yerində qalan mənasını bildirir.

lər olması, bölgədə turizm və ekskursiyaların inkişafına əlverişli şərait yaradır. Volqa deltasında Həştərxan qoruğu, Kapov mağarası və s. də turistlərin diqqətini cəlb edən obyektlərdir. Bölgə çoxsaylı tarixi-memarlıq abidələri və xatirə yerləri ilə də zəngindir.

**Ural turizm bölgəsi**. Yekaterinburq, Perm, Çelyabinsk, Orenburq, Kurqan vilayətlərini və Udmurt respublikasını əhatə edir. Ərazinin orta hündürlüklü dağlıq relyefi, yaxşı inkişaf etmiş çay və göllər sistemi, mənzərəli meşələr, qayalıq sahələr və mağaralarla daha da zənginləşir. Şimalda rütubətli, cənubda nisbətən quru, yumşaq iqlim, piyada, xizək, su, dağ, speleoloji* səyahətlərin təşkilinə imkan yaradır. Turqoyak, Uveldı, İlmen gölləri sahillərində, Çusovaya, Belaya, Selva çayları kənarında (Uktuss dağları) yerləşən istirahət zonaları bu bölgədə daha məşhurdur. Təbiət abidələrindən (Kunqur buz mağarası, İlmen qoruğu, Klıç – İlıç qoruğu) ekskursiya obyektləri kimi geniş istifadə olunur.

**Şimali Qafqaz turizm bölgəsi.** Krasnodar və Stavropol diyarları, Rostov vilayəti, Kabarda-Balkar, Şimali Osetiya, Çeçenistan, İnquş və Dağıstan respublikaları bu bölgəyə daxildir. Bölgənin şimal hissəsi (Aşağı Don, Ön Qafqaz, Azov dənizi sahilləri) yağmursuz, isti keçən davamlı yayı, meyvələrin bolluğu, mineral su mənbələri və müalicəvi palçığı ilə turizm üçün çox əlverişlidir.

Bölgənin dağlıq hissəsinin (Qara dəniz sahilləri, Kuban, Qafqazın Tersk və Dağıstan hissəsi) mənzərəli landşaftı, rəngarəng meşələri, nadir təbii ehtiyatları, dağ-xizək turizmi, yüksək dağlara ekskursiyaların təşkili üçün əlverişli şərait yaradır. Qara və Xəzər dənizi sahilləri isti çimərlikləri və subtropik florası ilə diqqəti cəlb edir.

Turizm ehtiyatlarından intensiv istifadə edilməsi, bölgədə bir sıra iri rekreasiya rayonlarının: Böyük Soçi, Mineral sular qrupu, Dombay-Teberda, Elbrus ətrafı, Arxız, Böyük Gəlincik, Sey, Nalçik, Krasnaya Polyana, Dərbəndin formalaşmasına səbəb olmuşdur.

**Qərbi Sibir turizm bölgəsi.** Novosibirsk, Kemerovo, Omsk, Tomsk, Tümen vilayətləri və Altay diyarını əhatə edir. Altayın və Kuznetsk Alatausunun mənzərəli dağlıq landşaftı, Ob, İrtış, Tobol, Katun, Biya kimi bol sulu çaylar, Orta və Cənub-Qərbi Sibirin sağlamlıq əhəmiyyəti böyük olan meşə ərazisi, bölgənin turizmdə istifadə olunan təbii sərvətləridir.

---

* ***Speleoloji, speleologiya*** (yunanca mağara və elm sözlərinin vəhdətidir) – mağaraların mənşəyini, morfologiyasını, mikroiqlimini, hidroqrafiyasını, üzvü aləmini, müasir şəraitdə istifadəsini və s. öyrənən elm sahəsi. Tədqiq olunmuş mağaralara kütləvi səyahət isə sonradan baş verir. Əslində bütün mağaralar turizm obyektləridir.

Turizm sənayesinin mədəni-tarixi obyektləri Kuznetsk hövzəsində, Novosibirsk, Tomsk, Omsk, Barnaul, Tümen şəhərlərində toplanmışdır. Novosibirsk Akademiya şəhərciyi, Tobolsk Kremli, Tümenin şimal hissəsinin yeni tikililəri, Ob ətrafı, Rusiyanın məşhur şəxsiyyətlərinin (yazıçılar, rəssamlar, dekabristlər və s.) həyat və yaradıcılığı ilə bağlı olan yerlər, ekskursiya məqsədi ilə geniş istifadə olunur. Altayın tanınmış Telets gölü yerləşən Biysk-Katun rayonu və Kuznetsk Alatau dağ sisteminin mənzərəli ərazisi, piyada, su və atlı turizmin tanınmış mərkəzləridir.

**Şərqi Sibir turizm bölgəsi.** Buraya Krasnoyarsk diyarı, İrkutsk və Çita vilayətləri, Buryat, Yakut-Saxa və Tuva respublikaları daxildir. Yüksək dağlıq ərazilərin (Sayan, Stanovoy, Verxoyansk yaylası), iri çayların (Yenisey və Lena) dünyanın ən iri göllərindən biri olan Baykalın bu bölgədə yerləşməsi, relyefin rəngarəngliyi, turizmin inkişafına şərait yaradır. Bölgədə nadir təbiət obyektləri çoxdur. Mədəni - tarixi potensial, İrkutsk, Krasnoyarsk, Çita, Ulan-Ude, Minusinsk, Yakutsk şəhərlərində toplanmışdır. Bölgə turizm baxımından hələ az mənimsənilmişdir.

**Uzaq Şərq turizm bölgəsi**. Bu bölgəyə Amur, Saxalin, Kamçatka, Maqadan vilayətləri, Primorsk və Xabarovsk diyarları daxildir. Bölgənin turist zonaları sahil rayonlarını, Amur vadisini, Vladivostok, Xabarovsk, Yujno-Saxalinsk və Blaqoveşensk şəhərlərini əhatə edir.

Bölgə turizmin ən geniş yayılmış növü nəqliyyat turizmidir. Nadir obyektlər olan Qeyzerlər vadisinə, Avaça, Klyuçevsk və Kuril adalarında yerləşən vulkanlara, Berinq adasına, Xanka gölünə, Sixote-Alin dağlarına ekskursiya keçirilməsi üçün əlverişlidir.

Rusiyanın, ən müxtəlif turist tələbatını ödəyə bilən qeyri-məhdud imkanlara və təbii ehtiyatlara malik olmasına baxmayaraq, Sankt-Peterburq və Moskva kimi şəhərlərin çoxsaylı tarixi və memarlıq abidələri, muzeyləri, rəsm qalereyaları turistlərdə xüsusi maraq doğurur.

**Sankt-Peterburq turizm mərkəzi.** Avropanın ən gözəl şəhərlərindən biri olan Sankt-Peterburq uzun müddət Rusiya imperiyasının paytaxtı olmuşdur. Şəhər muzeyləri ilə məşhurdur. Ermitaj - bütün dünyada ən böyük bədii və mədəni-tarixi muzeylərdən biridir. Qış Sarayı (XVIII əsr), Kiçik Ermitaj (XVIII əsr), Köhnə Ermitaj (XVIII əsr), Yeni Ermitaj (XIX əsr) və Ermitaj teatrı (XVIII əsr) turistlərin xoşladıqları obyektlərdir. Mixaylovsk sarayında yerləşən Rus muzeyində qədim rus və müasir incəsənət əsərlərinin zəngin kolleksiyası toplanmışdır. Sankt-Peterburqda çoxlu tarixi-memarlıq abidələri var-

dır: İsaakiyevsk kilsəsi, Aleksandr-Nevski lavrası*, Smolensk sarayı, Petropavlovsk qala kompleksi, Qış Sarayı ilə birgə Caray meydanı, Mars çölü, I Pyotrun heykəli, Kazan kilsəsi, Yay bağı, Mühəndis qəsri, Admirallıq və s. bu qəbildən olan abidələrdir.

**Moskva turizm mərkəzi.** Rusiya Federasiyasının paytaxtı, iri siyasi, inzibati, sənaye, elm və mədəniyyət mərkəzidir. Moskvada görməli yerlər çoxdur. 20 qülləsi (baş qüllə - Kreml saatı olan Spasskdır) olan Moskva Kremli, şəhərin tarixi mərkəzidir. XV-XIX əsrlərin memarlıq abidələri - Uspensk, Arxangelsk, Blaqoveşensk kilsələri, "İvan Velikiy" zəng qülləsi, Qranovitaya palatası, Terem sarayı, Senatın keçmiş binası, Böyük Kreml sarayı, Silah palatası (Rusiyada ən qədim dekorativ - tətbiqi sənət muzeyi və qiymətli əşyalar kolleksiyası burada yerləşir), Çar-puşka, Çar-kolokol Kremldə yerləşir. Vasili Blajenıy məbədi və Leninin Mavzoleyi, Kremlin yaxınlığındadır. Donskoy, Novodeviçye, Andronikov monastırları ansamblları, Vozneseniye kilsəsi maraq doğurur. Moskvada məşhur muzeylər - Tretyakov qalereyası, Tarix muzeyi, Puşkin muzeyi, Andrey Rublyov muzeyi, böyük kitabxanalar və s. fəaliyyət göstərir.

* * *

Rusiyada turizm XIX əsrin sonlarında inkişaf etməyə başlamışdır. 1885-ci ildə Peterburqda yaradılmış "Dünyanın bütün ölkələrinə səyahətlər üçün müəssisə" Rusiyada ilk iri turist təşkilatı idi. Peterburqda turizmə, ilk növbədə velosiped turizminə yardım göstərməyi özünün əsas vəzifəsi hesab edən Rus "Turinq-klubu" fəaliyyətə başladı.

1901-ci ildə Moskvada yaradılan Rus dağ cəmiyyətinin Pyatiqorsk, Vladivostok və Soçidə şöbələri var idi. V.İ.Vernadski, İ.V.Muşketov, P.P.Semyonov-Tyan-Şanski və digər alim və ictimai xadimlər bu cəmiyyətin yaradıcıları olmuşlar. 1903-1906-cı illərdə həmin cəmiyyət tərəfindən "Rus dağ cəmiyyətinin illiyi" adlanan külliyyat nəşr olunur. Bu kitabda müxtəlif istiqamətli yürüşlər və onların həyata keçirilməsi imkanları, ayrı-ayrı turist bölgələri haqqında informatik məlumatlar dərc olunurdu.

1917-ci il inqilabına qədərki Rusiyada ən kütləvi turist təşkilatı, Peterburqdakı Turinq-klubu idi. Bu təşkilat sonralar Rusiya turist cəmiyyətinə (RTC) çevrildi. Beynəlxalq turist liqasının üzvü olmuş

---

* *Lavra* (yunan mənşəli sözdür) - pravoslav etiqadlı kişi rahiblərinin böyük tutumlu monastırları. Ukrayna ərazisində Kiyev-Peçera (1598), Rusiyada Troitse-Serqiyev (1744), Aleksandro-Nevskaya (1797) və b. fəaliyyət göstərir.

RTC, dünyanın müvafiq cəmiyyətləri ilə əlaqə saxlayır və xarici ölkələrdə nümayəndəliklərini açır.

1929-cu ildə yaradılmış "Sovet turisti" səhmdar cəmiyyətinin əsas vəzifəsi, uzaq məsafələrə ekskursiyaların, gəmi və qatarlarla turist səfərlərinin təşkili və keçirilməsi olmuşdur.

1929-cu ilin yazında Dəmir yolları Xalq Komissarlığı, Sovet ticarət gəmiçiliyi və digər dövlət idarələri tərəfindən ikinci turist səhmdar cəmiyyəti olan "İnturist" təsis olundu. 1929-cu ildə Rusiyaya 3, 1932-ci ildə isə 10 mindən artıq turist gəlmişdi. 1929-cu ildə RTC, RSFSR-in Proletar Turizmi Cəmiyyətinə (PTC) çevrildi. PTC-nin əsas vəzifələri: fəhlə və kəndli kütlələri arasında turizm hərəkatını maksimum inkişaf etdirmək, bu hərəkata siyasi rəhbərlik etmək, turistlərə mədəni xidmət göstərmək olmuşdur.

1930-cu ildə "Sovet turisti" səhmdar cəmiyyəti PTC ilə birləşdi və bu birliyin əsasında yaradılan "Ümumittifaq könüllü proletar turizmi və ekskursiyalar cəmiyyəti" (ÜKPTEC), sözün əsl mənasında SSRİ-də, o cümlədən Rusiyaya turizmin təşkili ilə məşğul olmağa başladı.

1933-cü ildə "İnturist" səhmdar cəmiyyəti Elbrusda (Qafqaz) xarici turistlər üçün 30 yerlik mehmanxana açdı. 1936-cı ildə turist-ekskursiya işi, Həmkarlar İttifaqlarının nəzdinə keçirildi. İdman turizminin inkişafına nəzarət və rəhbərlik isə Bədən Tərbiyəsi Ali Şurasına (BTAŞ) həvalə edildi.

Dünyanın bir çox ölkələrində Rusiyaya qarşı maraq artmaqda davam edirdi. Monqolustan, Cənubi Koreya, Yaponiya, İspaniya və Niderlanddan SSRİ-yə, o cümlədən Rusiyaya gələnlərin sayı xüsusilə artırdı.

ÜKPTEC ləğv olunduqdan sonra Həmkarlar İttifaqları sistemində Turist-Ekskursiya İdarəsi (TEİ) fəaliyyətə başladı, 1958-ci ildə ÜİLKGİ MK, xaricdə fəaliyyət göstərən gənclər təşkilatları ilə turist mübadiləsi təşkil etmək məqsədi ilə, "Sputnik" Beynəlxalq Gənclər Turizm Bürosu (BGTB) yaratdı. Həmin dövrdən SSRİ-nin süqutunadək olan müddətdə "İnturist" Ümumittifaq Səhmdar Cəmiyyəti (ÜSC), "Sputnik" BGTB və Həmkarlar İttifaqlarının Turizm və Ekskursiya Şuraları, Rusiyada və digər müttəfiq respublikalarda xarici və daxili turizmin inkişafı məsələləri ilə məşğul olmuşlar.

Hazırda Rusiyanın turizm bazarında 12 mindən artıq turist firması fəaliyyət göstərir, onların da üçdə biri təkcə Moskvada yerləşir. Turist firmalarının 90 faizindən çoxu xarici ölkələrə turist səfərlərinin təşkili, 10 faizi isə xarici turistləri Rusiyaya cəlb etməklə məşğul olur.

SSRİ-nin süqutundan sonrakı ilk illərdə beynəlxalq turizmin nisbətən tənəzzül etməsinə baxmayaraq, Rusiya 1998-ci ildə - 15,8, 2000-ci ildə isə 16,6 mln. nəfər xarici turist qəbul etmişdir. Hazırda turist qəbulu üzrə aparıcı dünya ölkələri reytinqində Rusiya 12-ci yer tutur. Dünya turizm bazarında onun payı 2,4 faizdir.

Ədalət naminə qeyd etmək lazımdır ki, yeni müstəqil dövlətlərdən (Ukrayna, Gürcüstan, Litva, Moldova, Azərbaycan və b.) Rusiyaya gələn turistlər, xarici qonaqların əsas kütləsini təşkil edir. Xarici turistlərin sayının artması ilə turizmdən daxil olmalar da artmış və 1999-cu ildə 7,5 mlrd. ABŞ dollarından çox olmuşdur. Bu artım həm də onunla izah oluna bilər ki, RF-da mehmanxana və digər yerləşmə vasitələrində 360 min yer mövcuddur.

Son illərdə Rusiya dövlətinin turizmə münasibətində müsbət dəyişikliklər baş vermişdir. RF prezidentinin 22.12.1995-ci il tarixli, 1284 saylı fərmanı ilə Rusiya Federasiyasında turizmin yenidən təşkili və inkişafı Konsepsiyası bəyənilmişdir. Konsepsiyanın əsas məqsədi - bir tərəfdən rus və xarici vətəndaşların turist xidmətlərinə tələbatının ödənilməsi üçün geniş imkanların yaradılması, digər tərəfdən ölkənin iqtisadiyyatına köməyi təmin etməkdən ibarətdir.

Rusiyada turizmin inkişaf perspektivləri "Rusiya Federasiyasında turizmin inkişafı" (RF hökumətinin 26.02.1997-ci il tarixli, 177 saylı qərarı ilə təsdiq olunmuşdur) məqsədyönlü proqramı və 1996-2000-ci illərdə Rusiya Federasiyasında sosial islahatlar proqramı (RF hökumətinin 26.02.1997-ci il tarixli, 222 saylı qərarı ilə təsdiq olunmuşdur) ilə müəyyənləşdirilmişdir.

Qeyd etmək lazımdır ki, Rusiya vətəndaşları özləri də xarici ölkələrə səyahətə çıxmağı xoşlayırlar. Belə ki, 1995-ci ildə 21,0 mln. nəfər xarici ölkələrdə səfərdə olmuşdur. Ekspertlərin fikrincə, bu səfərlər zamanı onlar 12,0 mlrd. ABŞ dolların həcmində vəsaiti ölkədən çıxarmışlar. Son illərdə xarici səfərlərdə iştirak edənlərin sayı nisbətən azalmış və 1998-ci ildə 11,7, 1999-cu ildə 12,6 mln. nəfər təşkil etmişdir. Bu vaxt səfərə çıxanların 2,0 mln nəfərə yaxını MDB ölkələrində olmuşlar. Digər ölkələrdən Polşa, Çin, Türkiyə, Finlandiya, Rusiya turistləri arasında daha populyar olmuşdur. Xarici ölkələrə səfər edən Rusiya vətəndaşları bu ölkələrdə 1998-ci ildə 8,2, 1999-cu ildə isə 7,4 mlrd. ABŞ dolları həcmində pul xərcləmişlər.

## 12.2. UKRAYNA

> **Ərazisi: 603,7 min kv. km. Dünyada 43-cü yer.**
> **Əhalisi: 52,0 mln. nəfər (2000). Dünyada 22-ci yer.**
> **Paytaxtı: Kiyev (2,8 mln. nəfər - 2000).**
> **Dövlət (rəsmi) dili: Rəsmi dil - Ukrayna dili.**
> **Din: Pravoslav.**
> **Milli pul vahidi: Qrivna.**

Şərqi Avropada yerləşmiş Ukrayna şimalda və şərqdə Rusiya (sərhədin uzunluğu 1576 km), şimalda Belorus (891 km), cənub-qərbdə Moldova (937 km) və Rumıniya (531 km), qərbdə Polşa (428 km), Macarıstan (103 km) və Slovakiya (90 km) ilə həmsərhəddir. Ukraynanın cənubdan Qara və Azov dənizlərinə çıxışı var.

Ərazisinin böyük hissəsi Şərqi Avropa düzənliyinin cənub-qərb ucqarlarındadır. Maksimal hündürlüyü 2061 metrədək olan Ukrayna Karpatları ölkənin cənub-qərbində, maksimal hündürlüyü 1545 m olan Krım dağları isə ölkənin cənubunda ucalır.

Dnepr, Şimali Donets, Prut, Cənubi Buq, Dunay əsas çaylardır. Bir neçə iri su anbarları (Kaxov, Kremençuq və Kiyev) vardır. Kiyev, Xarkov, Odessa, Dnepropetrovsk, Donetsk, Zaporojye, Krivoy-Roq, Lvov ölkənin ən iri şəhərləri, Nikolayev, Odessa, Xerson, Sevastopol isə əsas portlarıdır.

Ölkədə yaşayanların əksəriyyəti (73 faizi) - ukraynalılardır. Əhalisinin sayına görə ikinci böyük xalq ruslardır. Ukraynada digər etnik qruplar: moldovanlar, beloruslar, yəhudilər, polyaklar, Krım tatarları da yaşayır. Əhalinin 76 faizi pravoslav, 14 faizi katolik dininə etiqad edir. Dindarlar arasında iudaistlər, protestantlar və müsəlmanlar da vardır. Orta ömür müddəti kişilər üçün - 65, qadınlar üçün 73 ildir.

İnzibati cəhətcə Ukraynanın tərkibinə 24 inzibati vilayət və muxtariyyət hüququ olan Krım respublikası daxildir. İcraedici hakimiyyət, dövlət başçısı olan prezidentə və Nazirlər Kabinəsinə rəhbərlik edən Baş nazirə məxsusdur. Ali qanunverici hakimiyyət birpalatalı parlamentə (Ali Rada) məxsusdur. 24 Avqust müstəqillik günü Milli bayram kimi qeyd olunur.

Ukraynanın iqlimi mülayim, əsasən kontinentaldır. Qərbdə yağmurlu, cənubda quru çöl iqlimi üstünlük təşkil edir. Krımın dağlıq hissəsinin cənub ətəklərində Aralıq dənizi tipli iqlim hakimdir. Ölkənin cənubunda isti havalar artıq mayın əvvəllərindən başlayır. Bütün

ölkə üçün iyulun orta temperaturu 17-25, yanvarınkı isə mənfi 8 də-rəcədən müsbət 2 dərəcəyədək olur.

Ukrayna faydalı qazıntılar ilə zəngindir. Ölkədən kömür, dəmir və manqan filizləri, neft, təbii qaz, əlvan və nadir metallar (civə, sink, qurğuşun, titan, alüminium, sirkon və s.) çıxarılır. Torpaqları çox məhsuldardır.

Ukrayna orta səviyyədə inkişaf etmiş sənaye-aqrar ölkədir. Sənaye sahələrindən əlvan metallurgiya, maşınqayırma (xüsusilə, energetika maşınqayırması) və elektrotexnika sənayesi, cihaz, traktor, gəmi, avtomobil, dəzgah, radioelektron, aviasiya kənd təsərrüfatı maşınları istehsalı, kimya nisbətən inkişaf etmiş sayılır. Kənd təsərrüfatı əsasən taxıl və texniki bitkilər istehsalı və həmçinin heyvandarlıq üzrə ixtisaslaşmışdır.

* * *

Ukraynada çoxsaylı kurort və kurort bölgələri vardır. Krımın kurortları (Aluşta, Yalta, Yevpatoriya, Sudak, Feodosiya, Qurzuf və b.) daha məşhurdur. Azov dənizi sahilində narın qumlu çimərlikləri olan kurortlar, həmçinin Odessa, Prikarpatye və Zakarpatye kurortlarını, Karpat dağlarında yerləşən dağ-idman turist bazaları istirahət edənlərin və turistlərin xoşladığı yerlərdir.

Ukrayna tarixi-memarlıq abidələri ilə də zəngindir. Kiyevdə freska və mozaikaları ilə tanınan Sofiya kilsəsi (XI əsr), Qızıl qapıların qalıqları (XI əsr), Kirillov kilsəsi (XII əsr), Kiyev-Peçera Lavrası (XI-XVIII əsr) daha məşhurdur. Lavranın ərazisində qiymətli daş-qaş və qızıl məmulatları ilə zəngin olan Qızıl muzeyi yerləşir. Kiyevdə həmçinin memar Rastrellinin barokko üslubunda inşa etdiyi Müqəddəs Andrey (1744-1753), Müqəddəs Vladimir kilsələri (XIX əsr), Rus incəsənət qalereyası və s. turistləri maraqlandıran yerlərdir.

**Lvovda** əsası 1661-ci ildə qoyulmuş Şərqi Avropanın ən qədim universitetlərindən biri, Kafedral kilsə (XIV-XV əsrlər), Üç müqəddəsin qülləsi (XVI əsr), Çyornaya Kamenitsa (XVI-XVII əsrlər), rəsm qalereyası yerləşir. Şəhərdən 100 km aralı, Prikarpatyedə, "Naftusi" mineral suyu ilə bütün dünyada məşhur olan Truskovets balneoloji kurortu fəaliyyət göstərir.

**Odessa** Qara dəniz sahilində məşhur port və kurort şəhərdir. Burada çoxsaylı pansionatlar, istirahət evləri, turist bazaları və mehmanxanalar fəaliyyət göstərir. Şəhərdə, opera teatrının binası (1887), Potyomkin pilləkənləri (1826-1841), D.Rişelyenin abidəsi diqqəti cəlb edir.

**Sevastopol** yaxınlığında, e.ə. V əsrdə mövcud olmuş qədim Xer-

sones şəhərinin qalıqları aşkar edilmişdir. Şəhər qalıqlarının olduğu ərazidə arxeoloji qoruq təşkil olunmuşdur. "Sevastopolun müdafiəsi 1854-1855-ci illər" panoramı, Qraf körpüsü, Petropavlovsk kilsəsi (XIX əsr), Katokombalar (yeraltı sərdabə, zirzəmi) Cənub dənizlərinin biologiyası elmi-tədqiqat institutunun akvariumu turistlərdə böyük maraq doğuran obyektlərdir.

**Xarkovda** yerləşən Pokrovsk (XVII əsr), Uspensk (XVIII əsr), Patriarşa kilsələri (XIX əsr) turistlərin diqqətini cəlb edən yerlərdir.

**Krım yarımadası** maraqlı turist obyektləri ilə zəngindir: Kerçdə-Mirmekiy və Nimfey kimi qədim dövrün şəhərlərinin xarabalıqları, Demetra sərdabəsi (e.ə. I əsr), X-XIII əsrlərə aid kilsə, Sudakda və Feodosiyada XIV-XV əsrlərə aid qülləli qalalar, Feodosiyada - İ.Ayvazovskinin əl işləri olan Rəsm qalereyası, A.Qrin muzeyi, Xalça muzeyi, Müfti Cami məscidi (XVII əsr), Yaltada - Böyük Livadi sarayı (1910), Alupka saray-muzeyi (XIX əsr), Baxçasarayda tarixi-memarlıq muzeyi, Xan sarayı (XVI əsr), Uspensk monastırı (XIV əsr), Çufut-Qala, Təpə-Kermen və Əski-Kermen mağara şəhərləri diqqəti cəlb edir.

* * *

Ukraynanın turizm imkanlarının geniş olmasına baxmayaraq (ölkədə turistlərin qəbulu üçün mehmanxana və digər yerləşmə vasitələrində 114 min yer mövcuddur), hələlik bu imkanlardan zəif istifadə olunur. Beynəlxalq turizm ölkə iqtisadiyyatının aparıcı sahələrindən birinə hələ çevrilməmişdir.

Ukraynaya hər il təqribən 5,0 mln. xarici turist gəlir. Onların böyük hissəsi MDB ölkələrindən gələnlərdir. 1999-cu ildə ölkəyə 4,2 mln. xarici turist gəlib. Turizmdən daxilolmalar, 3,2 mlrd. ABŞ dolları təşkil etmişdir. 1999-cu ildə 7,4 mln. Ukrayna vətəndaşı ölkə hüdudlarından kənara, onların da böyük əksəriyyəti Rusiyaya səfər etmişlər. Ukrayna turistləri xarici ölkələrdə 1999-cu ildə 4,5 mlrd. ABŞ dolları həcmində pul xərcləmişlər.

## 12.3. GÜRCÜSTAN

**Ərazisi: 69,7 min kv. km. Dünyada 118-ci yer.**
**Əhalisi: 5,7 mln. (2000). Dünyada 99-cu yer.**
**Paytaxtı: Tbilisi (1,4 mln. - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Gürcü dili.**
**Din: Pravoslav, İslam.**
**Milli pul vahidi: Lari.**

Avropanın cənub-şərqində yerləşmiş Gürcüstan, Cənubi Qafqaz adlanan bölgənin qərb hissəsindədir. Şimalda Rusiya (723 km), cənubda Türkiyə (252 km) və Ermənistan (164 km), şərqdə Azərbaycan (322 km) ilə həmsərhəddir. Qərbdə Qara dənizin suları ilə əhatə olunur.

Ölkə ərazisinin geniş hissəsi, təqribən 75 faizi dağlıq sahələrdir. Gürcüstanın ən yüksək zirvəsi Şxara dağıdır (5068 m) Dağlar arasında Kür və Rioni çaylarının vadiləri yerləşir. Kolxida ovalığı Qara dənizin sahilindədir. Ölkədə manqan, dəmir və mis filizləri kimi faydalı qazıntılar, az miqdarda kömür və neft yataqları vardır.

Tbilisi, Kutaisi, Batumi, Suxumi ölkənin iri şəhərləri, Batumi və Poti isə portlarıdır. Ölkədə ən böyük etnik qrup - gürcülərdir (66 faiz). Əhalinin 10 faizini azərbaycanlılar - 5 faizini ermənilər, 2 faizini ruslar, təqribən bir o qədərini osetinlər, 2 faizini abxazlar, təşkil edir. Orta ömür müddəti: kişilər üçün 69, qadınlar üçün - 75 ildir.

Gürcüstanın dağlıq relyefi iqlimin rəngarəngliyinə səbəb olmuşdur. Qara dəniz sahilləri - Kolxida ovalığı isti və rütubətli subtropik iqlimə malikdir. Bütün ölkə üçün iyulun orta temperaturu müsbət 22-24, yanvarınki isə mənfi 4-7 dərəcədir. Dağlarda qış nisbətən soyuq, yay isə sərin keçir.

Gürcüstan - prezident üsul-idarəli respublikadır. Ölkə inzibati cəhətcə 66 rayona bölünür. Ölkənin tərkibinə Abxaz və Acar Muxtar respublikaları da daxildir. 1990-cı ildə Cənubi Osetiya muxtar vilayətinin statusu mərkəzi hakimiyyət tərəfindən ləğv edilmişdir. 9 Aprel - Müstəqillik günü (1991), Milli bayram kimi qeyd olunur. Dövlət başçısı prezidentdir. Baş nazir prezident tərəfindən təyin edilir. Qanunverici hakimiyyət bir palatalı parlamentlə təmsil olunub.

İqtisadi baxımdan Gürcüstan aqrar-sənaye ölkədir. Sabiq SSRİ respublikaları ilə iqtisadi əlaqələrin pozulması, ölkədə siyasi stabilliyin olmaması, Abxaziya ilə münaqişə, ölkə iqtisadiyyatına mənfi təsir göstərmişdir. Sənayenin bir çox sahələrində, xüsusilə də nisbətən in-

kişaf etmiş olan yeyinti, yüngül, maşınqayırma, qara və əlvan metallurgiya, kimya və mədən sahələrində istehsalın tənəzzülü müşahidə olunur. Münbit torpaqlar kənd təsərrüfatının inkişafı üçün əlverişli şərait yaradır. Burada sitrus meyvələri, tütün və məşhur gürcü şərabları üçün üzüm yetişdirilir.

İxracın mühüm hissəsini təşkil edən çay istehsalının təsərrüfat əhəmiyyəti daha böyükdür. Ölkə qiymətli mineral su mənbələri ilə də tanınır. Ətraf mühiti qorumaq məqsədilə ölkədə 15 qoruq təşkil olunmuşdur. Loqodex, Borjomi və Ritsa qoruqları daha çox tanınır. Ölkədə Borjomi, Qaqra, Batumi, Sxaltuba, Pitsunda kimi tanınmış balneoloji kurortlar fəaliyyət göstərir.

* * *

Gürcüstanın paytaxtı **Tbilisi** dağlar arasında mənzərəli bir ərazidə, dəniz səviyyəsindən 400-500 m yüksəkdə yerləşir. Kür çayı Tbilisinin ortasından keçir. Tbilisi, dünyanın qədim şəhərlərindən biridir. Gürcü mənbələrində ilk dəfə 368-ci ildə, qala-şəhər kimi adı çəkilir. Şəhərin qədim hissəsində qala divarlarının qalıqları indiyədək saxlanılır. Kürün bir sahilində qaya üzərində Narinqala qalası (IV əsr), digər sahilində isə Metex məbədi (XIII əsr) ucalır. Onların yaxınlığında isə VI-VII əsrlərdə tikilmiş Sioni Kafedral kilsəsi yerləşir. VI əsrdə inşa edilmiş Angisxati kilsəsi, erkən feodalizm dövrü gürcü memarlığının gözəl nümunəsidir.

Tbilisidə yerləşən digər turist obyektləri arasında Müqəddəs David monastırı (VI əsr), Mtasminda dağındakı Gürcüstan yazıçıları və ictimai xadimlərinin Panteonu, Rəsm qalereyası, Tarix-etnoqrafiya muzeyi, Gürcüstan Dövlət Muzeyi və s. turistlərin diqqətini cəlb edən obyektlərdir.

**Kutaisi** - Tbilisidən sonra ölkənin ikinci sənaye, mədəni mərkəzi və qədim şəhərlərindən biridir. Şəhərdən 13 km aralıda məşhur Sxaltubo balneoloji kurortu yerləşir. Bu kurortun radioaktiv sularının dünyada oxşarı yoxdur. Kutaisidən 6 km aralı Satapliya qoruğu yerləşir. Qoruğun karst mağarasında qədim nəhəng heyvanlar olan dinozavrların izləri aşkar olunmuşdur. XII əsr gürcü memarlığının gözəl nümunələri qorunub saxlanılan Gelati qoruğu da turizm baxımından çox maraqlıdır.

**Vardzia** - Gürcüstanın cənubunda yerləşir. XII-XIII əsr gürcü mədəniyyətinin və memarlığının görkəmli abidəsi, şəhər-qoruqdur. Bu möhtəşəm və monumental tikili olan mağara, dik qayaların üzərində 5-8 təbəqəli bir neçə yüz müxtəlif sığınacaq və otaqlardan ibarətdir. Bu mağara-şəhərdə on minlərlə adam düşməndən qorunmaq

üçün gizlənə bilərdi. Divarlarında yüksək bədii freskalar qorunub saxlanılmış Baş məbəd xüsusilə diqqəti cəlb edir.

**Batumi** – Acarıstanın paytaxtı, Qara dəniz sahilində port şəhərdir. Şəhər kənarında Maxinacari, Sixizdziri, Çakva, Yaşıl Burun (burada məşhur Batumi Botanika bağı yerləşir) kurortları fəaliyyət göstərir. Batumidən Kobuletiyə qədər olan sahil ərazisi müalicə və istirahət üçün səfalı yerlərdir.

**Bakuriani** – dağ iqlimi kurortudur. Burada dağ-xizək bazaları fəaliyyət göstərir.

**Borjomi** – Gürcüstanın ən gözəl balneoloji və iqlim kurortlarından biridir. Fransanın Vişi kurortu ilə müvəffəqiyyətlə rəqabət aparır. Kür və onun qolları olan Borjomi və Qucaretistskali çaylarının sahillərində, dəniz səviyyəsindən 860 m yüksəkdə yerləşir. Borjominin mineral suları, həzm orqanları xəstəlikləri və maddələr mübadiləsinin pozulması zamanı içilir və vanna şəklində qəbul olunur.

**Msxeta** – VI əsrədək Şərqi Gürcüstanın paytaxtı olmuşdur. Qədim samtavr qəbirləri, eramızdan əvvəlki dövrlərdə də bu yerlərdə yaşayış olduğunu sübut edir. Svetisxoveli və Samtavro məbədləri qorunub saxlanılmışdır. Dağın zirvəsində ucalan Cvari məbədi (VI əsr) şəhərdən çox yaxşı seyr edilir. Şəhər yaxınlığında yerləşən Saquramo kəndində gürcü ədəbiyyatının klassiki İlya Çavçavadzenin ev muzeyi fəaliyyət göstərir (XIX əsr).

**Suxumi** – Abxaziyanın paytaxtı, sahil kurortu və parklar şəhəridir. Gürcüstanın Qara dəniz sahillərində ən qədim şəhərlərdən biridir. E.ə. V əsrdə burada qalıqları buxta ərazisində, dənizin dibində aşkar olunmuş Dioskuriya ticarət koloniyası yerləşmişdir. Suxumidə nadir meymun pitomniki, botanika bağı (nadir kaktus kolleksiyası) fəaliyyət göstərir. Şəhərin ətrafında qədim Suxumi qalasının (V əsr) qalıqları və Baqrat qəsrinin (X-XI əsrlər) xarabalıqları vardır.

Dənizsahili iqlim kurortu olan **Yeni Afon** Suxumidən 18 km aralıda yerləşir. 1875-ci ildə Afon dağının ətəyində Yeni Afon monastırının əsası qoyulmuşdur. İveriya dağının zirvəsində qədim Anakopiya qalasının və qədim Bizans məbədinin (VIII əsr) qalıqları saxlanılmışdır. İveriya dağının yamacında, Yeni Afonun yaxınlığında əhəngdaşı mağaraları, o cümlədən kütləvi turizm obyekti olan unikal baxımlı Anakopiya (Yeni Afon) kompleksi yerləşir.

**Qaqra** – Gürcüstan sahillərində tanınan iqlim kurortlarından biridir. Soçidən 67, Suxumidən 100 km aralıda yerləşir. Qara dəniz sahillərində ən isti yerdir. Joekvara dərəsindən Yeni Qaqraya doğru, qumlu çimərliyin arxası ilə 3 km məsafədə subtropik park uzanır. Qa-

ra dənizin Pitsunda burnunda, qədim şam meşələrinin əhatəsində təmtəraqlı pansionatların korpusları ucalır. Onların arasında isə kurortun simvolu kimi Kolxida şahzadəsi Medeyanın abidəsi qoyulmuşdur.

* * *

Qeyd etmək lazımdır ki, Sovet dövründə Gürcüstanın iqtisadiyyatında kurort-turizm təsərrüfatı layiqli yer tuturdu, 80-ə yaxın kurort hər il 2 mln.-a qədər turist (əsasən SSRİ respublikalarından) qəbul edə bilirdi. Bundan əlavə Gürcüstanda çoxsaylı turist bazaları da fəaliyyət göstərirdi. Amma SSRİ-nin süqutundan sonra, Cənubi Osetiyada və Abxaziyada ciddi etnik münaqişələrin baş verməsi nəticəsində ölkədə turizm faktiki olaraq süqut etmişdir.

Gürcüstandan keçən turist marşrutlarının dirçəldilməsi üzrə qəbul olunan tədbirlər nəticəsində, 2005-ci ildə ölkə hər il 1 mln.-a qədər turist qəbul edə biləcəkdir. Bunun üçün səkkiz min mehmanxana nömrəsinin olması tələb olunur. Hazırda ölkədə surətlə yeni mehmanxanalar inşa olunur.

2002-ci ildə beş ulduzlu "Tbilisi" və üç ulduzlu "Meriott" mehmanxanalarının tikintisi tam başa çatdırılmalıdır. Qeyd etmək lazımdır ki, Gürcüstanın turizm sənayesinə investisiya qoyuluşunun çatışmamazlığı kəskin müşahidə edilir. Ölkə daxilində lazımi qədər kapital yoxdur. Gürcüstanın indiki gömrük qanunları isə xarici investisiya axınına mane olur.

İnvestorları cəlb etmək məqsədi ilə, mehmanxana inventarları gömrük rüsumundan azad olunmalı, əlavə dəyər vergisi ləğv edilməli, turizm sənayesinin fəaliyyətə başlayan obyektlərinə müəyyən müddətə vergi güzəştləri verilməlidir. Xarici investorlar Tbilisidə yeni şəxsi otellərin tikintisinə 100 mln. ABŞ dolları həcmində sərmayə qoymağa hazırdırlar.

ÜTT-nın hesablamalarına görə, 1999-cu ildə Gürcüstana 384 min xarici turist gəlib. Onlardan əldə edilən gəlir 270 mln. ABŞ dolları həcmində olmuşdur. Həmin ildə Gürcüstandan xaricə 373 min turist səfər etmişdir. Onlar olduqları ölkələrdə 270 mln. ABŞ dolları həcmində pul xərcləmişlər.

## 12.4. ÖZBƏKİSTAN

**Ərazisi: 447 min kv. km. Dünyada 55-ci yer.**
**Əhalisi: 24,0 mln. nəfər (2000). Dünyada 42-ci yer.**
**Paytaxtı: Daşkənd (2,3 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Özbək dili.**
**Din: İslam.**
**Milli pul vahidi: Sum.**

Orta Asiyada yerləşmiş Özbəkistan, şimalda və qərbdə Qazaxıstan (2203 km), cənubda Türkmənistan (1621 km) və Əfqanıstan (137 km), cənub-şərqdə Tacikistan (1161 km), şərqdə Qırğızıstan (1099 km) ilə həmsərhəddir. Ərazinin böyük hissəsini (dörddə üçünü) düzənliklər, əsasən Turan ovalığı təşkil edir. Dünyanın ən böyük səhralarından biri olan Qızılqumun bir hissəsi də Özbəkistan ərazisindədir. Şimal-şərqdə və cənubda Tyan-Şan və Hissar-Alay dağları (ən yüksək zirvəsi 4643 m) uzanır. Əsas çaylar olan Amudərya və Sırdərya Aral dənizinə tökülür. Son zamanlar düşünülməmiş irriqasiya işləri nəticəsində Aral su həcminin üçdə ikisini itirmişdir. Özbəkistan təbii qaz, kömür, qızıl, mis, volfram, vismut, neft və təbii qaz yataqlarına malikdir.

Daşkənd, Səmərqənd, Əndican, Namanqan, Kokand, Buxara və Fərqanə ölkənin ən böyük şəhərləridir. Ölkədə ən böyük etnik qrup – özbəklərdir. (əhalinin 75 faizi). Özbəklərlə yanaşı ölkədə ruslar (5 faiz), qaraqalpaklılar, tatarlar, azərbaycanlılar, qırğızlar, türkmənlər və s. yaşayır. Orta ömür müddəti: kişilər üçün 68, qadınlar üçün 72 ildir.

İnzibati – ərazi cəhətcə Özbəkistan 12 vilayətə və Qaraqalpak Muxtar Respublikasına bölünür. 1 Sentyabr – Milli bayram – Müstəqillik günü kimi qeyd olunur. 1991-ci ilin 31 Avqustundan Özbəkistan müstəqil dövlətdir. İcraedici hakimiyyət, prezidentə və Nazirlər kabinəsinə rəhbərlik edən Baş nazirə məxsusdur. Ali qanunverici orqan Oli Məclisdir (birpalatalı parlament).

Özbəkistan isti, quru kontinental iqlimi ilə seçilir. Orta illik temperatur, şimalda müsbət 9, cənubda 16 dərəcəyə qədərdir. Yay bürkülü, yağışsız keçir, temperatur 30 dərəcə, bəzən daha artıq olur.

Hökumətin son illərdə apardığı iqtisadi siyasət, bazar iqtisadiyyatı islahatlarının dərinləşdirilməsinə, özəlləşdirmə və işgüzar fəaliyyətin genişləndirilməsinə, maliyyə, mikroiqtisadi sabitliyin təmin edilməsinə və milli valyutanın möhkəmləndirilməsinə yönəlmişdir. Əlvan metallurgiya, toxuculuq, yanacaq, kimya, yeyinti və maşınqa-

yırma sənaye sahələri nisbətən inkişaf etmişlərdir. Kənd təsərrüfatı əsasən pambıqçılıq üzrə ixtisaslaşmışdır. Heyvandarlıq da kənd təsərrüfatının aparıcı sahəsidir. Qaragül dərili qoyunçuluq inkişaf etmişdir. Ölkədən pambıq, təbii qaz , əlvan metallar, qaragül dəriləri, kimya və tərəvəz məhsulları ixrac olunur.

* * *

Özbəkistan tarixi-memarlıq abidələri ilə məşhur ölkələrdən biridir. Səmərqənd, Buxara, Kokand və Xivənin qədim, maddi-mədəniyyət abidələri, qumlu səhraların və dağlıq rayonların özünəməxsus təbiəti, misgərlik, zərgərlik, xalçaçılıq, dulusçuluq kimi xalq sənətkarlığı turistləri cəlb edən əsas amillərdir.

**Səmərqənd** – Özbəkistanın Daşkənddən sonra ikinci böyük iqtisadi və mədəni mərkəzidir. Eramızın IV əsrindən qədim Soqdiana dövlətinin paytaxtı kimi tanınmışdır. 1924-1930-cu illərdə Özbəkistanın paytaxtı olub. 1999-cu ildə Səmərqəndin şəhər kimi fəaliyyətinin 2530 yaşı tamam olmuşdur.

Səmərqəndin orta əsrlər memarlıq abidələri içərisində seçilənləri Registan meydanı ("Qumlu yer" - XIV əsr), Uluqbəy mədrəsəsi (XV əsr), Şer-Dor (XVII əsr), Tillə-Kari (XVII əsr) şəhərə dünya şöhrəti qazandırmışdır. Bu abidələrin müxtəlif əsrlərdə yaranmasına baxmayaraq, onlar şəhərin qədim hissəsində vahid ansambl təsəvvürü yaradır. Bu da memarların yüksək ustalığını və bədii zövqünü nümayiş etdirir. Əfrasiyab təpəliyində, gözəl mavzoleyləri və məscidləri olan Şahi-Zində dini-memorial ansamblı (XIV-XV əsrlər) yerləşir. Teymur cümə məscidindən və Sarayi-Mülk Xanım mədrəsəsindən ibarət olan Bibixanım kompleksi (1399-1404), Əmir Teymurun və Teymurilərin məqbərələri olan Qur-Əmir mavzoleyi (1403-1404), Uluqbəy rəsədxanası (1429) böyük maraq doğuran abidələrdir.

**Buxara** – Orta Asiyanın qədim şəhərlərindən biridir. Şəhər haqqında ilk məlumat e. ə. II əsr mənbələrində verilir. Buxara, 140-dan artıq möhtəşəm memarlıq abidəsi olan açıq səma altında şəhər-muzeydir. Onların arasında kərpicdən hörülmüş hündür divarlarla əhatə olunmuş Ərk qalasını (V-VII əsrlər); bizim dövrümüzə qədər yaxşı vəziyyətdə qorunub saxlanılmış və yüksək bədii dəyəri olan İsmayıl Samani məqbərəsini (IX-X əsrlər); Gül Qəlyan məscid-minarəsi və Miri Ərəb mədrəsəsindən ibarət olan memarlıq ansamblını qeyd etmək olar.

Uluqbəy mədrəsəsi (1417) rəngli mozaika ilə bəzədilmişdir. Əcnəbi qonaqlar üçün nəzərdə tutulan mədrəsə və hovuzu olan Ləbi-

Hauz ansamblı da (XVII əsr) maraq doğurur. Buxarada IX-X əsrlərdə, qədim dövrün məşhur şairi Rudəki, tanınmış tarixçi Məhəmməd Nirşahi, XI əsrin əvvəllərində isə dahi alim İbn Sina yaşamışlar. XVI-XX əsrlərdə Buxara şəhəri Buxara xanlığının paytaxtı olmuşdur. Balneoloji iqlim kurortu olan Sitarəyi – Mahi- Həsa Buxara yaxınlığında yerləşir.

**Xivə** – memarlıq abidələri ilə tanınmış qoruq – şəhərdir. Xorəzm vilayətinin iri sənaye və mədəni mərkəzi olan Urgənc şəhərindən 30 km aralıda yerləşir. Buxara və Səmərqənddən fərqli olaraq Xivənin memarlıq abidələri müasir binaların arasında səpələnmiş, XVI əsr Orta Asiya şəhəri haqqında tam təsəvvür yaradan vahid, ümumi kompleks təşkil edir. Onun ən qədim hissəsi – İçan qalasıdır. Çoxsaylı memarlıq abidələri arasında, Pəhləvan Mahmud məqbərəsi, Allahqulu Xan mədrəsəsi, Şirqazi Xan mədrəsəsi, Nurulla Bay sarayı, Ağ məscid xüsusilə seçilir.

**Daşkənd** – 1930–cu ildən Özbəkistanın paytaxtıdır. Şəhər, turistlər tərəfindən çox maraqla ziyarət edilir. Eramızın IV-V əsrlərindən məlumdur. "Böyük İpək yolunun" üzərində olması, şəhərin inkişafına müsbət təsir göstərmişdir. 1966-cı ildə Daşkənddə güclü zəlzələ baş verdiyindən o sonrakı illərdə yenidən tikilmişdir. Müasir Daşkənd Orta Asiyanın ən iri sənaye mərkəzlərindən biridir. Özbəkistanın ən böyük muzeyləri burada yerləşir.

Daşkənd ərazisində mövcud olan qədim yaşayış məskənlərindən – Ağ Təpə (VI-VII və XI əsrlər), Noruz Təpə (X- XII və XV əsrlər) qəsrlərini, Tarnauş Təpə (VII-VIII əsrlər) və Minq Ürük (I-VIII əsrlər) şəhərciklərini göstərmək olar. Orta əsrlərə aid memarlıq abidələri: Registan ansamblı (XV-XIX əsrlər Cümə məscidi ilə birlikdə); Orta Asiyada ən iri mədrəsələrdən olan Kuxeltaş mədrəsəsi (XVI əsr); Şeyx Xavəndi Tahur (XIV-XIX əsrlər); Qaldırqaç biya (XV) və Yunus xan (XV-XVI) məqbərələri olan Şeyxan Tahur ansamblı; Kaffəl Şaşi, Süyunic xan məqbərələri (XVI əsr) və Barak xan mədrəsəsi (XVI) olan Həzrəti İmam ansamblı və s. qorunub saxlanılmışdır.

Özbəkistan ərazisində 10-dan artıq qoruq təşkil edilmişdir. Onlardan ən böyükləri Çatqala və Miraklin qoruqlarıdır. Özbəkistanda onlarca iqlim və balneoloji kurortlar, o cümlədən Çartak, Açalıq, Çimqan, Şahimərdan və digərləri fəaliyyət göstərir. Qərbi Tyan-Şan (Çatkal, Uqam dağları), Hissar-Alay (Şahimərdan rayonu) idman turizminin inkişaf etdiyi əsas zonalardır. Su turizmi ilə məşğul olanlar arasında Zərəfşan, Narın, Çatkal, Uqam çayları daha çox seçilənlərdir.

* * *

Böyük turizm potensialı olan Özbəkistan, SSRİ-nin süqutuna qədərki dövrdə Mərkəzi Asiyada ən çox xarici qonaq qəbul edən respublika idi. Müstəqillik dövründə buraya turist axını xeyli azalmışdır. Bunun səbəbi həm ölkənin daxili siyasi vəziyyətinin, həm də bütövlükdə Orta Asiya regionunda siyasi sabitliyin pozulmasıdır.

ÜTT-nin statistikasına əsasən 1995-ci ildə ölkəyə 90 min xarici turist səfər etmişdir. 1999-cu ildə isə Özbəkistana gələn xarici turistlərin sayı 275 min nəfər olmuşdur. Onlardan əldə olunan gəlir, cəmi 20 mln. ABŞ dolları təşkil etmişdir.

Gəlmə turizmin inkişafı məqsədi ilə son illərdə Özbəkistan hökuməti tərəfindən bir sıra tədbirlər həyata keçirilir: qəbul üzrə ixtisaslaşan turist firmalarına vergi güzəştləri edilmiş, əcnəbi turistlərdən viza rüsumu 40 dollardan 15 dollara endirilmiş, mütəşəkkil təşkil olunmuş turist qrupları üçün gömrük və sərhəd nəzarətindən keçid zamanı "yaşıl dəhliz" yaradılmışdır. Bu tədbirlər xarici turistlərin sayının artmasına səbəb olmuşdur.

Daşkənddə turizm sahəsində özəlləşdirmədən əldə edilən gəlirlər və investisiyalar üzrə Bank yaradılmış, 200-ə yaxın turizm firmasına lisenziya verilmişdir. ABŞ, Almaniya, Böyük Britaniya, Birləşmiş Ərəb Əmirlikləri, Rusiyada turizm üzrə nümayəndəliklər açılmışdır. Bütün bunlar göstərir ki, Milli Turizm Şirkəti və Respublika hökuməti tərəfindən turizmin inkişafına son illərdə böyük diqqət yetirilir.

Mütəxəssislərin rəyinə görə bu qayğı, yaxın zamanlarda ölkəyə turist axınının və maliyyə vəsaitinin artımına səbəb olacaqdır. Yaxın qonşular, MDB ölkələri və beynəlxalq təşkilatlarla əməkdaşlıq da bu sahədə mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, Özbəkistan Mərkəzi Asiya regionunda yeganə ölkədir ki, 1994-cü ildən bəri hər il beynəlxalq turist sərgiləri keçirir.

# FƏSİL 13

## ASİYA ÖLKƏLƏRİNDƏ BEYNƏLXALQ TURİZM

*Qitə ilə ümumi tanışlıq*

**Ərazisi: 44,4 mln. kv. km.**
**Əhalisi: 3,5 mlrd. nəfər (2000).**
**Müstəqil dövlətlər: 48.**
**Ən yüksək zirvə: Comolunqma (Everest) 8848 m. Dünyanın ən yüksək nöqtəsi.**
**Ən aşağı yer: Ölü dəniz sahili – dəniz səviyyəsindən 395 m aşağı. Dünyanın ən alçaq nöqtəsi.**
**Ən böyük göl: Xəzər dənizi (376 min kv. km.).**
**Ən dərin göl: Baykal (1620 m). Dünyanın ən dərin gölü.**
**Ən uzun çaylar: Yenisey – 5540 km, Yantszı – 5530 km, Ob – 4830 km, Xuanxe - 483.**
**Ərazicə ən böyük dövlət: Çin Xalq Respublikası .**
**Əhalinin sayına görə ən böyük dövlət: Çin Xalq Respublikası .**
**Ərazicə ən kiçik dövlət: Maldiv.**
**Əhalinin sayına görə ən kiçik dövlət: Maldiv.**

Yer kürəsi quru səthinin üçdə birinə qədərini əhatə edən Asiya, dünyanının ən böyük qitəsidir. Avrasiya materikində yerləşən Asiya, Avropadan, qərbdə Ural və Qafqaz dağları, həmçinin Qara, Mərmərə, Aralıq və Qırmızı dənizlə ayrılır. Qitənin şimal hüdudları Şimal qütbünədək uzanır və Şimal Buzlu Okean hövzəsinin dənizləri ilə əhatə olunur.

Qitənin şərq sərhədlərində vulkan mənşəli adalar yerləşir və orada vaxtaşırı zəlzələlər baş verir. Asiyanın cənubu çox girintili-çıxıntılıdır. Hindistan, Hindçin və Malakka yarımadaları okeanın içərilərinə qədər uzanaraq, Hind və Sakit okean hövzələrində körfəzlər və dənizlər yaradırlar.

Asiyada olan çoxlu dağ sistemləri və yaylalar, dağlar və yüksəkliklər ərazinin 25 faizə qədərini təşkil edir. Himalay (dünyanın ən yüksək dağları), Qaraqorum, Pamir, Tyan-Şan, Sayan, Hinduquş, Kun-Lun, Böyük Qafqaz, Altay Asiyanın əsas dağ sistemləridir. Bunlarla yanaşı Asiyada bir sıra dağ yüksəklikləri və yaylalar da vardır. Hündür dağlarda buzlaqlara rast gəlmək olar. Hind-Qanq, Mesopotamiya, Böyük Çin, Turan və Qərbi Sibir qitənin ən böyük düzənlikləri hesab olunur.

Sibirin şimal rayonlarındakı böyük ərazilər daimi donuşluqla örtülüdür. Asiyada şimaldan cənuba qədər bütün iqlim qurşaqlarına: şimalda Arktika və Şərqi Sibirində kəskin kontinental iqlimindən başlayaraq, İndoneziyada ekvatorial iqlimə qədər bütün iqlim tiplərinə rast gəlmək olar. Səhralar zolağı Ərəbistan yarımadasından başlayaraq, mərkəzi hissədə Sarı dənizə qədər uzanır. Səhralarda qış soyuq, yay isə çox isti keçir. Qar, yeraltı sular və yağışlarla qidalanan Ob, İrtış, Yenisey və Lena (Şimal Buzlu Okeanı hövzəsi), Amur, Xuanxe, Yantszı, Sitszyan, Mekonq (Sakit Okeanı hövzəsi), Hind, Qanq, Brahmaputra, Şatt-Əl-Ərəb (Hind Okeanı hövzəsi), Asiyanın ən böyük çaylarıdır. Xəzər və Aral dənizlərinin hövzələri də böyük ərazini əhatə edir. Asiyanın bütün regionlarında iri göllərə: Baykal, Balxaş, İssık-Kul, Van, Xanka, Urmiya, Tonlesap,Tayhu və b. rast gəlmək olar.

İynəyarpaqlı meşələr (tayqa), cənuba doğru enliyarpaqlı meşələr və meşə-çöl zolaqları ilə əvəz olunur. Şərqi və Cənubi Asiyanın tropik en dairələri musson, dağ ətəkləri isə həmişəyaşıl meşələrlə örtülüdür. Ekvator qurşağında (İndoneziyada) bataqlıq meşələri bitir. Kiçik Asiyanın cənub-qərb sahilləri, Aralıq dənizi iqlimi və bitki örtüyü ilə digər bölgələrdən fərqlənir.

Asiyanın fauna aləmi də çox rəngarəngdir. Hind fillərinə, nəhəng pandalara, qoşa ürgüclü dəvələrə bu qitədə rast gəlmək olur. Ən kiçik yarasalara – "uzunburunlara" – Taylandın mağaralarında, ən böyük yarasalara – "uçan tülkülərə" isə İndoneziyada rast gəlinir. Yaponiyanın cənub sahilləri yaxınlığında dəniz sularında nəhəng hörümçəklər yaşayır. Şimal-Şərqi Asiya pələnglərin vətəni sayılır. Ovlanma nəticəsində onların sayı azaldığı üçün, bu heyvanlar qoruqlarda mühafizə olunur. Komodo adasında (İndoneziya) yaşayan nəhəng varanlar dünyada ən böyük kərtənkələlərdir. Uzunluğu 3-4 metrə çatan varanların yaşadıqları ərazi Milli Park elan edilmiş, varanın özü isə Beynəlxalq Qırmızı kitaba salınmışdır. Asiyanın şərq sahillərində və adalarda nadir dəniz heyvanları məskunlaşmışdır (kalan, dəniz pişiyi, suiti, morj və s.). Əvvəllər bu heyvanlar nəzarətsiz ovlanmaya məruz qalırdılar. Hazırda onların çoxaldılması üçün tədbirlər görülür.

Ən qədim zamanlardan Asiya ərazisində ilk böyük sivilizasiyalar yaranmışdır. Burada Babil, Şumer, Assuriya, Xarappa, Urartu kimi qədim dövlətlər mövcud olmuş, möhtəşəm imperiyalar (Ərəb, Monqol, Osmanlı, Rus) yaranmış və süqut etmişdir. XIX əsrdə Asiya dövlətlərinin çoxu avropalıların müstəmləkələrinə çevrilmiş və güclü is-

tismara məruz qalmışlar.

Asiyanın bir sıra dövlətləri – Yaponiya, Sinqapur, Koreya Respublikası iqtisadiyyatının sürəti inkişafı onları inkişaf etmiş ölkələr qrupuna daxil ola bilməsinə imkan yaratmışdır. Digər ölkələr, yeni texnologiyanı mənimsəmək, köhnə təsərrüfat sahələrini modernləşdirmək və yenilərini yaratmaq yolu ilə iqtisadi vəziyyətlərini yaxşılaşdırmağa səy göstərirlər. Bir çox ölkələr bu yolda xarici investisiyalardan geniş istifadə edirlər.

Mütəxəssislərin fikrincə Asiyaya böyük miqdarda turist axınını cəlb edən amillər aşağıdakılardır:

- Turistlərin qəbulu üçün Asiyanın böyük və fövqəladə dərəcədə iri həcmli turizm bazarı olması.
- Asiya sahillərinin üç okeanının, onlarla dəniz və körfəzlərin suları ilə əhatə olunması.
- Asiyada bütün iqlim qurşaqlarının mövcudluğu, landşaftın və rekreasiya ehtiyatlarının hədsiz rəngarəngliyi və zənginliyi.
- Asiyada tarixi və memarlıq abidələrinin zənginliyi.
- Asiyada dünya dinlərinin ən böyük ziyarət mərkəzlərinin yerləşməsi.
- Qitənin etnik rəngarəngliyi.

Belə əlverişli şəraitin olması ilə yanaşı Asiyada turizmin inkişafını ləngidən amillər də mövcuddur. Mütəxəssislərin fikrincə bu cür amillərə aşağıdakıları şamil etmək olar:

- geniş ərazilərdə (səhralar, çətin relyefli dağ yüksəklikləri, cunqli və bataqlıq ərazilər və s.) istirahətin və kütləvi turizmin təşkili üçün əlverişli şəraitin olmaması;
- yol nəqliyyatı şəbəkəsinin ümumən zəif inkişaf etməsi;
- bir çox ölkələrin iqtisadi cəhətdən geridə qalması, turist qəbuluna hazırlığın və müvafiq servisin olmaması;
- Asiyanın bir sıra ölkələrində daxili stabilliyin pozulması.

Dünyanın digər bölgələrindən Asiyaya gələn turistlərin əsas məqsədi, əsrarəngiz təbiət, görkəmli tarixi yerlər və müxtəlif xalqların mədəniyyəti, adət-ənənələri ilə tanış olmaqdır. İdman və müalicə məqsədi ilə qitəyə edilən səfərlər çox cüzidir. İşgüzar səfərlər və konqress turizmi əsasən Yaponiya üçün xarakterikdir.

Asiyanın əksər dövlətləri hazırda turizmə ciddi diqqət yetirirlər. Qitədə turizmin inkişafına mane olan əsas səbəblərdən biri də əksər ölkə və bölgələrdə yerləşdirmə vasitələrinin kəskin surətdə çatışmamasıdır.

Asiyanın xarici turist əlaqələri əsasən aviasiya vasitəsi ilə həyata

keçirilir. Reyslərin çoxu beynəlxalq, az hissəsi isə Asiya ölkələrinə məxsus olan aviaşirkətlərin təyyarələri ilə həyata keçirilir. Turistlərin çarter reysləri ilə daşınması getdikcə üstünlük qazanır.

İqlim şəraiti geniş diapazonlu olduğu üçün, bu regiona gəlişin dəqiq vaxtı-zamanı olmasa da, Asiyanın bir sıra bölgələrində turizm, mövsümi xarakter daşıyır.

Asiya üçün əsas turizm bazarı Avropanın inkişaf etmiş ölkələri (Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, Niderland, Skandinaviya ölkələri), ABŞ və Kanadadır. Afrikadan daha çox axın, müsəlman ölkələrindən Məkkə və Mədinəyə, Şərqi Afrikadan isə Hindistan, Pakistan və İrana yönəlir. Avstraliyadan və Yeni Zelandiyadan turist axını Cənub-Şərqi və Cənubi Asiyaya daha çoxdur. Asiya ölkələrindən qitə daxili turist axını əsasən Yaponiyaya, Malayziya, Sinqapur və Taylanda istiqamətlənir.

Asiyadan dünyanın digər regionlarına turist səfərləri azdır. Asiyanın turist bazarı, qitə əhalisinin sayı ilə hələlik uyğun gəlmir. Hazırda digər qitələrə səyahət edənlərin çoxu yaponlar və Cənub-Qərbi Asiya bölgəsinin sakinləridir. Yalnız möhkəm sülhün bərqərar olması və xalqların rifahının yüksəlməsi nəticəsində Asiya, beynəlxalq turizm hərəkatında layiqli yer tuta bilər.

# FƏSİL 14.

## ŞƏRQİ ASİYA ÖLKƏLƏRİNDƏ BEYNƏLXALQ TURİZM

### 14.1. ÇİN XALQ RESPUBLİKASI (ÇXR)

**Ərazisi: 9,6 mln. kv. km. Dünyada 3-cü yer.**
**Əhalisi: 1,3 mlrd. nəfər (2000). Dünyada 1-ci yer.**
**Paytaxtı: Pekin (16,0 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Çin dili.**
**Din: Konfusianlıq, daosizm, buddizm, islam.**
**Milli pul vahidi: Yuan.**

Asiyanın şərqində yerləşmiş ÇXR, 14 dövlətlə: şimal-şərqdə (sərhədin uzunluğu 3605 km) və şimal-qərbdə (40 km) Rusiya, şimalda Monqolustan (4673 km), şimal-şərqdə Şimali Koreya (1416 km), şimal-qərbdə Qazaxıstan (1533 km) və Qırğızıstan (858 km), qərbdə Pakistan (523 km), Tacikistan (414 km) və Əfqanıstan (76 km), cənub-qərbdə və cənubda Hindistan (3380 km), cənubda Myanma (2185 km), Vyetnam (1281 km), Nepal (1236 km), Butan (470 km) və Laosla (423 km) həmsərhəddir.

Ölkə cənubdan Cənubi Çin, şərqdən Sarı və Şərqi Çin dənizlərinin suları ilə əhatə olunur. Çin əsasən dağlıq ölkədir. Ərazisinin cəmi 30 faizi dəniz səviyyəsindən 1000 m yüksəklikdən aşağıda yerləşir. Cənubda Nanlin dağları və Yunnan-Quyqcou dağlıq əraziləri uzanır. Cənub-qərbdə hündürlüyü 4500 m çatan Tibet yaylası və Himalay, Qaraqorum, Nanşan, Kunlun dağları ilə əhatə olunur. Nepal ilə sərhəddə dünyanın ən yüksək dağ zirvəsi olan Comolunqma (Everest, 8848 m) ucalır. Qərbdə və şimal-qərbdə Təklə-Məkan səhrası, Tarim, Cunqar və Alaşan yüksək düzənlikləri, həmçinin Şərqi Tyan-Şan dağları (ondan cənubda Turfan çökəkliyi - 154 m) yerləşir. Çinin şimalında Qobu səhrası, Şimal-şərqdə Böyük Xinqan, Kiçik Xinqan və Şimali Koreya dağları yerləşir. Bir qədər cənubda Lyos* yaylası və Böyük Çin düzənliyi uzanır. Yantszı, Xuanxe, Sunqari, Sitszyan ölkənin ən böyük çaylarıdır.

Şanxay (17,5 mln.), Pekin (16,0 mln.), Tyanszin (8,5 mln.), Şenyan (5,1 mln.) Çinin əhalisi 5,0 mln. nəfərdən artıq olan nəhəng şə-

* ***Lyos*** - açıq sarı rəngli, kövrək, narın torpaq.

hərləridir. Çində, əhalisi bir milyondan artıq olan 40-dan çox şəhər vardır. Quançjou, Dalyan, Tsindao, Tsinxuandao və Şanxay ölkənin ən böyük portlarıdır.

Çin, əhalinin sayına görə dünyanın ən böyük ölkəsidir. Hər gün ölkədə 50 minə yaxın uşaq doğulur. Əhalinin böyük əksəriyyəti özlərini xan adlandıran çinlilərdir (93 faiz). Digər etnik qruplar: huey, uyğur, mancur, tibet, itszu, buyi, myao və koreyalılardır.

Çin əhalisi müxtəlif dinlərə sitayiş edir. Dinlər arasında konfusianlıq, buddizm və islam daha geniş yayılmışdır. Dindarlar arasında xristian təriqətlilər də var. Orta ömür müddəti: kişilər üçün 67, qadınlar üçün 69 ildir.

Çinin səth quruluşu müxtəlif olduğundan iqlimi də çox rəngarəng və müxtəlifdir. Bu ilk növbədə ərazinin genişliyi və okeanın təsiri ilə izah olunur. Çin üç iqlim qurşağının (mülayim, subtropik və tropik) qovşağında yerləşir. Ölkənin şərq hissəsində qış soyuq və quru keçir. Çinin qərb hissəsinin iqlimi daha sərtdir. İsti yay soyuq qışla əvəz olunur (yanvarın orta temperaturu mənfi 28 dərəcəyə çatır). Dəniz səviyyəsindən çox yüksəkdə olduğu üçün Tibetin iqlimi Arktik iqlimə yaxındır.

Konstitusiyaya görə Çin Xalq Respublikası xalqın demokratik diktaturasına əsaslanan sosialist dövlətidir. Ölkənin tərkibində 22 əyalət (ÇXR Tayvan adasını özünün 23-cü əyaləti hesab edir), 5 muxtar rayon və birbaşa mərkəzin tabeliyində olan 3 şəhər (Pekin, Şanxay və Tyantszın) vardır. 1997-ci ildə Honkonq xüsusi ərazi statusu ilə Çin dövlətinin tabeçiliyinə verilmişdir. Eyni zamanda Çin hökuməti 50 il müddətində Honkonqda mövcud olan sosial və iqtisadi sistemə toxunmamaq və ənənəvi həyat tərzinə hörmətlə yanaşmaq məsuliyyətini öz üzərinə götürmüşdür. 1999-cu ildə Cənubi Çin dənizində yerləşən Portuqaliya müstəmləkəsi Makao (Aomın) Çinə birləşdirildi.

ÇXR yaradılması günü (1 oktyabr 1949-cu il) - Milli Bayram kimi geniş qeyd olunur. İcraedici hakimiyyət ÇXR Sədrinə (dövlət başçısı), Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin Sədrinə və ÇXR Dövlət Şurasının Cədrinə məxsusdur. Dövlətin ali qanunverici orqanı - Ümumçin Xalq Nümayəndələri Yığıncağıdır.

Çin aqrar-sənaye ölkədir. Daş kömür, dəmir filizi, neft, əlvan metallar və digər faydalı qazıntı yataqlarına malikdir. İqtisadi islahat illərində, ölkənin xalq təsərrüfatı sürətlə inkişaf etmişdir. Buğda, pambıq, ət, pambıq-parça, kömür və sement istehsalı üzrə Çin dünya-

da birinci yerə çıxmışdır. 1992-ci ildən iqtisadi inkişaf sürətinə görə də Çin birinci yeri özündə saxlayır. Mineral gübrə, metal, çay (2-ci) şəkər (3-cü) elektrik enerjisi (4-cü), neft (5-ci yer) üzrə isə dünya istehsalçıları arasında ilk beşliyə daxil olmuşdur.

Xarici ticarətin həcminə görə, Çin dünya ölkələri arasında 11-ci yerə çıxmışdır. Dünya ticarətində onun payı 2,6 faizə (o cümlədən ixracat üzrə 2,5, idxalat üzrə - 2,7 faiz) çatmışdır. Xarici ticarətin orta illik artım sürəti, iqtisadiyyatın ümumi artımından 3 dəfə yüksəkdir.

* * *

Geniş əraziyə, rəngarəng təbii şəraitə, qədim tarixə və sivilizasiyaya malik olan Çin, ən tələbkar turisti də maraqlandıra bilər. Xarici turistlərə göstərilmək üçün, dövlət mühafizəsində olan 750 tarixi-mədəniyyət abidəsi və 119 mənzərəli yer nəzərdə tutulur. Onlardan 19-u BMT-nin tərtib etdiyi dünyanın təbii və mədəni irsi kataloquna daxil edilmişdir. Çin qədim sivilizasiyalardan birinin beşiyidir. Bu sivilizasiyaya aid abidələr ölkənin bir çox bölgələrində qorunub saxlanılmışdır. Ölkəyə gələn səyahətçi, Konfusi, imperatorlar Sin Şixuan, Çingiz xan və b. həyatı və fəaliyyəti ilə bağlı olan marşrutlar seçə bilər.

Təbiəti sevənlər, Litszyan və Quylin çayları sahillərinin mənzərəli yerlərini, beş "müqəddəs" dağın əsrarəngiz gözəlliklərini seyr edə bilərlər. Yantsı çayı sahilindəki üç tektonik dərə və Cənubi Çinin kənd rayonları da turistlər üçün maraqlıdır. Xuanşan Çin dağlarına məxsus bütün gözəllikləri özündə cəmləşdirmişdir. Emeyşan dağı çətin dağ keçidləri və təkrarolunmaz gözəllikləri ilə məşhurdur. Möhtəşəm Xuan Qoşu şəlaləsi, əhəngdaşı mağaraları və "daş meşə", Daxili Monqolustanın ucsuz-bucaqsız çölləri turistlərdə unudulmaz təəssürat yaradır. Qışda isə Tsizilin və Xeyluntszyanın geniş qarlı düzənlikləri torpaqlardakı qar naxışlarını seyr etmək adamı heyran edir.

Xalq adət-ənənələri ilə maraqlananlar üçün sayı 40-dan artıq olan Xalq bayramları xüsusi maraq doğurur. Çin səhnə mədəniyyəti - Pekin operası, sirk ustalığı, musiqi və xoreoqrafiya ilə tanışlıq da faydalıdır. Rəssamlıq və kalliqrafiya* Çində yüksək bədii səviyyədədir.

Dəniz sahili boyu çoxsaylı portlar və kurortlar yerləşir. Bu bölgələrdə dövlət əhəmiyyətli kurort-istirahət rayonları yaradılmışdır. Məzuniyyət dövrünü bu yerlərdə keçirmək çox əlverişlidir. ÇXR-də beynəlxalq turizm mərkəzləri əsas etibarilə iri şəhərlər və onların ət-

* ***Kalliqrafiya*** (yunanca gözəllik və cizgi sözlərinin vəhdətidir) - gözəl, yaraşıqlı və aydın yazmaq sənəti.

rafı hesab olunur.

**Pekin turizm mərkəzi.** Pekin ÇXR-nın inzibati və mədəni mərkəzidir. Pekinin tarixi hissəsi - İmperator şəhəri (qapılar və Tyannanmın meydanı) və "Qadağan edilmiş şəhər" (saray və Taymyao məbədi ilə birgə) hesab edilən qədim İçəri və Bayır şəhərlərdən ibarətdir. Mao Tsze Dun, Çin inqilabı muzeyləri, Milli qalereya şəhərin görməli yerlərindəndir. Pekində çoxsaylı məbədlər, o cümlədən Torpaq, Günəş, Ay və Səma məbədləri (XV-XVI əsrlər) vardır. Tsyan-Tan parkında Min sülaləsi imperatorlarının məqbərələri yerləşir. Bu məqbərələrə aparan yol boyu mərmərdən düzəldilmiş şir, fil, dəvə, at heykəllərindən ibarət məşhur "heyvanlar xiyabanı" uzanır.

Pekinin şimal-qərbindəki dağlıq ərazidən Böyük Çin Səddinin (tikintisinə e.ə. IV əsrin axırı - V əsrin əvvəllərində başlanmışdır) bir hissəsi keçir. Pekinin cənub-şərqində mənzərəli məşhur Tayşan dağı və Konfussi məbədi yerləşir. Taydxu və Sixu göllərində, həmçinin Xuanşan dağında gəzinti xoş təəssürat yaradır. Şəhərin çoxsaylı parkları arasında, daxili şəhərdəki "Üç dəniz" parkı, Çueyuan, Şisanlin adlanan parklar xüsusilə seçilir. Tyannanmın meydanında yeni memarlıq nümunələrindən olan Ümumçin Xalq Nümayəndələri Yığıncaqlarının binasını, Çin inqilabı və Çin tarixi muzeylərinin binalarını göstərmək olar.

Pekindən şimalda, Daxili Monqolustan çöllərində at yarışlarını müşahidə etmək olar. Böyük Xinqan meşələrində isə macəra həvəskarları üçün vəhşi heyvan ovları təşkil edilir. Qərbdə (Dun Xuanda) isə bütün dünyada məşhur olan, Maqao mağaraları turistlərin diqqətini cəlb edir.

**Şanxay turizm mərkəzi.** Şanxay Çinin və dünyanın ən iri şəhərlərindən biridir. ÇXR-nin gözəl və müxtəlif məzmunlu kolleksiyalarından birinin toplandığı İncəsənət və tarix muzeyi; XVI əsrdə salınmış Mandarin Yunun bağı, Al qırmızı Payız Buludları bağı (Min sülaləsinin hakimiyyəti dövründə salınmışdır); Çexuanmyao məbədi və qiymətli daş-qaşla bəzədilmiş Buddanın möhtəşəm abidəsi saxlanılan Yuyfesa məbədi Şanxayda yerləşir.

Çinin cənub-qərbində (Yunnan əyaləti) öz adət və ənənələrini qoruyub saxlayan çoxlu milli azlıqlar yaşayırlar. Mənzərəli Emey dağının və Tszyuçjayçjou dövlət qoruğunun yerləşdiyi Sıçuan əyalətinə səfərlər xoş təəssürat yaradır. Çuntsindən başlayaraq, Yantsı çayı ilə aşağı, teploxodla səyahət edənlər Mərkəzi Çinin iri şəhərlərindən biri olan Uxana çatırlar. Uxandan isə qatar və ya təyyarə ilə Pekinə getmək olar. Turistlərin istəyindən asılı olaraq, səyahəti davam

etdirmək, Quyminə, Luşan dağına və Quançjou şəhərinə səfər etmək də olar. Ölkənin əsas zooparklarından biri; Sun Yatsenin movzoleyi; Jenxay paqodası* (Min sülaləsi zamanında tikilmişdir); Çində ən qədim məscidlərdən biri - Xuaysenq məscidi (627-ci ildə əsası qoyulmuşdur) Quançjouda yerləşir.

Lamaizmin** mərkəzi olan Lxas şəhərində çoxsaylı Budda monastır və məbədləri, o cümlədən, Dalay - Lamanın keçmiş iqamətgahı olan Potala saray-monastırı (VII əsrdən məlumdur, XVI-XVII əsrlərdə yenidən tikilmişdir) saxlanılır. Şensi əyalətinin Sian şəhəri yaxınlığında Sin sülaləsindən olan və e.ə. 211-ci ildə vəfat etmiş imperatorun məqbərəsi yerləşir. Məqbərədə təbii ölçülərdə gildən hazırlanmış minlərlə əsgər və at heykəlləri vardır.

Nankinin tarixi abidələri arasında, Tsisyasa monastırındakı Daş paqoda (X əsr); Lunqus monastırında "Ulyandyan" kərpic məbədi (1398), xüsusilə seçilirlər. Çinin qədim şəhərlərindən biri olan Tayyuandakı köhnə parkda Tszintsa məbədi (VI əsr) yerləşir. XVII əsrədək bu şəhərdə 300-dən artıq məbəd, zal, körpü, köşk tikilmişdir.

Çinə səyahət zamanı, ənənəvi Çin teatrına - Pekin operasına və konsertlərə getmək, milli rəqslər və xalq incəsənəti ilə tanış olmaq, eyni zamanda kulinarlıq sənətinin müxtəlif üslublarını özündə birləşdirən Çin mətbəxi ilə tanış olmaq olar.

* * *

Çin, Sakit okean sahillərində əsas turizm ölkələrindən biri sayılır. Amma yaxın zamanlara qədər buraya gələn turistlərin əksəriyyətini etnik çinlilər təşkil edirdi. Belə ki, 1990-cı ildə ölkəyə səyahət edən 27,5 mln. turistdən 25,5 mln.-u, Honkonq, Makao və Tayvandan gələn və əslən çinli olan turistlər olmuşdur. Səyahətlər üzrə Çin Milli İnzibati İdarəsinin hesablamalarına görə, 1990-cı ildə Tayvandan 1 mln., Yaponiya, ABŞ, Böyük Britaniya və MDB ölkələrindən gələnlərin sayı 1,7 mln. nəfər təşkil etmişdir.

Çində təşəkkül tapmış turizm modeli, ölkənin siyasi tarixi və onun qonşu ölkələrlə münasibəti zəminində inkişaf etmişdir. Çin dünyanın qədim sivilizasiya mərkəzlərindən biri olsa da, onun yeni tarixi 1840-cı ildən, Böyük Britaniya və digər Avropa dövlətləri ilə müharibədən sonra başlanır. Bu müharibə nəticəsində Honkonq ada-

---

* ***Paqoda*** - (hərfi mənası dəfinələr qülləsi) - Uzaq Şərq ölkələrində dini bina tipi. Paqoda Budda dini əşyalarını saxlamaq üçün tikilir.

** ***Lamaizm*** - buddizmin cərəyanlarından biri. Son dərəcə eklektik dindir, burada tərkidünyalıq və seyrçiliklə yanaşı, magiya və yerli Allahlara etiqad da mühüm yer tutur.

ları uzun müddətə Böyük Britaniyaya verildi və bu adalar ticarət və maliyyə mərkəzi kimi inkişaf etməyə başladı. 1898-ci ildə Çin ərazisinin bir hissəsi (Honkonq - "yeni ərazilər") rəsmi şəkildə Böyük Britaniyaya 99 il müddətinə icarəyə verildi, Makao isə həmin müddətə Portuqaliyanın müstəmləkəsi oldu.

XX əsrin birinci yarısında Çinin siyasi inkişafı qeyri-sabitliyi ilə xarakterizə olunurdu, bu isə İkinci Dünya müharibəsindən sonra vətəndaş müharibəsinə səbəb oldu və 1949-cu ildə kommunistlərin qələbəsi ilə nəticələndi. Məğlub olan Çin millətçiləri Tayvana qaçaraq Çin Xalq Respublikasına alternativ olaraq orada Çin Respublikası adlanan dövlət yaratdılar. ÇXR sonralar dəfələrlə itirilmiş əraziləri qaytarmağa cəhd göstərsə də buna nail ola bilmədi. Bu vəziyyət və Sovet İttifaqı ilə münasibətlərin soyuması, ötən əsrin 60-70-ci illərində Çinin siyasi cəhətcə təklənməsinə səbəb oldu. Bu isə öz növbəsində Çinə edilən səfərlərin sayını da azaltdı. Amma 70-ci illərdə iqtisadi və siyasi sahədə islahatların aparılması ilə ölkənin xarici siyasəti də dəyişikliyə məruz qaldı.

1978-ci ildə uzun sürən təklənmədən sonra, Çin "Açıq qapılar" siyasəti yeritməyə başladı. Çin iqtisadiyyatının müasirləşdirilməsinə başlanıldıqdan sonra, xarici qonaqların axını xeyli artdı (2 il ərzində onların sayı təqribən 500 min nəfər artdı). Turistlərin əksəriyyəti ölkənin qədim mədəniyyəti ilə maraqlanırdılar. Bu siyasətin mühüm səbəblərindən biri, ölkəyə xarici valyuta axınının vacibliyi idi.

1978-1988-ci illərdə ÇXR-də həyata keçirilən iqtisadi islahatlarla yanaşı, qonşularla qarşılıqlı əlaqələrin yaranmasında da əhəmiyyətli siyasi dəyişikliklər baş verdi. 1984-cü ildə ÇXR və Böyük Britaniya arasında Honkonqun icarə müddətinin 1 iyul 1997-ci ildə bitməsi ilə əlaqədar, yalnız icarədə olan torpaqların deyil, bütün müstəmləkənin ÇXR-ə qaytarılması haqqında Saziş bağlanıldı. ÇXR-in dünya iqtisadi və siyasi sisteminə inteqrasiyası artdıqca, Tayvanın beynəlxalq müdafiəsi zəifləməyə başladı. Eyni zamanda Tayvanın ÇXR ilə qarşılıqlı münasibətində müəyyən irəliləyiş oldu.

1987-ci ilədək qarşılıqlı səfərlərin mümkün olmadığını qeyd etməklə yanaşı, artıq Tayvanın öz vətəndaşlarına ÇXR-dəki qohumları ilə görüşmək məqsədi ilə səfər etməyə icazə verdiyini də göstərmək lazımdır. Amma, bu ölkələr arasında birbaşa nəqliyyat əlaqəsi olmadığı üçün, səyahətlər Honkonq vasitəsi ilə həyata keçirilirdi. Ona görə də 1990-cı ildə bu şəhərin ÇXR ilə olan sərhədini keçən qonaqların ümumi sayı 20 mln. nəfər olmuşdur. Həmin il Honkonqun öz əhalisinin sayı isə cəmi 5,8 mln. nəfər idi.

Ötən əsrin 80-ci illərinin ortalarında ÇXR-də turizmin sürətli artımının ikinci dalğası müşahidə edildi, amma bu artım sürəti onilliyin sonunda bir qədər zəiflədi. Bunun səbəbi turizm sənayesi və onun idarə olunmasının zəifliyi, həmçinin ümumiyyətlə infrastrukturun kifayət səviyyədə olmaması idi. Bu vəziyyət, xarici kapitalın iştirakı ilə orta və yüksək dərəcəli yeni mehmanxanaların tikintisinə təkan verdi. Amma bir çox mehmanxanalar, xüsusilə Pekin və Şanxaydakılar artıq 90-cı illərin əvvəllərində yerlərin düzgün seçilməməsi və qiymət siyasətinin düzgün aparılmaması nəticəsində sürətlə artan turizm bazarından istifadə edə bilmirdilər. İnfrastrukturun inkişafına gəlincə, qeyd etmək lazımdır ki, müasir tələbatlara cavab verən yeni aeroportların salınması, yeni otellərin tikintisindən geri qalır, dəmiryol nəqliyyatı zəif inkişaf edir və praktiki olaraq xarici turistlər tərəfindən istifadə edilmirdi.

1979-1988-ci illərdə Çinə turist göndərən əsas ölkə Yaponiya idi, sonrakı yerləri ABŞ, Böyük Britaniya və Avstraliya tuturdu. 1989-cu ildə "yenidənqurma" siyasətinin başlanması, SSRİ və ÇXR arasında ticarət və kommersiya fəaliyəti üçün sərhədlərin açılması nəticəsində Sovet İttifaqı Avstraliyanı qabaqladı və Böyük Britaniya ilə üçüncü - dördüncü yerləri bölüşdürürdü.

"Açıq qapılar" siyasəti və Qərb ilə əlaqələrin genişləndirilməsi, daha çox demokratiya tələbi ilə başlanan tələbə çıxışlarına səbəb oldu. Bu çıxışlar, 4 iyun 1989-cu ildə Tyannanmın meydanında yatırıldı. Bu hadisədən sonra Qərb turistləri, o cümlədən ABŞ, Avstraliya və Cənub-Şərqi Asiyanın digər ölkələrindən olan turistlər Çini baykot etdilər. Amma, bir müddət keçdikdən sonra Avropadan turistlər yenidən Çinə gəlməyə başladı.

ÇXR-də həyata keçirilən siyasi və iqtisadi islahatlar, daxili turizm bazarına müsbət təsir göstərdi. Artıq 1987-ci ildə daxili turistlərin sayı 290 mln.-a çatdı. Çinin beynəlxalq turizm üçün iri bazar olmasına və dünyanın iri turizm mərkəzinə çevrilməsinə səbəb, onun siyasi təkamül yolu tutması oldu. Əgər 1982-ci ildə xarici qonaqlar 122 şəhərə daxil ola bilirdilərsə, 1986-cı ildə - 274, 1990-cı ildə isə 500-dən artıq şəhər qonaqların üzünə açılmış, turist zonalarının sayı artmışdı.

Xatırladaq ki, əsas tarixi abidələr, qədim Çin sivilizasiyasının yarandığı şimal-şərq və mərkəzi əyalətlərdə yerləşir. Cənubda və sahilboyu yerləşən əyalətlərdə isə çox mənzərəli yerlər və gözəgəlimli şəhərlər vardır. Dünyada ən çox əhalisi olan bu ölkə Şərqi Asiya və Sakit okean regionunda turizm modelini ümumiyyətlə dəyişməyə nail

olmuşdur.

1997-ci ildə **Honkonq** Çinin tərkibinə keçdi və "Bir ölkə - iki sistem" siyasəti yeridilməyə başlandı. Ötən yüz il ərzində Honkonq, iri port, ticarət, maliyyə və turizm mərkəzi kimi inkişaf etmiş və Sakit okean regionunun Yeni Sənaye Ölkələrindən birinə çevrilmişdi. Turizm, Honkonq üçün üçüncü iri xarici valyuta mənbəyi rolu oynayır.

ÇXR-ə birləşənə qədər Honkonqun, Çinin Quandun əyaləti (Honkonqa qonşu əyalət) ilə ticarət və istehsal əlaqələri olduğu üçün, həmin əyalətə böyük investisiyalar qoymuşdu. Nəticədə hər iki regionun əhalisi arasında qarşılıqlı səfərlər üstünlük təşkil edir. ÇXR-in daxili siyasətində və qonşu ölkələrlə münasibətində dəyişikliklərdən sonra, Honkonqun da gəlmə turizm modeli dəyişildi. Ölkə öz qonaqlarından əlavə, ÇXR-ə gedən tranzit turistləri də qəbul edərək Çinə istiqamətləndirməyə başladığından bir növ Çinin turizm "qapısına çevrildi". Honkonqla Çinin ondan artıq şəhəri arasında daimi reyslər açılmış, Quançjou şəhərinə müasir avtomobil və dəmiryolları çəkilmişdir. Honkonq üçün əsas turizm bazarları Yaponiya, ABŞ, Kanada, Avstraliya İttifaqı, Yeni Zelandiya və Böyük Britaniyadır.

Honkonqda turizm, şopinq, rəngarəng gecə həyatı, Çin mədəniyyətinin görkəmli yerlərinə (opera, teatr) gedişlər, tematik parklara (Oşnpark akvariumu, Sun sülaləsi dövrünün kəndi) səyahət, idman (at çapmaq) və hər il keçirilən festivallar üzərində qurulmuşdur. Honkonq eyni zamanda konfrans və yarmarkaların iri mərkəzi kimi tanınır. Ölkəyə gələnlərin təqribən 18-25 faizinin məqsədi belə tədbirlərdə iştirak etmək olmuşdur.

Ötən əsrin 80-ci illərində Honkonq digər Asiya ölkələri üçün iri bazar rolu oynamışdır (1981-ci ildə 1; 1990-cı ildə 2,04; 1998-ci ildə 3,0 mln. nəfər). Əsasən səyahətlər qonşu ölkələrə yönəlmiş və qısa müddətli olmuşdur. Honkonq sakinləri öz məzuniyyətlərini əsasən Taylandda keçirmiş (bütün məzuniyyətlərin 90 faizi), biznes-turlar isə Filippin, İndoneziya, Sinqapur və Yaponiyaya (müvafiq olaraq 51, 26, 21 və 20 faiz) təşkil edilmişdir. 1999-cu ildə Honkonqa 9,8 mln. xarici turist gəlmiş, turizmdən daxil olmalar 7,2 mlrd. ABŞ dollarından artıq olmuşdur. Tyanannmın meydanındakı hadisəyə qədər xarici səfərə gedən Honkonq sakinlərinin 28 faizi Çinə yollanırdısa, 1989-cu ildən sonra Çinin payı 13 faizədək azaldı.

Portuqaliyanın müstəmləkəsi olmuş digər Çin ərazisi - Makao (Çin dilində Aomın), 1999-cu ildə Çinə qaytarıldı. Aomın yarımadası, Taypa, Koloan və s. adalardan ibarət olan, Mirvari çayının deltasında yerləşən Makaonun ümumi ərazisi 16,92 kv. km-dir. Turistlərin çoxu

bura Honkonqdan katerlə gəlirlər. Məsələn, 1992-ci ildə qonaqların sayı 5 mln. nəfərdən çox olmuş, onların da 78,7 faizini Honkonqdan gələnlər təşkil etmişdir. Qonaqların yarısı Makaoda öz məzuniyyətlərini keçirmək, digər yarısı isə əylənmək üçün üçün gəlirlər. 1999-cu ildə Makaoya 3,5 mln.-dan artıq xarici turist gəlmiş, turizmdən daxilolmalar 3,3 mlrd. ABŞ dolları təşkil etmişdir.

1999-cu ildə, ölkəyə gələn xarici turistlərin sayına (27. mln.-dan artıq) və turizm fəaliyyətindən daxilolmalara (14 mlrd. ABŞ dollarından artıq) görə, Çin dünyanın aparıcı ölkələri sırasına çıxmışdır. Honkonqun (10 mln. turist və 7,2 mlrd. ABŞ dolları daxil olması) və Makaonun göstəriciləri də nəzərə alınmaqla, 1999-cu ildə Çin dünya turizm reytinqinə görə ilk beşliyə daxil olmuşdur. 1999-cu ildə 9,2 mln. çinli xarici səfərlərdə iştirak etmişdir.

ÇXR-da turizmin inkişafına dair qəbul edilmiş proqrama əsasən, 2020-ci ildə ölkəyə səyahət edən turistlərin sayı 140 mln. nəfərə çatmalıdır. Bu isə ölkəyə 375 mlrd. ABŞ dolları həcmində gəlir gətirə bilər. Bunun 300 mlrd. daxili, 75 mlrd. isə xarici turistlərin hesabına əldə olunması nəzərdə tutulur. 2000-ci ilə olan məlumata əsasən, ÇXR-da turistlərin qəbulu üçün 1,8 mln.-dan artıq mehmanxana və digər yerləşmə vasitələrində gecələmə yeri mövcuddur.

ÜTT-nın hesablamalarına görə, 2020-ci ildə xaricə gedən turistlərin sayına görə də, Çin dünyada birinci yeri tutmalıdır[1].

---

[1] Turinfo qəzeti, №40, 16-23 oktyabr - 2001.

## 14.2. YAPONİYA

**Ərazisi: 377,7 min kv. km. Dünyada 60-cı yer.**
**Əhalisi: 128,0 mln. nəfər (2000). Dünyada 10-cu yer.**
**Paytaxtı: Tokio (12,0 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Yapon dili.**
**Din: Sintoizm.**
**Milli pul vahidi: İyena.**

Yaponiya Şərqi Asiyada Sakit okeanın qərb hissəsində, Xonsyu, Kyüsü, Xokkaydo, Sikoku və digər çoxsaylı xırda adalarda (3900-dən çox) yerləşir. Yaponiya ilə Rusiya arasında mübahisələrə səbəb olan Kuril adalarını rəsmi Tokio ölkə ərazisinin bir hissəsi hesab etməkdə davam edir.

Ölkənin landşaftında düzənliklərə qovuşan yarğanlı dağlar üstünlük təşkil edir. Yaponiyanın ən yüksək dağları vulkan mənşəlidir. Ölkədə aktiv vulkanların sayı 60-dır. Yaponiyanın ən yüksək zirvəsi yaponlar tərəfindən müqəddəs sayılan Fudziyama vulkanıdır (3776 m). Ən geniş düzənlik ərazilər Kanto, Xonsyu adalarındadır. Yaponiyada yalnız altı çayın uzunluğu 200 km-dən artıqdır. Xonsyu adasındakı Sinano Yaponiyanın ən uzun (369 km) çayıdır. Vulkanik mənşəli göllərin əksəriyyəti kraterlərdə* yerləşir. Tektonik göllərdən ən böyüyü - Bivadır (672 kv. km).

Ölkədə əhalisinin sayı 1 mln. nəfərdən artıq olan 10 iri şəhər: Yokoqama, Osaka, Kavasaki, Kobe, Naqoya, Kioto, Sapporo, Xirosima, Fukuoka, Kitakyusyu mövcuddur. Ölkənin mühüm portları: Kitakyusyu, Kobe, Osaka, Tokio, Yokoqama, Kavasaki, Kiqosima, Naqaya, Naqasaki və Tibadır.

Yaponiya monoetnik ölkələrdən biridir. Əhalinin 99,0 faizindən çoxu yaponlardan ibarətdir. Dini baxımdan yaponların böyük əksəriyyəti sintoizmə** etiqad edir. Yaponların bəziləri həm sintoizm, həm də buddist ənənələrinə riayət edirlər. Dindarlar arasında az miqdarda xristianlar da vardır. Orta ömür müddəti: kişilər üçün 76, qadınlar üçün 82 ildir.

Təbii baxımdan Yaponiyada dörd iqlim zonasını: mülayim soyuq

---

* ***Krater*** - (yunan mənşəli sözdür, böyük kasa, cam mənalarını daşıyır) - diametri onlarca metrdən bir neçə km-ə, dərinliyi bir neçə metrdən yüz metrədək olan qıfşəkilli çökəklik. Vulkan püskürməsi, meteoritlərin düşməsi nəticəsində yaranır.

** ***Sintoizm*** (yaponca hərfi mənası - allahların yolu ilə) - Yaponiyada təşəkkül tapmış lokal din. Sintoizmə görə insanın mənşəyi sonsuz sayda ruhlardan, nüfuzlu allahlardan başlayır.

(Xokkaydo adası), mülayim isti (Xonsyu adası), subtropik (Kyusyu adası və Rükyu arxipelaqının şimal hissəsi) və tropik (Rükyunun cənub hissəsi) müəyyən etmək olar.

Şimalda qış kifayət qədər soyuq keçir. Xokkaydo adasında yanvarın orta temperaturu mənfi 10 dərəcə olur. Burada tez-tez qar çovğunları və boranlar baş verir. Cənubda qış isti və quru, yay bürkülü, yağışlı və dumanlı olur. Yaponiyanın böyük hissəsində yayda, hətta gecələr belə havanın temperaturu 23-25 dərəcədən aşağı enmir. İyul-avqust aylarında adalar üzərindən tez-tez dağıntılara səbəb olan tayfunlar əsir.

Dövlət quruluşuna görə Yaponiya konstitusiyalı monarxiyadır. İnzibati cəhətcə 47 prefekturaya bölünür. Dövlət başçısı - imperatordur. Real icraedici hakimiyyət Nazirlər Kabinəsinə rəhbərlik edən Baş nazirə məxsusdur. Qanunvericilik hakimiyyətini ikipalatalı parlament həyata keçirir. Parlament Müşavirlər (Yuxarı palata) və Nümayəndələr Palatalarından (Aşağı palata) ibarətdir. 23 dekabr - İmperatorun doğum günü (1933-cü il), Milli bayram kimi geniş qeyd olunur.

Yaponiya iqtisadiyyatının ən mühüm sahəsi olan sənaye, xammal və yanacaq idxalından tam asılıdır. Yeni texnologiyaya əsaslanan ən yeni sənaye sahələri: rabitə və informatika vasitələri, yeni materiallar istehsalı və biotexnologiya sürətlə inkişaf edir. Yaponiya gəmi, avtomobil, traktor, metalemalı, məişət elektronikası və robot istehsalı üzrə dünyada birinci yer tutur.

Dünya istehsalında Yaponiyanın payı, rəngli televizorlar üzrə - 60, polad üzrə - 14,4, süni ipliklər üzrə - 12,3 faizdir. Dünya üzrə balıq ovunun 15 faizi Yaponiyanın balıqtutan gəmilərinin payına düşür. Yaponiya dünyanın iqtisadi cəhətdən ən yüksək inkişaf etmiş ölkələrindən biridir.

Yaponiyada istirahət və idmanla məşğul olmaq üçün əlverişli imkanlar çoxdur. Müalicəvi mənbələr də çoxsaylıdır. Ölkənin Asiya qitəsinə münasibətdə əlverişli mövqedə yerləşməsi Cənub-Şərqi və Mərkəzi Asiya dövlətləri ilə turizm və mədəni əlaqələrin yaradılmasına əla şərait yaradır. Bununla belə Yaponiyanın "turist göndərən" Avropa ölkələrindən uzaqda yerləşməsi, həmin ölkələrdən turist axınına mane olur.

* * *

Gözəl təbii şərait, yaponların milli məişət və mədəniyyəti, qədim memarlıq abidələri, müasir şəhərlər, Tokio, Sapporo və Naqonanun Olimpiya tikililəri və s. turistləri "gündoğan ölkəyə" cəlb edir.

Ölkənin əsas turizm mərkəzi, onun paytaxtı **Tokiodur**. Əhalisinin sayına görə Tokio Yaponiyanın ən nəhəng, dünyanın isə ən iri şəhərlərindən biridir. Şəhər, Xonsyu adasının cənub-şərqində, Tokio körfəzinin sahilində yerləşir. Antiseysmik tələbat, uca binaların tikilməsini məhdudlaşdırdığı üçün, Tokioda alçaq tikililər üstünlük təşkil edir. Son illərdə, şəhərin müxtəlif hissələrində ucalan hündür inzibati binalar, onun görkəmini dəyişir.

Şəhərin mərkəzində geniş kanallar ilə əhatə olunmuş, bağlar və qala divarlarının qalıqları saxlanılan imperator sarayı (Edo qəsri, XV əsr) yerləşir. Ərazisinə görə ən böyük parklardan biri olan Meydzi parkında, XIX əsrdə Meydzinin şərəfinə tikilmiş möhtəşəm sintoist məbədi yerləşir, 1964-cü ildə Tokio olimpiadasının keçirildiyi Milli stadion da buradadır. 333 metr hündürlüyü olan televiziya qülləsi (Parisdəki Eyfel qülləsindən də ucadır) şəhərin görkəmli yerlərindəndir.

Tokioda çoxsaylı sintoist və buddist məbədləri vardır. Kannon və Asakusa (XVII əsr), buddist məbədləri, Rakandzi, Yasukini sintoist ibadətgahı, Rakuşen mənzərə parkı (XVII əsrin sonu), taxtadan düzəldilmiş zəng qülləsi olan Ueno parkı (XVII əsr), Tosyoçu sintoist məbədi (XVII əsr) turistlərdə xüsusi maraq doğurur. Paytaxtda çoxsaylı muzeylər: rəssamlıq, heykəltaraşlıq və tətbiqi incəsənətə aid 85 min əsərin toplandığı, mühüm elmi mərkəz kimi fəaliyyət göstərən Milli muzey; Qərb incəsənəti muzeyi; Yapon xalq mədəniyyəti muzeyi fəaliyyət göstərir.

Şəhərdə 400-dən artıq rəsm qalereyası, çoxlu teatr, park və saraylar vardır. Tokionun mərkəzi rayonu olan Gindza, şəhərin və bütün Yaponiyanın "vitrini" adlanır. Burada asudə vaxtın keçirilməsi üçün çoxsaylı restoranlar, kafelər, ticarət və mədəniyyət mərkəzləri fəaliyyət göstərir.

Məşhur dəniz kurortlarından və tarixi şəhərlərdən biri olan Kamakura, Tokio yaxınlığında yerləşir. "Böyük Budda Daybutsunun" bürünc heykəli (hündürlüyü 13,35 m) buradadır. Heykəl 1252-ci ildə düzəldilmişdir.

**Kioto turizm mərkəzi.** Kioto - ölkənin qədim paytaxtıdır. Şəhərdə çoxsaylı qədim saray, qəsr və villalar vardır. Todzi məbədi (VIII-XVII əsrlər); Tenryüdzi və Sayxodzi monastırları (hər ikisi XIV əsr); Kinkakudzi - "qızıl" (XIV əsr) və Qinkakudzi - "gümüş pavilyon" (XV əsr) məbədləri; Kiotonun ən qədim məbədlərindən olan Kiyomzudera; qədim Röandzi bağı (XV əsr) daha maraqlıdır. Şəhərdə çoxsaylı bağlar, paqodalar, çay evləri vardır. Kiotoda Milli Muzey və Müasir İncəsənət Milli Muzeyi fəaliyyət göstərir.

**Yokaqama turizm mərkəzi.** Yokaqama Yaponiyanın əsas port şəhəridir. Akva muzeyi və məməli heyvanlar şousu olan Xakkeydzima əyləncələr adası qonaqların diqqətini cəlb edir. Akvariumda 70 min balıq növü saxlanılır. Yokaqamadakı Yaponiyanın ilk su eskalatoru sualtı "məmləkətə" səyahət etməyə imkan verir.

**Naqoya turizm mərkəzi.** Şəhərin görməli yerlərindən Atsuta sintoist məbədini (eramızın əvvəlləri), Tofukudzi məbədi (VIII əsr), zadəgan nəslinə məxsus qəsri (XVII əsr), Tokuqava bədii muzeyi və Naqoya qəsrinin xəzinəsi muzeyini qeyd etmək olar.

**Nikko turizm mərkəzi.** Şəhərin yaxınlığında Xakone və Kinuqava dağları rayonunda məşhur dağ-xizək turizmi mərkəzləri və dağ kurortları vardır. Şəhərin qədim məbədləri də turistlərin diqqətini cəlb edir.

**Okinava adası turizm mərkəzi.** Beynəlxalq miqyaslı kurort olan bu ada dünyanın hər yerindən, tropik okean iqlimli istirahəti sevənləri cəlb edir. Okinavava iqtisadiyyatının əsas sahəsi turizmdir.

**Nara turizm mərkəzi.** 710-784-cü illərdə Yaponiyanın paytaxtı olmuşdur. Burada yerləşən məşhur parkda 1000-dən artıq əhliləşdirilmiş maral yaşayır. Şəhərdəki "Xoryudzi" və "Qotaydzi" məbədləri turistlərin diqqətini cəlb edir.

**Osaka turizm mərkəzi.** Tokiodan sonra ölkənin ikinci nəhəng şəhəri olan Osaka çoxsaylı adalarda yerləşdiyindən onu çox vaxt Yaponiya Venetsiyası adlandırırlar. 400 il öncə tikilmiş qalaya baxış, turistlərdə böyük maraq doğurur. Sittenodzi budda monastırı (VI əsr), Sumiyositaysya sintoist ibadətgahı (IV əsr, IX əsrdə yenidən təmir edilmişdir), Temmanqu məbədi (X əsr), Osaka qəsrinin bədii muzeyi, Yapon bədii sənətkarlıq muzeyi turistlərin diqqətini daha çox cəlb edir.

**Sapporo və Noqano turizm mərkəzləri.** Hər iki şəhər müxtəlif illərdə qış olimpiya oyunlarının mərkəzi olmuşlar. Bu şəhərlərdə qış idman növlərinin müasir, tələbatlara cavab verən mərkəzləri fəaliyyət göstərir. Bu da qış idman oyunlarını sevənlərin diqqətini daha çox cəlb edir.

**Xirosima və Naqasaki turizm mərkəzləri.** Dünyada ilk atom bombasına məruz qalmış şəhərlərdir. Burada "Atom evi", Atom bombardmanı qurbanlarının xatirəsinə həsr olunmuş Sülh Xatirə Parkı, Sülh Muzeyi, Atom bombası muzeyi yaradılmışdır. Xirosimada su idmanı üzrə müasir mərkəz fəaliyyət göstərir. Naqasakidə Suva sintoist ibadətgahı (XVI əsr), Sofukudzi buddist məbədləri ansamblı, Meqanebasi körpüsü (hamısı XVII əsr), Ticarət-sənaye və Şəhər muzeyləri

turistləri çox maraqlandıran yerlərdir.

* * *

Yaponlar uzaq xarici səfərlərə çıxmağı xoşlamırdılar. 1964-cü ilədək belə səyahətlərin sayı çox az idi. Ötən əsrin 60-cı illərinin sonlarında Yaponiyada getmə turizmi sürətlə inkişaf etməyə başladı və 1973-cü ildə 2,2 mln. nəfərə çatdı. Amma, bu göstərici 70-ci illərin sonuna qədər dəyişməsə də, 80-ci illərin əvvəllərində 2 dəfə artdı. Belə ki, 1984-cü ildə xarici səyahətlərdə iştirak edənlərin sayı 4,6 mln. nəfərə çatdı.

Artım sürətinə baxmayaraq, səyahətlərin sayı ölkə əhalisinin cəmi 3,8 faizini təşkil edirdi. Bu vəziyyəti nəzərə alan Yaponiya hökuməti "on milyon" proqramını (1987-ci il) qəbul etdi. Proqrama əsasən, 1991-ci ildə xarici turistlərin sayının 10 mln. nəfərə çatdırılması nəzərdə tutulurdu. Bunun üçün digər ölkələrin iqtisadi yüksəlişinə yardım göstərmək, həmçinin Yaponiya ilə onun ticarət tərəfdaşları arasında ödəniş disbalansını* aradan qaldırmaq təklif olunurdu.

Qarşıya qoyulan vəzifə artıq 1990-cı ildə yerinə yetirildi və xarici səfərlərin sayı 10,99 mln.-a çatdı (1986-cı illə müqayisədə artım, orta hesabla 20 faiz təşkil edirdi). 1992-ci ildə xarici səfərlərin sayı 11,79 mln. təşkil etmişdi. Artımın az olması Yaxın Şərqdəki "Səhrada tufan" müharibəsi ilə izah edilirdi. Yapon turistlərinin xərcləri də sürətlə artaraq, 1987-ci ildə - 10,76 mlrd. ABŞ dollarından, 1992-ci ildə - 35,39 mlrd. dollara çatdı.

Yapon turistlərinin getdikləri əsas turizm mərkəzləri, Sakit Okean hövzəsi ölkələri - ABŞ, Honkonq, Cənubi Koreya, Sinqapur olmuş və bu ölkələrin hər biri ildə 1 mln.-a qədər yapon turistini qəbul etmişdir. Regionun digər ölkələri - Avstraliya, ÇXR, Tayvan, Tayland hər biri 500 minə yaxın yapon turistini qəbul etmişdir. Yaponlar üçün digər mühüm turizm regionu, uzun müddətdən sonra mənimsədikləri Avropadır. Hazırda yapon turistlərinin 1 mln-u Avropa ölkələrindən Fransa və Böyük Britaniyaya, 500 min nəfəri isə İtaliya və Almaniyaya yollanır.

1991-ci ildə Yaponiya hökuməti getmə və gəlmə turizminin inkişafına yönəlmiş "Turizm iki istiqamətdə - XXI" adlı yeni proqramı həyata keçirməyə başladı. 1999-cu ildə 16,3 mln.-dan artıq Yaponiya vətəndaşı xarici ölkələrdə turizm səfərlərində olmuşdur. Onlar olduqları ölkələrdə 32,8 mlrd. ABŞ dolları həcmində pul xərcləmişlər.

---

* ***Disbalans*** - yunan və latın dilində Dis sözü çətinlik, pozulma, dağılma, itki mənalarını bildirir, burada balansda baş vermiş dəyişiklik kimi başa düşülür.

Son illərdə iqtisadi tənəzzüllə əlaqədar, Yaponiyanın bir sıra regionlarında struktur dəyişikliklər aparılması üçün əlavə investisiya qoyuluşuna ehtiyac duyulur. Hökumət eyni zamanda, daxili ehtiyacın ödənilməsi və əcnəbi turistləri cəlb etmək məqsədi ilə, bu regionlarda turizmin inkişafı üzrə müxtəlif layihələr hazırladı.

Yaponiya həmçinin bir çox ölkələrdə turizmin inkişafı layihələrinin həyata keçirilməsində fəal iştirak edir. İstirahət infrastrukturunun inkişafı üçün həm dövlət yardımı, həm də borc kimi böyük məbləğdə investisiyalar cəlb edir (məsələn, Avstraliya İttifaqı, İndoneziya, Malayziya, Tayland və digər ölkələrdə). Yaponiyanın özəl şirkətlərinin 15,6 faizi investisiyalarını daşınmaz əmlak alınmasına yönəltmiş, bunun da 25 faizi mehmanxana biznesinə sərf edilmişdir.

Ötən əsrin 80-ci illərində Şərqi və Cənub-Şərqi Asiyanın Yeni Sənaye Ölkələrinin coşğun inkişafı nəticəsində, Yaponiyaya gələn turistlərin sayı 1984-cü ildəki 2 mln.-a qarşı, 1992-ci ildə 3,8 mln. nəfərə çatdı. Hazırda xarici qonaqların üçdə ikisi Asiya ölkələrinin payına düşür, Tayvan və Cənubi Koreya kimi ölkələr bu sahədə hətta ABŞ-ı ötüb keçmişlər. 1999-ci ildə Yaponiyaya 4,4 mln. turist gəlmişdir. Xarici turistlərə göstərilən xidmətdən əldə olunan gəlir 3,5 mlrd. ABŞ dolları həcmində olmuşdur.

Asiya ölkələrindən və ABŞ-dan olan turistlər, Yaponiyaya əsasən öz məzuniyyətlərini keçirmək, avropalılar isə, biznes məqsədi ilə səyahət edirlər. Turizm agentlikləri haqqında Qanuna əsasən Yaponiyada turagentliklər üç qrupa bölünür:

1. Həm xarici, həm də daxili turizmlə məşğul olmaq hüququna malik olan Baş turizm agentlikləri;
2. Yalnız daxili turizmlə məşğul olan Milli turizm agentlikləri;
3. Baş turagentlərin sifarişi və onların adından fəaliyyət göstərən subagentlər.

Turizmin kuratoru olan Nəqliyyat Nazirliyində qeydiyyatdan keçən şəxs turizm fəaliyyəti ilə məşğul ola bilər. Qeydiyyatdan keçmək istəyən namizəd bir sıra tələblərə: maliyyə və hüquqi məsələlərin həllində səriştəliliyə, kommersiyada düzgünlüyə və biznesin qanuniliyinə cavab verməlidir.

Maliyyə vəziyyəti, müxtəlif şərtlər arasında mühüm yer tutur. Baş turagentlərin aktivləri 70 mln. iyendən (700 min ABŞ dolları), milli turagentlərin aktivləri isə 11 mln. iyendən (110 min ABŞ dolları) az olmamalıdır. 2000-ci ildə Yaponiyada 1,0 mindən artıq Baş turagent, 7,0 mindən artıq milli turagent və 5,0 minə yaxın subagentlər fəaliyyət göstərmişdir.

Yaponiyada yaşayış vasitələrini şərti olaraq 2 kateqoriyaya ayırmaq olar: Qərb üslublu mehmanxanalar (otellər) və Yapon üslublu ryökanlar (otellərdən əsaslı surətdə fərqlənən yerləşmə vasitələri). XIX əsrin ikinci yarısınadək, Yaponiyanın təcrid olunması dövründə, ölkədə otellər yox idi.

Beynəlxalq turizm üçün mehmanxanaların yaxşılaşdırılması qanununun standartlarına və tələblərinə cavab verən otellər və ryökanlar Yaponiyanın Nəqliyyat Nazirliyində qeydiyyatdan keçirlər. Qeydiyyatdan keçən otel və ryökanlar, sonrakı fəaliyyətləri zamanı vergi güzəştlərindən, yenidənqurma və inkişaf üçün maliyyə köməyindən istifadə edə bilirlər.

Yaponiyada olan 6750 oteldən 900-ü, 70400 ryökandan 1900-ü Nəqliyyat Nazirliyində qeydiyyatdan keçmişdir (2000-ci il).

## 14.3. KOREYA RESPUBLİKASI (KR)

**Ərazisi: 98,5 min kv. km. Dünyada 107-ci yer.**
**Əhalisi: 46,5 mln. nəfər (2000). Dünyada 23-cü yer.**
**Paytaxtı: Seul (11,0 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Koreya dili.**
**Din: Buddizm, konfusianlıq.**
**Milli pul vahidi: Vona.**

Koreya Respublikası Asiyanın şimal-şərqində Koreya yarımadasının cənubunda yerləşir. Şimalda Koreya Xalq Demokratik Respublikası ilə həmsərhəddir (sərhədin uzunluğu 238 km). KR (onu çox vaxt Cənubi Koreya adlandırırlar) qərbdə Sarı, şərqdə Yapon dənizlərinin suları ilə əhatə olunur, cənub-şərqdə Koreya körfəzi ölkəni Yaponiyadan ayırır.

Ölkənin relyefi əsasən təpəlik və dağlıq sahələrdən ibarətdir. Cənubi Koreyanın ən yüksək zirvəsi olan Xala-san dağı Çecudo adasındadır. Yapon dənizinin sahilləri düzxətli və dağlıqdır. Koreya körfəzinin və Sarı dənizin sahilləri isə, əsasən düzənlik ərazilər və çoxsaylı buxta və körfəzlərlə zəngindir.

Nextonqan və Xanqan ölkənin əsas çayları, Seul (11,0 mln.), Pusan (4,2 mln.) və Tequ (2,5 mln.) ən böyük şəhərləri, Pusan və Mokpxo isə əsas portlardır.

KR əhalisi etnik tərkibinə görə eyni mənşəlidir. Əhalinin 98 faizi koreyalılardan ibarətdir. Çinlilər əhalinin cüzi bir hissəsini təşkil edir. Orta ömür müddəti: kişilər üçün - 68, qadınlar üçün - 74 ildir.

Ölkənin iqlimi, mülayim musson, cənubda isə subtropikdir. Yanvarın orta temperaturu müsbət 4, iyulunku isə 26 dərəcədir.

İnzibati cəhətcə Koreya Respublikası 9 əyalətə bölünür, Seul və Pusan şəhərləri xüsusi inzibati-idarəçilik statusuna malikdirlər. 15 avqust 1948-ci ildə Koreya Respublikasının müstəqilliyi elan olunan gün Milli bayram - Müstəqillik günü kimi qeyd olunur. İcraedici hakimiyyət prezidentə (dövlət başçısı) və Baş nazirin rəhbərlik etdiyi Dövlət Şurasına məxsusdur. Qanunvericilik hakimiyyətinin birpalatalı parlament - Milli Məclis həyata keçirir.

Son onillikdə Cənubi Koreyanın iqtisadi yüksəliş artımı, dünyada ən yüksək göstəricilərdən hesab olunur. Maşınqayırma, gəmiqayırma, elektronika və elektrotexniki məmulatlar istehsalı, toxuculuq və yeyinti - sənayenin aparıcı sahələridir.

Koreya – qədim tarixə malik ölkədir. Öz ölkələrini Çoson ("Sübh təravəti") adlandıran koreyalılar ölkənin dövlət kimi 5 min il tarixi olması ilə fəxr edirlər.

* * *

Çimərliklər, isti iqlim, mənzərəli göllər, şəlalələr, mağaralar, dağ zirvələri (alpinizmlə məşğul olmaq üçün), Çecudo adasının gözəgəlimli landşaftı, Buddizm mədəniyyəti abidələri, cənub şərqdə Kyonçju ətrafında Silla dövlətinin qədim abidələrinin xarabalıqları – ölkənin əsas turizm ehtiyatlarıdır.

**Seul turizm mərkəzi.** Paytaxtın memarlıq abidələri arasında Popçxons məbədinin Xyonmyotxan paqodası (1085), park və həyətləri ilə birgə Kyonbokkun saray ansamblı (1394-cü ildə tikilmiş, XVI əsrdə dağıdılmış və XIX əsrdə yenidən təmir olunmuşdur) xüsusi yer tutur. Paytaxtda Milli Tətbiqi İncəsənət Muzeyi (burada Koreyanın müxtəlif dövrlərinin incəsənət əsərləri toplanmışdır), Milli Elm Muzeyi, Botanika bağı, Zoopark fəaliyyət göstərir. Müxtəlif əyləncə mərkəzləri və Seulun Olimpiya kəndinin idman obyektləri də turistlərin diqqətini cəlb edir.

**Pusan turizm mərkəzi.** Pusan əcnəbi turistlərin istirahəti üçün əlverişli şəraitə malik iri dəniz kurortu kimi tanınır. Koreya Respublikasında ilk AES Pusanda tikilmişdir. Şəhərdə turistləri maraqlandıran onlarca tarixi-memarlıq abidələri, muzeylər var. Pusan – Simonoseki (Yaponiya) şəhərləri arasında dəmiryol bərəsi fəaliyyət göstərir.

* * *

Xatırladaq ki, ötən əsrin 80-ci illərinə qədər Cənubi Koreyada turizm zəif inkişaf etmişdi. 1989-cu ildən başlayaraq turizm sürətlə inkişaf etməyə başlamış, xarici ölkələrə səyahətə gedən koreyalıların sayı 67 faiz artmışdı. Ölkədə baş verən siyasi dəyişikliklər və Seulda 1988-ci ildə keçirilən Yay Olimpiya oyunları, əcnəbi qonaqların sayının 25 faiz artmasına səbəb oldu. Getmə turizmi artdıqca, səfərlərdə iştirak edən koreyalıların da xərcləri artır, gəlmə turizmində isə artım yubanırdı. Belə vəziyyət, ölkənin beynəlxalq turizm balansında defisitin yaranmasına səbəb olduğu üçün hökumət, getmə turizmini həvəsləndirilməsi üçün nəzərdə tutduğu xərclərə yenidən baxmağa məcbur oldu.

Cənubi Koreyanın turist mübadiləsi üzrə ən iri şəriki, qonşu Yaponiyadır. Yapon turistləri Koreyaya əsasən məzuniyyətlərini keçirmək, koreyalılar isə Yaponiyaya istirahət, işgüzar məqsədlər və qohumlarına, dostlarına baş çəkmək üçün gedirlər. Koreyanın gəlmə və

getmə turizmi üçün ikinci iri bazar ABŞ olsa da səyahətlər əsasən işgüzar, dostlar və qohumlarla görüş xarakteri daşıyır.

1999-cu ildə Cənubi Koreyaya 4,6 mln. nəfər xarici turist gəlmişdir. Turizm fəaliyyətindən daxilolmalar 6 mlrd. 800 min ABŞ dolları təşkil etmişdir. 2000-ci ilə olan məlumata əsasən xarici turistlərin qəbulu üçün, ölkədə 140 mindən artıq mehmanxana yeri mövcuddur. 4 mln.-dan artıq Cənubi Koreyalı hər il xarici turist səfərlərində iştirak edir. Onlar olduqları ölkələrdə 4,0 mlrd. ABŞ dolları həcmində pul xərcləyirlər.

## 14.4. FİLİPPİN

**Ərazisi: 300,7 min kv. km. Dünyada 70-ci yer.**
**Əhalisi: 71,0 mln. nəfər (2000). Dünyada 14-cü yer.**
**Paytaxtı: Manila (9,3 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dillər - İngilis və pilipino.**
**Din: Katolisizm və İslam.**
**Milli pul vahidi: Filippin pesosu.**

Filippin Sakit okeanın qərb hissəsində, Malay arxipelaqının Filippin adlanan adalarında yerləşmişdir. Filippinə məxsus olan 7100-dən çox adanın ən böyükləri - Luson, Mindanao, Samar, Panay, Palavan, Neqros, Mindoro və Leytedir.

Adalar, qərbdə Cənubi Çin, şərqdə Filippin, cənubda Sulavesi dənizlərinin suları ilə əhatə olunub. Başi boğazı şimalda Filippin adalarını Tayvan adasından ayırır. On bir ən iri ada, ölkə ərazisinin 92 faizini təşkil edir. Adaların relyefi əsasən dağlıq ərazilərdən ibarətdir. Ölkənin ən yüksək zirvəsi olan Apo dağı (2954 m) Mindanao adasındadır.

İri şəhərləri - Keson-Siti (1,7 mln.) və Davao (900 min), iri portları Davao, Manila və Sebudur. Ölkə əhalisinin mənşəcə 90 faizə qədəri malaylardır. Malaylarla yanaşı, ölkədə çinlilər, ispanlar, amerikalılar da yaşayırlar. 80-dən artıq digər dillər arasında ispan, sebuano, ilokano daha çox işlənir. Orta ömür müddəti: kişilər üçün 63, qadınlar üçün 68 ildir.

Ölkənin iqlimi, cənubda subekvatorialdan, şimalda tropik iqlimə keçid təşkil edir. Orta illik temperatur 27 dərəcəyə yaxındır. Dağ rayonlarında iqlim nisbətən soyuqdur. Şimal-şərq (noyabr-aprel) və cənub-qərb mussonları (may-oktyabr) dövründə güclü yağışlar yağır.

Filippin - prezident respublikası şəklində idarə olunur. Ölkənin tərkibində 12 inzibati rayon vardır. İnzibati rayonlar öz növbəsində əyalətlərə bölünür (cəmi 75 əyalət).

4 iyul 1946-cı ildə Filippin, ABŞ-dan müstəqillik əldə etmişdir. 12 iyun - İstiqlaliyyət Günü (1898-ci il, İspaniya müstəmləkəsindən azad olunması günü) - Milli bayram kimi qeyd olunur. Dövlətin və hökumətin başçısı prezidentdir. Ali qanunverici orqan olan Konqress (ikipalatalı parlament), Senatdan (Yuxarı palata) və Nümayəndələr palatasından (Aşağı palata) ibarətdir. Son illər ölkənin siyasi həyatı qeyri-sabitdir.

Elektron, toxuculuq, kimya, ağacemalı, sənayenin daha çox inki-

şaf etmiş sahələridir. Kənd təsərrüfatında dənli bitkilər yetişdirilməsi ilə yanaşı meşəçilik və balıqçılıq da mühüm rol oynayır. Filippin kokos məhsullarının iri ixracatçısıdır. Ölkədə çəltik, banan, ananas, manqo becərilir, heyvandarlıq inkişaf etdirilir.

Müasir Filippin ərazisində V əsrdən başlayaraq, müxtəlif mədəniyyət və xalqların qarışığı olan ilk sivilizasiya meydana gəlmişdir. XVI əsrin əvvəllərində İspaniya müstəmləkəsinə çevrilmiş, ölkə infant (şahzadə) Filippin şərəfinə (gələcək kral İkinci Filipp) indiki adını almışdır.

İspan müstəmləkəçiləri tərəfindən yaradılmış mədəni irs, turizmin inkişafı üçün böyük perspektivlər açır, təbii turizm ehtiyatları isə, turizmin ekoloji növü kimi daha aktual növünün inkişafı üçün şərait yaradır.

* * *

Filippin abad çimərlikləri və mərcan rifləri ilə tanınır. Burada komfortlu otellər çoxdur, sualtı ovlar (dünyada ən yaxşılarından biri) təşkil olunur. Luson adasında, dağlar arasında yerləşən, ölkənin incisi sayılan **Baqio şəhəri**, tanınmış kurort və sağlamlıq ocağıdır. Qədim **Sebu şəhəri** də turistlərdə maraq doğurur. Dahi səyyah Fernan Magellanın öldüyü yerdə onun şərəfinə qüllə ucaldılmışdır.

Luson adasında yerləşmiş Manila ölkənin ən böyük sənaye, ticarət, mədəni, elm və bank-maliyyə mərkəzidir. **Manilanın** demək olar ki, bütün əsas mədəniyyət abidələri şəhərin qədim hissəsi olan İntramurosda yerləşir. Manilada Metropoliten incəsənət muzeyi, Santo-Tomas tarix və arxeologiya muzeyi, Filippin Milli Muzeyi, Botanika bağı fəaliyyət göstərir. Turistlər Manilada dünyanın istənilən əyləncəsini tapa bilər. Avropa və Amerika şəhərlərindən fərqli olaraq Manilanın küçələrində yerlilərin "cipni" adlandırdıqları alabəzək avtobuslara tez-tez rast gəlmək olar.

**Beqito şəhəri** isti su mənbələri ilə məşhurdur. Ölkənin digər şəhərləri arasında, əsası 1635-ci ildə ispanlar tərəfindən qoyulmuş **Zamboanqa** şəhəri (Mindanao adasında yerləşir) daha çox tanınır. Şəhər memarlığında həm ispan, həm də müsəlman mədəniyyətinin elementləri öz əksini tapmışdır.

Hər il Filippinə 2 mln.-dan artıq turist gəlir. Turizm fəaliyyətindən daxilolmalar, 1999-cu ildə 2,5 mlrd. ABŞ dolları təşkil etmişdir.

Xarici turistlərin qəbulu üçün ölkədə 73 mindən artıq (2000) mehmanxana yeri mövcuddur. Təqribən 2,0 mln. Filippin vətəndaşı hər il xarici səfərlərdə iştirak edir. Onlar olduqları ölkələrdə 1,5 mlrd.

ABŞ dolları həcmində pul xərcləyirlər.

# FƏSİL 15

## CƏNUBİ VƏ CƏNUB-ŞƏRQİ ASİYA ÖLKƏLƏRİNDƏ BEYNƏLXALQ TURİZM

### 15.1. HİNDİSTAN

**Ərazisi: 3,3 mln. kv. km. Dünyada 7-ci yer.**
**Əhalisi: 1,0 mlrd. nəfər (2000). Dünyada 2-ci yer.**
**Paytaxtı: Dehli (10 mln. nəfərdən artıq - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dillər - Hindu və ingilis.**
**Din: İnduizm*, İslam.**
**Milli pul vahidi: Hind rupisi.**

Cənubi Asiyada yerləşmiş Hindistan şərqdə Banqladeş (4053 km) və Myanma (1463 km), şimalda Çin (3380 km), Nepal (1690 km) və Butanla (605 km), qərbdə isə Pakistanla (2912 km) həmsərhəddir. Ölkə, cənubda Hind okeanı və Polk boğazı (Şri-Lanka adası ilə Hindistanı ayırır), qərbdə Ərəbistan dənizi, şərqdə Benqal körfəzinin suları ilə əhatə olunur. Hindistanın Banqladeş, ÇXR və Pakistanla ərazi mübahisələri vardır.

Hindistanın sahilləri alçaq, hamar və az girintili-çıxıntılıdır. Cənubda Dekan yaylası, şimalda Himalay və Qaraqorum dağları uzanır (ən yüksək zirvə, Çoqori - 8611 m). Hind-Qanq düzənliyi üzərində Himalay üç silsilə ilə yayılır: Sivalik, Kiçik Himalay və Böyük Himalay sıra dağları. Himalayın Hindistan ərazisində ən yüksək zirvəsi Nanqaparbatdır (8126 m). Hind-Qanq düzənliyi Hind və Qanq çaylarının aşağı axarlarına qədər enir. Yarımadanın cənubunda Nilqiri, Anaymaloy və Palni dağ massivləri yerləşir. Dekan yaylasında ən hündür yer Anaymudi dağıdır (2695 m).

Təxminən mərkəzdə şimal tropiki ilə kəsişən Hindistan musson, subtropik və tropik iqlim zonalarında yerləşir. Yay isti və yağıntılı, qış mülayimdir. Hindistana səyahət etmək üçün, ilin ən münasib dövrü - qış aylarıdır. Qanq, Hind, Brahmaputra və Qodovari ölkənin əsas çaylarıdır.

---

* ***Индуизм*** - Ҹәнуб Шәрги Асијада кениш јајылмыш рекионал динләрдән бири. Ерамыздан әввәл VI-IV әсрләрдә буддизмин вә ҹајнизмин јајылмасына ҹаваб олараг јаранмыш вә сүрәтлә инкишаф етмәјә башламышдыр.

Bombey, Mədrəs və Kəlküttə ölkənin əsas portları, Kəlküttə (13,0 mln.) Bombey (13,0 mln.), Dehli (10,0 mln.) Mədrəs (6 mln), Banqalor (4,5 mln.), Əhmədabad (4 mln.) və Heydərabad (3,5 mln.) ən böyük şəhərləridir.

Ölkə əhalisinin əksəriyyəti (72 faiz) hind-ari xalqlarıdır (300-dən artıq etnik qrup). Dravi xalqları əhalinin 25, monqoloidlər isə 3 faizini təşkil edir. Ümumiyyətlə, ölkədə 500-dən artıq xalq və qəbilə yaşayır. Hindu və ingilis dilləri rəsmi dillər olsa da, əlavə olaraq 14 dildən (benqal, tamil, telequ və s.) ölkə ştatlarında rəsmi dil kimi istifalə olunur.

Hakim din induizmdir (əhalinin 82 faizi), müsəlman etiqadlılar - 11,4, xristianlar - 2,4, sikxlər - 2, buddistlər - 0,7 faiz təşkil edir. Orta ömür müddəti: kişilər üçün 58, qadınlar üçün 60 ildir.

Dövlət quruluşuna görə Hindistan federativ respublikadır. İnzibati cəhətcə tərkibinə 25 ştat və 7 müttəfiq ərazi daxildir. 15 avqust 1947-ci ildə Hindistan Böyük Britaniyadan müstəqillik əldə etmişdir. Qanunvericilik ingilis hüququ üzərində qurulmuşdur. 26 yanvar - Respublika elan olunması günü (1950) - Milli bayram kimi qeyd olunur. İcraedici hakimiyyət prezidentə (dövlət başçısı) və Nazirlər Şurasına rəhbərlik edən Baş nazirə məxsusdur. Qanunvericilik hakimiyyətini iki palatalı parlament (Sansad) həyata keçirir. Sansad, Yuxarı (Xalq palatası) və Aşağı palatalardan (Ştatlar şurası) ibarətdir.

Hindistan iqtisadiyyatında ənənəvi kəndli və müasir kənd təsərrüfatı, köhnəlmiş istehsalat və yeni, yaxşı təchiz olunmuş müəssisələrin yanaşı mövcudluğu müşahidə edilir. Metallurgiya, toxuculuq, maşınqayırma, dağ-mədən, neftçıxarma və neftemalı, əczaçılıq, elektronika, kimya və maşınqayırma ölkənin mühüm sənaye sahələri hesab olunur.

Fermer təsərrüfatının müasir üsullarından istifadə edilməsi, kənd təsərrüfatı məhsullarının əsaslı surətdə artırılmasını təmin edir. Belə ki, Hindistan özünün taxıla olan ehtiyacını tam ödəyə bilir. Çəltik (dünyada ikinci yer), zeytun, çay (dünyada ən böyük istehsalçılardan biridir), pambıq, şəkər qamışı, kartof əkinləri üstünlük təşkil edir. Heyvandarlıq, quşçuluq və balıqçılıq inkişaf etsə də, on milyonlarla əhali, xüsusilə ölkənin cənub bölgələrində yoxsulluğun son həddində yaşamaqda davam edirlər.

* * *

Hindistan xarici turizmin inkişafı üçün zəngin rekreasiya ehtiyatlarına malikdir. Ölkənin görməli yerləri o qədər çoxdur ki, onların hətta adicə adlarının çəkilməsi də çətinlik yaradır. Bu gözəlliklərə öl-

kənin ekzotik təbiəti, işığın, günəşin bolluğu, torpaqların məhsuldarlığı, etnik rəngarəngliyi, tarixi-memarlıq abidələri, maraqlı bayramları və s. aid etmək olar. Bütün bunlar Hindistanı turistlər üçün cəzbedici edir. Hindistanın turist obyektləri əsasən şəhərlərdə cəmlənmişdir.

Ölkə şərti olaraq aşağıdakı turizm bölgələrinə ayrılır: Şimali Hindistan, Qanqın orta vadisi, Şimal-Şərqi Hindistan, Racəstan və Qucarat, Mərkəzi, Şərqi, Qərbi və Cənubi Hindistan.

**Şimali Hindistan turizm bölgəsi.** Bu bölgə Camma və Kəşmir, Pəncab, Suba və Xariana ştatlarını əhatə edir. Burada mənzərəli dağlıq ərazilər, Himalaylarda alpinistlərin arzusu olan hündür zirvələr, Kəşmir vadisinin idman-kurort kompleksi kimi tanınan Srinaqar dağları yerləşir.

1911-ci ildən ölkənin paytaxtı olan **Dehli şəhəri**, Qanqın qolu olan Camna çayının sağ sahilində yerləşir. Zəngin tarixi, siyasi və mədəni keçmişi olan Dehlinin eramızın II əsrində, qədim İndraprastxi şəhərinin yerində salındığı ehtimal olunur. Şəhər hindu-müsəlman memarlıq abidələri ilə zəngindir. Dehli iki hissədən: Şimal - qədim Dehli (tipik şərq mənzərəsinə malikdir) və Avropa üslubunda tikililəri olan, müasir şəhər - Yeni Dehlidən ibarətdir.

Qədim Dehli - şəhərin tarixi özəyidir. Buradakı memarlıq abidələri çox yaxşı qorunub saxlanılmışdır. Qədim Dehlinin şimal-şərqində, sarayları və məscidləri olan məşhur Ləl-Kilə (Qırmızı istehkam - XVII əsr) qalası yerləşir. 1947-ci ildə bu istehkamın divarları üzərində ilk dəfə müstəqil Hindistanın bayrağı ucalmışdır. Minarəsi maili vəziyyətdə olan Qütb-Minarə məscidinin (hündürlüyü 72,5, XII əsr) qalıqları, dəmir sütun (V əsrin əvvəlləri), Cümə-Məscid, Mahatma Qandinin və Cavahirləl Nehrunun sərdabələri olan Racanqxat köhnə Dehlinin görməli yerlərindəndir.

Nyu-Dehli adlanan Yeni Dehlinin müasir saray və binaları, şəhərin daha yaraşıqlı hissəsində, hind memarlığının ən gözəl ənənələri ruhunda tikilmişdir. Nyu-Dehlidə bir neçə induist məbədi vardır. Onlardan ən böyükləri - Balkeş və Lakşminarasidir. Birinci Dünya müharibəsi illərində həlak olmuş Hindistan əsgərlərinin şərəfinə 1921-ci ildə ucaldılmış "Hindistan qapısı" Zəfər tağı da Yeni Dehlinin görkəmli yerlərindəndir.

Eramızın II əsrindən etibarən hind incəsənət əsərləri kolleksiyası nümayiş etdirilən Dehli Milli Muzeyi, Milli müasir incəsənət qalereyası, Beynəlmiləl oyuncaq-gəlincik muzeyi, M.Qandinin, C.Nehrunun və İ.Qandinin xatirə muzeylərinə tamaşa etmək, turistlərin xoşuna gəlir. Dehli, bədii sənətkarlığı - qızıl və gümüş məmulatlarından bə-

zək əşyalarının hazırlanması, fil dişi üzərində oyma işləri, toxuma-bəzəkli parçalar üzərində orijinal əl işləri və s. ilə tanınır. Son illərdə kustar toxuculuq və digər sənətkarlıq növləri dirçəlməyə başlamışdır.

Məşhur dağ kurortları olan Qulmarq, Dalxuzi, Şimla, Naynital, Himalaylarda yerləşir. Çoxsaylı məbədləri olan Xardvar turizm mərkəzi, sikxlərin müqəddəs Darbar Sahib məbədi olan qədim Amritsar şəhəri də bu turizm bölgəsindədir.

**Qanqın orta vadisi turizm bölgəsi.** Bu bölgə memarlıq abidələri və ziyarətgahlar diyarıdır. Sultan Şah Cahan və onun arvadı Mümtaz Mahalın mavzoleyi olan məşhur Tac Mahalın (1630-1652) yerləşdiyi **Aqra şəhəri** bu ərazidədir. Bu möhtəşəm memarlıq abidəsi, rəngarəng daşlardan mozaikası* olan ağ mərmərdən tikilmiş misilsiz bir sənət nümunəsidir. 4 minarəli Tac Mahalın qarşısında gözəl bağ vardır. Əkbər şahın sarayı, Mirvari Məscid (XVII əsr), Cahangir Mahalın mərmər mavzoleyi, şəhərin görkəmli yerlərindəndir.

İnduist və buddistlərin dini ziyarətgahı olan **Varanasi şəhəri** də bu turist bölgəsində yerləşir. Varanasidəki 1500 məbəddən ən müqəddəsi Qızıl Şiva Məbədidir (1750). Şəhərdə həmçinin, XVI-XIX əsrlərə dair saraylar, o cümlədən Man-Mandir sarayı (1600) vardır.

**Şimal-Şərq vilayəti turizm bölgəsi.** Bu bölgə Qərbi Benqal və Assam ştatlarını əhatə edir. Darcilinq, Kursonqe və Kalimponqe yüksək dağ kurortları burada yerləşir. Bölgənin böyük şəhəri olan **Kəlküttə**, ölkənin əsas portlarından biridir. Şəhər, Benqal körfəzindən 140 km aralı Qanq-Brahmaputra çaylarının deltasında yerləşir. Burada çoxsaylı memarlıq abidələri qorunub saxlanılmışdır. Kali ilahəsi məbədi, Müqəddəs Pavel kilsəsi, Viktoriya məbəd-muzeyi, Meydan parkındakı "Taqorun evi" muzeyi, arxeologiya və tarixə aid zəngin eksponat kolleksiyası olan Hindistan muzeyi, Birla texnoloji muzeyi, Botanika bağı və s. bu şəhərdədir.

**Racəstan və Qucarat vilayəti turizm bölgəsi.** Bu turizm bölgəsinin böyük şəhəri **Əhmədabaddır**. Tin - Darvaza zəfər qapısı (XV əsr), sərdabəli Rani-Sipri məscidi (1514), Racpur-Bibi məscidi (Hindistan möcüzələrindən biri olan yellənən, tərpənən minarələri ilə birgə) şəhərin görməli yerlərindəndir. Bu bölgənin digər şəhərlərində, məsələn Udaypurda - saraylar və məbədlər, Caypurda - hovuzları və bağları olan Çandra-Mahal sarayı ilə birlikdə Saray kompleksi (XVIII əsr), Hava-Mahal ("Küləklər sarayı") sarayı, qədim Cantar-Mantar rəsədxanası və s. yerləşir.

---

* *Mozaika* (ithaf edilmiş məna bildirir) - eyni, yaxud müxtəlif materiallardan düzəldilən təsvir naxış.

**Mərkəzi Hindistan turizm bölgəsi.** Burada əsasən dərketmə və ovçuluq turizmi inkişaf etmişdir. Bu bölgənin əsas turizm mərkəzi **Heydərabad** şəhəridir. Şəhərin görməli yerləri arasında Fələknuma sarayı, Cahar Minarə (dörd minarə), Qolkond istehkamının qalıqları diqqəti xüsusilə cəlb edir.

**Şərqi Hindistan turizm bölgəsi.** Bu bölgənin böyük şəhəri - **Visakxapatnam** portudur. Burada çoxlu dəniz kurortları yerləşir.

**Qərbi Hindistan turizm bölgəsi.** Bu bölgənin əsas turizm mərkəzi olan **Bombey** şəhəri, Solsett adasında yerləşir və materiklə dambalar vasitəsilə birləşir. Bombey, Hindistanın Ərəbistan dənizi sahillərində əsas port şəhəridir. Bombey yaxınlığında Elefant (Qarapuri) adasında qayalar üzərində yonulmuş, gözəl abidələrlə bəzədilmiş Şiva məbədi (VIII-X əsrlər) yerləşir. Şəhərdən bir qədər aralıda, II-IX əsrlərə aid qayaüstü rəsmləri olan mağaralar vardır. "Hindistan qapısı" Tağı, Asma bağlar, Sükut qülləsi və s. turistlərin diqqətini cəlb edir. Bu bölgənin mühüm turizm mərkəzi olan Qoa, əsrarəngiz təbii gözəllikləri və qədim abidələri ilə seçilir.

**Cənubi Hindistan turizm bölgəsi.** Mədrəs və Kerala ştatları, Maysur ştatının cənub hissəsi bu bölgəyə daxildir. Bölgənin əsas turizm mərkəzi olan **Mədrəs şəhəri** zəngin bitki örtüyü və çoxsaylı memarlıq abidələri ilə diqqəti cəlb edir. "Əmək zəfəri", Sent-Corc istehkamı, qayalar üzərində tikilmiş qədim məbədlər (Mahabalipurama yaxınlığında) şəhərin görməli yerləri arasında xüsusilə seçilirlər. Hindistanın əsas muzeylərindən biri olan Hökumət Muzeyi və Milli Rəsm Qalereyası Mədrəs şəhərində fəaliyyət göstərir. Nilgiridə, Mavi dağlarda (Kerala ştatı) fillər, kərgədanlar, pələnglər və digər vəhşi heyvanlar saxlanılan iri qoruq vardır.

Cənubi Hindistan (Kerala ştatı) - tropiklərin toxunulmayan gözəllikləri ilə zəngindir. Dəniz təravəti, palma ağacları ilə əhatə olunan vahələr Keralaya "Şərqin Venetsiyası" şöhrətini qazandırmışdır. Qərbi Qat dağları Ərəbistan dənizi sahillərinə qədər uzanaraq, landşafta rəngarənglik verir. Ştat ərazisinin dörddə birini tropik meşələr təşkil edir.

Hindistanın cənubunda, daş üzərində zərif oymaları, allahların və heyvanların heyranedici heykəlləri olan çoxsaylı qədim məbədlər, indiyədək qorunub saxlanılır. Dravi üslubunda tikilmiş bu məbədlər Şimali hind məbədləri üslubundan əsaslı surətdə fərqlənir. Belə məbədlərdən biri Triçura şəhərindən 75 km şimalda yerləşir. Pondiçerri şəhərində isə indiyədək orta əsrlər Avropasının ab-havası duyulur.

Ətirlər şəhəri olan **Maysur**, səyyahları jasmin və səndəl ağaclarının rayihəsi ilə əsir edir. Yerli sənətkarlar ağac üzərində naxış oymaları ilə məşğul olurlar. Turistlər şəhərin mərkəzində yerləşən gözəl Maharaca sarayına heyranlıqla tamaşa edirlər. "Kiçik qatarla" Uti dağ kurort şəhərciyinə və Kodaykanaladək getmək olar. Kovalom və Varkala kurortlarının ən yaxşı çimərlikləri, Kerala ştatının mərkəzi – Tiruvanantapuromdan 60 km məsafədə yerləşir.

Ərəbistan dənizinin kralı adlandırılan **Koçin** şəhərinə qayıqla ekskursiya, turistlərdə məmnuniyyət hissi yaradır. Burada Holland sarayına və XVI əsr Sinaqoquna (yəhudilərin dini evi) tamaşa etmək olar. Lakşadvil adalar zənciri Ərəbistan dənizində Keralaya qədər uzanır. Bu adalar sanki idmanın su növləri – vindsörfinq, sualtı üzgüçülük, su xizəyi və balıq ovu ilə məşğul olmaq üçün yaranmışdır. Hindistanın cənubunda bayramların sayı, ölkənin digər hissələrinə nisbətən daha çoxdur. Ona görə də turistlər belə bayramların birinə hökmən rast gəlirlər. Aprel-may aylarında **Triçur** şəhərində fillərin nümayişi keçirilir.

Keralanın sakinləri kokos qozunun saçaqlarından palaz və digər faydalı və əntiq əşyalar hazırlayırlar. Kançipuramda dəbdəbəli ipək sarilər* almaq olar. Maysurda isə bütün dünyada məşhur olan ipək parçalar, səndəl və qızılgül ağaclarından hazırlanmış oyma məmulatlar alınır.

* * *

Hindistanın qeyri-məhdud turizm ehtiyatlarına malik olmasına baxmayaraq, burada turizmin artım sürəti zəifdir. Hindistan nəinki dünyanın aparıcı turizm ölkələri sırasına daxil deyil, hətta regionda belə liderlik mövqeyi qazanmamışdır, 1999-cu ildə Hindistanda 2,5 mln.-a yaxın xarici turist olmuşdur. Müqayisə üçün göstərmək lazımdır ki, 1960-cı ildə – 123, 1966-cı ildə – 160, 1972-ci ildə – 343 min xarici turist qəbul edilmişdi. 1972-ci ildə turizm fəaliyyətindən daxilolmalar – 81 mln. ABŞ dolları həcmində olduğu halda, 1995-ci ildə 2,6, 1997-ci ildə 2,9, 1999-cu ildə bu göstərici – 3 mlrd. ABŞ dolları təşkil etmişdir. 2000-ci ildə 4 mln.-dan artıq Hindistan vətəndaşı xarici səfərlərdə olmuşlar. Onların səfər etdikləri ölkələrdə xərcləri, 2,0 mlrd. ABŞ dolları həcmində olmuşdur.

Yeri gəlmişkən qeyd edək ki, bu nəhəng ölkədə turistlərin qəbulu üçün cəmi 133 min (2000) mehmanxana yeri mövcuddur.

---

* ***Sari*** – Hindistanda geniş yayılmış qadın geyimi.

Hindistanda xarici turizmin inkişafı üçün, bir sıra çətinliklər ara-dan qaldırılmalı, ilk növbədə turizmin maddi-texniki bazası və onun bütün infrastrukturu (mehmanxanalar, restoranlar, kafelər, nəqliyyat, reklam və s.) genişləndirilməli, bir çox sanitariya problemləri həll edilməlidir.

## 15.2. İNDONEZİYA

| |
|---|
| **Ərazisi: 1,9 mln. kv. km. Dünyada 15-ci yer.**<br>**Əhalisi: 213,0 mln. nəfər - 2000. Dünyada 4-cü yer.**<br>**Paytaxtı: Cakarta (11,0 mln. nəfər - 2000).**<br>**Dövlət (rəsmi) dili: İndoneziya (əslində Malay) dili.**<br>**Din: İslam.**<br>**Milli pul vahidi: İndoneziya rupisi.** |

İndoneziya, Cənubi-Şərqi Asiyada Malay arxipelağı adalarında və Yeni Qvineya (Qərbi İrian) adasının qərb hissəsində yerləşir. Kalimantan adasında Malayziya (1782 km), Yeni Qvineya adasında isə Papua-Yeni Qvineya (820 km) ilə quru sərhədi vardır. Ölkənin tərkibində olan 13500 adanın cəmi 922-si məskunlaşmışdır. Ən iri adalar - Sumatra, Yava, Sulavesi və Kalimantandır. Portuqaliya Timor adasının şərq hissəsinə iddia edir.

Ölkə ərazisinin yarıdan çoxunu dağlar təşkil edir. 400-dən artıq vulkanın varlığı, onlardan da 100-dən çoxunun fəaliyyətdə olması, bu regionda geoloji stabilliyin hələ də bərqərar olmadığından xəbər verir. İndoneziyanın ən uca zirvəsi olan Caya dağı (5029 m) Yeni Qvineya adasında yerləşir. Adaların dəniz sahillərinə yaxın hissələri düzənlik və ovalıqlardır. Nisbətən geniş düzənliklər Sumatra, Yava, Yeni Qvineya kimi iri adalardadır. İndoneziya faydalı qazıntılarla zəngin ölkələrdən biridir. Əsas təbii ehtiyatlar: əlverişli iqlim, torpaq, bitki örtüyü, meşələrindəki qiymətli oduncağı olan ağaclarla yanaşı, neft, təbii qaz, nikel, qalay, boksit, mis, kömür, qızıl, gümüş, və s.-dir.

Əhalinin əksəriyyəti sıx məskunlaşmış adalarda yaşayır. Əhalinin yarıdan çoxu malaylar və yavalılardır. Digər, nisbətən böyük etnik qruplara çinlilər, iranlılar, sudanlılar, hollandlar aid edilir. Rəsmi dil malay dili əsasında, çin, hind, ingilis və holland dili elementlərindən yaranmış İndoneziya dilidir. Əhali ingilis və holland dillərindən də geniş istifadə edir. Dindarların böyük əksəriyyəti (87 faiz) müsəlman, 6 faizi protestant, 3 faizi katolik, 2 faizi induist, 1 faizi buddist etiqadlıdır. Orta ömür müddəti: kişilər üçün 59, qadınlar üçün 63 ildir.

İndoneziyada ilin fəsillərinin dəyişməsi, praktiki olaraq müşahidə edilmir. Burada günün işıqlı hissəsinin də (gündüz) davamiyyəti demək olar ki, dəyişmir. İqlimin əsas xüsusiyyətləri: orta aylıq temperatur 24 dərəcə olmaqla, daimi yüksək istilik, bol yağıntı, zəif küləklər, nisbətən yüksək rütubətlilikdir (80-90 faiz). Amma

dağlara qalxdıqca temperatur getdikcə azalır və 4000 metr yüksəklikdə təqribən sıfır dərəcəyə yaxın olur.

İqlimin mövsümiliyi yağıntının miqdarı ilə müəyyənləşir. Noyabrdan-martadək rütubətli, iyundan-oktyabradək isə quru mövsümdür. İndoneziya üçün bütün sutka ərzində hava rejiminin daimiliyi xarakterikdir: səhər aydın səmalı, günortaya yaxın yüksələn isti, günortadan sonra buludlu hava, şimşək və tropik leysanlar (bir saata yaxın), axşam isə alatoranlıq (toran) düşmədən zil qaranlığı gecə ilə əvəz edilir.

İndoneziya - prezident üsul-idarəli respublikadır. İnzibati cəhətcə ölkə 25 əyalətdən, xüsusi statusa malik paytaxtdan (Cakarta) və Cokyakarta adlanan "xüsusi vilayətdən" ibarətdir. 17 avqust 1945-ci il müstəqillik elan edilməsi günü olsa da, İndoneziya əslində, yalnız 27 dekabr 1949-cu ildə Hollandiyadan hüquqi müstəqillik almışdır. 17 avqust - Müstəqillik günü - Milli bayramdır. Dövlətin və hökumətin başçısı - prezidentdir. Ali qanunverici orqan - Xalq Məşvərət Konqressidir. Konqress ölkə prezidenti və vitse-prezidentini seçir. Cari qanunvericilik funksiyasını - Xalq Nümayəndələri Şurası (bir palatalı parlament) həyata keçirir.

Mərkəzləşdirilmiş planlaşdırma İndoneziya iqtisadiyyatının səciyyəvi xüsusiyyətidir. Son illərdə iqtisadiyyatın sərbəstləşdirilməsi və xüsusi sahibkarlığın inkişaf meyli müşahidə olunur. ÜMM 30 faizini təşkil edən sənaye sahələri xüsusilə dağ-mədən (neft, təbii qaz, əlvan metallar, kömür və odun tədarükü) üzərində qurulmuşdur. İxracatdan əldə edilən gəlirin 40 faizindən çoxunu neft bölməsi təmin edir. ÜMM 23 faizini təşkil edən kənd təsərrüfatı (meşəçilik və balıqçılıq da daxil olmaqla) iqtisadiyyatın mühüm bölməsidir. Çəltik, araxis, kassava*, kakao, qəhvə istehsal olunur. Kauçuk (dünyada ikinci yer) və palma yağı istehsalı güclü inkişaf etmişdir.

Cakarta, Kupanq, Palembanq, Ucunqpandanq, Semaranq, Surabaya və Çeribon şəhərləri ölkənin əsas portları, Surabaya (2,5 mln.), Bandunq (2,0 mln.), Medan (1,7 mln.) və Semaranq (1,0 mln.) isə ən böyük şəhərləridir.

* * *

İndoneziya təbiətinin özünəməxsus əsrarəngiz gözəllikləri, bir sıra dağlıq və sahil rayonlarında istirahətin və müalicənin təşkili üçün əlverişli iqlim şəraitinin olması (Yava adasında, Bandunqun məşhur kurortları, qədim Boqordakı kurortlar, Sumatra adasında Brastaqi dağ

* ***Kassava*** - Maniok fəsiləsindən bitki. Ərzaq kimi istifadə olunur.

kurortu və b.), zəngin flora və fauna, ölkənin tarixi-memarlıq abidələri bir-birini tamamlayır, **Cakartada** qədim şəhərin XVII-XVIII əsrlərə aid tikililəri və kanalları, Penanq qapısı (XVII əsr) və Portuqal kilsəsi (XVII əsr) ekskursiya baxımından maraqlıdır. **Surakatra** şəhərinin (Yava adası) ənənəvi bədii sənətkarlıq mərkəzində Manqkuneqaran məscidi (XVI əsr) və "Kraton" sarayı (XVIII əsr) yerləşir. **Malanq** şəhəri Kidal və Sinqasari məbəd-qüllələri, həmçinin piramidavari "Caqo" məbədi (hamısı XVIII əsr) vardır.

**Bandunqda** Merdeka sarayı, Cokyakartada isə Cokyakarta sultanının sarayı (XVIII əsr) saxlanılmışdır. Şəhər kənarında Borobudur ibadətgahından əlavə, Prambanan kəndində VII-IX əsrlərə aid dini memarlıq abidələri də yerləşir. Kiçik Zond adalarından biri olan Bali adası İndoneziya mədəniyyətinin mərkəzlərindən hesab olunur. Balini "Min məbəd adası" adlandırırlar. Məbədlər arasında ən qəşəngi - Sinqsidadır. Kral qəbirləri (XI əsr), Qaneşanin heykəli olan Fil mağarası daha maraqlıdır. İndoneziya əhalisinin çoxu müsəlman olsa da, Bali adasının sakinləri induistlərdir. Bali adasından 400 km şərqdə yerləşən Komodo adasında uzunluğu 3-4 m, çəkisi 150 kq çatan nəhəng kərtənkələlər (varanlar) yaşayır. İndoneziyaya gələn turistlər dünyanın ən ekzotik və dinozavr devrindən qalan bu heyvanları görməyə can atırlar.

* * *

İndoneziya Cənub-Şərqi Asiyada iri turizm ölkələrindən biridir. O, turizm sahəsində fəal siyasət yeritməklə iki əsas məqsəd güdür: əhalini iş yerləri ilə təmin etmək (ölkədə 213 mln. əhali yaşayır, artım sürəti də yüksəkdir) və xüsusilə də ötən əsrin 80-ci illərində neftin qiymətinin enməsindən sonra, ölkəyə xarici valyutanı cəlb etmək.

Neft, təbii qaz, meşə və toxuculuqdan sonra turizm ölkə üçün xarici valyuta gətirən 5-ci iri sahə hesab edilir. Dünya turizm bazarında ölkənin nüfuzunun artmasından sonra, 1987-ci ildən etibarən, gəlmə turizmi inkişaf etməyə başladı və 1987-1990-cı illərdə 20-34 faiz səviyyəsinə çatdı. Bu artım əsasən Cənubi və Cənub-Şərqi Asiyanın (o cümlədən Cənubi Koreya və Tayvanın) hesabına idi.

1992-ci ildə İndoneziyaya gələn xarici qonaqların sayı 3 mln. nəfərə çatdı, onların da böyük əksəriyyətini (82 faiz) istirahətə gələnlər təşkil edirdilər. Sinqapur, İndoneziya üçün uzun müddət ən böyük bazar olaraq qalmışdır, lakin turistlərin əksəriyyəti ölkəyə təkrarən və qısa müddətə gəlirdilər. Yaponiya, Malayziya, Avstraliya, Tayvan, ABŞ, Almaniya, Böyük Britaniya, Hollandiya və Cənubi Koreya sonrakı yerləri tuturlar.

Ölkədə beynəlxalq turizmin zəif də olsa, dinamik inkişafı meyli vardır. 1995-ci ildə İndoneziyaya 4,3, 1998-ci ildə - 4,6, 1999-cu ildə 4,7, 1999-cu ildə 5,0 mln. turist gəlmişdir. Turizm fəaliyyətindən daxilolmalar 5,2 mlrd. ABŞ dolları təşkil etmişdir. Bu göstəriciyə görə İndoneziya dünya ölkələri arasında 23-cü yer tutur. Xarici turistlərin qəbulu üçün, ölkədə 416 min (2000) gecələmə yeri mövcuddur.

İndoneziya əhalisi isə səyahətə meyilli deyil. 1999-cu ildə 2,4 mln.-a yaxın adam xarici səfərlərdə iştirak etmiş və səfər müddətində 2,5 mlrd. ABŞ dolları həcmində pul xərcləmişlər. Bu cür vəziyyət, daxili və getmə turizminin inkişafının başlanğıc mərhələsində olan ölkələr üçün xarakterikdir.

## 15.3. TAYLAND

**Ərazisi: 513,1 min kv. km. Dünyada 49-cu yer.**
**Əhalisi: 63,0 mln nəfər (2000). Dünyada 19-cu yer.**
**Paytaxtı: Banqkok (9 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Tay dili.**
**Din: Buddizm.**
**Milli pul vahidi: Bat.**

Cənub-Şərqi Asiyada yerləşmiş Tayland qərbdə və şimalda Myanma (1800 km), şimal-şərqdə Laos (1754 km), cənub-şərqdə Kamboca (803 km), cənubda Malayziya (506 km) ilə həmsərhəddir. Ölkə cənub-qərbdə Andaman dənizinin, cənub-şərqdə isə Siam körfəzinin suları ilə əhatə olunur. Tayland 1939-cu ilədək və 1945-1949-cu illərdə Siam adlanırdı.

Ölkə ərazisinin yarısını ovalıqlar və düzənliklər təşkil edir, bunlardan da ən irisi olan Menam düzənliyi, ölkənin ən uzun çayı Menam-Çao-Prayın hövzəsində yerləşir. Ölkənin şərq hissəsini Korat yaylası tutur. Şimalda və qərbdə dağlar uzanır. Taylandın ən uca zirvəsi olan İntxanon dağı (2595 km), əsas dağ silsiləsi olan Tenentauncidə yerləşir. Ölkənin əsas təbii ehtiyatları: təbii qaz, qalay, kauçuk, volfram, qurğuşun, qiymətli oduncaq və balıqdır.

Banqkok, Pattani və Pxuket ölkənin əsas portları, Çianqmay, Çianqray, Nakonsitamarat və Xatyay isə ən iri şəhərləridir.

Tayland tropik musson iqlim zonasında yerləşir. İl - yağışlı (maydan-oktyabradək) və quru mövsümlərə ayrılır. Bütün il ərzində temperatur çox cüzi dəyişir: qışda 24, yaz-yay dövründə isə 29 dərəcə olur.

Əhalinin böyük əksəriyyətini taylar (75 faiz) və çinlilər (14 faiz) təşkil edir. Ölkədə həmçinin kxmerlər, vyetnamlılar və malaylar da yaşayır. Tay dili - rəsmi dildir. Əhali arasında ingilis, çin, malay, mao dilləri də geniş yayılmışdır. Əhalinin 95 faizi buddizmə, 4 faizi islama, 0,5 faizi xristianlığa, 0,1 faizi isə induizmə sitayiş edir. Orta ömür müddəti kişilər üçün 65, qadınlar üçün 72 ildir.

Ölkənin rəsmi adı - Tayland Krallığıdır. Dövlət quruluşuna görə konstitusiyalı monarxiyadır. İnzibati cəhətcə 72 əyalətə (tyançvata) ayrılır. Tayland müstəqil dövlət kimi 1238-ci ildə yaradılmışdır. Dövlət başçısı - kraldır. 5 dekabr - Kralın doğum günü - Milli bayram kimi qeyd olunur. İcraedici hakimiyyət, Baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunvericilik hakimiyyətini iki palatalı parla-

ment - Milli Assambleya həyata keçirir. Milli Assambleya Senatdan (Yuxarı palata) və Nümayəndələr Palatasından (Aşağı palata) ibarətdir.

Tayland - Asiya qitəsinin nisbətən inkişaf etmiş ölkələrindəndir. İqtisadi inkişafın sürəti, son illərdə sənaye və xidmət bölmələrində özünü xüsusilə göstərir. Toxuculuq, zərgərlik, elektron, dağ-mədən (volfram istehsalına görə dünyada ikinci, qalaya görə üçüncü yer tutur) və kənd təsərrüfatı məhsullarının emalı daha çox inkişaf etmiş sahələrdir. Tayland çəltik və kauçuk istehsalı və ixracı üzrə dünyanın aparıcı ölkələrindən biridir.

* * *

Turizmin inkişafı üçün ölkə gözəl imkanlara malikdir. Hind-Çin yarımadasının mərkəzində əlverişli şəraitdə yerləşməsi, dənizə geniş məsafədə çıxışın olması, Menam çayının nəqliyyat imkanları, Siam körfəzinin narın qumlu çimərlikləri, rəngarəng relyef, zəngin meşələr, Xuan-Xin və Sensuk kimi məşhur dəniz kurortları ölkənin turizm imkanlarının əsasını təşkil edir.

Ölkədə 18 mindən çox buddist məbədi və monastırı vardır, onların da 400-dən çoxu Banqkokda yerləşir. Məbədlər arasında, qülləsinin hündürlüyü 104 metr olan "Sübh çağı", Zümrüd Budda (1782) və Po məbədini (XII əsr) xüsusilə qeyd etmək lazımdır. Çakri kral sarayı (XVIII-XX əsrlər), Üzən bazar və Dusit parkı da turizm baxımından maraqlıdır. Paytaxt muzeylər ilə də zəngindir. Burada Milli muzeylərdən tutmuş, Vimanmek və Vanq Suan Pakkad saraylarına qədər turistləri cəlb edən maraqlı yerlər mövcuddur. Banqkok muzeylərində qiymətli rəsm kolleksiyaları toplanmışdır. Turistlər həmçinin, ilan yetişdirilən fermaya baxmaqdan açıq səma altında "Qədim Şəhər" adlanan muzeylə tanışlıqdan həzz alırlar. Avropa turistlərinin əksəriyyəti "Qırmızı çıraqlar" məhəlləsinə də ekskursiyaya gedirlər.

Ayutiyada Kral sarayının qalıqları və Yatmış Buddanın 16 metrlik heykəli, Çianqmaydakı qədim tikililər, ölkənin görməli yerlərindəndir. Tayland olduqca mənzərəli təbii yerlərlə də zəngindir. Cənubdakı adalar - təbii incilər hesab edilir. Sahil sularında ecazkar formalı çoxsaylı qayalar insanı heyran edir. Siam körfəzi sahilindəki Səhləb çiçəyi parkını (Nonq Nuç) insan əli ilə yaradılmış möcüzə adlandırmaq olar. Burada həmçinin çoxlu kaktus kolleksiyası və zoopark vardır.

Tayland sahillərinin turizm baxımından ən görkəmli yeri "Tayland Rivyerası" adlanan beynəlxalq səviyyəli məşhur dəniz kurortu olan - Pattayadır. Bu kurortda dincələnlərə su idmanının bütün növlə-

ri və başqa əyləncələr təklif olunur. Burada yerləşmiş Mini Siam parkında isə Taylandın və dünyanın digər ölkələrinin ən məşhur memarlıq tikililərinin kiçildilmiş nümunələri turistlərin böyük marağına səbəb olur. Bütün bunlar, həmçinin dadlı tay mətbəxi ilə birgə ölkəyə milyonlarla turisti cəlb edir. Beynəlxalq turizm baxımından Tayland dünyanın ən təhlükəsiz ölkələrindən biridir. Burada xüsusi turist polisi yaradılmışdır.

* * *

Tayland özünün müstəqilliyi və regiondakı qonşu ölkələrdən fərqli olaraq siyasi sabitliyi ilə avropalıların rəğbətini qazanmışdır. Ona görə də, ölkə, tarixi, mədəni, həmçinin çimərlik turizmi də daxil olmaqla müxtəlif turizm məhsulları dəsti yaratmağa nail olmuşdur. Turizm ölkə üçün mühüm xarici valyuta gətirən təsərrüfat sahəsidir.

Taylanda əsasən qonşu Malayziyanın sakinləri səfər edirlər, amma onların səfərləri qısa müddətli (orta hesabla 4,4 gün) olur və çox pul xərcləmirlər. Sonrakı yerləri Yaponiya və Tayvan tutur. Bu ölkələrin turistləri daha uzun müddətə gəlir və daha çox pul xərcləyirlər. 1990-cı ildən sonra Tayland üçün Asiya və Avstraliya turist bazarı zəifləmiş Avropa bazarı isə əksinə artmağa başlamışdır. Böyük Britaniya, Taylandın əsas turist bazarları arasında beşinci yerə qalxmışdır. Avropalı turistlər nisbətən uzun müddətə (9-14 gün) gəlsələr də, az pul xərcləyirlər.

Xarici turistlərin qəbulu üzrə Tayland dünyanın 20 aparıcı ölkəsi sırasındadır. Son 5 ildə, ölkəyə hər il bir qayda olaraq 7 mln. xarici turist gəlir. 1999-cu ildə 8,6, 2000-ci ildə isə 9,5 mln. xarici turistin gəlməsi qeydə alınmışdır.

Qeyd edək ki, ölkəyə gələn xarici turistlərin sayı ildən-ilə artsa da, beynəlxalq turizm fəaliyyətindən daxilolmalar çoxalmağa deyil, azalmağa meyl göstərir. Belə ki, bu rəqəm 1996-cı ildə 8,7, 1997-ci ildə 7,0, 1998-ci ildə 5,9, 1999-cu ildə 6,7 mlrd. ABŞ dolları təşkil etmişdir.

2000-ci ilə olan məlumata əsasən Taylandda turistlərin qəbulu üçün 280 min mehmanxana nömrəsi mövcuddur. Taylandın əhalisi xarici turist səfərlərinə o qədər də həvəskar deyil. 1999-cu ildə 1,7 mln. taylandlı turizm məqsədi ilə xaricdə olmuşdur.

# 15.4. SİNQAPUR

**Ərazisi: 639,1 kv. km. (Mikrodövlətdir).**
**Əhalisi: 3,51 mln. nəfər (2000). Dünyada 129-cu yer.**
**Paytaxtı: Sinqapur şəhəri (2 mln.-dan artıq - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Malay, ingilis, çin, tamil dilləri.**
**Din: Buddizm, islam, konfusianlıq.**
**Milli pul vahidi: Sinqapur dolları.**

Cənubi-Şərqi Asiyada yerləşmiş Sinqapur eyni adlı adada və ona yaxın 50-dən artıq kiçik adalarda yerləşir. Sinqapur adası Malakka yarımadasından Coxor, Sumatra adasından isə Sinqapur boğazları ilə ayrılır. Sanskrit dilindən tərcümə olunduqda Sinqapur - "şirlər şəhəri" mənasını bildirir. Ada, çay, şəhər və dövlət eyni adı daşıyır.

Əhali əsasən adanın cənub hissəsində toplaşmışdır. Əhalinin əksəriyyətini çinlilər (76,4 faiz), malaylar (15 faiz) və hindlilər (6,4 faiz) təşkil edir. Ölkədə dörd rəsmi: çin, malay, tamil və ingilis dilləri vardır. Ölkə əhalisi buddizm (30 faiz), islam (16 faiz), xristian (20 faiz), induizm, taoizm və konfusiliyə sitayiş edir. Orta ömür müddəti: kişilər üçün 73, qadınlar üçün 79 ildir.

Sinqapurun iqlimi ekvatorial, musson, isti və rütubətlidir. Yanvarın orta temperaturu müsbət 26, iyulunku isə 27 dərəcədir. Bütün il boyu yağışlar yağır. Dekabr ən yağmurlu ay hesab olunur.

Sinqapur Böyük Britaniyanın başçılıq etdiyi "Birlik"* daxilində parlament üsul-idarəli respublikadır. Qanunvericilik, ingilis hüququ əsasında tərtib edilmişdir. İcraedici hakimiyyət prezidentə (dövlət başçısı) və Baş nazirə (hökumət başçısı) məxsusdur. Qanunvericilik hakimiyyətini birpalatalı parlament həyata keçirir.

1828-1958-ci illərdə Sinqapur İngiltərənin müstəmləkəsi olub. 1959-cu ildə o Britaniya "Birliyi" tərkibində muxtariyyət əldə edib. Ölkə 1953-cü ildə Malayziya federasiyasının tərkibinə daxil olsa da, iqtisadi məsələlərin həllində federasiyaya üzv olan dövlətlərlə ümumi dil tapa bilmədiyindən 1965-ci ilin avqustunda federasiyanın tərkibindən çıxaraq özünü müstəqil dövlət elan etmişdir. 9 avqust Respublika günü - Milli bayram kimi qeyd olunur.

Sinqapur - Cənub-Şərqi Asiyanın iqtisadi cəhətdən daha çox inkişaf etmiş ölkələrindəndir. Tayvan, Honkonq və Cənubi Koreya ilə birgə Asiyanın "Yeni Sənaye Ölkələri" siyahısına daxildir. Sinqapur,

---

* ***"Birlik"*** (1947-ci ilə qədər Böyük Britaniya Birliyi) - müstəqillik əldə etmiş keçmiş İngiltərə müstəmləkələrinin rəsmi Londonun rəhbərliyi altında birləşməsi.

həmçinin ticarət, maliyyə, marketinq, xidmət və yeni texnologiyanın hazırlanması üzrə iri regional və beynəlxalq mərkəz, Cənub-Şərqi Asiyanın mühüm nəqliyyat və kommunikasiya qovşağıdır.

20-30-cu illərdə Sinqapurun inkişaf etmiş sənaye ölkəsinə çevrilməsi kimi strateji vəzifənin həlli məqsədi ilə, iqtisadiyyatda struktur dəyişikliklərin aparılması üzrə Sinqapur rəhbərliyi məqsədyönlü tədbirlər həyata keçirir.

Kompüterləşdirmə və robotların hazırlanması üzrə, Sinqapur Asiyada Yaponiyadan sonra ikinci yer tutur. Təbii ehtiyatların olmamasına, ərazinin kiçikliyinə və işçi qüvvəsinin çatışmamasına baxmayaraq, ölkənin iqtisadi durumu sabit olaraq qalır.

Dəniz şelfində* neft yataqlarının işlənilməsi üçün səyyar qazma qurğularının hazırlanması üzrə Sinqapur ABŞ-dan sonra dünyada ikinci yer tutur. Neftemalı üzrə Sinqapur Hyüston (ABŞ) və Rotterdamdan (Niderland) sonra dünyada üçüncü iri mərkəz hesab olunur (ildə 20 mln. tondan artıq neft emal edilir).

Dəniz portu ölkə iqtisadiyyatında mühüm rol oynayır. Yük dövriyyəsinə görə Sinqapur portu dünyada ən irilərindən biridir. Dəniz konteynerlərinin yüklənib-boşaldılması üzrə isə Honkonqdan sonra ikinci yer tutur.

Çanqi aeroportunun da əhəmiyyəti böyükdür. Xidmət və effektlilik keyfiyyətinə görə bu aeroport dünyanın ən yaxşı hava portları siyahısında son illərdə əldə etdiyi liderlik mövqeyini saxlayır. Hazırda aeroportun buraxılış həcminin bir ildə 35 mln. sərnişinə çatdırılması üzrə iş aparılır.

Sinqapur həmçinin iri maliyyə mərkəzidir. Valyuta birjasının gündəlik dövriyyəsinin məbləğinə görə Sinqapur yalnız London, Nyu-York və Tokiodan geri qalır. İri beynəlxalq ticarət-sənaye sərgilərinin, elmi-texniki simpoziumların və konfransların (orta hesabla ildə 700-750) keçirilməsi ölkədə geniş tətbiq olunur.

Sinqapur, xarici investisiyalar üçün "təhlükəsiz" ölkələrin siyahısındadır. Ölkədə xarici turizmin inkişafına böyük diqqət verilir. Müasir mehmanxanalar tikilir, şəhər yaşıllaşdırılır, reklama xüsusi diqqət yetirilir.

* * *

Sinqapurun özünəməxsus təbiəti, müasir səviyyəli çimərlikləri, çoxsaylı görməli yerləri, rüsumsuz ucuz malları turistləri cəlb edir.

---

* ***Şelf* və ya *kontinental şelf*** - materiklərin sualtı kənarının düzənlik zolağı, başqa sözlə desək 200 m-ə qədər dərinliyi olan materik dayazlığı.

Çoxsaylı klubları, kabare və digər əyləncə mərkəzləri gecə həyatı həvəskarları üçün maraq doğurur.

Sinqapurun görməli yerləri arasında timsah qoruğunu, "Bukat-Timak" təbii rezervatını* (81 hektar) göstərmək olar. Bu rezervat şəhərin qərb hissəsində, mərkəzə yaxın yerdə yerləşir. Hündürlüyü 162 metr olan Budda məbədi də buradadır.

Kusu adasında Tua Pekonq məbədi yerləşir. Konfusinin pərəstişkarları hər il buraya ziyarətə gəlirlər. "Sunqey Bulox" parkı, köçəri quşların qışlama yeri olan iri bataqlıq qoruğu (87 hektar) da bu adada yerləşir.

Sinqapur çayının mənsəbində yerləşən "Merlayon" - dəniz şiri heykəli ölkənin simvoludur. Çayın sahilində müstəmləkə dövrünün qədim tikililəri, o cümlədən XIX əsrin əvvəllərində tikilmiş parlament binası (qarşısında tunc fil heykəli var), "Rafflz-otel" (Cənub-Şərqi Asiyada ilk göydələn otellərdəndir), Viktoriya teatrı yerləşir.

Asiyada ən iri dəniz portlarından olan Sinqapurda gəmi ilə gəzinti, turistlər üçün yadda qalan tamaşadır. Dəniz gəmiçiliyi muzeyi, Balıq muzeyi, İkinci Dünya müharibəsi memorialı, Silozo istehkamı, Asiya ekzotika qəsəbəsi "kəpənəklər parkı", Səhləb çiçəyi parkı, Asiyada ən böyük okeanarium olan "Sualtı dünya" (burada sualtı dünyanın 6 min növündən 1350-si saxlanılır), Su parkı, Fantaziyalar adası, Vulkanolend (burada paleontoloji qazıntılarla tanış olmaq və vulkana tamaşa etmək olar) turistlər üçün olduqca maraqlıdır. Bütün bunlar ölkənin əsas kurortu sayılan Sentoza adasında yerləşir.

Sinqapur - çoxsaylı biznes-mərkəzləri, müasir kommunikasiya vasitələri olan ultramüasir dövlətdir. Ölkə yalnız istirahət deyil, işgüzar turizm də təklif edir. Sinqapur təkcə regionda deyil, bütün dünyada mühüm turizm mərkəzidir. Sinqapur avropalılar üçün Asiyada Taylanddan sonra ikinci məşhur turizm mərkəzidir.

* * *

1965-1982-ci illərdə Sinqapurda turizm sürətlə inkişaf etməyə başlamış və hər il ölkəyə 3 mln. nəfər turist gəlmişdir. Ötən əsrin 80-ci illərinin sonlarında illik artım 14-15 faizə qədər çoxalmışdır. 1991-ci ildəki nisbi durğunluqdan sonra, digər Asiya ölkələrində olduğu kimi Sinqapurda da turizm sürətlə inkişaf etməkdə davam edir və artıq illik qəbul 6 mln. nəfərə çatmışdır.

---

* ***Rezervat*** (latın mənşəli sözdür, saxlayıram, qoruyuram mənalarını bildirir) - bəzi ölkələrdə yerli, əhalinin zorla yerləşdirilməsi üçün ayrılmış ərazi.

Sinqapura gələn əcnəbi turistlərin böyük hissəsini asiyalılar (60) və avropalılar (15) təşkil edir. Çin, Tayvan və Cənubi Koreya, Sinqapur üçün sürətlə artan turizm bazarlarıdır.

Sinqapur hökuməti, ölkəni gözəl istirahət mərkəzinə çevirmək siyasəti yeritmiş, nəticədə 1989-cu ildə ölkəyə gələnlərin 66,5 faizini öz məzuniyyətlərini burada keçirmək istəyənlər təşkil etmişlər. İşgüzar səfərlərin payı - 12,8, tranzit turistlərin payı isə 15,5 faiz olmuşdur. Yaponiya, Tayvan və Almaniyadan gələn turistlər məmnuniyyətlə burada istirahət edir, Honkonq və ABŞ-dan gələnlər isə işgüzar turizmə üstünlük verirlər.

Sinqapurda əhalinin həyat səviyyəsi yüksək olduğu üçün, onlar səyahətlərdə fəal iştirak edir, Sinqapur özü isə digər ölkələr üçün iri turist bazarı rolunu oynayır. 1991-ci ildə 4,8 mln. xarici səfər qeydə alınmışdır (3,2 mln.-u Malayziyaya edilmiş səfərlərdir). 1999-cu ildə xarici səyahətlərin miqdarı 3,9 mln.-adək azalmışdı. Sinqapurlular üçün Malayziyadan sonra ən iri turizm mərkəzləri İndoneziya, Tayland və Honkonqdur. Onlar olduqları ölkələrdə 3,0 mlrd. ABŞ dolları həcmində pul xərcləmişlər (1999).

Hər il Sinqapura 6,5 mln. xarici turist gəlir. Turizm fəaliyyətindən daxilolmalar ildə 6-7 mlrd.-a yaxın ABŞ dolları həcmindədir. 2000-ci ilin məlumatına əsasən Sinqapurda turistlərin qəbulu üçün 35 min mehmanxana nömrəsi mövcuddur. Turizm fəaliyyətindən əhalinin adambaşına düşən gəlirə görə Sinqapur dünyada birinci yeri tutur.

## 15.5. MALAYZİYA

**Ərazisi: 336,4 min kv. km. Dünyada 64-cü yer.**
**Əhalisi: 22,0 mln. nəfər (2000). Dünyada 46-cı yer.**
**Paytaxtı: Kuala-Lumpur (2,0 mln. nəfər).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Malay dili.**
**Din: İslam.**
**Milli pul vahidi: Rinqqit (Malayziya dolları).**

Cənubi-şərqi Asiyada yerləşmiş Malayziya coğrafi cəhətdən iki hissədən: Qərbi Malayziya (Malakka yarımadasının cənub hissəsi) və Şərqi Malayziya (Kalimantan adasının şimal hissəsi) ibarətdir. Şərqi Malayziya qərbdə və cənubda İndoneziya (1782 km), şimalda Bruneylə (381 km) həmsərhəddir. Qərbi Malayziya bölgəsi şimalda Taylandla (506 km) həmsərhəddir. Ölkə şimalda Cənubi-Çin, şimal-şərqdə Sulu, şərqdə isə Sulavesi dənizlərinin suları ilə əhatə olunur.

Ölkənin Malakka yarımadasında yerləşən hissəsində bir-birindən çoxsaylı çay vadiləri ilə ayrılan paralel dağ silsilələri uzanır. Kalimantan adasında da dağlıq və təpəlik ərazilər üstünlük təşkil edir. Ölkənin ən uca zirvəsi olan Kinabalu dağı (4101 m) burada yerləşir. Sahil boyu ovalıqlar dar zolaq kimi uzanır. Bir sıra yerlərdə bu ovalıqlar bataqlıqlaşmış düzənliklərlə əvəz olunur. Ölkənin hidroqrafiya şəbəkəsi çox da uzun olmayan, amma bolsulu çoxsaylı çaylardan ibarətdir. Əsas çaylar - Paxanq, Racanq, Kinabantanqdır.

Malayziya, iri qalay və volfram yataqlarına, həmçinin digər təbii ehtiyatlara (neft, mis, dəmir filizi, təbii qaz) malikdir.

Malayziyanın iqlimi ekvatorialdır. Havalar bütün il boyu isti keçir. Ölkə üzrə orta illik temperatur müsbət 25-28 dərəcədir. Sahil rayonlarında gündüzlər 30-36 dərəcə isti, dağlarda isə nisbətən soyuq olur.

İri şəhərlər - Kuala-Lumpur (2,0 mln), İpox (385 min), Coxor-Baru (323 min) və Corctaun (220 min), portlar isə Corctaun, Kelanq, Kuantan, Kota-Kinabalu, Kuçinq, Miri, Sandakan və Sibudur.

Əhalinin çox hissəsi Qərbi Malayziya bölgəsində yaşayır. Əhalinin yarıdan çoxunu (54 faizi) malaylar və onlara qohum xalqlar təşkil edir, çinlilər - 34 faizdir. Ölkədə həmçinin indoneziyalılar, taylar, hindlilər və avropalılar yaşayırlar. Malay dili - dövlət dilidir, ingilis, çin, tamil dillərindən də geniş istifadə olunur. Əhalinin yarıdan bir qədər çoxu islam dininə sitayiş edir, dindarlar arasında buddizm, kon-

fusilik, induizm, taoizm və xristian dininə sitayiş edənlər də vardır. Orta ömür müddəti: kişilər üçün – 66, qadınlar üçün – 72 ildir.

Malayziya dövlət quruluşuna görə konstitusiyalı monarxiyadır. İnzibati cəhətcə ölkənin tərkibində 13 ştat və 2 federal ərazi (Kuala-Lumpur və Labuan adası) vardır. 31 avqust 1957-ci ildə Malayziya müstəqillik əldə etmişdir. O vaxtdan 31 avqust Milli bayram – Müstəqillik günü kimi qeyd olunur. Qanunvericilik, ingilis hüququna əsaslanır. İcraedici hakimiyyət Baş nazirin rəhbərlik etdiyi Nazirlər kabinetinə məxsusdur. Ali rəhbər əsas etibarı ilə dövlətin nümayəndəlik funksiyasını yerinə yetirir. Qanunvericilik hakimiyyətini ikipalatalı parlament həyata keçirir. Parlament Senatdan (yuxarı palata) və Nümayəndələr palatasından (aşağı palata) ibarətdir.

Xarici investisiyaların artımı (ilk növbədə Yapon və Tayvan vəsaiti hesabına) hesabına Malayziyanın iqtisadiyyatı yüksək sürətlə inkişaf edir (yarımkeçiricilər istehsalı üzrə dünyada üçüncü yerdədir). Neftemalı, kimya, toxuculuq, ağacemalı, metallurgiya sənaye sahələri, avtomobil istehsalı inkişaf etmişdir. Qalay istehsalı üzrə iri istehsalçıdır. İxracın xeyli hissəsini neft və neft məhsulları, dəmir filizi, mis konsentratı, qalay və təbii qaz təşkil edir. Təbii kauçuk, palma yağı (ən mühüm ixrac məhsullarındandır), kakao, kokos qozu, şəkər qamışı, ananas, ölkənin əsas kənd təsərrüfatı məhsullarıdır.

* * *

Malayziyaya səyahət edənlərin ümumi fikri belədir ki, bu ölkə əfsanəvi nağıllar diyarıdır. Məsələn, buradakı adaların hər biri turistləri cəlb edən məqsədlərə xidmət edir. Adaların biri sualtı üzgüçülük üzrə Milli dəniz parkı elan olunmuş, digəri çimərlik əyləncələri, başqa birisi isə keçilməz cunqli meşələri ilə tanınır. Turistləri yaponların nə vaxtsa adaların birində yerləşdirdikləri və yerlilərin "dəniz qaraçıları" adlandırdıqları insanların adət və ənənələri ilə tanışlıq cəlb edir.

Malayyalılar hər şeyin nəhəngini, qəşəngini, bir sözlə qabaqcıllığı sevirlər. Məsələn, Ginnesin rekordlar kitabına düşmüş ən uzun abbreviatur onlara məxsusdur. Dünyada ən böyük milli bayraq, kağız və kartondan düzəldilmiş ən böyük əjdaha Cənub-şərqi Asiyada böyük teleqüllə, günbəzi mavi və ağ rəngli boyalarla bəzədilmiş şah Aləm məscidi, onlarca böyük göydələn bu ölkənin simvoluna çevrilmişlər.

Malayziyanın mühüm turizm mərkəzi olan **Kuala-Lumpurda** çoxsaylı turist obyektləri toplanmışdır. Çin evləri, məbədlər, məscidlər, malay və hind yaşayış binaları, abidələr, parklar, müasir üslublu tikililər burada yanaşı yerləşirlər. Şəhərin mərkəzi hissəsində biznes,

ticarət, rekreasiya və əyləncə zonaları yerləşir. Kuala-Lumpurun ən gözəgəlimli yeri yeni üslubda tikilən, hündürlüyü 452 m (88 mərtəbə) və 41,42-ci mərtəbələr arasında 58 m uzunluğunda səma körpüsü vasitəsilə birləşdirilən ekiz qüllələr Petronas qüllələri adlanır. Bu qüllələr Milli neft şirkəti "Petronas"ın şərəfinə belə adlandırılmışdır. Paytaxtdakı Milli muzey, Kota-Kinabaludakı Sabah ştatı muzeyi, Kuçinqdəki Saravak ştatı muzeyi etnoqrafik və arxeoloji kolleksiyalarla zəngindir və ölkənin əsas muzeyləri hesab olunur.

Ölkədə cunqli meşələrinin heyvanat və bitki aləmini qoruyan, adaların tropik iqlimi haqqında təsəvvür yaradan çoxlu milli parklar fəaliyyət göstərir.

Malakkanın şimalında yerləşən "Taman Neqara" parkı (ərazisi 168,0 kv. km) hələ 1838-ci ildə britaniyalılar tərəfindən salınmışdır. Burada pələng, fil, Sumatra kərgədanı, pantera və digər nadir heyvanlar saxlanılır. Parkın bitki aləmi, möhtəşəmliyi, rəngarəngliyi və zənginliyi ilə seçilən cunqlini təmsil edir. Digər qoruq ölkənin şimalında, Tayland ilə sərhəddə Temenqor gölü yaxınlığında təşkil olunmuşdur.

Şərqi Malakkanın Trenqanu ştatı çimərliklərində yerləşən qoruqda, iri dəniz çanaqlıbağaları saxlanılır. Cənub-Şərqi Asiyada ən qədim mağaralardan olan Bakoda qədim insan qalıqları aşkar edilmişdir. Pinanq adasının qərb sahillərində yerləşən eyni adlı şəhərdə ən gözəl Çin məbədləri vardır. Buradakı İlanlar Məbədində (Malayziyada yeganə məbəddir) olan ibadətgahda bürünc tabaqların içərisində yumrulanıb oturan onlarla zəhərli ilanlara rast gəlmək olar. İlanların zəhər dişləri çıxarıldığı üçün turistlər onları ələ götürmək və ilanlarla şəkil çəkdirməkdən məzələnirlər.

Pinanqın buddist məbədləri də turistlər arasında məşhurdur. Onların arasında Air Xitam ("Qara su") və "On min Budda" məbədi xüsusilə seçilir. Kuçinq şəhərində turistləri cəlb edən digər abidələr arasında Astana raciləri sarayını, ingilis və katolik kilsələrini qeyd etmək olar. Coxor-Baruda möhtəşəm məscid, sultan sarayı, botanika bağı və zoopark vardır. Ən əsası isə ölkənin cənub sahillərində abad çimərliklər çoxdur.

Ölkəyə gələn çoxsaylı turistləri maraqlı ekskursiyalar: Qayya adasına qayıqla gəzinti, Sapi adasında təbiət qoynunda nahar, Kinabalu parkında Kipunkit şəlaləsinə gediş, Oksbou gölü və Kinabatanqan çayında kruiz, Selinqan adasındakı çanaqlı bağalar, Sepilokda oranqutanlar qoruqlarına ekskursiyalar və s. gözləyir.

* * *

Malayziyada turizmin vəziyyəti, region bazarından, xüsusilə də Sinqapurdan asılıdır. Belə ki, 1991-ci ildə xarici qonaqların 58,3 faizi Sinqapurdan gələnlər olmuşdur. Digər mühüm bazarlar - Tayland (9,3 faiz), Yaponiya (7,1 faiz) və Avropa ölkələridir (7 faiz). Çin və Tayvandan gələn turistlərin sayı sürətlə artır.

Ölkənin iqtisadi inkişaf səviyyəsi yüksək olduğu üçün onun vətəndaşları da çox səyahət edə bilirlər. Səfərlərin çox hissəsi Sinqapurun payına düşür (1999-cu ildə ildə mal almaq və əyləncə məqsədilə ilə Sinqapura 9,5 mln. nəfər səfər etmişdir). Tayland və İndoneziya sonrakı yerləri tutur. 1999-cu ildə 26,0 mln. malayziyalı xarici səyahətlərdə iştirak etmişdir. Onlar olduqları ölkələrdə 2,0 mlrd. ABŞ dolları həcmində pul xərcləmişlər.

Malayziya regionun aparıcı turizm dövlətlərindəndir. 1999-cu ildə ölkəyə 8 mln-a yaxın əcnəbi turist gəlmişdir. Turizm fəaliyyətindən daxilolmalar 3,5 mlrd. ABŞ dolları təşkil etmişdir. 2000-ci ilə olan məlumata əsasən ölkədə turistlərin qəbulu üçün 110 min mehmanxana nömrəsi var.

# FƏSİL 16.

## YAXIN VƏ ORTA ŞƏRQ ÖLKƏLƏRİNDƏ BEYNƏLXALQ TURİZM

Bu turizm regionu, möhtəşəm Asiya qitəsinin kiçik bir hissəsini, təqribən dörddə birini tutur. Yaxın Şərq[1] anlayışında üç qitənin (Avropa, Afrika və Asiya) kəsiyində yerləşən dövlətlər: Türkiyə, Kipr, İsrail, Livan, Suriya, İraq, Səudiyyə Ərəbistanı, Oman və Fars körfəzi sahilində yerləşmiş Əmirliklər (Küveyt, Qətər, Bəhreyn və Birləşmiş Ərəb Əmirlikləri) nəzərdə tutulur. Fələstin də bu dövlətlər sırasında olmalı idi, amma əfsuslar olsun ki, BMT-nin 29 noyabr 1947-ci ildə müstəqil Fələstin ərəb dövlətinin yaradılması barədə qəbul etdiyi qətnamə həyata keçməmiş və müstəqil Fələstin dövləti yaradılmamışdır. Orta Şərq anlayışında isə İran və Əfqanıstan kimi dövlətlər nəzərdə tutulur.

1869-cu ildə Süveyş kanalı açıldıqdan sonra, Qərbi Avropa ilə Hind və Sakit okean ölkələri arasında mühüm kommunikasiya xəttləri Aralıq dənizinə keçdiyindən Yaxın Şərq bölgəsi bu kommunikasiyanın mərkəzində dayandı. Təbii ki, bu hadisə həmin ölkələrdə beynəlxalq turizmin inkişafında da böyük rol oynadı.

Yaxın və Orta Şərq ölkələri tropik və subtropik qurşaqlarda yerləşmişdir. Ümumiyyətlə götürüldükdə isə burada səhralar, yarımsəhralar, quru çöllər, yüksəkliklər və dağlar geniş yer tutur. Təbii baxımdan bu region 4 böyük fiziki-coğrafi vilayətə: Ərəbistan yarımadası, Mesopotamiya ovalığı, Kiçik Asiya (Anadolu) və İran yaylalarına bölünür. Azərbaycan Respublikasının Yaxın və Orta Şərqin iki - Türkiyə və İranla dövlət sərhəddi var.

Regionun ən hündür nöqtəsi Əfqanıstan ərazisində Şərqi Hindiquş dağlarındakı Nouşah zirvəsi (7455 m), ən alçaq yeri isə Ölü dənizin yerləşdiyi tektonik dərədir (-400 m). Ümumiyyətlə, region ərazisinin təqribən 70 faizini səthi qumlu və daşlı səhralar təşkil edir. Regionda çay şəbəkəsi çox zəif inkişaf etmişdir. Dəclə və Fərat istisna olmaqla regionda bol sulu çaylar demək olar ki, yoxdur. "Su olan yerdə həyat var" kəlamı elə bil ki, bu region ölkələri üçün deyilmiş-

[1] Əslində Misir dövləti də bu regiona daxil olmalıdır. Amma müəlliflər kitabı qitələr bölgüsü ilə yazdıqlarından Misirin beynəlxalq turizmi haqqında məlumat Afrika bölgəsində verilmişdir.

dir. Avropa və Amerika yollarında hərəkət edən avtoturist benzin dolduran məntəqə axtarırsa, Yaxın və Orta Şərqdə o benzinlə bərabər su quyularını da axtarır.

Bu regionda yaşayanların 95 faizi türk, fars və ərəb dil qruplarında danışanlara aid edilir. Dini baxımdan əhalinin 97 faizi müsəlmanlardır. Dünya müsəlmanlarının ziyarətini özləri üçün borc bildikləri müqəddəs yerlər: Məkkə, Mədinə, Kərbala, Nəcəf, Məşhəd bu regionun ölkələrindədir. Dünya yəhudiləri və xristianlarının müqəddəs hesab etdikləri yerlər də buradadır. Buna görə də Yaxın və Orta Şərq qədim dünya mədəniyyətinə aid edilən tarixi-memarlıq abidələri ilə zəngindir. Amma bununla belə bu regionda beynəlxalq turizmin səviyyəsi hələ arzu olunan dərəcədə deyil.

Turizm baxımından regionun ən böyük problemi qeyri-stabilliklə yanaşı, turizmin maddi-texniki bazasının sürətli inkişafını təmin etməyə kifayət qədər vəsaitə malik olmamasıdır. İsrailin təcavüzü, İran və İraq, İraq və Küveyt münaqişələri, Türkiyədə kürd problemi, Əfqanıstan hadisələri və s. Yaxın və Orta Şərqə turist axınının xeyli azalmasına, bəzi ölkələrdə isə heçə endirilməsinə səbəb olmuşdur.

## 16.1. TÜRKİYƏ

**Ərazisi: 779,5 min kv. km. Dünyada 36-cı yer.**
**Əhalisi: 65,0 mln. nəfər (2000). Dünyada 16-cı yer.**
**Paytaxtı: Ankara (4,0 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Türk dili.**
**Din: İslam.**
**Milli pul vahidi: Türk lirəsi.**

Avrasiya qitəsində yerləşən Türkiyənin Asiya və Avropa hissələri Mərmərə dənizi, Bosfor və Dardanel boğazları vasitəsilə ayrılır. Cənubda Suriya (sərhəddin uzunluğu 822 km) və İraq (331 km), şərqdə İran (499 km), şimal-şərqdə Ermənistan (268 km), Gürcüstan (252 km) və Azərbaycan (11 km, Naxçıvan MR), şimal-qərbdə Bolqarıstan (240 km) və Yunanıstan (206 km) ilə həmsərhəddir.

Ərazisinin böyük hissəsini Kiçik Asiya və ya Anadolu adlanan yarımada tutur. Ölkənin ən uca zirvəsi Ağrı dağıdır (5165 m). Cənubda Tavr dağları yerləşir, onun ən uca zirvəsi Kaçqardır (3726 m). Türkiyə ərazisində faydalı qazıntılardan kömür, dəmir filizi, xrom və mis yataqları aşkar olunsa da, duru yanacaq (neft, təbii qaz) sərvətləri yoxdur.

Ölkənin əsas çayları: Fərat, Dəclə, Qızıl və Yaşıl İrmaq, ən iri gölləri isə Van və Tuzdur.

Ölkənin ən iri şəhərləri - İstanbul (12,0 mln.-dan artıq), Ankara, İzmir, Ədənə, Bursa, Konya, mühüm portları - İzmir, İstanbul, İzmit, İsgəndərun, Zonquldaq, Mersin, Samsun və Trabzondur. Ölkə əhalisinin 80 faizini - türklər, 15 faizini kürdlər təşkil edir, milli azlıqlardan Türkiyədə ərəblər, çərkəzlər və b. xalqlar yaşayırlar. Orta ömür müddəti: kişilər üçün - 69, qadınlar üçün - 74 ildir.

Dağlıq relyef, ölkə iqliminin müxtəlifliyinə səbəb olur. Qara dəniz sahilləri mülayim isti iqlimi, rütubətliliyi, isti yayı və sərin qışı ilə (yanvarda 7, avqustda 24 dərəcə) seçilir. Egey dənizi və Aralıq dənizi sahilləri isə, isti, quru yayı, və mülayim, yağışlı qışı olan Aralıq dənizi iqliminə malikdir. Anadolu yaylasında qış soyuq və nisbətən uzun, (yanvarda mənfi 20 dərəcəyə qədər), yay isə quru və isti olur (iyulda 30 dərəcə). Şərqi Anadoluda qışda temperatur bəzən mənfi 30 dərəcəyədək enir, tez-tez çoxlu miqdarda qar yağması müşahidə olunur. Burada yay qısa və nisbətən isti keçir.

Türkiyənin iqtisadiyyatı, mərkəzləşdirilmiş iqtisadiyyatdan Azad Bazar iqtisadiyyatına keçid dövrünü yaşamaqda davam edir. Dağ mədən (kömür, xromit, mis çıxarılması), metallurgiya, neftemalı, toxuculuq, yeyinti və tikinti sənayenin inkişaf etmiş sahələridir. Ölkə ərzaq məhsullarına tələbatını demək olar ki, tam təmin edir. Bununla yanaşı, Türkiyədə 5 mln.-a yaxın işsiz vardır. 2,5 mln.-dan artıq Türkiyə vətəndaşı xarici ölkələrdə (əsasən, Almaniya, Belçika, Yaxın Şərq ölkələri və s.) işləyir.

Türkiyənin müstəqilliyi 29 oktyabr 1923-cü ildə elan olunmuşdur. Həmin gün - Respublika yaradılması günü, Milli bayram kimi geniş qeyd olunur. İnzibati cəhətcə ölkə 75 əyalətə (vilayətə) bölünür. İcraedici hakimiyyət prezidentə (dövlət başçısı), Prezident Şurasına və Baş nazirə məxsusdur. Qanunvericilik hakimiyyətini birpalatalı parlament - Böyük Millət Məclisi həyata keçirir. Türkiyə son illərdə bütün dünya ölkələri, öncə qonşu ölkələrlə münasibətlərini inkişaf etdirir. Bu isə ölkənin beynəlxalq turizm əlaqələrinə də müsbət təsir göstərir.

* * *

Türkiyədə turistlərin toplaşdıqları əsas mərkəzlər, ölkənin paytaxtı Ankara, dünyanın böyük və gözəl şəhərlərindən biri olan İstanbul, həmçinin Aralıq, Egey və Mərmərə dənizlərinin sahillərində yerləşən kurort şəhərlərdir. Hazırda Türkiyənin Qara dəniz sahillərində müasir kurort mərkəzlərinin yaradılması üzrə intensiv iş aparılır.

**Ankara turizm mərkəzi.** Kiçik Asiyanın ən qədim şəhərlərindən biri olan Ankara VII əsrdən məlumdur. Şəhər eramızdan əvvəl Avropa və Asiyanı birləşdirən ticarət yolunun üzərində Ansira adlanan qədim yaşayış məskəninin yerində salınmışdır. Hazırda Ankara ölkənin iri sənaye - mədəni mərkəzi və əsas nəqliyyat qovşağıdır.

Şəhər şərti olaraq iki hissəyə: Qədim və Yeni Ankaraya ayrılır. Qədim şəhərdə müəyyən qədər orta əsr müsəlman şəhərinin siması saxlanılmışdır. Bu hissədə qədim məbəd və çoxlu məscidlər vardır. 1923-cü ildə şəhər, Türkiyə Respublikasının paytaxtı elan edildikdən sonra, Yeni Ankara adlanan hissə salınmış və o əsasən İkinci Dünya müharibəsindən sonra tikilmişdir.

Ankaranın görməli yerləri arasında, Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün mavzoleyi (məqbərəsi); Hett və frakiyalıların məişət və incəsənət əşyalarından ibarət zəngin kolleksiyası olan Anadolu sivilizasiyası muzeyi; xalça, toxuculuq məmulatları, saxsı qablar, milli geyimlər və musiqi alətləri kolleksiyaları ilə zəngin olan Etnoqrafiya muzeyi; VI əsrdə daxili, IX əsrdə isə xarici hasarın

içərisində tikilmiş istehkam turistlərin diqqətini cəlb edir. Paytaxtın qədim hissəsinin üzərində Ağ Qala bürcü yüksəlir. Bu bürcün yaxınlığında Ankaranın məscidi - Ələddin (XII) və Hacı Bayram məscidləri yerləşir. Paytaxta gələn turistlərdə şəhərin ətrafında yerləşən Avqust və Rom məbədlərinin qalıqları da böyük maraq doğurur. Ankaranın Qazilər meydanında isə turistlər Türkiyənin ən böyük məscidlərindən biri Xocatən məscidi ilə tanış ola bilərlər.

**İstanbul turizm mərkəzi.** Bosfor boğazının hər iki sahilində, Qızıl Buynuz buxtası və Mərmərə dənizinin şimal-şərq hissəsini əhatə edən İstanbul, nəinki Türkiyənin, Yaxın və Orta Şərqin, hətta dünyanın ən böyük və gözəl şəhərlərindən hesab olunur. Qızıl Buynuz buxtası qitəyə 10 km məsafədə daxil olmaqla, şəhəri iki yerə bölür: qədim və yeni şəhər. İstanbulun Avropa və Asiya hissələri arasında əlaqə, körpülər, katerlər və özüyeriyən bərələr vasitəsi ilə həyata keçirilir.

İstanbul, qiymətli tarixi abidələrlə zəngin olan, dünyanın ən məşhur tarixi şəhərlərindən biridir. XV əsrdə türk qoşunları tərəfindən tutulmamışdan öncə, Bizans imperiyasının paytaxtı olmuş və Konstantinopol kimi tanınmışdır. İmperator sarayının, cıdır meydanının, şəhərin qala divarlarının qalıqları, möhtəşəm, gümbəzli kilsə tikililəri (sonralar türklər belə tikililərin əksəriyyətini məscidlərə çevirmişlər), o cümlədən Bizans memarlığının gözəl nümunəsi olan Aya Sofiya məbədi, İstanbulda Bizans dövrünün gözəgəlimli tarixi-memarlıq abidələrindəndir.

Aya Sofiya məbədi 537-ci ildə tikilmiş, XV əsrdə məscidə çevrilmiş, 1935-ci ildən muzey kimi fəaliyyət göstərir. Bəyazidiyyə (1506), Süleymaniyyə (XVI əsr) və Əhmədiyyə (Göy məscid - 1616) məscidləri, türk memarlığının gözəl nümunələridir. Məscidlərin ucu şiş minarələri, şəhərə xüsusi gözəllik verir. Şəhərin görməli yerləri arasında, Yeddi Gümbəz qəsri, Qalat qülləsi (V əsr) xüsusilə seçilir. İstanbulda bir sıra muzeylər, o cümlədən türk silahlarının, sultanlara məxsus qiymətli əşyaların, tətbiqi incəsənət əsərlərinin və Məhəmməd peyğəmbərə (S) məxsus əşyaların zəngin kolleksiyası toplanmış Top Qapı muzeyi; Qədim dünya abidələri və Qədim Şərq abidələri muzeyləri fəaliyyət göstərir.

İstanbul muzeylərindən biri olan Dolma Baxça sarayında çox qiymətli və əntiq əşyalar toplanmışdır. Rus padşahı Nikolayın Sultana bəxş etdiyi və çəkisi 4500 kq olan çıl-çıraq bu əşyalardan biridir.

İstanbulun bazarları və karvansaraları da turistlərin diqqətindən yayınmır. Şəhərin və eləcə də bütün Türkiyənin ən böyük bazarı olan

Qapalı Çarşı bir neçə məhəllədə yerləşir. Bazarın içərisində olan irili-xırdalı dükanların sayı 4 minə yaxınlaşıb. Bu bazarda müxtəlif mallar təklif edən dükanlarla yanaşı kafelər, restoranlar, banklar da fəaliyyət göstərir. Türkiyənin ən böyük karvansarası da (XVII) İstanbuldadır. Əvvəllər burada eyni vaxtda 1000-dən artıq at və qatır yerləşə bilərdi. İndi bu karvansarada yerli sənətkarların emalatxanaları yerləşir.

Ankara və İstanbuldan başqa, İzmir, Bursa, Urkup, Konya, Ərzurum kimi qədim şəhərlər də turistlərin nəzər-diqqətini cəlb edir.

Əhalisinin sayına görə (2,0 mln. - 2000) Türkiyənin üçüncü şəhəri olan **İzmir** eyni zamanda Egey dənizində ən böyük portdur. 1923-cü ilə qədər İzmir Smirna adlanırdı. Qədim dünyanın məşhur şairi və mütəfəkkiri Homer bu şəhərdə anadan olmuşdur. İzmirdə turistlərin marağına səbəb olan yerlər çoxdur. Bunların içərisində hələ Makedoniyalı İskəndər dövründə tikilmiş Qala divarlarının qalıqları, Roma dövründən qalma Bazar meydanı (bu meydanda ikimərtəbəli bazilika, Poseydon və Demetrin heykəlləri yerləşir), XVIII əsrdə salınmış iki karvansara, XVI və XVII əsrlərdə tikilmiş üç məscid, həmçinin Bəhri Baba istirahət parkındakı Arxeologiya muzeyi turistlərin diqqətindən yayınmır.

İzmirdə hər il ənənəvi İzmir beynəlxalq yarmarkaları keçirilir.

**Bursada** məscidlər, sultanların məzarları, tağlı körpülər, hələ bizanslıların istifadə etdikləri mineral su mənbələri vardır. Buradakı Yaşıl Came (1424) məscidinin yaxınlığındakı Sultan Birinci Mehmetin və onun ailə üzvlərinin sərdabəsi yerləşmişdir. Məscidin tərkibində olan mədrəsədə isə Türk-İslam mədəniyyəti muzeyi fəaliyyət göstərir. Bursanın məşhur və qədim məscidləri arasında Bəyazid (1391), Ulu Came (1399) və Sultan Murad (1426) turistlərin diqqətini cəlb edən yerlərdir.

Turizm baxımından Ulu dağı da Bursanın diqqətəlayiq yerlərindən biri hesab etmək olar. Dekabrdan marta qədər bu dağın yamaclarında dağ-xizək mövsümü davam etdiyindən Bursada turizm ilboyu fəaliyyət göstərir. Şəhərin 8 km-də çoxsaylı kempinqlər salınmışdır.

**Ərzurumda** qədim istehkamın qalıqları qalmaqdadır. Üçhisar (Şərqi Anadolu) vadisində qayalarda oyma mağaralar, kilsələr və yaşayış otaqları aşkar edilmişdir.

Ərzuruma gələn turistlər iki minarəli qədim mədrəsəni görməyə can atırlar. Səlcuq Sultanı Ələddin Keyqubad tərəfindən 1253-cü ildə salınmış və orijinallığı ilə seçilən bu mədrəsə indiyədək fəaliyyət göstərir. Mədrəsənin yaxınlığında ondan da əvvəl (1179) tikilmiş məscid öz daxili gözəlliyi və səliqə-səhmanı ilə adamı valeh edir.

Türkiyə öz dəniz kurortları ilə də seçilir. **Mərmərə dənizi** sahillərinə gələnlər həm kurortlarda istirahət etmək, həm də qədim şəhərlərlə (Çanaqqala, Troya, İznik) tanış olmaq imkanı əldə edirlər.

**Egey dənizi** sahillərinə gələnlər həm kurortlarda (Quşadası, Altınqum, Bodrum və s.) istirahət etmək, həm də qədim şəhərləri (Berqam, Manis, Sardı, Çeşme, Selcuq, Pamukqala) görmək imkanı əldə edirlər.

**Aralıq dənizi** sahillərinə gələn turistlər Marmaris, Kəmər, Alanya, Antalya kurortlarında istirahət etməyə üstünlük verirlər.

Türkiyənin sahil kurortları arasında ən məşhuru Aralıq dənizi sahilində yerləşmiş **Antalyadır**. Əhalisinin sayı 1,0 mln. nəfərə yaxınlaşan Antalya beynəlxalq səviyyəli turizm mərkəzi hesab olunur. Turistlər tərəfindən sevilməsinə görə onu Məkkə, Yerusəlim (Əl-Qüds), Paris, Roma, Madrid ilə müqayisə etmək olar. Turistləri Antalyaya cəlb edən amillər içərisində suyu şəffaf olan və on km-lərlə uzanmış çınqıllı abad çimərliklər, şəhər ətrafındakı şam meşələri, zeytun bağları, yaraşıqlı otel və restoranlar, şəhərin ümumi səliqə-səhmanı, qiymətlərin nisbətən ucuz olması, şəhər ətrafındakı tarixi-memarlıq abidələri və s. üstünlük təşkil edir.

2000 il əvvəl salınmış bu şəhər təbii gözəlliyi ilə yanaşı, tarixi abidələri ilə də seçilir. Perqam padşahı İkinci Attal tərəfindən salınmış Antalya müxtəlif vaxtlarda Roma, Bizans, Səlib və Səlcuq orduları tərəfindən zəbt olunub. XIV əsrdə Türkiyə Sultanı Birinci Murad dövründə Osmanlı türkləri bu şəhərə daxil olur.

Ötən əsrin ikinci yarısından etibarən burada turizm infrastrukturu ildən ilə genişlənməyə başlayır. Şəhərdə turistləri cəlb edən yerlər arasında Qalapul adlanan qədim şəhər, qala darvazasının yaxınlığında gözətçi qülləsi, Tekeli məscidi, Mehmet Paşa Camesi, Xıdırlik mayakı, Roma imperatoru Adrianın şərəfinə salınmış "Zəfər qapısı", Səlcuq Sultanı Keyqubad tərəfindən inşa edilmiş böyük minarə seçilir.

Antalyaya gələn turistlər üçün yaxınlıqda yerləşmiş qədim şəhərlərə (Perqe, Aspend, Side, Termes və b.) maraqlı ekskursiyalar təşkil olunur.

Yuxarıda adı çəkilən turizm obyektlərdən başqa Türkiyədə turistləri maraqlandıran yüzlərcə görməli yerlər mövcuddur. Onların arasında 50 ədəd isti su mənbəyinin müalicəvi keyfiyyətini özündə sınaqdan keçirmək və qədim Çerapolis şəhərinin xarabalıqlarını görmək üçün Pamukqalaya getmək lazımdır. Burada qayalar üzərində ça-

pılmış, Likiya* şahlarının möhtəşəm qəbirləri vardır.

Qədim Efes şəhərində turistləri dünyanın yeddi möcüzəsindən biri, Gerastrat tərəfindən yandırılmış Artemida* məbədi, daha doğrusu məbədin qalıqları ilə tanışlıq gözləyir. Efes teatrı, Troyan quyusu, İsabəy məscidi yaxşı qorunub saxlanılmışdır. Ala dağda müqəddəs su bulağı olan Müqəddəs Məryəm evi və apostol** İohanın qəbri olan Müqəddəs İohan kilsəsi bütün dünya xristianları üçün müqəddəs ziyarətgahdır.

* * *

Böyük turist potensialına malik olması, Türkiyənin beynəlxalq turizminin sürətli inkişafına təkan verir. Əgər 1963-cü ildə Türkiyəyə 150 min əcnəbi turist gəlmişdirsə, 1990-cı ildə ölkə artıq 3 mln., 1998-ci ildə isə 8,9 mln. turist qəbul etmişdir. Onlardan əldə edilən gəlir 7,8 mlrd. ABŞ dolları həcmində olmuşdur.

Beynəlxalq turizmin sürətli artımı, xarici turistlərin Türkiyəyə marağının artdığını göstərir. Qeyd etmək lazımdır ki, İstanbul və Dardanel bölgəsinə gələn turistlər, Türkiyəyə gələn ümumi turistlərin 80 faizə qədərini təşkil edir. Turistlər tərəfindən daha çox gedilən ikinci bölgə, Egey dənizi sahilləridir.

Ölkənin coğrafi mövqeyinin xüsusiyyətləri, tranzit turizminin həcminə də böyük təsir göstərir. Tranzit turistlərin xeyli hissəsi Avropa ölkələrindən İstanbul vasitəsi ilə Yaxın və Uzaq Şərq ölkələrinə gedirlər. Kruiz turizminin (Qara dəniz, Aralıq dənizi) də ölkə üçün böyük əhəmiyyəti vardır.

Ötən əsrin 90-cı illərindən etibarən xarici turizm Türkiyə üçün daha mühüm iqtisadi əhəmiyyət kəsb edir. Respublika hökuməti tərəfindən xarici turizmin gələcək inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi üçün böyük vəsait sərf olunur. 2000-ci ilə olan məlumata əsasən ölkədə turistlərin qəbulu üçün 320 min. mehmanxana və digər yerləşmə vasitələrində yerlər mövcuddur. Son illərdə Türkiyədə yüksək dərəcəli otellər tikilmişdir. Təkcə turizmin təbliği məqsədi ilə, 2000-ci ildə Türkiyə hökuməti 25 mln. ABŞ dolları məbləğində vəsait ayırmışdı.

Qeyd etmək lazımdır ki, XX əsrin sonlarında kürd separatçılarının bir qədər fəallaşmış çıxışları, həmçinin ölkədə baş vermiş zəlzə-

---

* ***Likiya*** - Kiçik Asiyanın cənubunda qədim dövlət. Eramızdan əvvəl farsların, sonra yunanların, daha sonra romalıların təsiri altında olmuşdur.

* ***Artemida*** - qədim yunan mifologiyasında məhsuldarlıq ilahəsi, heyvandarlığın və ovçuluğun himayəçisi. Qədim Roma mifologiyasında isə Diana adlanmışdır.

** ***Apostol*** - yunanca nəzarətçi, gözətçi mənalarını bildirir.

lələrin xofu Qərb ölkələrinin çoxsaylı turistlərinin Türkiyəyə gəlişinin qarşısını nisbətən almışdır. Bununla əlaqədar Türkiyəyə gələn xarici turistlərin sayı 1999-cu ildə 1998-ci ilə nisbətən 2 mln. nəfər azalmışdır. Həmin ildə turistlərə göstərilən xidmətlərin dəyəri 5,2 mlrd. ABŞ dolları həcmində olduğu halda, bir il əvvəl bu rəqəm 2,6 mlrd. ABŞ dollardan artıq olmuşdur.

Türkiyə üçün əsas turizm bazarı Almaniyadır. Ölkəyə gələn əcnəbi turistlərin təxminən 40 faizi Almaniyanın payına düşür. Sonrakı yerləri Fransa (12 faiz), Avstriya (7,5 faiz), Skandinaviya (6 faiz), Benilüks ölkələri (5,5 faiz), Böyük Britaniya (5 faiz), İtaliya (4 faiz), İsveçrə (3 faiz), ABŞ (2,5 faiz) və s. tutur. Bu bölgü, son illərdə MDB ölkələrindən (ilk növbədə Rusiyadan və türk dilli dövlətlərdən) gələn turist axınının güclənməsi ilə müəyyən dəyişikliyə məruz qalmışdır.

Türkiyənin daxili turizmi təxminən 6,5 mln. turisti əhatə edir. Hər il orta hesabla 5 mln. Türkiyə vətəndaşı turizm məqsədi ilə xarici ölkələrə səfər edir. Turizmin inkişafı üzrə Türkiyə Respublikasının uğurları göz qabağındadır. Xarici turizmin inkişafı, inkişaf etməkdə olan digər ölkələr kimi Türkiyənin də qarşısında bir sıra problemlərin həlli məsələsini qoyur. Belə ki, bu cür problemlər həll olunmadan, turizm xidməti həcmini xeyli artırmaq mümkün deyildir.

## 16.2. İSRAİL

**Ərazisi: 20,7 min kv km[1].**
**Əhalisi: 6,0 mln. nəfər (2000). Dünyada 95-ci yer.**
**Paytaxtı: Yerusəlim (500 min nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - İvrit (qədim yəhudi) və ərəb dilləri.**
**Din: İudaizm və İslam.**
**Milli pul vahidi: Şekel.**

Aralıq dənizinin şərqində yerləşən İsrail şərqdə İordaniya ilə (238 km) həmsərhəddir. Fələstinlə rəsmiləşməmiş sərhəd şərqdən (Qərb sahil, 307 km) və cənub-qərbdən (Qəzzə bölməsi, 51 km) keçir. Şimalda Livan (79 km), şimal-şərqdə Suriya (76 km), cənub-qərbdə Misirlə (255 km) həmsərhəddir. Ölkə qərbdə Aralıq dənizinin suları ilə əhatə olunur. Colan yüksəklikləri (Suriya ərazisi) və Yerusəlim (Əl-Qüds) şəhərinin şərq hissəsi Ərəb-İsrail müharibəsi zamanı İsrail tərəfindən zəbt olunmuşdur.

Fiziki-coğrafi baxımdan İsraili şərti olaraq bir neçə zonaya ayırmaq olar: ölkənin ən uca zirvəsi olan Meron dağının (1208 m) yerləşdiyi Qaliley yaylası; Samara və İuda təpəlikləri; Neqev səhrası və Sahil düzənlikləri. Ölkə ərazisindən axan yeganə çay - İordandır. Əsas iri şəhərlər - Yerusəlim (500 mindən çox), Tel-Əviv (400 min) və Hayfadır (250 min). Aşdot və Hayfa eyni zamanda ən böyük portlardır.

İsrail əhalisinin əksəriyyəti yəhudilərdir (83 faiz), ərəblər əhalinin 17 faizini təşkil edir. İsraildə rəsmi dillərlə yanaşı ingilis və rus dilləri də yayılmışdır. Əhalinin 80 faizi - yəhudi (iudaizm), 17 faizi - islam, 2 faizi - xristian dininə etiqad edir. Orta ömür müddəti: kişilər üçün 76, qadınlar üçün 80 ildir.

Faydalı qazıntılardan mis, fosforit, manqan, az miqdarda təbii qaz və neft ehtiyatı var.

---

[1] БМТ Баш Мәҹлисинин 29 нојабр 1947-чи илдә гәбул етдији 181 сајлы гәтнамәсинә әсасән Исраил дәвләти үчүн 14,1 мин кв. км әрази ајрылмышдыр. Әрәб-Исраил мүһарибәләри дәврүндә әлдә етдији әразиләр һесабына Исраилин әразиси 20,7 мин кв. км олмушдур.

İsrailin iqlimi isti, quru yayı və yumşaq yağmurlu qışı olan Aralıq dənizi tipinə aiddir. Avqustun orta temperaturu, sahil rayonlarında 27, ölkənin mərkəzi hissəsində 23, şərqdə 30 dərəcədir. Yanvarın orta temperaturu həmin rayonlarda müvafiq olaraq 12 və 13 dərəcədir. Noyabrdan-martadək yağışlı dövrdür.

Dövlət quruluşuna görə İsrail - parlament respublikasıdır. İnzibati cəhətcə altı: Mərkəz, Hayfa, Yerusəlim (Əl-Qüds), Şimal, Cənub və Tel-Əviv dairələrinə bölünür. Paytaxt - Yerusəlim olsa da, Tel-Əviv faktiki olaraq, siyasi və inzibati mərkəz sayılır.

Müstəqil İsrail dövləti 14 may 1948-ci ildə təşkil olunmuşdur (öncə bu ərazi Böyük Britaniyanın Fələstin adlanan müstəmləkəsinin tərkibində olub). Milli bayram yəhudi təqvimi üzrə 5 iyarada - Müstəqillik günü kimi qeyd edilir. İcraedieci hakimiyyət prezidentə (dövlət başçısı) və Baş nazirin rəhbərlik etdiyi hökumətə məxsusdur. Qanunvericilik hakimiyyətini bir palatalı parlament (Knesset) həyata keçirir. İdarəçilikdə Baş nazirin rolu böyükdür.

İqtisadiyyatın idarə olunmasında dövlət mühüm rol oynayır. Təbii ehtiyatların az olmasına baxmayaraq, son onilliklərdə İsraildə kənd təsərrüfatı və sənaye yüksək sürətlə inkişaf edir. İqtisadi cəhətcə İsrail inkişaf etmiş ölkələr cərgəsindədir. Sənaye sahələri arasında almaz nəqqaşlığı, toxuculuq, yeyinti, kimya, hərbi və nəqliyyat avadanlığı istehsalı, yüksək texnologiyalı elektronika sahələri daha yaxşı inkişaf etmişdir. Sitrus meyvələri, tərəvəz, pambıq yetişdirilməsi, həmçinin, heyvandarlıq məhsulları kənd təsərrüfatı istehsalının əsasını təşkil edir.

* * *

Regional gərginlik, xarici valyuta daxilolmalarının əsas mənbələrindən olan turizmin inkişaf sürətinin enməsinə səbəb olur. İsrailin fərqli xüsusiyyəti, "yığcamlığıdır". Qərbdə Aralıq dənizi sahillərindən, şərqdə Ölü dənizə qədər olan məsafəni avtomobillə bir saat yarıma qət etmək olar. İsrailin daxilində avtomobil, əsas nəqliyyat vasitəsidir. Yerusəlimdən, Yəhudi təpəliklərindən Tel-Əvivə, Aralıq dənizi sahillərinə gediş, bir saatdan da az vaxta başa gəlir. İsrail daxilində ən böyük məsafə, ölkənin ən ucqar şimalında yerləşən Metulladan, ən cənubdakı Eylata qədər olan 9 saatlıq yoldur.

İsrail şəhərlərinin əksəriyyəti, ya dünyanın qədim şəhərləri sırasında, ya da qədim yaşayış məskənlərinin yerində salınanlardır.

**Tel-Əviv turizm mərkəzi.** Ölkənin sabiq paytaxtı, ticarət, maliyyə və mədəni mərkəzi olan Tel-Əviv 1919-cu ildə, dünyanın ən qədim şəhərlərindən biri olan Yaffanın ətraf qəsəbəsi kimi salınmış-

dır. Sonradan böyüyərək Yaffanın özünü də "udmuşdur". Bu şəhərdə qədim tikililərlə yanaşı, müasir binalar, təmtəraqlı otellər, son dəbdə olan mağazalar turistlərin diqqətini cəlb edir. Müasir mədəniyyət abidələri və əla çimərliklər, Tel-Əvivin ölkənin əsas turizm mərkəzinə çevrilməsinə səbəb olmuşdur.

Səlibçilər tərəfindən tikilmiş Müqəddəs Pyotr məbədi, Müqəddəs Lüdovik monastırı (bu monastır XVII əsrdən "Avropalıların Evi" kimi tanınmış və İsrailə gələn ziyarətçilərin mehmanxanası kimi fəaliyyət göstərmişdir), Mahmudiyyə məscidi (1912-ci ildə tikilib və şəhərin türk qubernatorunun adı ilə adlandırılmışdır), Paqoda-evi (1825) Tel-Əvivə gələn xarici turistlərin marağına səbəb olur.

Tel-Əvivin yeni salınmış hissəsində ölkənin ən hündür (hündürlüyü 140 m olan 36 mərtəbəli bina) binası tikilmişdir. Tel-Əviv muzeyləri ilə də tanınır. Bunların içərisində - İncəsənət, Erets-İsrael, Qədim əşyalar, Diaspora, Mum fiqurlar muzeyləri turistlərin diqqətini cəlb edən yerlərdir.

**Hayfa turizm mərkəzi.** İsrailin Aralıq dənizi sahilində əsas portu olan Hayfa Karmel dağının ətəklərində və yamaclarında salınmışdır. Dağın zirvəsindəki - "yaşıl hissədə çoxsaylı parklar vardır. Aşağı hissədə şəhərin işgüzar məhəlləsi - beynəlxalq ticarət mərkəzləri yerləşir. Şəhərin əsası e.ə. XIV əsrdə qoyulmuşdur. Ölkənin ən qədim universiteti olan "Texnion" buradadır. Xayfada xarici turistlərin diqqətini Bəhayi məbədi və bu təriqətin banisi olan Bəhayullanın məqbərəsi yerləşmişdir. XIII əsrdə salınmış Kermelitlər monastırı, Qeyri-leqal immiqrasiya muzeyi, İsrail donanmasının tarixi muzeyi, "Tikotin" adlanan Yapon incəsənəti muzeyi, Qədim əşyalar muzeyi ölkəyə gələn turistlərin nəzərindən yayınmır.

**Eylat turizm mərkəzi.** Qırmızı dənizə və Hind okeanına çıxışı olan Eylat ölkənin ən cənub şəhəri, ilboyu fəaliyyət göstərən beynəlxalq kurortudur. Son illərdə onun populyarlığı xeyli artmışdır. Təmtəraqlı otelləri və narın qumlu çimərlikləri vardır. Eylatda rüsumsuz ticarət qaydaları qoyulmuşdur. Burada su altında nadir Dəniz muzeyi fəaliyyət göstərir. Muzeydə Qırmızı dənizin balıq növləri toplanmışdır. Eylat öz ekzotik sualtı aləmi və gözəl mərcan rifləri ilə də tanınır.

**Tveriya turizm mərkəzi.** Kineret gölünün sahilində yerləşmiş bu şəhərin əsası e.ə. I əsrdə qoyulmuş və Roma imperatoru Tiberinin şərəfinə adlandırılmışdır. Qədim tikililərin qalıqları, müasir binalar və təmtəraqlı evlərlə qonşuluqda yerləşir. Tveriya dağ müalicəvi mənbələri ilə tanınır.

**Sfat turizm mərkəzi.** Bu şəhər dağ zirvəsində (dəniz səviyyəsindən 984 m yüksəkdə) yerləşir. Sfat iqlimi və Qaliley təbii bölgəsinə açılan gözəl mənzərəsi ilə şöhrət qazanmışdır. Sfatda "rəssamlar şəhərciyi" adlanan qədim məhəllə vardır.

**Yerusəlim turizm mərkəzi.** İnsanlar bu şəhəri üç dinin vətəni adlandırırlar. Əsatirə görə İsa peyğəmbər bu şəhərdə çarmıxa çəkilmişdir. İsa peyğəmbərin qəbri burada yerləşir. Şəhərin ətrafındakı qranit qaya üzərində insan ayaqlarının izini xatırladan oyuqlar vardır. Əfsanəyə görə, İsa peyğəmbər buradan qeyb olmuşdur. İsa peyğəmbərin çarmıxa çəkildiyi qaya, həmçinin xəlifə Ömər ibn Xəttabın yaşadığı kiçik həyət saxlanılır.

Deyilənlərə görə, Məhəmməd Peyğəmbərin (S) göylərə merac etdiyi qayanın üzərində Ömərin tikdirdiyi məscid, müsəlman memarlığının nadir nümunəsidir. Şəhərdən cənuba doğru uzanan yol İsa peyğəmbərin anadan olduğu Vifleyemə aparır. Həmin yerdə möhtəşəm məbəd inşa edilmişdir.

**İsrailin müqəddəs yerləri** - yəhudi, müsəlman, xristian, druz və bəhayilərin ziyarətgahlarına ayrılır. Qərbdəki divar (yəhudilər onu Ahi divarı adlandırır) - Məbəd dağını əhatə edir və Davud peyğəmbərin qəbri olan Sion (Sina) dağı, yəhudilərin əsas ziyarətgahlarıdır. Rahelin qəbri, Xevrondakı Mahbel mağarası (din rəhbərlərinin sümükləri burada dəfn edilib), Tveriyadakı Maymonid (Rambala) məqbərəsi də ibadət yerləridir.

Xristian məbədləri arasında, yuxarıda adı çəkilən "İsa peyğəmbərin qəbri" məbədini, 330-cu ildə Vifleyemdə (Beyt-Ləhmdə) tikilmiş İsa peyğəmbərin mövludu kilsəsini, Müqəddəs İosif kilsəsini, Müqəddəs Məryəm quyusunu (İsa peyğəmbərin uşaqlıq illərinin keçdiyi Nazaret şəhərindədir), Kinaret gölü yaxınlığında Tabxa və Kapernaumu, Sirrli Gecələr yerini göstərmək olar.

Ömər əl-Əqsa məscidi də daxil olan Hərəm-əş-Şərif (Məbəd dağında) İslam dininin mühüm abidələridir. Müsəlman dini rəhbərlərinin məqbərəsi (Xevronda) və Əl-Cəzar məscidi də müsəlman ziyarətgahlarındandır.

Aşağı Qalileydə yerləşən, Musa peyğəmbərin qayınatası İtronun məqbərəsi isə druzların ziyarətgahıdır.

Bəhayi dininin Ümumdünya mərkəzi Hayfada yerləşir. Bu dinin banisi Bəhaulla, Akko şəhəri yaxınlığında dəfn olunmuşdur. Hayfada digər bəhayi ziyarətgahı - Baba məqbərəsi yerləşir.

İsrail öz muzeyləri ilə də tanınır. Ölkənin üç əsas şəhərində -

Yerusəlim, Tel-Əviv və Hayfada 80-dan artıq muzey fəaliyyət göstərir.

Hayfadakı qədim incəsənət muzeyində Misir, Yunan, Roma və Bizans, həmçinin tunc dövrünə aid arxeoloji abidələr nümayiş etdirilir.

Yerusəlimdə İsrail Milli Muzeyi yerləşir. Arxeoloji eksponatlar şöbəsində, e.ə. XV əsrdən başlayaraq, Səlib yürüşlərinədək olan dövrü əhatə edən tapıntılar nümayiş etdirilir. Yerusəlimdə İkinci Dünya müharibəsinin qurbanları olan yəhudilərə "Yad vaşem" adlanan xatirə kompleksi yaradılmışdır. Bu Avropa yəhudilərinin soyqırımı və qəhrəmanlığının Milli Xatirə İnstitutudur. Buraya Muzey, Uşaq rəsmləri qalereyası, Adlar zalı, Xatirə arxivi və zalı (döşəməsində ölüm düşərgələrinin adları yazılmışdır) və s. daxildir.

Aralıq dənizi incəsənət muzeyi olan "Haarets" Tel-Əvivdə yerləşir. Bu muzey, qədim yazılar, keramika, bədii şüşə, numizmatika, etnoqrafiya, qədim dövr və folklor muzeylərini birləşdirir. Xəlifə Hişamın sarayı (VIII əsr), Sinaqoq (VI əsr), Müqəddəs Georgi monastırı İyerixonda yerləşir.

* * *

İsrail beynəlxalq turizmin inkişafı üçün çox əlverişli bir yerdir. Burada, Aralıq dənizi sahili boyu 188 km məsafədə uzanan narın qumlu çimərliklər, Ölü dənizin və Kinaret gölünün müalicəvi mənbələri, kurortlar, memarlıq abidələri, müqəddəs ziyarətgahlar, nadir mədəniyyət abidələri turistləri cəlb edir. Amma siyasi hərcmərclik turist axınının güclənməsinə mane olur. Müsəlman ölkələrindən olan turistlər İsrailə gəlməyə çəkinirlər. Ölkəyə gələnlərin 65 faizi yəhudilərdir.

Turizm İsrail iqtisadiyyatının mühüm sahəsidir. O, Ümumi Məcmui Məhsulun 3, ixracat həcminin 9,6 faizini təşkil edir. Turizm İsrail üçün xarici valyuta daxil olmalarının mühüm mənbəyidir. 50 mindən çox insan turizm sənayesində çalışır. İsrailə gələn turistlərin 90 faizi - Şimali və Cənubi Amerika və Avropadan gələnlərdir. Bu regionlarda İsrailin 15 turizm agentliyi fəaliyyət göstərir. İsrailə turist göndərən əsas ölkələr - ABŞ (30,4 faiz), Fransa (10,5 faiz) və Almaniyadır (9,5 faiz).

Ölü dənizin və Kinaret gölünün müalicəvi xüsusiyyətləri, Tveriya və Aradda xüsusi müalicələrin təşkili ilə əlaqədar, İsraildə müalicə turizmi müvəffəqiyyətlə inkişaf edir. İsrail, revmatizm, psoriazm və astma xəstəliklərindən əziyyət çəkənlərin istirahəti və müalicəsi üçün tanınmış yerdir. Müalicə işləri, ölkə üzrə müxtəlif və çoxmaraqlı

ekskursiyaların təşkili ilə birgə aparılır.

İsrailin turizm agentlikləri öz müştərilərinə Qırmızı dəniz və ya Kinaret gölündə kruiz, ekzotik safari və digər çoxsaylı maraqlı marşrutlar təklif edirlər.

İsraildə beynəlxalq turizmin artım meyli nəzərə çarpır. Ölkə əgər ötən əsrin 80-ci illərinin əvvəllərində hər il 1 mln. turist qəbul edirdisə, 90-cı illərin sonunda hər il 2,5 mln. turisti qəbul etmişdir. İsrailə gələn qonaqların strukturunda, öz qohumları və dostları ilə görüşmək məqsədi ilə səyahət edənlər çoxluq təşkil edir. Məsələn, ölkəyə gələn yəhudilərin 40 faizə yaxını, digər millətlərdən olan turistlərin 20 faizi bu məqsədlə səfər edirlər. İsrail mütəxəssislərinin rəyinə görə əcnəbi qonaqların 20 faizə qədəri, ölkəyə ziyarət və digər dini işlərlə əlaqədar gəlirlər. ÜTT-nin məlumatlarına əsasən 1999-cu ildə İsrailə gələn xarici turistlərdən 3 mlrd. ABŞ dolları həcmində gəlir əldə edilmişdir. Qeyd edək ki, ölkədə turistlərin qəbulu üçün irili-xırdalı 300-dən artıq otel var. Bu otellərdə və digər yerləşmə vasitələrində (turist bazaları, kempinqlər, gənclər yataqxanası, kibbutslar, ziyarətgah evləri və s.) olan yerlərin sayı 116 minə yaxındır.

Demək olar ki, ölkə əhalisinin yarısı, xarici turist səfərlərində iştirak edirlər. 2000-ci ildə 3 mln. artıq İsrail vətəndaşı xarici ölkələrdə səfərlərdə olmuşlar.

## 16.3. İRAN*

| |
|---|
| **Ərazisi: 1,6 mln. kv. km. Dünyada 17-ci yer.**<br>**Əhalisi: 66,0 mln. nəfər (2000). Dünyada 15-ci yer.**<br>**Paytaxtı: Tehran (12,0 mln. nəfər - 2000).**<br>**Dövlət (rəsmi) dili: Dövlət dili - Fars dili.**<br>**Din: İslam.**<br>**Milli pul vahidi: Rial.** |

Orta Şərqdə yerləşmiş İran İslam Respublikası qərbdə İraq (1458 km) və Türkiyə (499 km), şimalda Türkmənistan (992 km), Azərbaycan (611 km) və Ermənistan (35 km), şərqdə Əfqanıstan (936 km) və Pakistan (909 km) ilə həmsərhəddir. Cənubda Fars, Oman körfəzləri və Hörmüz boğazının, şimalda isə Xəzər dənizinin suları ilə əhatə olunub.

Ölkə ərazisinin böyük hissəsini İran yaylası tutur. Dağlar və hündür yaylalar ərazinin təqribən 75 faizini təşkil edir. Şimalda Xəzər sahillərinin geniş olmayan düzənlikləri arxasında Elburs (Əlbors) dağları uzanır. İranın ən uca zirvəsi olan Dəmavənd (mənası püskürən, tüstüləyən qala) vulkanı (5604 m) burada yerləşir. Ölkənin şimal-şərqində isə orta hündürlüklü Kopetdağ massivi yerləşib. İranın qərb sərhədləri boyu, şimal-qərbdən, cənub-şərqə doğru Zaqros dağ sistemi uzanır. Xuzestan adlanan düzənlik də qərbdədir. Ölkənin mərkəzi hissəsində Dəşte-Kəvir və Dəşte-Lut səhraları yerləşir.

İran faydalı qazıntılarla zəngin ölkədir. Bunlar içərisində mineral enerji sərvətləri, xüsusilə neft və təbii qaz dünya əhəmiyyətlidir. Neft və təbii qazdan başqa ölkədə kömür, dəmir və mis filizləri, digər əlvan metallar (qurğuşun, qalay, civə, sürmə və s.) çıxarılır. İran tikinti sənayesinə lazım olan xammal və yarımqiymətli daşlarla (firuzə, əqiq, yaşma və b.) zəngin ölkə hesab olunur.

İranda iri çaylar demək olar ki, yoxdur. Çayların əksəriyyəti ölkənin şimalında Elburs dağ sistemi ilə Xəzər dənizi arasında qalan ensiz zolaqda, ölkənin qərbində və cənub-qərbindədir. Ölkənin ən böyük çayları Harun və Səfidruddur. İranda yerüstü sulardan başqa təsərrüfatın mühüm sahələrindən olan süni suvarmada və əhalinin

* İran qədim fars dilində ariya, arxiya sözlərinin dəyişdirilmiş forması olub, nəcib, əsl nəcabətli mənalarını bildirib. Keçmişlərdə yüksək vəzifəli və çox hörmətli şəxslərə verilmiş bu ad sonradan bütün ölkəyə şamil edilmişdi.

məişətində həlledici rol oynayan yeraltı suların əhəmiyyəti də böyükdür. Belə sular kəhrizlər vasitəsilə yer səthinə çıxarılır.

Ölkənin əksər hissəsinin iqlimi subtropik kontinental, Xəzər dənizi sahilində rütubətli subtropik, Fars və Oman körfəzlərinin sahillərində isə tropikdir. İranın əksər yerlərində yay ayları çox isti və quraq, qış soyuq və şaxtalı keçir. İranın şimal-qərbindən cənub-şərqinə tərəf orta illik yağıntılar azalır. Məsələn, Xəzərsahili ovalığa bir ildə orta hesabla 2000 mm yağıntı düşdüyü halda, mərkəz və şərq bölgələrinə 100-50 mm-ə qədər yağış yağır. Yanvarın orta temperaturu, şimalda mənfi 2-dən, müsbət 1, cənubda isə müsbət 15-17 dərəcə olur. Ən ağır iqlim şəraiti ölkənin cənub-qərbindədir. Burada yayda temperatur 50 dərəcəyə çatır.

Coğrafi mövqe, relyefin müxtəlif formaları, iqlim və torpaq əmələgəlmə şəraitinin fərqli cəhətləri İranda rəngarəng floranın formalaşmasına səbəb olmuşdur. Ölkənin bitki örtüyünün tərkibi müxtəlif olsa da, geniş əraziləri əhatə edən səhra və quru çöllərin kserofit (istiyə və susuzluğa dözən bitkilər) bitkiləri üstünlük təşkil edir. Meşələrə dağ yamaclarında rast gəlmək olar.

İran, əhalisi sürətlə artan İslam ölkəsidir. Təbii artım ildə 2,0 faizdən aşağı düşmür. Təbii artımın yüksək olması erkən nigahlar, tibbi xidmətin yaxşılaşdırılması və s. səbəblərlə izah olunur. Ölkə əhalisinin beşdə-dörd hissəsi şimal və şimal-qərb əyalətlərində cəmləşmişdir. İran çoxmillətli dövlətdir. Ölkə əhalisinin 45 faizini farslar, 30 faizini azərbaycanlılar, 8 faizini kürdlər təşkil edir. İranda azlıqda qalan xalqların və tayfaların sayı ya dəqiq verilmir, ya da onların əksəriyyəti İrandilli xalqlar kimi verilir. Fars və türkdilli xalqlardan başqa İranda ərəblər, ermənilər, assuriyalılar, çərkəzlər, brahuilər və b. xalqların nümayəndələri yaşayır.

Əhalinin 95 faizi şiə, 4 faizi sünnüdür. Az miqdarda atəşpərəstlər və xristianlar da vardır. Orta ömür müddəti: kişilər üçün 66, qadınlar üçün 68 ildir. Məşhəd və Qum şəhərlərinin məscidləri dünya müsəlmanlarının ziyarət etdikləri müqəddəs yerlərdir. Ölkədə yaşayanların üçdə-iki hissəsini şəhər əhalisi təşkil edir. İsfahan (2,0 mln.), Təbriz (1,9 mln.), Məşhəd (1,5 mln.), Şiraz (1,0 mln.) və Həmadan (700 min) ölkənin böyük şəhərləridir.

Mütəxəssislərin fikrincə, müasir İranın ərazisi qədim məskunlaşma ocaqlarından olub. 1979-cu ilin 11 fevralında İranda o vaxta qədər mövcud olmuş şah rejimi devrilir. Həmin vaxtdan 11 fevral Milli bayram - İnqilab günü kimi geniş qeyd olunur. 1979-cu ilin aprelində ölkə İran İslam Respublikası adını, dekabrında isə yeni konsti-

tusiyasını qəbul edir. Konstitusiyaya görə fəqih (ali dini rəhbər) seçilmiş şəxs ölkəyə ümumi rəhbərlik edir. Qanunverici hakimiyyəti birpalatalı parlament – İslam Komitəsi Şurası (Məclis) həyata keçirir. İranın prezidenti ümumxalq seçkiləri yolu ilə 4 il müddətinə seçilir. Prezident eyni zamanda Nazirlər kabinetinin işinə də rəhbərlik edir.

Neftçıxarma və neftqaz emalı ölkə iqtisadiyyatının mühüm sahələridir. İran hökuməti bu sahələrdən əldə etdiyi gəlir hesabına digər sənaye sahələrinin, ilk növbədə maşınqayırma, metallurgiya, dəzgahqayırma və b. inkişaf etdirir. İran ənənəvi milli sənətkarlığı ilə seçilən ölkələrdən biridir. Xalçaçılığın tarixi çox qədimdir. Təbriz, Məşhəd, İsfahan xalçaları bədiiliyi, zərifliyi, rənglərinin sabitliyi ilə dünya şöhrəti qazanmışdır. Ən qədim Təbriz xalçaları ABŞ, Böyük Britaniya, Fransa muzeylərində və şəxsi kolleksiyalarda saxlanılır. Bundan başqa, sənətkarlar tərəfindən qızıl, gümüş və mis məmulatlarına mina ilə bəzək vurmaq işi, həmçinin milli tikmələr yaxşı inkişaf etmişdir. İrana gələn turistlər böyük məmnuniyyətlə yerli sənətkarların hazırladıqları məmulatları alırlar.

İran tarixən kənd təsərrüfat ölkəsi kimi tanınıb. Amma bu sahənin inkişafına sədd çəkən ən mühüm amil suvarılma üçün suyun çatışmaması və məhsuldar torpaqların azlığı olub. İran, xurması, kişmişi, püstəsi, badamı ilə bütün dünyada tanınır.

* * *

İranda turistlərin toplaşdıqları əsas mərkəzlər – Tehran, Təbriz, İsfahan, Şiraz, Məşhəd və Həmədan şəhərləridir.

**Tehran turizm mərkəzi.** IX əsrdə (başqa məlumatlara görə XI əsr) İranın qədim paytaxtı Rey şəhəri yaxınlığında salınmışdır. 1785-ci ildən İranın paytaxtıdır. 1943-cü ildə Tehranda üç müttəfiq dövlətin (SSRİ, ABŞ və Böyük Britaniya) hökumət başçılarının konfransı keçirilmişdir.

Şəhərin tarixi-arxeoloji abidələrindən Gülüstan sarayı (XVIII əsr); İmam məscidi; Sapah Salar məscidi; Ayətulla Xomeyninin dəfn olunduğu Apiyabad; Mərmər saray; hündürlüyü 45 m olan Şəhidlər qülləsi; qiymətli əşya, daş və minerallardan hazırlanmış nadir incəsənət əsərləri muzeyi; qədim Fars incəsənətinə dair arxeoloji eksponatlar toplanmış Bastan muzeyi, Fars imperiyası dövrünün incəsənət əşyaları olan Neqerestan muzeyi, Xalça muzeyi turistlərin diqqətini cəlb edir.

Tehrandan şərqdə öz mineral mənbələri ilə tanınmış Geramsar kurortu yerləşir. Tehranın mərkəzində tikilmiş Hilton otel (1962) müasir İran memarlığının diqqətəlayiq nümunələrindəndir.

**Təbriz turizm mərkəzi.** Təbriz Cənubi Azərbaycanın tarixi, siyasi, mədəni və iqtisadi mərkəzidir. Təbriz hələ eramızdan əvvəl şəhər-qala olmuşdur. Orta əsrlərdə Təbriz Yaxın və Orta Şərqin ən böyük sənətkarlıq, ticarət və mədəniyyət mərkəzlərindən biri olub.

Şəhər tarixi-mədəniyyət abidələri ilə zəngindir. Təbriz-Şərq miniatür mərkəzi kimi tanınır. Şəhərdə 200-ə qədər məscid, qədim Təbriz bazarı (İranın ən qədim, iri və gözəl bazarlarından biri) fəaliyyət göstərir. Digər görməli yerlər arasında Göy məscid (XIII əsr) və məbədi (XIV əsr) qeyd etmək olar. Təbriz yaxınlığında məşhur Əli Şah məscid-memarlıq kompleksi, Ərk qalası, Şairlər qəbiristanı yerləşir. Təbriz Xatib Təbrizi, Qətran Təbrizi (XI əsr), Şəms Təbrizi (XIII əsr), Əssar Təbrizi (XIV əsr) və Şəhriyar kimi şair və alimlərin vətənidir.

**İsfahan turizm mərkəzi.** Aspadana adı altında tanınan bu qədim şəhər barədə hələ antik dövr müəlliflərinin, məsələn, Ptolemeyin əsərlərində bəhs edilir. Orta əsrlərdə İsfahan Yaxın və Orta Şərqin iri sənətkarlıq və ticarət mərkəzlərindən biri, 1597-ci ildən 1785-ci ilədək isə Səfəvilər dövlətinin paytaxtı olmuşdur.

Qızıl güllər şəhəri adını qazanmış İsfahanın qədim məhəllələrində Çəhar-bağ (dörd bağ) magistralının şimalında çoxlu memarlıq abidələri qalmışdır. Bunlardan Cümə məscidi, Çehel doxtərən (Qırx qız, XII əsr), İmamzadə Cəfər (XII əsr) türbəsi məşhurdur. Səfəvilər dövründə İsfahan genişləndirilmiş, şəhərin mərkəzində zəngin, bəzəkli binalarla əhatə olunan Şah meydanı (Meydane-Şah) salınmışdır. Bunlardan Şah məscidi (1612-1630), Şeyx Lütfulla məscidi (1603-1618), Ali Qapı sarayı (XV əsr), divar rəsmləri və güzgü mozaikalarla bəzədilmiş Çehel Sütün sarayı (Qırx Sütün sarayı - 1590) dövrümüzədək qalmışdır. İsfahanın 40 km-də Ariyan adlanan yeni sənaye şəhəri salınmışdır. İsfahan həmçinin orta əsr miniatürləri ilə turistlərin diqqətini cəlb edir.

**Məşhəd turizm mərkəzi.** Məşhəd şəhəri haqqında ilk məlumat X əsrə aid edilir. IX əsrdə Məşhədin yerində Sənabad kəndi olmuşdur. 1736-1747-ci illərdə Nadirşah dövlətinin paytaxtı olub. Məşhədin şimali-şərq hissəsində 8-ci şiə İmamı Rzanın qəbri ətrafında dini tikililərdən ibarət "Müqəddəs məhəllə" salınmışdır. Müqəddəs günlərdə "Müqəddəs məhəllədə" olan və dini ritualları yerinə yetirən müsəlmanlar Məşhədi tituluna layiq görülür. "Müqəddəs məhəllədə" eyvanlı həyətlər, beş mədrəsə, iki karvansara, Gövhərşah məscidi (1405-1418), Şah Məscidi (1451), Nadirşahın məqbərəsi və onun at üstündə tuncdan heykəli yerləşir. Qədim Tus şəhərinin xarabalıqları

Məşhəddən 25 km aralıdır. Burada X əsrə aid körpü, Firdovsinin qəbri və s. qalmışdır. Məşhəd İranın xalçaçılıq mərkəzlərindən biridir.

**Şiraz turizm mərkəzi.** Şiraz şəhərinin əsasını ərəblər qoymuş və o X-XI əsrlərdə İranın paytaxtı olmuşdur. Orta əsrlərdə Şiraz öz məşhur kitabxanası və miniatür məktəbi ilə şöhrət qazanmışdır. Şəhərdən 50 km şimal-şərqdə qədim Persepolis (farsca adı Təxti-Cəmşidi) şəhərinin qalıqları yerləşir. Şirazın turistləri maraqlandıran memarlıq abidələrindən - Qala divarları (XVII əsr) diqqəti cəlb edir. Şəhərdə tətbiqi sənət əsərləri toplanmış Fars muzeyi fəaliyyət göstərir. Şiraz şəhərini İran mədəniyyətinin məbədi hesab edirlər. Şirazda anadan olmuş fars şairləri Sədi və Hafizin məqbərələri buradadır. Şəhərdə həm daxili, həm də xarici turistləri maraqlandıran tarixi-memarlıq abidələri, muzey və məscidlər çoxdur.

**Həmədan turizm mərkəzi.** Həmədan şəhərinin qədim adı Ekbatandır. Şəhər eramızdan əvvəl XI əsrdən məlumdur. Eramızdan əvvəl VII-VI əsrlərdə o qədim Midiya dövlətinin paytaxtı, sonradan Əhəmənilər dövlət rəhbərlərinin yay iqamətgahı olmuşdur. Həmədanın memarlıq abidələrindən ən əhəmiyyətlisi "Əməvilər günbəzi" adlanan türbədir (1309-1316). Şəhərə gələn turistləri həmçinin on iki üzlü, prizma şəkilli gövdəsi və yeraltı sərdabəsi olan iki qülləvari türbə - Qurban bürcü və Hud imamzadəsi (hər ikisi XIV əsr), şair Baba Tahirin türbəsi (XIV əsr), İbn Sinanın türbəsi və heykəli, habelə Kamal-əl-Mülkün sərdabəsi maraqlandırır.

* * *

Müasir İran qədim mədəniyyətlərin qovuşduğu nadir bölgədir. Bu qorunub saxlanılan tarixi-memarlıq abidələrdə, qədim şəhərlərin xarabalıqlarında özünü büruzə verir. Ona görə də İran İslam Respublikası dərketmə turizmi üçün xüsusi maraq doğurur. İran həmçinin İslam dininin mərkəzlərindən biridir.

İranda istirahət üçün də yerlər az deyil. Xəzər dənizi sahillərində yerləşən Ramser, Çalus, Babolser və b. kurortlar, həm daxili, həm də xarici turistləri cəlb edir. Fars körfəzində yerləşən və Azad İqtisadi Zona funksiyasını yerinə yetirən Kiş adası da turistləri maraqlandıran yerlərdən biridir. Bu adada iri turizm mərkəzi yaradılmışdır.

Hind okeanı körfəzlərinə və Xəzər dənizinə çıxışın, çoxsaylı mineral su mənbələrinin olması, məsələn Semnan şəhərindən şimalda Masesta tipli kükürdlü sular, Dəmavənd dağları zonasında öz tərkibinə görə Narzan tipli sulara oxşar olan bulaqların olması; Bəndər Abbas şəhərindən şimalda ehtiyatı böyük olan müxtəlif mineral su mənbələri, dibində müalicəvi palçıq layı olan Rezaye gölü, Mazəndə-

rən bölgəsi və b. yerlər İranda turizm sənayesinin inkişafına təkan verə biləcək amillərdir. Amma əfsuslar olsun ki, bu təbii-tarixi amillərdən beynəlxalq turizmi inkişaf etdirmək üçün lazımi səviyyədə istifadə olunmur.

İran statistikasının verdiyi məlumatlara görə ölkəyə hər il orta hesabla 1,2-1,3 mln. nəfər xarici turist gəlir. 1999-cu ildə İran 1,3 mln. nəfər xarici turisti qəbul edib. Turizm fəaliyyətindən orta illik daxil olmalar isə 550-600 mln. ABŞ dolları həcmindədir. O da qeyd olunmalıdır ki, İran İslam Respublikasında turistləri qəbul etmək üçün 47 minə yaxın mehmanxana yeri var (1999). Təqribən hər il 1,5 mln. nəfər İran vətəndaşı xarici ölkələrə səfər edir.

## 16.4. SƏUDİYYƏ ƏRƏBİSTANI[1]

| |
|---|
| **Ərazisi: 2,2 mln. kv. km. Dünyada 13-cü yer.**<br>**Əhalisi: 20,0 mln. nəfər (2000). Dünyada 50-ci yer.**<br>**Paytaxtı: Ər-Riyad (2,1 mln. nəfər - 2000).**<br>**Dövlət (rəsmi) dili: Rəsmi dil - Ərəb dili.**<br>**Din: İslam.**<br>**Milli pul vahidi: Səudiyyə rialı.** |

Cənub-Qərbi Asiyada yerləşmiş Səudiyyə Ərəbistanı məlikliyi (krallığı) Ərəbistan yarımadasının təqribən 80 faizini tutur. Qırmızı dənizdə və Fars körfəzində yerləşmiş bir neçə ada da bu dövlətin tərkibinə daxildir. Ölkə şimalda İraq (814 km), İordaniya (728 km) və Küveyt (222 km), cənub-şərqdə Oman (676 km) və Birləşmiş Ərəb Əmirlikləri (457 km), şərqdə Qətər (60 km), cənubda Yəmənlə (1458 km) həmsərhəddir. Ölkə qərbdə Qırmızı dənizin, şərqdə Fars körfəzinin suları ilə əhatə olunub.

Ölkə ərazisinin böyük hissəsi səhralardan ibarətdir. Sahil boyu geniş olmayan ovalıqlar yerləşir. Cənub-qərbdə o qədər də uzun olmayan dağ silsiləsindəki Cəbəl Səud dağı (3353 m) ölkənin ən uca zirvəsidir. Şimalda Suriya səhrasının bir hissəsi, cənub-şərqdə isə Rub-əl Xali, Böyük və Kiçik Nəfud səhraları yerləşir. Ölkədə demək olar ki, səth su ehtiyatı yoxdur. Çaylar ancaq yağışlardan sonra yaranır, quraqlıq mövsümdə isə tamamilə quruyurlar. Ölkə ərazisində zəngin neft və təbii qaz, həmçinin dəmir filizi, mis, uran və qızıl ehtiyatları vardır.

Ölkənin iqlimi isti, quru, şimalda subtropik, cənubda tropikdir. Qırmızı dəniz sahilləri, Yer kürəsinin ən isti və bürkülü yerlərindəndir. Burada temperatur heç vaxt 15 dərəcədən aşağı enmir, tez-tez isə 45-50 dərəcəyə çatır. Daxili rayonların iqlimi quru və kontinentaldır (orta temperatur iyunda 30, yanvarda mənfi 10 dərəcə olur). Rub-əl Xali səhrasında temperaturu 50 dərəcəyə qədər yüksəldən, isti Xəmsin və Səmum küləkləri əsir.

Ciddə (1,6 mln.), Məkkə (1,5 mln.), Mədinə (600 min), ət-Taif

[1] Bu mövzu üzərində işləyərkən A.Mehdiyevin 2001-ci ilin noyabrında "Azərbaycan" qəzetinin bir neçə sayında nəşr olunmuş "Müqəddəs torpağın bu günü" məqalələrindən də istifadə olunmuşdur.

(250 min.) ölkənin ən iri şəhərləri, Ciddə, Ras-Tənnurə və Cübeyl isə ən iri portlardır. Əhalinin böyük əksəriyyətini həm yerli, həm də gəlmə ərəblər təşkil edir. Səudiyyə Ərəbistanında digər müsəlman və Avropa ölkələrindən gəlmiş mütəxəssislər də yaşayır. Orta ömür müddəti: kişilər üçün 67, qadınlar üçün 70 ildir.

Ölkənin rəsmi adı - Səudiyyə Ərəbistanı Məlikliyidir. Səudiyyə Ərəbistanı nadir dövlət quruluşuna malik ölkələrdən biridir. O, teokratik (dini) monarxiya şəklində idarə olunur. İnzibati cəhətcə ölkə 13 mahala bölünür. 23 sentyabr 1932-ci ildə Səudiyyə Ərəbistanı müstəqil dövlət elan olunmuşdur. Həmin gün - Milli bayram kimi qeyd olunur.

On dörd əsrə yaxındır ki, dünya müsəlmanları namaz qılarkən sifətlərini Məkkə istiqamətinə yönəldirlər. Xatırladaq ki, Səudiyyə Ərəbistanının ictimai həyatında şəriət qanunları hökm sürür. İctimai davranış qaydaları sərtdir, hamı, istər məlikliyin vətəndaşları, istərsə də ölkəyə gələn əcnəbilər qüvvədə olan qayda-qanunlara əməl etməlidir. Dövlətin və hökumətin başçısı - Məlikdir. Səudiyyə Ərəbistanının rəhbərliyi İslamın və onun Müqəddəs yerlərinin qorunmasından irəli gələn tarixi məsuliyyəti yaxşı dərk edir. Ölkə məliki Fəhd ibn Əbdüləziz əl Səud hələ 1986-cı ildə Əlahəzrət titulundan rəsmən imtina etmiş və iki müqəddəs ocağın (Məkkə və Mədinədəki məscidlər) xidmətçisi titulunu qəbul etmişdir.

Ölkə iqtisadiyyatının əsasını neftçıxarma və neftemalı sənayesi təşkil edir. Səudiyyə Ərəbistanı neft ixrac edən iri ölkə olduğundan OPEK* də sözü keçən dövlətlərdən biridir. 2000-ci ildə ölkədə bir sutkada 7,1 mln. barrel (ildə 450 mln. t) neft istehsal olunub və "qara qızıl" hasilatına görə dünyada birinci yeri tutub. Ölkədə neft ehtiyatı 42 mlrd. tona yaxındır (dünya ehtiyatının 25 faizi). Bu göstəriciyə görə də Səudiyyə Ərəbistanı dünyada birincidir. 1939-cu ildən dünya bazarına neft çıxarır. Səudiyyə Ərəbistanı başqa bir sahədə də dünyada qabaqcıl yer tutur. Bu ölkədə su problemini həll etmək üçün şirinləşdirilmiş dəniz suyundan geniş istifadə edilir. Ölkədə fəaliyyət göstərən 29 sutəmizləyici stansiya, həm də elektrik enerjisi istehsal edir. Dünya üzrə duzdan təmizlənmiş dəniz suyunun 40 faizi Səudiyyə Ərəbistanının payına düşür.

Neftdən gələn gəlir hesabına sənayenin və kənd təsərrüfatının

---

* ***OPEK*** (neft ixrac edən ölkələr təşkilatı sözlərinin ingilis dilində abbreviaturası) - 1960-cı ildə yaranmışdır. Əsas məqsədi təşkilata daxil olan ölkələrin iqtisadi inkişafını sürətləndirmək, onları beynəlxalq inhisarlardan müdafiə etmək, dünya bazarında neftin qiymətini tənzimləməkdən ibarətdir.

müxtəlif sahələri inkişaf etdirilir. Buğda, arpa, sitrus meyvələri, xurma (istehsalına görə dünyada ikinci yer) əsas kənd təsərrüfatı məhsullarıdır. Qoyunçuluq və dəvəçilik inkişaf etdirilir. Ölkə özünü əsas ərzaq məhsulları ilə təmin edir.

* * *

Səudiyyə Ərəbistanında turistlərin toplaşdıqları əsas mərkəzlər - Ər-Riyad, Məkkə, Mədinə və Ciddə şəhərləridir .

**Ər-Riyad turizm mərkəzi.** Paytaxtın görməli yerləri arasında Məlikin təm-təraqlı sarayı, 4 min nəfər tutumu olan Came məscidini, Palçıq qalanı, cins Ərəb atları saxlanılan məşhur Məlik tövləsini göstərmək olar. Şəhərin yaxınlığında ölkənin əvvəlki mərkəzi Dari şəhərinin qalıqları saxlanılır.

1978-ci ildə Ər-Riyadda ilk arxeologiya və etnoqrafiya muzeyi istifadəyə verilmişdir. Muzeyin eksponatları arasında, Şərq əyalətində tapılmış, e.ə. IV minilliyə aid nadir eksponatlar nümayiş etdirilir. Ər-Riyaddan bir qədər aralıda, ölkə Məlikinin yay paytaxtı və məşhur kurort olan Ət-Taif şəhəri yerləşir. Qeyri-müsəlmanlar üçün bu şəhərə giriş qadağandır.

**Məkkə turizm mərkəzi.** Məkkə haqqında ilk məlumat Ptolemeyin əsərlərində (II əsr) Makoraba ada ilə qeyd olunmuşdur. Bu şəhər eramızın IV əsrindən məşhurlaşmağa başlayır. Eramızın 570-ci ilində İslam dininin banisi Məhəmməd Peyğəmbər (S) burada doğulmuşdur. O, təqribən 40 yaşından İslam ideyalarını təbliğ etməyə başlayır. Müasir Məkkə bütün dünya müsəlmanlarının müqəddəs ziyarət mərkəzidir. 630-cu ildə Mədinədən Məkkəyə hicrət edən Məhəmməd Peyğəmbər (S) Kəbə məscidini bütlərdən təmizlətdirib, oranı müsəlman dünyasının ən müqəddəs məscidi elan edir. Müqəddəs Kəbə sonradan tikilmiş möhtəşəm Əl-Haram məscidinin içərisində yerləşir. 309 min kv. m sahəni əhatə edən məscidin hər birinin hündürlüyü 95 m olan 9 minarəsi var. Bu məsciddə eyni zamanda 700 min nəfər namaz qıla bilər.

Məkkə qədim olduğu qədər də müasir şəhərdir. Çağdaş memarlıq burada da öz sözünü deyib. Bütövlükdə şəhər, xüsusilə də Kəbə məscidi dövlət rəhbərliyinin daima qayğı ilə əhatə olunduğunu biruzə verir. Ən qədim zamanlarda göydən enmiş "Qara daş" Kəbədə saxlanılır. Şəhərdəki, müqəddəs Zəm-zəm bulağının suyu bitib-tükənmək bilmir. Bu sudan yalnız Kəbə məscidində və Mədinədəki Peyğəmbər məscidində içmək və dəstəmaz almaq üçün istifadə olunur. Şəhərdə həmin suyu butılkalara dolduran müəssisə də var. Hər gün Məkkədən Mədinəyə 80 ton su daşınır. Həcc mövsümündə bu rəqəm 120 tona

çatır. Ümumdünya İslam Cəmiyyətinin və İslam Konfransı Təşkilatlarının mənzil-qərargahları Məkkə şəhərindədir.

**Mədinə turizm mərkəzi.** Hicrətdən əvvəl bu şəhərin adı Yəsrib olub. Məhəmməd Peyğəmbər (S) buraya təşrif gətirəndən sonra müsəlmanlar onu Mədinə-ən-Nəbi (Peyğəmbər şəhəri), qısaca olaraq Mədinə adlandırmağa başladılar. Şəhərdəki Peyğəmbər məscidi Kəbə məscidi kimi əzəməti ilə insanı heyran edir. Hər iki məscid zaman-zaman genişləndirilmiş, ziyarətə gələnlərin sayı artdıqca məscidlərin sahəsi də genişlənmişdi. Hər iki məscid nadir memarlıq inciləridir. Qurban bayramı dövründə Məkkə və Mədinə şəhərlərini ziyarət edən və müvafiq dini ritualları yerinə yetirən zəvvarlar * Hacı titulu qazanırlar.

Məlikliyin rəhbərliyi Qurani-Kərimin nəşri və müsəlmanlar arasında yayılması işlərinə də xüsusi diqqət göstərir. Bu məqsədlə 1984-cü ildə Mədinədə Məlik Fəhd adına nəşriyyat-poliqrafiya kompleksi fəaliyyətə başlamışdır. Ən müasir texnologiya ilə təchiz olunmuş kompleksdə Qurani-Kərimin müxtəlif ölçülərdə nüsxələri çap olunur, mətni audokassetlərə köçürülür və bütün dünyanın müsəlman ölkələrinə yayılır. Kompleksdə çalışan 1800 nəfərin 800-ü məhz hazır məhsulun keyfiyyətinə nəzarət edir. Bu nəşriyyat-poliqrafiya kompleksinin illik layihə gücü 30 mln. nüsxə kitab çap etməkdir.

**Ciddə turizm mərkəzi.** Məkkənin 75 km-də yerləşmiş Ciddə əhalisinin sayına və iqtisadi əhəmiyyətinə görə Səudiyyə Ərəbistanının ikinci şəhəridir. Təqribən 30 km məsafədə Qırmızı dənizin sahilində yerləşmiş Ciddə iki hissədən: yeni və qədim şəhərlərdən ibarətdir. Ciddədə ölkənin ilk məliki Əbdül Əziz adına universitet fəaliyyət göstərir.

Müsəlmanlar üçün bir sıra müqəddəs yerlərin, o cümlədən Həvvanın qəbri Ciddə şəhəri yaxınlığındadır. Ciddə ölkənin xarici turizm mərkəzidir. Zəvvarların əsas hissəsi, ölkəyə Ciddə vasitəsilə daxil olurlar. Bu şəhərdəki iri beynəlxalq aeroport və dəniz portu hər il iki milyona yaxın zəvvara xidmət göstərir. Qeyri-müsəlmanların ölkəyə gəlişi çox azdır. Bu müsəlman olmayanların Məkkə və Mədinə şəhərlərinə getməsinin qadağan edilməsi ilə izah olunur.

Dəhran, Ras-Tənnurə və Cübeyl şəhərləri də əcnəbi turistlərin diqqətini cəlb edir. Bu şəhərlərdə kustar sənətkarlıq yaxşı inkişaf etmişdir. Ölkənin iri iqtisadi zonası olan Cübeyl şəhərindəki nəhəng neftkimya kombinatı öz məhsullarını dünyanın 90-dan artıq ölkəsinə

---

* ***Zəvvarlıq*** – müqəddəs dini yerlərə edilən səfərlər.

göndərir.

Qeyd edək ki, Səudiyyə Ərəbistanında istirahət üçün təbii şərait qənaətbəxş deyil, tarixi-memarlıq abidələri azdır. Bütün bunlar onun turizm baxımından ən inkişaf etmiş Ərəb ölkələri sırasına daxil olmasına mane olmamışdır.

* * *

Səudiyyə Ərəbistanında xarici turizm demək olar ki, sırf ziyarət səciyyəlidir. Həcc dövründə hər il Məkkə və Mədinə şəhərinə 3,0-3,5 mln.-dan artıq zəvvar müsəlman gəlir. Son illərdə ziyarət məqsədi ilə ölkəyə gələn turistlərin sayı artır. 1995-ci ildə ölkəyə 3,3, 1996-cı ildə - 3,46, 1997-ci ildə - 3,59, 1998-ci ildə - 3,7 mln. xarici qonaq gəlmişdir. Ziyarət turizmindən daxil olmalar 1,5 mlrd. ABŞ dolları təşkil edir.

Səudiyyə Ərəbistanında Həcc ziyarətinin təşkili ilə məşğul olan, ziyarətgahların sanitar normalarına nəzarət edən xüsusi nazirlik yaradılmışdır. Bu nazirliyi ölkənin dini turizm agentliyi də adlandırmaq olar. Qeyd olunmalıdır ki, Həcc ziyarəti o qədər də ucuz başa gəlmir. Nazirlik bu ölkəyə gələn zəvvarları 4 qrupa ayırır. Birinci qrupa aid edilən imkanlı turistlərə həcc müddətində xidmət üçün 1700, nisbətən imkanı məhdud olan dördüncü qrupun üzvlərindən isə 600 ABŞ dolları həcmində pul alınır.

## 16.5. BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ (BƏƏ)

**Ərazisi: 83,6 min kv. km. Dünyada 113-cü yer.**
**Əhalisi: 2,5 mln. nəfər (2000). Dünyada 138-ci yer.**
**Paytaxtı: Abu-Dabi (900 min nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Dövlət dili - Ərəb dili.**
**Din: İslam.**
**Milli pul vahidi: Əmirliklərin dirhəmi.**

Birləşmiş Ərəb Əmirlikləri (ərəbcə əl İmarət əl Arabiyyə əl Müttəhidə) Ərəbistan yarımadasının şərq hissəsində Fars və Oman körfəzləri sahilində yerləşir. Üç dövlətlə cənubda və qərbdə Səudiyyə Ərəbistanı (457 km), şimalda Qətər, cənub-qərbdə Omanla (410 km) həmsərhəddir, Əmirliklərin sahil xəttinin uzunluğu 800 km-ə yaxındır. BƏƏ tərkibinə yeddi əmirlik: Abu-Dabi, Dubay, Şərca, Əcman, Rəs-əl-Heymə, Umm-əl-Qayveyn və Füceyrə daxildir. Ölkə ərazisinin 93 faizi Abu-Dabi və Dubay əmirliklərinin payına düşür.

Təbii xüsusiyyətlərinə görə ölkə dörd təbii bölgəyə ayrılır: Fars körfəzi sahili, Materik yaylası, Oman körfəzi sahili və Dağlıq ərazi. Ölkə ərazisinin çox böyük hissəsini səhralar təşkil edir. BƏƏ-də qiymətli faydalı qazıntılar - neft, təbii qaz, dəmir filizi, daş duz, nikel və s. aşkar edilmişdir. Mütəxəssislərin fikrincə ölkədə neftin aşkar edilmiş ehtiyatı 10,0 mlrd. tona yaxındır. Əmirliklərin ərazisində iqlim xüsusiyyətlərinə görə bir-birindən fərqlənən Qərb və Şərq bölgələri ayrılır.

Qərb bölgəsində şərti olaraq qış adlandırılan mövsümdə sutkalıq temperaturu 20-23 dərəcəyə çatan mülayim, yayda isə temperatur 40-43 dərəcəyə çatan isti iqlim hakimdir. Şərq bölgəsi tropik qurşaqda yerləşdiyindən burada bütün il boyu tropik hava kütlələri hakim olur. Ona görə bu bölgə quraqlığı və tozlu hava axınının üstünlüyü ilə seçilir. Ölkənin qərbinə il ərzində 100 (daxili rayonlara 50), şərqinə 200-300 mm həcmində yağış yağır.

Əmirliklərin ərazisində yerüstü su mənbələri yoxdur. Keçmişdə yeraltı sular yeganə həyat mənbəyi olub. Son illərdə suvarmaya olan tələbatı ödəmək üçün dəniz suyunu təmizləyən qurğular tikilmişdir. BƏƏ-də təbii meşə massivləri yoxdur, əksər yollarda, xüsusilə magistral yolların qıraqlarında ağaclar əkilmişdir.

Əmirliklərin ərazisində arxeoloji qazıntı işlərinə ötən əsrin 50-ci illərindən başlanılmışdır. Mütəxəssislərin fikrincə, eramızdan 6 min il

əvvəl bu yerlərdə insan yaşamışdır. Hindistan və Afrika, İran və Mesopotamiya arasında mühüm ticarət məntəqəsi funksiyasını yerinə yetirən bu ərazilər orta əsrlərdə Portuqaliya, İran, Oman, İngiltərə dövlətləri tərəfindən idarə olunub. 1971-ci ildə əmirliklər Böyük Britaniyadan siyasi müstəqillik əldə edir.

BƏƏ dövlət quruluşuna görə federativ mütləq monarxiyadır. Dövlət başçısı ayrı-ayrı Əmirliklərin rəhbərləri tərəfindən 5 il müddətinə seçilən prezidentdir. 1971-ci ildən Abu-Dabi əmirliyinin rəhbəri Şeyx Zahid ben Sultan-əl Nəhəyyan dövlətin prezidentidir. Ali qanunverici orqan prezident yanında 40 nəfərdən ibarət Məsləhətverici Milli Şuradır. Ali icraedici orqan Dubay əmirinin rəhbərlik etdiyi Nazirlər kabinetidir. Ölkədə siyasi partiyaların və həmkarlar təşkilatının fəaliyyəti qadağan olunub.

BƏƏ-də yaşayanların əksəriyyəti ərəblərdən (həm yerli, həm də gəlmələr) ibarətdir. "Neft hay-küyü" ilə əlaqədar əhalinin sayı xaricilər hesabına xeyli artmışdır. Orta ömür müddəti kişilər üçün 70, qadınlar üçün 74 ildir. Əmirliklərdə urbanizasiya prosesi sürətlə gedir. Ölkə əhalisinin 80 faizi şəhərlərdə yaşayır. Abu-Dabi, Dubay, Şərca ən böyük şəhərlərdir.

BƏƏ iqtisadi cəhətcə orta səviyyədə inkişaf etmiş dövlətdir. Ölkə milli gəlirinin 45 faizi neft və təbii qaz, 40 faizi turizmdən yaranır. Çıxarılan neftin (ildə 70-75 mln. t) 70 faizi Abu-Dabi, 20 faizi Dubay əmirliyinin payına düşür. 1985-ci ildə Dubayın 35 km-də, Cəbəl Əli bölgəsində Azad İqtisadi Zona yaradılmışdır. Bu ərazidə 900-dən artıq xarici və yerli şirkət qeydə alınmışdır. BƏƏ həmçinin, Yaxın Şərqin iri maliyyə mərkəzidir. Neft ixracından əldə olunan gəlirin xeyli hissəsinə ölkə daxilində tələbat olmadığından o, Qərb iqtisadiyyatına qoyulur. BƏƏ-nin xarici avuarları* 23 mlrd. ABŞ dolları məbləğində qiymətləndirilir, onlardan alınan illik gəlir isə 3,5 mlrd. dollar təşkil edir.

* * *

BƏƏ – gənc müstəqil dövlət olduğu üçün, ölkədə xarici turizmin inkişafına gec başlanılsa da bu sahədə qısa müddətdə böyük nailiyyətlər əldə olunmuşdur. Əmirliklər rahat istirahət və bazarlıq etmək, biznes seminarları keçirmək, idmanın bütün növləri, xüsusilə qolf, tennis, çimərlik voleybolu, idman balıqçılığı və sualtı gəzinti ilə məşğul olmaq üçün ideal bir yerdir. Əmirliklərdə hər cür zövqə (sul-

---

* ***Avuar*** (fransız mənşəli sözdür, əmlak, sərvət mənalarını daşıyır) – ayrı-ayrı şəxs və müəssisənin pul vəsaiti, onların xarici banklardakı hesabı.

tanlara məxsus saray tikililərindən tutmuş, sadə, amma komfortlu şəhər mehmanxana nömrələrinə qədər) cavab verən mehmanxanalara rast gəlmək olar. Əmirliklərin nəinki supermarketlərində, hətta kiçik dükanlarında belə hər cür neməti tapmaq olar.

Əmirliklər ölkəyə gələn qonaqları, tikdikləri obyektlər, saldıqları xiyabanlar, bağ-bağçalar, ümumiyyətlə səliqə-səhmanı ilə valeh edir. Burada tikinti işləri dünya memarlığının və şəhərsalmanın ən son nailiyyətləri əsasında yaradılsa da, Şərq ekzotikası da yaddan çıxmır. Əmirliklərdə turistlərin marağına səbəb olan əsas görməli yerlər Dubay, Abu-Dabi və Şərcada yerləşir.

**Dubay turizm mərkəzi.** Dubay (ərəblər onu Dubey adlandırır) yalnız Əmirliklərin deyil, Yaxın və Orta Şərqin işgüzar, ticarət, iqtisadi və turizm mərkəzidir. Onun dəniz portları 120-dən artıq dəniz, beynəlxalq aeroportu isə 80-dan artıq hava xəttinə xidmət edir. Turizm baxımından görməli yerləri arasında möhtəşəm və memarlıq baxımından gözəl tikinti olan Cümeyrə məscidi, Ümumdünya Ticarət Mərkəzinin binası, Şeyxlər sarayı seçilir. Əl-Fahidi qalasında (XIX əsr) Dubay muzeyi fəaliyyət göstərir.

Dubayda hər il Yaxın və Orta Şərq regionunun turizm sərgisi keçirilir. Bu sərgidə region ölkələri turizm şirkətlərinin pavilyonları* ilə yanaşı Avropa, Asiya, Amerika və Afrika ölkələri turizm şirkətlərinin müvafiq pavilyon və stendlərinə** rast gəlmək olar. Sərgi hər il may ayında açılır. 2001-ci ilin sərgisində dünyanın 80-dan artıq ölkəsinin turizm mütəxəssisləri iştirak etmişlər. 8 min kv. m ərazidə yerləşmiş bu sərgidə 55 ölkədən turizmə dair 216 stendə 2,5 mln. tamaşaçı baxmışdır.

**Abu-Dabi turizm mərkəzi.** Ölkənin paytaxtı olan Abu-Dabi ultramüasir şəhərdir. O Fars körfəzində eyni adlı adada yerləşir və qitə ilə körpülər vasitəsilə birləşir. Əl-Hüseyn sarayı, mədəniyyət mərkəzi, gəmi tərsanəsi şəhərin görməli yerləri arasında seçilir. Turistlər üçün vadilərdə yerləşmiş Əl-Ayn və Liva "bağ şəhərlərinə" ekskursiyalar təşkil edilir. Abu-Dabiyə gələn turistlərə sualtı balıq ovu da təklif olunur.

**Şərca turizm mərkəzi.** Şərca digər əmirliklərdən fərqli olaraq İslam memarlığı ilə seçilir. Bu əmirlikdə mirvari ovu yaxşı inkişaf etmişdir. Şəhərin yaxınlığında beynəlxalq dərəcəli aeroport fəaliyyət göstərir.

---

* ***Pavilyon*** – sərgilərdə eksponatları nümayiş etdirmək üçün inşa edilmiş xüsusi bina.

** ***Stend*** (ingilis mənşəli sözdür, dayaq mənasını bildirir) – sərgi eksponatlarını (kitab, qəzet, cədvəl və s.) düzmək üçün xüsusi hazırlanmış lövhə.

* * *

Birləşmiş Ərəb Əmirlikləri rəhbərliyi xarici turistlərin ölkəyə cəlb edilməsi üçün çox iş görülür. Turistlər üçün maraqlı səyahət marşrutları, ekskursiyalar və əyləncəli proqramlar hazırlanır. Mirvari çıxarılmasını müşahidə etmək, ənənəvi ərəb qayıqları "dau"da və gəmilərdə (əfsanəvi dəniz səyyahı Sindbad Əcman əmirliyində hazırlanmış gəmidə üzmüşdü) dəniz gəzintisi, cip tipli avtomobillərdə səhra safariləri, dəvələrin üstündə gəzinti və qum xizəklərində sürüşmək, səhrada avtomobil sürməyi öyrənmək, körfəzdə peşəkar təlimatçıların köməyi ilə balıq ovunda iştirak etmək, şəffaf dibi olan qayıqlarda gəzinti, Hind okeanının şərq sahillərinə dəniz gəzintilərinin təşkili turistlərin böyük marağına səbəb olur.

Dubaydan təqribən 40 km aralıda, səhrada "Əl-Maha" adlanan ekoturist kurort kompleksi tikilmişdir. Kompleks, Ərəbistan yarımadası səhralarının toxunulmamış təbiəti ilə tanış olmaq istəyənlər üçün nəzərdə tutulmuşdur. Bura gələn turistlər bədəvi çadırları üslubunda tikilmiş, hər cür şəraiti olan "lüks" dərəcəli bunqalolarda yaşayırlar. Ekoturist kurort kompleksinin yerləşdiyi ərazi 16 kv. km-dir.

Birləşmiş Ərəb Əmirliklərinə gəlmək istəyən xarici turistlərin sayı ildən-ilə artır. 1999-cu ildə bu ölkəyə 2,5 mln. nəfər xarici turist gəlmişdir. Bunların əksəriyyəti sabiq SSRİ respublikalarından gələnlərdir. Həmin il ölkə xarici turizmdən 600 mln. ABŞ dolları həcmində gəlir əldə etmişdir. Turist qəbulu üçün ölkədə 32 minə yaxın mehmanxana yeri var.

# FƏSİL 17.

## AFRİKA ÖLKƏLƏRİNDƏ BEYNƏLXALQ TURİZM

*Qitə ilə ümumi tanışlıq*

**Ərazisi: 30,3 mln. kv. km.**
**Əhalisi: 700 mln. nəfər (2000-ci il).**
**Müstəqil dövlətlər: 53.**
**Ərazicə ən böyük dövlət: Sudan (2,5 mln. kv. km).**
**Ərazicə ən kiçik dövlət: Seyşel adaları (500 kv. km).**
**Əhalinin sayına görə ən böyük dövlət: Nigeriya (105 mln. nəfər - 2000).**
**Əhalinin sayına görə ən kiçik dövlət: Seyşel adaları (80,0 min nəfər - 2000).**
**Əhalinin sayına görə ən böyük şəhər: Qahirə (15,0 mln. - 2000).**
**Ən yüksək zirvə: Kilimancaro vulkanı (5895 m).**
**Ən aşağı nöqtə: Assal gölü (-155 m).**
**Ən böyük göl: Viktoriya (69,5 min kv. km).**
**Ən dərin göl: Tanqanika (1470 m).**
**Ən uzun çaylar: Nil (6670 km), Konqo (4700 km), Niger (4184 km).**
**Ən böyük ada: Madaqaskar (587 min kv. km).**

Afrika qitəsi Yer kürəsinin quru hissəsinin təqribən beşdə birini təşkil edir. Qitə şimalda Aralıq dənizi, qərbdə Atlantik, şərqdə isə Hind okeanları və Qırmızı dənizin suları ilə əhatə olunur. Süveyş kanalı Afrikanı Asiyadan, Cəbəllütariq boğazı isə Avropadan ayırır. Afrikanın relyefi eyni tiplidir, belə ki, qitənin böyük hissəsi hündürlüyü 1000 m-ə qədər olan üstü hamar dağlıq ərazilərdən ibarətdir. Qitənin mərkəzini və şimalını tutmuş Böyük Səhranın orta hündürlüyü təxminən 600 metrdir. Afrikanın əsas dağ massivləri: qitənin şimal-qərbində uzanan Atlas, şərqdə Efiopiya və cənubda Əjdaha dağlarıdır. Ekvator yaxınlığında dünyanın uca zirvələrindən olan Kilimancaro (5895 m) vulkanı və Keniya (5199 m) dağı yerləşir.

Afrikanın sahil xətti az girintili-çıxıntılıdır. Sahillərin böyük hissəsi dağlıq və çətin keçilən yerlərdir. Dəniz və dağlar arasında ensiz düzənlik ərazilər yerləşir. Ən böyük yarımada – Somalidir.

Afrika təxminən ortadan Ekvator xətti ilə kəsildiyindən qitənin böyük hissəsi ekvatorial və tropik, şimal və cənub ərazilər isə subtropik zonalarda yerləşir. Qitənin böyük hissəsi tropiklər arasında yer-

ləşdiyindən bir tərəfdən ərazinin genişliyi, digər tərəfdən relyefin xüsusiyyətləri, okeanın təsirini məhdudlaşdırır. Afrika ərazisinin çox hissəsində, əsasən şimalında yüksək temperatur müşahidə edilir. Afrika dünyanın ən isti qitəsidir.

Ekvatorial və tropik Afrikanın isti iqlimi, mülayim və soyuq iqlim qurşaqlarında yerləşən ölkələrdən gələn turistlər üçün münasib və əlverişli deyil. Güclü tropik leysan yağışlar (maydan-avqustadək), buxarlanma nəticəsində artan rütubətli isti hava, tropik iqlimə uyğunlaşmamış insanlara ağır təsir göstərir. Geniş tropik zonanın ekvatorial meşə və savannalarından şimalda və cənubda quru və isti səhralar (şimalda Böyük Səhra, cənubda Kalaxari, Namib) yerləşir. Afrikanın ucqar şimal və cənub-qərbində Aralıq dənizi tipli quru subtropik iqlim üstünlük təşkil edir. Bu zonaların iqlimi, xarici turizmin inkişafı üçün nisbətən əlverişlidir.

Afrikanın ayrı-ayrı regionlarının rəngarəng flora və faunası, toxunulmamış təbiəti, digər qitə ölkələrindən turist qəbulunun artması üçün (xüsusilə ovçuluq məqsədi ilə) geniş imkanlar yaradır.

Qitənin ayrı-ayrı hissələrinin coğrafi şəraitinin rəngarəngliyinə, müxtəlif xalqların həyatında qeyri-adi özünəməxsusluğun olmasına baxmayaraq, ümumi və fərqli cəhətləri olan bir neçə böyük mədəni regionları bir-birindən ayırmaq olar. Birinci, Şimali və ya Ərəb Afrikası, ikinci – eramızın IV əsrindən başlayaraq xristianlığın dövlət dini olduğu yeganə Afrika dövləti Efiopiya, üçüncü – əsasən qədim tayfa mədəniyyətinin qorunub saxlanıldığı Tropik və Cənubi Afrika, dördüncü – sakinlərinin fiziki görünüşü və mədəniyyətin xarakterinə görə Cənub-Şərqi Asiyaya daha yaxın olan Madaqaskar adası.

Bu fəsildə biz bir sıra ölkələr, əsasən mülayim iqlim ölkələrindən turist qəbulu üçün lazımi əlverişli şəraitə malik olan dövlətlərin turizm-rekreasiya imkanlarını nəzərdən keçirəcəyik. Afrikanın şimal sahillərinin (Mərakeş, Əlcəzair, Tunis, Liviya, Misir) əlverişli iqlim şəraiti olan bölgələri əcnəbi turistləri həmişə özünə cəlb etmişdir. Burada ən müxtəlif dövrlərin və xalqların mədəniyyətlərinin qarışığı olan çoxsaylı tarixi abidələr vardır.

Efiopiya yaylasında və Şərqi Afrika dağlıq ərazisində (hündürlüyü 900 m artıq) yerləşən Şərqi Afrika dövlətləri turizmin inkişafı üçün daha əlverişli şəraitə malikdirlər. Bu ölkələrdən bir neçəsi (Keniya, Tanzaniya və s.) tropik zonada yerləşsələr də ərazilərinin yüksək yaylalardan ibarət olması, onları Tropik Afrikanın digər rayonlarından xeyli fərqləndirir. Əlverişli iqlim şəraiti, okeandan Mərcan rifləri ilə mühafizə olunan qumlu çimərliklər, daim qarla örtülü Kili-

mancaro və Keniya dağ zirvələri vəhşi heyvan sürülərinin yaşadığı keçilməz cunqli meşələri Afrikanın bu hissəsinin əsas rekreasiya ehtiyatlarını təşkil edir.

Afrika ölkələri, müstəmləkəçilərə qarşı uzun sürən gərgin mübarizə nəticəsində dövlət müstəqilliyinə nail olmuş, beynəlxalq səhnəyə çıxmış və beynəlxalq münasibətlərin fəal qüvvəsinə çevrilmişlər. Gənc Afrika dövlətləri dünyanın digər ölkələri və xalqları ilə hərtərəfli əlaqələr və işgüzar münasibətlər yaradırlar. Bu ölkələrin beynəlxalq iqtisadi və mədəni əməkdaşlığı genişləndirməsi, xarici turizmin də həcminin artmasına səbəb olur. Həmçinin, Afrika ölkələri ilə beynəlxalq turizm əlaqələrini genişləndirən digər xalqlar üçün Afrika həyatının müasir inkişafının özünəməxsusluğu ilə tanış olmaq imkanı yaranır.

Son illərdə Afrika qitəsi və ona aid edilən adalar, dünyanın mühüm turizm rayonuna çevrilir. 1985-ci ildə Afrikaya – 9,7, 1990-cı ildə – 15, 1995-ci ildə – 20,3, 2000-ci ildə təqribən 30,0 mln. turist gəlmişdir. Qitəyə gələn əcnəbi turistlərin əsas məqsədi, istirahət və ovçuluq olmuşdur. Digər rayonlardan tranzit, ziyarət, konqreslərdə iştirak etmək, müalicə məqsədi ilə Afrikaya səfərlər cüzi, istehsalat sahəsi ilə əlaqədar işgüzar səfərlərin sayı isə nisbətən çoxdur.

Afrika – çox maraqlı, perspektivli, amma hələlik az mənimsənilmiş turizm regionudur. Bu qitədə turizmin inkişafına şərait yaradan əsas amillər aşağıdakılardır:

- Avropa və Asiyaya yaxın olması.
- Günəşli günlərin ilboyu çox olması.
- Müasir tələbatlara cavab verən dəniz kurortlarının yaradılması üçün dəniz sahili rayonlarda narın qumlu çimərliklərin olması.
- Rəngarəng ekzotik təbiətin, o cümlədən nadir fauna və flora nümunələrinin olması.
- Şimali Afrikanın tarixi və mədəniyyət abidələri (ilk öncə Misir piramidaları).

Son illərin yüksəlişinə baxmayaraq, Afrika turist qəbuluna, turgünlərin sayına və turizmdən daxilolmalara görə dünyanın əksər bölgələrindən geridədir. Afrikada turizmin inkişafına mane olan amillər:

- Ölkələrin əksəriyyətində sosial-iqtisadi səviyyənin aşağı olması.
- Turizm infrastrukturunun və nəqliyyat şəbəkəsinin zəif inkişafı.
- Beynəlxalq turizmə "yol açan" daxili turizmin zəif inkişafı.
- Bir çox ölkələrdə siyasi sabitliyin olmaması.

Xatırladaq ki, Afrikanın bir sıra rayonlarında həddindən artıq istilik, quraqlıq və ya əksinə uzun müddət bol yağışların yağması kimi təbii xüsusiyyətlər, turizmin inkişafına mənfi təsir göstərir. Bununla belə bir sıra Afrika ölkələrinin hökumətləri, iqtisadi inkişafı sürətləndirmək üçün turizmə xüsusi diqqət verirlər.

Afrika yerləşdirmə vasitələrinin – həm mehmanxana yerlərinin ümumi sayı, həm də hər min nəfərə düşən yerlərin sayına görə Avropa və Şimali Amerikadan xeyli geri qalır. Yerləşdirmə vasitələri fondu Şimali Afrika ölkələrində daha çox inkişaf etmişdir.

Afrika ölkələrinə səyahətə gələnlər üçün ən rahat nəqliyyat növü – hava nəqliyyatıdır. Onlarla aviareyslər, Afrikanın Avropa, Amerika və dünyanın digər qitələri ilə əlaqələndirir. Afrikaya gələn turistlər dəniz nəqliyyatından nisbətən az istifadə edirlər. O da qeyd olunmalıdır ki, Qərbi Afrika sahilləri, gəmilərin yan alması üçün əlverişsizdir. Burada təbii portlar olmayan qumlu sahillər üstünlük təşkil edir (Fritaun və Laqos portları istisna olmaqla).

Afrikada dəniz səyahətlərinin xüsusi forması olan kruizlər müvəffəqiyyətlə inkişaf edir. Bu, Avropa və Asiya port şəhərlərinin Şimali və Qərbi Afrika portlarına, həm də səyahətçilər üçün maraqlı olan Madeyra, Kanar, Yaşıl Burun, Qvineya körfəzi adalarına yaxın olması ilə izah olunur. Qeyd etmək lazımdır ki, Aralıq dənizində kruiz səyahətində iştirak edən turistlər, bir səfər müddətində dünyanın üç qitəsində olmaq imkanı əldə edirlər.

Afrika iki yarımkürədə yerləşdiyindən turizmin ilboyu inkişafı üçün geniş perspektivlər açılır. Belə ki, xarici turistlərin qəbulunu bir ölkədən digərinə keçirməklə, ilboyu qəbul ilə məşğul olmaq mümkündür. Afrika, dünya turizminin mövsümiliyi probleminin (xüsusilə də Avropadan) həlli üçün əlverişli ehtiyat mənbəyidir. Afrikada turizm infrastrukturunun inkişafı, onunla qonşu olan regionlarda turizmin mövsümilik "kəskinliyini" xeyli zəiflədəcəkdir.

Afrikanın əsas "müştəriləri" - Qərbi Avropa və Şimali Amerikadan gələnlərdir. Şimali Avropadan gələn turistləri Afrikanın günəşi, isti dəniz sahillərinin çimərlikləri, bu regionla onların vətəni arasındakı təbii təzadlar, Cənubi Avropa turistlərini isə, Afrikanın coğrafi yaxınlığı və səfərlərin ucuz olması cəlb edir. Afrika ölkələrinə gələn turistlərin 36 faizi avropalılardır. Amerikalı turistlərin sayı, digər regionlardan gələnlərə nisbətən az olsa da, Afrika üçün mühüm göstəricidir.

Afrika ölkələrinin qəbul etdiyi turistlərin əksəriyyətini, çox zaman keçmiş metropoliyalardan gələnlər təşkil edir. Məsələn, Mərakeş, Əlcəzair və Tunisə – Fransadan, Zairə Belçikadan, Keniyaya –

Böyük Britaniyadan gələnlər üstünlük təşkil edir. Bir sıra Afrika ölkələrində, qohum dilli, eyni dinə və siyasi quruluşa malik olan qonşu ölkələrdən gələn turistlərin xüsusi çəkisi çoxdur. Məsələn, Keniya üçün – Tanzaniya, Mərakeş üçün – Əlcəzair, Əlcəzair üçün – Mərakeş, və s. Qərbi Avropadan Afrikaya turist axını, yüksək həyat səviyyəsinə malik olan, amma isti dənizlərin sahillərində kurortları olmayan ölkələrin Afrika üçün əsas müştəri olmalarına səbəb olur.

**Daxili turizm** – həm ölkə, həm də qitədaxili turizm, afrikalıların qitədən kənara və yaxın adalara turist səyahətləri zəif inkişaf etmişdir. Bu, ilk növbədə qitənin əksər ölkələrində əhalinin həyat səviyyəsinin aşağı olması ilə izah edilir. Afrikanın bir çox ölkələrində yerli hökumətlər iqtisadi baxımdan vətəndaşların ölkədən getmələrini məhdudlaşdırır və sərt kvotalar* tətbiq edirlər.

Afrikanın digər bölgəsi ilə müqayisədə, Aralıq dənizi bölgəsində beynəlxalq və regiondaxili turizm nisbətən daha çox inkişaf etmişdir. Bunun da səbəbi bu regionda yaşayan xalqların eyni tarixi kökə, ümumi dil, din və mədəniyyətə malik olmalarıdır. Məğrib ölkələrində turizm infrastrukturunun inkişafı da mühüm rol oynayır. Görməli tarixi abidələrin, o cümlədən dini abidələrin çoxluğunu da qeyd etmək lazımdır. Bu bölgədə getmə turizmi (ilk növbədə Asiyanın müsəlman ölkələrinə və Qərbi Avropaya) də yüksək inkişaf etmişdir. Həmin bölgənin Afrikanın digər regionları ilə əlaqələri isə çox zəifdir, yalnız Sudan, Misir ilə turizm mübadiləsi aparır.

Şərq bölgəsində Tanzaniya, Keniya və Uqanda arasında turist əlaqələrində canlanma nəzərə çarpır. Buradakı turist axınının böyük hissəsini əsasən Avropa mənşəli tranzit qonaqlar və ovçu turistlər təşkil edir. Hindistana gedən turistlərin bu bölgədən keçən axını sürətlə artır. Şərq bölgəsindən cənuba, xüsusilə də CAR-a gediş-gelişlər ildən-ilə artır.

Cənub bölgəsindən Afrikadan kənara turist axınının xarakterik cəhəti odur ki, bu səfərlər demək olar ki, tamamilə Cənubi Afrika Respublikasından həyata keçirilir; ikincisi, turist axını əsasən Böyük Britaniyaya, Portuqaliyaya, İsrailə və Yunanıstana istiqamətlənir.

Son illərdə, çox olmasa da, Qərbi Afrika ölkələri arasında turizm əlaqələrində canlanma hiss olunur. Burada təhsil, ziyarət və işgüzar məqsədli səfərlərin payı daha çoxdur. Afrikanın hüdudlarından kənarda, ümumi xarici qonaqların arasında afrikalı turistlərin sayı hələlik çox azdır.

---

* ***Kvota*** ( latın mənşəli sözdür, hər nəfərə düşən hissə və ya nə qədər mənalarını bildirir) – müqavilə (saziş) razılaşmalarında hər bir iştirakçı üçün müəyyən edilmiş pay.

## 17.1. MİSİR

**Ərazisi: 1,0 mln. kv. km. Dünyada 29-cu yer.**
**Əhalisi: 67,0 mln. nəfər (2000). Dünyada 15-ci yer.**
**Paytaxtı: Qahirə (15 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Ərəb dili.**
**Din: İslam.**
**Milli pul vahidi: Misir funtu.**

İki qitədə: Afrikanın şimal-şərqində və Asiyanın qərbindəki, Sinay yarımadasında yerləşmiş Misir, cənubda Sudan (1273 km), qərbdə Liviya (1159 km), şərqdə İsrail (255 km) və Fələstinlə (11 km) həmsərhəddir. Şərqdə Qırmızı, şimalda Aralıq dənizlərinin suları ilə əhatə olunur. Ölkənin əlverişli hərbi-strateji və coğrafi mövqeyi var. Hind okeanından Aralıq dənizinə ən qısa su yolu olan Süveyş kanalı Misirin ərazisindədir.

Ölkə ərazisinin böyük hissəsini (96 faiz) geniş səhralar: qərbdə Liviya, şərqdə Ərəbistan, cənubda Nubiya səhraları təşkil edir. Liviya səhrasında dəniz səviyyəsindən aşağı bir neçə çökək ərazi vardır. Onların arasında, ərazisi 18 min kv. km və dəniz səviyyəsindən 133 metr aşağıda yerləşən Kattar çökəkliyini qeyd etmək olar. Ərəbistan səhrasının böyük bir hissəsini hündür olmayan yastı dağlar tutur. Sinay yarımadasının şimalı - səhra, cənubu isə dağlıqdır. Misirin ən yüksək zirvəsi olan Cəbəl-Katrin dağı (2637 m) bu ərazidədir.

Misirin yeganə çayı olan Nil təxminən 1500 km məsafədə, Sudanla sərhəddən başlayaraq Aralıq dənizinə qədər bütün ölkə ərazisindən keçir. Ölkənin cənubunda Asuan bəndinin yaratdığı Naser gölü yerləşir. Nilin bütün axarı boyu sahilləri qayalarla əhatə olunmuş ensiz vadilər üstünlük təşkil edir. Faydalı qazıntılar arasında – neft, təbii qaz, dəmir filizi, əhəng, manqan, sink, qurğuşun və fosfat yataqlarını qeyd etmək olar.

Ölkə ərazisinin böyük hissəsi, günəşli günlərin bol olduğu, isti, quru iqlimə malikdir. Şimal sahil rayonları və Nil deltasının iqlimi isə Aralıq dənizi tiplidir. Bu bölgədə orta illik yağıntının miqdarı (əsasən qışda düşür) 150-200 mm təşkil edir. Cənuba doğru həm yağıntının miqdarı azalır, həm də iqlimin kontinentallığı və sutkalıq temperatur amplitudu kəskin artır. Məsələn, Ərəbistan və Liviya səhralarında qışda səhərlər suyun səthi donur, dağların zirvələri isə qarla örtülür. Burada yağıntı əsas etibarı ilə dolu şəklində düşür.

Bütün Misir üçün iyul-sentyabr daha isti aylar hesab olunur.

Yazda (aprel-may), səhralardan əsən isti, quru küləklər xarakterikdir. Bu küləklər fasilələrlə 50 gün müddətində əsdiyi üçün "Xəmsin" (ərəbcə əlli) adlanır. Bu cür küləklər, 6-7 km yüksəyə qalxan isti, qumlu tozanaqlar yaradırlar. Xəmsin dövründə havanın istiliyi 40 dərəcəyə çatır. İlin ən sərin vaxtı dekabr-mart aylarına təsadüf edir.

İsgəndəriyyə (3,5 mln.), Giza (2,2 mln.) və Port-Səid (500 min), ölkənin ən böyük şəhərləri, İsgəndəriyyə, Port-Səid və Süveyş isə portlarıdır. Ölkə əhalisinin əksəriyyəti (90 faiz) Sami-Hami qrupuna mənsub olan Misir ərəbləridir. Digər etnik qruplardan – bədəvilər, italyanlar, yunanlar və s. yaşayır. Orta ömür müddəti: kişilər üçün 59, qadınlar üçün 63 ildir.

Ölkənin rəsmi adı – Misir Ərəb Respublikasıdır (MƏR). Dövlət quruluşuna görə prezident respublikasıdır. Ölkə inzibati-ərazi cəhətcə 26 quberniyaya (mühafəzə) bölünür. Hər mühafəz öz növbəsində əyalətlərə (mərkəzlərə), hər mərkəz isə rayonlara (nahiyələrə) ayrılır.

28 fevral 1922-ci ildə Misir, Böyük Britaniyadan müstəqillik əldə etmişdir. 23 fevral – İnqilab günü (1952), Milli bayram kimi qeyd olunur. İcraedici hakimiyyət, prezidentə (dövlət başçısı) və Nazirlər Şurasına rəhbərlik edən Baş nazirə məxsusdur.

Dövlət bölməsi iqtisadiyyatda üstünlük təşkil edir. Sənaye müəssisələrinin əksəriyyəti dövlətə məxsusdur. Toxuculuq, yeyinti, kimya, neftçıxarma və neftemalı, metallurgiya, sement istehsalı, sənayenin inkişaf etmiş sahələridir. Neft və neft məhsulları, metal, toxuculuq məhsulları, mühüm ixrac məmulatlarıdır.

Kənd təsərrüfatı Ümumdaxili məhsulun 20 faizini təmin edir (pambıq ixracı üzrə dünyada altıncı yeri tutur). Digər mühüm kənd təsərrüfatı məhsulları – çəltik, buğda, meyvə və tərəvəzdir. Balıqçılıq da inkişaf etmişdir. Ölkə öz daxili tələbatını ərzaq məhsulları ilə tam təmin edə bilmir. Misir əhalisinin sürətli artımı da ərzaq problemini bir qədər kəskinləşdirir.

Misir dünyanın qədim sivilizasiya mərkəzlərindən biridir. On minlərlə il bundan öncə, burada insan cəmiyyəti yaranmış, Nil vadisində ovçuluq və balıqçılıqla məşğul olan köçəri qəbilələr yaşamışlar. E.ə. IV minillikdə Nilin vadisində bir neçə quldarlıq dövləti (nomlar) meydana gəlmiş, onlar e.ə. III minillikdə mərkəzləşmiş qədim quldarlıq monarxiyasının özəyini təşkil etmişdilər. Əfsanəyə görə, Misirin şimal və cənub bölgələrini birləşdirən Min soyadlı ilk firon, Memfis şəhər-qalasının əsasını qoymuşdur (şəhərin xarabalıqları Qahirə yaxınlığındadır).

Memfis – Qədim Misirin mədəniyyət və incəsənət incisi hesab olunur. Burada fironların və yüksək rütbəli zadəganların məqbərələrindən tapılan bütlər və müxtəlif əşyalar Qədim Misir incəsənətinin nadir nümunələridir. E.ə. III minilliyə aid olan qədim şahlıq dövründə fironların möhtəşəm məqbərələri – piramidalar (ehramlar) tikilmişdir. Onlardan ən məşhurları, Qahirə yaxınlığındakı Giza şəhərində olan Xeops, Xefren və Mekerin piramidalarıdır. Çox möhtəşəm Böyük Sfinks, sarayların qalıqları və digər qədim abidələr də burada yerləşir.

Herodotun qeyd etdiyinə görə, ən iri və möhtəşəm (hündürlüyü 146 m) Xeops piramidasını 100 min adam 20 ilə tikmişdir. Sonrakı dövrlərdə (e.ə. XXI-XVIII əsrlər) nisbətən kiçik ölçülü piramidalar (hündürlüyü 40-70 metr) tikilirdi. E.ə. XVI-XI əsrlərdə isə fironların dəfn olunması üçün, piramidalar əvəzinə qaya məqbərələr inşa olunurdu. E.ə. VI əsrdən başlayaraq, uzun əsrlər boyu Misir, yadelli işğalçıların (assuriya, fars, roma, yunan, ərəb və türk) hücumlarına məruz qalmışdır.

Misir, dünyaya qədim və möhtəşəm sivilizasiya bəxş edən ecazkar bir məmləkətdir. Adlı-sanlı fironlar, çariça Kleopatra, Müqəddəs Nil, Misir kahinləri, sfinkslər, papirus kimi bəşəriyyətin yaddaşında həkk olunmuş adlar hamıya yaxşı bəllidir. Misir piramidaları dünyanın yeddi möcüzəsi sırasındadır.

Misirin tarixi, arxeoloji və mədəni mərkəzi, onun mədəni-tarixi abidələrinin - məşhur piramidaların, firon məbədlərinin (Qahirədən Asuana qədər Nil vadisi boyu) yerləşdiyi ərazini əhatə edir.

* * *

Çoxsaylı qədim mədəniyyət abidələri, xarici turistləri çoxdan bəri ölkəyə cəlb edir. MƏR-də turistlərin toplaşdıqları əsas mərkəzlər – Qahirə, İsgəndəriyyə, Asuan, Luksor şəhərləri və Qırmızı dəniz sahillərindəki (Xurqada, Şarm-əl-Şeyx, Əl-Quna) dəniz kurortlarıdır.

**Qahirə turizm mərkəzi.** Şəhər Nil vadisi ilə deltasının sərhəddində yerləşir. Qahirə öz qədimliyini və möcüzəliliyini qoruyub saxlamaqla yanaşı, dünyanın ən böyük, müasir şəhərlərindən birinə çevrilmişdir. Şəhər X əsrdə salınmış və Əl-Qahirə (ərəbcə qalibiyyətli, müzəffər) adını almışdır. Qahirə ölkənin iri sənaye və mədəniyyət mərkəzidir. Paytaxtın aeroportu, beynəlxalq aviaxətlərin mühüm kəsişmə qovşaqlarından biridir.

Şəhər şərti olaraq qədim və yeni hissələrə bölünür. Yeni şəhərdə – müasir çoxmərtəbəli binaların yerləşdiyi geniş prospektlər, parklar və bağlar çoxdur. Qədim şəhərdə – alçaq və yastı damları olan gil evlərin yerləşdiyi dar küçələr, göyə ucalan minarələr vardır. Qahirədə

və ətrafında çoxsaylı tarixi abidələr və muzeylər yerləşir. Əmr, İbn Tul (IX əsr) və əl-Əzhar (X əsr) məscidləri, Sultan Həsən məscid-mədrəsəsi (XIV əsr), Məmlüklər məqbərəsi (XV əsrin sonu – XVI əsrin əvvəlləri), Ərəb mədəniyyəti tarixinin mühüm abidələrindəndir. Kübra əl-Qubbə məscidində Misirin tanınmış dövlət xadimi Camal Əbdül Naser dəfn olunmuşdur.

Giza şəhərində yerləşən firon piramidaları, Böyük Sfinks, çoxsaylı turistləri həmişə cəlb edir. Burada axşamlar turistlər üçün səsli və rəngarəng işıqlı tamaşalar təşkil olunur. Turistləri avtobuslarla, projektorlarla işıqlandırılan piramidaların və Böyük Sfinksın yanına gətirirlər. Sfinksın üzərinə tuşlanan işıq şüaları dəyişdirildikcə, sanki Sfinksın siması canlanır və cizgiləri dəyişir.

Xeopsın piramidası tərəfdən gələn səslər, ağır daşları çiyinlərində daşıyaraq, piramidaları tikən inşaatçı qulların hay-küyü, tikinti aparıldığını xatırladır. Qəfildən səhrada əsgərlərin təbrik-qarşılma sədaları ucalır və yaxınlaşan atların ayaq səsləri eşidilir. Sonra projektorların işıqları qaranlıqda bu və ya digər piramidaya tuşlanır və yaxınlaşan dəfn mərasimi prosesinin qəmli hıçqırıqları və ağlaşma səslərinə qarışan kədərli musiqi sədaları eşidilir. Bu tamaşa turistlərdə unudulmaz təəssürat yaradır.

Qahirədə Qədim Misirin qiymətli, nadir abidələri toplanmış Misir muzeyi, 700 min kitab cildinə malik olan Milli Kitabxana, 1869-cu ildə Süveyş kanalının açılması şərəfinə tikilmiş Opera teatrı fəaliyyət göstərir. 1871-ci ildə ilk dəfə bu teatrda Cüzeppe Verdinin "Aida" operası ifa olunmuşdur.

Misirin paytaxtı, həmçinin müsəlman mədəniyyətinin qədim mərkəzlərindən biridir. Məşhur Qahirə Universiteti, humanitar və texniki fənlər üzrə pedaqoq və mütəxəssislər hazırlayan Ayn-Şəms universiteti, Misir və bir çox müsəlman ölkələri üçün ali müsəlman ruhaniləri hazırlayan Əl-Əzhar universiteti burada yerləşir. Əcnəbi turistlərin qəbulu üçün Qahirədə 7 min yeri olan mehmanxana şəbəkəsi vardır.

**İsgəndəriyyə turizm mərkəzi.** İsgəndəriyyə şəhəri əhalinin sayına görə ölkənin ikinci böyük şəhəri, Aralıq dənizi sahillərində və Nil çayının deltasında əsas portudur. İsgəndəriyyə – mühüm dəmir və avtomobil yolları qovşağıdır. Nil çayı və Mahmudiyyə kanalı vasitəsi ilə Qahirə ilə birbaşa əlaqə yaradılmışdır. Şəhər, e.ə. 331-ci ildə Makedoniyalı İsgəndər tərəfindən salınmış və tezliklə Yunan-Misir dövlətinin paytaxtına və Ellin (qədim yunan) mədəniyyətinin mərkəzinə çevrilmişdir.

İsgəndəriyyə şəhərindən qərbdə yerləşmiş və orta əsrlər, istehkamı Kayt-Bəydən başlayaraq, şərqdə Mümtaz kral sarayına qədər olan 30 km-lik mənzərəli sahil zonasının turizm baxımından müasirləşdirilməsi işi başa çatdırılmışdır. Digər görməli yerlərdən – amfiteatrı, Pompey sütununu, hamamları, Anfuş və Kom aş-Şuqaf nekropolarını*, qədim dünyanın 7 möcüzəsindən biri olan Foros mayakını qeyd etmək olar. Bu mayak e.ə. 280-ci ildə tikilmiş, 1375-ci ildə çoxsaylı zəlzələlər nəticəsində dağılmış, sonradan yenidən inşa olunmuşdur. Son illərdə şəhərin müasirləşdirilməsi, onu əcnəbi turistlər üçün daha da cəlbedici etmişdir.

**Luksor turizm mərkəzi.** Luksor Nilin sağ sahilində e.ə. XV əsrdə tikilmiş məşhur Amon-Ra məbədinin xarabalıqları yanında yerləşir. Məbədin divarları fironların qələbələrini əks etdirən rəsmlər və yazılarla zəngindir. Luksor yaxınlığında, əsas binası e.ə. XX əsrə aid olan başqa Amon-Ra məbədi də yerləşir. E.ə. XIII əsrə aid olan, 134 sütunu, fironların yürüşlərini əks etdirən freskaları olan böyük zal, turistlərin xüsusi marağına səbəb olur. Luksor-Karnak rayonunda Yeni şahlıq dövrünə (e.ə. XVI-XI əsrlər) aid olan möhtəşəm, əzəmətli firon məqbərələri qorunub saxlanılmışdır.

Fivadən qərbdə yerləşən Deyr əl-Bahari vadisi turistlər üçün maraqlı yerdir. Burada Qədim Misirin memarlıq abidələri: firon məbədi (e.ə. XXI əsr), Çariça Xatşepsutin məbədi (e.ə. XVI əsr, çariça tərəfindən silahlandırılan ekspedisiyanın Somali sahillərində təsvir edilən yürüşləri) turistləri cəlb edir. Burada fironların məqbərələri, həmçinin, bədii sənətkarlıq və heykəltaraşlıq əsərləri nümunələri aşkar edilmişdir.

**Asuan turizm mərkəzi.** Eramızdan neçə əsr öncə əsası qoyulmuş qədim Asuan şəhəri, Misirin turizm baxımından görməli yerlərindəndir. Qədim Roma şəhərinin əsası qoyulanda artıq Asuanın 3 min ilə yaxın yaşı var idi. İngiltərə müstəmləkəsi dövründə, Asuanda o zamanın ən iri irriqasiya tikililəri və su anbarı fəaliyyət göstərirdi.

Pambıq plantasiyalarının suvarılması məqsədi daşıyan bu tikililər təbii ki, ingilis müstəmləkəçilərinin mənafeyinə xidmət edirdi. Hazırda Asuan Misirin mühüm energetika mərkəzidir. Burada Nil üzərində Asuan hidroenerji kompleksi yaradılmışdır. Nil suyunu süni göllərə yığan hündür bəndlər qurulmuş, həmin sudan geniş sahələrin suvarılması və iri hidroelektrik stansiyanın işləməsi üçün istifadə olunur.

**Qırmızı dəniz sahilləri kurort bölgəsi.** Ötən əsrin 80-ci illərin-

---

* ***Nekropol*** – (yunanca ölmüş və şəhər sözlərinin vəhdətidir) – adətən qədim dünyanın kütləvi dəfn yerlərinə verilən ad.

də Misir hökuməti, əsas turizm mərkəzləri Xurqada və Şarm-əl-Şeyx şəhərləri olmaqla Qırmızı dəniz sahillərində çimərlik turizminin inkişaf etdirilməsi üzrə xüsusi plan qəbul etdi. Qırmızı dənizin zəngin sualtı dünyası, idmanın sualtı növlərinin inkişafı üçün böyük imkanlar açır. Ötən əsrin 90-cı illərinin əvvəllərində burada, Qərbi Avropa turistlərinin qəbulu üçün, yeddi turist kəndi tikilib istifadəyə verildi.

**Xurqada** – Misirin birinci və tanınmış dəniz sahili kurortudur. Burada qədim abidələr yoxdur. Turistlərə qumlu çimərlikləri olan dəniz və bol günəş təklif olunur. Sualtı qayıqla Qırmızı dənizin dibinə ekskursiyalar xüsusi maraq doğurur. Xurqadadan 22 km aralı əfsanəvi Əl-Quna kurort şəhəri yerləşir. Şəhər kanalların, kiçik buxtaların və ecazkar fyordların olduğu ərazidə salınmışdır.

Xurqadanın cənubunda Quseyr və Mersə Aləm kurortları sürətlə inkişaf etdirilir. Sinay yarımadasındakı Taba və Nüveyba məntəqələri arasındakı ərazi "Misir Rivyerası" adlanır. Mersə Aləmdə 2001-ci ildə beynəlxalq aeroport fəaliyyət göstərdiyindən bu yerlərə səyahət etmək xeyli asanlaşmışdır.

Misirə gələn xarici turistlər arasında Şarm-əl-Şeyxdə istirahət arzusunda olanların sayı ildən-ilə artır. **Şarm-əl-Şeyx** dünya kurort tikintisinin ən son nailiyyətlərinə əsaslanaraq salınmışdır. Burada müxtəlif zövqlərə cavab verən otellər, kazinolar, restoranlar, diskotekalar və başqa əyləncə-istirahət ocaqları vardır.

* * *

1979-cu ildə İsrail ilə sülh müqaviləsi imzalandıqdan sonra, Misir siyasi cəhətdən sakit və stabil dövlətlərdən birinə çevrildi. Nəticədə, ötən əsrin 90-cı illərində Misirdə turizm sürətlə inkişaf etməyə başladı. Misirin qədim tarixə və mədəniyyətə malik olması, dolğun ekskursiya proqramları, bütün il boyu dəniz sahillərində istirahətin mümkünlüyü, əla mehmanxanalar və yüksək olmayan qiymətlər ölkəyə dünyanın hər yerindən daimi turist axınını təmin edir. ABŞ, Səudiyyə Ərəbistanı, Fransa, Almaniya, İtaliya, Yaponiya və Rusiya Misir üçün ən iri turist bazarlarıdır.

Bununla belə, Misir yaxınlığında baş vermiş “Səhrada fırtına” müharibəsi (1991) ölkə turizminin artım dinamikasına mənfi təsir göstərdi. Ötən əsrin 80-ci illərinin ikinci yarısında Misirə hər il təxminən 1,8 mln. turist gəldiyi halda, 1991-ci ildə onların sayı 800 min nəfərədək azaldı. Amma 1992-ci ildə xarici turistlərin sayı yenidən artaraq, 1,67 mln. nəfərə çatdı. 1995-ci ildə ölkəyə – 2,8, 1996-cı ildə isə 3,5 mln. xarici turist gəlmişdir. Digər tərəfdən, ekstremist təşkilatların vaxtaşırı törətdikləri terror aktları, ölkəyə turist axınında dəyiş-

kənliyə səbəb olur.

Luksordakı terror aktından (noyabr, 1997) sonra Misirə turist axınının kəskin surətdə azalması nəticəsində, ölkə iqtisadiyyatına külli miqdarda ziyan dəydi. Həmin terror aktı 58 alman turistinin ölümünə səbəb olmuşdu. İqtisadiyyatda turizmin böyük rolu olduğu Misirə dünya ictimaiyyəti baykot elan etdi.

Ölkənin hakimiyyət orqanları turistlərin təhlükəsizliyinin təminatı üçün lazımi tədbirlər həyata keçirməyə başladılar. Nəticədə Misirə turist axını bərpa olundu və artıq 1999-cu ildə ölkə, 4,5 mln. turisti qəbul etdi. Əcnəbi turistlər arasında Ərəb və MDB dövlətlərindən gələnlər üstünlük təşkil edir. Həmin il turizm fəaliyyətindən 3,9 mlrd. ABŞ dolları məbləğində gəlir əldə olunmuşdur. Ölkədə xarici turistlərin qəbulu üçün 187 mindən artıq mehmanxana və digər yerləşmə vasitələrində yerlər mövcuddur (2000). 3,0 mln.-a yaxın misirli 1999-cu ildə xarici turist səfərlərində iştirak etmişdir.

## 17.2. ƏLCƏZAİR

**Ərazisi: 2,4 mln. kv. km. Dünyada 11-ci yer.**
**Əhalisi: 30,5 mln. nəfər (2000). Dünyada 35-ci yer.**
**Paytaxtı: Əlcəzair şəhəri (3,7 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Ərəb dili.**
**Din: İslam.**
**Milli pul vahidi: Əlcəzair dinarı.**

Afrikanın şimal-qərbində yerləşmiş Əlcəzair şimal qərbdə Mərakeş (1559 km) və Qərbi Böyük Səhra (42 km), cənub-qərbdə Mavritaniya (463 km), cənubda Mali (1376 km) və Nigeriya (956 km), şərqdə Liviya (982 km) və Tunislə (965 km) həmsərhəddir. Şimalda Aralıq dənizinin suları ilə əhatə olunur.

Əlcəzairin relyefi şimalda dağlıq, mərkəzdə – düzənlik, cənubda isə yaylalardan ibarətdir. Aralıq dənizi sahili boyu uzanan, o qədər də yüksək olmayan Tel-Atlas dağları, dənizə doğru yaylalar şəklində enir. Cənubda orta yüksəklikli dağlar (maksimal hündürlük – 2300 m) yerləşir. Bu dağların hündürlüyü qərbdən şərqə doğru azalır. Bu yaylalar cənubda Böyük Səhra Atlas dağları ilə birləşir. Daha cənubda isə Əlcəzair Böyük Səhrası yerləşir.

Ölkənin hidroqrafiyası çox kasıbdır: bir neçə kiçik çay Aralıq dənizinə tökülür. Böyük Səhra zonasında qurumuş çayların yataqlarına, qurumuş duzlu göllərə rast gəlmək olur. Əsas faydalı qazıntıları: neft, təbii qaz, fosfat, dəmir filizi, uran, qurğuşun və sinkdir. Əlcəzairin iqlimi – şimalda subtropikdən tropikə, cənubda isə kəskin kontinental iqlimə keçid təşkil edir. Aralıq dənizi sahillərində yanvarın orta temperaturu 5-12, iyulda 25 dərəcədir. Cənub rayonlarında yay çox isti, qış isə nisbətən soyuq keçir.

Oran (700 min), Konstantin (600 min) və Annab (400 min) ölkənin iri şəhərləri, Əlcəzair, Annab, Arzev, Bicaya, Mostaqanem, isə iri portlarıdır. Əlcəzairin əhalisi ərəblərdən və bərbərlərdən ibarətdir (99 faiz). Orta ömür müddəti: kişilər üçün 67, qadınlar üçün 69 ildir.

Ölkənin rəsmi adı – Əlcəzair Xalq Demokratik Respublikasıdır. İnzibati cəhətcə ölkə 48 vilayətə bölünür. 1830-1962-ci illərdə Əlcəzair Fransanın müstəmləkəsi olmuşdur. Əlcəzair xalqının silahlı mübarizəsi, 5 iyul 1962-ci ildə atəşin dayandırılması haqqında Evian sazişinin bağlanması və Əlcəzairdə müstəqil respublika yaradılması ilə nəticələndi.

Qanunvericilik – Fransa və İslam qanunlarına əsaslanır. 1 noyabr

– İnqilab günü (1954), Milli bayramdır. İcraedici hakimiyyət prezidentə (dövlət başçısı) və Baş nazirin rəhbərlik etdiyi Nazirlər Şurasına məxsusdur. Qanunvericilik hakimiyyətini birpalatalı parlament – Milli Xalq Məclisi həyata keçirir.

Neft və qaz istehsalı (təbii qaz istehsalına görə dünyada beşinci yer) – iqtisadiyyatın əsas bölmələridir. Yüngül, dağ-mədən, neft-kimya, yeyinti sahələri də nisbətən inkişaf etmişdir. Əmək qabiliyyətli əhalinin 22 faizi kənd təsərrüfatı sahələri ilə məşğul olur. Buğda, arpa, üzüm, sitrus meyvələri, tərəvəz və zeytun yetişdirilir.

* * *

Qumlu çimərliklər, Konstantin şəhərinin isti su mənbələri; "Əlcəzair İsveçrəsinin" (Blid Atlası) istirahət zonaları, xizək idmanı və ovçuluğu, palıd meşələri; Mansurun mənzərəli şəlalələri, çoxsaylı tarix və mədəniyyət abidələri, Əlcəzairin əsas turizm ehtiyatlarıdır.

Turistlərin toplaşdığı əsas mərkəz olan **Əlcəzair şəhəri**, ölkənin iri sənaye və mədəniyyət mərkəzidir. Şəhər Aralıq dənizi sahilində, Əlcəzair buxtasının qərb hissəsində yerləşir. Şəhərdə beynəlxalq dərəcəli aeroport vardır. Dağ ətəyində və yamaclarında amfiteatr şəklində salınmış Əlcəzair şəhəri portağal və zeytun parklarının zəngin yaşıllıqları arasında qərq olmuşdur. Şəhərin qədim hissəsi (Kasba) öz arxitekturasına görə, yeni, Avropa hissəsindən fərqlənir.

Şəhərin Avropa hissəsində Hökumət Evi, Xalq Sarayı, Milli Kitabxana yerləşir. Kasba rayonunda qala (XVI əsr), Minarəli Böyük məscid (1096), Qədim binalar (XI-XIV əsrlər), Sidi Əbdürrəhmanın məqbərə-məscidi, Came-əl-Cədid məscidi qorunub saxlanılmışdır. Milli antik dövr muzeyi, Milli incəsənət muzeyi, Etnoqrafiya və Qədim tarix muzeyi, paytaxtın muzeyləri arasında daha maraqlarıdır.

Əlcəzairin digər iri şəhərləri, o cümlədən X əsrin əvvəllərində salınmış **Oran** port şəhəri, öz çoxəsrlik tarixi boyu dəfələrlə yadelli işğalçıların hücumlarına məruz qalan, Şimali Afrikanın qədim şəhəri – **Konstantin**, qədim Roma şəhərləri olan Qipas və Şerşelin, qədim ərəb şəhəri olan **Mansurun** qalıqları, dini və turizm mərkəzi, "Məğribin Mirvarisi" adlanan **Tlemsen** və s. görməli yerlər xarici turistləri cəlb edir. Qədim zamanlarda Sirta kimi tanınmış Konstantin şəhərində qədim Roma tikililərinin qalıqları, Əhməd bəy məscidi (XIX əsr), məscid, mədrəsə, arxeologiya və incəsənət eksponatlarının toplandığı Sirta muzeyi vardır. Tlemsendə Böyük məscid (XII əsr), Sidi bel Həsən məscidini (XIII əsr, hazırda Arxeologiya muzeyidir), Sidi Halva və Sidi Braim məscidlərini (hər ikisi XVI əsr) qeyd etmək olar.

Ölkə turistlərə xidməti çoxsaylı mənzərəli oazislərdə (vahələrdə) təşkil etmək üçün əlverişli şəraitə malikdir. Əlcəzair ilin 9 ayında (ən yaxşı dövr mart-may və sentyabr-noyabr) əcnəbi turistləri qəbul edə bilir. Qızğın turizm dövrü, ənənəvi iyun-sentyabr aylarına təsadüf edir. Aparıcı turist dövlətləri ilə müqayisədə Əlcəzairdə turizm böyük miqyasda inkişaf etməsə də, onun dinamikliyi hiss olunur. Məsələn, 1995-ci ildə ölkə 520, 1997-ci ildə 635, 2000-ci ildə 800 mindən artıq xarici turist qəbul etmişdir. Xarici turizmdən əldə edilən orta illik gəlir isə 25-30 mln. ABŞ dolları təşkil edir.

Əlcəzairə ən çox turist, keçmiş metropoliyadan – Fransadan gəlir. Eyni dilə və dinə mənsub olan Mərakeşdən və Tunisdən gələn turistlərin də xüsusi çəkisi böyükdür.

Ölkədə xarici turistlərin qəbulu üçün 68 mindən artıq mehmanxana və digər yerləşmə vasitələrində yer mövcuddur (2000). Hər il təxminən 1,0 mln. Əlcəzair vətəndaşı xarici səfərlərdə iştirak edir. Bu da ölkə əhalisinin təxminən 3% təşkil edir.

## 17.3. TUNİS

**Ərazisi: 163,6 min kv. km. Dünyada 81-ci yer.**
**Əhalisi: 9,4 mln. nəfər (2000). Dünyada 89-cu yer.**
**Paytaxtı: Tunis şəhəri (1,8 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Ərəb dili.**
**Din: İslam.**
**Milli pul vahidi: Tunis dinarı.**

Şimali Afrikada yerləşmiş Tunis, qərbdə Əlcəzair (965 km), şərqdə və cənubda Liviya (459 km) ilə həmsərhəddir. Şimalda və şərqdə Aralıq dənizinin suları ilə əhatə olunur.

Səthi müxtəlifdir. Atlas dağları və dağ arası yaylalar (hündürlüyü 1500 m) ölkə ərazisinin üçdə birini təşkil edir. Mərkəzi hissədə yüksək və alçaq ovalıqlar (bəzən dəniz səviyyəsindən də aşağı) üstünlük təşkil edir. Cənubda Böyük Səhranın şimal hissəsi yerləşir. Tunisin dəniz sahilləri şimalda sərt və sıldırım, şərqdə isə alçaq və qumludur. Bilavasitə sahilə yaxın ərazidə dəniz dərin deyil.

Tunis mülayim isti iqlimə malik ölkədir. Yayın orta temperaturu 22-30, qışınkı isə 5-12 dərəcə arasında dəyişir. Şimal hissədə quru subtropik, cənubda isə tropik səhraların isti iqlimi üstünlük təşkil edir. İlin bir çox günlərində Böyük Səhradan Sirokko adlanan isti küləklər əsir. Sirokko əsdiyi zaman temperatur 53-59 dərəcəyə çatır. İllik yağıntının orta miqdarı, şimalda 600-1000, cənubda isə 150 mm-ə yaxındır.

Tunis, Sfaks, Kayruan, Sus, Qabes, Monastir ölkənin iri şəhərləri, Bizerta, Qabes, Sus, Sfaks və Tunis isə əsas portlarıdır. Əhalinin böyük əksəriyyəti ərəblərdir. Avropalılar ölkə əhalisinin 1 faizini təşkil edir. Orta ömür müddəti: kişilər üçün 71, qadınlar üçün 75 ildir.

Ölkənin rəsmi adı - Tunis Respublikasıdır. İnzibati cəhətcə ölkə 23 əyalətə bölünür. Əyalətlər öz növbəsində rayonlardan ibarətdir. 20 mart 1956-cı ildə Tunis Fransadan müstəqillik qazanmışdır. Həmin gün Milli bayram (İstiqlaliyyət günü) kimi qeyd olunur. Qanunvericilik, Fransa vətəndaş qanunvericiliyi sisteminə və İslam qanunlarına əsaslanır. Dövlət başçısı prezidentdir. Baş nazirin rəhbərlik etdiyi hökumət üzvləri prezident tərəfindən təyin edilir. Qanunvericilik hakimiyyətini deputatlar palatası (birpalatalı parlament) həyata keçirir.

Təbii ehtiyatların az olmasına baxmayaraq, Tunis Afrikanın inki-

şaf etmiş ölkələri sırasındadır. Dağ-mədən, toxuculuq və yeyinti, sənayenin daha çox inkişaf etmiş sahələridir. Kənd təsərrüfatı (ÜMM-nin 16 faizi) ölkənin ərzaq məhsullarına olan tələbatının 80 faizini təmin edir. Dənli bitkilər (əsasən buğda və arpa) və zeytun yağı istehsalı kənd təsərrüfatında mühüm yer tutur.

* * *

Ölkədə turizm biznesi fəal inkişaf edir və tədricən iqtisadiyyatın əsas bölmələrindən birinə çevrilir. Tunis ilk növbədə özünün tarixi-memarlıq abidələri ilə xarici turistləri cəlb edir. Karfagen və Roma dövrlərindən məlum olan "Termal xəzinələr", su idmanının istənilən növü, xüsusilə balıq ovu və ümumiyyətlə, ovçuluqla məşğul olmaq imkanı, ərəb atlarının yarışları turistlərin marağına səbəb olur. Açıq səma altında muzeyləri xatırladan məbədləri, sarayları, amfiteatrları və digər qədim tikililəri ilə diqqəti cəlb edən Tunis, Sfaks, Kayruan və Sus şəhərləri, turistlərin toplaşdıqları əsas mərkəzlərdir.

**Tunis turizm mərkəzi.** Ölkənin paytaxtı - Tunis şəhəri, Aralıq dənizindən bir qədər aralı, iki gölün arasında yerləşir. Tunis əhalisinin sayına görə ölkənin ən böyük şəhəri və portudur. Şimali Afrikanın ən gözəl şəhərlərindən biri sayılan Tunisi "Məğribin[*] ətirli gəlini" adlandırırlar. Şəhərdə qədim və yeni məhəllələr vardır. Mədinə adlanan qədim hissə qala divarları ilə əhatə olunmuş, ənənəvi ərəb memarlığı üslubunda tikilmiş evlərdən ibarətdir. Məscidi olan Kasba içqalası qədim şəhərin mərkəzi hissəsindədir.

Yeni şəhərdə əsasən dövlət idarələri, müxtəlif maliyyə, sığorta və sənaye müəssisələri yerləşir. Bu cür binaların, o cümlədən otellərin, turizm komplekslərinin, zəngin villaların tikintisində ənənəvi ərəb üslubundan geniş istifadə olunur. Tunis şəhərində çoxlu memarlıq abidələri, qədim məscidlər, saraylar, qəsrlər, Belveder[**], Afrika florası parkı vardır. Paytaxtda müstəqillik əldə edildikdən sonra açılmış Dövlət Universiteti, Müsəlman Universiteti, Ali Rəssamlıq Məktəbi, Paster İnstitutu, Aqronomluq İnstitutu, Okeanoqrafiya İnstitutu və s. fəaliyyət göstərir. Burada ərəb dilində zəngin kitab fondu olan iri kitabxana var.

Şəhərdən 12 km aralıda, antik dövrlərdə qüdrəti və şöhrətinə görə Qədim Roma ilə rəqabət aparan Karfagen şəhər-dövlətin xarabalıqları yerləşir. Karfagenin çiçəkləndiyi dövrdə, burada möhtəşəm bi-

---

[*] ***Məğrib*** - ərəbcə Qərb deməkdir. Ərəblər arasında yayılmış rəvayətə görə Məğrib həm də əfsanəvi quşdur. Onun bədəni Əlcəzair, qanadları Tunis və Mərakeşdir.

[**] ***Belveder*** (italyan mənşəli sözdür. Hərfi mənada gözəl mənzərə) - binanın və ya təpənin üstündə müşahidə üçün qüllə, qalaça, eyvan mənalarında işlədilir.

nalar tikilmişdi. Romalıların, bizanslıların və ərəblərin viranedici basqınlarından sonra, burada Karfagenin böyük keçmişinin ancaq lal şahidləri - binaların xarabalıqları qalmışdır.

Paytaxtdan bir qədər aralıda, şəhərkənarı Bordo sarayında Alaun Milli Muzeyi yerləşir. Muzeydə gözəlliyi, cazibəsi ilə seçilən Roma mozaikasının nadir nümunələri kolleksiyası toplanmışdır. Paytaxtda İslam incəsənəti muzeyi; XIII əsrə aid darvazalar; Böyük məscid (VIII-IX əsrlər), Əl-Ksar məscidi (XII əsr, minarə - XVII əsr); əl-Haua məscidi (XIII əsrin əvvəli); XVIII-XIX əsrlərə aid saraylar da vardır.

**Kayruan turizm mərkəzi.** Kayruan müsəlmanlar üçün qədim, müqəddəs şəhərdir. Çoxsaylı tarixi-memarlıq abidələrinə malik olan Kayruan Şərqi Məğribin qədim paytaxtıdır. Kayruan uzun müddət ölkənin mühüm dini mərkəzi olmuşdur. Ərəblərin Məğribdə tikdikləri ilk məscid burada yerləşir. Ərəb yürüşlərinə rəhbərlik edən Sidi Okbanın adını daşıyan bu məscid, indi də Şimali Afrika ərəblərinin ziyarətgahıdır.

**Sfaks turizm mərkəzi.** Bu şəhər inzibati və sənaye mərkəzi, iri ticarət portu və zeytun yağı istehsalsıçıdır. Şəhərdəki Böyük məscid (IX-X əsrlər), şəhər divarlarının qalıqları, saray, Arxeologiya muzeyi, İncəsənət və xalq sənətkarlığı muzeyi turistlərin diqqətini cəlb edir.

**Sus turizm mərkəzi.** Bu şəhərin əsası e.ə. XI əsrdə qoyulmuşdur. Şəhərin görməli yerlərindən Əl-Xələf qülləsi, Kasba-qəsr (hazırda Arxeologiya muzeyidir), Bu-Fatat məscidi, Böyük Məscid (hər ikisi IX əsr), Ribat monastırı (VIII əsr, hazırda İslam incəsənəti muzeyidir), Sidi Əli Əmmar məscidi (XI əsr), "Qəhvə əl-Qübbə" pavilyonu (XI əsr) turistləri daha çox cəlb edir.

Dəniz sahili kurortlarda istirahətin təşkili üçün, Tunisin çox gözəl təbii imkanları vardır. Şəffaf buxtalar, ucsuz-bucaqsız çimərliklər, beynəlxalq dərəcəli otellər - Tunisin bu günüdür. Ölkədə hər cür şəraiti olan mehmanxana və digər yerləşdirmə vasitələri çoxdur. Paytaxtdan 60 və 75 km məsafədə yerləşən Xammamət və Nabil ölkənin tanınmış dəniz sahili kurortlarıdır. Şimal sahillərin ucqarında böyük çimərliyi olan Tabarka kurortu yerləşir. Cənub-şərq hissədə yerləşən Qabes kurortu böyük vahənin mərkəzindədir.

Tunisə məxsus olan Cəbr adasında da ölkənin mühüm kurort mərkəzi yerləşir. Mülayim, yumşaq iqlimi olan adada, palma ağacları, sitrus bitkiləri və üzümlüklərlə əhatə olunmuş geniş çimərliklər vardır. Ölkənin bu guşəsi əcnəbi turistləri özünə cəlb edir. Ümumiyyətlə, çimərlik turizmi, Tunis turizminin aparıcı sahəsidir. 2000-ci ilə olan

məlumata əsasən, ölkədə turistlərin qəbulu üçün 192 mindən artıq olan mehmanxana və digər yerləşmə vasitələrində yer mövcuddur. Turistləri yerləşdirmə vasitələri əsasən şəhərlərdən kənarda, turistlər üçün salınmış kəndlərdədir.

* * *

Tunisə gələn xarici qonaqların sayı ildən-ilə artır. Müqayisə üçün rəqəmlərə müraciət edək. 1967-ci ildə ölkəyə 230, 1972-ci ildə 780 min, 1987-ci ildə 1,5 mln, 1990-cı ildə isə 1,7 mln. xarici turist gəlmişdir. Xarici turizm Tunis üçün xarici valyuta daxil olmalarının mühüm mənbəyidir. 1972-ci ildə Tunis xarici turizmdən 150 mln. ABŞ dolları məbləğində gəlir əldə etmişdir. Həmin dövrdə ölkənin mühüm təsərrüfat sahələri olan neft ixracından isə cəmi 50, fosforitdən 40, şərabdan 10, sitrus bitkiləri ixracından isə 5 mln. ABŞ dolları əldə edilmişdir. Ölkənin gəlmə turizmi əsasən Avropa turizm bazarından asılıdır (83 faiz). Avropalı turistlərin əksəriyyəti (80 faiz) ölkəyə çarter* aviareysləri ilə gəlmişlər.

"Səhrada fırtına" müharibəsinə qədər ölkəyə gələn turistlərin sayı, Tunisin hökumət dairələrinin arzu etdikləri sürətlə artmırdı. Müharibə dövründə turistlərin sayı 3 dəfə azalmışdı ("Səhrada fırtına" müharibəsində Tunis, İraqın mövqeyini müdafiə etdiyi üçün, Avropalı turistlər buraya gəlməyə ehtiyat edirdilər).

1990-cı ildən sonra Tunis üçün əsas turizm bazarı Fransa olaraq qalırdı. Çünki, uzun müddət Tunis Fransanın müstəmləkəsi olmuşdur. Amma, sonralar Almaniya, Fransanı ötüb keçdi. Ölkə üçün üçüncü mühüm bazar Böyük Britaniyadır. Tunisə qonşu Ərəb ölkələrindən, xüsusilə də Əlcəzair və Liviyadan, şopinq, qohumları və dostları ilə görüşmək məqsədi ilə də turistlər gəlir.

Tunisin iqtisadiyyatı "üç nəhəngin" - neft, fosfat çıxarılması və xarici turizm üzərində qurulmuşdur. 1996-cı ildə ölkəyə 3,9, 1997-ci ildə 4,2, 1998-ci ildə 4,7, 1999-cu ildə isə 4,8 mln. əcnəbi turist gəlmişdir. Turizmdən əldə edilən gəlir 1996-cı ildə 1,4, 1997-ci ildə 1,36, 1998-ci ildə 1,55, 1999-cu ildə isə 1,56 mlrd. ABŞ dolları təşkil etmişdir. Ölkədə, həmçinin getmə turizmi də inkişaf etmişdir. Xarici səfərlərə çıxan tunislilərin sayı da ildən-ilə artır. 1997-ci ildə 1,4, 1998-ci ildə 1,5, 1999-cu ildə isə 1,7 mln. Tunis vətəndaşı xarici səfərlərdə olmuşdur.

---

* ***Çarter*** (ingilis mənşəli sözdür) - beynəlxalq dəniz ticarətində və mülki aviasiyada gəmilərin kirayə edilməsi, daha doğrusu sazişlə təsis edilmiş şərtlərlə yerinə yetirilən kommersiya reysidir.

## 17.4. MƏRAKEŞ

**Ərazisi: 446,6 min kv. km. Dünyada 56-cı yer.**
**Əhalisi: 29,3 mln. nəfər (2000). Dünyada 33-cü yer.**
**Paytaxtı: Rabat (1,6 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Ərəb dili.**
**Din: İslam.**
**Milli pul vahidi: Mərakeş dirhəmi.**

Qərbi Afrikada yerləşmiş Mərakeş, cənub-şərqdə və şərqdə Əlcəzair (1559 km), cənubda Qərbi Böyük Səhra (443 km) ilə həmsərhəddir. Ölkə qərbdə Atlantik okeanın, şimalda Aralıq dənizinin suları ilə əhatə olunur.

Səthi müxtəlifdir. Atlantik okeanı sahillərində yerləşmiş düzənliklər 1600 km-ə qədər uzanır. Ər-Rif, Orta Atlas, Yüksək Atlas (ölkənin ən yüksək nöqtəsi - Tubkal dağı 4165 m buradadır) və Antiatlas dağlarından ibarət dağlıq ərazilər, cənub-qərbdən - şimal-şərqə doğru bütün ölkə boyu uzanır. Mərakeşin cənub və cənub-şərqində səthi qumlu və daş-kəsəkli Böyük Səhra yerləşir. Ərəblər ölkəni Əl-Məğrib və ya Əl-Məğrib əl-Əqsa, yəni "Uzaq Qərb", avropalılar isə onun qədim paytaxtı Mərrakeşin adı ilə Mərakeş adlandırırlar.

Mərakeşin iqlimi, quru, isti yayı və mülayim, rütubətli qışı olan Aralıq dənizi tiplidir. Ərazi böyük olduğundan ölkənin ayrı-ayrı hissələrində iqlim fərqləri kəskin surətdə özünü büruzə verir. Ölkənin şimal-qərb hissəsinə okeanın təsiri daha böyük olduğundan oranın iqlimi daha yumşaqdır. Mərakeşin daxili rayonlarında iqlim daha kontinentaldır. Yanvarın orta temperaturu 10-12, iyulunki 24-28 dərəcədir. Əsas faydalı qazıntılar: fosforit, dəmir filizi, qurğuşun, sink, kobalt, mis, kömür, neft, manqan və duzdur.

Kasablanka (4 mln.), Rabat (1,6 mln.), Mərrakeş (1,5 mln.), Fes (1 mln.), Ucda (500 min), ölkənin iri şəhərləri, Kasablanka və Tanjer isə böyük portlarıdır. Əhalinin böyük əksəriyyəti ərəblər və bərbərlərdir (97 faiz). Ölkədə həmçinin, fransızlar, ispanlar və yəhudilər yaşayır (bu, Avropadan öz qohumlarını görmək məqsədi ilə turist axınına səbəb olur). Orta ömür müddəti: kişilər üçün 67, qadınlar üçün 71 ildir.

Ölkənin rəsmi adı - Mərakeş Məlikliyidir (krallığıdır). Dövlət quruluşuna görə konstitusiyalı monarxiyadır. İnzibati cəhətcə ölkə 37

vilayətə bölünür, vilayətlər də öz növbəsində prefektura, dairə və kommunalardan ibarətdir.

2 mart 1956-cı ildə Mərakeş müstəqil dövlət olmuşdur (öncə Fransanın müstəmləkəsi idi). Qanunvericilik, İslam hüququna, həmçinin Fransa və İspaniyanın vətəndaşlıq hüquqlarına əsaslanır. Dövlət başçısı - Məlik II Həsən, 3 mart 1961-ci ildən hakimiyyətdədir. Həmin gün (taxt-tac günü) ölkədə Milli bayram kimi qeyd olunur. Qanunvericilik hakimiyyəti birpalatalı parlament tərəfindən həyata keçirilir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Avropa İttifaqı ölkələrinə toxuculuq məmulatlarının satışının bərpa edilməsi, idxal edilən malların qiymətlərinin endirilməsi, emiqrant fəhlələrin azalması və Ərəb ölkələri tərəfindən yardımın artması ilə əlaqədar ölkədə iqtisadi vəziyyət sabitləşdi. Fosforit çıxarılması və emalı (fosforit istehsalına görə dünyada ikinci yer), yeyinti, toxuculuq məmulatları, gön-dəri sahələri, sənayenin nisbətən inkişaf etmiş sahələridir.

* * *

Ölkədə turizm fəal inkişaf edir. Sənətkarlıq, kustar istehsal, xüsusilə xalçaçılıq, dulusçuluq, gön-dəri istehsalı, keramika məhsulları (əcnəbi turistlər tərəfindən məmnuniyyətlə alınır), ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir.

Dövlətin paytaxtı Rabat, həmçinin Kasablanka, Mərrakeş, Fes, Meknes şəhərləri, Aralıq dənizi sahilində bir sıra rayonlar və Atlas dağları bölgəsi turistlərin toplaşdıqları əsas mərkəzlərdir.

**Rabat turizm mərkəzi.** Atlantik okeanı sahilində yerləşən Rabat ölkənin iri dəniz portu və paytaxtıdır. Şəhər, dəmir və avtomobil yolları vasitəsilə ölkənin digər yaşayış məntəqələri ilə birləşir. Şəhərin yaxınlığında beynəlxalq dərəcəli aeroport vardır. Rabat XII əsrdə, bir zamanlar dəniz quldurlarının istinad yeri olan qədim Sale şəhərinin xarabalıqları yaxınlığında salınmışdır. 1912-ci ildən 1956-cı ilədək (Mərakeş istiqlaliyyət qazandığı vaxtadək) Rabat, Fransanın Mərakeş protektoratlığı zonasının inzibati mərkəzi olmuşdur.

Müasir Rabat, planlı şəhərsalınması, geniş yaşıl bağları ilə seçilir. Şəhər iki - qədim və yeni hissələrdən ibarətdir. Mədinə adlanan qədim hissə köhnə daş divarlarla əhatə olunmuş, orta əsrlərə aid ərəb şəhərinin cizgilərini qoruyub saxlamışdır. Qüllə-Minarə (hündürlüyü 55 metr), Həsən Məscidi (1195-ci ildə tikilməyə başlamış, sona çatdırılmamışdır), Yaqub əl-Mansur Məscidinin qalıqları (XII əsr), Üdəyya qalası (XII-XVII əsrlər), qala divarlarının dekorativ tağları, Böyük Məscid (XIV əsr), Məlik sarayı və s. Rabatın görməli yerlə-

rindəndir. Mərakeşin paytaxtında universitet, bir sıra muzeylər, o cümlədən: İncəsənət, Arxeologiya, Təbiət elmləri, Poçt, Üdəyya muzeyləri fəaliyyət göstərir.

**Kasablanka turizm mərkəzi.** Kasablanka (ərəbcə "Dar əl-beyda", yəni Ağ ev mənasını daşıyır) Mərakeşin iri iqtisadi, mədəni və turizm mərkəzidir. Atlantik okeanı sahilində yerləşmiş Kasablankada çoxsaylı təmtəraqlı otellər restoranlar, gecə klubları və kazinolar vardır.

Əhalinin sayına görə Kasablanka ölkənin ən böyük şəhəri, Afrikanın isə ən işlək portlarından biridir. Şəhərin dəniz sahili çox gözəldir. Müasir avadanlıqla təmin olunmuş böyük çimərlikləri vardır. II Həsən Böyük Məscidi, Məlik sarayı, Akvarium turistlərin diqqətini daha çox cəlb edir.

**Fes turizm mərkəzi.** Fes ölkənin ən qədim şəhərlərindəndir. Burada, əsası 1100 il öncə qoyulmuş müsəlman universiteti fəaliyyət göstərir. Bir çox məscidlər öz gözəl memarlığı ilə seçilirlər. Məscid-universitet - Qarauyun (IX-XII əsrlər), Attarin və Bu-İnaniyyə mədrəsələri, Mokfi hamamı (hamısı XIV əsr), dar-Batxa İncəsənət muzeyi fəaliyyət göstərir.

**Meknes turizm mərkəzi.** Meknes "Mərakeşin Versalı" adlanır. Okeandan xeyli aralıda yerləşmiş Meknesdə Bab əl-Mansur qədim şəhər qapıları, Dar Came məscidi (XIII əsr), İnaniyyə mədrəsəsi (XVI əsr), Dar əl-Maxzen sultan sarayı (XVII əsr), Böyük bazar turistləri maraqlandıran yerlərdir.

**Mərrakeş turizm mərkəzi.** Mərrakeş Yüksək Atlasın ətəklərində yerləşən vahə-şəhərdir. Asiya və Avropanın bir çox xalqlarının tarixi ilə sıx əlaqədar olan şəhərin tarixi böyükdür. Hazırda mühüm turizm mərkəzidir. Dar si Səid və Bert Flint muzeyləri burada yerləşir. Erkən Mavritaniya memarlığına aid olan Qütbiyyə məscidinin minarəsi (XII əsr) (minarədən baxanda qədim şəhərin ecazkar mənzərəsi və Yüksək Atlasın qarlı zirvələri çox gözəl görünür), gümbəzli Qübbə-əl Büruddiyn pavilyonu (XI əsr), Bab-Aqvenau (XI-XII əsrlər) şəhərin görməli yerlərindəndir. Mərrakeş yaxınlığında bir sıra dağ-idman mərkəzləri yerləşir.

**Tanjer turizm mərkəzi.** Cəbəllütariq boğazının sahilində yerləşmiş Tanjer, Avropanın ən yaxın dəniz sahilindən cəmi 15 km-lik məsafədədir. Dünyanın ən qədim şəhərlərindəndir. E.ə. II əsrdə finikiyalılar tərəfindən əsası qoyulmuşdur. Km-lərlə uzanan sahil boyu subtropik bitkilərlə əhatə olunan qumlu çimərliklərin olması, istirahət məqsədli turizmin inkişafı üçün əlverişli şərait yaradır. Əfsanəyə görə

Herkules*, qızıl alma bitən ağacı axtarmaq üçün buraya, "dünya yollarının kəsişdiyi yerə" gəlmişdir. Müasir Ərəb-Avropa qarışıq həyat tərzi şəhərə xüsusi özünəməxsusluq verir.

Görməli yerlər arasında, Mədinə (qədim şəhər) divarlarını, Böyük Məscidi, Kasba qalasını (hamısı XVII əsr), Dar əl-Maxzen sarayını (XVIII əsr), Qədimlik və Foros muzeylərini qeyd etmək olar. Əl-Hoseymə və Kasablankadan şimalda yerləşən Məhəmməddiyyə, iri dəniz sahili kurortlar hesab olunur.

* * *

Aralıq dənizi və Atlantik okeanı sahillərində Mərakeşin çimərlik ehtiyatları çoxdur. Ötən əsrin 70-80-ci illərində hökumət, dövlətli müştərilər üçün elita tipli turizmin inkişafına köməklik göstərirdi. Sonralar isə kütləvi, ailəvi turizmin inkişafına üstünlük verildi. Nəticədə, qiymət siyasətinin köməyi ilə ölkə bu sahədə hətta İspaniya ilə rəqabət aparmağa başladı. Mərakeş üçün əsas turizm bazarı Fransadır (28 faiz). Çünki, Mərakeş də Tunis kimi bu ölkənin müstəmləkəsi olmuşdur. Sonrakı yerləri, İspaniya - 20 faiz (onun turistləri Cəbəllütariq boğazını keçərək Mərakeşə gəlirlər), Almaniya və Böyük Britaniya (hər biri 11 faiz) tuturlar. Əlcəzairdən şopinq məqsədi ilə ölkəyə turistlərin fəal gəlməsi də müşahidə edilir.

1988-ci ildən - 1991-ci ilədək ölkəyə gələn turistlərin sayı 375 mindən, 1,4 mln. nəfərədək artmış, 1992-ci ildə 2 mln. nəfər təşkil etmişdir. 1995-ci ildə ölkəyə 2,6, 1998-ci ildə 3,2, 1999-cu ildə isə 3,8 mln. nəfər turist gəlmişdir. Xarici turizmdən daxilolmalar 1995-ci ildə 1,3, 1998-ci ildə 1,7, 1999-cu ildə isə 1,9 mlrd. ABŞ dolları təşkil etmişdir. Xarici turistlərin qəbulu üçün ölkədə 128 minə yaxın (2000) mehmanxana və digər yerləşmə vasitələrində yerlər mövcuddur. Mərakeşlilər özləri xarici turizm səfərlərində həvəslə iştirak etmirlər. 1999-cu ildə cəmi 1,6 mln. mərakeşli xarici səyahətlərdə olmuşdur.

---

* ***Herkules*** qədim yunan mifologiyasında ən güclü pəhləvanlardan biri. Herkulesə sitayiş Yunanıstanda geniş yayılmış, sonra başqa ölkələrə keçmişdir.

## 17.5. KENİYA

**Ərazisi: 582,6 min kv. km. Dünyada 46-cı yer.**
**Əhalisi: 28,8 mln. nəfər (2000). Dünyada 36-cı yer.**
**Paytaxtı: Nayrobi (2 mln. nəfər - 2000).**
**Rəsmi dillər: Suaxili və İngilis.**
**Din: Xristianlıq (protestantlar və katoliklər), İslam.**
**Milli pul vahidi: Keniya şillinqi.**

Şərqi Afrikada, Hind okeanı sahillərində yerləşmiş Keniya, qərbdə Uqanda (933 km), şimalda Efiopiya (830 km) və Sudanla (232 km), şərqdə Somali (682 km), cənubda Tanzaniya (769 km) ilə həmsərhəddir. Keniya yerli, masay dilində "Kee-Niyya" - Bəyaz dağ sözündən yaranmışdır. Yerli əhali olan masaylar ölkənin mərkəzi hissəsində yerləşən, sönmüş vulkanı - Afrikanın ikinci ən yüksək zirvəsini (5199 m) belə adlandırırlar. Daim qarla örtülü və buludlarla əhatələnmiş bu dağ zirvəsi yerli xalqlar tərəfindən "müqəddəs" hesab olunur.

Dəniz səviyyəsindən yüksəkdə olmasından asılı olaraq, relyef və iqlim xüsusiyyətlərinə görə Keniyanı üç təbii vilayətə ayırmaq olar. Birinci bəyaz qumlu çimərlikləri olan, tropik iqlimli dar sahil zolağı. Ən isti mövsüm sayılan fevraldan aprelədək olan dövr istisna olmaqla, bütün il boyu okeandan əsən küləklər burada havanın hərarətini xeyli azaldır. Sahilə doğru yaxınlaşan yaylalar, həmçinin isti tropik iqlimə malik olan və ölkənin şimalında yerləşmiş çökəklik ərazilər ikinci təbii vilayətə aiddir. Bu hissələr təbii baxımdan xaricilər üçün əlverişli deyil. Üçüncü vilayət, ölkənin içərilərində dəniz səviyyəsindən 600-1000 m yüksəklikdə yerləşmiş dağlıq rayonlardır. Bu vilayət beynəlxalq turizm üçün daha əlverişlidir. Burada günəşli və isti günlər ilboyu davam edir, gecələr isə sərin keçir. Demək olar ki, bu təbii vilayətlərin bütün rayonlarında iki quraqlıq və iki yağışlı mövsüm vardır. Yağışlar adətən leysan xarakterli olur.

Ölkənin əsas çayları: Tapa (Ozi) və Qalanadır. Rudolf və Viktoriya göllərinin bir hissəsi Keniya ərazisindədir. Əsas faydalı qazıntılar: qızıl, barit, rubin və əhəngdaşıdır.

Nayrobi (2 mln.), Mombasa (440 min), Kisumu (170 min), Nakuru (150 min) ölkənin iri şəhərləri, Mombasa və Lamu isə əsas portlardır. Əhalinin yarıdan çoxunu Bantu etnik qrupundan olan qəbilələr

(kikuyo, luo, luxya) təşkil edir. Digər iri etnik qrup – nilot qəbilələridir. Onlardan əlavə ölkədə avropalılar, ərəblər və Hindistandan köçənlər də yaşayır. Əhalinin 70 faizi xristian (əsasən katolik və protestant), 20 faizi yerli ənənəvi dinlərə sitayiş edənlər, qalanları isə müsəlmanlardır. Orta ömür müddəti: kişilər üçün 50, qadınlar üçün 54 ildir.

Keniya – prezident üsul-idarəli respublikadır. İnzibati cəhətcə ölkənin tərkibinə 7 əyalət və paytaxtı əhatə edən bir dairə daxildir. 12 dekabr 1963-cü ildə ölkə Böyük Britaniyadan müstəqillik aldığından həmin gün Müstəqillik günü – Milli bayram kimi qeyd olunur. İcraedici hakimiyyət, dövlətin və hökumətin başçısı olan prezidentə məxsusdur. Qanunvericilik hakimiyyətini birpalatalı parlament – Milli Assambleya həyata keçirir.

Müasir Keniya iqtisadiyyatının aparıcı sahəsi – kənd təsərrüfatı olsa da, Şərqi Asiyanın sənaye cəhətdən nisbətən inkişaf etmiş dövlətlərindəndir. Sənaye sahələri içərisində neftemalı, toxuculuq, kimya və kənd təsərrüfatı xammalının emalı müəssisələri üstünlük təşkil edir.

* * *

Keniyanın əsas turizm bölgələri nadir milli qoruq-parkları və Hind okeanı sahilləridir. Nayrobi və Mombasa şəhəri mühüm turizm mərkəzləri kimi tanınır.

**Nayrobi turizm mərkəzi.** Nayrobi Keniyanın mərkəzi hissəsində, dəniz səviyyəsindən 1650 m yüksəklikdə yerləşir. Şəhərin və onun ətrafının iqlimi çox əlverişlidir. Nayrobi – ölkənin əsas sənaye və ticarət mərkəzidir. Şəhərdən keçən dəmiryolu onu Mombasa portu və Hind okeanı sahilləri ilə birləşdirir. Embakasi beynəlxalq aeroportu şəhərin 16 km-liyində yerləşir.

Nayrobi, Afrikanın ən gözəl paytaxt şəhərlərindən biridir. Şəhərdə universitet, teatr, Milli muzey (Keniya xalqlarının məişət və mədəniyyətini xarakterizə edən eksponatlar nümayiş etdirilir) fəaliyyət göstərir. Sorsbi bədii qalereyası, Camiyyə məscidi, Kirparam məscidi, məşhur bazar, 1899-cu ildə ingilislər tərəfindən tikilmiş hərbi istehkam diqqəti cəlb edir. İri ayaqqabı müəssisəsi, ölkənin ayaqqabıya olan daxili tələbatının 85 faizini təmin edir. Bu müəssisə, turistlərin sifarişlərinə əsasən fil və kərgədan gönündən, ceyran dərisindən müxtəlif ayaqqabılar hazırlayır.

Ötən əsrin 60-cı illərindən şəhərə turist axınının başlanması, təmtəraqlı otellərin, kinoteatrların və s. tikilməsinə təkan verdi. Müstəqillik illərində Nayrobinin mərkəzində tikilən yeni binalar, şəhərin

müasir görkəmini müəyyənləşdirir. 1973-cü ildə tikilmiş 30 mərtəbəli silindr formalı konfrans-mərkəzin ətrafında hökumət binaları kompleksi, "Hilton" tipli göydələn otel, yüksək qülləli parlament və bələdiyyə kompleksi yerləşir.

**Mombasa turizm mərkəzi.** Mombasa ölkənin iri xarici ticarət portudur. Şəhər qədim tarixə malikdir. Mombasada orta əsrlərə aid Suaxili-Mvita istehkamı qorunub saxlanılmışdır. Bu şəhərdə hind məbədləri, müsəlman məscidləri ilə, Şərq memarlığı, Afrika ənənəvi komaları ilə, qədim yelkənli qayıqlar, müasir laynerlərlə yanaşı addımlayır.

**Hind okeanı sahilləri turizm bölgəsi.** Keniyanın bu bölgəsi istirahət məqsədli turizmin təşkili üçün çox əlverişlidir. Palmalarla əhatə olunmuş qumlu çimərliklər on kilometrlərlə uzanır. Çimərliklər okean tərəfdən mərcan rifləri ilə mühafizə olunur. Lamu, Kipini, Malindi, Kilifi, Şimoni sahil kurortları turistlər və istirahət edənlər arasında daha çox tanınır.

**Milli parklar və qoruqlar turizm bölgəsi.** Bu cür yerlər xarici turistlərin daha çox marağına səbəb olur. Keniyada onlarla belə park və qoruq vardır. Paytaxtın yaxınlığında yerləşən Nayrobi milli parkında 14 min vəhşi heyvanın 40 növü təbii şəraitdə saxlanılır.

Safari sözü Keniyada yaranmışdır. Onun mənası suaxili dilində "səyahət etmək" və ya "səfərə çıxmaq" kimi başa düşülür. Bu gün safarinin bir neçə növü vardır: klassik (ovçuluq) və yeni növləri - savannada piyada gəzinti, fotosafari, sualtı safari və s. Tsavo ölkənin ən iri milli parkıdır. Burada şir, kərgədan, tropik Afrikanın fauna aləminin digər çoxsaylı nümayəndələri, o cümlədən 20 mindən artıq fil saxlanılır. Parkın ərazisi təxminən 8 min kv. mildir. Bu ərazidə mineral mənbələr, şəlalələr (o cümlədən məşhur Luqarde şəlaləsi), ümumiyyətlə mənzərəli landşaft sahələri çoxdur.

Turistlərin vəhşi heyvanların təbii şəkildə həyatını müşahidə etmələrinə imkan yaratmaq məqsədi ilə, milli park və qoruqlarda ətraf mühitə yaxşı uyğunlaşan otellər tikilir. Bu baxımdan Aberdi milli parkı daha çox tanınır, burada möhtəşəm tropik ağacın üstündə "Tritops" mehmanxanası qurulmuşdur.

Digər milli parklar arasında Amboseli nadir heyvanlar qoruğu; milyonlarla flaminqonun uçub gəldiyi Nakuru gölü milli parkı; həmçinin Keniya dağları, Viktoriya və Barinqo gölləri və Naivaşa gölü yaxınlığındakı milli parklar; Mara, Meru heyvan qoruqları xüsusilə seçilir.

Daxili Keniyanın kurort mərkəzləri arasında Nakuru, Naivaşa,

Nyeri, Embu daha çox tanınır. Tape, Vitu, Kipini, Mambrun və digər yaşayış məntəqələrində orta əsrlər suaxili mədəniyyətinin çiçəklənmə dövrünün möhtəşəm tikililərinin xarabalıqları saxlanılmışdır. Malindidən bir qədər aralı sıx tropik meşənin daxilində qədim Qedi şəhərinin qalıqları aşkar edilmiş və onlar toxunulmaz milli mədəniyyət abidəsi elan olunmuşdur.

* * *

Keniyada turizmin sanballı maddi-texniki bazası yaradılmışdır. Hələ 1970-ci ildə ölkədə 10 min mehmanxana yeri var idi. Yeyinti müəssisələri də kifayət qədər idi. Milli park və qoruqlara avtomobil yolları çəkilmişdir. Bundan əlavə hökumət turizmin maddi-texniki bazasının inkişaf planını hazırlamış və həyata keçirir. Bu tədbirlər nəticəsində Keniyada xarici turizmin həcmi sürətlə artmış və bu sahədən daxil olan xarici valyutanın miqdarı da çoxalmışdır. 2000-ci ilə olan məlumata əsasən xarici turistlərin qəbulu üçün ölkədə 23 mindən artıq mehmanxana və digər yerləşmə vasitələrində yerlər mövcuddur.

Qonşu Tanzaniya, ABŞ, Böyük Britaniya və Almaniyadan Keniyaya daha çox turist gəlir. Keniyaya gələn xarici turistlərin sayı ildənilə artır. 1964-cü ildə Keniyaya 65 min, 1968-ci ildə - 262 min, 1972-ci ildə - 444 min, son illərdə isə hər il 1 mln.-a yaxın turist gəlmişdir. Turizmdən orta illik daxilolmalar 500 mln. ABŞ dollarından çoxdur.

Bu məbləğ, ölkə ixracatının mühüm sahəsi olan qəhvə satışı üzrə daxilolmaları üstələyir. Beləliklə, xarici turizm, xarici valyuta qazanılmasının mühüm mənbəyinə çevrilmişdir. Keniyalılar özləri səyahət etməyə həvəskar deyillər. 1999-cu ildə cəmi 350 min keniyalı xarici səfərlərdə iştirak etmişlər.

## 17.6. CƏNUBİ AFRİKA RESPUBLİKASI (CAR)

**Ərazisi: 1,2 mln. kv. km. Dünyada 24-cü yer.**
**Əhalisi: 45 mln. nəfər (2000). Dünyada 27-ci yer.**
**Paytaxtı: Pretoriya (1 mln. nəfər - 2000).**
**Rəsmi dillər: İngilis və Afrikaans.**
**Din: Xristianlıq (əsasən protestantlar) və yerli dinlər.**
**Milli pul vahidi: Rand.**

Afrika qitəsinin cənubunda yerləşmiş CAR, şimalda Botsvana (1840 km), Namibiya (855 km), Mozambik (492 km), Svazilend (430 km) və Zimbabve (225 km) ilə həmsərhəddir. Ölkənin şərqində Lesoto krallığı (909 km) yerləşir. Qərbdə Atlantik, cənubda və şərqdə isə Hind okeanlarının suları ilə əhatə olunur. Marion və Şahzadə Eduard, adaları da CAR-ın tərkibinə daxildir.

Ölkə Cənubi Afrikanın hamar dağlıq ərazisinin geniş bir hissəsində yerləşir. CAR-ın ən yüksək zirvəsi olan Katnin-Pik dağı (3660 m) şərqdəki Əjdaha dağları ərazisindədir. Cənubda nisbətən alçaq Kap dağları uzanır. Qərbdə Namib səhrası, şimal-qərbdə isə Kalaxari səhrasının cənub hissəsi yerləşir. Əsas çaylar: Narınc (Oranj) və Limpopodur.

CAR faydalı qazıntılarla zəngin ölkədir. Burada qiymətli: qızıl, uran, almaz, platin, xrom yataqları ilə yanaşı, digər faydalı qazıntılardan - kömür, dəmir filizi, təbii qaz, manqan, nikel, fosfat, mis və s. çıxarılır.

Ölkə ərazisində orta illik temperatur qənaətbəxş olduğundan (12-20 dərəcə) belə iqlim beynəlxalq turizmin inkişafı üçün əlverişlidir. Bununla yanaşı, 2 min m yüksəklikdə şaxtalar və qışda qar yağması müşahidə olunur. Keyptaunda orta illik temperatur 21 dərəcəyə yaxındır. Qış fəsli, ilin quru dövrüdür, yağış mövsümü oktyabrdan-aprelədək davam edir.

Keyptaun (2,7 mln.), Yohannesburq (2,0 mln.), Durban (1,5 mln.), Pretoriya (1 mln.) və Port-Elizabet (800 min) ölkənin iri şəhərləri, Durban, Keyptaun və Port-Elizabet isə mühüm portlardır.

Əhalinin 73 faizi - Afrika, 13 faizi isə avropalılardan (əsasən holland, ingilis, alman və fransızların törəmələri) ibarətdir. Digər etnik qruplardan asiyalılar üstünlük təşkil edir. Orta ömür müddəti: kişilər üçün 62, qadınlar üçün - 68 ildir.

Dövlət quruluşuna görə CAR respublikadır. İnzibati cəhətcə öl-

kənin tərkibinə doqquz əyalət daxildir. Cənubi Afrika Respublikası 31 may 1910-cu ildə Böyük Britaniyadan müstəqillik qazanmışdır (31 may - Respublika elan edilməsi günü - Milli bayramdır). Dövlət və hökumət başçısı - prezident, ali qanunverici orqan isə parlamentdir.

Cənubi Afrika Respublikası, Afrika qitəsində iqtisadi cəhətdən yüksək inkişaf etmiş yeganə dövlətdir. Emaledici (ÜMM-in 22 faizi), dağ-mədən (13 faiz), maliyyə-kredit (15,2 faiz), ticarət və turizm sənaye sahələri (11,5 faiz), həmçinin nəqliyyat və rabitə (9,1 faiz), kənd təsərrüfatı (5 faiz), balıqçılıq (4,7 faiz) - iqtisadiyyatın əsasını təşkil edir. Xidmət, neft-qaz çıxarma, istehlak məhsulları emalını perspektivli sahələrə aid etmək olar.

* * *

Ölkənin iri şəhərləri, mənzərəli dəniz sahili istirahət bölgələri, çoxsaylı milli parkları turistlərin toplaşdıqları əsas mərkəzlərdir. Cənubi Afrika Respublikasında içərisində vəhşi heyvanlar olan Kryuger, Xluxeuve, Kalaxari-Xemsbok kimi təbii parklar fəaliyyət göstərir; məsələn, Addo milli fil parkı Port-Elizabet, Zebra milli parkı isə Kradok şəhəri yaxınlığındadır; Transilvaniyada ilan parkı fəaliyyət göstərir. Pretoriya yaxınlığında kral gepardları və nadir Afrika giyenalarının yetişdirilməsi ferması vardır. Ölkənin iri şəhərlərinin görməli yerləri və tarixi-memarlıq abidələri ilə tanışlıq, xarici turistlərin marağına səbəb olur.

**Pretoriya turizm mərkəzi.** Bu şəhərin əsası 1855-ci ildə qoyulmuş və o vaxtlar Cənubi Afrika Respublikası Burlarının (Transvaal) ilk prezidenti Andriyes Pretoriusun şərəfinə adlandırılmışdır. Pretoriya, ölkədə sakinlərinin əksəriyyəti avropalı olan bir neçə şəhərdən biridir. Gözəl inzibati binalar, geniş meydanlar, yaraşıqlı xiyabanlar Pretoriyanın bugünkü mənzərəsini təşkil edir. Bələdiyyə bədii qalereyası (Cənubi Afrika incəsənəti); Bədii muzey (XVII əsr holland rəssamlarının əsərlərindən ibarət kolleksiya); CAR-ın ilk prezidenti Paul Kryugerin ev muzeyi; Hərbi muzey; gözəl zoopark Pretoriyanın görməli yerlərindəndir.

**Yohannesburq turizm mərkəzi.** Bu şəhər CAR-ın qızılçıxarma sənayesi mərkəzidir. Şəhərin 55 şaxtasında dünya üzrə qızılın təxminən 60 faizi çıxarılır. Zahiri görünüşü və çılğın həyat ritminə görə onu çox vaxt "Kiçik Amerika" adlandırırlar. Burada gözəl binalar çoxdur. 20-30 mərtəbəli binalarda mehmanxanalar, dağ-mədən şirkətlərinin idarələri, sığorta cəmiyyətləri, banklar və s. yerləşir. Heç bir Cənubi Afrika şəhərində turistləri maraqlandıran bu qədər tennis kortları, qolf oyunu meydançaları, üzgüçülük hovuzları yoxdur.

Cənubi Afrika qayaüstü rəsmlər muzeyi, Afrikan muzeyi, Geologiya muzeyi, Nəqliyyat muzeyi, Qold-Rif-siti mədəniyyət mərkəzi şəhərin görməli yerləri arasında xüsusilə seçilir.

**Keyptaun turizm mərkəzi.** Bu şəhər ölkənin böyük portu və işgüzar mərkəzidir. Parlamentin iqamətgahı, Afrikanın cənubunda ən qədim kitabxana və universitet burada yerləşir. Öz başlanğıcını dəniz portundan götürən və bütün şəhər boyu uzanan, baş küçədə - Adderli-stritdə gözəl binalar, bahalı otellər və mağazalar, müxtəlif şirkətlərin idarələri və banklar yerləşir. Keyptaun müasir səviyyəli çimərlikləri olan, ölkənin əsas dəniz sahili kurortlarındandır. Görməli yerlərindən, Milli Qalereyanı (XVII əsr holland və flamand rəssamlarının əsərlərinin zəngin kolleksiyası); Cənubi Afrikanın mədəniyyət tarixi muzeyini; 1665-ci ildə hollandlar tərəfindən tikilmiş qədim qəsri; Reformat kilsəsini (1699-cu il); Qədim Ratuşa (1755-ci il) və parlament binasını qeyd etmək olar.

**Port-Elizabet turizm mərkəzi.** Şəhərin görməli yerlərindən olan Okeanarium, Frederik istehkamı (1799-cu il), Kral VI Georqun bədii qalereyası (Britaniya və Cənubi Afrika mədəniyyətləri kolleksiyası) turistlərin marağına səbəb olur.

**Durban turizm mərkəzi.** Port şəhəri olan Durbanın dəniz tərəfdən gözəl görünüşü var. Möhtəşəm çoxmərtəbəli binalarda əsasən otellər, sanatoriyalar və pansionatlar yerləşir. Ensiz sahil zolağında lazımi avadanlıqla yaxşı təmin olunmuş qumlu çimərliklər uzanır. Durban, Cənubi Afrikanın ən yaxşı və ən məşhur dəniz kurortudur.

**İst-London turizm mərkəzi.** Bu şəhərdə turistlərin xoşuna gələn zoopark, muzeylər və akvarium vardır. 65 mln. il öncə yaşamış lələkli yelpikləri olan balıq (tselakant) burada saxlanılır.

* * *

CAR, öz təbii sərvətləri, coğrafi mövqeyi, yumşaq iqlimi, zəngin, füsunkar təbiəti və heyvanlar aləmi ilə həm beznesmenlərin, həm də ən tələbkar turistlərin diqqətini cəlb edən ekzotik guşələrdən biridir. CAR-a turist axını daim artır. Ona görə də ölkədə turizm sahəsində vahid dövlət siyasətinin hazırlanması, bu fəaliyyətə rəhbərlik və nəzarət etmək tələb olunurdu. CAR-da turizm sahəsinin böyük hissəsi, dünyanın hər yeri ilə geniş əlaqələri olan iri şəxsi turizm agentliklərinin əlindədir.

Belə ehtimal olunur ki, əgər qızıl ehtiyatları tükənərsə, xarici valyutanın ölkəyə gətirilməsində turizm qızılçıxarma sənayesini əvəz edə bilər. Ölkəyə gələn turistlərin 50 faizi, Böyük Britaniyanın payına düşür. İkinci yerdə isə almaniyalı turistlər durur. Son iki ildə turizm

biznesi ölkəyə 5,0 mlrd. ABŞ dolları cəlb etmişdir. Bundan əlavə, 480 min yeni iş yerləri açılmışdır.

Bununla yanaşı, turizm biznesinə mənfi təsir göstərən amillər də vardır. Bu ilk növbədə ölkədə cinayətkarlığın yüksək səviyyədə olmasıdır. Turizmin ölkə üçün mühümlüyünü və iqtisadi əhəmiyyətini nəzərə alan hökumət, polis orqanları və digər təşkilatlarla birgə turistlərin təhlükəsizliyinin təmin olunması üçün iri miqyaslı proqramı həyata keçirməyə başlamışdır.

Yohannesburq, Keyptaun və Durbanın hava portlarında turistlərə yardım xidmət sahələri yaradılmışdır. Onların əsas vəzifələri, səyahətçilərin və onların yüklərinin təhlükəsizliyini təmin etmək, turistlərə lazımi məlumatlar vermək və digər yardımlar göstərməkdən ibarətdir.

1998-ci ildə ölkəyə 5,9 mln.-a yaxın əcnəbi turist gəlmişdir. Bu göstərici 1997-ci ilə nisbətən 10 faiz və ya 700 min nəfər çoxdur. Həmin göstərici üzrə CAR dünyada 25-ci yerdədir, amma 1990-cı ildə beynəlxalq turizmlə məşğul olan ölkələr arasında 55-ci yeri tuturdu. 1999-cu ildə ölkəyə 6,0 mln.-dan artıq xarici turist gəlmişdir. Turizmdən əldə edilən gəlir 2,5 mlrd. ABŞ dolları təşkil etmişdir. Xarici turistlərin qəbulu üçün ölkədə 111 mindən artıq mehmanxana və digər yerləşmə vasitələrində yerlər mövcuddur (2000). Son illərdə xarici səfərlərə gedən Cənubi Afrikalıların sayı da artmışdır: 1997-ci ildə - 2,9, 1998-ci ildə isə 3,3, 1999-cu ildə isə 3,5 mln.-dan artıq turist xarici səfərlərdə iştirak etmişdir.

# FƏSİL 18.

## AMERİKA ÖLKƏLƏRİNDƏ BEYNƏLXALQ TURİZM

### 18.1. ŞİMALİ AMERİKA ÖLKƏLƏRİNDƏ BEYNƏLXALQ TURİZM

*Qitə ilə ümumi tanışlıq*

**Ərazisi: 24,25 mln. kv. km. (Şimali və Mərkəzi Amerika, Karib hövzəsi və Qrenlandiya daxil olmaqla)**
**Əhalisi: 450 mln. nəfər (2000).**
**Müstəqil dövlətlər: 23.**
**Ərazicə ən böyük ölkə: Kanada.**
**Ərazicə ən kiçik ölkə: Sent-Kits və Nevis.**
**Ən uca zirvə: Mak-Kinli dağı (Alyaska, ABŞ - 6194 m).**
**Ən alçaq nöqtə: Ölüm dərəsi (Kaliforniya ştatı, ABŞ - dəniz səviyyəsindən 86 m aşağıda).**
**Ən böyük göl: Yuxarı göl (Kanada və ABŞ ərazisində 83,3 min kv. km)**
**Ən uzun çaylar: Missisipi (Missuri və Red-Rok çayları ilə birgə), ABŞ - 5971 km; Makenzi (Pis və River çayları ilə birgə), Kanada - 4216 km.**

Şimali Amerika böyüklüyünə görə Avrasiya və Afrikadan sonra üçüncü böyük materikdir. Qitənin konfiqurasiyası bir qədər qeyri-adidir. Bu konfiqurasiya bir neçə iri yarımadanın (Alyaska, Labrador, Kaliforniya, Florida, Yukatan) və körfəzin (Alyaska, Kaliforniya, Meksika, Honduras, Müqəddəs Lavrenti, Hudzon) meydana gəlməsinə səbəb olmuşdur. Qitə şimalda və Karib dənizində çoxsaylı adalarla əhatə olunmuşdur. Cənubda qitə daralır və ensiz uzun quru zolağı vasitəsi ilə Cənubi Amerika ilə birləşir. Bu zolaq öz növbəsində Sakit və Atlantik okeanlarını da bir-birindən ayırır. Qitənin şimal ərazisi Qütb dairəsinə daxil olur. Bu ərazi başdan-başa buzlaq sahələrindən ibarətdir.

Kontinentin ən uca zirvəsi olan Mak-Kinli dağı (yerli dildə Denali) Alyaska yarımadasının şimalında yerləşir. Materikin cənub ucqarlarında quraq səhralara və sıx tropik meşələrə rast gəlmək olar. Karib dənizi adalarının əksəriyyəti tropik bitkilərlə örtülüdür. Şimali Amerikanın ən alçaq yeri olan Ölüm dərəsi seysmik aktiv zonada yer-

ləşir. Yer səthinin tektonik hərəkəti, qitənin qərb hissəsində Qayalı dağların və digər böyük yaylaların formalaşmasına səbəb olmuşdur.

Şimali Amerikada mədəniyyəti, dili və iqtisadi inkişafı müxtəlif səviyyəli ölkələr yerləşmişdir. Şimali Amerika dövlətlərinin böyük əksəriyyəti müstəqildirlər. Qitənin ən böyük adası olan Qrenlandiya, Danimarkanın özünüidarə statuslu əyalətidir.

Qitənin iqtisadi cəhətdən ən yüksək inkişaf etmiş ölkəsi - ABŞ-dır. Sonrakı yerləri Kanada və Meksika tutur. 1994-cü ildə bu ölkələr dünyanın ən böyük Şimali Amerika Azad İqtisadi Zonasının yaradılması və Azad Ticarət haqqında saziş imzalamışlar.

Bu region turizmin bütün göstəricilərinə görə dünyada Avropadan sonra ikinci yer tutur. Dünya turizm hərəkatında Şimali Amerikanın xüsusi çəkisinin böyük olması, bir sıra əlverişli şərtlərin, o cümlədən aşağıdakı amillərin varlığı ilə izah edilir:

- Atlantik, Sakit və Şimal Buzlu okeanları arasında, əlverişli coğrafi mövqeyi;
- çox rəngarəng landşaftı, zəngin rekreasiya ehtiyatları, tarixi, mədəni və təsərrüfat obyektləri olan böyük əraziyə malik olması;
- turistlərin yerdəyişməsi və yerləşdirilməsi üçün servisin təşkili və nəqliyyatın bütün növləri daxil olmaqla, ölkələrin təsərrüfat inkişafının, o cümlədən turizm infrastrukturunun yüksək səviyyədə olması;

İkinci Dünya müharibəsindən sonra ABŞ-ın uzun müddət kapitalist dövlətlərinin lideri olması faktı da az rol oynamamışdır. ABŞ və Kanada dünyada həyat səviyyəsinin ən yüksək olduğu ölkələr sırasındadır. Bu ölkələrdə ingilis dili dövlət dili olduğu üçün, dünyanın ingilis dilli ölkələrindən də turist axınının genişlənməsində də müəyyən müsbət rol oynayır.

Avropada olduğu kimi, Şimali Amerikada da əsas turist axını regiondaxili xarakter daşıyır, daha dəqiq desək, ABŞ, Kanada və Meksika arasında istiqamətlənir. Mərkəzi Amerika ilə turist mübadiləsi də yüksəkdir. Okeanın o tayındakı rayonlar arasında Şimali Amerikaya ən çox turist göndərən region Avropadır.

Əcnəbi turistlərin Şimali Amerikaya səfərlərinin mövsümiliyi, anoloji olaraq Avropadakı kimi dəqiqdir. Bu, hər iki regionun təxminən eyni iqlim şəraitinə malik olmasından irəli gəlir. Statistikaya görə turistlərin ölkələrdə orta qalma müddəti çox deyildir, belə ki, Kanada və Meksikadan ABŞ-a və ABŞ-dan Kanadaya gedən turistlər cəmi bir neçə gün qalırlar, çoxları isə hətta ekskursiyaçı mövqeyində olur və 24 saatdan artıq qalmırlar. Amma okeanın o tayından gələn turist-

lər Kanada və Meksikada, xüsusilə də ABŞ-da öz məzuniyyətlərinin böyük bir hissəsini (iki-üç həftə) keçirirlər.

Avropadan fərqli olaraq, Şimali Amerikada turizm axınının meridianallığı özünü sərt biruzə vermir. Bu, onunla izah edilir ki, burada relyefin, o cümlədən landşaftın dəyişməsi uzunluq dairəsi üzrə deyil, en dairəsi istiqamətində baş verir, bu istiqamətdə kommunikasiyaların, ilk növbədə avtomagistralların inkişafı, məsafələrin böyük olmasına baxmayaraq, çox çətinlik çəkmədən Şimali Amerikanın bütün rəngarəngliyi ilə yaxından tanış olmağa imkan verir.

Axının "antipodluğu", "uzağa və dərinliyə" istiqaməti və "nə qədər uzağa, o qədər də çox müddətə" meyli Şimali Amerikada daha dəqiq əks olunur. Kordilyer dağ sistemi burada Avropa Alplarının funksiyasını yerinə yetirir, Meksika körfəzi, Florida və ABŞ-ın digər cənub əraziləri isə Aralıq dənizi rolunu oynayır.

Şimali Amerika turist qəbulu üzrə dünyanın əsas regionlarından biri olmaqla yanaşı, həm də daha çox turist göndərən bölgədir. Ötən əsrin 60-cı illərinin sonlarına qədər ABŞ və Kanada kimi ölkələrin turizm balansında daim kəsirin olması müşahidə edilirdi.

## 18.1.1. AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI (ABŞ)

**Ərazisi: 9,4 mln. kv. km. Dünyada 4-cü yer.**
**Əhalisi: 275,6 mln. nəfər (2000-ci il). Dünyada 3-cü yer.**
**Paytaxtı: Vaşinqton (700 min nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - İngilis dili.**
**Din: Xristianlıq (əsasən protestant və katoliklər).**
**Milli pul vahidi: ABŞ dolları.**

Şimali Amerikanın mərkəzi hissəsində yerləşmiş ABŞ, şimalda Kanada (8893 km), cənubda Meksika (3326 km) ilə həmsərhəddir. Qərbdə Sakit, şərqdə Atlantik okeanlarının, cənubda Meksika körfəzinin suları ilə əhatə olunur. Vircin, Quam, Şərqi Samoa adaları, həmçinin Kuba adasındakı Quantanamo hərbi-dəniz bazası ABŞ-a məxsusdur.

ABŞ dağlar və geniş düzənliklər diyarıdır. Ölkənin relyefi, qərbdə dağlıq, şərqdə əsasən düzənliklərdən ibarətdir. Ölkənin qərbində dağlıq yaylalar və Kordilyer möhtəşəm dağ sistemi yerləşir. Bu ərazinin şərq hissəsi hündürlüyü 4000 m-dən yüksək olan Qayalı dağlarla bitir. Kordilyerin ən uca zirvəsi - Uitnidir (4418 m). Ölkənin şərqində Appalaç dağları yerləşir. Onun ən uca zirvəsi - Mitçell dağıdır (2237 m). Ölkənin və ümumiyyətlə Şimali Amerikanın ən uca zirvəsi sayılan Mak-Kinli dağı (6194 m) Alyaskada yerləşir. Qitənin ən aşağı - çökək ərazisi olan Ölüm dərəsi (-86 m) Kaliforniya ştatındadır. Kordilyer və Appalaç dağları arasında Mərkəzi və Böyük düzənliklər, həmçinin Meksika çökəkliyi yerləşir.

Əsas çaylar - Missisipi (Missuri ilə birgə), Kolorado, Kolumbiya və Yukondur. Ölkənin şimal-şərqində Böyük göllər (Yuxarı, Miçiqan, Huron, Eri, Ontario) sistemi yerləşir. Ölkədə buzlaq mənşəli çoxlu sayda göllər vardır. Yuta ştatında yerləşən Böyük Duzlu göl də buzlaq mənşəlidir.

ABŞ kömür, neft, təbii qaz, qızıl, fosforit, polimetallar kimi faydalı qazıntı yataqlarına, həmçinin tərkibində qiymətli oduncağı olan təbii meşə ehtiyatlarına malikdir.

Ölkənin iqlimi, ümumiyyətlə yumşaqdır, yayı isti, qışı mülayim keçir. Soyuq, qarlı qış, yalnız dağlıq və şimal rayonları üçün səciyyəvidir. Cənub ştatları (Kaliforniya, Florida) daha isti bölgələrdir. Mər-

kəzi hissə, kontinental iqlimi, az yağıntılı olması ilə seçilir. Yanvarın orta temperaturu mənfi 25 dərəcədən (Alyaska), müsbət 20 dərəcəyədək (Kaliforniya) dəyişilir. İyulda isə ölkənin qərb sahillərində orta temperatur 14-20, şərq sahillərində isə 16-25 dərəcə olur.

Nyu-York (ətrafı ilə birlikdə 15,0 mln.), Los-Anceles (4,5 mln.), Çikaqo (4 mln.), Hyuston (2,0 mln.) və Filadelfiya (1,9 mln.) ölkənin ən böyük şəhərləri, Boston, Qonolulu, Lonq-Biç, Los-Anceles, Mayami, Norfolk, Yeni Orlean, Nyu-York, Portlend, San-Fransisko, Hyuston, Filadelfiya isə ən böyük portlarıdır.

ABŞ əhalisinin əksəriyyəti (75 faiz) Böyük Britaniya, Fransa, İrlandiya, İtaliya, Polşa, Ukrayna, Belorus, Rusiya və s. Avropa ölkələrindən köçüb gələnlərin nəsilləridir. Əhalinin 12 faizini afrikalılar (XVIII əsrdə Afrikadan zorla gətirilən qulların nəsilləri), 3 faizini Asiya-Sakit okean irqinin nümayəndələri 1 faizini, Şimali Amerika hinduları (ABŞ-ın yerli əhalisi) təşkil edir. ABŞ-da həmçinin "Latinos"lar adlanan Latın Amerikası ölkələrindən gələnlər də yaşayır.

Əhalinin 56 faizi protestant, 28 faizi katolik, 3 faizi islam, 2 faizi yəhudi, bir o qədər də pravoslav etiqadlıdır. Orta ömür müddəti: kişilər üçün 74,2, qadınlar üçün 79,9 ildir.

ABŞ - federativ respublikadır. Ölkənin tərkibinə 50 ştat və paytaxtın yerləşdiyi Kolumbiya dairəsi daxildir. Beyker Houlend, Kingem-Rif, Şərqi Samoa, Quam, Puerto-Riko, Vircin, Miduey, Navasa, Palmira, Yeyk ada və əraziləri, ABŞ-dan asılı olan yerlərdir. ABŞ 4 iyul 1776-cı ildə İngiltərədən müstəqillik əldə etdiyindən həmin gün Müstəqillik günüdür; 22 fevral ilk prezident Corc Vaşinqtonun doğum, 11 noyabr - Veteranlar günü Milli bayramlar kimi qeyd olunur.

Qanunvericilik ingilis ümumi hüququna əsaslanır. Dövlətin və Hökumətin başçısı 4 il müddətinə seçilən prezidentdir. İcraedici hakimiyyət prezidentə və prezident administrasiyasına məxsusdur. Qanunvericilik fəaliyyətini ikipalatalı parlament (Konqress) həyata keçirir. Konqress Senat (Yuxarı palata) və Nümayəndələr Palatasından (Aşağı palata) ibarətdir.

ABŞ - dünyanın aparıcı sənaye dövlətidir. Neftçıxarma (dünyada ikinci yer), metallurgiya (mis, aliminium, qurğuşun istehsalı üzrə yüksək göstəricilər), avtomobilqayırma, aerokosmik, kimya, elektron, yeyinti, ağac emalı və s. sənaye sahələri yüksək səviyyədə inkişaf etmişdir. Əlverişli iqlim şəraitinin və məhsuldar torpaqların mövcudluğu kənd təsərrüfatının inkişafı üçün zəmin yaradır. Ölkədə müxtəlif çeşidli kənd təsərrüfatı məhsulları istehsal olunur - ət, qarğıdalı, lob-

ya, sorqo* (hər üçü üzrə dünyada birinci), buğda (üçüncü), şəkər qamışı (ikinci yer), kartof - aqrar istehsalın aparıcı sahələridir. ABŞ balıqçılıq üzrə dünyanın qabaqcıl ölkələrindən biridir. Kənd təsərrüfatı məhsullarının xeyli hissəsi başqa ölkələrə ixrac edilir. Xarici ticarətin həcminə görə, ABŞ dünyanın bütün ölkələrindən üstündür.

* * *

Səyahət və turizm, ölkənin milli iqtisadiyyatına gəlir gətirən mühüm bölmələrindən biridir. Turizm sənayesində 9 mln.-dan çox adam çalışır. Turizm, səhiyyədən sonra ölkədə ən çox insanın işlə təmin olunduğu sahədir.

1880-ci illərdə ABŞ-da ilk səyahət agentlikləri yaranmışdır. Onlar əsasən gəmi və qatarlara bilet satışı ilə məşğul olurdular. Agentliklərdən bir neçəsi isə turlar təşkil edirdilər. Hazırda ABŞ-da təxminən 43 min səyahət agentliyi fəaliyyət göstərir. Agentliklər komissiyon** güzəştlər hesabına işləyirlər. Agentliklər, daxili reyslərə satılan hər aviabilet üçün - 10, beynəlxalq reyslərdə isə - 11 faiz komissiyon haqqı alır. Mehmanxananın hər nömrəsinin icarəsi zamanı komissiyon güzəştlər 10-15, kruiz paketinə görə isə 11-14 faiz arasında olur.

Milli turizm büroları mehmanxanaların, nəqliyyat sisteminin, tur təşkilatçıları və bələdçilərin işlərinin yüksək standartlara uyğun olmasına nəzarət edirlər. Bu büroların əsas funksiyaları - öz ölkələri haqqında müsbət, təqdirəlayiq rəy, müəyyən marşrutlar üzrə səfərlərə tələbat yaratmaqdan, reklamla məşğul olmaqdan və turistləri müxtəlif informasiyalarla təmin etməkdən ibarətdir.

Meksika körfəzi, Atlantik okeanı və Böyük göllərin sahilləri, xüsusilə də cənubda Florida ərazisi, rekreasiya baxımından çox qiymətlidir. ABŞ-ın qərbindəki milli parklar və qoruq zonaları bu bölgənin dağlıq ərazilərinin rəngarəng təbiətinin nümunələridir.

Kolorado çayının Böyük Kanyon (Qrand Kanyon) milli parkı, ölkənin görməli yerlərindəndir. Park, Arizona ştatında Yer kürəsinin ən böyük dərəsində yerləşir. Onun eni 8-25, uzunluğu 1500 km-dir. Bu ərazi məşhur milli parkdır. Hər il buraya 3,5 mln. turist gəlir.

Təbii ahəng daşından ecazkar qüllələri olan Mono gölü Kaliforniya ərazisindədir. Gölün suyu Sakit okeanın suyundan üç dəfə duzludur. Niaqara şəlaləsi, iri şəhərlərin memarlıq baxımından gör-

---

* ***Sorqo*** - taxıllar fəsiləsindən birillik və çoxillik ot bitkisi. Xarici görünüşünə görə qarğıdalını xatırladır. Sorqo taxıl, texniki və yem bitkisidir. Dənindən un, yarma, spirt, nişasta və s. hazırlanır. Dəni və yaşıl kütləsi yemdir.

** ***Komissiyon*** - razılaşmanın icra edilməsinin bir tərəfin digər tərəfə həvalə etmək qaydası ilə kommersiya əməliyyatı.

məli yerləri turistləri cəlb edir.

**Vaşinqtonda** Kapitoliya – ABŞ Konqresinin binası (1793–1865), Ağ Ev – ölkə prezidentinin rəsmi iqamətgahı (1792–1829), Corc Vaşinqtonun möhtəşəm abidəsi, Yunan üslubunda tikilmiş Avraam Linkolnun abidə-məbədi, Arlenqton xatirə qəbristanlığı, Mum fiqurları milli tarixi muzey, Milli incəsənət qalereyası (Amerika Luvru), ABŞ Milli Muzeyi, Milli hava uçuşları və kosmonavtika muzeyi şəhərin görməli yerlərindəndir.

**Nyu-Yorkda** Fransa tərəfindən hədiyyə edilmiş və ABŞ-ın simvoluna çevrilmiş Azadlıq abidəsi (1886) Manhettenin göydələnləri (onların arasında hündürlüyü 500 m olan Empayr-Steyt-Bildinq (1930-1931), BMT-nin mənzil-qərargahı burada yerləşir); Rokfellər mərkəzi (1931-1940) – 15 göydələndən ibarətdir, burada mədəniyyət və ticarət müəssisələri yerləşir. Beynəlxalq ticarət mərkəzində yerləşən iki göydələn (1971-1973) 11 sentyabr 2001-ci il tarixdə misli görünməmiş terror aktı nəticəsində dağılmış, 400-dən çox ofisin yerləşdiyi 110 mərtəbəli binaların qalıqları altında minlərlə insan həlak olmuşdur. Şəhərin əsas teatrlarının yerləşdiyi Taymskver, Linkoln incəsənət mərkəzi, Metropoliten muzeyi, Müasir incəsənət muzeyi, Solomon Quqqenheym muzeyi (impressionizmdən müasirliyədək, bədii əsərlər toplusu) və s. şəhərin görkəmli yerləridir.

ABŞ-da turizm əsasən üç regionda Şimal-Şərq, Florida və Kaliforniya bölgələrində cəmləşmişdir. Ölkə əhalisinin 40 faizi bu hissədə yerləşən Nyu-York, Pensilvaniya, Virciniya, Men, Nyu-Hempşir, Vermont, Massaçusets, Konnektikut, Rod-Aylend, Nyu-Cersi, Delaver, Merilend və Qərbi Virciniya ştatlarında yaşayır.

**Şimal-Şərq regionu** mərkəzi Nyu-York sayılan, dar sahil zolağı boyu yerləşən şəhərlər aqlomerasiyalarını əhatə edir. Bu region, rəngarəng turizm ehtiyatları ilə məşhurdur. Buranın iqlimi yayda dəniz sahili istirahətin, qışda isə idmanın qış növlərinin təşkili üçün yararlıdır. Şimali Amerika tarixi abidələrlə zəngin olmasa da, onların çox hissəsi bu regionda yerləşir. Avropadan gələn piliqrimlər* Boston yaxınlığında sahilə çıxmış (1620-ci ildə) və məskən salmışlar. Onların bir neçə evdən ibarət yaşayış binaları indiyədək saxlanılır. Bir sıra qədim şəhərlərdə küçələr öz ilkin görünüşlərində olduğu kimi saxlanılmışdır. Bu region öncə Nyu-York olmaqla müasir mədəniyyət və biznes mərkəzi kimi tanınır.

Çimərliklər zolağı şimalda Keyp-Koddan başlayaraq, cənubda

---

* ***Piliqrim*** (italyan mənşəli sözdür, əcnəbi, yadelli mənalarını bildirir) – zəvvar, səfərə çıxmış dindar, yolçu, səyahət edən şəxs nəzərdə tutulur.

Keyp-Xatterasa qədər uzanır. Bu ərazidə sahillər qumludur. Norfolk və Lonq-Aylend şəhərləri arasında Virciniya-Biç, Oşn-Siti, Uildud və Atlantik-Siti kimi kurort şəhərləri şəbəkəsi uzanır. Lonq-Aylenddən şimaldakı sahillər yelkənli qayıqsürmə idmanı ilə məşğul olmaq üçün çox əlverişlidir. Nyuport rayonunda Nyu-Yorkun varlı sakinlərinin şəxsi çimərlikləri ilə birgə bahalı və zəngin villaları da yerləşir. Men ştatının sahilləri daşlı-kəsəkli olduğundan turizm üçün əlverişli deyil. Burada yerləşən Arkadi Milli parkı ölkənin tanınan parkıdır və ildə 4 mln.-a yaxın qonaq qəbul edir.

**Floridada** turizm XIX əsrin 70-ci illərində, qış istirahət zonası kimi inkişaf etməyə başlamışdı. Varlı amerikalılar qış aylarında istirahət etmək məqsədi ilə burada evlər tikirdilər. Amma XX əsrin 20-ci illərində bu ərazidə çox dəyişikliklər edildi və region iri turizm mərkəzinə çevrildi. 1999-cu ildə region 4,0 mln. qonaq qəbul etmişdir. Ştatın büdcəsinə turizmdən daxilolmalar 43,0 mlrd. dollar təşkil etmiş, 1,3 mln. iş yeri (ştatda olan bütün iş yerlərinin 25 faizi) turizm sahəsinin payına düşmüşdür.

Floridanın Atlantik okeanı sahillərində Mayami-Biçdən, Deyton-Biçə qədər çoxsaylı kurortlar yerləşir. Mayami-Biç çoxmərtəbəli, müasir otelləri olan iri istirahət və əyləncə mərkəzi kimi tanınır. Şəhərdə konqres biznesi də inkişaf etmişdir. Son zamanlar Mayami-Biçə pekic-turlarla gələn avropalı turistlər arasında bu şəhər çox məşhurlaşmışdır. Bir qədər şimalda yerləşən Palm-Biçdə imkanlı adamların villaları tikilmişdir. Bölgənin qərb sahillərində Fort Mayersdən Sankt-Peterburqa qədər olan ərazidə narın qumlu çimərliklər uzanır. Tempa, Pass-a-Qrill-Biç, Kliruoter, Breydenton, Sarasota, Venis, Sanibel, Neypls kimi tanınmış kurortlar bu ərazidə yerləşir. Floridanın cənubunda Everqleyds milli parkı salınmışdır. Ştatın əsas görməli yerləri - Orlando yaxınlığındakı Disneylend və Kanaveral burnunda yerləşən Kosmik tədqiqatlar mərkəzi hesab edilir.

Florida ştatında salınmış müasir və rahat avtomobil yolları sistemi, ştatlararası sürətli yollar ilə birləşir. Həmin ştata gələn avtoturistlər əsasən şimal hissədə dayanmağa üstünlük verirlər. Təyyarə ilə gələn turistlər isə aeroportlara yaxın yerlərdə, Mayami ilə Palm Biç arasındakı Qold-Kostda (cənubda) cəmləşirlər. Tranzit turizm Floridada çox inkişaf etməsə də o, bu sahədə də mühüm yer tutur. Mayami dəniz portu Amerikanın hər yerindən gələn kruiz sərnişinləri üçün "qapı rolunu" oynayır və hər il 1 mln.-a yaxın turist buradan yola düşür.

Gələnlərin sayı və xərclənən pulların həcminə görə, əhalisi 30,0

mln. yaxınlaşan **Kaliforniya**, ABŞ ştatları arasında qabaqcıl yerdədir. Ştat əhalisinin 90 faizi əsasən Sakit okean sahillərində yerləşən şəhərlərdə yaşayır. Burada daxili, bir günlük ekskursiyalar və istirahət günləri turizmi üstünlük təşkil etsə də Kaliforniya ABŞ-ın beynəlxalq turizminin mühüm mərkəzlərindən biri olaraq qalır.

Kaliforniyanın sahilləri çox müxtəlifdir: burada həm qumlu sahillərə, həm də qayalıq ərazilərə rast gəlmək olar. Ştatın daxili hissələrində istirahət və səyahət etmək üçün əlverişli yerlər vardır. Kaliforniyada ölkənin ən qədim milli parklarından biri, hər il 3 mln.-a yaxın qonaq qəbul edən Milli Yosemit parkı, Lassi Pik adlı vulkanı olan Milli park, Kinq-Konyon Milli parkı kimi məşhur yerlər vardır. Sekvoyya milli parkında, dünyanın ən qədim ağaclarından olan Sekvoyya qorunub saxlanılmışdır. Bir sıra ağacların hündürlüyü 100, gövdəsinin diametri 10 m-ə çatır. Ən qədim ağacların təxminən 2500 il yaşı var.

Ştatın əsas turizm mərkəzi **Los-Anceles** şəhəridir. Los-Anceles ayrı-ayrı şəhərlər, sürətli avtoyolların birləşdiyi iri qovşaqdır. Ölkənin kino sənayesinin mərkəzi - Hollivudda (məşhur kinostudiyada) ekskursiyalar keçirilir; dünyanın ən iri okeanariumlarından olan Merilend, uşaqlar və böyüklər üçün dünyada ən iri əyləncə mərkəzlərindən olan Disneylend; möhtəşəm Kuin-Meri okean layneri Los-Ancelesdə yerləşir. Los-Ancelesdən cənubda San-Diyeqo və ştatın şimalında yerləşən San-Fransisko Kaliforniyanın mühüm turizm mərkəzləridir. Ştatın sahil kurortları arasında Santa-Krus, Monterey, Lonq-Biç, Nyuport-Biç xüsusilə seçilir.

Kaliforniya ilə yanaşı, bu bölgədə digər mühüm turizm mərkəzləri də yerləşir. Məsələn, Nevada ştatında məşhur qumar oyunu biznesi ilə tanınan **Las-Veqas** və Arizona ştatındakı **Qrand-Kanyonu** göstərmək olar. Las-Veqas hazırda ABŞ-ın sürətlə inkişaf edən şəhərlərindəndir. 1999-cu ildə şəhərə gələn 18,0 mln. qonaq burada 10,0 mlrd. dollar xərcləmişlər. Şəhərin mehmanxana təsərrüfatının inkişafına böyük məbləğdə vəsait xərclənir. Dünyanın ən iri otellərindən olan "Nyu-York" və "MGM" otelləri buradadır.

ABŞ-ın digər ştatları da turist obyektləri ilə zəngindir. Məsələn, Texasda gözəl çimərliklər, Hyüstonda Kosmik Tədqiqatlar Mərkəzi vardır. Vayominq, Kolorado, Montana, Yuta və s. dağlıq ştatlar zəngin rekreasiya ehtiyatlarına malikdirlər.

* * *

ABŞ-a gələn xarici qonaqlar iki əsas qrupa bölünür: qonşu Meksika, Kanada və okeanın o tayından gələn qonaqlar. Birinci qrup ölkəyə gələnlərin 62 faizini təşkil edir. Kanadalıların əksəriyyətini Flo-

rida cəlb edir, lakin Nyu-York, Havay adaları və Kaliforniya da onlar üçün mühüm turist mərkəzləridir. Kanadalıların və Meksika turistlərinin çoxu ABŞ-a yerüstü nəqliyyatla gəlirlər (kanadalıların 77 faizi avtomobillərlə gəlir).

Qitələrarası qonaqların əksəriyyəti Avropa (47 faiz) və Asiyadan (31 faiz) gələn turistlərdir. Avropalı səyahətçilər arasında ABŞ-a üstünlük verənlər - Britaniyalılar (ildə 2,5 mln. nəfər), Asiyalı səyahətçilər arasında isə yaponlardır (3,5 mln. nəfər). Yaponiyalı qonaqların üçdə ikisi Havay və Quam adalarında olmağa üstünlük verirlər. Qitələrarası qonaqlar, ölkəyə səyahət zamanı orta hesabla iki ştatda olurlar.

Qitələrarası qonaqlar üçün ABŞ-ın əsas qapıları - Nyu-York (29 faiz, əsasən Avropadan gələnlər), Mayami (11 faiz), Los-Anceles və San-Fransiskodur. Son iki şəhər birlikdə ölkəyə gələn qitələrarası qonaqların 20 faizini (xüsusilə də Asiyadan gələn qonaqları) qəbul edir. San-Fransisko yaxınlığında yerləşən Silikon vadisi, yüksək inkişaf etmiş texnologiyanın əsas mərkəzi olduğu üçün, turistlərin, xüsusilə də Yaponiyadan gələnlərin diqqətini cəlb edir.

Xarici qonaqların regionlar üzrə bölünməsinə nəzər saldıqda, turistlərin 17,9 faizinin Nyu-York rayonunda cəmləşdiyi müşayidə olunur, Sakit okean sahilləri - 19,5, Florida və yaxın dəniz sahili ştatlarla birgə - 18,5 faiz təşkil edir.

ABŞ dünyanın yeganə ölkəsidir ki, onun əhalisi səyahətə, xüsusilə xarici ölkələrdə turist səfərlərində olmağa üstünlük verir. Məsələn, 1999-cu ildə xarici səyahətlərdə 58,4 mln. nəfər iştirak etmiş, onların da böyük hissəsi Meksikaya (16 mln.) və Kanadaya (13 mln.) getmişdir. 1999-cu ildə getmə turizminin 25 faizi - Avropanın, 17 faizi - Uzaq Şərqin, 10 faizi isə Karib hövzəsi ölkələrinin payına düşmüşdür.

Amerikalıların məzuniyyətlərinin qısa müddətli (iki həftə) olmasına baxmayaraq, ABŞ-ın daxili turizm bazarı böyükdür. Bu, ölkə ərazisinin böyüklüyü və əhalinin çoxluğu ilə izah olunur. Amerikalılar əsasən istirahət günlərində ölkə daxilində səyahətə çıxmağı sevirlər. 1999-cu ildə öz ölkəsi daxilində keçirilən məzuniyyət günlərinin sayı 3 gecədən çox olmamışdır. Səfərlərin əksəriyyətinə (80 faiz) avtomobillərlə, 15 faizi isə 1500 km-dən uzaq məsafələrə təyyarə ilə gedilmişdir. Son zamanlar sahil kurortları və göllərin ətrafındakı istirahət zonaları, amerikalılar arasında daha məşhur olduğu üçün, dağ kurortlarına və iri şəhərlərə gedişlərin sayı azalmışdır.

ABŞ-da öz istirahətlərini keçirən, alış-verişlə məşğul olan, dost-

larını və qohumlarını görməyə gedən, teatr və muzeylərlə maraqlanan və s. səyahətçilər, müxtəlif tələbatlı iri vahid bir turizm bazarı təşkil edirlər. Onların bir hissəsi ən yaxşı otellərdə yaşamağa və restoranlarda nahar etməyə üstünlük verirlər. Son zamanlar qısa müddətli səyahətlərə və ucuz restoranlarda qidalanmaya üstünlük verilir. Belə vəziyyət ölkənin turizm sənayesində nəzərə alınır. Nyu-York, Çikaqo, San-Fransisko kimi şəhərlərdə, turistlərin orta təbəqəsi üçün kiçik və nisbətən ucuz qiymətli yeni otellər tikilmişdir.

ABŞ-ın yaşlı əhalisinin 30 faizdən çoxunun yaş həddi 55-dən yuxarıdır. Bu təbəqə daha çox səyahət edir. Amerika Təqaüdçülər Assosiasiyası, ahıl əhalini müdafiə edən iri təşkilatdır. Bu Assosiasiyanın "Olsen Trevelord LTD" şirkəti tərəfindən idarə edilən səyahət bürosu, təqaüdçülərə güzəştli qiymətlərlə fərdi səyahətlər təklif edir. ABŞ dünyanın əsas turizm ölkələrindən biridir. Dünya reytinqində xarici turistlərin qəbulu üzrə üçüncü (48,5 mln. nəfər, 1999-cu il), turizm fəaliyyətindən əldə olunan gəlirə (74,9 mlrd. dollar) və getmə turizminin həcminə görə birinci yer tutur (58,4 mln. nəfər).

Turizm sənayesi (daxili və xarici) dövlətə hər il 60 mlrd. dollara qədər vergi ödəyir, xarici turistlərin ABŞ-da xərclədikləri məbləğ, amerikalı turistlərin ölkədən kənarda xərclədikləri məbləğdən 15,6 mlrd. dollar artıqdır (1999).

## 18.1.2. KANADA

**Ərazisi: 9,97 mln. kv. km. Dünyada 2-ci yer.**
**Əhalisi: 30,6 mln. nəfər (2000). Dünyada 36-cı yer.**
**Paytaxtı: Ottava (1 mln.-dan artıq - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dillər - İngilis və fransız.**
**Din: Xristianlıq (əsasən protestant və katoliklər).**
**Milli pul vahidi: Kanada dolları.**

Şimali Amerikada yerləşmiş Kanada, qitənin şimal hissəsini və yaxınlıqdakı adaları (Kanada Arktika arxipelaqı, Nyufaundlend, Vankuver və s.) əhatə edir. Cənubda və şimal-qərbdə ABŞ ilə həmsərhəddir. Şərqdə Atlantik, qərbdə Sakit, şimal-şərqdə isə Şimal Buzlu okeanlarının suları ilə əhatə olunur. Ölkə ərazisini fiziki-coğrafi baxımdan 4 hissəyə ayırmaq olar: 1. Səthi düzənlik və yaylalardan ibarət olan Kanada qalxanı; 2. Kanada Kordilyerləri; 3. Böyük Düzənliklər; 4. Appalaç dağları.

Şərq hissədə yerləşmiş Kanada qalxanı* demək olar ki, ölkə ərazisinin yarısını tutur. Kanada Kordilyerləri qərbdə yerləşir. Kanadanın ən yüksək zirvəsinin - Loqan dağının (5591 m) yerləşdiyi Sahil dağ silsiləsi və Qayalı dağlar, ölkənin əsas dağ silsilələridir. Düzənliklər Müqəddəs Lavrenti çayına qədər, ölkənin bütün cənubu boyu uzanır. Bu çayın vadisindən başlayaraq, ölkənin şərqinədək Appalaç dağ silsiləsi yüksəlir.

Kanada göllər diyarıdır. Ən böyük göllər sırasına dünyanın ən iri şirin sulu gölü olan Yuxarı (83,3 min kv. km.), həmçinin Ayı, Vinnipeq, Huron, Qul, Eri və Ontario aiddir. Müqəddəs Lavrenti, Saskaçevan, Yukon və Freyzer isə ölkənin əsas çaylarıdır.

Toronto (4,5 mln.), Monreal (3,3 mln.) və Vankuver (1,6 mln.) ölkənin ən böyük şəhərləri, Qalifaks, Kvebek, Sent-Cons, Vankuver - dəniz, Tander-Bey və Toronto isə göl portlarıdır.

Kanada faydalı qazıntılarla zəngin ölkədir. Onun əsas sərvətləri: nikel, sink, qızıl, gümüş, qurğuşun, molibden, kömür, neft, təbii qazdır. Mühüm təbii ehtiyatlar sırasına balıq və meşə sərvətləri aid edilir.

Ölkə torpaqlarının böyük hissəsi donmuş torpaqlardan ibarətdir. Kanadanın qərb və şərq sahillərində əsasən mülayim və subarktik iqlim mövcuddur. Burada qış yumşaq, yay isə çox da isti olmur. Ölkənin

---

* ***Qalxan*** - əsas hissəsi müxtəlif tərkibli qədim yaşlı maqmatik, kənarları isə çökmə suxurlarla örtülmüş ərazi.

mərkəzində iqlim kəskin kontinental və qurudur. Dağlıq rayonlarda isə iqlim sərt keçir. İyulun orta temperaturu, cənub bölgələrdəki 21 dərəcədən, Kanada Arktik arxipelağında 4 dərəcəyədək dəyişir. Yanvarın orta temperaturu şimalda mənfi 35, cənubda mənfi 4 dərəcədir.

Ölkə əhalisinin 80 faizi cənub hissədə, ABŞ sərhəddindən 160-170 km radiusda yaşayır. Əhalinin 40 faizini ingilis-kanadalılar, 27 faizini fransız-kanadalılar (əsasən Kvebekdə əyalətində yaşayırlar) təşkil edir. Avropa millətlərinin digər nümayəndələri (italyanlar, almanlar, polyaklar, ukraynalılar, hollandlar, macarlar və b.) ölkə əhalisinin 20, yerli sakinlər (hindular, eskimoslar və b.) - 10 faizini təşkil edir. Orta ömür müddəti: kişilər üçün 75, qadınlar üçün 82 ildir.

Kanada - federativ dövlətdir. İnzibati cəhətcə 10 federal əyalətdən (Albert, Britaniya Kolumbiyası, Kvebek, Manitoba, Yeni Şotlandiya, Nyu-Bransuik, Nyufaundlend, Ontario, Saskaçevan, Yukon) və 2 ərazidən (Şimal-Qərb və Labrador) ibarətdir.

1 iyul 1867-ci ildə Kanada müstəqillik qazanmışdır. 1982-ci ilədək ölkədə Böyük Britaniya konstitusiyası qüvvədə idi. Hazırda Kanada parlamenti müstəqil olaraq konstitusiyaya dəyişikliklər edə bilər. Qanunvericilik Böyük Britaniya, yalnız Kvebek əyalətində Fransa qanunvericiliyinə əsaslanır.

1 iyul - Müstəqillik günü - Milli bayramdır. Kanada Britaniya "Birliyinin" üzvü olduğu üçün, Britaniya monarxı formal olaraq dövlət başçısı hesab olunur və onu Kanadada nümayəndəsi - general qubernator əvəz edir. Real icraedici hakimiyyət Baş nazir başda olmaqla hökumətə məxsusdur. Qanunvericilik hakimiyyəti ikipalatalı parlament tərəfindən həyata keçirilir. Parlament Senat (Yuxarı palata) və İcmalar palatalarından (Aşağı palata) ibarətdir.

Adambaşına düşən məhsul istehsalının həcminə, yüksək səviyyədə inkişaf etmiş iqtisadiyyatına, zəngin təbii ehtiyatlarına, ixtisaslı işçi qüvvəsinə, müasir sənaye istehsalının səviyyəsinə görə Kanada dünya ölkələri arasında qabaqcıl mövqe tutur.

Neft, təbii-qaz, sellüloz-kağız, ağacemalı, əlvan metallurgiya, avtomobilqayırma, əsas sənaye sahələridir. Kanada həmçinin buğda və arpa istehsalı və ixracı üzrə dünyanın əsas aparıcı ölkələrindəndir. Balıq və balıq məhsulları mühüm ixracat mallarıdır.

Dünya təsərrüfatı əlaqələrinə sıx inteqrasiya olmuş Kanadanın dünya ixracatında payı 4 faiz təşkil edir. ABŞ bu ölkənin mühüm ticarət tərəf müqabilidir (ölkə ixracının 70 faizi), Kanada da öz növbəsində Amerika malları və xidmət növlərinin iri idxalçısıdır (ABŞ ixracının 20 faizə yaxını Kanadanın payına düşür).

* * *

Kanadanın bənzərsiz gözəl təbiəti turistləri heyran edir. Ölkədə milli parklar və qoruqlar çoxdur. Elk-Aylend (Maral adası); ən böyük bizon sürüsü olan Vud-Buffalo; buzlaqları, gölləri, isti su mənbələri olan Casper; dağ kurortunun olduğu, ölkənin qədim Banff milli parkı. Kanadanın ABŞ-la sərhədində, dünyanın ən gözəl şəlalələrindən biri - məşhur **Niaqara şəlaləsi** yerləşir. Şəlalənin daha mənzərəli "Böyük nal" adlanan hissəsi Kanada ərazisindədir. ABŞ turistlərinin şəlalənin bu hissəsini görməsi üçün Niaqaranın üzərindən "Dostluq körpüsü" salınmışdır.

Bu ərazilərdə bir zamanlar yaşamış irokez hindu qəbilələrinin dilində bu söz "Niakera" kimi səslənir. Hindular Niaqara şəlaləsini müqəddəs hesab edirdilər. İldə bir dəfə qəbilənin ən qəşəng qızlarını güllərlə bəzədilmiş qayıqlarda buraya gətirərək ilahi qüvvə hesab etdikləri şəlaləyə qurban verirdilər.

Niaqaranın suları təqribən on yeddi mərtəbəli binanın hündürlüyü (51 metr) qədər məsafədən aşağı tökülür. Təbiətin bu möcüzəsinin yaxınlığında söhbət etmək mümkün deyil. Onun gur şırıltısı bütün səsləri batırır. Şəlaləyə yaxınlaşan turistlərə xüsusi qulaq örtükləri verilir, çünki şəlalənin güclü səs-küyünə uzun müddət dözmək mümkün deyil. Yaşılaçalan su kütləsi böyük yüksəklikdən iti sürətlə aşağı tökülərək köpüklənir. Axına düşən qayıq və hər hansı bir əşya məhvə düçardır.

Niaqarada su kütləsinin miqdarı daimidir, çünki çay Amerikanın Böyük Göllərinin artıq sularını okeana axıdır. Alimlər sübut edir ki, Niaqara çayının və şəlaləsinin 9 min il yaşı vardır. Avropalılar bu möcüzəni ilk dəfə XVII əsrdə görmüşlər. Şəlalənin yaxınlığında ilk otel 200 il öncə tikilmişdir.

Həmin dövrdən başlayaraq, şəlalənin gözəl mənzərəsini seyr etmək, toxunulmamış təbiətin qoynunda istirahət etmək məqsədilə hər il on milyonlarla insan bu yerlərə səyahət edir. Şəlalə yaxşı işıqlandırıldığı üçün, turistlər onu axşamlar da seyr edə bilirlər. Turistləri cəlb etmək məqsədi ilə, şəlaləyə yaxın yerləşmiş Niaqara-Fols şəhərində qədim avtomaşınlar, qiymətli əşyalar, Niaqara şəlaləsi muzeyləri yaradılmışdır.

Red-Dir çayı (Albert əyaləti) vadisində dinozavrlar parkı yerləşir. Burada, Kordilyer dağlarının yamaclarında qədim heyvanların iri skeletləri və sümüklərinin qalıqları aşkar edilmişdir. Çox böyük dino-

zavrların bərpa edilmiş maketləri, parkın təbii landşaftında yerləşdirilmişdir. UNESCO-nın qərarı ilə bu park dünya irsi obyektlərinə aid edilmişdir.

Ölkənin müxtəlif şəhərlərində keçirilən çoxsaylı festivallar, mədəni, idman tədbirləri və tamaşalar, məsələn Ontarioda Şekspir, Ottavada çiçək və Kanada mədəniyyətləri, Niaqarada üzüm və şərab, Kvebekdə Şerbruk "Festival de Kanton" (Kanada fransızlarının mədəniyyəti və mətbəxi), Kempbeltonda balıq, Dofin şəhərində Ukrayna festivalı turistlərin böyük marağına səbəb olur. Ölkədə 2100 muzey və qoruq fəaliyyət göstərir.

**Ottavada** - Milli qalereya, təbiət, elm və texnika, Milli Mədəniyyət mərkəzləri, Nalaymoda - petroqliflər (qayaüstü rəsmlər) muzeyi, etnoqrafiya muzeyi, Viktoriyada - klassik avtomobillər muzeyi, Sanderberd (hindu totemləri* kolleksiyası) parkı, Fort-Rodd milli tarixi park, Edmontonda - ağac məmulatı memarlığı, Saskatunda - Kanada Ukrayna muzeyi, Regində - Telorama - telekommunikasiya muzeyi, Vinnipeqdə - insan və təbiət muzeyi, Portaj-la-Preridə - hinduların tarixi kəndi, Kanadanın mənimsənilməsi muzeyi fəaliyyət göstərir.

Ölkənin digər iri şəhərlərinin görməli yerləri ilə tanışlıq da böyük maraq doğurur. Məsələn, Torontoda - məşhur Çin incəsənəti kolleksiyası olan Kral muzeyi, Bədii qalereya (Henri Murun əsərləri), Sİ-EN-EN teleşirkətinin 553 metr hündürlüyü olan qülləsi vardır.

**Kvebekdə** - ursulinlər** monastrı (1641), Notr-Dam-de Kvebek kilsəsi (1650), Notr-Dam de Viktuar kilsəsi (1688), anqlikan Baş kilsəsi (1793), yaşayış binaları (XVI-XVIII əsrlər), İç qala və Parlament binası (XIX əsr), Vankuverdə - Dəniz muzeyi və dəniz akvariumu vardır.

Tarixi-coğrafi, iqtisadi və mədəni səviyyəsinə, xarici turistlərin qəbuluna görə **Monreal**, Şimali Amerika qitəsinin şəhərləri arasında aparıcı yerlərdən birini tutur. Zəngin turist-ekskursiya potensialına malik olan Monreal, biznesmenləri, alimləri, mədəniyyət və incəsənət xadimlərini, idmançıları və adi turistləri cəlb edir.

Şəhərin özünəməxsus xüsusiyyətlərindən danışarkən, qeyd et-

---

* ***Totem*** - onun nəsli mənasını bildirən Ocibve hindu qəbilələrinin dilindən götürülmüş söz. Totem heyvan və cansız təbiətin bir predmetinə edilən etiqad. Totemi öldürmək və yemək olmaz. Digər mənası isə qəbilənin totemi həkk olunmuş gerb.

** ***Ursulinlər*** - əsası XVI əsrdə İtaliyada qoyulmuş, Müqəddəs Ursulinanın adını daşıyan katolik qadın rahibələri.

mək lazımdır ki, Monreal, mədəni dəyərləri, Avropa üslubunda tarixi-memarlıq tikililəri və həyat səviyyəsi ilə Şimali Amerikanın digər şəhərlərindən müsbət mənada fərqlənir.

Şəhərin mərkəzində yerləşən Mont Royal dağını ziyarət etmək turistlərə tövsiyyə olunur. Buradakı baxış meydançasından şəhərin cənub hissəsinin geniş mənzərəsi açılır. Qədim şəhərdə piyada gəzintini Plas de Armsdan başlamaq daha məqsədəuyğundur. Onun yaxınlığında Şimali Amerikanın ən iri məbədlərindən biri, 1829-cu ildə tikilmiş, 7 minə qədər dindar üçün nəzərdə tutulmuş Bazilik de Notr Dam kafedral kilsəsi yerləşir. 1685-ci ildə əsası qoyulmuş San-Seplis seminariyası da ona yaxındır. Notr Dam küçəsi, Ədliyyə sarayı, Bələdiyyə idarəsi, şəhər sakinlərinin və turistlərin sevimli istirahət yeri olan Jak Kartye meydanına qədər uzanır. Yaxınlıqda Şate de Ramezay tarixi muzeyi yerləşir. Muzey 1705-ci ildə, Monrealın on birinci qubernatoru Şate de Ramezay tərəfindən tikilmiş və onun şərəfinə adlandırılmışdır.

San-Paul və Bonsekur küçələrinin kəsişdiyi yerdə, şəhərin bizim dövrümüzə qədər saxlanılan qədim dini tikili Notr-Dam-de Bonsekur yerləşir (1772). Şəhərin mərkəzində yerləşən İncəsənət muzeyi ölkənin ən qədim muzeylərindəndir, muzeyin ekspozisiyasında qədim Misir incəsənətindən başlayaraq, XX əsrin abstrakt rəssamlıq əsərlərinədək geniş palitra öz əksini tapmışdır. Monreal Planetariumunu; Mak Kord Kanada tarixi muzeyini; Kanada memarlıq mərkəzini; Vestmaunt rayonunda yerləşən, dindarların ziyarət yeri olan Müqəddəs İosif kilsəsini; Mezonev parkında yerləşən, 1976-cı il yay Olimpiya oyunlarının keçirildiyi Olimpiya kompleksini ziyarət etmək də tövsiyyə edilir.

Monrealın mərkəzi hissəsində, yerin altında, iqlim şıltaqlığının təsirindən asılı olmayan Yeraltı şəhər yerləşir. Şəhərdə mağaza, bank, poçt, restoran, kafe və digər təşkilatlar fəaliyyət göstərir. Yeraltı keçidlər vasitəsilə bir kompleksdən digərinə, hətta metro stansiyalarına, dəmiryol vağzalına çox asanlıqla və tez keçmək olur.

Monrealın özündə və ətrafında istirahət və müxtəlif əyləncələr üçün bütün avadanlıqlarla təmin olunmuş çoxsaylı parklar mövcuddur. Monrealdan 30 km cənubda Hemminqford adlanan yerdə yaradılmış Safari parkında dünyanın bütün regionlarından gətirilmiş vəhşi heyvanların 600-dən çox növü saxlanılır. Parkda çoxlu attraksionlar fəaliyyət göstərir. Milli parkların ərazisində və onların ətrafında çoxsaylı mehmanxanalar və motellər vardır.

* * *

İstehlakçının tələbatını ödəyə bilən geniş şəbəkəyə malik olan və dövlət tərəfindən maliyyə köməkliyi göstərilən turizm, Kanada iqtisadiyyatının gəlirli sahələrindən biridir. Kanadanın daxili turizm modeli ABŞ-ın daxili turizm modelini xatırladır. Ontario və Kvebek kimi cənub əyalətlərinin turizm mərkəzləri, həmçinin Sakit okean sahilləri (Albert və Britaniya Kolumbiyası) daxili turistlərin toplaşdıqları əsas mərkəzlərdir.

Kanadalılar ABŞ üçün iri turizm bazarıdır. Hər il 17-18 mln. kanadalı ABŞ-ın sərhədyanı, həmçinin Kaliforniya və Florida ştatlarına səfər edirlər. ABŞ-ın, Meksikanın və Karib dənizi hövzəsinin yay və qış kurortları, Kanadanın getmə turizmində böyük rol oynayır.

Turizm bazarı konyukturasının təhlili göstərir ki, kanadalılar turist səfərlərini planlaşdırarkən, təklif olunan turist xidmətinin qiyməti onlar üçün həlledici amildir. Ona görə də cənubda yerləşmiş ABŞ və Karib regionunun turizm mərkəzləri kanadalılar üçün daha çox cəlbedicidir. Bu yerlərə turların qiyməti, Avropa turlarından 40-50 faiz ucuzdur.

Kanadalılar Avropaya, əsasən Böyük Britaniyaya qohumları və dostları ilə görüşmək məqsədi ilə gedirlər. Hər il ölkə hüdudlarından kənara 19 mln. kanadalı səyahət edir. Kanadalılar qızğın səyahət sevənlərdir. Onların xaricdə xərclədikləri pul əcnəbi turistlərin qəbulundan qazanılan məbləğdən çoxdur.

Ödəniş balansında yaranmış defisitdən narahat olan federal hökumət, ölkə daxilində turizmin inkişafı üçün fəal tədbirlər həyata keçirir. Məsələn, turist mərkəzlərinin inkişafı, maddi-texniki bazanın yaradılması, reklam kampaniyalarının aparılması üçün hökumət xüsusi yardımlar ayırır.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Kanadada gəlmə turizmi durğunluq dövrü keçirirdi, turistlərin sayı 14,8 və 15,4 mln. arasında olurdu. 1993-cü ildən tənəzzül dövrü başlandı. ABŞ-dan gələn turistlərin sayı 1987-ci ildə 12,7 mln. nəfər olduğu halda 1992-ci ildə 11,8 mln. nəfər təşkil etmişdir. Cənubi-Şərqi Asiya (əsasən Yaponiya və Honkonq) Kanadanın gəlmə turizmində böyük rol oynayır.

Xarici turistləri ölkəyə cəlb etmək məqsədi ilə hökumət bir sıra qanunvericilik aktları qəbul etmişdir. Turistlər üçün bir sıra güzəştlər nəzərdə tutulur. Məsələn, mehmanxanalarda yaşamaqla əlaqədar alınan mallara və xidmətlərə qoyulan vergilər geri qaytarılır, turistlər gömrük rüsumundan azad edilir, şəxsi istifadə üçün gətirilən əşyalara,

ov və idman məqsədi ilə gətirilən silahlara və s. rüsum tətbiq edilmir.

Milli turizm məhsulunun bazarlarda təbliği (reklamı və marketinqi) üçün federal büdcədən hər il 100 mln. dollar pul xərclənir. Görülən tədbirlər nəticəsində, Kanadada son illərdə xarici turizmin dinamik inkişafı tendensiyası özünü göstərir. Belə ki, ölkəyə 1998-ci ildə 18,8, 1999-cu ildə isə 19,6 mln. xarici qonaq gəlmişdir. Bu göstərici üzrə Kanada dünyada 8-ci yeri tutur. Həmin dövr ərzində turizm fəaliyyətindən daxil olmalar müvafiq olaraq 9,4 və 10,3 mlrd. dollar təşkil etmişdir. Bu göstərici üzrə isə Kanada dünyada 9-cu yeri tutur.

Kanadanın turizm biznesində 600 mindən artıq insan çalışır. Ölkədə 4,5 mindən artıq turist agentliyi, 300 mindən artıq mehmanxana və digər yerləşmə vasitələrində yerlər mövcuddur, 40 mindən artıq isə restoran, kafe, bar və digər əyləncə yerləri fəaliyyət göstərir.

Turizm, ümumiyyətlə Kanada iqtisadiyyatında mühüm yer tutur. Ölkədə yeni iş yerlərinin açılmasında əhəmiyyətli rolu olan turizm sənayesi, xarici valyutanın və investorların cəlb olunması, ölkə regionlarının iqtisadi inkişafında da aparıcı mövqedə durur. Turizmdən daxil olan hər bir mlrd. dollar gəlirdən, dövlət 450 mln. dollar vergi qazanır. Həmin məbləğ aşağıdakı kimi bölünür: onun 230 mln. dövlətin, 160 mln.-u əyalətlərin, 60 mln.-u isə bələdiyyələrin büdcəsinə daxil olur.

## 18.1.3. MEKSİKA

**Ərazisi: 1,9 mln. kv. km. Dünyada 14-cü yer.**
**Əhalisi: 98,6 mln. nəfər (2000). Dünyada 11-ci yer.**
**Paytaxtı: Mexiko (20 mln. nəfərdən artıq - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - İspan dili.**
**Din: Xristianlıq (əsasən katoliklər).**
**Milli pul vahidi: Peso.**

Şimali Amerikanın cənub-qərbində yerləşmiş Meksikaya Sakit okeanda və Kaliforniya körfəzindəki bir sıra adalar da məxsusdur. Ölkə şimalda və şərqdə ABŞ (3326 km), cənubda Qvatemala (962 km) və Belizlə (250 km) həmsərhəddir. Qərbdə Sakit okeanın, şərqdə Karib dənizi və Meksika körfəzinin suları ilə əhatə olunur.

Şərqi və Qərbi Syerra-Madre dağları ilə əhatə olunan Meksika yaylası ölkə ərazisinin böyük hissəsini təşkil edir. Sitlaltepetl (5699 m), Popokatepetl (5452 m), Orisaba (5747 m) vulkanları bu yayladadır. Bu region vaxtaşırı seysmik fəallığı ilə seçilir. Ölkənin şərqində, Yukatan yarımadasında geniş sahil düzənliyi uzanır. Ölkənin Qərb bölgələri Kaliforniya yarımadasının cənub hissəsində yerləşir. Bu bölgənin qərbi düzənliklərdən, şərqi dağ silsilələrindən ibarətdir. Səth suları ilə zəif təmin olunmuş Meksikanın əsas çayı Rio-Bravo-del-Nortedir.

Qvadalaxara (3,5 mln.), Monterrey (3,0 mln.), Pueblo (1,2 mln.), Leon, Syudad-Xuares ölkənin iri şəhərləri, Mansanilyo, Syudad-Madero, Salina-Krus, Tuspan isə böyük portlarıdır.

Meksika faydalı qazıntılarla zəngin ölkələrdən biridir. Burada neft, təbii qaz, gümüş, daş kömür, qızıl, mis, qurğuşun, sink kimi qiymətli yataqlar vardır.

Ölkə iqliminin müxtəlifliyi, onun relyefinin mürəkkəb quruluşa malik olması ilə izah olunur. Meksikanın şimal hissəsinin iqlimi, az yağıntılı və temperaturun kəskin dəyişkənliyi ilə seçilən (yanvarın orta temperaturu 13-15, iyulunki 28-31 dərəcədir, şaxtalar 10, istilər isə 40 dərəcəyədək ola bilir) kontinental subtropik iqlimdir. Qalan ərazi isə tropik iqlim qurşağındadır. Orta aylıq temperatur burada çox yüksəkdir. Məsələn, iyulda 27-28 dərəcə olur.

Ölkə əhalisinin yarıdan çoxu (55 faiz) - ispan-hindu metis-

ləridir[*]. Onlardan başqa ölkə əhalisinin 29 faizini hindular, 15 faizə qədərini isə avropalılar təşkil edir. Orta ömür müddəti: kişilər üçün 70, qadınlar üçün 77 ildir. Əmək qabiliyyətli əhalinin 32 faizi – xidmət, 26 faizi – kənd təsərrüfatı, 11 faizi – sənaye sahələrində çalışır.

Ölkənin rəsmi adı – Meksika Birləşmiş Ştatlarıdır. Dövlət quruluşuna görə federativ respublikadır. İnzibati cəhətcə ölkənin tərkibinə 31 ştat və paytaxtın yerləşdiyi bir federal dairə daxildir. Ölkə 16 sentyabr 1810-cu ildə müstəqillik qazanmışdır. Müstəqillik elan olunduğu gün – Milli bayram kimi qeyd olunur. Dövlət və hökumətə rəhbərliyi prezident, qanunvericilik hakimiyyətini Senat (Yuxarı palata) və Deputatlar palatalarından (Aşağı palata) ibarət parlament həyata keçirir.

İqtisadi baxımdan Meksika, Latın Amerikasının nisbətən inkişaf etmiş ölkələrindən biridir. Son illərdə ölkə, iqtisadi inkişaf sahəsində böyük müvəffəqiyyətlər qazanmışdır. Neft, neft-kimya (neft və neft məhsulları ölkənin əsas ixrac məhsullarıdır), maşınqayırma (o cümlədən, avtomobilqayırma), dağ-mədən, metallurgiya, kimya, toxuculuq, yeyinti sahələri daha çox inkişaf etmişdir. Əsas kənd təsərrüfatı məhsulları – buğda və çəltikdir. Ölkədə həmçinin qəhvə, pambıq, şəkər qamışı, qarğıdalı becərilir, heyvandarlıq və balıqçılıq inkişaf etdirilir.

* * *

Meksika, mayya və asteklər kimi qədim Amerika xalqlarının yaratdıqları mədəniyyətin mövcud olduğu ölkələrdən biridir. Ölkədə mayya və asteklərin qorunub saxlanılan qədim şəhərlərində piramidalar, məbədlər, daş tikililər, yaşayış evlərinə baxış turistləri çox maraqlandırır. Bu tikililər arasında Mexiko yaxınlığında (Hindu dilində Teotiukana – "allahlarla insanların təmasda olduğu yer" mənasındadır), Mayor və Teopansolko məbədləri, məşhur Günəş daşı (diametri 3,6 m və çəkisi 24 ton olan dairəvi daş təqvim) turistlərdə xüsusilə böyük maraq oyadır.

**Mexiko** – şəhərinin mərkəzi hissəsində asteklərin kral sarayının qalıqları, kilsə (XVI-XVII əsrlər); Müqəddəs Məryəm bazilikası; De la Professa, San-Aqustin, San-Losaro, San-Xuan-de-Dios kilsələri (XVII-XVIII əsrlər), Sikkə evi, De-los-Virreyes sarayı (1696-1703), Üç mədəniyyət meydanı (astek, ispan müstəmləkə dövri və müasir) xüsusi maraq doğurur. Çoxsaylı muzeylər arasında – Milli antropologiya, Anauokalya, Kuikuilko, Virreynato, Milli tarix muzeyləri fərqlənir.

D.Riveranın, D.Sikeyrosun, X.Oroskonun mozaika və rəsmləri ilə bəzədilmiş universitet şəhərciyi (1949-1954), Olimpiya (1956),

---

[*] *Metis* (fransız mənşəli sözdür) – müxtəlif irqlər arasındakı nikahdan törəmiş nəsil.

"Asteka" stadionları (1968) və digər çoxsaylı tikililər müasir memarlığın gözəl nümunələridir.

Meksikanın digər şəhərlərində də çoxsaylı qədim kilsələr, saraylar, monastırlar, ictimai binalar və s. qorunub saxlanılmışdır. Pueblada oyma və bəzəkli evlər, San-Luis-Potokda - barokko üslubunda kilsələr (XVII-XVIII əsrlər), Keretaro və Saltilyoda saraylar və kilsələr (XVIII əsr), Qvadalaxarada San-Fransisko (XVI-XVII əsrlər) və Santa-Monika kilsələri (1720-1733), Oaxakada kilsə (XVI-XVIII əsrlər), La Soledad kilsəsi (1682-1690), Santa-Dominqo monastırı (1535-ci ildə əsası qoyulmuşdur), Meridada kilsə və Montexo evi (XVI əsr), Monterreyda Plaza-Saraqos Baş meydanı və müstəmləkə dövrü üslubunda kilsə (1600), Yepiskop sarayı (1782) turistlərin diqqətini cəlb edir.

Meksika xarici turizm sahəsində kifayət qədər təcrübəyə malik ölkələrdən biridir. Nadir və gözəl təbiət (iki okeanın sahilləri), X.Kolumba qədərki abidələr, müstəmləkə dövrü memarlığı, yalnız çimərlik turizmi deyil, ixtisaslaşdırılmış turlar təşkil etməyə imkan verir. Meksika həm kütləvi, həm də elitar turizmi inkişaf etdirmək istiqamətini götürmüşdür. Burada qolf*, sualtı üzgüçülük və sualtı ov klublarının fəal tikintisi aparılır, tarixi, etnoqrafik, ekoloji maraqları əks etdirən xüsusi ixtisaslaşdırılmış marşrutlar hazırlanır.

Meksikada mehmanxanaların və restoranların, aeroport və sürətli yolların, milli parkların və turizm mərkəzlərinin müasir şəbəkəsi yaradılmışdır. Mehmanxana yerlərinin sayına görə (365 min) ölkə dünyada səkkizinci, Latın Amerikasında ikinci yeri tutur. Son illərdə ölkədə doqquz iri turizm mərkəzi istifadəyə verilmişdir.

Meksika ABŞ və Kanadanın turist potensialını maksimum cəlb edir. Şimali Amerikada Azad Ticarət haqqında müqavilə bunun üçün geniş perspektivlər açır. Hazırda Meksikada qolf meydançaları olan istirahət mərkəzləri yaradılır. Qolf oynayan turistlərin 80 faizi ABŞ və Kanadadan gəlirlər. Xarici investorlar Meksikanın sahil ərazilərinə daha çox sərmayə qoyurlar. Məsələn, ABŞ-dan gələn turistlər üçün Meksika körfəzi və Sakit okeana fərdi dəniz səyahətlərinin təşkili valyuta gətirən yaxşı mənbədir.

* * *

Meksika turizmi Şimali Amerikanın daxili turizmindən xeyli dərəcədə asılıdır. ABŞ turistləri Meksikaya gələn xarici qonaqların 90

---

* ***Qolf*** (ingilis mənşəli sözdür) - təbii düzəngahda, balaca bərk topla oynanılan oyun. Topu işarə qoyulmuş cığır vasitəsilə yerdə qazılmış kiçik dairəyə salmaq lazımdır.

faizini təşkil edir. Qonaqların təxminən 4 faizi Kanada, qalanları isə Avropadan gələnlərdir. Ölkəyə bir günlük gələn turistlər əsasən, sərhədyanı şəhərlərdə toplaşırlar. Belə turistlər suvenirlərin istehsalı və satışı, oyun (qumar) biznesi üzrə ixtisaslaşanlardır. Kaliforniya ilə sərhədyanı qonşu olan Tixuana şəhəri buna əyani sübutdur. Meksikaya uzun müddətə gələn turistlər - ya dəniz sahillərində istirahətə gələnlər, ya da ölkənin mədəni irsi ilə maraqlananlardır.

Turizm, Meksikanın iqtisadiyyatı üçün mühüm rol oynayır. Bu ölkə büdcəsinə xarici valyuta gətirən ikinci sahə hesab olunur. Təbii ki, o həm də əmək bazarında əhalini işlə təmin edən bir sahədir. Tədqiqatlar göstərir ki, kanadalılar və avropalılar Meksikada amerikanlılardan artıq pul xərcləyir və ölkədə daha çox qalmağa üstünlük verirlər. Böyük turist ehtiyatlarına və turizm sahəsinin inkişafı üçün nəhəng potensiala malik olan Meksika, son illərdə dünyanın aparıcı turizm ölkələri sırasına daxil olmuşdur.

1992-ci ildə xarici ölkələrdən Meksikaya gələnlərin sayı, 4,3 mln. nəfər olduğu halda, 1996-cı ildə bu rəqəm təxminən beş dəfə artaraq 21,4 mln. nəfərə çatmışdır. 1999-cu ildə ölkəyə 19,0 mln. xarici turist gəlmişdir. Turizm fəaliyyətindən əldə olunan gəlir 7,9 mlrd. ABŞ dolları olmuşdur. Xarici turistlərin qəbulu üçün, ölkədə 840 min mehmanxana və digər yerləşmə vasitələrində yerlər mövcuddur (2000). Bu göstərici üzrə Meksika dünyada onuncu yerdədir. 1999-cu ildə 10,4 mln.-a yaxın meksikalı xarici səfərlərdə olmuş, 40 mln.-a yaxın meksikalı turist isə öz ölkəsi daxilində səyahət etmişlər.

## 18.2. KARİB HÖVZƏSİ ÖLKƏLƏRİNDƏ BEYNƏLXALQ TURİZM

Karib hövzəsi və ya Vest-Hind, Karib dənizində səpələnmiş adalar zənciridir. Bu subregiona Baham, Kiçik və Böyük Antil adaları (Kuba, Haiti və Puerto-Riko) aiddir. Haiti adasında iki dövlət: Haiti və Dominikan Respublikası yerləşir. Karib hövzəsi adaları əsasən Mərcan rifləri ilə əhatə olunmuş qayalıq ərazilərdən ibarətdir. Adalar zəngin tropik bitki örtüyünə malikdir. Ada sakinlərinin əksər hissəsi, banan, tütün, şəkər qamışı plantasiyalarında işləmək üçün Afrikadan gətirilmiş qulların nəsilləridir. Adalarda avropalılara, asiyalılara və qarışıq irqlərin nümayəndələrinə də rast gəlmək olar.

Tropik iqlim şəkər qamışı, tütün, meyvə, pambıq və qəhvə becərilməsi üçün olduqca əlverişlidir. Balıqçılıq ənənəvi sahədir. Regionun iqtisadiyyatının əsas sahələrindən biri də turizmdir. Əlverişli iqlim, isti dəniz, qumlu çimərliklər, bol balıq ehtiyatı, ekzotik bitkilər - turistlər üçün "əsl cənnət" sayıldığından, bu ərazilər Şimali Amerika və Avropa turistlərini daha çox cəlb edir.

Trinidad və Tobaqo, Sent-Lüsiya, Baham, Haiti, Yamayka, Kuba, Dominika, Qrenada, Puerto-Riko, Barbados, Dominikan Respublikası, Sent-Kits və Nevis, Sent-Vinsent və Qrenadina, Antiqua və Barbuda bu subregionda yerləşən dövlətlərdir. Kuba, Dominikan Respublikası və Baham adalarında beynəlxalq turizm nisbətən yaxşı inkişaf etmişdir.

## 18.2.1. KUBA

**Ərazisi: 111,0 min kv. km. Dünyada 99-cu yer.**
**Əhalisi: 11,4 mln. nəfər (2000). Dünyada 66-cı yer.**
**Paytaxtı: Havana (2,3 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - İspan dili.**
**Din: Xristianlıq (əsasən katoliklər).**
**Milli pul vahidi: Peso.**

Karib hövzəsində yerləşmiş Kuba dövləti eyni adlı adada və yaxınlıqda olan bir sıra adalarda yerləşir. ABŞ tərəfindən icarə edilmiş (lakin Kuba ərazisi olaraq qalır) Quantanamo hərbi-dəniz bazası ilə sərhəddin uzunluğu 29,1 km-dir. Kuba, cənubda Karib dənizinin, cənub-qərbdə Yukatan boğazının, şərqdə Küləktutan boğazın (ölkəni Haiti adasından ayırır), şimalda isə Kubanı Florida ştatından (ABŞ) ayıran Florida körfəzinin suları ilə əhatə olunur.

Kubanın ərazisi əsas etibarı ilə düzənliklərdən ibarətdir, yüksəkliklər və orta hündürlüklü dağlar ümumi ərazinin dörddə birini təşkil edir. Dağ massivləri bütün ölkə boyu səpələnmişdir: mərkəzdə Syerra-de-Trinidad, qərbdə Syerra-de-los-Orqanos, cənub-şərqdə Syerra-Maestra massivi yerləşir. Ölkənin ən yüksək zirvəsi olan Turkino (1972 m) Syerra Maestradadır. Ölkənin nisbətən böyük çayı - Kautodur.

Santyaqo-de Kuba (450 min), Kamaquey (300 min), Olgin, Santa-Klara, Matansas, Syenfuyeqos, Pinar del-Rio ölkənin nisbətən böyük şəhərləri, Havana, Kardenas, Mansanilyo, Matansas, Santyaqo-de Kuba isə ən böyük portlarıdır.

Adanın yaxınlığından keçən Qolfstrim isti axını, Kubanın iqliminə xeyli təsir göstərir. Orta illik temperatur 24 dərəcəyə yaxındır. Sahil ərazilərlə müqayisədə dağlıq bölgələrin iqlimi daha sərindir. Bütün ərazidə rütubət yüksəkdir. Maydan - oktyabra qədər yağışlı, noyabrdan-aprelədək quru mövsümdür. Əsas faydalı qazıntıları: nikel, kobalt, mis, manqan, xromdur.

Kubada ən böyük etnik qruplar - mulatlar* (51 faiz) və avro-

* ***Mulat*** (ispan mənşəli sözdür) - avropoid (ağ) və neqroid (qara) irqləri arasında nigahdan törəmiş nəsil.

palılardır (35 faiz). Ölkədə həmçinin afrikalılar (11 faiz), çinlilər (1 faiz) və digər xalqların nümayəndələri yaşayır. Orta ömür müddəti: kişilər üçün 65, qadınlar üçün 69 ildir.

Dövlətin rəsmi adı – Kuba Respublikasıdır. Dövlət quruluşuna görə prezident respublikasıdır. Faktiki olaraq ölkədə avtoritar* kommunist rejimi yaradılmışdır. İnzibati cəhətcə ölkə 14 əyalətə və bir bələdiyyə ərazisinə bölünür. 1898-ci ildə Kuba İspaniyadan müstəqillik alsa da, 20 may 1902-ci ilədək ABŞ-ın təsiri altında olmuşdur. 26 iyul – Milli üsyan (1953) və 1 yanvar – Azadlıq günü (1959) Milli bayramlar kimi qeyd olunur.

İcraedici hakimiyyət, Dövlət Şurasının (dövlət başçısı) və Nazirlər şurasının sədrinə (hökumət başçısı) məxsusdur. Qanunverici hakimiyyət, birpalatalı parlament – Milli Assambleya tərəfindən həyata keçirilir.

SSRİ tərəfindən verilən subsidiyaların** kəsilməsi, şəkər satışından gələn gəlirin azalmasına səbəb olmuş (şəkər istehsalının ümumi həcminin yarıdan çoxu keçmiş Sovet respublikalarına ixrac olunurdu), nəticədə ölkə iqtisadiyyatı dərin böhran keçirməyə başlamışdır.

Ümumi bölüşdürülmə (kartoçka) sistemi saxlanılmaqla, son illərdə ölkənin ərzaq probleminin həlli üzrə müəyyən irəliləyişlər əldə olunmuşdur (1994-cü ilə nisbətən dövlət dotasiyasının 85 faiz azalması ilə kənd təsərrüfatı məhsullarının həcmi 1999-cu ildə 13 faiz artmışdır). Amma bu artım, yalnız əkinçiliyin inkişafı sayəsində təmin olunmuş, heyvandarlıqda isə vəziyyət o qədər də qənaətbəxş deyildir.

Qərb ölkələri ilə ticarət-iqtisadiyyat sahəsində əlaqələrin "pozucu" nəticələrindən qaçmağa səy göstərilməsinə baxmayaraq, həmin əlaqələr hər vasitə ilə stimullaşdırılır. Hazırda 38 xarici ölkənin kapitalı, iqtisadiyyatın 34 sahəsində "fəaliyyət göstərir". Bundan əlavə 600 xarici şirkət və firma ölkədə qeydiyyatdan keçmişdir (o cümlədən xarici bankların 11 nümayəndəliyi və 215 müştərək müəssisə). Kubanın qarşısında duran mühüm problemlərdən biri də ölkənin böyük məbləğdə xarici borclarının olmasıdır.

---

* ***Avtoritar*** (latın mənşəli sözdür, hakimiyyət, nüfuz mənasını bildirir) – siyasi hökmranlığın antidemokratik sistemi.

** ***Subsidiya*** (latın mənşəli sözdür, yardım kömək mənasını bildirir) – hər hansı bir dövlətin büdcə vəsaiti hesabına yerli hakimiyyət orqanlarına, hüquqi və fiziki şəxslərə, başqa dövlətlərə, əsasən valyuta formasında göstərdiyi yardım.

* * *

Kubanın iri və orta şəhərlərinin çoxu hələ müstəmləkə dövründə yarandığından onların qədim məhəllələrində o dövrün memarlığının çoxsaylı cizgiləri saxlanılır. Bu şəhərlərin hər birində kilsə, şəhər idarəsi (ratuşa) binası, qədim sarayların yerləşdiyi mərkəzi meydanlar vardır. Ölkənin ilk paytaxtı olan Barakoada, həmçinin Kamaqueydə, Trinidadda, Santyaqo-de-Kubada, Havanada olan müstəmləkə dövrü memarlığına aid abidələr, dövlət tərəfindən mühafizəyə götürürmüş və tarixi-memarlıq abidələri elan edilmişdir.

Kubanın paytaxtı - Havana, Varadero dəniz kurortu, Pinos adası, Havanadan Matansasa qədər uzanan çimərliklər zolağı (Qərb yarımkürəsində yaxşılarından biridir), Vinyales və Yumura çayları vadisi, Belyamar mağarası, Puerto-Boniato dağlıq rayonu, müalicəvi mineral mənbələr, ölkədə turistlərin toplaşdığı əsas mərkəzlərdir.

Kubanın əsas turizm mərkəzi - **Havanadır**. El-Morro və La-Punt qədim qalaları; 200 ildən artıq mövcud olan qədim şəhərin mərkəzi küçəsi - Prado (Paseo-de-Marti); füsunkar görünüşü olan - Malekon dəniz sahili; Milli Kapitoliyanın binası (XX əsrin 20-ci illərində tikilmişdir, Vaşinqtondakı tikiliyə bənzəyir) paytaxtın görməli yerlərindəndir. Kapitoliyanın binasında Kuba Elmlər Akademiyası yerləşir. Prado və Malekon sevimli gəzinti, istirahət və ənənəvi karnavalların keçirildiyi yerlərdir.

Havananın, müstəmləkə dövründən qalan dar küçələri olan qədim hissəsi - ölkənin və paytaxtın tarixini əks etdirir. Bu ərazi 1982-ci ildə YUNESKO tərəfindən Dünya miqyaslı mədəni irs elan olunmuşdur. Havananın qədim mərkəzinin tarixi abidələrinin siyahısında 900-dən artıq obyektin adı vardır.

Havana, Kuba inqilabına qədərki dövrdə (1959), Amerika kapitalı tərəfindən sərfəli turizm biznesi bölgəsi kimi istifadə edilmişdir. Mayami və Las-Veqasla birgə Havana məşhur "əyləncə üçbucağına" daxil edilmişdi. Amerikalı kapitalistlər Havanada çoxsaylı qumarxanalar, "görüş evləri" və digər "əyləncə mərkəzləri" yaratmaqla, ABŞ-dan turistləri cəlb edə bilmiş, onlar üçün birinci dərəcəli otellər tikilmişdi.

Havana dünyanın ən gözəl şəhərlərindən biri hesab olunur. Reklam xarakterli turist prospektlərində bu şəhəri çox vaxt "günəş və rom" şəhəri adlandırırlar.

Havananın görkəmli yerləri sırasında Qədim qala (1537); Real Fuers qəsri (1568); Üç kral qəsri (1589); San-Karlos-de-la-Kabanya qalası (1763-1774); San-Fransisko monastırı (1719-1738); San-

Aqustin, La-Mersed və Lurdes kilsələri (hamısı XVIII əsr), Havana universitetinin binası (1728) və digərləri seçilir.

Havanaya yaxın olması və rahat yolların çəkilməsi Pinar-del-Rio əyalətində turizmin inkişafına təkan vermişdir. Vinyales və Soroa vadilərindəki turist kompleksləri də geniş miqyasda tanınır. Pinar-del-Rio şəhəri yaxınlığında Latın Amerikasında ən böyük karst mağaraları sistemi yerləşir.

**Matansas** əyalətində beynəlxalq əhəmiyyətli iri turist mərkəzləri vardır. Matansas şəhəri yaxınlığında beynəlxalq əhəmiyyətli, məşhur Varadero kurortu yerləşir. İlıq suyu, narın, qızılı qumu olan ucsuz-bucaqsız çimərliklər istirahətə gələnləri və turistləri cəlb edir. Varaderoda yeni iri otellər tikilir, çimərliyin və ona bitişən meşə zolağının mühafizəsi üzrə tədbirlər görülür.

Tesoro gölü adalarında **Quama** adlanan iri turizm mərkəzi fəaliyyət göstərir. Adada turistlər üçün rahat olan, hindu komaları üslubunda müasir mənzillər yaradılmışdır. Bir qədər aralıda timsahların saxlanılması və artırılması üçün yaradılmış qoruq, turistlərin marağına səbəb olur.

Kubanın mühüm turizm mərkəzi olan **Trinidad** - ölkənin ən qədim şəhərlərindən biridir. Burada müstəmləkə dövrünə aid çoxlu maraqlı abidələr qorunub saxlanılmışdır. Trinidad, əcnəbi turistlərdə böyük maraq doğuran muzey-şəhər və qoruq zonasıdır.

**Santyaqo-de-Kuba** - Kubanın bütün şərq vilayətlərinin əsas portudur. Eyni adlı buxtanın sonunda şəhəri dənizdən qoruyan, XVII əsrin möhtəşəm abidəsi olan "Kastilyo del Moro" qalası yerləşir. Hazırda qalada, XVI-XVII əsrlərdə Vest-Hind bölgəsinin həyatında dərin iz buraxan dəniz quldurluğu tarixi muzeyi (dünyada yeganə) fəaliyyət göstərir. Şəhərin digər görməli yerləri arasında, Kubanın ilk konkistadoru* Dieqo Velaskesin sarayı (1516-1520) xüsusilə seçilir. Hazırda burada Müstəmləkə dövrü incəsənəti muzeyi yerləşir.

Santyaqo-de-Kuba karnavalları ilə bütün ölkədə məşhurdur. Şəhərətrafı rayonlarda çoxlu istirahət yerləri və turist obyektləri vardır. Buxtada gözəl çimərliklər və müxtəlif müalicə ocaqları fəaliyyət göstərir.

Xüsusi bələdiyyə ərazisi olan Xuventud adası (bu ada əvvəllər Pinos adlanırdı) ingilis yazıçısı Robert Luis Stivensonun (Xəzinələr adası) romanından məşhurdur. El-Koloni mehmanxana kompleksində əsərin bu mövzusuna aid pannonu görmək olar. Dəniz quldurları (pi-

---

* ***Konkistador*** (ispan dilindən tərcüməsi - işğalçı) - Amerikada ispanların işğalçılıq yürüşlərinin iştirakçısı.

ratlar) dəfələrlə Pinosda sahilə çıxmışlar. Hazırda özünün gözəl çimərlikləri sayəsində, ada iri turizm mərkəzinə çevrilmişdir. Şimal sahillərdəki çimərliklər qara rəngli qumu ilə tanınır.

* * *

Kubanın inkişaf etmiş beynəlxalq turizm adası kimi keçmiş şöhrəti, son illərdə bərpa olunmağa başlamışdır. Ölkənin zəngin rekreasiya ehtiyatları buna imkan yaradır. Qışda çimməyin mümkünlüyü (qışda dəniz suyunun hərarəti 20 dərəcədən aşağı düşmür), sualtı üzgüçülüyün, sualtı ovun, idman tədbirlərinin təşkili turistləri cəlb edir. Yeni çimərlik sahələrinin yaradılması üzrə iş aparılır. Beynəlxalq turizm üçün perspektivli və maraqlı bölgələr (xüsusilə də adanın qərbində) mənimsənilir.

Müasir memarlıq görkəmi ilə seçilən iri turist mehmanxanaları (o cümlədən Havanadan şərqə doğru dəniz sahillərində) tikilir. Latın Amerikası və Karib hövzəsi ölkələri arasında, Kubada nisbətən əlverişli, ucuz qiymətlərlə, yüksək dərəcəli otellərdə əla xidmət təklif olunur.

Bütün bunlar, Kubaya xarici valyutanın daxil olan sahələri arasında beynəlxalq turizmin birinci yerə çıxmasına səbəb oldu. Ölkəyə 1996-cı ildə 1,0 mln., 1997-ci ildə 1,15, 1998-ci ildə 1,4, 1999-cu ildə isə 1,56 mln. xarici turist gəlmişdir. Turizm fəaliyyətindən daxilolmalar, yuxarıda göstərilən illər üzrə müvafiq olaraq 1,8, 1,7, 1,6, 1,7 və 1,9 mlrd. ABŞ dolları təşkil etmişdir. Xarici turistlərin qəbulu üçün ölkədə 77 mindən artıq mehmanxana və digər yerləşmə vasitələrində yerlər mövcuddur. Kubanın yerləşmə vasitələri içərisində Varaderodakı, TRYP RENINSULA VARADERO 5 ulduzlu oteli, öz yüksək xidmət səviyyəsi ilə seçilir. Bu otelin bir kilometr uzunluğunda, əla təchiz olunmuş çimərliyi və öz akvaparkı var. Bu kurortda istirahət edən turistlərə ənənəvi xidmət sahələri ilə yanaşı, dayvinq (sualtı aləmlə tanışlıq), cunqlidə cip tipli maşınlarda və Konimura çayında qayıqla səyahət, sualtı balıq ovu və s. təklif olunur.

Kubalılar özləri az səyahət edirlər. 1999-cu ildə xarici səfərlərdə cəmi 56 min adam iştirak etmişdir. Turizmin bütün növlərinin inkişafı və rəhbərlik edilməsi məqsədi ilə Kuba hökuməti Milli turizm sənayesi institutu yaratmışdır. Çoxsaylı turist kompleksləri, otellər, restoranlar, abadlaşdırılmış çimərliklər və s. obyektlər bu institutun nəzdində fəaliyyət göstərir, burada həmçinin turistlərə xidmət üçün kadrlar hazırlanır.

## 18.2.2. DOMİNİKAN RESPUBLİKASI

**Ərazisi: 48,7 min kv. km. Dünyada 127-ci yer.**
**Əhalisi: 8,1 mln. nəfər (2000). Dünyada 81-ci yer.**
**Paytaxtı: Santo-Dominqo (2,0 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Dövlət dili - İspan dili.**
**Din: Xristianlıq (əsasən katoliklər).**
**Milli pul vahidi: Dominikan pesosu.**

Dominikan respublikası Karib hövzəsində, Haiti adasının (Böyük Antil adalarından biri) şərq hissəsində yerləşir. Yeganə quru sərhəddi qərbdə Haiti ilədir (275 km). Cənubda Karib dənizinin, şimalda Atlantik okeanın suları ilə əhatə olunur. Şərqdə Mona boğazı, Haiti adasını Puerto-Riko adasından ayırır. Ərazisinin böyüklüyünə görə Dominikan Respublikası Vest-Hind bölgəsində Kubadan sonra ikinci dövlətdir.

Ölkənin landşaftında dağlar və dağ yaylaları üstünlük təşkil edir. Düzənlik ərazilərə yalnız Dominikan Respublikasının şərqində rast gəlmək olar. Ölkənin mərkəz və qərb əraziləri çay vadiləri ilə ayrılan paralel dağ silsilələrindən ibarətdir. Ən yüksək zirvəsi Duarte dağı (3175 m) olan Kordilyera Sentral, ölkənin əsas dağ silsiləsidir. Dominikan Respublikasının cənub-qərbində yerləşən Enrikilyo duzlu gölünün səthi, dəniz səviyyəsindən 46 m aşağıdadır. Ölkə ərazisindən Şimali və Cənubi Yake, Artibonite çayları axır.

İqlimi, temperaturun mövsümə görə az dəyişilməsi müşahidə edilən tropik dəniz və passat tiplidir. Orta aylıq temperatur, ərazinin yüksəkliyindən asılı olaraq dəyişilir. Məsələn, ovalıqlarda 25-27, dağlarda isə bundan 10-12 dərəcə aşağı olur.

Ölkənin əsas şəhərləri və portları, Santo-Dominqo, Puerto-Plata San-Pedro-de-Makorisdir. Dominikan Respublikasında ən böyük etnik qrup-mulatlardır (əhalinin 73 faizi). Ağ dərili əhali - 16, qara dərili, Afrika mənşəli əhali isə - 11 faiz təşkil edir. Orta ömür müddəti: kişilər üçün 71, qadınlar üçün 66 ildir. Əmək qabiliyyətli əhalinin yarıdan çoxu kənd təsərrüfatında çalışır.

Dövlətin rəsmi adı Dominikan Respublikasıdır. İnzibati cəhətcə ölkənin tərkibinə 29 əyalət və 1 milli dairə daxildir. 27 fevral 1844-cü ildə Dominikan Respublikası müstəqil dövlət elan olunmuşdur. Həmin gün Milli bayram kimi qeyd olunur. Qanunvericilik Fransa

hüquq sisteminə əsaslanır. İcraedici hakimiyyət prezidentə və Nazirlər kabinetinə məxsusdur. Qanunvericilik hakimiyyəti ikipalatalı: Senat və Deputatlar Palatalarından ibarət Milli Konqres tərəfindən həyata keçirilir.

İqtisadiyyatın əsas bölməsi olan kənd təsərrüfatı, ixracatın ümumi həcminin yarısını təşkil edir. Şəkər qamışı, kakao, qəhvə, tütün, ixrac olunan mühüm kənd təsərrüfatı məhsullarıdır. Sənaye sahələri əsas etibarilə kənd təsərrüfatı məhsullarının emalı ilə məhdudlaşır. Ölkədə faydalı qazıntılardan az miqdarda qızıl, dəmir filizi və nikel çıxarılır.

Son illərdə turizm inkişaf etdirildiyindən ölkə büdcəsinə daxil olan gəlirlər də artmağa başlamışdır. Dominikan Respublikasında turistləri cəlb edən əsas amil - narın qumlu çimərliklərin olmasıdır. Ən çox tanınmış çimərliklər ölkənin şimalında yerləşir. Çimərliklərlə yanaşı, ölkənin çoxsaylı tarixi-memarlıq abidələri də turistlərin marağına səbəb olur.

* * *

Ölkənin qədim və ən iri şəhəri, onun paytaxtı - **Santo-Dominqodur**. Şəhərdə 1512-ci ildə tikilmiş, Amerikada erkən ispan intibahına aid ilk abidə olan Santa-Mariya kafedral kilsəsi fəaliyyət göstərir. Sonralar burada Xristofor Kolumbun nəslindən olanlar dəfn olunmuşlar. Bu adanı 1492-ci ildə kəşf edən Xristofor Kolumb onu Espanyola adlandırmış, Kolumbun qardaşı - Bartolomeo şəhərin əsasını qoymuş, oğlu - Diyeqo və nəvəsi Luis, Santa Mariya kilsəsində dəfn olunmuşlar. Qədim Santo-Dominqoda - kiçik həyətləri olan ikimərtəbəli daş evlər; Diyeqo Kolumbun sarayı; əvvəllər müstəmləkəçilərin istinadgahı, sonralar isə min nəfər vətənpərvərin işgəncə verildiyi Osama qalası; San-Nikolas və San-Fransisko kilsələri (XVI əsr); 1538-ci ildə əsası qoyulmuş, qitənin ən qədim universitetlərindən birinin binası qorunub saxlanılmışdır.

Yeni tikililər arasında Milli saray, Universitet şəhərciyi, Milli tətbiqi incəsənət sarayı, varlı turistlər üçün nəzərdə tutulmuş "Xaraqua" və "Embahador" adlanan dəbdəbəli otellər xüsusilə seçilir.

Ölkənin ikinci mühüm şəhəri - **Santyaqo-de-los-Kabalyerosdur** (əhalisi 300 min). Bu şəhər təxminən Santo-Dominqonun yaşıdıdır. Şəhər 1500-cü ildə salınmış, 1564-cü ildə zəlzələ nəticəsində demək olar ki, tamamilə dağılmışdı. Qədim binaların özülləri üzərində şəhər yenidən bərpa olunmuş və müasir görkəm almışdır. Şəhər ixrac etdiyi tütün məmulatları - papiros və siqaretləri ilə şöhrət qazanmışdır. Burada həmçinin keyfiyyətli rom istehsal olunur.

Ölkənin cənub-şərqində şəkər istehsalı mərkəzi olan **San-Pedro-de-Maxoris** şəhəri yerləşir. Şəhər 1882-ci ildə salınmış, XX əsrin əvvəllərində ölkənin birinci portu dövrünü yaşamışdır. Ölkədə ilk telefon və elektrik xəttləri bu şəhərdə çəkilmişdir. Şəhər özünün opera səhnəsi ilə də şöhrət qazanmış, bu səhnədə Cenni Lend və Enriko Karuzo kimi görkəmli müğənnilər çıxış etmişlər.

* * *

Dominikan Respublikasında beynəlxalq turizm müvəffəqiyyətlə inkişaf edir. Hər il ölkəyə 2 mln.-dan artıq turist gəlir. Belə ki, 1997-ci ildə ölkəyə 2,2, 1998-ci ildə 2,3, 1999-cu ildə isə 2,6 mln. xarici turist gəlmişdir. Turizm fəaliyyətindən daxilolmalar 1997-ci ildə 2,0, 1998-ci ildə 2,1, 1999-cu ildə isə 2,5 mlrd. ABŞ dolları təşkil etmişdir. Xarici turistlərin qəbulu üçün ölkədə 100 mindən artıq mehmanxana və digər yerləşmə vasitələrində yerlər mövcuddur (2000). Son illərdə xarici səfərlərə gedən dominikalıların sayı artmışdır. 1995-ci ildə xaricə səfər edənlərin sayı 168 min nəfər olduğu halda, 1999-cu ildə bu rəqəm 364 min nəfərə çatmışdır.

## 18.2.3. BAHAM ADALARI

**Ərazisi: 13,9 min kv. km. Dünyada 156-cı yer.**
**Əhalisi: 300 min nəfər (2000). Dünyada 168-ci yer.**
**Paytaxtı: Nassau (180 min nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - İngilis dili.**
**Din: Xristianlıq (əsasən baptist və katoliklər).**
**Milli pul vahidi: Baham dolları.**

Baham adaları Vest-Hinddə, Florida yarımadasının cənub-şərq sahillərindən, Kubanın şərq hissəsinədək səpələnmiş çoxsaylı adalarda və mərcan riflərində yerləşir. Onların arasında otuza yaxın nisbətən iri və məskunlaşmış ada (Andros, Böyük Abako, Kiçik Abako, Böyük Baham və b.), 660 adsız ada, 2400-ə qədər isə iri sualtı qaya vardır. Mərcan mənşəli adaların səthi alçaq, dairəvi təpəliklərdən ibarətdir. Andros və Böyük Abakoda həmişəyaşıl meşələr, sahillərdə kokos palmaları bitir. Adaların iqlimi tropik, passat tiplidir. Maydan-oktyabradək ilin yağışlı mövsümüdür. Yanvarın orta temperaturu 20-23, iyulunki isə 28 dərəcəyə yaxındır.

Adaların əksəriyyətində sahil boyu gözəl çimərliklər uzanır. Baham adalarında çaylar olmasa da, duzlu göllər çoxdur. Yağan yağışlar Yer səthindən yeraltı laylara süzülür, içməli suyun əsas hissəsi də oradan çıxarılır.

Əhalinin 80 faizi - mulat və zəncilərdir. Əhali əsasən xidmət sahələrində çalışır. Orta ömür müddəti: kişilər üçün 68, qadınlar üçün 77 ildir.

Dövlətin rəsmi adı - Baham Adaları Birliyidir. İnzibati cəhətdən ölkə 21 rayona bölünür. Baham adaları 10 iyul 1973-cü ildə Britaniya "Birliyi" tərkibində müstəqillik qazanmışdır. Qanunvericilik Böyük Britaniya ümumi hüququna əsaslanır. 10 iyul - Müstəqillik günü - Milli bayramdır. Dövlət başçısı general-qubernator tərəfindən təmsil olunan Böyük Britaniya monarxıdır. Senat və Yığıncaq palatalarından ibarət olan parlament qanunvericilik fəaliyyətini həyata keçirir.

Zəif inkişaf etmiş ölkə iqtisadiyyatına demək olar ki, xarici kapital tərəfindən tam nəzarət olunur. Baham adaları dünyanın aparıcı maliyyə mərkəzlərindən biridir. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədə 400-dən artıq bankın və digər maliyyə-kredit müəssisəsi-

nin şöbələri (əmanətlərin sirri, vergi güzəştlərini və s. təmin edirlər) fəaliyyət göstərirdi. Bu sahədən əldə olunan gəlir ÜMM-in 20 faizini təşkil edir.

* * *

Ölkə iqtisadiyyatı ilk öncə turizmə əsaslanır. Turizm ÜDM-in 50 faizini təmin edir. Əmək qabiliyyətli əhalinin təqribən yarısı turizm bölməsində çalışır. Turizmdən başqa, əczaçılıq, sement, duz, rom istehsalı, neftemalı da inkişaf etmişdir. Ölkədə iki beynəlxalq hava və iki iri dəniz portu (Friport və Nassau) vardır.

Ölkə əhalisinin yarıdan çoxu, paytaxtın (Nassau) yerləşdiyi, böyük olmayan Nyu-Providens adasında cəmləşmişdir. Paytaxtın görməli yerləri arasında - parlament, məhkəmə binalarını, general-qubernatorun rəsmi iqamətgahı olan Hökumət evini (1801) qeyd etmək olar. "Dəniz bağları", Şarlott (1789), Finkasl istehkamları (1793), çoxlu tropik və subtropik bitkilər toplanmış "Adastr Qardnz" botanika bağı, həmçinin XVIII əsr Britaniya qəsəbəsi Cambi-Vilec turistlərin marağına səbəb olur.

İkinci Dünya müharibəsindən sonra, şəhərdə otellər, kazinolar və beynəlxalq dərəcəli yeni aeroport tikilmişdir. Bahamın digər şəhərləri, əhalisinin sayına görə Nassaudan xeyli geri qalır. Digər adalar arasında Böyük Baham seçilir. Turizm sənayesi bu adada digərlərinə nisbətən daha çox inkişaf etmişdir. Onu çox zaman "Yeni Rivyera" adlandırırlar. Böyük və Kiçik Bahamın sakinləri əvvəllər balıqçılıq, kənd təsərrüfatı və meşəçiliklə məşğul olurdular. Hazırda bu adalarda turizm, təsərrüfatın daha perspektivli sahəsi hesab olunur. Bu, eyni zamanda XVIII əsrdə dəniz quldurlarının məskəni kimi tanınmış arxipelaqın ən böyük adası olan Androsa da aid edilə bilər.

* * *

1946-cı ildə Baham adalarına turist axını başlanmış və bir neçə il ərzində xeyli gücləndiyindən Baham adaları ABŞ və Avropanın qış kurortlarına çevrildilər. Nassau körfəzində yerləşən Peredayz Aylend (Cənnət adası) kurortu çimərlikləri və tropik bitkiləri ilə turistlər arasında sevilən yerlərdən biridir.

Baham adalarına hər il təxminən 1,6 mln. (öz əhalisindən 5-6 dəfə çox) turist gəlir. Belə ki, 1997-ci ildə ölkəyə 1,6, 1998-ci ildə 1,52, 1999-cu ildə isə 1,6 mln. xarici turist gəlmişdir. Xarici turistlərin qəbulu üçün, ölkədə 29 minə yaxın (2000) mehmanxana və digər yerləşmə vasitələrində yerlər mövcuddur. Turizm fəaliyyətindən daxilolmalar 1999-cu ildə 1,5 mlrd. ABŞ dollarından artıq olmuşdur.

Ölkənin əmək qabiliyyətli əhalisinin yarıdan çoxunun turizm sahəsində çalışmasına baxmayaraq, turistlərə xidmət mövsümi xarakter daşıdığı üçün isti yay aylarında onların bir hissəsi işsiz qalır.

Böyük Baham adasında yerləşən, ABŞ kapitalı tərəfindən nəzarət edilən iri neftemalı zavodu, Venesuela, Yaxın Şərq və Afrika ölkələrindən idxal olunan nefti gətirən tankerlər, xüsusilə turizm, konkret desək ölkənin gözəl çimərlikləri üçün təhlükə yaradır.

## 18.3. CƏNUBİ AMERİKA ÖLKƏLƏRİNDƏ BEYNƏLXALQ TURİZM

*Qitə ilə ümumi tanışlıq*

**Ərazisi: 17,8 mln. kv. km.**
**Ərazisinə görə ən böyük dövlət: Braziliya (8,5 mln. kv. km).**
**Əhalisi: 320 mln. nəfər (2000).**
**Əhalisinə görə ən böyük dövlət: Braziliya (165,0 mln. nəfər - 2000).**
**Müstəqil dövlətlər: 12.**
**Ən yüksək zirvə: Akonkaqua dağı - 6960 m.**
**Ən alçaq nöqtə: Salinas-Çikas çökəkliki (-42 m).**
**Ən uzun çaylar: Amazonka - 6448 km. Parana - 4700 km.**
**Ən hündür şəlalə: Anhel - 1054 m (Dünyanın ən hündür şəlaləsi).**
**Ən iri göl: Marakaybo - 13,5 min kv. km.**

Cənubi Amerika Yer kürəsində böyüklüyünə görə dördüncü qitədir. O, şimalda Karib dənizi tropiklərindən başlayaraq, cənubda, Antarktidadan o qədər də uzaq olmayan, Argentina və Çilinin müştərək mülkləri sayılan, qarla örtülü Odlu Torpaq adasına qədər uzanır.

Cənubi Amerika ölkələri, ölçüləri, əhalinin miqdarı, təbii ehtiyatları və iqtisadi potensialına görə bir-birindən xeyli fərqlənirlər. Cənubi Amerikanın ən böyük dövləti - Braziliya (qitə ərazisinin təxminən yarısı bu ölkənin payına düşür) ən kiçiyi isə Surinamdır. Xatırladaq ki, 1975-ci ilədək Niderlandın müstəmləkəsi olmuş Surinam ərazicə ondan təqribən beş dəfə böyükdür.

Cənubi Amerika dövlətləri arasında iqtisadi, sosial-siyasi, etnik və dil müxtəlifliyinin olması ilə yanaşı, onlara xas olan bir sıra oxşar xüsusiyyətlər və qanunauyğunluqlar da mövcuddur. Bu, həmin ölkələrin tarixi boyu inkişafın əsas mərhələlərinin eyni, onların qarşısında duran problemlərin oxşar olmasında və s. özünü göstərir.

Cənubi Amerikaya gələn 17,5 mln. turistdən (1999-cu il) 12,0 mln.-u və ya 68,0 faizi, regionun sosial-iqtisadi inkişaf səviyyəsinə görə dörd aparıcı ölkəsinin - Argentina, Braziliya, Uruqvay və Çilinin payına düşür.

## 18.3.1. BRAZİLİYA

**Ərazisi: 8,5 mln. kv. km. Dünyada 5-ci yer.**
**Əhalisi: 165 mln. nəfər - 2000. Dünyada 5-ci yer.**
**Paytaxtı: Brazilia (1,8 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - Portuqal dili.**
**Din: Xristianlıq (əksəryyəti katoliklər).**
**Milli pul vahidi: Real.**

Braziliya on dövlətlə: qərbdə Argentina (1224 km), Boliviya (3400 km), Paraqvay (1290 km) və Peru (1560 km), şimalda Venesuela (2200 km), Qayana (1119 km), Fransa Qvianası (673 km) və Surinam (597 km), şimal-qərbdə Kolumbiya (1643 km), cənubda Uruqvayla (985 km) həmsərhəddir. Braziliya şərqdə Atlantik okeanının suları (7491 km) ilə əhatə olunur.

Ölkənin cənub-şərq hissəsində yerləşən və ərazinin böyük hissəsini tutan Braziliya yaylası çay vadiləri və Syerra-da-Mantikeyra, Syerra-da-Mar, Syerra-Jeral dağ silsilələri ilə kəsilir. Mərkəzdəki Matu-Qrosu yaylası cənubdan şimala doğru Amazon düzənliyinə enir. Dünyanın ən böyük çay hövzəsi olan Amazon, region ərazisinin təqribən üçdə birini tutur (5 mln. kv. km-dən artıq). Bu düzənlik dünyanın ən geniş tropik meşələri (selva) ilə örtülmüşdür. Ölkənin şimalındakı Qviana yaylasında Braziliyanın ən yüksək zirvəsi Piko-da-Neblina dağı (3014 m) yerləşir.

Ölkənin əsas çayları: dünyanın ən uzun çaylarından olan Amazon, həmçinin onun qolları San-Fransisku, Parana, Uruqvay və Paraqvaydır.

Braziliyanın iqlimi, şimal-qərbdə rütubətli ekvatorialdan, cənub-şərqdə mövsümi-rütubətli subtropikədək dəyişir. Yanvarın orta temperaturu 23-29, iyulunki isə 16-24 dərəcə olur.

San-Paulu (12 mln.), Rio-de-Janeyro (6,0 mln.), Resifi (2,5 mln.), Belu-Orizonti (2,3 mln.), Salvador (2,0 mln.) və Fortaleza (1,5 mln.), ölkənin ən iri şəhərləri, Paramaribo, Kayenna, Fortaleza, Natal, Juan-Pesoa, Maseyo, Salvador, Vitoriya, Rio-de-Janeyro, Niteroy, Portu-Aleqri isə ən iri portlarıdır.

Ölkə əhalisinin əksəriyyəti Atlantik okeanı sahillərində yaşayır. Ən iri etnik qrup avropalılardır (vaxtilə buraya köçmüş portuqal, ispan, alman, italyan və b. nəsilləri) - 55,0, Afrikalı zəncilər əhalinin -

6,0, mulatlar isə – 38,5 faizini təşkil edirlər. Braziliya vətəndaşlarından başqa, ölkədə 3 mln.-dan artıq immiqrant – əsas etibarı ilə Hindistandan gəlmələr, ərəblər, yaponlar yaşayır.

Orta ömür müddəti: kişilər üçün 57, qadınlar üçün 67 ildir. Əmək qabiliyyətli əhalinin 42 faizi – xidmət, 31 faizi – kənd təsərrüfatı, 27 faizi – sənaye sahələrində çalışır.

Dövlətin rəsmi adı – Braziliya Federativ Respublikasıdır. İdarə olunmasına görə federativ prezident respublikasıdır. İnzibati cəhətcə ölkə 26 ştatdan və paytaxtın yerləşdiyi bir federal dairədən ibarətdir. 7 sentyabr 1822-ci ildə Braziliya Portuqaliyadan müstəqillik əldə etmişdir. Həmin gün – Müstəqillik günü, Milli bayram kimi qeyd olunur. Dövlət başçısı – prezidentdir. Qanunvericilik hakimiyyəti, Senat və Deputatlar Palatalarından ibarət olan ikipalatalı parlamentə (Milli Konqres) məxsusdur.

Braziliya təbii sərvətlər, xüsusilə faydalı qazıntılarla zəngindir. Burada dəmir filizi, manqan, nikel, uran, boksit, fosforit, qalay, qızıl, platin, neft və s. çıxarılır. Meşələrində qiymətli oduncağı olan ağaclar çoxdur.

Aqrar bölmə ölkə iqtisadiyyatında mühüm rol oynayır. Braziliya qəhvə və sitrus şirələri istehsalı və ixracı üzrə dünyada birinci, soya ixracı üzrə ikinci yeri tutur. Ölkədə çəltik, maniok (dünyada birinci yer), dənli bitkilər, şəkər qamışı, kakao-paxlası da (dünyada ikinci yer) və s. becərilir.

Kimya, ağacemalı, toxuculuq, neft-kimya, metallurgiya və maşınqayırma sənayenin daha yaxşı inkişaf etmiş sahələridir. Braziliyanın iqtisadiyyatına təkan verən amil ölkənin zəngin təbii ehtiyatlara malik olmasıdır. Son illərdə qabaqcıl texnologiyanın, xarici investisiyaların və inkişaf etmiş Qərb dövlətləri kreditlərinin ölkəyə cəlb edilməsi hesabına Braziliya, müasir sənaye istehsalı sahələri yaratmağa nail oldu və aqrar ölkədən sənaye-aqrar ölkəyə çevrildi. BMT-nin ölkələri qruplaşdırma dərəcələrinə müvafiq olaraq, Braziliya "Yeni sənaye ölkələri" qrupuna aid edilir.

Ölkənin özünə məxsus təbiəti və böyük miqdarda görkəmli təbii-tarixi yerlərin olması, çoxsaylı xarici turistlərin diqqətini cəlb edir. Rio-de-Janeyro, Braziliyanın keçmiş paytaxtı San-Paulu, Belu-Orizonti, Santus, Resifi şəhərləri, həmçinin ölkənin yeni paytaxtı Brazilia, turistlərin toplaşdığı əsas mərkəzlərdir.

* * *

**Rio-de-Janeyro turizm mərkəzi.** Latın Amerikasının ən gözəl şəhərlərindən biridir. Əsası 1565-ci ildə portuqaliyalılar tərəfindən

qoyulmuşdur. Şəhər üzərində ucalan təpələr, ona xüsusi gözəllik verir. Təpələrin ən hündürü Korkodavodur. Onun zirvəsində ucalan İusus Xristosun heykəli gecələr projektorlarla işıqlandırılır. Şəhərin mərkəzi - işgüzar hissəsi, müasir çoxmərtəbəli binaları ilə seçilir. Dünya miqyasında tanınmış Kapakabana çimərliyi, məşhur Atlantida Avenidası ilə dörd km-lik qövslə əhatə olunmuşdur. Burada, bir-birinə bənzəməyən 12 mərtəbəli binalarda bahalı otellər və restoranlar, ən dəbdəbəli barlar və kabarelər yerləşir.

Şəhərdə müxtəlif dövrlərə və üslublara aid olan memarlıq abidələri qorunub saxlanılmışdır. İlk növbədə qədim kilsə tikililərini, Şəhər teatrını, Milli Kitabxananı, Bədii Akademiyanı, Monros Sarayını və s. qeyd etmək olar. Bu binaların təmtəraqlı memarlığı, yaşıl parklar şəhərə xüsusi yaraşıq verir. Çoxsaylı rəngarəng abidələr isə şəhərin bəzəyidir.

Rio-de-Janeyronun məşhur karnavalı, dünyanın hər yerindən Braziliyaya turistləri cəlb edir. Muzeylərə ekskursiyaların təşkili də maraq doğurur. Şəhərdə ölkənin tarixinə dair nadir eksponatların toplandığı Milli muzey (əsası 1818-ci ildə qoyulmuşdur); Geologiya və Minerologiya muzeyi; Hindu muzeyi (1953-cü ildə yaradılmışdır, Braziliyanın hindu qəbilələrinin tarixi və mədəniyyətini işıqlandırır); Tarix muzeyi; Etnoqrafiya muzeyi; Müasir incəsənət muzeyi; Milli tətbiqi incəsənət muzeyi (XVI-XIX əsrlər italyan və fransız fırça ustalarının, həmçinin Braziliya rəssamlarının ən yaxşı əsərləri nümayiş etdirilir) fəaliyyət göstərir.

**Brazilia turizm mərkəzi.** Ölkənin yeni paytaxtı - Brazilia, ciddi görkəmi, ultramüasir memarlıq üslubunda tikilmiş inzibati binaları ilə seçilir. Şəhərin salınması planı təyyarəni xatırladır. Yeni paytaxt 1957-ci ildən tikilməyə başlamışdır. Böyük meşə massivi, həmçinin idman tikililəri kompleksi, şəhərin əsas hissəsinə qovuşur. Paytaxtın mərkəzi hissəsində 6-7 mərtəbəli binalar tikilmişdir. Milli Konqresin binaları kompleksi, iri memarlıq ansamblıdır. Ansamblın mərkəzində parlament təşkilatlarının yerləşdikləri iki düzbucaqlı göydələn ucalır.

Cürətli memarlıq üslubuna və şəhər salmanın ən yeni modellərindən istifadə edilməsinə görə, bu şəhəri XXI əsrin şəhəri adlandırmaq olar. Braziliada, həmçinin turistləri maraqlandıran botanika bağı, zoopark və müasir memarlıq üslubunda metropoliten vardır.

**San-Paulu turizm mərkəzi.** Braziliyanın cənub-şərqində yerləşmiş şəhərin əsası 1554-cü ildə qoyulmuşdur. San-Paulu təkcə ölkənin deyil, bütün Cənubi Amerikanın ən iri sənaye mərkəzi hesab olunur. Şəhərin müasir memarlığı çox maraqlıdır. Şəhərdə yerləşən

Botanika bağında Səhləb çiçəyinin (Orxidey) 30 min müxtəlif növü toplanmışdır.

**Resifi turizm mərkəzi.** Resifi Braziliyanın üçüncü böyük şəhəri, ölkənin şimal-şərq bölgəsinin əsas mədəni mərkəzidir. Resifi çox gözəl şəhərdir. Şəhərdəki qədim kilsələr barokko üslubunda tikilmiş və müstəmləkə dövrü memarlığının nadir inciləri hesab edilirlər. Onlardan bir neçəsi, məsələn San-Pedro-dus-Kleriqas turistlərə nümayiş etdirilir.

**Braziliyanın dəniz sahilləri bölgələri** də turistləri cəlb edir. Torres, Kabu-Friu, Parati dəniz kurortları isə xüsusilə seçilirlər. Santus dəniz kurortu, eyni zamanda ölkədə istehsal edilən qəhvənin çox hissəsinin xaricə göndərildiyi əsas portdur. Santus, əla çimərlikləri və məşhur dəniz akvariumu ilə də turistlərin diqqət mərkəzindədir. Petropolis və Terezopolis, ölkənin tanınmış dağ kurortlarıdır. Dünyanın çayda yerləşmiş ən böyük adası olan Banapalda yeni dəbli turizm mərkəzi salınmışdır.

* * *

Ölkəyə xarici valyuta axınını daimiliyini təmin etmək məqsədi ilə, əcnəbi turistlərin cəlb olunması məsələsinə Braziliya hökuməti iqtisadi inkişaf sahəsində ən mühüm vəzifələrdən biri kimi baxır. Zəngin təbii potensialın, nadir bioloji rəngarəngliyin, münasib iqlim şəraitinin, 7500 km məsafədə uzanan okean sahillərinin (bunun 4000 km-dən çoxu turizm üçün yararlı tropik və subtropik zona çimərlikləridir) olmasına baxmayaraq, Braziliya hətta kiçik ölkələrdən də az turist qəbul edir.

1995-ci ildə Braziliya cəmi 1,9 mln. turist qəbul etmişdir (dünya üzrə gəlmə turizminin 0,27 faizi). Bu isə yaxın qonşuları Argentinadan (2,3 mln.) və Uruqvaydan (2,2 mln.) xeyli azdır. Turizmdə belə vəziyyətin yaranmasının bir sıra səbəbləri vardır: əvvəlki hökumətlərin gəlmə turizminə lazımi diqqət yetirməməsi; turizm sənayesinə kifayət qədər kapital qoyulmaması; turizm sahəsi üzrə istiqamətverici planın işlənib hazırlanmaması və s.

Ötən əsrin 80-90-cı illərində Braziliyada, xüsusilə də turistlərin 90 faizinin cəmləşdiyi Rio-de-Janeyroda cinayətkarlığın artması gəlmə turizmin inkişafında ciddi əngələ çevrilmişdi. Nəticədə 1985-ci ildə qəbul turizmində əldə edilmiş rekord göstərici belə bərpa olunmamışdır.

Yuxarıda qeyd olunan amillərin turizmin inkişafına mənfi təsiri mehmanxana və nəqliyyat infrastrukturunda da özünü göstərdi. Belə ki, turist axınının stabil artımı baxımından nəzərdə tutulmuş bu sahə-

lər tam gücü ilə işləyə bilməyərək zərər çəkdilər. Nəticədə bir sıra iri mehmanxana kompleksləri müflis oldular.

Gəlmə turizmin inkişafını ləngidən mühüm amillərdən biri də iqtisadi stabilliyin olmaması, inflyasiyanın qeyri-müəyyənliyi olmuşdur. Bu cür hallar turistlərin gətirdiyi valyutanın alıcılıq qabiliyyətinə mənfi təsir göstərirdi.

Son illərdə ölkənin maliyyə sisteminin tənzimlənməsi və inflyasiyanın azalması ilə əlaqədar Braziliya hökuməti xarici turizmin inkişafına, ölkəyə bu istiqamətdə xarici valyutanın cəlb edilməsinə xüsusi diqqət yetirir. Bu yolla iqtisadiyyatı sağlamlaşdırmaq, daxili ticarəti və mehmanxana-nəqliyyat infrastrukturunu inkişaf etdirmək nəzərdə tutulur. Turizm sahəsində illik dövriyyənin 45,0 mlrd., dövlət xəzinəsinə toplanan illik verginin isə 8,0 mlrd. ABŞ dolları təşkil etməsi faktları, gəlirli sahə olan turizmə hökumət tərəfindən xüsusi maraq göstərilməsinə təminat verir.

Son illərdə turizmin dinamik inkişafı tendensiyası nəzərə çarpır. Məsələn, 1972-ci ildə Braziliyaya 300 min əcnəbi turist gəlmiş, xidmətdən daxil olan valyutanın məbləği 50 mln. ABŞ dolları olmuşdusa, 1980-ci ildə 1,3, 1996-cı ildə 2,7, 1998-ci ildə 4,8, 1999-cu ildə isə 5,1 mln. xarici turist gəlmişdir. Turizm xidmətindən daxil olan valyutanın məbləği 1980-ci ildə 1,8, 1996-cı ildə 2,6, 1998-ci ildə 3,7, 1999-cu ildə isə 4,0 mlrd. ABŞ dolları həcmində olmuşdur.

Xarici turistlərin qəbulu üçün, ölkədə 430 mindən artıq mehmanxana və digər yerləşmə vasitələrində yerlər mövcuddur (2000).

Braziliyalılar xaricə ölkələrə səyahət etməyə o qədər də meyilli deyillər. Belə ki, 1999-cu ildə cəmi 2,6 mln. nəfər xarici səfərlərdə olmuşlar.

## 18.3.2. ARGENTİNA

**Ərazisi: 2,8 mln. kv. km. Dünyada 8-ci yer.**
**Əhalisi: 35,0 mln. nəfər (2000). Dünyada 31-ci yer.**
**Paytaxtı: Buenos-Ayres (13,0 mln. nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - İspan dili.**
**Din: Xristianlıq (əksəriyyəti katoliklər).**
**Milli pul vahidi: Peso.**

Cənubi Amerikanın cənubunda yerləşmiş Argentina, cənubda və qərbdə Çili (5150 km), şərqdə Braziliya (1224 km) və Uruqvay (579 km), şimalda Boliviya (832 km) və Paraqvayla (1880 km) həmsərhəddir. Argentina şərqdə və cənubda Atlantik okeanın suları ilə əhatə olunur. Odlu Torpaq və bir sıra kiçik adalar Argentinaya məxsusdur. Folklend (Malvin) adalarının hansı dövlətə məxsusluğu barədə Böyük Britaniya ilə mübahisəli vəziyyətdədir. Bundan əlavə, Argentina Antarktidanın subarktik zonasının cənub-şərq və cənub-qərb hissələrinə də iddialıdır.

Ölkənin relyefi çox rəngarəngdir. And dağları silsiləsi, qərbdə Çili ilə təbii sərhəd təşkil edir. And dağlarının şimal hissəsi Puna-de-Atakama yüksək dağlıq ərazisi əslində çətin keçilən bir yerdir. Şərqdə geniş düzənlik, mərkəzdə isə La-Plata ovalığı yerləşir.

Argentina səth suları ilə yaxşı təmin olunmuşdur. Ölkənin əsas çayları: Parana, Paraqvay, Rio-Salado, Rio-Koloradodur. Pataqon Andlarında mənzərəli göllər (Nauel-Uapi, Buenos-Ayres, Arxentino) yerləşmişdir.

Rosario, Kordova, Mendosa, La-Plata ölkənin iri şəhərləri, Buenos-Ayres, La-Plata və Banya-Blanka isə iri portlarıdır.

En dairəsindən asılı olaraq Argentinanın iqlimi cənubda mülayim iqlimdən, şimalda subtropik iqlimə qədər çox müxtəlifdir. Argentina qitənin içərilərində yerləşdiyi üçün, kontinental hava onun iqliminə böyük təsir göstərə bilmir. And dağları Sakit okeandan gələn rütubətli küləklərin ölkə ərazisinə daxil olmasının qarşısını kəsdiyindən, daxildə yerləşmiş bölgələrin iqlimi quru və səhra tiplidir. And dağlarının iqlimi şaquli zonallığa müvafiq gəlir. Dağların hündür yerlərinə qar yağır. Argentina Andlarında dağ-idman turizminin inkişafı üçün Cənubi Amerikada Çilidən sonra ən əlverişli zonalar yerləşir.

Əhalinin əksəriyyəti Avropa (ispanlar, almanlar, fransızlar, italyanlar, polyaklar, ruslar və s.) mənşəlidir. Onlar ümumi əhalinin 85,

digər etnik qruplar (metis, hindu və qara dərililər) isə 15 faizini təşkil edirlər. Orta ömür müddəti: kişilər üçün 68, qadınlar üçün 75 ildir.

Argentina təbii sərvətlər, xüsusilə faydalı qazıntılarla (qurğuşun, sink, qalay, mis, dəmir filizi, neft, uran və s.) yaxşı təmin olunmuşdur. İqtisadi baxımdan orta səviyyədə inkişaf etmiş dövlətdir. Yeyinti, avtomobil, toxuculuq, kimya, neftkimya, metallurgiya əsas sənaye sahələridir. Kənd təsərrüfatı (balıqçılıq da daxil olmaqla) Daxili Məcmui Məhsulun 8 faizini təşkil edir. Əsas kənd təsərrüfatı məhsulları – dənli bitkilər, o cümlədən buğda, sorqo, soya və şəkər qamışıdır. Argentina buğda və mal əti ixracı üzrə dünyanın 5 əsas dövlətindən biridir.

Dövlətin rəsmi adı – Argentina Respublikasıdır. İnzibati cəhətdən Argentina 22 əyalətdən, bir milli ərazi (Odlu Torpaq və Cənubi Atlantikadakı adalar) və bir federal paytaxt dairəsindən ibarətdir. Argentina 9 iyul 1816-cı ildə İspaniyadan müstəqillik əldə etmişdir. Qüvvədə olan konstitusiya isə 1 may 1853-cü ildə qəbul olunmuşdur. 25 may – May inqilabının (1810-cu il) ildönümü və 9 iyul – Müstəqillik günü – Milli bayramlardır. Dövlət və hökumət başçısı – prezidentdir. Ali qanunverici orqan Senat və Deputatlar palatalarından ibarət Milli Konqresdir. İcraedici hakimiyyət prezident və hökumət tərəfindən həyata keçirilir.

* * *

Argentinada xarici turistlərin toplaşdıqları əsas mərkəzlərdən biri ölkənin paytaxtı **Buenos-Ayresdir**. Buenos-Ayres Cənubi Amerikanın ən gözəl şəhərlərindən biri olduğundan onu çox vaxt Cənubi Amerikanın Parisi adlandırırlar. La-Plata çayının sağ sahilində yerləşmiş Buenos-Ayresdə cəmləşən çoxsaylı müəssisələrdə ölkə sənaye məhsullarının 60 faizi istehsal olunur. Şəhər Argentinanın və bütün Cənubi Amerikanın ən iri portudur.

Buenos-Ayresin memarlıq görkəmində zəngin barokko, klassisizm elementləri müasir memarlıq cizgiləri ilə uyğundur. Şəhərdə çoxlu sayda parklar, geniş prospektlər, böyük meydanlar və çoxsaylı abidələr vardır. Onların arasında Argentina xalqının ispan müstəmləkəçilərinə qarşı mübarizəsinə rəhbərlik edən, milli qəhrəman Xose-de-San-Marti və məşhur səyyah Xristofor Kolumbun abidəsi xüsusilə seçilir. Etnoqrafiya muzeyi (Peru mədəniyyətinə aid Naska eksponatları nümayiş etdirilir), Təbiət elmləri muzeyi, Tətbiqi incəsənət muzeyi və Beynəlxalq bədii rəsm qalereyası şəhərin muzeyləri arasında xüsusilə seçilirlər.

20 km-lik Rivadaviya prospekti şəhəri sanki iki: şimal və cənub

hissələrinə ayırır. Şəhərin mərkəzindəki May meydanında prezident sarayı, Kafedral kilsə (XVIII-XIX əsrlər) və Kabildo adlanan qədim şəhər ratuşası (hazırda muzeydir) yerləşir. Buenos-Ayresin digər görməli yerləri arasında San-İqnasio (1712-1734), Pilar (1716-1732), San-Fransisko (1730-1754), San-Telmo (1734), Las Katalinas (1737-1745) kilsələri; At çapılan cıdır (XIX əsr); Palermo parkı (XIX əsr); Kolon opera teatrının binası və s. seçilir.

Xarici turistlərin toplaşdıqları digər mərkəzlər: universitet şəhəri olan **La-Plata, Kordova və Saltadır**. Bu şəhərlərdə XVIII-XIX əsrlərə aid çoxsaylı tarixi-memarlıq abidələri vardır. Ölkənin şərabçılıq mərkəzi və dağ kurortu olan **Mendosa** şəhəri də turistləri maraqlandıran yerlərdəndir.

**Mar-del-Plata** ölkənin Atlantik okeanı sahillərində ən böyük kurortudur. Burada 150-yə yaxın mehmanxana, yüzlərlə restoran, əyləncə yerləri, o cümlədən dünyanın ən böyük kazinolarından biri fəaliyyət göstərir. Mar-del-Platadan cənubda geniş çimərlikləri olan tanınmış Nekoqea və məşhur Tandil kurortu yerləşir.

Çili ilə sərhəddə yerləşən göllər diyarı, mühüm daxili turizm zonasıdır. Burada salınmış Nauel-Uapi Milli Parkının hüdudları daxilində əsrarəngiz mənzərəli göl yerləşir. Bu gölün sahilində ölkənin ən təmtəraqlı idman kurortlarından biri olan San-Karlos-de-Boriloqe fəaliyyət göstərir.

Argentinanın şimal-şərqində, Braziliya ilə sərhəddə, Cənubi Amerikanın ən möhtəşəm təbiət mənzərələrindən biri, çoxsaylı turistlərin marağına səbəb olan **İquasu şəlaləsi** yerləşir. Bu şəlalə böyüklüyünə görə Niaqara və Viktoriya şəlalələrindən üstündür. İquasu şəlaləsinin suları təxminən 80 m hündürlükdən 280 axınla tökülərək, eni 3 km-dən artıq olan böyük amfiteatr yaradır. Argentinanın balneoloji kurortları arasında Rio-Ondo xüsusilə seçilir.

* * *

Argentinaya hər il çoxlu əcnəbi turist gəlir. 1995-ci ildə ölkəyə 2,3, 1997-ci ildə 2,7, 1999-cu ildə isə 3 mln.-a yaxın xarici turist gəlmişdir. 1995-ci ildə turizm fəaliyyətindən daxilolmalar - 2,1, 1997-ci ildə 2,7, 1999-cu ildə isə - 2,8 mlrd. dollar təşkil etmişdir. Ölkədə xarici turistlərin qəbulu üçün 424 mindən artıq mehmanxana və digər yerləşmə vasitələrində yerlər mövcuddur (2000). Xarici turist səfərlərində iştirak edən argentinalıların sayı ildən-ilə artmaqdadır. Əgər 1995-ci ildə turizm məqsədi ilə xaricdə 3,8 mln. nəfər olmuşdursa, 1997-ci ildə onların sayı artaraq 4,5 mln., 1999-cu ildə isə 4,8 mln. nəfər olmuşdur.

## 18.3.3. URUQVAY

| |
|---|
| **Әразиси: 178 мин кв. км. Дүнјада 88-чи јер.**<br>**Әһалиси: 3,5 млн. нәфәр (2000). Дүнјада 125-чи јер.**<br>**Пајтахты: Монтевидео (1,5 млн. нәфәр - 2000).**<br>**Дөвләт (рәсми) дили: Рәсми дил - Испан дили.**<br>**Дин: Христианлыг (әсасән католикләр).**<br>**Милли пул ваһиди: Уругвај песосу.** |

Cənubi Amerikanın cənub-şərqində yerləşmiş Uruqvay, ərazisinin böyüklüyünə görə regionun kiçik dövlətlərindən biridir. Onun kiçik, yığcam ərazisi Uruqvay çayının şərqində yerləşdiyindən ölkə Republika Oriyental del Uruqvay və ya Şərqi Uruqvay Respublikası adını buradan götürmüşdür. Uruqvay şərqdə və şimalda Braziliya (985 km), qərbdə Argentina (579 km) ilə həmsərhəddir. Cənubda və şərqdə Atlantik okeanın suları ilə əhatə olunur.

Ölkənin relyefi yastı, dairəvi təpəliklərin üstünlük təşkil etdiyi düzənlik sahələrdən ibarətdir. Ərazisinin orta hündürlüyü 200-300 metrdir. Sahil zonasında məhsuldar ovalıqlar yerləşir. Ölkənin faydalı qazıntıları azdır. Əsas təbii ehtiyatları - məhsuldar münbit torpaqlar və hidroenerji potensialıdır.

Uruqvay mülayim isti iqlimli ölkədir. İqlimin formalaşmasında okeanın təsiri güclüdür. Orta temperatur yayda 22, qışda isə 12 dərəcəyə yaxın olur. Mart, aprel, sentyabr ən yağışlı aylardır. Uruqvay və Rio-Neqro ölkənin əsas çaylarıdır.

Uruqvay əhalisinin 88 faizini avropalılar (əsasən, ispanlar, fransızlar, italyanlar), 8 faizini metislər, 4 faizini zəncilər və mulatlar təşkil edir. Orta ömür müddəti kişilər üçün 71, qadınlar üçün 78 ildir.

Ölkənin rəsmi adı - Şərqi Uruqvay Respublikasıdır. Dövlət quruluşuna görə unitar respublikadır. İnzibati cəhətdən ölkə 19 departamentdən ibarətdir. Uruqvay 25 avqust 1828-ci ildə Braziliyadan müstəqillik almışdır. Dövlətin və hökumətin başçısı əhali tərəfindən beş il müddətinə seçilən prezidentdir. Qanunvericilik fəaliyyətini ikipalatalı parlament həyata keçirir. Parlament (Uruqvayda Baş Assambleya adlanır), Senat (Yuxarı) və Nümayəndələr (Aşağı) palatalarından ibarətdir.

Ölkə iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Kənd təsərrüfatında aparıcı sahə isə heyvandarlıqdır. Kənd təsərrüfatı ölkə əhalisinin əsas ərzaq məhsulları ilə tam təmin etməklə yanaşı, ixraca-

tın mühüm gəlir mənbəyidir. Uruqvay yun, ət, gön-dəri istehsalı və ixracı üzrə dünyanın aparıcı ölkələrindən biri sayılır.

Hökumətin siyasəti, iqtisadiyyatda dövlətin rolunun azaldılması və maliyyə sisteminin sağlamlaşdırılmasına yönəlmişdir. Dövlət, elektrik enerjisi, neft məhsulları, sement, ət məhsulları istehsalına, dəmiryolu, hava və şəhər nəqliyyatına nəzarət edir. Ölkənin yeraltı sərvətləri dövlətin mülkiyyətidir. Xarici şirkətlər metallurgiya, elektrotexnika, kimya, yeyinti və toxuculuq sənaye sahələrində aparıcı mövqeyə malikdirlər.

* * *

Uruqvayda turistlərin toplaşdıqları mühüm mərkəz - **Montevideodur**. Şəhər iri xarici ticarət portu, dəmir və avtomobil yolları qovşağıdır. Montevideonun ətrafında beynəlxalq dərəcəli aeroport yerləşir. Əslində Uruqvayın paytaxtı üç: qədim şəhər - inzibati və işgüzar mərkəz; kurort - çimərlik rayonları; və dəbdəbəli şəhər ətrafı (Karraeko, Malvin, Positos) hissədən ibarətdir. Montevideonun memarlıq görkəmi də rəngarəngdir: burada klassizm, geniş yayılmış barokko, modernizm isə müstəmləkə dövrünün tikililəri ilə uyğunluq təşkil edir. Paytaxt müasir, çoxmərtəbəli binaları, təmtəraqlı mərkəzi məhəllələri və kurort zonası hesab edilən sahilləri ilə seçilir.

Şəhərin baş küçəsi olan 18 iyul Avenidasında ölkənin mühüm inzibati idarələri yerləşir. İstiqlaliyyət meydanında 1810-cu ildə ispan müstəmləkəçilərinə qarşı xalq üsyanına rəhbərlik edən Xose Artiqasın at üstündə heykəli ucalır. Həmin üsyan nəticəsində, 1811-ci ildə ölkə müstəqillik qazanmışdır (1821-1828-ci illərdə Uruqvay Braziliyanın tərkibində olmuşdur).

Montevideo gözəl bulvarları, parkları və bağları ilə tanınır. Qədim Prado parkında qızılgüllərin 800-dən çox növü yetişdirilir. Batle parkında bir sıra idman tikililəri, o cümlədən 70 min tamaşaçı tutan stadion yerləşir. Rado parkında Milli tətbiqi incəsənət muzeyi fəaliyyət göstərir.

Montevideonun digər görməli yerləri arasında zəngin bəzəyi olan katolik kilsə (1790-1804); Salvo sarayı mühüm mədəniyyət mərkəzi olan Solis teatrı, Tarix muzeyi; Hərbi muzey turistlərin diqqətini cəlb edən yerlərdir.

Atlantik okeanı sahilində dünya miqyaslı dəbdəbəli kurort sayılan **Punta-del-Este**, ölkədə turistlərin toplaşdıqları digər iri mərkəzdir. Hər il çoxsaylı əcnəbi turistləri qəbul edən Salto və Mersedes dəniz kurortları da turistlər arasında çox məşhurdur.

* * *

Ölkəyə hər il 2 mln.-dan artıq turist gəlir. Belə ki, 1995-ci ildə ölkəyə 2,0 mln., 1996-cı ildə 2,1 mln., 1997-ci ildə 2,3 mln. xarici turist gəlmişdir. 1998-ci və 1999-cu illərdə xaricdən gələn turistlərin sayı bir qədər azalmış, müvafiq surətdə 2,16 və 2,07 mln. nəfər olmuşdur. Turizm fəaliyyətindən illik daxilolmalar 600-700 mln. ABŞ dolları təşkil edir. 1995-ci ildə 611 mln., 1996-cı ildə 717 mln., 1997-ci ildə 759 mln., 1998-ci və 1999-cu illərdə müvafiq olaraq 695 və 653 mln. ABŞ dolları təşkil etmişdir. Xarici turistlərin qəbulu üçün ölkədə 37 mindən artıq mehmanxana və digər yerləşmə vasitələrində yerlər mövcuddur. 1999-cu ildə 700 mindən artıq uruqvaylı xarici turist səfərlərində iştirak etmişdir.

# FƏSİL 19

## AVSTRALİYA VƏ OKEANİYA REGİONUNDA BEYNƏLXALQ TURİZM

*Regionla ümumi tanışlıq*

**Ərazisi: 8,9 mln. kv. km (bunun 95 faizi Avstraliya İttifaqı və Yeni Zelandiyanın payına düşür).**
**Əhalisi: 30 mln. nəfər (2000).**
**Ən böyük ölkə: Avstraliya İttifaqı.**
**Ən kiçik ölkə: Nauru Respublikası.**
**Ən yüksək zirvə: Caya dağı - 5029 m (Yeni Qvineya adasında).**
**Ən aşağı nöqtə: Eyr gölü - dəniz səviyyəsindən 12 m aşağıda (Avstraliyada).**
**Ən uzun çaylar: Murrey - 2575 km və Darlinq - 2740 km (hər ikisi Avstraliyada).**

Yer kürəsinin quru hissəsinin coğrafi bölgüsü aparılarkən, Yeni Qvineya, Yeni Zelandiya və Sakit okeanın cənub-qərbində yerləşmiş irili-xırdalı yüzlərlə ada Okeaniya adı altında ümumiləşdirilir. Ən kiçik qitə olan Avstraliya (vahid bir ölkənin ərazisidir) da bu regiona aid edilir. İsti ekvatorial və subekvatorial iqlim qurşağından başlayan bu region Antarktidaya qovuşan Cənub dənizlərinə qədər, Sakit okeanda ucsuz-bucaqsız ərazilərini əhatə edir.

Region digər qitələrdən xeyli aralıda yerləşdiyi üçün, onun özünəməxsus fauna və flora aləmi vardır. İqlim, şimalda - tropikdən başlayaraq, cənubda mülayimə qədər dəyişir. Avstraliya ərazisinin çox hissəsini təşkil edən alçaq yayla və düzənliklər, arabir səhra və yarımsəhra ərazilərlə əvəz olunur. Sakit okean adaları kokos palmaları və tropik meşələrlə örtülüdür.

Sakit okean adalarının əksəriyyəti, aktiv vulkan fəaliyyəti nəticəsində yaranıb formalaşsalar da, bu fəaliyyət indi də davam edir. Fici, Samoa və Vanuatu kimi dövlətlərin tərkibinə aid edilən bir sıra adalarda dağların sərt, sıldırımlı yamacları meşələrlə örtülüdür. Digər adalar isə alçaq mərcan mənşəli ərazilərdir.

Sakit okean adalarında yerləşmiş dövlətlər siyasi və iqtisadi baxımdan inkişaf mərhələsindədirlər. Melaneziya, Mikroneziya və Poli-

neziyanın xalqları yaxın zamanlarda müstəqillik əldə etsələr də, bir sıra adalar və adalar qrupu hələ də Fransa, ABŞ, Avstraliya İttifaqı və Yeni Zelandiyanın müstəmləkə mülkləri olaraq qalırlar. Bir çox kiçik adaların iqtisadiyyatı zəif olduğundan onlar böyük dövlətlərdən iqtisadi yardım almağa məcburdurlar.

Müstəmləkəçilik dövründə bir sıra adalarda nüvə silahı sınaqlarının keçirilməsi ilə həmin adaların özünə və ətraf mühitə ciddi zərər dəymişdir. Bu gün turizm və digər sənaye sahələri gəlir gətirən əsas sahələr olsa da, onlar çox vaxt yerli əhalinin balıqçılıq və əkinçilik üzərində qurulmuş ənənəvi həyat tərzinin pozulmasına səbəb olur.

Avstraliya və Okeaniyanın əsas turist göndərən ölkələrdən uzaqda yerləşməsinə və tranzit yollardan kənarda olmasına baxmayaraq, son illərdə bu regionda turizm yüksək sürətlə inkişaf edir. Region ölkələri arasında Avstraliya İttifaqı, Yeni Zelandiya, Papua-Yeni Qvineya və Ficidə beynəlxalq turizm daha çox inkişaf etmişdir.

## 19.1. AVSTRALİYA İTTİFAQI

**Ərazisi: 7,7 mln. kv. km. Dünyada 6-cı yer.**
**Əhalisi: 19,0 mln. nəfər (2000). Dünyada 48-ci yer.**
**Paytaxtı: Kanberra (350 min nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Dövlət dili - ingilis dili.**
**Din: Xristianlıq (əsasən protestanlar və katoliklər).**
**Milli pul vahidi: Avstraliya dolları.**

Avstraliya qitəsində və yaxınlıqdakı bir neçə adada (ən böyüyü - Tasmaniya) yerləşmiş Avstraliya İttifaqı tamamilə Cənub yarımkürəsindədir. Cənub yarımkürəsinin tropik və subtropik qurşaqları bu dövlətin ərazisindən keçir. Avstraliya İttifaqı hər tərəfdən Sakit okean və onun dənizlərinin suları ilə əhatə olunmuşdur.

Avstraliyanın böyük hissəsi hündürlüyü 400-600 m olan yaylalardan ibarətdir. Ölkənin şərqində Böyük Suayırıcı silsilə, cənubunda isə Avstraliya Alpları (ən böyük zirvəsi Kostyuşko dağıdır - 2228 m) adlanan dağlar uzanır. Suayırıcı silsilə ilə Alp dağları arasında geniş çöllər yerləşir. Qitənin böyük hissəsinin iqlimi quru, səhra və yarımsəhra tiplidir. Şimalda - tropik, cənubda - mülayim subtropik iqlim üstünlük təşkil edir. Avstraliyanın nisbətən çox məskunlaşmış cənub-qərb hissəsinin iqlimi daha əlverişlidir.

Avstraliya Cənub yarımkürəsində yerləşdiyi üçün, iyun-avqust qış, dekabr-fevral isə yay aylarına uyğun gəlir. Avstraliyada təqvim ilini iki: quru və yağmurlu mövsümlərə ayırmaq olar. Avstraliya səth suları ilə zəif təmin olunmuş ölkələrdəndir. Çayların əksəriyyəti - Murrey, Darlinq və onların qolları şərqdə yerləşir. Ölkənin mərkəzində və qərbində olan çaylar yayda quruyur. Belə çaylar Avstraliyada **krik** adlanır. Ölkədəki göllərin çoxu duzludur. Ən böyük göl olan Eyr (dəniz səviyyəsindən 12 m aşağıda yerləşir) də istisnalıq təşkil etmir.

Avstraliya faydalı qazıntılarla təmin olunmuş dövlətlərdəndir. Ölkədə kömür, dəmir filizi, mis, qalay, gümüş, uran, nikel, volfram, qurğuşun, sink, almaz, təbii qaz, neft kimi qiymətli sərvətlər vardır.

Ölkənin iri şəhərləri: Sidney (4 mln.), Melburn (3,4 mln.), Brisben (1,5 mln.), Pert (1,2 mln.) və Adelaidadır (1 mln.).

Avstraliyada yaşayanların əksəriyyəti avropalılardan (əsasən ingilis və irlandlar - 95 faiz) ibarətdir. Əhalinin 4 faizini Asiya xalqla-

rı, 1 faizini aborigenlər təşkil edir. Orta ömür müddəti: kişilər üçün 74, qadınlar üçün 81 ildir.

Əmək qabiliyyətli əhalinin 34 faizi - maliyyə və xidmət sahələrində, 22 faizi - iqtisadiyyatın ictimai və kommunal bölmələrində, 20 faizi - ticarətdə, 18 faizi - sənayedə, 6 faizi - kənd təsərrüfatında çalışır.

Ölkənin rəsmi adı - Avstraliya İttifaqıdır. Dövlət quruluşuna görə federativ parlamentli respublikadır. Federasiyanın tərkibinə 6 ştat: Yeni Cənubi Uels,Cənubi Avstraliya, Qərbi Avstraliya, Kvinslend, Tasmaniya, Viktoriya, 2 federal ərazi: Avstraliya paytaxtının yerləşdiyi ərazi və Şimal əraziləri daxildir. Mərcan mənşəli Aşmor Kartye, Mövlud, Kokos (Kilinq), həmçinin Herd, Makdonald Norfolk adaları da Avstraliya İttifaqına məxsusdur.

Avstraliya İttifaqı 1 yanvar 1901-ci ildə müstəqillik qazansa da, Böyük Britaniyanın rəhbərlik etdiyi "Birliyin" üzvüdür. Qanunvericilik, ingilis ümumi hüququna əsaslanır. 26 yanvar - Avstraliya günü - Milli bayramdır. Dövlətin başçısı funksiyasını Böyük Britaniya monarxının təyin etdiyi general qubernator yerinə yetirir. Əslində ölkəyə rəhbərlik Nazirlər kabinetinə başçılıq edən Baş nazir tərəfindən həyata keçirilir. Ali qanunverici orqan Senat və Nümayəndələr palatalarından ibarət Federal parlamentdir.

Avstraliya İttifaqı inkişaf səviyyəsinə görə Qərbi Avropa ölkələri ilə müqayisə edilə bilən yüksək inkişaf etmiş iqtisadiyyata malikdir. Dağ-mədən, metallurgiya, nəqliyyat avadanlığı istehsalı, kimya, yeyinti, avtomobilqayırma sənaye sahələri daha çox inkişaf etmişdir. Kənd təəsrrüfatı Ümumi Milli Məhsulun 5 və ixracdan gələn gəlirin 30 faizini təmin edir. Buğda, arpa, şəkər qamışı, tropik və subtropik meyvələr yetişdirilməsi bitkiçiliyin inkişaf etmiş sahələridir. Mal əti və yun ixracı üzrə Avstraliya dünyada birinci, qoyun əti ixracı üzrə isə ikinci yeri tutur. Avstraliya İttifaqı dünya bazarına buğda ixrac edən iri dövlətlərdən biridir.

* * *

Avstraliyanın təbii-coğrafi rekreasiya ehtiyatları çox rəngarəngdir. Əhalisi az olan bu böyük dövlətin ərazisində ekzotik və demək olar ki, toxunulmamış landşaft sahələri çoxdur. Yalnız kontinentin deyil, adaların da özünəməxsus təbiəti və orada məskunlaşmış qəbilələrin mədəni-məişət və adət-ənənələri turistlərin böyük marağına səbəb olur.

Materikin fauna və flora aləmi müxtəlif və rəngarəngdir. Burada rast gəlinən növlərin dörddə üçü endemikdir. Evkalipt meşələrində

Avstraliya akasiyaları bitir. Kenquru, koala ayısı, dinqo vəhşi iti, eyni zamanda bitki aləminin nümayəndələrini görmək turistlərdə böyük maraq doğurur. Bəzi turistləri yerli xalqın (aborigenlərin) məişəti, adət və ənənələri maraqlandırır.

Sahil zonasında istirahətin təşkili üçün hər cür şərait, o cümlədən sağlam iqlim, buludsuz səma, müxtəlif meyvələr və s. vardır. Əbəs yerə Avstraliyanı "günəşli qitə" adlandırmırlar, burada narın qumlu çoxkilometrlik çimərliklər, yaxta və su xizəkləri ilə gəzinti, sualtı ov, keyfiyyətli xidmət turistlərin çox xoşuna gəlir.

Daxili turizm, Sidney, Melburn, Adelaida və digər iri şəhərlərdə və dəniz sahillərində, xarici turizm isə əsasən ölkənin iri şəhərlərində cəmləşmişdir.

Avstraliyanın şərq və cənub sahillərində abadlaşdırılmış nümunəvi çimərlikləri olan kurortlar vardır. Onların arasında Taunsvill, Tusumba və daha məşhur olan Qızıl Sahil kurortunu (burada yaradılmış dəniz parkında köpək balığı və delfinlər saxlanılır, kazinolar işləyir, idmanın su növləri ilə məşğul olmaq üçün əla şərait var) nümunə göstərmək olar.

Cənub-şərqdə Böyük Suayırıcı silsilənin daha mənzərəli hissəsi yerləşir. Ölkənin daha çox tanınmış dağ-idman mərkəzləri buradadır. Avstraliyanın şimal-şərq sahilləri boyu, təxminən iki min km-lik məsafədə, gözəl çimərlikləri olan yüzlərlə kiçik adadan ibarət Böyük Sədd rifi uzanır. Avstraliyada müalicəvi mənbələr azdır. Deylsford (Melburn yaxınlığında) və Mori ətrafındakı mənbələr daha məşhurdur.

Avstraliya qədim tarixi abidələrlə zəngin deyil. XVIII əsrin sonlarından başlayaraq avropalılar tərəfindən məskunlaşan ölkədə, Avropa şəhərlərindən fərqli olaraq, qədim və orta əsrlərə aid binalara rast gəlinmir. Hətta, XVIII əsrin sonu - XIX əsrin əvvəllərinə aid olan tikililər də çox az saxlanılmışdır. Qədim tikililərin böyük hissəsi əsasən kilsə və müxtəlif rəsmi idarələrin binalarıdır. Avstraliya İttifaqında xarici turistlərin toplaşdıqları əsas mərkəzlər, ölkənin iri şəhərləridir.

**Sidney turizm mərkəzi.** Sidney ölkənin ən böyük şəhəri, Yeni Cənubi Uels ştatının inzibati mərkəzidir. Port-Cekson körfəzinin sahilində yerləşmiş bu şəhərə İngiltərədən gələnlər ilk dəfə bu ərazidə sahilə çıxmış (1788) və Avstraliya torpağında ilk Britaniya məskəninin əsasını qoymuşlar.

İngilislər tərəfindən salınmış bu yaşayış məskəni İngiltərənin o vaxtkı müstəmləkələr naziri lord Sidneyin şərəfinə Sidney adlandırılmışdır. Sidneyin görkəmli yerləri arasında Port-Cekson körfəzi

üzərindən salınmış tağlı körpünü (1932) qeyd etmək olar. Uzunluğu 4 km, dəniz səviyyəsindən hündürlüyü 53 m olan bu körpü dünyanın ən gözəl mühəndis tikililərindən biri sayılır. Ən iri okean gəmiləri belə onun altından sakitcə keçə bilir. Sidneydəki Avstraliya muzeyi (1827) isə bütün ölkədə tanınır. Burada təbii-elmi, tarixi və etnoqrafik xarakterli böyük kolleksiya toplanmışdır. Şəhərdə həmçinin, Tətbiqi incəsənət və Nikolson antik muzeyləri fəaliyyət göstərir.

Sidneyin yeni opera teatrı da məşhurdur. Teatrın binası portun demək olar ki, mərkəzində, qayalıq sahildə yerləşir. Sidneydə, şəhərin bəzəyi olan, rəngarəng tropik və subtropik bitkilərin saxlanıldığı gözəl parklar çoxdur. Məsələn, Toronqo zoologiya parkı, Kral milli parkı, xüsusilə Botanika bağı və Olimpiya tikililəri (XXVII yay olimpiya oyunları burada keçirilmişdir) turistləri maraqlandıran yerlərdir.

**Kanberra turizm mərkəzi.** Sidneydən cənub-qərbdə, yüksək olmayan dağ silsilələri ilə əhatə olunmuş ərazidə Avstraliya İttifaqının paytaxtı – Kanberra şəhəri yerləşir. Şəhər inzibati və siyasi mərkəzdən daha çox kurorta oxşayır.

1913-cü ildə əsası qoyulmuş şəhərin mərkəzində sahillərində park salınmış böyük göl (70 hektara yaxın) yerləşir. Gölün sahilləri körpülərlə bir-birilə birləşir. Körpünün dayandığı qranit sütunlar, Londondakı məşhur Vaterloo körpüsünün dayaqları olmuşdur. Avstraliyalılar bu körpünü ingilislərdən satın almış, onu sökərək gəmi ilə Avstraliyaya gətirmişlər.

Göldən bir qədər aralıda parlamentin ikimərtəbəli binası yerləşir. Birinci və İkinci Dünya müharibələrində həlak olan avstraliyalıların şərəfinə yaradılmış Avstraliya hərbi muzeyi, paytaxtın görməli yerlərindəndir. Milli dəniz muzeyi, Avstraliya Elmlər Akademiyasının və Milli kitabxananın binaları, memarlıq baxımından çox maraqlıdır.

**Melburn turizm mərkəzi.** Viktoriya ştatının inzibati mərkəzi, əhalisinin sayına görə ölkənin ikinci (Sidneydən sonra) şəhəridir. Görməli yerləri arasında Müqəddəs Patrik məbədi və Kral Sikkə evi turistləri daha çox maraqlandırır. Bitki aləmi ilə məşhur olan Botanika bağı, Melburnun fəxridir. Bu bağın guşələrindən birində qırmızı kərpicdən tikilmiş kiçik bir ev saxlanılır. Məşhur ingilis səyyahı, Avstraliya tədqiqatçısı Ceyms Kuk bu evdə doğulmuş və uşaqlıq illərini də burada keçirmişdir. Avstraliyalılar bu evi İngiltərədən satın alaraq, Melburna gətirmiş, onun daxili və xarici görkəmini bərpa etmişlər.

Ötən əsrin 50-ci illərinin ortalarında Melburnun ətrafında böyük stadion inşa edilmiş və XVI yay Olimpiya oyunları (1956) burada keçirilmişdir. Digər görməli yerlər arasında – zəngin kitab ehtiyatı olan

Viktoriya ştatı kitabxanasını; Diyarşünaslıq və etnoqrafiya muzeyini; qiymətli rəsm əsərlərinin toplandığı Viktoriya milli qalereyasını; Müasir Avstraliya incəsənəti və dizayn muzeyini və Prins-bric körpüsünü göstərmək olar.

**Brisben turizm mərkəzi.** Brisben Kvinslend ştatının ən iri şəhəri olmaqla yanaşı özünəməxsus tropik görünüşü ilə də seçilir. Onun mərkəzi hissəsində Viktorian üslubunda tikilmiş qədim binalar (ratuşa; mehmanxana və s.) qorunub saxlanılmışdır. Məşhur Kvinslend herbarisi* burada yerləşir.

Brisbendən şimalda Mərcan dənizi sahilində Makkay port şəhəri yerləşir. Turizm bu şəhərin həyatında mühüm rol oynayır. Böyük Sədd rifinin canlı həyatını seyr etməyin mümkünlüyü turistləri bura cəlb edir. Sədd rifinin aşağı hissəsini xüsusi katerlər vasitəsilə seyr etmək olur.

**Pert turizm mərkəzi.** Pert Qərbi Avstraliya ştatının inzibati mərkəzidir. Memarlığında qədim Viktorian üslubunun qorunub saxlanıldığı çox mənzərəli şəhərdir. Pertdə yerləşən böyük parkın bir hissəsini Botanika bağı təşkil edir. Burada təbiət olduğu kimi qorunub saxlanılmışdır. 1911-ci ildə əsası qoyulmuş və qədim ingilis üslubunda tikilmiş universitetin tədris korpuslarının memarlıq baxımından həlli də çox maraqlıdır.

Avstraliyada turistləri cəlb edən görməli yerlərdən: Fink çayı vadisini "Çembers sütunlarını" (Şimal ərazidəki dağda yerləşib), Keyp-York yarımadasının şərq sahillərində daş "şəlaləni" və s. qeyd etmək olar. Avstraliya İttifaqı çox geniş milli parklar sisteminə malik olan ölkədir. Bunlardan ən məşhuru Kakadu milli parkıdır. Bu parkda timsah yetişdirən nəhəng qoruq var. Turistləri bura cəlb etmək üçün parkda xarici görünüşcə nəhəng timsaha bənzəyən otel tikilmişdir.

* * *

Ölkədə beynəlxalq turizm yüksək sürətlə inkişaf edir. Belə ki, Avstraliyaya 1967-ci ildə - 222, 1970-ci ildə - 339, 1972-ci ildə - 426 min əcnəbi turist gəlmişdirsə, 1995-ci ildə ölkə 3,7 mln., 1997-ci ildə 4,3, 1999-cu ildə isə 4,4 mln.-dan artıq xarici turisti qəbul etmişdir.

Beynəlxalq turizm Avstraliya iqtisadiyyatında mühüm rol oynayır. 1964-cü ildə ölkə, turizmdən 65, 1970-ci ildə - 300 mln., ABŞ

---

* ***Herbari*** (latın mənşəli sözdür) - elmi məqsədlə öyrənmək üçün yığılıb qurudulmuş bitkilərin kolleksiyası və həmin kolleksiyanı saxlayan və elmi cəhətdən öyrənən müəssisə.

dolları həcmində gəlir əldə etmişdirsə, 1990-cı ildə gəlir - 4, 1995-ci ildə 7,8 mlrd., 1997-ci ildə 9 mlrd., 1998-ci və 1999-cu illərdə bu rəqəm bir qədər azalaraq, müvafiq olaraq 7,3 və 7,5 mlrd. ABŞ dolları təşkil etmişdir. Bu göstəriciyə görə dünyada 12-ci yerdədir. Xarici qonaqların qəbulu üçün ölkədə 560 mindən artıq mehmanxana və digər yerləşmə vasitələrində yerlər mövcuddur. Əcnəbilərin əksəriyyəti ölkəyə istirahət məqsədi ilə (65 faiz) gəlirlər, işgüzar səfərlər isə 15 faiz təşkil edir. Digər qonaqlar təhsil, idman məqsədi ilə gələnlər və ya tranzit turistlərdir.

Həyat səviyyəsinin yüksək, immiqrantların Avropadakı qohumları ilə əlaqələrinin olmasına, turizm bazarının yüksək potensialına baxmayaraq, Avstraliyada yalnız son illərdə xarici səfərlərə gedənlərin sayı artmışdır. 1999-cu ildə 5,7 mln.-dan artıq avstraliyalı xarici səfərlərdə iştirak etmişdir. Əsas turist axını Yeni Zelandiya, Malayziya, Sinqapur, Fici, Honkonq və Yaponiyaya istiqamətlənir.

## 19.2. YENİ ZELANDİYA

**Ərazisi: 270,5 min kv. km. Dünyada 73-cü yer.**
**Əhalisi: 3,6 mln. nəfər (2000). Dünyada 121-ci yer.**
**Paytaxtı: Vellinqton (400 min nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - ingilis dili.**
**Din: Xristianlıq (əsasən protestantlar).**
**Milli pul vahidi: Yeni Zelandiya dolları.**

Yeni Zelandiya Sakit Okeanın cənub-qərbində Kuk boğazı ilə ayrılan iki böyük (Şimal və Cənub) və yaxınlıqdakı bir sıra kiçik adalarda (Stüart, Çatam, Kermadek, Kempbel və s.) yerləşir. Şərqdə Sakit okeanın, şimalda Fici, qərbdə Tasman dənizlərinin suları ilə əhatə olunur.

Adaların səthi dağlıqdır. Cənub adalarında ən yüksək zirvəsi - Kuk dağı (3764 m) olan Cənubi Alp silsiləsi uzanır. Dağ zirvələri buzlaqlarla örtülüdür. Şimal adasının mərkəzində vulkan mənşəli yüksəklik vardır. Qeyzerlər, vulkanlar və isti su mənbələri Şimal adasında daha çoxdur. Ərazinin böyük hissəsinin iqlimi subtropik, ucqar cənubda isə mülayim dəniz tiplidir. İyulun orta temperaturu 5-12, yanvarınkı 4-9 dərəcədir. Yeni Zelandiyanın flora və fauna aləmi də çox maraqlıdır.

Ölkədə vulkan mənşəli göllər çoxdur. Bunlardan ən böyüyü Taupo gölüdür (600 kv.m). Yeni Zelandiyanın ən böyük çayı - Uaikatodur.

Əsas təbii ehtiyatları: dəmir filizi, təbii qaz, daş və qonur kömür, qurğuşun, mis, qızıl və hidroenerji ehtiyatlarıdır.

Vellinqton və Oklend ölkənin həm ən böyük şəhərləri, həm də ən böyük portlardır.

Əhali, əsasən, Şimal adasında cəmləşmişdir. Əhalinin böyük əksəriyyəti (75 faiz) - avropalılar, əsasən Böyük Britaniya mənşəlidir, Maori adlanan polineziya mənşəli yerli əhali ümumi əhalinin 15 faizini təşkil edir. Orta ömür müddəti: kişilər üçün 73, qadınlar üçün 80 ildir.

Yeni Zelandiya, Böyük Britaniyanın başçılıq etdiyi "Birliyə" daxil müstəqil dövlətdir. 1957-ci ildə Böyük Britaniyadan müstəqillik əldə etmişdir. Dövlətin başçısı Böyük Britaniya monarxının təyin et-

diyi general-qubernatordur. Yeni Zelandiyada Qanunverici hakimiyyət birpalatalı parlamentə - Nümayəndələr palatasına məxsusdur. İcraedicilik hakimiyyətini Baş nazirin rəhbərlik etdiyi Nazirlər kabineti həyata keçirir.

Yeni Zelandiya - yüksək inkişaf etmiş sənaye-aqrar ölkədir. Ümumdaxili Məhsulun 64,6 faizi - xidmət, 26,8 faizi - sənaye, 8,6 faizi isə kənd təsərrüfatı sahələrinin payına düşür. Yeyinti, meşə, sellüloz-kağız, maşınqayırma, kimya və toxuculuq sənayenin aparıcı sahələridir. Son illərdə, əsasən ixrac məqsədi daşıyan balıqçılıq sənayesi yüksək sürətlə inkişaf edir. Ölkə ixracatında ət-süd məhsulları, yun, meyvə, balıq və meşə materialları üstünlük təşkil edir.

Yeni Zelandiyalılar öz tarixlərinə ehtiramla yanaşsalar da, ümumiyyətlə ölkədə tarixi abidələr azdır. Bu onunla bağlıdır ki, Yeni Zelandiyada həm müstəmləkəçilikdən əvvəlki, həm də müstəmləkə dövrlərində tikililərin əksəriyyəti ağacdan inşa edilirdi. Buna baxmayaraq, ilk avropalılar tərəfindən tikilmiş qədim binaların bəziləri saxlanılmışdır.

* * *

Yeni Zelandiya çoxsaylı mənzərəli landşaftı, yumşaq iqlimi, balıq ovu və idmanla məşğul olmaq üçün əlverişli şəraitin, yerli xalqın mədəniyyəti və məişəti ilə tanışlığın mümkün olması ilə turistlərin diqqətini cəlb edir. Yeni Zelandiyada bir sıra kurort-şəhərlər vardır. Məsələn, Rotorua şəhəri bu kurortlar arasında daha çox tanınır (müalicəvi palçıq və mineral suları ilə). Vellinqton yaxınlığındakı kiçik kurort şəhərləri turistlər arasında çox məşhurdur.

Avropada dağ-xizək mövsümü bitdikdən sonra Yeni Zelandiyada bu mövsüm yeni başlanır. Dağ-xizək idmanı ilə məşğul olmaq üçün ən əlverişli aylar maydan noyabra qədərdir. Bu müddətdə dünyanın müxtəlif yerlərindən dağ-xizək idmanını sevənlər Yeni Zelandiyanın Şimal adasına yollanır. Dağ-xizək trastları boyunca mənzərəli yerlər, həm də burada yerləşən göllər turistlərin diqqətini cəlb edir.

**Vellinqton turizm mərkəzi.** Vellinqton 1856-cı ildən ölkənin paytaxtıdır. Öncə, ölkənin inzibati mərkəzləri Oklend, ondan əvvəl isə Rassel şəhərləri olub. Vellinqtonda Mariett - parkın möhtəşəm açıq amfiteatrında simfonik konsertlər və opera tamaşaları təşkil olunur. Fleminqo mərkəzi; etnoqrafiya və tarixə aid eksponatların toplandığı Milli muzey, Milli rəsm qalereyası da diqqəti cəlb edir.

**Oklend turizm mərkəzi.** Oklend ölkənin ən iri şəhəri, əsas portu və sənaye mərkəzidir. Şəhərdə müxtəlif çiçəklər və bitkilər yetişdirilən bağlar və parklar çoxdur. Körfəzin üzərində salınmış körpünü,

yerli sakinlər formasına görə "asılqan" adlandırırlar. Turistlərə Yaytemata körfəzində kruiz, bərə və kanoyedə* gəzinti təklif olunur. Oklend şəhərində məşhur səyyah R.Skottun abidəsi ucalır.

Baş Teleqraf binası (barokko üslubunda), divarlarında naxışlar olan ticarət binaları (XIX əsr), Qızıl gül bağı, Rəsm qalereyası, Nəqliyyat və texnika muzeyi, Missioner muzeyi də turistlərdə böyük maraq doğurur. Domeyna parkında əsası 1852-ci ildə qoyulmuş ölkənin ən qədim muzeylərindən biri yerləşir. Muzeydə Maori mədəniyyətinə aid əşya və alətlərin zəngin kolleksiyası toplanmışdır. Əsası 1883-cü ildə qoyulmuş Oklend universiteti binasının memarlıq həlli də diqqəti cəlb edir.

**Kraystçerç turizm mərkəzi.** Kraysçerçdə böyük Botanika bağı, Kafedral kilsə və Universitet binası maraq doğurur. Turistlər Şimal adasındakı vulkan mənşəli yüksəkliyin şimal-şərq hissəsində çox maraqlı təbiət mənzərələri görə bilərlər. Buradakı mənzərəli şəlalələr, dağ gölləri, buzlaqlar və qeyzerlər, həmin əraziyə "möcüzələr diyarı" adı verilməsinə səbəb olmuşdur. Ərazinin ən görməli yeri Potuxu qeyzeridir. Müxtəlif temperaturlu çeşmə suları çaya axdığı üçün, onun sol qolunda suyun hərarəti müsbət 100, sağ qolunda isə 10 dərəcə olur.

**Rotorua turizm mərkəzi.** Bu şəhərin yaxınlığında yerləşən Uaykareuareua kəndində Maori allahlarının taxtadan hazırlanmış bütlərini görmək, xalqın adət, ənənə və məişəti ilə tanış olmaq olar (turistlər üçün bir qədər səhnələşdirilmiş şəkildə).

Rotorua ölkənin mühüm turizm və kurort mərkəzidir. Şəhər özünün yüzlərlə isti, mineral, kükürdlü suları hesabına kurort rayonu kimi şöhrət qazanmışdır. Rotorua termal qoruğunda Puarenqa çayı axır. Bu, dünyada yeganə yerdir ki, balıq tutmaq və onu sudan çıxarmadan elə oradaca bişirmək mümkündür. Belə ki, qaynar və soyuq mənbələrdən çaya daxil olan sular bir çox yerlərdə bir-birinə qarışmağa imkan tapmırlır. Hər iki əlini çaya salmış turistin bir əli soyuq, digəri isə isti axına düşə bilər.

* * *

Yeni Zelandiyaya xarici turistlərin müxtəlif fəsillərdə gəlməsi onunla səciyyələnir ki, burada mövsüm fərqləri Avropa ölkələrində olduğu kimi o qədər də böyük olmasa da mövcuddur. Turistlərin ölkəyə gəlməsinin artıb-azalması, temperaturun və iqlimin digər ele-

---

* ***Kanoye*** (ispan mənşəli sözdür, Karib hindulərinin dilindən götürülüb) - gövdəsi məkik formalı kiçik həcmli idman və ya turist qayığı.

mentlərinin mövsümi dəyişmələri ilə izah olunur. Turist axınının ən az olduğu vaxt iyun-iyul aylarına, daha dəqiq desək, yerli qış dövrünə, maksimum axın isə dekabra, yəni yay mövsümünə təsadüf edir. May və oktyabr aylarında turist qəbulu artır, belə ki, bu aylar şimal yarımkürəsində yerləşən əksər ölkələr üçün mövsüm hesab edilmir.

Avropa və Şimali Amerika ölkələrində turizmin zəiflədiyi aylarda, Avstraliyada olduğu kimi, Yeni Zelandiyada da turist axını artır. Bu bir tərəfdən dünya turizmində mövsümi artıb-azalmaların, ümumiyyətlə yumşaldılmasına səbəb olur, digər tərəfdən beynəlxalq turizmin gələcək inkişafında, Yeni Zelandiyanın qarşısında geniş perspektivlər açır.

1972-ci ildə ölkəyə 242 min xarici turist gəlmişdisə, son illərdə ölkə hər il 1,5 mln.-dan artıq turist qəbul edir. Belə ki, 1995-ci ildə ölkədə 1,4 mln., 1996-cı ildə 1,5 mln., 1997-ci ildə 1,5 mln., 1998-ci ildə 1,5 mln. yaxın, 1999-cu ildə isə 1,6 mln.-dan artıq xarici turist gəlmişdir. Yeni Zelandiyaya turist göndərilməsi üzrə birinci yeri Avstraliya, ikinci yeri ABŞ, üçüncü yeri Böyük Britaniya tutur. Sonrakı yerləri Kanada, Yaponiya və Honkonqdan gələn turistlər tuturlar.

Beynəlxalq turizm Yeni Zelandiya üçün xarici valyuta daxil olmasının mühüm mənbələrindən biridir. Əgər, 1972-ci ildə beynəlxalq turizmdən daxil olmalar təxminən 62 mln. ABŞ dolları təşkil edirdisə, 1995-ci ildə 2,3 mlrd., 1996-cı ildə 2,4, 1997, 1998 və 1999-cu illərdə bu göstərici azalaraq, müvafiq olaraq 2,1, 1,7 və 2,1 mlrd. ABŞ dolları təşkil etmişdir. Xarici turistlərin qəbulu üçün ölkədə 25 mindən artıq mehmanxana və digər yerləşmə vasitələrində nömrələr (otaqlar) mövcuddur (2000). 1999-cu ildə 1,2 mln.-dan artıq Yeni Zelandiya vətəndaşı xarici səfərlərdə iştirak etmişdir. Onlar olduğu ölkələrdə 1,5 mlrd. ABŞ dolları həcmində pul xərcləmişlər.

## 19.3. PAPUA - YENİ QVİNEYA

**Ərazisi: 462,8 min kv. km. Dünyada 53-cü yer.**
**Əhalisi: 4,6 mln. nəfər (2000). Dünyada 117-ci yer.**
**Paytaxtı: Port-Morsbi (200 min nəfər - 2000).**
**Dövlət (rəsmi) dili: Rəsmi dil - ingilis dili.**
**Din: Xristianlıq (əsasən protestantlar və katoliklər).**
**Milli pul vahidi: Kina.**

Sakit okeanın cənub-qərb hissəsində yerləşmiş Papua-Yeni Qvineya dövlətinin tərkibinə Yeni Qvineya adasının şərq hissəsi və yaxınlıqdakı adalar, Bismark arxipelaqı, Solomon adalarının şimal hissəsi və 200-dən artıq digər kiçik ada daxildir. Papua-Yeni Qvineya ancaq bir ölkə - İndoneziya ilə həmsərhəddir. Papua-Yeni Qvineya şərqdə Solomon, şimalda Bismark, cənubda Mərcan dənizlərinin, həmçinin Torres boğazı və Papua körfəzinin suları ilə əhatə olunur.

Papua-Yeni Qvineya və yaxınlıqda yerləşmiş adaların əksəriyyətinin relyefi dağlıqdır. Papua-Yeni Qvineyadakı dağların bir neçəsinin hündürlüyü 4500 m-ə çatır. Onlar daimi qar zolağındadır. Dağlar sanki hər bir adanın onurğa sütununu təşkil edir, bir sıra yerlərdə isə sahilə qədər enir. Yeni Qvineya adasının mərkəzi hissəsində dağ silsilələri bir-birinə qovuşaraq, yüksək yaylalar, şiş zirvələr, dərin dərələr və iti çayları olan Mərkəzi yayla adlanan geniş bir yayla yaradır. Cənuba doğru tədricən aşağı enən yaylalar geniş, hamar, bəzi yerlərdə bataqlıqlaşmış ovalıqlarla əvəz olunur.

Ölkənin iqlimi əsasən rütubətli tropikdir, temperatur il boyu çox cüzi dəyişir. İlin orta temperaturu 26 dərəcəyə yaxındır. İlin fəsilləri yalnız yağıntının miqdarı ilə bir-birindən fərqlənir: "quru mövsüm", "yağışlı mövsümü" əvəz edir. Dağlarda 2500-3000 m yüksəklikdə orta temperatur 10 dərəcəyə yaxın olur, demək olar ki, fasiləsiz yağış yağır. Çay şəbəkəsi sıxdır. Çayları qısaboylu olsalar da, çox suludur.

Ölkə təbii sərvətlər, xüsusilə faydalı qazıntılarla zəngindir: qızıl, gümüş, nikel, qurğuşun, manqan, təbii qaz və s. aşkar olunmuşdur. Ərazinin üçdə-iki hissəsini tutan meşələrdə qiymətli ağac növləri var.

Port-Morsbi, Lae və Medanq ölkənin nisbətən iri şəhərləri, Lae və Port-Morsbi isə portlarıdır.

Melaneziyalılar və papuaslar əhali arasında çoxluq təşkil edirlər. Digər etnik qruplar - mikroneziya, polineziya və avstraliyalılardır. Dindarların yarıya qədəri - protestantlardır. Katoliklər dindarların 25

faizini təşkil edir, qalan əhali yerli dinlərə (bütlərə) sitayiş edir. Orta ömür müddəti: kişilər üçün 56, qadınlar üçün 57 ildir.

Ölkənin rəsmi adı Papua-Yeni Qvineya Müstəqil Dövlətidir. 1975-ci ildə qəbul olunmuş konstitusiyaya əsasən Papua-Yeni Qvineya Böyük Britaniyanın rəhbərlik etdiyi "Birlik" tərkibində dövlətdir. İnzibati cəhətdən ölkənin tərkibinə 19 əyalət və bir paytaxt dairəsi daxildir. Papua-Yeni Qvineya 16 sentyabr 1975-ci ildə müstəqillik əldə etmişdir (öncə BMT-nin himayəsi - Avstraliya İttifaqının idarəsi altında olub). 16 sentyabr - Müstəqillik günü - Milli bayramdır. Qanunvericilik, ingilis ümumi hüququna əsaslanır. Dövlət başçısı - Britaniya monarxının təyin etdiyi general-qubernatordur. Hökumətə rəhbərlik Baş nazirə məxsusdur. Ali qanunverici orqan - Milli parlamentdir.

Ölkənin təbii ehtiyatlarla zəngin olmasına baxmayaraq, relyefin mürəkkəb və çətin olması, lazımi infrastrukturun olmaması nəticəsində onların istismarı da çətinləşir. Ölkə iqtisadiyyatının əsasını dağmədən, ilk növbədə qızıl, gümüş, mis hasilatı (ümumi ixrac həcminin 60 faizi) və palma yağı emalı təşkil edir. Məhsuldar torpaqlar və əlverişli iqlim kənd təsərrüfatının inkişafına imkan yaradır. Papua-Yeni Qvineyada çay, kokos qozu, çəltik, kauçuk kimi qiymətli məhsullar yetişdirilir və qəhvə, kakao, palma yağı ixrac edilir.

* * *

İkinci Dünya müharibəsindən sonra beynəlxalq turizm (xüsusilə ekzotik təbiətlə tanışlıq) inkişaf etməyə başlamışdır. Papua-Yeni Qvineyada gözəl dəniz çimərlikləri, yerli əhalinin çoxəsrlik mədəniyyəti, ölkənin zəngin, və rəngarəng florası (bitkilərin 6872 növünün 85 faizi endemikdir) və faunası sürünənlər, həşəratlar və xüsusilə çoxsaylı quşlarla təmsil olunur. Məməlilərdən isə yalnız kisəli heyvanlara - bandikutlara (kisəli porsuq), vallabilərə (ağac kenqurusu), kuskuslara və b. rast gəlinir. Quşlardan - kazuarlar, cənnət quşu, taclı göyərçinlər, tutuquşular, adalar üçün xarakterikdir.

Meşələrdə və sahil zonasında çoxlu ilan (o cümlədən zəhərli) və kərtənkələ növlərinə rast gəlmək olar. Dəniz sahilində və böyük çaylarda timsah və çanaqlı bağalar yaşayır.

Ölkəyə 1995-ci ildə 42, 1996-cı ildə - 62, 1998-ci ildə - 67, 2000-ci ildə - 90 minə yaxın turist gəlmişdir. Turizmdən daxilolmalar təxminən 100 mln. ABŞ dolları təşkil etmişdir. Ölkəyə gələn turistlərin 50 faizdən çoxu Avstraliya İttifaqı və Yeni Zelandiyadan gələnlərdir. Ölkədə getmə turizmi də inkişaf etməyə başlamışdır. 1999-cu ildə xarici səfərlərdə 60 mindən artıq Papua-Yeni Qvineya vətəndaşı olmuşdur.

## 19.4. FİCİ

**Ərazisi: 18,3 min. kv. km. Dünyada 152-ci yer.**
**Əhalisi: 900 min nəfər (2000). Dünyada 153-cü yer.**
**Paytaxtı: Suva (180 min nəfər - 2000).**
**Dövlət (rəsmi dili): Rəsmi dil - ingilis dili.**
**Din: Xristianlıq (əsasən protestant və katoliklər).**
**Milli pul vahidi: Fici dolları.**

Fici Sakit okeanın cənub hissəsində, eyni adlı arxipelaqda (800-dən artıq ada, bunlardan 100-ü məskunlaşmışdır) yerləşir. Arxipelaqın ən iri adaları Viti-Levu və Vanua-Levu yalnız ölçülərinə görə deyil, həmçinin landşaftına görə də digər adalardan fərqlənir.

Adaların relyefində vulkan mənşəli dağ silsilələri və yaylalar üstünlük təşkil edir. Dağların yamacları tropik meşələrlə örtülüdür. Ölkənin iqlimi rütubətli tropik okean (orta illik temperatur 25 dərəcədir) tiplidir. İl ərzində adalara 1800-3200 mm həcmində yağış yağır.

Ölkənin əsas təbii ehtiyatları dənizlərdəki balıq, meşələrindəki qiymətli oduncağı olan ağaclar, faydalı qazıntılardan qızıl və misdir. İri adalarda çayların sayı çox olsa da, onlar gəmiçilik üçün yararsızdırlar.

Ölkə əhalisinin yarıya qədəri özlərini Ficili adlandıranlar (melaneziya və polineziya mənşəlilər), digər yarısı - Hindistandan gəlmələrdir. Avropalılar əhalinin cüzi bir hissəsini təşkil edirlər. Orta ömür müddəti: kişilər üçün 63, qadınlar üçün 68 ildir.

İdarəolunma formasına görə Fici unitar respublikadır. Dövlətin başçısı prezidentdir. Ali qanunverici orqan iki palatadan (Nümayəndələr palatası və Senat) ibarət parlamentdir. İcraedici hakimiyyət, Baş nazirin rəhbərlik etdiyi hökumət tərəfindən həyata keçirilir. Qanunvericilik ingilis hüququna əsaslanır. Fici 10 oktyabr 1970-ci ildə Böyük Britaniyadan müstəqillik almışdır. Həmin gün - Milli bayram kimi qeyd olunur.

Ölkə iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Qənd və kopra* mühüm ixrac məhsullarıdır. Emaledici sənaye sahələri əsas etibarı ilə kənd təsərrüfatı və balıq məhsullarının ilkin emalı ilə bağlıdır. Turizm xarici valyuta daxilolmalarının mühüm mənbəyidir.

---

* ***Kopra*** - kokos palması meyvəsinin, yəni kokos qozunun qurudulmuş şəklidir. Ondan palma yağı, marqarin, sabun və s. alınmasında istifadə edirlər.

* * *

Yumşaq, isti iqlim turistləri bu yerlərə cəlb edir. Palma bağları ilə əhatə olunan çoxkilometrlik qumlu çimərliklər, sakit mənzərəli buxtalar, müxtəlif balıqların mərcan gölməçələrində üzməsi (bu mənzərəni təkcə akvalangistlər deyil, adi turistlər də şəffaf altlığı olan xüsusi katerlər vasitəsilə müşahidə edə bilərlər) turistlərin böyük marağına səbəb olur. Bütün bunlar Ficini Sakit okeanda ən yaxşı kurort mərkəzlərindən biri kimi tanıdır.

Sahil sularında yaxtalarda və su xizəklərində gəzintinin, sualtı ovun təşkili Fici çimərliklərinin cazibə qüvvəsini artırır. Ölkənin paytaxtı **Suva** - Sakit okeanın Okeaniya bölgəsində yerləşən ən böyük şəhər və turizm mərkəzidir. Ölkənin görməli yerləri arasında - Suvadakı Fici muzeyini xüsusilə qeyd etmək olar. Burada Sakit Okean adalarına aid edilən etnoqrafik və arxeoloji eksponatların zəngin kolleksiyası toplanmışdır.

Ficiyə hər il 300 mindən artıq xarici turist gəlir. Belə ki, 1995-ci ildə ölkəyə 318, 1997-ci ildə 359, 1999-cu ildə isə 410 min nəfər gəlmişdir. Turizm fəaliyyətindən daxilolmalar 1995-ci ildə 283, 1997-ci ildə 297, 1999-cu ildə isə 275 mln. ABŞ dolları təşkil etmişdir. Xarici turistlərin qəbulu üçün ölkədə 15 mindən artıq mehmanxana və digər yerləşmə vasitələrində yer mövcuddur. Fici adalarında iqlim nisbətən sabit olduğu üçün, turist qəbulunda mövsümlə bağlı artıb-azalma çox az olur. 1999-cu ildə Fici əhalisinin 10 faizi və ya 89 min nəfəri xarici səfərlərdə iştirak etmişdir.

# FƏSİL 20.

## AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZMİN MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAFI

*Respublika ilə ümumi tanışlıq*

**Sahəsi: 86,6 min kv. km. Dünyada 111-ci yer.**
**Əhalisi: 8,1 mln. nəfər (2001). Dünyada 98-ci yer.**
**Paytaxtı: Bakı (2,3 mln. nəfər - 2001).**
**Dövlət (rəsmi) dili: Dövlət dili - Azərbaycan dili.**
**Din: İslam.**
**Milli pul vahidi: Manat.**

Azərbaycan Respublikası (AR) əlverişli coğrafi mövqeyi olan ölkələrdən biridir. O, Avropa ilə Asiyanın bir-birinə yaxınlaşdığı Qafqaz adlanan keçid bölgəsinin cənub-şərqində yerləşib. Tarixi Azərbaycan torpaqlarının böyük bir hissəsi (təqribən 130 min kv. km) İran İslam Respublikasının Qərb bölgələrindədir. Xəzər dənizində yerləşən Abşeron və Bakı arxipelaqları da Azərbaycan Respublikası ərazisinə daxildir.

Azərbaycan Respublikası şimaldan Rusiya Federasiyası (sərhəddin uzunluğu 284 km), qərbdən Ermənistan Respublikası (785 km), şimali-qərbdən Gürcüstan Respublikası (322 km), cənubi-qərbdən Türkiyə Respublikası (11 km) və cənubdan İran İslam Respublikası (678 km) ilə həmsərhəddir. Şərqdən 800 km məsafədə Xəzər dənizinə çıxışı var. Avropadan Asiyaya gedən beynəlxalq əhəmiyyətli bəzi yollar Azərbaycan ərazisindən keçir. Milli müstəqillik əldə olunduqdan sonra AR-nın siyasi-coğrafi mövqeyində müsbət dəyişikliklər (Qazaxıstan və Türkmənistan nefti və təbii qazının Azərbaycan ərazisindən keçməklə Dünya bazarına çıxarmaq, İpək yolunun bərpası və s.) baş vermişdir.

Azərbaycan landşaftı* və təbii ehtiyatlarının rəngarəng olması onun iqtisadi inkişafı üçün əlverişli imkanlar yaradır. Relyefinə görə

* ***Landşaft*** (alman mənşəli sözdür) - məhəllin ümumi görünüşü. Eyni tipli geoloji quruluş, relyef, hidroiqlim rejimi, uyğun torpaq, həmçinin xarakterik morfoloji strukturu ilə seçilən və genetik cəhətdən yekcins olan ərazi.

Azərbaycan dağlıq ölkələr sırasına aid edilir. Ərazi üç tərəfdən: şimaldan Böyük Qafqaz, qərbdən Kiçik Qafqaz, cənubdan Talış dağları ilə əhatə olunmuşdur. Ölkənin ən hündür dağı cənub-şərq hissəsi Azərbaycana aid edilən Bazardüzüdür (hündürlüyü 4480 m).

Böyük və Kiçik Qafqaz dağları bir-birilə Suram dağ keçidi vasitəsi ilə əlaqələnir. Azərbaycan daxilində isə bu iki dağ sistemi arasında Kür-Araz (və ya Aran) ovalığı yerləşir. Kür-Araz nəinki Azərbaycanda, eləcə də bütün Qafqazda ən böyük ovalıqdır. Göstərilən iri təbii-coğrafi əyalətlərdən başqa Azərbaycanda daha bir neçə (Qusar maili düzənliyi, Arazboyu düzənliyi, Abşeron yarımadası, Lənkəran ovalığı və b.) təbii-coğrafi vahidlər mövcuddur.

AR faydalı qazıntılarla zəngin ölkələrdən biri hesab olunur. Bu sərvətlər içərisində neft xüsusi əhəmiyyət kəsb edir. Mütəxəssislərin fikrincə, eramızın X yüzilliyinin axırlarından Bakı ətrafında neft çıxarılır. O dövrlərdə neftdən yaşayış məskənlərini işıqlandırmaq, müalicə olunmaq üçün istifadə olunurdu. XVIII əsrin əvvəllərində Balaxanı, Sabunçu, Ramana kəndlərinin yaxınlığında təqribən 500 quyu qazılmışdır. Dünya təcrübəsində ilk dəfə olaraq dənizdə BibiHeybət buxtasında qazılmış quyulardan neft çıxarılmışdı.

Yalnız XIX əsrin son rübündən etibarən neft (necə deyərlər, öz simasını dəyişməyə), daha çox sənaye əhəmiyyəti kəsb etməyə başladı, yəni daş kömürü tədricən sıxışdıraraq əsas enerji yanacağına çevrildi. 1844-cü ildə dünyada ilk dəfə olaraq, yəni ABŞ-ın Pensilvaniya ştatında qazılmış neft quyusundan 10-11 il əvvəl Bibiheybətdə sənaye əhəmiyyətli neft quyusu qazılmağa başlandı. Azərbaycanın ən böyük neft və qaz yataqları Xəzərin Azərbaycana aid bölgəsində və Abşeron yarımadasındadır. Bunlardan əlavə Siyəzən, Qobustan, Şirvan bölgələrində də neft yataqları var. Gəncə şəhəri yaxınlığında Naftalan adlanan yerdə müalicə əhəmiyyətli neft çıxarılır.

Azərbaycan filiz yataqları ilə də zəngindir. Ən böyük dəmir filizi yataqları Kiçik Qafqazda, Daşkəsən bölgəsindədir. Balakən rayonunda Filizçay adlanan ərazidə polimetal, Gəncənin yaxınlığında Zəylik adlanan kəndin ətrafında alunit yataqları mövcuddur. Alunit ehtiyatına görə Azərbaycan dünya miqyasında seçilən ölkələrdən biridir. Naxçıvan Muxtar Respublikasında böyük ehtiyata (2,0-2,5 mlrd. t) malik daş duz yataqları mövcuddur. Azərbaycan torpağı müxtəlif tikinti materialları (mərmər, ağdaş, əhəng, odadavamlı gil və s.) ilə zəngindir. Azərbaycanda 1000-dən artıq soyuq, termal və mineral mənşəli bulaqlar var. İstisu, Turşsu, Sirab, Vayxır, Badamlı, Qalaaltı, Şıxburnu, Suraxanı mineral bulaqları daha məşhurdur.

Azərbaycanın iqlimi termik ehtiyatların bolluğu ilə seçilir. Suvarma problemi həll edilsə, ölkə üzrə yüksək məhsuldarlığa nail olmaq olar. Respublikanın düzən hissələrində yay ayları isti və quraq, payız ılıq və yağışlı, qış mülayim və rütubətli, yaz isə qeyri-sabitliyi ilə seçilir. Dağlıq bölgələrdə şaquli zonallıq hökm sürür. Ümumiyyətlə, Azərbaycanın iqlimi mülayim iqlimdən subtropik iqlimə keçid təşkil edir. Əslində, respublikanın iqlimi quraq və rütubətli subtropiklərə aid edilir. Lənkəran ovalığı və Alazan-Əyriçay vadisi rütubətli, digər ovalıq və düzənliklərdə isə quru subtropik iqlim hakimdir.

Azərbaycanda ən yüksək orta illik temperatur Mil, Muğan, Şirvan, Qarabağ düzlərində və Lənkəran ovalığında, həmçinin Abşeronda müşahidə edilir. Bu yerlərin iqlimi pambıq, zeytun, çay, subtropik meyvələr kimi istiliksevər bitkilərin becərilməsinə imkan verir.

Azərbaycan ərazisinə yağıntılar çox qeyri-bərabər düşür. Ən çox yağıntı Lənkəran ovalığına (1700 mm-ə qədər), Alazan-Əyriçay vadisinə (1000 mm-ə qədər), ən az isə (200 mm-dən az) Abşeron yarımadasının cənub hissəsinə düşür. Qalan düzən yerlərə 200-400, alçaq dağlıq sahələrə 400-600, orta dağlıq sahələrə 600-1200 mm. yağıntı düşür.

İqlimin və relyefin müxtəlifliyi çay şəbəkəsinin də müxtəlifliyinə səbəb olmuşdur. Azərbaycan Respublikası ərazisindən 8000-dən artıq çay axır ki, bunların da böyük əksəriyyətinin uzunluğu 10 km-dən azdır. Kiçik çayların çoxu yay aylarında quruyur. Axının əmələ gəlməsinə görə respublikamızın çayları yerli və tranzit çaylara bölünür. Çayların ümumi su ehtiyatlarının üçdə iki hissəsi tranzit çayların payına düşür. 1000-2500 m hündürlüklərdə çay şəbəkəsi nisbətən sıxdır.

Azərbaycanın ən böyük çayı Kürdür. Dövlətimiz ərazisində Kürün uzunluğu 900 km-dir. Mənsəbindən 236 km aralı Kürə Araz çayı qovuşur. Mənsəbində Kür 15 km uzunluğunda delta* əmələ gətirir. Azərbaycanın ikinci böyük çayı Arazdır. Əslində bu çay Türkiyə və İranla Azərbaycanın dövlət sərhəddinin xeyli hissəsini təşkil edir. Respublika ərazisindən 580 km məsafədə axan Araz, soldan bir neçə qol (Arpaçay, Əlincəçay, Naxçıvançay, Gilançay və s.) qəbul edir. Azərbaycan çaylarının potensial hidroenerji resursları 16 mlrd. kvt. s. bərabərdir. Kür və Araz üzərində bir neçə su elektrik stansiyası və su anbarları tikilib istifadəyə verilmişdir.

Azərbaycan ərazisində irili-xırdalı yüzlərlə göl var. Təbii hidro-

---

* ***Delta*** (yunan əlifbasının baş hərfi Δ) - çayların aşağı axınlarında çay qolları şəbəkəsi ilə parçalanmış çay çöküntülərindən ibarət ovalıq.

loji şəbəkə ilə yanaşı Azərbaycanda süni suvarma sistemləri də yaradılmışdır. Bunlardan ən böyükləri 1953-cü ildə Kürün orta axınında yaradılmış Mingəçevir su anbarıdır. Hündürlüyü 88 m olan bənd, sahəsi 605 kv. km olan su anbarını əmələ gətirmişdir. Bu anbarda 16,1 min kub m həcmində su var.

Azərbaycan Respublikasının təbiətində, iqtisadi həyatında Xəzər dənizinin inkaredilməz rolu var. Sahəsi 376 min kv. km olan Xəzərdə 76 min kub km su var. Xəzərin səviyyəsi qalxma və enmə hadisələrinə məruz qalır. Xəzərin Azərbaycan sahillərində tez-tez palçıq vulkanı fəaliyyət göstərir. Xəzərdəki Pirallahı, Cilov, Zirə, Muğan daşı, Qarasu, Kür daşı kimi adalar Azərbaycana məxsusdur. Xəzər Azərbaycan üçün ən ucuz nəqliyyat yolu olmaqla bərabər, neft, təbii qaz və balıq sərvətləri ilə də zəngindir.

Azərbaycan ərazisində 4100-dən artıq bitki növü yayılmışdır. Bunların 200-ə qədəri endemiklərdir*. Azərbaycan ərazisinin təqribən 10 faizi meşələrdən ibarətdir. Bu meşələrdə palıd, fısdıq və vələs ağacları üstünlük təşkil edir. Kür-Araz ovalığında, Qobustanda, Abşeronda, Naxçıvan Muxtar Respublikasının Arazboyu bölgələrində əsasən efemerlər** - yovşan və şoran bitkiləri yayılmışdır. Respublikanın meşələri və kolluqları tədarük əhəmiyyətinə malik yabanı və cır meyvələrlə zəngindir.

Azərbaycan iqtisadiyyatı qarşısında ekoloji tarazlığı qorumaq kimi çətin bir problem durur. Bu ilk növbədə Xəzərin ekologiyası, dövlətimizin ərazisinə daxil olan tranzit çayların təmizliyi, şoran torpaqların meliorasiyası***, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Əli Bayramlı kimi iri şəhərlərdə havanın təmizliyi məsələləridir.

Azərbaycan Respublikasının yerləşdiyi ərazi dünyanın qədim zamanlardan məskunlaşmış bölgələrindən biridir. Füzuli şəhəri yaxınlığında, Azıx mağarasında Daş dövrünün qədim insan izləri aşkar olunmuşdur. Mütəxəssislərin fikrincə, respublikanın müasir ərazisi hələ paleolit dövründə məskunlaşmışdır.

Azərbaycan və orada məskunlaşan xalqlar tarixi inkişaf boyu bə-

---

* ***Endemiklər*** - məhdud bir sahədə yayılmış heyvan və bitki növləri. Keçilməz və ya çətinliklə keçilən maneələr vasitəsilə başqa yerlərdən ayrılmış sahələrdə endemiklər xüsusilə çoxdur.

** ***Efemer*** (yunanca bir günlük, ömrü qısa mənasını bildirir) - səhra, yarımsəhra və düzən sahələrin ekoloji şəraitinə uyğunlaşmış, vegetasiya dövrü qısa olan birillik bitkilər.

*** ***Meliorasiya*** (yunanca yaxşılaşdırma, yararlı hala salma mənasını daşıyır) - torpaqların faydalı istifadəsi üçün yararlı olmayan təbii şəraitin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər sistemi.

şəriyyətin ibtidai icmadan başlamış müasir kapitalizmə qədər bütün mərhələlərini keçmişlər. Azərbaycan torpağının avtoxtonları* oturaq həyata keçərək əkinçilik, heyvandarlıq və çoxsahəli sənətkarlıqla məşğul olmuşlar. Mütəxəssislərin fikrincə, Azərbaycanın köklü əhalisinin yazılı tarixinin yaşı azı üç min ildir.

YUNESKO-nun qərarı ilə 1999-cu ildə 1300 illiyi geniş qeyd olunmuş "Kitabi-Dədəm Qorqud" dastanında Azərbaycanın qədim dövlət və geniş əraziyə malik olmasından xəbər verilir.

XVI əsrin əvvəllərində Azərbaycan torpağında yaradılmış Səfəvilər dövləti Sır-Dəryadan Dəclə çayına qədər olan geniş bir ərazini əhatə edirdi. Bu dövlət feodal pərakəndəliyinə son qoydu. Sonradan baş vermiş regional müharibələr Səfəvilər dövlətini zəiflətdi və Azərbaycan yenidən İranın təsiri altına düşdü. XIX əsrdə baş vermiş Rusiya-İran müharibələri nəticəsində Azərbaycanın şimal hissəsi Rusiyaya birləşdirildi, cənub vilayətləri isə İranın tərkibində qaldı.

XX əsrin əvvəllərində Azərbaycanda azadlıq, müstəqillik və suverenlik ideyaları yayılmağa başlayır və 1918-ci ilin 28 mayında Türk və İslam dünyasında ilk dəfə vətənimizdə Azərbaycan Demokratik Respublikası (ADR) adlanan dövlət yaranır. Amma dünyanın bir sıra böyük dövlətlərinin tanıdığı Azərbaycanı şimal qonşusu Sovet Rusiyası tanımadı və təqribən iki il sonra 1920-ci ilin 28 Aprelində Azərbaycana yeridilmiş XI Rus-bolşevik ordusu ADR-ı süquta uğratdı. 1920-ci ildən 1991-ci ilə qədər Azərbaycan SSRİ tərkibində idarə olunmuşdur. 1991-ci ilin 18 Oktyabrında Azərbaycanın müstəqil dövlət olması yenidən elan olunur.

1995-ci ilin 12 noyabrında qəbul olunmuş konstitusiyaya əsasən Azərbaycan demokratik, dünyəvi, unitar respublikadır. Azərbaycanda dövlət rəhbərliyi hakimiyyətin qanunvericilik, idarəçilik və məhkəmə sisteminə bölünməsi vasitəsilə yerinə yetirilir. Dövlətin başçısı səlahiyyət müddəti beş il olan prezidentdir.

Azərbaycanda qanunvericilik hakimiyyəti Milli Məclis adlanan birpalatalı parlamentə məxsusdur. Milli Məclisin 125 deputatı ümumi və birbaşa seçkilər vasitəsilə beş il müddətinə seçilir.

Azərbaycanda icraedici hakimiyyət (Prezident aparatı ilə bərabər) Baş nazirin rəhbərlik etdiyi hökumətin üzərinə düşür. Məhkəmə hakimiyyəti Konstitusiya məhkəməsi, Ali məhkəmə və Ali iqtisad məhkəməsi tərəfindən tənzimlənir. İnzibati cəhətcə Azərbaycan Respublikası tərkibinə 6 kənd inzibati rayon daxil edilmiş Naxçıvan

---

* ***Avtoxton*** (yunanca yerli mənasını bildirir) - təkamül prosesində əmələ gəldiyi yerdə yaşayan canlılar nəzərdə tutulur.

Muxtar Respublikasından və 65 kənd inzibati rayonundan ibarətdir. Azərbaycanda respublika tabeliyində 11 şəhər (Bakı, Gəncə, Sumqayıt, Əli Bayramlı, Mingəçevir, Lənkəran, Naftalan, Xankəndi, Şəki, Quba, Şuşa) var.

Azərbaycan Respublikası 30-dan artıq beynəlxalq və regional təşkilatların, o cümlədən BMT (mart, 1992), ATƏT (yanvar, 1992), İslam Konfransı Təşkilatı (1992), Avropa Şurası (2000), EKO (İqtisadi Əməkdaşlıq Şurası, 1992), Qaradəniz İqtisadi Əməkdaşlıq Şurası (1992), Avropa Yenidənqurma və İnkişaf Bankı (1992), Ümumdünya Bankı (1992), MDB (sentyabr, 1993), GUAÖM*, YUNESKO, YUNİSEF, Ümumdünya Turist Təşkilatı (sentyabr, 2001) kimi təşkilatların üzvüdür.

Azərbaycan Respublikası Qafqaz bölgəsində ən çox əhalisi olan dövlətdir. Avropoid irqinin Hind-Aralıq dənizi qoluna mənsub olan azərbaycanlıların ümumi sayı isə 40 mln. nəfəri ötmüşdür. Bu göstəriciyə görə azərbaycanlılar türk dilli xalqlar içərisində ikincidir.

Ölkə əhalisinin 80 faizindən çoxunu təşkil edən azərbaycanlılar Cənubi Avropoid irqinin Xəzər tipinə, danışdıqları dil isə türk dilinin oğuz qrupuna aiddir. Azərbaycanlılardan başqa burada ləzgilər, ruslar, talışlar, gürcülər, kürdlər, udinlər, yəhudilər, tatlar və b. xalqların nümayəndələri yaşayır. Ruslar XIX əsrin 30-cu illərindən Rusiya və Ukraynanın daxili rayonlarından Azərbaycana zorla köçürülən sektantlar** olmuşlar.

Azərbaycan ərazisində ilk şəhərlər lap qədim zamanlarda meydana gəlmişlər. Keçmişdə yaranmış şəhərlər, ya feodal dövlətlərin mərkəzləri (Bərdə, Şamaxı, Şəki, Gəncə), ya qala-şəhər (Girdiman, Beyləqan) funksiyalarını yerinə yetirmişlər. Sonradan həmin şəhərlərdə sənətkarlıq və ticarət inkişaf etməyə başlayır. Azərbaycan ərazisindən keçən ticarət yolları hesabına kiçik şəhərlər (Quba, Şəki, Lənkəran) meydana gəlir. Kapitalizm inkişaf etdikcə dəmiryollar kənarında yerləşmiş və nisbətən formalaşmış iri şəhərlərin (Bakı, Gəncə) daha da böyüməsinə imkan yaradır. Sovet hakimiyyəti illərində Azərbaycanda yeni sənaye şəhərləri (Sumqayıt, Mingəçevir, Əli Bayramlı, Daşkəsən və s.) meydana gəlmişdir.

Azərbaycan iqtisadi inkişaf səviyyəsinə görə sənaye-aqrar ölkə-

---

* ***GUAÖM*** - 1998-ci ildə MDB üzvləri - Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova GUAM (ölkələrin baş hərflərinin abbreviaturası) adlanan təşkilat yaratdılar. 1999-cu ilin aprelin sonlarında Özbəkistan da bu təşkilata qoşuldu.

** ***Sekta, sektantlar*** - dünyəvi dinlərin (buddizm, xristian, islam) hakim cərəyanlarından ayrılmış dini qruplar və icmalar.

sidir. Çoxsahəli iqtisadiyyat müxtəlif yerli xammala əsaslanır. Azərbaycanda neft və təbii qazdan başqa dəmir, sink, molibden filizləri, həmçinin alunit, daş duz, tərkibində yod və brom olan mədən suları, gips, əhəngdaşı, gil, mərmər, ağ daş və s. istehsalı ilə yanaşı hidroenerji sərvətlərindən də geniş istifadə olunur. Respublikamızın kənd təsərrüfatı meyvə, tərəvəz, pambıq, tütün, subtropik bitkilər, ipəkçilik və qoyunçuluq sahəsində ixtisaslaşır. Azərbaycan müəssisələrinin bir qismi ilk növbədə kənd təsərrüfat məhsullarının ilkin emalı üzrə ixtisaslaşmışlar.

Beynəlxalq əmək bölgüsündə Azərbaycan neftçıxarma və neftemalı, kimya, elektroenergetika, neft maşınqayırması, yüngül və yeyinti sənayesinə görə seçilən dövlətdir. Ümummilli məhsulun yarıdan çoxunu sənaye sahələri yaradır ki, bunların da təqribən 70 faizi Abşeron yarımadasında təmərküzləşib. Hələ XX yüzilliyin əvvəllərində Bakı sənaye rayonu Rusiya imperiyasının ən inkişaf etmiş bölgələrindən biri idi. O vaxt Rusiyanın sənaye potensialının 5 faizi Bakının payına düşürdü.

Keçmişdə olduğu kimi indi də Azərbaycan iqtisadiyyatının əsasını neft sənayesi təşkil edir. 1872-ci ildən bəri Azərbaycanda sənaye əhəmiyyətli neft çıxarılır. Artıq 1891-ci ildə dünyada çıxarılan neftin yarısını Azərbaycan nefti təşkil edirdi. "Qara qızılın" çıxarılmasında yerli neft sahibkarları (Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Murtuz Muxtarov və b.) ilə yanaşı xarici (Nobel qardaşları, Rotşild və b.) sahibkarlar da fəal iştirak edirdilər.

Azərbaycanda maşınqayırma və metallurgiyanın inkişafı ilk növbədə neft çıxarılması ilə bağlı idi. Buna görə də respublikamızda neft maşınqayırması daha yaxşı inkişaf etmişdir. Bununla yanaşı, son 30 ildə elektroenergetika, məişət texnikası, müxtəlif alətlər istehsal edən müəssisələr tikilmişdir. Maşınqayırma kimi, metallurgiya da neft sənayesinin inkişafı ilə əlaqədar inkişaf etdirilmişdir. Metallurgiya müəssisələri Sumqayıtda, Gəncədə, Daşkəsəndə fəaliyyət göstərir.

Müəyyən ixtisaslaşmaya malik olsa da, kənd təsərrüfatı ölkə iqtisadiyyatının strukturunda önəmli rol oynaya bilməmişdir. Respublikada mindən yuxarı fermer təsərrüfatı mövcuddur. Azərbaycanda istehsal olunan meyvənin, tərəvəzin, südün dörddə üçündən çoxu şəxsi təsərrüfatların payına düşür. Respublikamızın təbii-iqtisadi şəraiti bitkiçiliyin inkişafına təkan vermişdir.

Respublikamızda yük və sərnişin daşımalarında həm avtomobil, həm də dəmiryol nəqliyyatının rolu böyükdür. Azərbaycanın 1880-ci ildə çəkilmiş ilk dəmiryolu Bakını Abşeronun neft mədənləri ilə bir-

ləşdirən elektrik dəmiryolu olmuşdur. Rusiyanın başqa ucqarlarına nisbətən Azərbaycanda dəmiryolu daha tez çəkilməyə başlanmışdır. 1883-cü ildə Azərbaycan neftinin Qara dəniz portlarına və oradan dünya bazarına çıxmasına imkan verən Bakı-Batum yolu işə düşdü. Bakı-Mahaçqala dəmiryol xətti isə 1901-ci ildə fəaliyyətə başladı. Sonrakı illərdə başqa yollar da çəkildi.

Azərbaycan Respublikası mineral bulaqlar ilə zəngin olduğundan onların əsasında müalicə-sağlamlıq və kurort təsərrüfatı yaradılmışdır. Qədim Azərbaycan torpağından onlarca turist marşrutları başlayır.

Respublikamızın turizm baxımından əsas diqqətə layiq yerləri Bakı şəhəri və ətrafı, Gəncə-Qazax, Şirvan, Naxçıvan, Qarabağ, Quba-Xaçmaz, Şəki-Zaqatala, Lənkəran-Astara bölgələridir. Adı çəkilən yerlərin tarixi-memarlıq abidələri, təbii gözəllikləri, səyahət etmək istəyənlərdə böyük maraq doğurur. Başqa sözlə desək, dünyanın müxtəlif ölkələrindən Azərbaycana gələn turistləri yerli sakinlərin qonaqpərvərliyi, bol günəşli günlər, narın qumlu çimərliklər, əsrarəngiz dağlar, nadir tarixi-memarlıq abidələri, müxtəlif muzeylər və s. gözləyir. Azərbaycanın hər yeri turizm-ekskursiya baxımından maraqlı olsa da, ölkənin əsas turizm mərkəzi onun paytaxtı Bakıdır.

## 20.1. Azərbaycanın turizm bölgələri

**Bakı-Abşeron turizm bölgəsi.** Bakı müstəqil Azərbaycan Respublikasının paytaxtı, müasir meqapolis olmaqla yanaşı, dünyanın iri sənaye mərkəzlərindən biridir. Bakı, Avrasiyanın digər qədim şəhərləri ilə yanaşı, bütün bəşəriyyətin sərvətidir. Nadir mikroiqlimə malik Bakıda müxtəlif mədəniyyət və ənənələrin uzun əsrlər boyu bir-birinə qovuşması onun qonaqlarının nəzərindən qaçmır, bu xüsusiyyətlər Bakıda yaşayanların mentalitetindən başlayaraq şəhərin memarlıq simasına qədər hər yerdə özünü biruzə verir.

Mavi Xəzərin sahilində, Abşeron yarımadasının cənub-qərbində yerləşmiş Bakı, qövsvari buxtanı amfiteatr şəklində əhatə edir. Yazılı mənbələrdə Bakı haqqında ilk məlumat eramızın 885-ci ilinə aid edilir. Lakin arxeoloji qazıntıların nəticələri, şəhərin xeyli öncə əsası qoyulduğunu sübut edir. "Bakı" sözünün mənası haqqında da mütəxəssislər arasında yekdil fikir və rəylər yoxdur. Xatırladaq ki, bir qrup tədqiqatçı bu adın "Bad-Kübə" - Küləyin zərbəsi və ya "Bad-Kiu" - Küləklər şəhəri sözlərindən yarandığı göstərir. Digər tədqiqatçılar isə, Bakı sözünün eramızdan öncə XII-V əsrlərdə Abşeron yarımadasında yaşamış "bakan" və ya "baqi" qəbilələrinin adından

götürüldüyünü sübut edirlər.

Bəzi mütəxəssislər Bakı toponiminin qədim farsca "Atəşi-Baquan", yəni "Müqəddəs atəş şəhəri" sözündən yarandığına üstünlük verirlər. Hələ ən qədim zamanlarda bu yerlərdə neft və təbii qazın səthə çıxması ilə torpağın yanması və həmin yerlərdə atəş ocaqlarının meydana gəlməsi müşahidə olunurdu. Bu da Bakını və ətrafını dünyanın ən qədim dini etiqadlarından olan Zərdüştliyin mərkəzinə çevrilməsinə səbəb olmuşdur. Qədim ibadətgah ocaqlarının birinin yerində (Suraxanıda) XVIII əsrdə Atəşgah məbədi tikilmişdir. Hazırda muzey kimi fəaliyyət göstərir.

İçərişəhər (Bakı qalası) - Bakının ən maraqlı görməli yerlərindəndir. İçərişəhər, özünün dar, əyri-üyrü küçə, döngə və dalanları ilə, demək olar ki, o qədər də böyük dəyişkənliyə uğramadan bizim dövrümüzə qədər gəlib çatmışdır. Əslində İçərişəhər açıq səma altında muzey, orta əsrlər memarlığının nadir incisidir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 aprel 1988-ci il 145 saylı qərarı ilə İçərişəhərin 350-dən artıq abidəsi dövlət tərəfindən mühafizəyə alınmışdır. Bu abidələr arasında memarlıq inciləri olan "Qız qalası" (VI-XII əsr), Şirvanşahlar sarayı (XIII-XV əsr), müxtəlif məscidlər, karvansaralar, şərq hamamları və s. tikililər də vardır. Xalq arasında "Sınıq qala" adı ilə tanınan Məhəmməd ibn Əbu-Bəkr məscidinin (1078-1079) minarəsi qalanın "Gözətçi qülləsi" rolunu oynayırdı.

Şirvanşahlar sarayı Şirvan hökmdarı I Xəlilullah (1417-1462) və onun oğlu Fərrux Yasər (1462-1501) tərəfindən İçərişəhərin ən yüksək hissəsində inşa etdirilmişdir. Saray kompleksinə: Divanxana (burada inzibati və məhkəmə işləri aparılır, rəsmi qəbullar keçirilirdi); Şah Məscidi, Key Qubad Məscidi, alim-astronom Seyid Yəhya Bakuvinin türbəsi, Murad darvazası, Şirvanşahlar türbəsi, hamam və su anbarı daxil idi.

Şirvanşahlar sarayı öz gözəlliyi və əzəmətliyi ilə seçilir. 1921-ci ildən muzey kimi fəaliyyət göstərən bu saray 1964-cü ildən Dövlət tarixi-memarlıq qoruğu elan olunmuşdur. İçərişəhərdə yerləşən Cümə məscidi (XIV əsr), Məscid-Mədrəsə (XIV əsr), Hacı Bani məscidi (XVI əsr), Məktəb-Mədrəsə, "Multani" (XII-XIV əsrlər), "Buxara" karvansaralar (XV əsr), Ağa Mikayıl hamamı (XVIII əsr) qiymətli memarlıq abidələridir.

İçərişəhər kompleksi YUNESKO*-nun xüsusi bülleteninə daxil

---

* ***YUNESKO*** - BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan ixtisaslaşdırılmış hökumətlərarası təşkilatı. Baş katibliyi Parisdədir.

edilmişdir. Xatırladaq ki, bu mötəbər beynəlxalq təşkilatın himayəsində olan və qoruq elan edilən bütün tarixi və memarlıq abidələrinin siyahısı həmin bülletendə dərc olunur. Keçmiş xeyriyyə cəmiyyəti və ya "İsmailiyyə" binası (1908-1913; hazırda burada Milli Elmlər Akademiyasının Rəyasət heyəti yerləşir), keçmiş ictimai yığıncaq yay binası (1911-1912; hazırda burada Azərbaycan Dövlət Filarmoniyası yerləşir), Muxtarov sarayı (1911-1912; hazırda burada "Səadət sarayı" fəaliyyət göstərir), Kirxa binası (1896; hazırda burada Kamera və orqan musiqisi zalı yerləşir), keçmiş şəhər Dumasının binası (1900-1906; hazırda burada Bakı şəhər İcra hakimiyyəti yerləşir), Sinematoqraf binası (1910; hazırda burada Dövlət Uşaq Kukla Teatrı fəaliyyət göstərir) Bakının yadda qalan memarlıq abidələridir.

Bakı buxtasının sahili boyu yaşıl zolaq kimi uzanan Bakı Dənizkənarı Parkı bakılıların və şəhərin qonaqlarının sevimli istirahət yeridir. 1998-ci ildə respublika prezidentinin fərmanı ilə dənizkənarı bulvara Milli Park statusu verilmişdir.

Bakının çoxsaylı muzeylərinin nadir, diqqətəlayiq eksponatları ilə tanışlıq turistlərdə böyük maraq doğurur. Azərbaycan tarixi muzeyi, R.Mustafayev adına İncəsənət muzeyi, Nizami adına Ədəbiyyat muzeyi, Azərbaycan xalçası və Xalq-tətbiqi incəsənət muzeyi, Əlyazmalar və Miniatürlər muzeyi daha çox tanınır.

Bakı ətrafında, Abşeronun dəniz sahili boyu çoxsaylı kurort zonaları yerləşir: Bilgəh, Zuğulba, Buzovna, Mərdəkan, Şüvəlan və s. daha çox tanınır. Burada ən yaxşı sanatoriyalar, pansionatlar, istirahət evləri, turizm mərkəzləri, uşaq müalicə-sağlamlıq ocaqları fəaliyyət göstərir. On minlərlə adam hər il bu yerlərdə istirahət edir və öz sağlamlıqlarını bərpa edirlər. İsti dəniz, qumlu çimərliklər, Bakının və onun ətrafının tarixi-mədəniyyət abidələri turistləri cəlb edən əsas amillərdir.

Abşeron yarımadasında olan qədim çoxsaylı abidələr turistlərin marağına səbəb olur. Onların arasında qədim məscidlər, karvansaralar, hamamlar, məqbərələr, müdafiə tikililəri - keşikçi qüllələrinin, XIII-XIX əsrlərə aid feodal qəsrlərin qalıqları vardır. Abşerondakı XIII-XIV əsrlərə aid olan müdafiə tikililəri - Mərdəkan, Nardaran, Bilgəh, Ramana, Maştağa və digər qala və qəsrlərin qalıqları daha çox maraq doğurur. Mərdəkanda iki qədim qüllə - dairəvi və dördbucaqlı qüllələr (1232), Nardaranda dairəvi qüllə və onu əhatə edən qala divarlarından ibarət olan qəsr (1301), Ramanada təpənin üzərində yerləşən, mükəmməl müdafiə sistemi ilə seçilən qala (XIII əsr) orta əsrlərin tarixi-memarlıq abidələridir.

Bakıdan cənub-qərbdə "Şıx" kurort kompleksi yaradılmışdır. Burada kükürdlü termal mənbələrdən müalicə məqsədi ilə istifadə olunur.

Bakıdan 70 km cənubda yerləşən **Qobustan** Dövlət Tarixi-Bədii Qoruğu öz zəngin və qədim irsinə görə dünya mədəniyyəti xəzinəsində layiqli yer tutur. Azərbaycan Respublikası Nazirlər Sovetinin 1966-cı ildə qəbul etdiyi qərara əsasən bu ərazidə Qobustan qoruğu yaradılmışdır. Qobustanda aşkar olunmuş 4 mindən artıq qayaüstü rəsmlərdə ev heyvanları, vəhşi heyvanlar, quşlar, kollektiv əmək, ov, rəsm səhnələri təsvir olunmuşdur. Ən qədim təsvirlərin yaşı 10 min ildən çoxdur. Paleolit* dövrünün sonu - Neolitin** əvvəlini əhatə edən qayaüstü rəsmlərdən ibarət unikal rəsm əsərləri YUNESKO-nun ümumdünya mədəniyyət və təbiət abidələri siyahısında layiqli yer tutur.

Bütün dünyada tanınmış, məşhur Norveç səyyahı və alimi Tur Heyerdal dəfələrlə Qobustanda olmuş və qayaüstü rəsmləri tədqiq etmişdir. Heyerdalın transokean səyahəti üçün qamışdan hazırlanmış qayığının Qobustanda eyni cür qayaüstü rəsmləri onu heyran etmişdir. Eramızın I əsrində Roma legionunun (ordusunun) bu yerlərdə olduğunu sübut edən qayaüstü latın yazısı qorunub saxlanılmışdır. Romalıların bu yerlərə yürüşünün kəşfiyyat xarakterli olduğu ehtimal edilir, belə ki, Abşeron heç zaman romalılar tərəfindən zəbt olunmamışdır.

Turistlər Bakıdan əsasən dörd istiqamətdə: respublikanın Qərb, Şimal-Qərb, Şimal və Cənub bölgələrinə səyahətə çıxırlar.

**Şirvan turizm bölgəsi.** Bakıdan 120 km qərbdə respublikanın ən iri üzümçülük və şərabçılıq mərkəzlərindən biri, məşhur desert və süfrə şərabları bir çox beynəlxalq sərgilərdə medal və diplomlarla təltif edilmiş **Şamaxı** şəhəri yerləşir.

Şamaxı qədim tarixə malik olan Azərbaycan şəhəridir. Şəhər haqqında ilk məlumat yunan coğrafiyaşünası Klavdiy Ptolomey tərəfindən verilmişdir. O, qədim Qafqaz Albaniyasının yaşayış məskənləri arasında Şamaxı və ya Kemaxeya adını qeyd edir. Şəhərin adının farsca "şah" - böyük, ali və "max" - şəhər sözlərindən yaranaraq, bö-

---

* ***Paleolit*** (yunanca qədim və daş sözlərinin vəhdətindən yaranmışdır). Bu dövrdə bəşər tarixində ilk dəfə Olduvay tipli insanlar meydana çıxmışdır. Paleolit dövrünün insanları əsasən ovçuluq və yığıcılıqla məşğul olmuşlar

** ***Neolit*** (yunanca yeni və daş sözlərinin vəhdətindən yaranmışdır) - daş dövrünün son mərhələsidir. Bu dövrdə insanlar yığıcılıq və ovçuluqdan tədricən əkinçilik və heyvandarlığa keçmişlər.

yük şəhər mənasını daşıdığı ehtimal olunur. Digər fikirlərə görə şəhərin adı "Şam" - Dəməşqin qədim ərəb adı və "axı" (exi) - oxşar sözlərinin birləşməsindən əmələ gəldiyi qeyd edilir. Bu diyara köçən suriyalı ərəblər şəhəri gözəlliyinə və böyüklüyünə görə Dəməşqlə müqayisə edərək onu Şamaxı adlandırmışlar. Rus, ingilis, fransız və holland səyyahları öz yazılarında və çəkdikləri rəsmlərdə Şamaxının keçmişi haqqında maraqlı məlumatlar verirlər.

Şamaxı ətrafı yaylaq yerləri kimi şöhrət qazanmışdır. Şamaxı yaylasının gözəl təbiət mənzərələri və çoxsaylı təbii fəlakətlərdən sonra müəyyən qismi dövrümüzə qədər gəlib çatmış arxeoloji və memarlıq abidələri bu yerlərə gələnlərin diqqətini cəlb edir. Şirvanşahlar sarayının yerləşdiyi Gülüstan qalası (mütəxəssislərin fikrincə XVI əsrdə dağılmışdır) böyük maraq doğurur. Şirvan xanlarının türbələrinin yerləşdiyi "Yeddi Gümbəz" məqbərəsi də XVI əsrə aid edilir. Şəhərə girişdə X əsr abidəsi olan "Cümə məscidi" yerləşir. Məscid XIX əsrdə bərpa olunmuşdur. Şamaxı şəhərindən bir qədər aralı Çuxuryurd kəndinin yaxınlığında tünc və dəmir dövrlərində inşa olunmuş 6 ədəd kurqan kompleksi aşkar olunmuşdur.

Şamaxıdan 12 km şimal-şərqdə, dəniz səviyyəsindən 1400 m yüksəkdə **Pirqulu** qəsəbəsində Astrofizika rəsədxanası yerləşir. Rəsədxananın güzgülü teleskopu öz böyüklüyünə görə (diametri - 2 m) Avropada ikincidir. Teleskop alman mühəndisləri və konstruktorları tərəfindən hazırlanmışdır. Qış mövsümündə Pirqulu ərazisində dağ zirvələri və bütün yayla qarla örtüldüyündən burada dağ xizək idmanı ilə məşğul olmaq olar. Yay mövsümündə təbiət qoynunda at belində gəzinti hamının xoşuna gəlir. Rayonun görməli yerlərinə ekskursiyalar, yay və qış mövsümlərində istirahət etmək müvafiq turist təşkilatları tərəfindən təşkil olunur.

Bakı-Şamaxı avtomobil yolunun üzərində, Şamaxıya 36 km qalmış **Mərəzə** adlanan şəhər tipli qəsəbə yerləşir. Qobustan rayonunun inzibati mərkəzi olan Mərəzə ətrafında çoxsaylı müxtəlif tarixi abidələr vardır. Mərəzə yaxınlığındakı, Dağgöylər kəndində arxeoloqlar antik dövrlərə aid küp qəbirlər nekropolu aşkar etmişlər. Qəsəbə yaxınlığındakı dərədə XV əsrə aid olan ikimərtəbəli "Diri Baba" məqbərəsi yerləşir. Arxeoloqlar məqbərənin divarında ilk Şirvanşah, I Şeyx İbrahimin adı ilə başlanan yazı mətni aşkar etmişlər. Mağara yaxınlığındakı ərazilərdə yerləşən oyuqlar da diqqəti cəlb edir. Dəhlizlər, keçidlər və yeraltı labirintlər vasitəsi ilə bir-biri ilə birləşən bu tikililər orta əsrlərə aid edilir.

Şamaxıdan cənub-qərbə avtonəqliyyatla hərəkət edən turistlər

Ağsu avto-keçidi (maksimal hündürlük 900 m) ilə yuxarı qalxırlar. Buradan Kür-Araz ovalığının tərkibinə daxil edilən Şirvan düzünün gözəl təbiət mənzərəsi insanı valeh edir. Arxeoloji qazıntılar və tarixi sənədlər sübut edir ki, Kür və Araz vadilərində qədim zamanlarda suvarma sistemləri mövcud olmuşdur. Bu ərazilərdə buğda, arpa, pambıq əkilmiş, baramaqurdu yetişdirilmiş, at və mal-qara saxlanılmışdır.

Şamaxı şəhərindən 37 km aralıda **Ağsu** şəhəri yerləşir. Eyni adlı çayın sahilində salınmış, rayon mərkəzi olan Ağsu dahi Azərbaycan şairi Xaqaninin vətənidir. Vaxtilə Ağsu yaxınlığında "Yeni Şamaxı" adlanan şəhər olmuşdur. 1734-cü ildə İran şahı Nadir, Şamaxını dağıtdıqdan sonra sağ qalan şəhər əhalisini məcburi olaraq bu yerə köçürmüşdü. Həmin şəhərin qalıqlarını yerli əhali "Xaraba şəhər" adlandırır. Ağsu şəhərindəki Şeyx Dursun məqbərəsi (1382), Gürcüvan kəndindəki Qız qalası, Şeyx kəndindəki Türbə (XIV əsr), rayonun görməli yerlərindəndir.

1958-ci ildə yaradılmış Türyançay qoruğunun böyük hissəsi, Ağsudan bir qədər qərbdə yerləşmiş **Ağdaş** rayonu ərazisindədir. Bu qoruqda sabiq SSRİ məkanında quraqlığa davamlı nadir ağaclar, o cümlədən dünyada yeganə Eldar şamı ağacları bitən iri massivlər salınmışdır.

Respublikanın şimal-qərb hissəsinə səyahəti davam etdirərək **İsmayıllı** rayon mərkəzinə çatırıq. Bu inzibati rayon Böyük Qafqaz dağlarının cənub ətəklərində yerləşir. İsmayıllı yaşıllıqlara qərq olmuş şəhərlərdən biridir.

Rayon ərazisində qədim abidələr çoxdur: Talıstan kəndi yaxınlığında Cavanşir qalası (VII əsr); Xanağalı kəndində Qız qalası (XI-XII əsrlər); Basqal kəndində hamam və məscid (XVII əsr); Lahıc qəsəbəsi yaxınlığında Girdman qalası (XVIII əsr); Sulut kəndində Fitdağ qalası (XVIII əsr) diqqəti daha çox cəlb edir. "Niyal" mehmanxanası və "Talıstan" moteli rayona gələn turistlərə xidmət göstərir.

Girdmançayın sol sahilində, dəniz səviyyəsindən 1200 m yüksəkdə yerləşən məşhur **Lahıc** qəsəbəsi respublika hökuməti tərəfindən tarixi-mədəniyyət qoruğu elan edilmişdir. Bu kiçik qəsəbənin sakinləri əsasən misdən (qazan, podnos, küzə və s.) və dəridən tətbiqi məişət əşyalarının hazırlanması, xalçaçılıq və kənd təsərrüfatı ilə məşğul olurlar. Miskərlər və qalayçılar öz əcdadlarının qədim sənətlərini davam və inkişaf etdirirlər. Lahıcda minarəli məscid və yaşayış evləri (XVIII-XIX əsrlər) qorunub saxlanılmışdır. Xarici turistlər tez-tez Lahıca ekskursiyaya gəlirlər.

**Gəncə-Qazax turizm bölgəsi.** Böyüklüyünə və əhəmiyyətinə

görə Gəncə, Azərbaycanın ikinci şəhəridir. Gəncə qədim zamanlardan öz mədəniyyəti, zəngin kitabxanaları, özünəməxsus memarlığı, gözəl sarayları və karvansaraları, ipəyi və xalçası, şair və alimləri ilə şöhrət qazanmışdır. Şəhər dəniz səviyyəsindən 442 m yüksəklikdə yerləşir. Yazılı mənbələrdə şəhərin 845-ci ildə salındığı haqqında məlumat verilsə də, aparılan arxeoloji qazıntılar sübut edir ki, IX əsrdən xeyli öncə yaranmış və məskunlaşmış Gəncə, Ön Asiyanın və Yaxın Şərqin qədim mədəni və siyasi mərkəzlərindən biri olmuş, İranla Qara dəniz sahili ticarət yolu üzərində, əhalinin sıx yaşadığı ərazidə salınmış, müxtəlif sülalələrin və dövlətlərin mərkəzi olmuşdur.

1139-cu ildə zəlzələ nəticəsində dağıldıqdan sonra, şəhər yeni əraziyə köçürülür. Artıq XIII əsrdə Gəncə, Ön Asiyanın ən gözəl şəhərlərindən biri hesab olunurdu. 1606-cı ildən İranın tərkibində olmuş, sonra müstəqil Gəncə xanlığının paytaxtı kimi fəaliyyət göstərmişdir. 1826-cı ildə rus hərbi dəstələri İran üzərində qəti qələbə qazandıqdan sonra Şimali Azərbaycanın digər bölgələri ilə yanaşı Gəncə də Rusiyanın tərkibinə qatılmış və Yelizavetpol adlandırılmışdır. Bu ad 1918-ci ilədək saxlanılmışdır. 1918-ci ildə Gəncə adı şəhərə qaytarılmış və o müstəqil Azərbaycan Demokratik Respublikasının müvəqqəti paytaxtı olmuşdur. 1935-ci ildə şəhərin adı yenidən dəyişdirilmiş, bu dəfə Kirovabad adlandırılmışdır. 1989-cu ildə əbədi olaraq şəhərin qədim adı özünə qaytarılmışdır.

Gəncə, dahi Azərbaycan şairi Nizami Gəncəvinin (1141-1209) vətənidir. Gəncə bəşəriyyətə çox görkəmli şəxsiyyətlər bəxş etmişdir. Onların arasında Məhsəti Gəncəvi (XII əsr) kimi istedadlı şairə, Mirzə Şəfi Vazeh (1796-1852) kimi şair və mütəfəkkir vardır. Məşhur filosof, demokrat və mütəfəkkir Mirzə Fətəli Axundov, Vazehin tələbəsi olmuşdur.

Şəhərin ərazisində, öz memarlıq üslubu ilə insanı valeh edən tarixi və mədəniyyət abidələri çoxdur. Onların arasında 1606-cı ildə əsası qoyulmuş Cümə məscidi, dünya şairlərinin ziyarət və ibadət yeri olan, böyük Nizaminin məqbərəsi xüsusilə seçilir. XIV əsrdə inşa edilmiş Şeyx İbrahim məqbərəsi, öz ilkin gözəlliyi ilə dövrümüzə qədər gəlib çatmışdır. Qədim abidələr sırasında, Karvansara (XVII əsr), İmamzadə tikililər kompleksi (XVII-XIX əsrlər), Gəncə darvazası (XVIII əsr), Kilsə (XVIII əsr), Qızıl Hacılı və Qazaxlar məscidləri (XIX əsr) diqqəti cəlb edir.

Gəncədən 25 km cənubda, dəniz səviyyəsindən 1566 m yüksəklikdə, Murovdağın şimal ətəklərində Qafqazın ən gözəl göllərindən

biri olan **Göy göl** yerləşir. 1139-cu ildə baş verən zəlzələ zamanı Kəpəz dağının bir hissəsi uçaraq Ağsu çayının qarşısını kəsib Göy gölü yaratmışdır. Gölün ərazisi 0,78 kv. km, dərinliyi 100 metrə yaxındır. Zəlzələ nəticəsində yaranmış çökəkliklərdə daha bir neçə: Maral, Zəli, Qara və s. göllər yaranmışdır.

Göy göl və onun ətrafını təşkil edən meşəlik sahə 1925-ci ildən qoruq elan edilmişdir. Qoruğun sahəsi 1731 hektardır. Göy göldən bir neçə km aralıda turist bazalarının, pansionatların, istirahət evlərinin, uşaq istirahət düşərgələrinin fəaliyyət göstərdiyi **Hacıkənd** kurort zonası yerləşir. Bu ərazidən çoxsaylı turist marşrutları keçir.

Gəncədən 48 km cənub-şərqdə gənc **Naftalan** kurort şəhəri yerləşir. Naftalandan çıxarılan müalicəvi neftlə, əsasən sümük, əzələ xəstəlikləri müalicə olunur, həmçinin ondan dərman preparatları hazırlanır.

Gəncədən şimal-qərbdə, Azərbaycanın bir çox məşhur xadimlərinin, saz və söz ustadlarının vətəni olan **Qazax** inzibati rayonu yerləşir. Böyük Azərbaycan şairi və siyasi xadimi Molla Pənah Vaqif (1717-1797) burada doğulmuşdur. Şəmkirdə anadan olan məşhur Azərbaycan şairi Molla Vəli Vidadinin (1709-1809) məzarı Vaqifin məzarı kimi Qazaxın Şıxlı kəndindədir. Yuxarı Salahlı kəndi isə Azərbaycanın xalq şairi Səməd Vurğunun (1906-1956) vətənidir. Məşhur general, Port-Arturun müdafiəsində iştirak etmiş Əliağa Şıxlinski (1868-1943) Qazaxda anadan olmuşdur. Müasirləri Ə.Şıxlinskini "Artilleriyanın Allahı" adlandırmışdır.

Rayonun ərazisində tarixi-memarlıq abidələri çoxdur. Daş Salahlı kəndi yaxınlığındakı Aveydağda aparılan arxeoloji qazıntılar maraq doğurur. Alimlərin rəyinə görə burada ibtidai insanların yaşayış məskəni olan 100-dən artıq təbii mağara aşkar edilmişdir. Aveydağda, həmçinin çoxlu sayda əmək alətləri və silahların qalıqları tapılmışdır. Musakey kəndində hündür təpənin üzərindəki qədim qəbristanlıqda XIX əsrə aid olan dörd türbə aşkar edilib. Bir qədər aralıda XVII əsrin sonu - XVIII əsrin əvvəlində tikilmiş gözətçi qülləsi yerləşir. Bu qülləni "Koroğlu" və ya farsca "Didivan" (gözətçi, keşikçi) adlandırırlar. Rayonun digər görkəmli yerlərindən: Poylu kəndindəki türbələr (XIX əsr), Qüllə (XVII əsr), Qafqaz Albaniyası dövrünün məbədi olan "Şəkər Qala" (XV əsr), Qatır, Qızıl Hacılı və Kazım körpüləri (hamısı XV əsr), Xramçay üzərindəki Qırmızı və ya Sınıq körpü (XII əsr) seçilir.

Rayonun inzibati mərkəzi olan **Qazax** şəhəri Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biridir. 1918-ci ildə məşhur Azər-

baycan maarifçisi Firudin bəy Köçərli tərəfindən əsası qoyulmuş, Azərbaycanda ən qədim pedaqoji məktəb Qazaxda fəaliyyət göstərir. Qazax cins atlar yetişdirilən atçılıq zavodu ilə də tanınır. Qazax eyni zamanda respublikanın xalça istehsalı mərkəzlərindən biridir. Burada toxunan əl xalçaları bir çox xarici ölkələrin muzeylərini bəzəyir. Qazaxın el aşıqları isə o taylı bu taylı Azərbaycanın hər yerində tanınır.

Bakı-Yevlax-Gəncə yolunun şimalında yerləşən **Mingəçevir**, yaşayış məskəni kimi qədim zamanlardan yaransa da, müasir tipli şəhər kimi 1948-ci ildən tanınır. Əfsuslar olsun ki, Mingəçevir sözünün dəqiq toponomiyası hələ məlum deyil. Mütəxəssislər onu müxtəlif cür yozurlar. XVII əsrdə yaşamış türk səyyahı Evliyə Çələbi "Səyahət" adlı kitabında qeyd edir ki, qədim zamanlarda Kürün sağ sahilində Mingəçevir adlı yaşayış məntəqəsi olub. Həmin yerdə məscid, hamam, toxuculuq emalatxanaları fəaliyyət göstərib. Bəzi mütəxəssislər Mingəçevir toponominin yaranmasını IX əsrdə ərəb sərkərdəsi Mingiçövr adı ilə bağlayırlar. Digər mütəxəssislər isə bu adın meydana gəlməsini Kür çayında gəmiçiliklə əlaqələndirirlər.

Bakıdan 323 km məsafədə yerləşmiş Mingəçevir iqtisadi əhəmiyyətinə görə Azərbaycanın böyük şəhərlərindən biridir. Şəhərin böyüyüb inkişaf etməsinə səbəb Kür üzərində su elektrik stansiyasının tikintisi olub. Mingəçevir su qovşağı bəndinin hündürlüyü 82 metrdir. Bu göstəriciyə görə bu tipli stansiyalar arasında dünyada qabaqcıl yerlərdən birini tutur.

Sənaye məhsulu istehsalı həcminə görə **Mingəçevir**, Bakı, Sumqayıt və Gəncədən sonra respublikamızın dördüncü şəhəridir. Şəhərin iri müəssisələri içərisində CES, kabel zavodu, toxuculuq kombinatı, kimya kombinatı, kənd təsərrüfatı maşınları, texniki-rezin məmulatları istehsal edən zavodlar seçilir.

Kürün sahilində çox mənzərəli bir yerdə salınmış Mingəçevir şəhəri yerli və xarici turistlərin xoşuna gəlir. Şəhərin rahat 350 yerlik mehmanxanası, "Günəşli" turist bazası (235 yerlik), Mingəçevirə gələn qonaqlar üçün yerləşmə vasitələrindəndir.

Kürün sahilində "Kür" adlanan avarçəkmə Olimpiya bazası yerləşir. Sabiq SSRİ-nin aparıcı avarçəkənləri (əsasən qış aylarında) Dünya və qitə birincilikləri, Olimpiya oyunları qarşısında burada məşq edərdilər.

Mingəçevir dünya arxeoloqlarını maraqlandıran yerlərdən biridir. Çünki şəhərin yaxınlığında Cənubi Qafqazda ən böyük arxeoloji komplekslərdən biri aşkar olunmuşdur. Mütəxəssislərin fikrincə, bu kompleksin tarixi eramızdan əvvəl 3-cü minillikdən eramızın XVII

əsrinədək olan müddəti əhatə edir. Kompleksdə yaşayış məskənləri, qədim qəbiristanlıqlar, dulusçu sobaları, küp qəbirlər, eramızın IV-VIII əsrlərinə aid edilən alban məbədləri və s. aşkar edilmişdir.

Mingəçevir şəhər səyahət və ekskursiyalar bürosunun bələdçiləri şəhərin görməli yerləri haqqında qonaqlara ətraflı məlumat verə bilərlər.

**Şəki-Zaqatala turizm bölgəsi.** Bakıdan 330 km şimal-qərbdə yerləşən **Qəbələ** şəhəri Böyük Qafqaz dağlarının ətəyində, Dəmiraparan çayın sağ sahilində qərarlaşıb. Müəyyən mülahizələrə görə şəhərin adı fars və ərəb dillərinə uyğun olaraq "dağlar arasında vadidə mənzərəli yer" mənasını bildirir. Qəbələ (keçmiş adı Qutqaşen) əsl yaylaq yeri kimi şöhrət qazanmışdır. Şəhər ətrafında qoz, fındıq bağları, büllur sulu bulaqlar, mineral su mənbələri çoxdur. Bu yerlərin sakinləri buğda, tütün, meyvə əkib-becərir, barama qurdu yetişdirir, heyvandarlıq və quşçuluqla məşğul olurlar.

Rayon ərazisində tarix və mədəniyyət abidələri qorunub saxlanılmış, arxeoloji qazıntılar nəticəsində yeni maraqlı tapıntılar aşkar edilmişdir. Qəbələ rayon mərkəzindən bir qədər aralıda Həzra kəndində dörd qədim məqbərə qorunub saxlanılır. Şeyx Bədrəddin türbəsi xüsusilə diqqəti cəlb edir. Divarındakı yazılardan məlum olur ki, türbə XVI əsrdə usta Zahid ibn Yusif tərəfindən inşa edilmişdir. Digər maraqlı abidə - Şeyx Mansur türbəsi də həmin dövrə aid edilir. Nic kəndi yaxınlığında Yaloylu təpə adlanan yerdə e.ə. III-I əsrlərə aid edilən qəbirlər aşkar olunmuşdur.

Şimali Azərbaycanın dağətəyi və çöl rayonlarında, həmçinin Şərqi Gürcüstanda (Alazan vadisi) yayılmış, həmin dövrləri əhatə edən arxeoloji mədəniyyət Yaloylu təpə mədəniyyəti adı ilə tanınır. Bu mədəniyyət üçün küplərdə dəfn etmə və gil qablar (küp və vazalar) səciyyəvidir. Arxeoloji qazıntılar nəticəsində dəmir bıçaqlar, qılınclar, xəncərlər, dən üyüdən daşlar, bürünc üzüklər, qızıl sırğalar, şüşədən, daşdan düzəldilmiş bəzək əşyaları aşkar edilmişdir. Yaloylu təpə mədəniyyətinin Qafqaz Albaniyasının qədim, yerli qəbilələrinə məxsus olduğu hesab edilir.

Rayon mərkəzindən 15 km aralıda, Qaraçayla Courlu çay arasında yerləşən qədim Qəbələ şəhərinin xarabalıqlarına ekskursiya, turistlərin böyük marağına səbəb olur. Qəbələ (qədim adları Qabalaka, Habala) Qafqaz Albaniyasının paytaxtı (VI əsrədək), iri ticarət mərkəzi (XV əsrədək) olmuşdur. Turistlər qədim qalada indiyədək qalmış divarların və qüllənin ayrı-ayrı hissələrini (V-VI əsrlər) görə bilərlər. Antik yazıçılardan Pliniy və Ptolomeyin əsərlərində Qəbələnin

adı xatırlanır.

Şəhər 1800 ildən artıq bir dövr ərzində mövcud olmuş və fəaliyyət göstərmişdir. Azərbaycanın ən yüksək zirvəsi olan Bazardüzü (4466 m) açıq havada şəhərdən yaxşı görünür. Şəhər kənarında 400 nəfərlik "Qafqaz" turist bazası, ondan bir qədər aralıda pansionat, uşaq idman-sağlamlıq düşərgəsi, həmçinin "Sahil" və "Qəbələ" istirahət zonaları fəaliyyət göstərir. Turistlər rayon mərkəzi ilə tanış olur, Göy və Güllüburun dağlarının arasındakı mənzərəli Nohur gölünə, 50 m hündürlükdən tökülən Mıçix şəlaləsinə, Kemervan kəndi yaxınlığındakı isti kükürdlü mənbələrə, Enginca kəndindəki kükürdlü soyuq mənbələrə ekskursiyaya gedirlər. Böyük Qafqazın cənub və cənub-qərb yamaclarının fauna və florası ilə tanışlıq ekskursiyaçılar üçün çox maraqlıdır. "Dağ turbazası" adlanan yerləşmə vasitəsi bu rayonun meşələrində istirahətlə bərabər ov da təşkil edir.

**Şəki** - Azərbaycanın qədim şəhərlərindən biridir. Respublikanın şimal-qərbində Qəbələdən 70 km aralıda, Böyük Qafqazın cənub ətəklərində yerləşir. Şəhər Xan Yaylağı dağının cənub-şərq ətəklərindən başlayaraq, tədricən vadiyə enir.

Şəkinin qədim tarixi lazımi səviyyədə öyrənilməmişdir. Antik mənbələrin məlumatına əsasən, şəhərin e.ə. I minillikdə yarandığını müəyyən etmək olar. Deməli, Şəkinin 2500-2600 yaşı vardır. Şəhərin adı qədim zamanlarda bu yerlərdə yaşamış Saki qəbiləsinin adı ilə bağlıdır. Qədim dövrlərdə bu şəhər iri ticarət mərkəzi olmuşdur. Avropa, Asiya və Yaxın Şərqdən gələn tacirlər, qızıl, zərli naxışlarla işlənmiş, şəffaf, zərif Şəki ipəyini dünyanın müxtəlif ölkələrinə aparırdılar. Gözəl, çeşidli Şəki xalçaları dünya bazarlarında da şöhrət qazanmışdı.

İsfahan, Təbriz və Ləzgi karvansaraları, şərq tipli qonaq evləri və mehmanxanalar indiyədək qorunub saxlanılmışdır. Şəkinin çoxsaylı görməli yerləri arasında XVIII əsr Azərbaycan memarlığının nadir abidəsi olan Şəki Xan sarayı, Cümə məscid, Yuxarı və Aşağı Karvansaralar (hamısı XVIII əsr) xüsusi yer tutur. 1762-1797-ci illərdə Məhəmməd Həsən xan Müştaqın göstərişi ilə inşa edilən Xan sarayı xalq yaradıcılığının müxtəlif növlərini özündə cəmləşdirir. Saray XVIII əsr memarlıq, rəssamlıq və dekorativ-tətbiqi incəsənət tarixinin gözəl nümunəsidir. Memar Zeynalabdin tərəfindən inşa edilən saray, Şəki xanlarının yay iqamətgahı olmuşdur.

Şəki - dahi Azərbaycan mütəfəkkiri, filosofu və dramaturqu M.F.Axundovun vətənidir. Şair İsmayıl bəy Nakam və tanınmış yazıçı maarifpərvər Rəşid bəy Əfəndiyevin adları da şəhərin tarixi ilə bağlı-

dır. Dahi rus yazıçısı Lev Tolstoy hərbi xidməti işlərlə əlaqədar bu yerlərdə olmuşdur. L.Tolstoy özünün "Qafqaz əsiri" və "Hacı Murad" əsərlərində Şəkinin ətraf ərazilərində baş verən hadisələri əks etdirmişdir. Tarixi hadisələrin həqiqətə uyğunluğunu Şeyx Şamilin silahdaşı Hacı Muradın kəllə sümüyünün tapılması sübut etmişdir.

Şəki-Qax yolunun üzərində, əsrlərin yadigarı olan qocaman palıdın kölgəsində Hacı Muradın tənha məzarı yerləşir. Məzarın sinədaşı Hacı Muradın doğulduğu Dağıstanın Xunzax kəndindən gətirilmiş, üzərində "Burada böyük əzabkeş, avar Hacı Murad Xunzaxski dəfn edilmişdir" sözləri həkk olunmuşdur.

Şəki, bacarıqlı sənətkarları ilə yanaşı, sakinlərin şən əhval-ruhiyyəsi ilə də məşhurdur. Şəkini "Azərbaycanın Qabrovosu"* adlandırırlar. Hər il aprelin 1-də burada Ümumrespublika bayramı "Gülüş günü" keçirilir.

Şəki yaşıllıqlar və çiçəklər şəhəridir. Onun təbiəti və iqlimi, istirahətin təşkili və sağlamlığın bərpası üçün çox əlverişlidir. Şəhərdən 4 km şimalda, Kiş çayının qərb sahilində, Qaratəpə dağının zirvəsində, dəniz səviyyəsindən 850 m yüksəklikdə əfsanəvi "Gələrsən - görərsən" qalası yerləşir. Qalanın tarixi Nadir şahın Şəkiyə hücumu ilə bağlıdır. Bu qalada gizlənən Şəki xanı Hacı Çələbi, qalanı Nadir şaha təslim etməkdən imtina edir. Bundan əsəbiləşən Nadir şah Hacı Çələbiyə xəbər göndərərək, ondan bu cürətinin səbəbini soruşmuşdur. Qalanın alınmazlığına və möhkəmliyinə arxayın olan Şəki xanı Nadir şaha belə cavab vermişdir: Gələrsən, görərsən. Həqiqətən də, 1744-cü ildə Nadir şah böyük ordu ilə Şəkiyə gəlmiş, amma qalanı zəbt edə bilməmişdir.

Bu qədim Azərbaycan şəhərində "Karvansara" və "Şəki" adlanan otellər, "Gələrsən-görərsən", "Səadət", "Marxal" istirahət zonaları, "Sahil", "Neftyağ" pansionatları, "Soyuq bulaq" turist bazası turistlərə xidmət göstərir. Şəhər səyahətlər və ekskursiyalar bürosu, Şəkinin və onun ətrafının görməli yerlərinə maraqlı ekskursiyalar təşkil edir.

Şəkidən 34 km şimal-qərbdə eyni adlı rayonun inzibati mərkəzi olan **Qax** şəhəri yerləşir. Şəhər gilənar, gilas, alma bağları, zərif yapon xurması ilə tanınır. Şəhər ətrafında çoxlu tarixi abidələrə, qala və müdafiə tikililərinin qalıqlarına rast gəlmək olar. İlisu kəndində (Sultanlığın keçmiş paytaxtı) on metrlik dördkünc keşikçi qülləsi (XVI əsr); mərkəzində məscid yerləşən Qala (XVIII əsr); Sumuq-Qala (XVIII əsr); Kurmux çayı üzərində körpü; Kum kəndində qədim mə-

---

* ***Qabrovo*** - Bolqarıstanda şəhər. Turizm mərkəzidir. Dünyada yeganə satira və yumor muzeyi bu şəhərdədir. Qabrovoda hər il milli yumor festivalı keçirilir.

bəd (V-VII əsrlər); Sırt-qala qəsri (XVIII əsr); Ləkit kəndi yaxınlığında məbəd tikililəri kompleksi (XII-XIII əsrlər) qorunub saxlanılmışdır. Qafqaz Albaniyası dövrünə (e.ə. I əsr) aid olan küp qəbrləri qəbristanlığı daha qədim arxeoloji abidələrdir. İlisu yaxınlığında yerdən çıxan isti, kükürdlü sudan müalicə vannalarında istifadə edilir. Burada "İlisu" və "Şəfa" adlanan pansionatlar fəaliyyət göstərir.

Qaxdan 30 km şimal-qərbdə, Böyük Qafqazın cənub ətəklərində, dəniz səviyyəsindən 543 m yüksəkdə, Talaçayın sağ sahilində Azərbaycanın bu bölgəsində Şəkidən sonra ikinci böyük şəhər olan Zaqatala yerləşir.

**Zaqatala** 1830-cu ilddə hərbi qala kimi tikilmiş, on ildən sonra isə şəhər statusu əldə etmişdir. Mənzərəli təbiət və əlverişli iqlim şəraiti, şəhərin dağ-iqlim kurortuna çevrilməsinə səbəb olmuşdur. Burada "Gülüstan" turist bazası, "Tala" adlanan pansionat, "Dostluq" düşərgəsi fəaliyyət göstərir. Şəhərin səyahətlər və ekskursiyalar bürosu maraqlı ekskursiyalar təşkil edir. Zaqatala rayonu kəndlərində çoxsaylı qədim abidələr vardır: Əliabad və Mosul kəndlərində məscidlər (XIX əsr); Kəbloba kəndində iki qüllə (XIV əsr); Yuxarı Çardaxlar kəndində qala (V əsr); Car kəndində Congöz qalası (XVI əsr) və Şeytan qala (XVII əsr) belə abidələrdəndir.

Şəhərdən şimalda, 25500 ha sahədə yaradılmış **Zaqatala qoruğu** yerləşir. 1930-cu ildə yaradılmış qoruq ərazisinin böyük hissəsini meşə örtüyü təşkil edir. Qoruqda nadir tək və cüt dırnaqlı heyvanlarla yanaşı, vəhşi heyvanlar, gəmiricilər və quşlar qorunur.

Zaqataladan 25 km aralıda, Gürcüstanla sərhəd yaxınlığında respublikanın ən ucqar şimal-qərb şəhəri olan **Balakən** yerləşir. Şəhər Balakən çayının sağ sahilində, vadidə salınmışdır. Şəhərin adı kiçik kənd ("bala" və "kənd" sözlərinin birləşməsi) mənasını bildirir. Balakən inzibati rayonu ərazisində bir sıra memarlıq abidələri bizim dövrümüzə qədər qorunub saxlanılmışdır. Şəhərdə hündür minarəli məscid (XVIII əsr), şəhər ətrafında "Pəriqala" qalasının qalıqları (XII-XIII əsrlər) bu cür abidələrdəndir. Qala xarabalıqları bu zəngin diyarda baş verən qanlı müharibələrdən, aramsız döyüşlərdən xəbər verir.

**Quba-Xaçmaz turizm bölgəsi.** Respublikanın şimal-şərqində, Bakıdan 165 km aralı, dəniz səviyyəsindən 600 m yüksəkdə, yaşıllıqlar qoynunda, Azərbaycanın ən mənzərəli şəhərlərindən biri olan **Quba** yerləşir. Xatırladaq ki, XV əsrdə salınmış Qubada 1744-1789-cu illərdə Quba xanlarının iqamətgahı yerləşmişdir. Quba xanlığı XVIII əsrdə Azərbaycan ərazisində mövcud olan nisbətən iri xanlıq-

lardan biri olmuşdur.

Quba xanlığı 1806-cı ildə Rusiya imperiyasına birləşdirilmişdir. XIX əsrin sonları və XX əsrin əvvəllərində Quba, sakit əyalət şəhəri olaraq qalmış, hazırda isə respublikanın iri bağçılıq və xalçaçılıq mərkəzidir. Şəhərdə və onun ətrafında çoxsaylı memarlıq və arxeoloji abidələr: Yaşayış binalarının köhnə tikililəri (XVIII-XIX əsrlər), tanınmış Azərbaycan tarixçisi və yazıçısı Abbasqulu ağa Bakıxanovun (XIX əsr) ev muzeyi, Cümə məscidi, Səkinə xanım məscidi (XIX əsr), Ağbil kəndində səkkiz guşəli türbə (XVI əsr), Xınalıq kəndində Atəşgah (IX əsr), Hamam (XIX əsr) və s. turistlərin böyük marağına səbəb olur.

Quba rayonuna gələn turistlər, Təngəaltı dərəsinə, Afurca şəlaləsinə, əsrarəngiz təbiət mənzərəsi olan "Qəçreş" ərazisinə, Sühyüb kəndindəki Pirbənövşə mağarasına və s. maraqlı yerlərə təşkil edilən ekskursiyalarda iştirak edə bilərlər. Qubada, şəhər ekskursiya bürosu, "Menecer" oteli, "Lonq Forest" turist bazası fəaliyyət göstərir. "Lonq Forest" turist bazası xarici investorların hesabına tikilib və 2000-ci ildən fəaliyyət göstərir.

Quba rayonunun Xınalıq kəndində (Alp çəmənlikləri zonasında yerləşir) öz mədəniyyəti, məişəti, dili, adət-ənənələri və min nəfərdən artıq əhalisi olan etnik qrup yaşayır.

Qubadan 12 km şimalda **Qusar** rayon mərkəzi yerləşir. Rayonun görməli yerləri arasında, Həzrə kəndindəki qədim məscid və Şeyx Cüneyd məqbərəsi (1544) xüsusilə diqqəti cəlb edir. Şeyx Cüneyd, Səfəvilər dövlətinin banisi, şair Şah İsmayıl Xətainin babasıdır.

Gözəl təbii və iqlim şəraitinə malik olması, çoxsaylı dağ bulaqları, Qusarın kurort yerinə çevrilməsinə zəmin yaradır. Burada "Qara bulaq" və "Uzun meşə" pansionatları fəaliyyət göstərir. Qusarçayın sağ sahilində, Alp çəmənlikləri vadisində dəniz səviyyəsindən 1750 m yüksəkdə yerləşən "Suvar" istirahət bazası, dağlar qoynunda istirahəti sevənlərə xidmət göstərir.

Qusardan şərqdə, bu bölgənin ən böyük şəhərlərindən biri olan **Xaçmaz** yerləşir. Şəhər, Samur-Dəvəçi ovalığının böyük bir hissəsini əhatə edən eyni adlı rayonun inzibati mərkəzidir. Xaçmaz sənaye - kənd təsərrüfatı rayonudur.Memarlıq abidələrindən, Şeyx Yusif məqbərəsi (XV əsr) və Şıxlar kəndindəki altı bucaqlı türbə (XIX əsr) qorunub saxlanılmışdır.

Arxeoloji qazıntılar nəticəsində Xaçmaz ərazisində tunc dövrünə aid qəbirlər aşkar edilmişdir. Bu, Abşeron yarımadasından Dərbəndə qədər olan Xəzər dənizi sahili ərazilərdə qədim dövr insanların era-

mızdan iki min il öncə məskunlaşdığını sübut edir.

**Xudat** - respublikanın şimal-şərqində yerləşən qədim şəhər-qalalardan biridir. Mənbələrə əsasən şəhərin ilk adı Xudat qala - hökmdar qalası olmuşdur. XVIII əsrin əvvəllərində Xudat, Fətəli xanın atası tərəfindən əsası qoyulmuş Quba xanlığının paytaxtı olmuşdur. 1735-ci ildə Fətəli xan iqamətgahı Quba şəhərinə köçürdükdən sonra, Xudat öz inzibati-siyasi əhəmiyyətini itirmişdir. Xudat ərazisində yerin altında iri içməli su ehtiyatları vardır. Məşhur Şollar su kəməri başlanğıcını Xudat yaxınlığındakı Şollar kəndindən götürür. Xudat yaxınlığında yerli əhalinin inanc yeri olan Vələmir piri yerləşir.

Xaçmaz rayonunun şimal hissəsində, **Yalama-Nabran zonasında** dəniz sahili boyu çimərliklər uzanır. Yalama-Nabran zonası Xəzər dənizi sahillərinin ən mənzərəli ərazilərindən biridir. Bu zonanın əla təbii-iqlim şəraiti, dənizlə meşə zolağının birləşməsi, qumlu çimərliklər, Azərbaycanın bu dilbər guşəsinin, respublikamızın sakinlərinin və turistlərin sevimli istirahət yerinə çevrilməsinə səbəb olmuşdur. Cənubi Qafqazda ən böyük turist bazalarından olan "Xəzər" və "Dostluq" turbazaları bu ərazidə yerləşir. Hər iki turbaza Azərbaycan Həmkarlar İttifaqlarının tabeçiliyindədir.

"Xəzər" turist bazası 1963-cü ildə yaradılmış, Yalama-Nabran zonasının ilk turist bazasıdır. "Dostluq" turist bazası 1975-ci ildə yaradılmışdır. Bu turbazaların hər biri eyni zamanda 600-dən artıq turist qəbul edə bilər. "Xəzər" və "Dostluq" turist bazalarının arasında "Şahdağ" istirahət evi yerləşir. Son illərdə Yalama-Nabran sahil zonasında istirahət və turizm məqsədli çoxsaylı obyektlər tikilmişdir. Onlardan "Palermo", "Malibu", "Palma", "Şəms", "Elvin", "Nabran", "Salam", "İsti su", "Seyidli" və digərlərini qeyd etmək olar.

Şirvanşahlar dövründə Şamaxıdan Qubaya gedən karvan yolu **Altıağacdan** keçirdi. Altıağac yolçuların istirahət yeri idi. Keçmiş zamanlarda ağac-məsafə ölçüsü kimi işlədilmişdir və bir ağac təxminən 7 km-ə bərabər idi. Şamaxıdan Altıağaca 42 km, yəni altı ağaclıq məsafə vardır. Abşeron və Quba-Xaçmaz iqtisadi rayonlarının sərhəddi bu ərazidən keçir.

Böyük Qafqazın şimal-şərq ətəklərində, dəniz səviyyəsindən 1100 m yüksəkdə, Bakıdan təxminən 100 km məsafədə, Xızı rayonu ərazisində **Altıağac təbiət qoruğu** yerləşir. Mənzərəli landşaftı, sıx meşələri, çoxsaylı bulaqları, gözəl iqlimi olan bu rayon respublika sakinlərinin sevimli istirahət yerinə çevrilmişdir. Son illərdə Altıağacda yaradılmış "Cənnət bağı" istirahət zonası tezliklə bütün Azərbaycanda məşhurlaşmışdır.

Bu bölgənin möhtəşəm təbiət abidələrindən biri, möcüzəli formaya malik olan **"Beşbarmaq"** qayasıdır (dəniz səviyyəsindən 540 m yüksəkdə). Qayanın üst hissəsində müqəddəs "Xıdırzində" piri yerləşir. Bu qaya barədə çoxlu deyimlər və əfsanələr yaşayır. Beşbarmaq yaxınlığında Xəzər dənizi sahilində Zarat qəsəbəsi yerləşir. Xəzər dənizi sahillərinin bu mənzərəli guşəsi turizm məqsədli obyektlərin tikilməsi nəzərdə tutulan perspektivli yerlərdən biridir.

Dəvəçi, Quba, Qusar və Xaçmaz rayonlarının daxil olduğu Quba-Xaçmaz iqtisadi rayonu, respublikanın inkişaf etmiş meyvə-tərəvəz konservləri və balıq sənayesinə malik olan iri təsərrüfat rayonudur. Bu iqtisadi rayonun qərb hissəsi tamamilə dağlıq ərazilərdən ibarətdir. Böyük Qafqazın yüksək dağlarından hesab edilən Bazardüzü (4466 m), Şahdağ (4243 m), Tufandağ (4206 m), Babadağ (3629 m) bu regionda yerləşir. Bu dağların zirvələri ilboyu qarla örtülü olur. Quba-Xaçmaz bölgəsində çoxsaylı çaylar axır. Onlardan ən böyükləri Samur, Qusarçay, Qaraçay, Vəlvələçay, Qudyalçay və Gilgilçaydır.

Xalçaçılıq bu bölgənin ənənəvi sənətkarlıq sahəsidir. Toxunan xalçaların miqdarı və keyfiyyətinə görə respublika üzrə qabaqcıl mövqedədir. 1772-ci ildə toxunmuş "Qoldu-Çiçi" xalısı Nyu-Yorkun "Metropoliten" incəsənət muzeyində saxlanılır və muzey ekspozisiyasının incilərindən biri hesab edilir.

Dəvəçi rayonu ərazisində tarixi-memarlıq və təbiət abidələri çoxdur. **Dəvəçi** şəhərindən 15 km aralıda, Şahnəzərli kəndində orta əsrlər abidəsi olan "Şabran" şəhərinin, Padar kəndində "Gülüstani-İrəm" şəhərinin, Saadan kəndində "Dindar qalaçasının" qalıqları saxlanılır. Dəvəçi rayonundakı Ağzıbirçala limanı ovçuların və balıqçıların sevimli yerlərindən biridir.

Bakıdan 128 km şimalda, Dəvəçi rayon mərkəzindən bir qədər aralı, Böyük Qafqazın ətəklərində **Qalaaltı** mineral su mənbəyi aşkar olunmuşdur. Bu su Ukraynanın məşhur "Naftusi" suyunun oxşarıdır. Qalaaltı müalicəvi mineral suyunun bazası əsasında, burada uroloji sanatoriya fəaliyyət göstərir. 370 yerlik sanatoriyanın, 120 yerindən ilboyu istifadə oluna bilər.

Bu ərazidə, dəniz səviyyəsindən 1200 m yüksəkdə, Gilgilçay dərəsinin üzərində yüksələn dağın zirvəsində "Çıraqqalanın" (V əsr) qalıqları saxlanılmışdır. Çoxsaylı turistlər və sanatoriyada müalicə olunanlar buraya ekskursiyaya gəlirlər. Böyük İpək yolunun şaxələrindən biri olan Dərbənd-Quba-Altıağac-Qonaqkənd-Şamaxı, Qafqazın içərilərinə doğru uzanan yol üzərində dayanan Çıraqqala, kar-

vanların müdafiəsi və yol göstərən "mayak" kimi istifadə məqsədi ilə tikilmişdir. Çıraqqalanın üzərində yandırılan tonqalın alovu 100 km-lik radiusu olan məsafədə belə görünürdü.

**Lənkəran-Astara turizm bölgəsi.** Tarixi və təbiət abidələri ilə zəngin olan Lənkəran-Astara iqtisadi rayonuna səfər etmək həm yerli, həm də gəlmə səyahətçilərin böyük marağına səbəb olur. Respublikanın ucqar cənub-şərqində yerləşən və dəniz səviyyəsindən 28 m aşağı olan Lənkəran ovalığı, Talış dağlarının ətəklərindən başlayaraq Xəzər dənizinə qədər uzanır.

Lənkəran-Astara turizm bölgəsi - zəngin floraya malik, rütubətli, subtropik rayondur. Bu ərazidə 800-dən artıq bitki növünə rast gəlmək olar.

Bu bölgədə yerləşən **Cəlilabad** şəhəri (öncə Xısıllı, sonralar isə Astraxanbazar adlanmışdır) və Cəlilabad rayonu üzüm istehsalı üzrə Azərbaycanın iri mərkəzlərindən biridir. Şəhərə girəcəkdə alçaq təpəliklər nəzərə çarpır. Təpəliklərdə aparılan arxeoloji qazıntılar zamanı eneolit* dövrünə aid müxtəlif əmək alətləri və məişət əşyaları tapılmışdır. Alimlər hesab edirlər ki, uzaq keçmişdə bu ərazidə Amaşara adlanan şəhər mövcud olmuşdur.

Bu turist bölgəsinin Bakı-Astara avtomobil yolu üzərində yerləşən növbəti şəhəri **Masallıdır**. Şəhərdə qədim abidələrdən məscid və hamam (XIX əsr) qorunub saxlanılmışdır. Şəhər yaxınlığında dağətəyi mənzərəli bir guşədə, Ərkivan kəndində İstisu mineral su mənbəyi fəaliyyət göstərir. İstisu, çoxsaylı istirahət edənləri və revmatizm xəstəliklərinə tutulanları cəlb edir. Masallı rayonunun digər görməli yerləri arasında Boradigah, Qızılavar, Ərkivan, Şərəf kəndlərindəki məscidləri (hamısı XIX əsr) qeyd etmək olar.

Qızılağac körfəzi ərazisində 1929-cu ildə yaradılmış **Qızılağac dövlət qoruğu** yerləşir. 93 min hektar sahəsi olan qoruq zəngin fauna və floraya malikdir. Qoruqda 250-dən artıq çiçəkli bitkilərə, 30-dan artıq balıq növlərinə rast gəlmək olar. Qoruğun ərazisində quşların 200-dən artıq növü yaşayır. "Qızılağac" qoruğu Afrika, Asiya və Avropadan uçub gələn köçəri quşların qorunması və mühafizəsi ilə yanaşı, elmi-tədqiqat əhəmiyyəti olan qoruqdur.

Bu turizm bölgəsində ən böyük şəhər əsası XVIII əsrdə, Talış xanlığının paytaxtı kimi qoyulmuş **Lənkərandır**. Lənkəran Xəzər dənizi sahilində port şəhəridir. Şəhərin adı "Ləngər", yəni - dəniz sa-

---

* ***Eneolit*** (latın və yunan dillərindən tərcüməsi mis daş) - Mis daş dövrü. Başqa sözlə desək, daş dövründən mis dövrünə keçid. Cəmiyyət tarixində Eneolit mühüm iqtisadi-ictimai mərhələ təşkil edir.

hilində gəmi dayanacağı sözündən əmələ gəlmişdir. Təbii şəraitinə görə Lənkəran təkcə Azərbaycanın deyil, bütün Cənubi Qafqazın zəngin, dilbər guşələrindən biridir. Mənzərəli Lənkəran şəhəri Xəzər dənizinə tökülən eyni adlı çayın sahilində yerləşir. Həmişəyaşıl ağaclarla əhatə olunmuş şəhərin gözəl küçələri var, demək olar ki, hər evin qarşısında meyvə ağacları bitir. Lənkəranın ətrafında çəltik, çay plantasiyaları və meyvə bağları çoxdur.

Qədim abidələr arasında XVIII əsrdə tikilmiş Lənkəran qalasının qalıqları turistlərin diqqətini cəlb edir. Bu qala, Lənkərana və bütün Talış xanlığına dənizdən ola biləcək hücumların qarşısını almaq məqsədi ilə tikilmişdir. Gəmilərə yol göstərmək məqsədi ilə 1889-cu ildə qala divarı üzərində hündürlüyü 36 m olan mayak inşa edilmişdir. Digər görməli yerlərdən Hacı Qurban və Hacı Mirzə hamamlarını (hər ikisi XIX əsr), həmçinin Aşağı Nüvədi, Seydakeran, Sutamurdo, Şağlakücə kəndlərində XIX əsrdə tikilmiş məscidləri qeyd etmək olar.

Lənkərandan cənuba doğru uzanan mənzərəli yol, İran sərhəddi yaxınlığında yerləşən **Astara** şəhərinə aparır. Astara sözü "çökəklik", "aşağı yer" mənasını bildirir. Dar sahil zolağında yerləşən Hirkan qoruğunda nadir ağaclar olan dəmir və palıd ağacları mühafizə olunur. Astara rayonu qədim abidələrlə zəngindir. Onların arasında 800 illik tarixi olan məqbərə (Şahağac kəndində); Hacı Teymur və Hacı Canbaxış məscidləri, Məşədi Abutalıb hamamı (Pensar kəndində); Kərbəlayi Həmid Abdulla hamamı (Ərçivan kəndində) seçilir. Bu abidələrin hamısı XIX əsrdə tikilmişdir. Təngərud, Pensar, Şuva kəndləri yaxınlığında qədim kurqan* qəbirləri aşkar edilmişdir. Kurqanlarda tapılmış əmək alətləri və silahlar, tunc və dəmir dövrlərində bu yerlərdə yaşayan insanların "metallurgiya" ilə məşğul olduqlarını sübut edir.

Lənkərandan qərbdə, Talış dağlarının mənzərəli sahəsində Azərbaycanda uzunömürlülər diyarı kimi tanınan **Lerik** rayonu yerləşir. Mahmud Eyvazov (1808-1958), Şirəli Müslümov (1812-1975) burada doğulmuş və yaşamışlar. Hazırda bu rayonda yaşı yüzü keçmiş sakinlərin sayı az deyil. Rayonun görməli yerləri arasında, Xanağa kəndindəki Qoca Seyid türbəsini (XIV əsr), Ulakeran kəndindəki məscidi (XIX əsr) qeyd etmək olar. Rayon ərazisində, daş dövrü insanlarının yaşadığı mağara aşkar olunmuşdur.

Azərbaycanın bu dilbər guşəsində, Lənkəran ovalığının gözəl

---

* ***Kurqan*** (türk mənşəli sözdür) - torpaq, ağac və ya daşdan düzəldilmiş, adətən yarımkürə formalı qədim qəbirüstü abidə.

təbiəti, mənzərəli Talış dağları, nadir ağacları olan meşələr, özünəməxsus heyvanlar aləmi, narın qumlu çimərliklər və tarixi abidələr, turistləri cəlb edən əsas amillərdir. Bu yerlər, ilboyu öz yaşıl donunu dəyişmir. Ərazidə mineral bulaqlar çoxdur. Lənkəran-Astara bölgəsi respublika əhalisinin və ölkəmizin qonaqlarının sevimli istirahət yerlərindən biridir. Lənkərandakı Meşəsu bulağı əsasında pansionat və sağlamlıq zonası yaradılmışdır. Bu turizm bölgəsində, həmçinin Lənkəranda "Xanbulançay" istirahət zonası, Astarada "İstisu" sağlamlıq kurortu, Masallıda "Daşvənd", "Türkan", "Rasim" motelləri, "Masallı" oteli və "İstisu" pansionatı fəaliyyət göstərir.

Lənkəran səyahətlər və ekskursiyalar bürosunun təcrübəli ekskursiya bələdçiləri, bu diyarın tarixi və təbiət abidələri ilə tanışlıq məqsədi ilə turistlər üçün maraqlı ekskursiyalar təşkil edirlər.

**Qarabağ turizm bölgəsi.** Yevlaxdan keçərək Dağlıq Qarabağa gedən yol, qədim Arran şəhərləri olan Bərdə və Ağdamdan keçir. Qədim dövrlərdə öz möhtəşəmliyi və gözəlliyinə görə **Bərdəni** "Arranın anası" adlandırmışlar. Qədim Qafqaz Albaniyasının tərkibində olan geniş düzənlik ərazi Arran adlanırdı. Bu ad bizim günlərə qədər "Aran" kimi gəlib çatmış, düzənlik, isti, bürkülü olan yer mənasında işlənir.

Bərdə Azərbaycanın qədim şəhərlərindən biridir. Şəhərin əsası e.ə. IV əsrdə qoyulmuşdur. Qədim Bərdənin xarabalığı müasir şəhər mərkəzinin yaxınlığında yerləşir. V əsrdə Bərdə özünün qüvvətli və çiçəklənmə dövrünü yaşadığı üçün şəhərə "Şahəstan" adı verilmişdi. Bu cür ad iri inzibati mərkəzlərə və baş şəhərlərə verilirdi. VI əsrdə Qafqaz Albaniyasının paytaxtı Qəbələdən Bərdəyə köçürülmüş və o dövlətin paytaxtı olmuşdur.

Orta əsrlərdə baş vermiş müharibələr və çəkişmələr zamanı Bərdə dəfələrlə dağıdılmış, sonradan yenidən dirçəlmiş və tikilmişdir. Bu rayonda ötən əsrlərə aid bir neçə abidə qorunub saxlanılmışdır. Onların arasında "Axsadan baba" türbəsi (XIV əsr), səkkizguşəli məqbərə (XIV əsr), Qala və İmamzadə məscidini (XVIII əsr) göstərmək olar. Qarabağ düzənliyində Ayrıca adlı yerdə köçəri quşların mühafizəsi üçün nəzərdə tutulmuş **Ağgöl qoruğu** yerləşir.

Bakıdan 366 km cənub-qərbdə Aran Qarabağın böyük şəhərlərindən olan **Ağdam,** dövlətimizin qədim şəhərlərindən biridir. Ağdam sözünün mənası, günəş şüaları ilə işıqlanan Ağ ev deməkdir. Şəhər ətrafında qədim kurqanlar və yaşayış məskənləri aşkar olunmuşdur. Bozdağın şimal ətəyində, 300 m yüksəklikdə, qayanın yarılması ilə düzəldilmiş mağara maraq doğurur. Qədim abidələr arasında Xa-

noğlan məqbərəsi (XVII əsr); Qarabağ xanı Pənahəli xanın imarəti və məqbərəsi, həmçinin məscid (XVIII əsr); Kəngərli kəndində türbə (XIV əsr); Xaçıntürbətli kəndində Qutlu Musa oğlu türbəsi (1314); Papravənd kəndində iki türbə və məscid (hamısı XVIII əsr); Ağdam şəhərindən 10 km qərbdə Şahbulaq adlanan yerdə karvansara və qüllə (XVIII əsr) turistləri maraqlandıran yerlərdir.

Şəhərdən 3 km aralı Gülablı dağının mənzərəli yamacında, meşəlik ərazidə istirahət zonası yaradılmışdır. Şahbulaqda eyni adlı turbaza səyahət sevərlərə xidmət göstərirdi. Bu turbaza, Qarabağın cins atlarının yetişdirildiyi Ağdam atçılıq zavodunun yaxınlığında yerləşirdi. Yuxarıda qeyd edilən obyekt və abidələrin əksəriyyəti, həmçinin Ağdam şəhəri, 1993-cü ildə erməni yaraqlıları tərəfindən zəbt olunaraq dağıdılmışdır.

**Şuşa şəhəri** 1750-ci ildə Pənah xanın göstərişi ilə yüksək dağlıq ərazidə (dəniz səviyyəsindən 1800 m yüksəkdə) tikilmiş qalanın yerində salınmışdır. Şuşa ətrafının dağlıq relyefi, mənzərəli təbiəti, şəhərin vüqarlı və füsunkar simasını müəyyənləşdirir.

Şuşa uzun illər Qarabağ xanlığının paytaxtı olmuşdur. Şəhərin əsasını qoyan Pənah xan, onu Şərqin iri şəhərlərindən birinə çevirmək istəyirdi. Müxtəlif illərdə Qarabağda olan səyyahlar Şuşanın gözəl və qeyri-adi şəhər olduğu barədə çoxlu fikirlər söyləmişlər.

Rus diyarşünası B.İ.Seqal 1902-ci ildə "Kavkazskiy vestnik" jurnalında yazırdı: "... Mavi səmanın ənginliklərində şəhərin görünüşü həqiqətən əladır: o, sanki göylərdən asılı vəziyyətdədir, dağlıq ərazidə olduğu üçün təlatümlü dənizdə adaları xatırladır". Şuşa qalasının dağ landşaftında yerləşməsi rəssamların diqqətini cəlb etmişdir. XIX əsrdə rus rəssamları Vereşagin və Timm, bu qalanın rəsmlərini çəkmişlər.

XIX əsrdə Azərbaycan tarixçisi Əhməd bəy Cavanşir Şuşanı belə təsvir etmişdir: "Şimal-şərq tərəfdən Şuşaya üç verst qalmış dayanıb qalaya baxanda, nəzərə çarpan divarlar və qüllələr ilə birgə qayalı dağlar, taclı başını vüqarla qaldıran hansısa əfsanəvi nəhəngi xatırladır".

Şuşa - xalq musiqisinin və poeziyanın beşiyi, istedadlı musiqiçi və müğənnilərin, şair və yazıçıların, hərbi sərkərdələrin vətənidir.

Turizm baxımından Şuşa həm də dağ-iqlim kurortudur. Saf dağ havası, "Turş su" mineral suyu, İsa bulağı, Səkinə bulağı, İsti bulaq, Saxsı bulaq, Qırx bulaq, Yüz bulaq və s. Şuşada istirahətin və sanatoriya-kurort müalicəsinin təşkili üçün əlverişli şərait yaradır.

Şuşada XVIII əsrə aid çoxlu tarixi-memarlıq abidələri var idi.

Onların arasında "Gəncə darvazası" və qala divarları (1754), İbrahim Xəlil xanın və onun qızı Qara Böyükxanımın qəsrləri, Qarabağ xanlarının imarəti, şairə Xurşudbanu Natəvanın evi, iki minarəli Gövhərağa məscidi (1768-1769), Hacıqulular sarayı, karvansara, qala qüllələri, qədim "Şirinsu" şərq hamamı, Port-Arturun müdafiəsinin iştirakçısı, artilleriya general-leytenantı, məşhur hərbi sərkərdə Səməd bəy Mehmandarovun (1857-1931), istedadlı şair və rəssam Mir Möhsün Nəvvabın (1833-1918) evi və s. xüsusilə seçilirlər.

XVIII əsrin görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin qəbri üzərində möhtəşəm məqbərə tikilmişdir. Daşaltı uçurumlu dərəsi, sıldırımlı, dik "qırx pilləkəni" (Daşaltı çayına enir) olan Cıdır düzü turistlər arasında çox məşhurdur. Yaxınlıqda, Baş Daşaltı mağarasının bir hissəsi olan, on otaqdan ibarət "Xəzinə qala" mağarası yerləşir. 1977-ci ildə Şuşa qoruq-şəhər elan edilmişdir.

Ürək ağrısı ilə qeyd etmək lazımdır ki, Şuşa şəhəri  və buradakı çoxsaylı tarixi-memarlıq abidələri, sanatoriya-kurort və turist-ekskursiya obyektləri ("Şuşa" sanatoriya-kurort birliyinin korpusları, "Şəfa" turist kompleksi, şəhər göydələni - 9 mərtəbəli "Qarabağ" mehmanxanası) ermənilərin işğal etdikləri ərazidə qalmışdır. Ən dəhşətlisi də odur ki, ermənilər, işğal etdikləri ərazilərdə olan qədim Alban kilsələrini erməni kilsələri kimi qələmə verir, Azərbaycanın qədim abidələrini və məscidləri dağıdırlar.

**Naxçıvan turizm bölgəsi.** Qədim Naxçıvan diyarının zəngin təbiət və memarlıq abidələri xüsusi maraq doğurur. Naxçıvan toponiminin mənası elmi cəhətdən tam müəyyənləşdirilməmişdir. Yunan astronomu Ptolomeyin əsərində bu ad Naksuana kimi verilmişdir. Orta əsr ərəb mənbələrində Neşeva kimi xatırlanır. Məhəmməd Naxçıvani, Həmdullah Qəzvini, Katib Çələbi, Evliya Çələbi və digər Şərq alim, səyyah və coğrafiyaşünasları şəhəri "Nəqşicahan" (Dünyanın bəzəyi, zinəti) adlandırmışlar.

**Naxçıvan şəhəri** - Naxçıvan Muxtar Respublikasının paytaxtıdır. Tanınmış rus tarixçisi və etnoqrafı Aleksandr Engelqard (1832-1893) "Naxçıvan şəhəri haqqında qeydlər" kitabında yazır ki, Naxçıvan Qafqazın və Yaxın Şərqin ən qədim şəhərlərindən biridir. Məşhur alman naşirləri Brokqauz və Efronun nəşr etdikləri ensiklopediyada Naxçıvan şəhərinin əsasının e.ə. 1539-cu ildə qoyulduğu göstərilir.

Naxçıvanın görkəmli yerləri arasında Möminə xatun məqbərəsi (1186-1187), xüsusilə seçilir. Gümbəzsiz məqbərənin hündürlüyü 25 metrdir. Mütəxəssislərin fikrincə məqbərə, Orta əsrlər Azərbaycan memarlığının zirvəsi, yüksək sənətkarlıq nümunəsidir. Qarabağlar

kəndində Əbu Səid Bahadur xanın göstərişi ilə 1333-1335-ci illərdə tikilmiş iki minarə və yaxınlıqda yerləşən Qudi xatun türbəsi saxlanılmışdır.

Yusif ibn Küseyrin səkkizguşəli məzar türbəsi (1161-1162); şair Fəzlullah Nəiminin məqbərəsi (XIV əsr); Qozbel körpü (1551); Zavil və İmamzadə məscidləri; Xan sarayı (hazırda burada Naxçıvan xalça muzeyi yerləşir); "Qızlar bulağı" kompleksi ansamblı; Cümə məscid (1607-1608) öz təbii gözəllikləri ilə insanı valeh edir.

Muxtar Respublikanın ikinci böyük şəhəri olan **Ordubadın** turizm baxımından görməli yerləri də çox maraqlıdır. Ordubad sözü "Ordu şəhəri" mənasındadır. Şəhərin 1300 il öncə salındığı ehtimal edilir. 1977-ci ildə Ordubad qoruq şəhər elan edilmişdir. Dilbər məscidi; Serşəhər məscidi; Eyvaz məqbərəsi; Ordubad "Qeysəriyyəsi" - gümbəzli qapalı ticarət kompleksi (XIX-XX əsr); mədrəsə (XVIII əsr) indiyədək qorunub saxlanılmışdır.

Əlincə çayı yaxınlığında, dağın zirvəsində ucalan Əlincə qalasının qalıqları böyük maraq doğurur. XII əsrin ortalarında Eldəgizlər dövlətinin xəzinəsi bu qalada mühafizə olunaraq saxlanılırdı. Rəvayətə görə XIV əsrin sonunda şair Fəzlullah Nəimi burada edam edilmişdir.

Muxtar Respublikanın görməli yerləri sırasında Dar kəndindəki (Ordubad rayonu) məqbərəni (XIV əsr); Cuqa kəndindəki (Culfa rayonu) məqbərəni (XII-XIII əsrlər); qədim Gilan şəhərinin xarabalıqlarını və onun qala divarlarını, türbə, məscid, qüllə və mədrəsəni (VII-XVIII əsrlər) qeyd etmək olar.

Naxçıvan şəhəri Əcəmi Əbubəkr oğlu, Əhməd Eyyub oğlu, Cəmaləddin kimi ustad memarların vətənidir. Orta əsrlərin bir sıra memarlıq inciləri bu memarların əli ilə inşa edilmişdir. Yaxın Şərqdə yaxşı tanınan "Molla Nəsrəddin" satirik jurnalının redaktoru, demokrat Mirzə Cəlil Məmmədquluzadə (1866-1932), tanınmış şair və dramaturq Hüseyn Cavid (1882-1944), yazıçı Məmməd Səid Ordubadi (1872-1950), kimyaçı alim, akademik Yusif Məmmədəliyev (1905-1961), bir çox elm və mədəniyyət xadimləri bu diyarın övladlarıdır.

Naxçıvan diyarı mineral bulaqlarla zəngindir. Bu sular arasında Badamlı (Narzana oxşar) və Sirab (Borjomiyə oxşar) daha məşhurdur. Həmin suların bazası əsasında mineral su dolduran zavodlar fəaliyyət göstərir. Diyarın ən gözəl guşələrindən biri də Batabatdır. Batabat gölünün sahilində istirahət zonası yaradılmış, pansionat, turbaza, uşaq düşərgəsi tikilmişdir. Muxtar Respublikanın təbii və mədəni-tarixi abidələri ilə yaxından tanış olmaq üçün, Naxçıvan şəhərində fəaliyyət

göstərən turist-ekskursiya birliyi maraqlı ekskursiya və səyahətlər təşkil edir.

## 20.2. Azərbaycan Respublikasında turizmin yaranması və qısa inkişaf tarixi

Azərbaycan Respublikası dünya miqyasında tanınan, seçilən ölkə olsa da, təşkil olunmuş turizmin və səyahətlərin tarixi ötən əsrin 20-ci illərinin axırlarından başlanır. Məhz həmin vaxt - "Proletar turizm və ekskursiyalar cəmiyyəti" adlanan Ümumittifaq təşkilatın Bakıda şöbəsi işə başlayır. Bu şöbənin yaradılmasından məqsəd fəhlə-kəndli kütlələri arasında turizm və ekskursiya işlərini inkişaf etdirməklə bərabər onun siyasi rəhbərliyini gücləndirmək idi. 1929-cu ildə Bakıda Ümumittifaq "İnturist" Səhmdar Cəmiyyətinin Bakı şöbəsi fəaliyyətə başlayır. Bu şöbə ancaq xarici qonaqları qəbul etməklə məşğul olurdu.

SSRİ-nin Mərkəzi İcraiyyə Komitəsinin 7 aprel 1936-cı il tarixli qərarına əsasən, ölkədə turizm-ekskursiya işi Ümumittifaq Həmkarlar İttifaqının Mərkəzi Şurası (ÜHİMŞ) tabeçiliyinə verildi. Bununla əlaqədar "Proletar Turizm və Ekskursiyalar cəmiyyəti" ləğv edildi və ÜHİMŞ - sistemində Turist-Ekskursiya İdarəsi fəaliyyətə başladı. Bu dəyişikliklərlə əlaqədar 1936-cı ildə Ekskursiya Cəmiyyətinin Bakı şöbəsinin yerinə Azərbaycan Həmkarlar İttifaqları Şurasının (AHİŞ) Turizm və Ekskursiyalar İdarəsi yaradıldı. Onun tabeliyinə Bakıda - turist bazası, Hacıkənddə "Turist evi" və Göy gölün sahilindəki turist düşərgəsi verilir.

Qeyd etmək lazımdır ki, Turizm və Ekskursiyalar İdarəsi 1962-ci ildən Turizm üzrə Azərbaycan Respublika Şurası, 1969-cu ildən isə Turizm və Ekskursiyalar üzrə Azərbaycan Respublika Şurası adlandırıldı. O vaxtdan turizmə və səyahətlərə olan maraq cəmiyyət üzvlərinin öz mədəni tələbatını, fəal istirahət etmək səylərini ödəmək, asudə vaxtlarından faydalı istifadə etmək, ətraf mühiti dərk etmək, müxtəlif insanlarla ünsiyyətdə olmaq sahəsində tamamilə qanunauyğun arzu olub.

Sonrakı onilliklərdə Respublikada turizm - ekskursiya işində mütərəqqi dəyişikliklər və yeniliklər baş vermişdir. Yəni, turizmin maddi bazası ildən-ilə genişlənmiş, zəhmətkeşlərin istirahətinin təşkilində yeni xidmət formaları - turist qatarları, çay gəmiləri, Xəzərdə kabotaj gəmiçilik və s. yaranmışdır. 1962-ci ildə Bakıda turist klubu,

1963-cü ildə Nabranda "Xəzər" turist bazası, 1965-ci ildə Bakıda, iki ildən sonra Gəncədə, Sumqayıtda, Naftalanda və Bakının Mərdəkan qəsəbəsində səyahət büroları yaradıldı. 1970-ci ildə Zaqatalada, 1972-ci ildə Şuşada, 1975-ci ildə Qəbələdə və Xaçmaz rayonunun Nabran bölgəsində "Dostluq" turist bazaları, elə həmin il Bakıda "Qarabağ" turist mehmanxanası istifadəyə verildi. Bir qədər əvvəl isə Xankəndində (1971) və Mingəçevirdə (1972) şəhər-ekskursiya büroları açıldı.

Bu illərdə daxili turizm ilə yanaşı xarici turizmin genişləndirilməsinə də fikir verilirdi. Xarici turizmin maddi-texniki bazasını genişləndirmək məqsədilə 1973-cü ildə Bakıda Azərbaycan Respublikasında ən böyük mehmanxana kompleksi olan 1042 yerli "Azərbaycan" mehmanxanası istifadəyə verildi. 1978-ci ildə "İnturist" səhmdar cəmiyyətinin tabeliyinə 200 yerlik komfortlu "Moskva" mehmanxanası da əlavə edildi.

Xarici ölkələrdə fəaliyyət göstərən gənclər təşkilatları ilə turist mübadiləsini genişləndirmək məqsədilə 1972-ci ildə Bakıda "Sputnik" adlanan beynəlxalq gənclər turizm bürosu yaradıldı. Bir müddətdən sonra Bakının Zuğulba qəsəbəsindəki əsası 1961-ci ildə qoyulmuş "Gənclik" düşərgəsi, "Sputnik" gənclər təşkilatına verilmiş və düşərgə modernləşdirilərək Beynəlxalq Gənclər Turizm mərkəzinə çevrilir. Xarici turistlərin qəbulu üçün 1978-ci ildə Şəki şəhərində XVII əsrə aid karvansarada yenidənqurma işləri aparılır və o, 100 yerlik turist kompleksinə çevrilir.

Bütün bunlar öz növbəsində Azərbaycanda xarici turizmin genişlənməsinə təkan verdi və respublikamızın ərazisindən keçən beynəlxalq turist marşrutlarının sayını artırdı. Yeri gəlmişkən xatırladaq ki, 1986-cı ildə Bakıda 948 yerlik rahat "Abşeron" turist mehmanxanası istifadəyə verilməklə yanaşı, Nabran zonasındakı "Xəzər" və "Dostluq" turist müəssisələrinin maddi-texniki bazası genişlənir və möhkəmlənir.

1980-ci ildən başlayaraq Azərbaycan turizminin şöhrəti, əks-sədası ildən-ilə genişlənir və bu sahə respublika əhalisinin məişətinə möhkəm daxil olur. O vaxtdan respublikanın turizm - ekskursiya təşkilatları keçmiş SSRİ-nin 170-dən çox şəhərinin müvafiq təşkilatları ilə əlaqə saxlayırdı ki, bu da öz növbəsində səyahətlərin marşrutlarına və ekskursiyaların mövzusunun genişlənməsinə səbəb olurdu. Həmkarlar İttifaqlarının xətti ilə Azərbaycana gələn xarici turistlərə keyfiyyətli xidmət göstərmək üçün Bakı Xarici turizm bürosu (Bakinturbüro) yaradıldı. Xatırladaq ki, 1987-ci ildə, yalnız bu büronun xətti ilə

dünyanın 20-dən artıq ölkəsindən 150 turist qrupu Azərbaycanda olmuşdur.

Turizm sahəsi ilə məşğul olan mütəxəssislərin fikrincə, Azərbaycan turizmi ən yüksək inkişaf səviyyəsinə 1987-ci ildə nail olmuşdur. Həmin il respublikaya xarici ölkələrdən 50, SSRİ-nin müxtəlif bölgələrindən isə 250 minə yaxın turist gəlmişdir. Turizm-Ekskursiya bürolarının təşkil etdikləri ekskursiyalarda isə 2,5 mln. nəfərdən artıq adam iştirak etmişdir. Elə həmin il Azərbaycan Respublikası vətəndaşlarının 10 min nəfəri xarici ölkələrdə, 300 min nəfərə yaxını isə SSRİ ərazisində turist səfərlərində olmuşdur.

1985-1986-cı illərdə Naxçıvan, Gəncə, Xankəndi, Sumqayıt, Mingəçevir şəhərlərində yaradılmış turist idman klublarının işi xeyli fəallaşır. Qeyd edək ki, 1987-ci ildə respublikada 1800-dən artıq turist bölməsi yaradılmışdır. Həmin bölmələrdə 124 mindən artıq adam məşğul olurdu. Yalnız 1987-ci ildə istirahət günü marşrutları ilə Respublika daxilində özfəaliyyət turizmi xətti ilə səfərlərdə 375 min nəfər iştirak etmişdir.

1988-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayəti və onun ətrafında baş verən hadisələr nəticəsində Azərbaycana yerli və xarici turistlərin axını xeyli azalmış, Xankəndi, Şuşa, Sumqayıt, sonra isə Bakıda fövqəladə vəziyyətin tətbiqi, əslində respublikanın bu regionlarında bir sıra turizm təşkilatlarının fəaliyyətlərinin dondurulmasına səbəb oldu.

Erməni ekstremistlərinin azərbaycanlılara qarşı həyata keçirdikləri düşmənçilik siyasəti, Azərbaycana yüz minlərlə qaçqının gəlməsi ilə nəticələndi. Respublika hökumətinin qərarı ilə 1988-ci ilin dekabrından Ermənistandan qovulmuş soydaşlarımızın respublikanın turist bazalarında və sanatoriya-kurort müəssisələrində yerləşdirilməsinə başlanıldı.

Azərbaycanda 1988 və 1989-cu illərdəki hadisələrin ictimai-siyasi mühitə mənfi təsirinə baxmayaraq, Respublika Turizm-Ekskursiyalar Təşkilatları sabiq SSRİ-nin Turizm-Ekskursiya Təşkilatları ilə əvvəllər mövcud olmuş qarşılıqlı əlverişli əlaqələrin saxlanılması üçün böyük səy göstərsələr də bütünlüklə Cənubi Qafqaz regionunda, o cümlədən Azərbaycanda da vəziyyətin qeyri-sabit olması turizm sahəsinə də mənfi təsir göstərmişdir. 1990-cı ilin birinci rübündən etibarən Azərbaycanda fəaliyyət göstərən Ümumittifaq və beynəlxalq turist marşrutları ləğv olundu.

Mürəkkəb ictimai-siyasi şəraitdə, dərin maliyyə və iqtisadi çətinliklərə məruz qalmış respublikamızın turist-ekskursiya təşkilatları böhran vəziyyətindən çıxmaq üçün imkanlar axtarır, yerli əhaliyə gö-

stərilən turist-ekskursiya xidmətinin genişləndirilməsinə yönəldilmiş tədbirlər həyata keçirirlər.

Heç kəsə gizli deyil ki, turizm dünya iqtisadiyyatının dinamik inkişaf edən sahələrindən biridir. İnkişafın yüksək surəti, böyük həcmdə valyuta gəlirləri, iqtisadiyyatın başqa sahələrinə də təsir göstərdiyindən son nəticədə (beynəlxalq miqyasda) turizm sənayesi ildən-ilə genişlənir. Azərbaycan Respublikasına turist kimi gəlmək istəyənlərin, həmçinin onun hüdudlarından kənara çıxmaq istəyənlərin sayının ildən-ilə artmasına baxmayaraq, beynəlxalq səpkidə Azərbaycan turizmi hələ kölgədə qalır.

Zəngin təbii ehtiyatları, nadir bioloji müxtəlifliyi, əlverişli iqlimi, 600 km-i turizm üçün yararlı olan dəniz sahillərinə baxmayaraq, Azərbaycan Respublikası nə qədər qəribə görünsə də, ən kiçik ölkələrin qəbul etdiyindən də az turist qəbul edir. Bildiyimiz kimi, hər bir ölkə üçün iqtisadi cəhətdən sərfəli sahə gəlmə turizm hesab olunur. Gəlmə turizm 1988-ci ilədək dövlətimiz üçün müəyyən qədər intensiv inkişaf edən sahə olmuşdur.

Xatırladaq ki, respublikamız müstəqillik əldə etdikdən sonra turizmlə məşğul olmaq istəyən təşkilatların sayı artmağa başladı. 2002-ci ilin əvvəli üçün Azərbaycan Respublikasında beynəlxalq turizm fəaliyyəti ilə məşğul olmaq hüququna malik olan təşkilatların sayı 30-dan çoxdur.

Respublikamızda turizm iqtisadiyyatı xüsusi sahibkarlar tərəfindən ilk və tez mənimsənilən sahələrdən biri olmuşdur. Amma bu "istirahət maşınını" əvvəlki tək tam təminatlı dövriyyəyə buraxmaq mümkün olmamışdır. Xüsusi biznes, öncə getmə turizmini (digər ölkələrə turist göndərmək) mənimsəməyə başladı. Belə ki, getmə turizmi ilə məşğul olmaq, gəlmə turizmindən (digər ölkələrdən turist qəbulu) daha sadə və sərfəlidir.

Əfsuslar olsun ki, nadir və zəngin turizm ehtiyatlarına malik olan Azərbaycan kimi bir ölkə öz potensial imkanlarından hələ də zəif istifadə edir. Dünya iqtisadi birliyinin bir çox aparıcı ölkələri ilə dünya bazarında ortaq kimi çıxış edən Azərbaycan, turizm sahəsində imkanlarını hələ nümayiş etdirə bilməmişdir.

Respublikamızın turizm sahəsində yaranmış problemləri nəzərə alınaraq, Azərbaycan Respublikası prezidentinin 18 aprel 2001-ci il tarixli, 464 saylı fərmanı ilə Gənclər və İdman Nazirliyi, Gənclər, İdman və Turizm Nazirliyinə çevrildi. Yeni nazirlik, turizm sahəsində yaranmış vəziyyətdən çıxış yolları aramağa, Azərbaycanın ümumdünya turizm bazarına inteqrasiyası və beynəlxalq əməkdaşlığın inkişafı

sahəsində fəal iş görməyə başlamışdır.

6 iyul 2001-ci ildə ictimai birlik olan Azərbaycan Turizm Sənayesinin İnkişafı İttifaqının (ATSİİ) yaradılması, Azərbaycanda yüksək effektli turizm sahəsinin yaranmasına və inkişafına kömək etməlidir. Respublikanın bütün ərazisində turizmin inkişafı, turizm xidmətlərindən istifadə edənlərin hüquqlarının qorunması, güzəştli vergitutmanın tətbiqinə və turizm sahəsində normativ-hüquqi aktların nizamlanmasına yardım göstərilməsi, turizm sistemi işçilərinin ixtisaslarının artırılması üçün kursların və seminarların təşkili, beynəlxalq bazara turizm məhsulunun çıxarılması üçün respublikanın turist firmalarına praktiki köməklik göstərilməsi, milli turizm xidməti istehsalçılarının hüquqlarının müdafiəsi, Azərbaycanın beynəlxalq turizm üçün maraqlı bir ölkə kimi imicinin yüksəldilməsi, yeni yaradılmış ATSİİ-nın qarşısına qoyduğu əsas məqsədlərdir.

"Böyük ipək yolu" beynəlxalq layihəsinin reallaşdırılmasına da böyük ümid bəslənilir. Ümumdünya Turizm Təşkilatının UNESCO ilə əməkdaşlığı sayəsində bərpa edilən "Böyük ipək yolu" turist transkontinental marşrutuna Azərbaycan da daxil edilmişdir. İqtisadi, nəqliyyat və turizm baxımından bu yolun bərpasının böyük əhəmiyyəti vardır.

Azərbaycan qədim mədəniyyət mərkəzidir. Ölkəmizin ərazisində 6 mindən artıq təbiət, arxeologiya, memarlıq və mədəniyyət abidələri aşkar edilmiş və dövlət tərəfindən mühafizə olunur. Onlardan bir çoxu bizim eradan öncəyə aiddir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 saylı qərarı ilə təsdiq edilmiş, ölkəmizin ərazisində olan və dövlət mühafizəsinə götürülmüş, daşınmaz tarix və mədəniyyət abidələri əhəmiyyətinə görə dünya, ölkə və yerli dərəcələrə bölünür. Bunlardan 21-i dünya əhəmiyyətli memarlıq, 44-ü isə arxeoloji abidələrdir (Bax, III hissə).

Respublika hökuməti ilə Beynəlxalq İnkişaf Assosiasiyası arasında "Mədəni irsin mühafizəsi" layihəsinin reallaşdırılması üzrə kontrakt imzalanmışdır. Həmin kontrakta əsasən, Şirvanşahlar Sarayı (Bakı), Mömünə xatun türbəsi (Naxçıvan), Qoşa minarə (Naxçıvan, Qarabağlar kəndi), Şəki Xan sarayı və digər abidələrdə təmir və bərpa işləri aparılacaq. Layihə müəllifləri bu abidələrin yerləşdikləri ərazilərdə turizm infrastrukturunun yaradılmasını, mövcud marşrutların bərpasını və yenilərinin təşkilini nəzərdə tuturlar.

Hazırda turizm sahəsində yeni iş formalarının axtarışı davam edir. Xatırladaq ki, turizmin müasir normativ-hüquqi bazasının formalaşması üzrə işlərə başlanılmışdır.

2001-ci ilin sentyabr ayının 25-də Cənubi Koreya Respublikasının paytaxtı Seul şəhərində Ümumdünya Turist Təşkilatının XIV Baş Assambleyasında Azərbaycan Respublikası bu beynəlxalq turist təşkilatına üzv oldu. Bu isə öz növbəsində respublikamıza turizm fəaliyyəti üzrə tövsiyələr və praktiki köməklik edilməsinə imkan yaradacaqdır.

Son illərdə Azərbaycanda turizmin inkişafında müsbət, pozitiv irəliləyişlər baş verir. Avrasiya nəqliyyat dəhlizində Bakının əlverişli mövqedə yerləşməsi, imzalanmış beynəlxalq neft müqavilələri, son zamanlar əcnəbi işgüzar adamların ölkəyə gəlişinin artmasına səbəb olmuşdur. Dünyanın onlarla iri şirkətləri öz kommersiya və sənaye fəaliyyətlərini Azərbaycan iqtisadiyyatında tətbiq etmək istəyir. Ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsi, investisiyaların artımını stimullaşdırır. Həmin investisiyalardan otellərin, işgüzar mərkəzlərin, yaşayış evlərinin, sosial-mədəni məqsədli və turizm obyektlərinin tikintisində istifadə olunur.

Xarici şirkətlərin köməkliyi ilə Bakıda yenidən qurulan ilk obyektlərdən biri "Naxçıvan" mehmanxanası olmuşdur. Türkiyə firması "Remko Əmlakın" və ABŞ firması "Hyatt İnterneşnl" investisiyaları hesabına "Naxçıvan" mehmanxanası, modernləşdirilərək "Naxçıvan-Hyatt Recensi" beş ulduzlu otelinə çevrildi. Bu firmalar tərəfindən təmir-bərpa işlərinə 9,5 mln. ABŞ dolları məbləğində pul xərclənmişdir.

Türkiyənin "Ferko" firmasının köməyi ilə yüksək dərəcəli "Qrand Otel Avropa" mehmanxanası tikilib istifadəyə verilmişdir. Yuxarıda qeyd edilənlərdən əlavə Bakıda "Redisson SAS Plaza", "Park Hyatt", "Kresent-Biç", "Oazis", "İrşad", "Old Siti", "İçəri şəhər" və digər otellərin tikildiyini göstərmək kifayətdir. Bu otellər, təklif olunan xidmətin keyfiyyətinin yüksək olması şərti ilə, xarici turistlərin qəbulu üçün nəzərdə tutulmuşdur.

Əylənmək və "bəh-bəhlə" istirahət etmək istəyənlər üçün təmtəraqlı Bakı Əyləncə Mərkəzi tikilmişdir. Burada böyük üzgüçülük hovuzu (şəlalə, cakauzi, sürətli sualtı axını var), respublikada yeganə boulinq-klub (avadanlıq "AMF" ingilis şirkəti tərəfindən istehsal edilmişdir), trenajor zalı, mağazalar (dünyanın məşhur firmalarının malları satılır), sauna, türk hamamı, restoran, kafe və barlar fəaliyyət göstərir.

Gənclər, İdman və Turizm Nazirliyinin yaradılmasından sonra nazirlik digər sahələrdə olduğu kimi, turizmin informasiyası və təbliğatı sahəsində də uğurlu addımlar atmaqdadır. Ölkəmizin turizm eh-

tiyatları haqda geniş məlumatların üzə çıxarılaraq təbliğ olunması üçün artıq bir çox işlər görülmüş və görülməkdədir.

2001-ci ildə nazirlik tərəfindən "Welcome to Azerbaijan" adlı xüsusi kompakt disk hazırlanmış və Ümumdünya Turizm Təşkilatının Koreyada və Yaponiyada keçirilmiş Baş Assambleyasında təqdim olunmuşdur. Bu diskdə Azərbaycanın təbiəti, mədəniyyəti, turizm ehtiyatları, musiqisi, mətbəxi və ümumiyyətlə ölkəmiz barədə tam genişliyi ilə məlumatlar əks olunmuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycanı tam genişliyi ilə təbliğ edən belə disk ölkəmizdə ilk dəfədir ki, hazırlanır.

Bununla yanaşı, həmin diskin "Tourizm in Azerbaijan" adlı Web səhifəsi də yaradılmışdır. Azərbaycan barədə dünyanın istənilən yerindən istədiyi məlumatı almaq istəyən hər kəs nazirliyin internet ünvanında (www.mys.gov.az) yerləşdirilən bu məlumatlardan yararlana bilər.

Nazirlik tərəfindən yüksək səviyyədə hazırlanmış disk təkcə ölkə turizminin deyil, ümumiyyətlə, ölkəmizin ümumi təbliği üçün mühüm əhəmiyyətə malikdir.

2001-ci ildə "AZERBAIYAN REVIEW" jurnalı və "Turizm yenilikləri" qəzeti nəfis şəkildə nəşr edilməyə başlanılmışdır. Həmin ilin dekabrın sonlarında Bakıda turizmin qarşısında duran problemləri araşdıran 1-ci Ümumrespublika konfransı keçirilmişdir. Bütün bunlar isə Azərbaycan Respublikasında turizmin inkişafına təkan verən biləcək amillərdəndir.

## 20.3. Azərbaycan Respublikasında beynəlxalq turizmin statistikası

1992-ci ilə qədər xarici vətəndaşların Azərbaycan Respublikasına gəlişi və gedişi haqqında məlumatlar SSRİ-nin müvafiq təşkilatları tərəfindən qeydə alınırdı. SSRİ dağıldıqdan sonra sərhəd qeydiyyatı MDB üzrə aparılırdı. 1994-cü ildən isə sərhəd qeydiyyatını hər müstəqil dövlət özü aparmağa başladı. Xarici vətəndaşlar Azərbaycan Respublikasının ərazisinə:

- İrandan - avtomobil, dəmiryolu, hava və dəniz nəqliyyatı;
- Türkiyədən - avtomobil və hava nəqliyyatı;
- Gürcüstandan - avtomobil, dəmiryolu və hava nəqliyyatı;
- Rusiyadan - avtomobil, dəmiryolu və hava nəqliyyatı;
- Qazaxıstan və Türkmənistandan - dəniz və hava nəqliyyatı;

- Digər ölkələrdən (Böyük Britaniya, İsveçrə, Almaniya, Niderland, Birləşmiş Ərəb Əmirlikləri və s.) birbaşa hava nəqliyyatı vasitəsilə gəlirlər.

Ümumdünya Turizm Təşkilatının tövsiyələrinə, BMT-nin statistika komissiyasının standartlarına uyğun və dünya təcrübəsinə cavab verən statistikanın respublikamızda olmaması, Azərbaycana gələn turistlərin dəqiq sayı, onlara göstərilmiş xidmətə görə büdcəyə daxil olan vəsaitlər, turist vizası ilə xarici ölkələrə səyahətə gedən Azərbaycan vətəndaşlarının dəqiq sayı haqqında müxtəlif mənbələr, bir-birindən fərqlənən rəqəmlər çap edirlər. Dəqiq statistik məlumatların olmaması isə öz növbəsində turizm sahəsində mövcud olan vəziyyəti təhlil etməyi çətinləşdirir.

Ona görə də müəlliflər Azərbaycana dair fəslin bu bölməsini hazırlayarkən bir sıra çətinliklərlə üzləşmişlər. Qeyd edək ki, Azərbaycana gələn və Azərbaycandan xarici ölkələrə gedən turistlər haqqında 1992-1994-cü illəri əhatə edən məlumatlar ÜTT-nın dərc etdiyi Year book of tourism statistics (Fiftieth edition - 1998), 1995-2000-ci illəri əhatə edən statistik məlumatları isə ÜTT-nın Compendium of Tourism Statistics, 2001-Edition mənbələrindən götürülmüşdür (Bax, cədvəl 17).

17 saylı cədvəldən göründüyü kimi, 1997-ci ildən etibarən Azərbaycana gələn xarici turistlərin sayı artmağa başlamışdır. Belə ki, əgər 1996-ci ildə Respublikamıza gələn turistlərin sayı 90 min nəfər təşkil etmişdisə, 1997-ci ildə bu rəqəm 306, 2000-ci ildə isə 681 min nəfərə çatmışdır. Başqa sözlə desək, 1997-ci il ilə müqayisədə 2000-ci ildə Azərbaycana gələn turistlərin sayı 2 dəfədən çox artmışdır.

Maraqlıdır ki, Azərbaycana gələn turistlərin böyük əksəriyyəti MDB ölkələrindən gələnlər təşkil edir (Bax, cədvəl 18). Cədvəldən göründüyü kimi, əgər 1997-ci ildə MDB ölkələrindən Respublikamıza gələnlərin sayı 132 min nəfər olmuşdursa, 2000-ci ildə bu rəqəm 2,6 dəfə artaraq 346,5 min nəfərə çatmışdır. MDB ölkələrindən gələnlərin böyük əksəriyyətini Rusiya, Ukrayna, Orta Asiya Respublikaları və Gürcüstanda yaşayan azərbaycanlılar təşkil edir.

Ölkəmizə gələn xarici qonaqlar içərisində ikinci yer İran İslam Respublikası vətəndaşlarına məxsusdur. Belə ki, əgər 1977-ci ildə İrandan Azərbaycana 103,7 min nəfər qonaq gəlmişdirsə, 2000-ci ildə onların sayı 2,3 dəfə artaraq 242,3 min nəfərə çatmışdır. İrandan Azərbaycana gələnlərin böyük əksəriyyətini sərhədyanı ticarət məqsədilə gələnlər təşkil edir.

İranla müqayisədə Türkiyə Respublikasından Azərbaycana gələn

turistlərin sayı həm azdır, həm də azalmağa doğru meyillidir. Belə ki, əgər 1997-ci ildə Türkiyədən Azərbaycana 28,7 min nəfər qonaq gəlmişdirsə, 2000-ci ildə bu rəqəm təqribən 2,3 dəfə azalaraq 12,7 min nəfər olmuşdur.

Onu da qeyd etməliyik ki, Respublikamıza Avropa ölkələrindən, həmçinin ABŞ, Kanada və İsraildən gələnlərin sayı 1997-ci ildən sonra azalmağa başlamışdır.

Azərbaycana gələn turistlərin sayı 1997-ci ildən bəri dinamik sürətdə artırsa, onlara göstərilən xidmətlər həcminin azalması tendensiyası hiss olunur. Belə ki, 1997-ci ildə gəlmə turizmindən daxil olmalar 162, 2000-ci ildə bu rəqəm təqribən 2,6 dəfə azalaraq 63 mln. ABŞ dolları həcmində olmuşdur.

Bax:  AXIRDA ƏLAVƏ 5

**Cədvəl №18***

**Azərbaycana gələn turistlərin sayı (nəfərlə)**

| Ölkələr | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|
| MDB ölkələri | 132151 | 301287 | 427564 | 346483 |
| İran | 103724 | 139300 | 121604 | 242354 |
| Türkiyə | 28709 | 19103 | 10390 | 20961 |
| Böyük Britaniya | 8636 | 5197 | 2281 | - |
| ABŞ | 4392 | 3257 | 1763 | - |
| Almaniya | 3456 | 3283 | 1423 | - |
| İsrail | 8157 | 1898 | 822 | - |
| Pakistan | 1362 | 728 | 411 | 6 |
| Fransa | 1235 | 609 | 348 | - |
| Hindistan | 1097 | 431 | 216 | - |
| Suriya | 405 | 208 | 94 | 1 |
| Kanada | 503 | 93 | 90 | - |
| İtaliya | 162 | 482 | 239 | - |
| Başqa ölkələr | 11841 | 7287 | 34802 | 71202 |
| Cəmi | 305830 | 483163 | 602047 | 681000 |

Qeyd edək ki, Respublikamıza gələnlərin içərisində tranzit sərnişinlər, şəxsi və işgüzar məqsədlərlə gələnlər üstünlük təşkil edir.

**Cədvəl 19****

**Azərbaycana gələn və Azərbaycandan xarici ölkələrə təşkil olunmuş şəkildə gedən turistlərin sayı**

| | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 |
|---|---|---|---|---|---|---|
| Azərbaycana gələn turistlərin sayı | 43551 | 47514 | 16350 | 22507 | 47780 | 11365 |
| Azərbaycandan gedən turistlərin sayı | 35786 | 68788 | 74045 | 100370 | 83496 | 51737 |

19 saylı cədvəldən göründüyü kimi, Azərbaycana sırf turizm

* – Dəqiq rəqəmlər məlum deyil.
** Cədvəl 2001-ci ilin aprel ayına qədər fəaliyyət göstərmiş Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Xarici Turizm Şurasının statistik məlumatları əsasında tərtib olunmuşdur.

məqsədi ilə (turizm firmalarının xətti ilə) gələnlərin sayı o qədər də çox deyil. Belə ki, 1997-ci ildə respublikamıza sırf turizm məqsədi ilə gələn qonaqların sayı cəmi 22507, 1999-cu ildə isə bu rəqəm təqribən 2 dəfə azalaraq 11365 nəfər olmuşdur. Bu vəziyyət Azərbaycandan xarici ölkələrə gedənlərin sayında da özünü biruzə verir. Belə ki, 1997-ci ildə Respublikamızdan xarici ölkələrə gedənlərin sayı 100370, 1999-cu ildə isə onların sayı 1,9 dəfə azalaraq 51737 nəfər olmuşdur.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin dərc etdiyi göstəricilərə əsasən 2000-ci ildə ölkəmizdən xarici ölkələrə turist kimi səfər edənlərin böyük əksəriyyəti MDB ölkələrinə, İrana, Türkiyəyə, Birləşmiş Ərəb Əmirliklərinə üstünlük vermişlər.

Son illər Azərbaycandan xarici ölkələrə səfər edənlərin sayının azalmasının əsas səbəbi fikrimizcə turist xidmətlərinin qiyməti, əhalinin əksər hissəsinin gəlirləri ilə uyğunlaşmamasıdır.

* * *

Azərbaycana xarici valyuta axınının artırılması və bu məqsədlə respublikaya xarici turistləri cəlb etmək üçün ölkəmizdə fəaliyyət göstərən turizm təşkilatlarının əsas vəzifələri Azərbaycanda sosial-siyasi vəziyyətin real işıqlandırılması, respublikanın turizm potensialının təbliği, Azərbaycanın turizm üçün yararlı və təhlükəsiz olan imicinin yaradılması, respublikamıza turist göndərən ölkələrlə nəqliyyat əlaqələrinin yaradılması, gediş-gəliş üçün viza rəsmiyyətçiliyinin sadələşdirilməsi və s.-nin həyata keçirilməsi yolu ilə nail olmaq olar.

ӘLAVӘ 5

**Cədvəl 17***

**Azərbaycana gələn və Respublikadan xarici ölkələrə gedən turistlərin sayı və onların səfər müddətində xərclədikləri məbləğ**

| | 1992 | 1993 | 1994 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycana gələn xarici turistlərin sayı (min nəfərlə) | 212 | 298 | 321 | 93 | 90 | 306 | 483 | 602 | 681 |
| Turist xidmətlərindən daxil olmalar (mln. ABŞ dolları ilə) | 42 | 60 | 64 | 70 | 46 | 162 | 125 | 81 | 63 |
| Azərbaycandan xarici ölkələrə gedən turistlərin sayı (min nəfər-lə) | - | - | 36 | 70 | 74 | 100 | 83 | 52 | 49 |
| Azərbaycan turistlərinin xarici öl-kələrdəki xərcləri (mln. ABŞ dolları ilə) | - | - | - | 146 | 100 | 187 | 170 | 139 | 131,6 |
| Azərbaycanda turistlərin qəbulu üçün mövcud olan mehmanxana otaqlarının sayı | - | - | - | 2000 | 5600 | 6000 | 6400 | – | – |

* Cədvəl - ÜTT-nin statistikasına əsasən tərtib olunmuşdur.
– rəqəmlər məlum deyil.

# III HİSSƏ

**III.1. Turizm Xartiyası və Turistin Kodeksi.**
a) Turizm Xartiyası
b) Turistin Kodeksi

**III.2. Turizm ilə birbaşa əlaqəli əsas beynəlxalq, regional və subregional təşkilatlar.**

**III.3. Azərbaycanda dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı.**

**III.4. Kitabda rast gəlinən termin və anlayışların göstəricisi.**

**III.5. İstifadə olunmuş və məsləhət bilinən ədəbiyyat siyahısı**

## III.1. Turizm Xartiyası və Turistin Kodeksi

### a) Turizm Xartiyası[1]

### MADDƏ I.

Hər bir kəsin istirahət və asudə vaxtını səmərəli keçirməyə, iş gününün mənalı qısaldılmasına, ödənişli növbəti məzuniyyətə çıxmasına, həm də istədiyi yerə sərbəst gediş-gəliş hüququna malik olması bütün dünyada tanınmış qanunlardır. Bu hüquqdan istifadə sosial tarazlığın, milli və ümumi şüurun artması amilinə müsbət təsir göstərir.

### MADDƏ II.

Bu hüquqlara riayət edən dövlətlər elə siyasət aparmalıdırlar ki, həmin siyasət daxili və xarici turizmin mənafeinə xidmət etsin. Dövlətlər həmçinin turizmdən istifadə edənlərin rahatlığı naminə istirahətin mənalı təşkili ilə də məşğul olmalıdırlar.

### MADDƏ III.

Bu məqsədlə dövlətlər aşağıdakılara əməl etməlidirlər:

a) həm daxili, həm də beynəlxalq turizmin nizamlı və ahəngdar inkişafına köməklik göstərmək;

b) turizm siyasətini müxtəlif: yerli, regional, milli, beynəlxalq səviyyələrdə keçirilən ümumi inkişafa uyğunlaşdırmaq, Ümumdünya Turizm Təşkilatının imkanlarından geniş istifadə etməklə iki və çoxtərəfli əsasda dövlətlərarası əməkdaşlığı inkişaf etdirmək;

v) beynəlxalq turizm üzrə Manila bəyannaməsinin[2] prinsiplərini və Akapulko[3] sənədlərini rəhbər tutaraq (yeri gəldikdə öz milli xüsusiyyətlərinə üstünlük verərək) turizm siyasətini, plan və proq-

[1] Ümumdünya Turist Təşkilatının Baş Assambleyasının VI sessiyasında qəbul olunmuşdur (Sofiya, Bolqarıstan, sentyabr 1985-ci il).
[2] Turizm üzrə Ümumdünya konfransında qəbul olunub (Manila, Filippin, oktyabr 1980-ci il).
[3] Turizm üzrə Ümumdünya iclasında qəbul olunub (Akapulko, Meksika, avqust 1982-ci il).

ramlarını, Ümumdünya Turizm Təşkilatının iş proqramı çərçivəsində[1] işləyib həyata keçirməyin prinsiplərinə lazımi diqqət yetirməli;

q) daxili və beynəlxalq turizmdə hər bir şəxsin iştirakı üçün tədbirlər görülməsinə yardım edilməli, xüsusən iş və asudə vaxtın tənzimlənməsi, ödənişli məzuniyyətlərin il ərzində bərabər bölüşdürülməsi, həmçinin gənclərin, ahılların və fiziki cəhətdən qüsurlu olan şəxslərin turizminə xüsusi fikir verilməli;

d) indiki və gələcək nəsillərin maraqlarını qorumaq məqsədilə insanı, təbiəti, ictimai münasibətləri və mədəniyyəti özündə birləşdirən, bəşəriyyətin sərvəti hesab olunan turizm mühiti mühafizə olunmalıdır.

## MADDƏ IV.

Dövlətlər həmçinin:

a) öz ölkələrinin vətəndaşları və xarici turistlər üçün qanunla qadağan olunmayan bəyəndikləri ictimai yerlərə azad şəkildə gedib gəlmələrini, BMT tərəfindən məsləhət bilinən icazə sənədləşməsinin sadələşdirilməsinə yönəldilən imkanlardan, xüsusilə Beynəlxalq Mülki Aviasiya, Beynəlxalq Mülki Dəniz Təşkilatları, həmçinin Beynəlxalq Gömrük Əməkdaşlığı və turizm sahəsi ilə məşğul olan başqa təşkilatlar, ilk növbədə Ümumdünya Turist Təşkilatına məsləhət bilir ki, səyahətçilər üçün nəzərdə tutulan qadağaları ildən-ilə azaltsın;

b) turist düşüncəsinin inkişafına təkan vermək, turistlər və səyahətçilər ilə yerli əhali arasında qarşılıqlı anlaşma və mənəviyyatca zənginləşmə münasibətlərinin yaranmasına yardım etməli;

v) turistlər və onların əmlakları ilkin müdafiə sistemi vasitəsilə tam təmin olunmalıdır;

q) yaxşı şəraiti olan gigiyena və səhiyyə xidməti idarələrindən istifadə etməli, eləcə də yoluxucu xəstəliklərin və ehtimal oluna bilən bədbəxt hadisələri qabaqcadan xəbərdar etməli;

d) turizmdən fahişəlik və digər xoşagəlməz məqsədlər üçün istifadə etmək imkanının qarşısını mümkün qədər almalı;

e) turistlərin və yerli əhalinin müdafiəsi məqsədilə narkotik maddələrin qeyri-qanuni istifadəsinin xəbərdarlığını möhkəmlətməli.

---

[1] BMT Baş Məclisinin 38-ci sessiyasının iclasında (19 dekabr 1983-cü il) 38/146 saylı qətnamə kimi qəbul edilmişdir.

## MADDƏ V.

Dövlətlər əməl etməlidirlər:

a) milli maraqları əsas tutaraq məhdudiyyət (qadağa) qoyulmuş bölgələrin ərazisinə xələl gətirmədən öz vətəndaşlarına və xarici turistlərə ölkə daxilində sərbəst gediş-gəlişinə mane olmamaq;

b) turistlərin hər hansı hüququnun tapdalanmasına yol verməmək;

v) turistlərə ölkənin inzibati və hüquqi xidmət sahələrinə, həmçinin konsulluqların nümayəndələri ilə tez bir zamanda əlaqə saxlamaq imkanı yaratmalı, daxili və xarici rabitə vasitələrini onların ixtiyarına verməli;

q) turistlərə tranzit və müvəqqəti qaldıqları yerlərdə yerli əhalinin adət və ənənələri barədə məlumat almaq üçün şərait yaradılmasına kömək etməli.

## MADDƏ VI.

1. Yerli əhalinin, tranzit və gəlmə turistlərin müvəqqəti yerləşdiyi ərazilərdə olan turist resurslarından sərbəst istifadə etmək, təbiətə və mədəni mühitə qayğılı münasibətini təmin etmək hüququ vardır.

2. Yerli əhalinin turistlərdən ümumbəşəri irsin bir hissəsi hesab olunan, özlərinə məxsus adət-ənənəyə, din, dil və mədəniyyətin müxtəlif sahələrinə hörmətlə yanaşmasının və turistlər tərəfindən anlaşılmasını gözləmək hüquqları vardır.

3. Başa düşülməyə və qayğılı münasibətə kömək etmək məqsədi ilə müəyyən informasiyanın yayılmasına imkan yaratmaq vacibdir:

a) turistlər tərəfindən yerli əhalinin adət-ənənələrinə, dini etiqadlarına, yerli qadağalara, müqəddəs yerlərə hörmət olunmalıdır;

b) turistlər yerli əhalinin bədii, arxeoloji və mədəni irsinə hörmətlə yanaşmalı və onları qorumalıdır;

v) turistlər yerli fauna, flora nümunələrini və digər təbii sərvətləri qoruyub saxlamalıdırlar.

## MADDƏ VII.

Tranzit və müvəqqəti yaşayış yerlərinin sakinlərinə turistləri ictimai və insani münasibətlərin ahəngdar inkişafı üçün vacib olan ən yaxşı qonaqpərvərlik, nəzakətli münasibət və hörmət-izzətlə qəbul etmək təklif olunur.

### MADDƏ VIII.

1. Turizm sahəsinin işçiləri, eləcə də turizm və səyahət xidmətinin tədarükçüləri turizmin inkişafına və müasir Xartiyanın maddələrinin həyata keçməsində öz köməkliklərini əsirgəməməlidirlər.

2. Onlar müasir Xartiyanın prinsiplərini əsas tutmalı və peşə fəaliyyəti çərçivəsində öz üzərlərinə götürdükləri öhdəliklərə riayət etməli, humanist xarakter daşıyan turizmin təsdiqinə kömək etmək məqsədi ilə gətirilmiş turist məhsulunun yüksək keyfiyyətini təmin etməlidirlər.

### MADDƏ IX.

Turizm sahəsində işləyənlərə, turizm və səyahət xidmətinin tədarükçülərinə milli və beynəlxalq qanunlar çərçivəsində aşağıdakıları həyata keçirmək üçün yardım etmək lazımdır;

a) hər hansı ayrı-seçkilik və hüquq pozuntularına yol verməmək şərtilə faydalı fəaliyyətlə məşğul olmaq;

b) ümumi və texniki peşə hazırlığından istifadə etməklə ölkə daxilində və xaricində yüksək ixtisaslı mütəxəssislər ehtiyatını təmin etmək;

v) Milli və beynəlxalq təşkilatlara istinad edərək onların əlaqələndirici fəaliyyətinin və təqdim etdikləri xidmətin keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə öz aralarında, eləcə də rəsmi dairələrlə əməkdaşlıq etmək.

## b) Turistin Kodeksi[1]

### MADDƏ X.

Turistlər öz əxlaqi davranışları ilə istər milli, istərsə də beynəlxalq səviyyədə xalqlar arasında qarşılıqlı anlaşma və dostluq münasibətlərinə imkan yaratmaqla dünyada sülhün qorunmasına kömək etmiş olurlar.

---

[1] Ümumdünya Turist Təşkilatının Baş Assambleyasının VI sessiyasında qəbul olunmuşdur (Sofiya, Bolqarıstan, sentyabr 1985-ci il).

## MADDƏ XI.

1. Tranzit və müvəqqəti yaşayış yerlərində turistlər siyasi, sosial, əxlaq və dini normalara hörmətlə yanaşmalı və fəaliyyətdə olan qayda-qanunlara tabe olmalıdırlar.

2. Belə yerlərdə turistlər həm də:

a) yerli əhalinin adət-ənənələrinə, inam və əməllərinə qarşı münasibətdə ən böyük anlamı büruzə verməli, yerli sakinlərin təbii və mədəni sərvətlərinə isə çox böyük hörmətlə yanaşmalıdırlar;

b) turistlər özləri ilə yerli əhali arasındakı iqtisadi, sosial, mədəni fərqləri göstərməkdən çəkinməlidirlər;

v) turistlər onları qəbul edən yerli əhalinin mədəniyyətinə bəşəriyyətin ayrılmaz hissəsi olan mədəni sərvətlər kimi baxmalıdırlar;

q) digər şəxslərin fahişəlik məqsədi ilə istifadəsinə yol verməməlidirlər;

d) narkotik maddə və qadağan olunmuş digər preparatların alverindən, hara isə daşınmasından çəkinməlidirlər.

## MADDƏ XII.

Bir ölkədən digərinə səyahət zamanı və ya dayandıqları bir ölkənin daxilində turistlər hökumətin qoyduğu qaydalara istinadən öz rahatlıqları üçün aşağıdakılardan istifadə etməlidirlər:

a) inzibati və maliyyə nəzarətinin yumşaldılmasından;

b) turist xidməti təşkilatçılarının təqdim etdikləri müvəqqəti yaşayış yerlərində nəqliyyatın ən yaxşı imkanlarından.

## MADDƏ XIII.

1. Turistlərə ölkə daxilində, eləcə də onun hüdudlarının xaricində onların marağına səbəb olan müəyyən bölgələrə və məntəqələrə getmək üçün şərait yaratmalı, mövcud qanun və qadağaları nəzərə alaraq sərbəst hərəkət etmələrinə mane olunmamalıdır.

2. Turistlər onların marağına səbəb olan müxtəlif bölgə və məntəqələrə gələrkən tranzit və müvəqqəti yaşayış yerlərində qaldıqları müddətdə istifadə etməlidirlər:

a) rəsmi turist təşkilatlarının, turist xidməti tədarükçülərinin onların səyahəti və müvəqqəti yaşayış yerlərinin şəraiti və imkanları haqqında obyektiv və dəqiq informasiyadan;

b) şəxsi təhlükəsizliyi, əmlakın təhlükəsizliyi, eləcə də istehlakçı kimi öz hüquqlarının müdafiəsindən;

v) ictimai gigiyenaya uyğun olaraq xüsusən turistlərin yerləşdikləri bölgələrdə, nəqliyyat və məişət qayğılarında, xüsusilə ərzaq ilə təminatda yoluxucu xəstəliklərin, bədbəxt hadisələrin qabaqcadan xəbərdarlığı haqqında təsirli tədbirlərin görülməsi və səhiyyə xidməti sahələrinə maneəsiz daxil olmaqdan;

q) ölkədaxili və xarici aləmlə tez və effektli rabitədən;

d) inzibati və hüquqi proseduralardan və təminatlardan öz hüquqlarını müdafiə etmək məqsədindən;

e) dini etiqadının tələblərini yerinə yetirmək üçün şəraitin yaradılmasından.

## MADDƏ XIV.

Hər bir şəxsin qanunvericilik orqanları və ictimai təşkilatların nümayəndələri qarşısında istirahət və asudə vaxtlarını turizmin üstünlüklərindən daha sərfəli surətdə istifadə etməkdə öz tələblərini irəli sürməyə ixtiyarı var.

Beynəlxalq turizmin hüquqi surətdə nizamlanması əsaslı surətdə BMT-nin çərçivəsi daxilində yerinə yetirilir. Beynəlxalq turizm üzrə ixtisaslaşmış universal təşkilat olan Ümumdünya Turizm Təşkilatı bu məqsədlər üçün yaradılmışdır.

Nizamnaməsinə uyğun olaraq BMT beynəlxalq problemli iqtisadi, sosial, mədəni, humanitar xarakterli və irqindən, cinsindən, dilindən, dinindən asılı olmayaraq hamı üçün vacib olan azadlığa və insan hüquqlarının dəstəklənib inkişafına hörmət kimi məsələlərin həllini yerinə yetirir.

Bax: AXIRDA ƏLAVƏ 6

## III.4. Kitabda rast gəlinən termin və anlayışların göstəricisi
*(səhifə göstərilməklə)*


Abbatlıq – 126
Adekvat – 64
Akropol – 222
Aksessuar – 60
Akveduk – 212
Aqlomerasiya – 11
Alternativ – 43
Amfiteatr – 220
Antikvariat – 61
Antipod – 118
Antropogen – 100
Apostol – 318
Arxipelaq – 176
Arxiyepiskop – 129
Aristokrat – 127
Artemida – 318
Assortiment – 106
Autsayder – 106
Avtoxxton – 438
Avtoritar – 396
Avuar – 338
Azad İqtisadi Zona – 30

Balneoloji – 188
Baptistlər – 224
Barokko üslubu – 186
Bastion – 205
Bazilika – 148
Belveder – 357
"Birlik" – 303
Botel – 67
Böyük Sədd Rifi – 75
Bronlaşdırma – 65
Buddizm – 245
Buxta – 217
Bunqalo – 79

Çarter – 359

Daklar – 220
Delta – 436
Dendrologiya – 196
Devalvasiya – 213
Differensiasiya – 117
Dilicans – 17
Disbalans – 281
Diversifikasiya – 58
Dividend – 51

Efemer – 437
Eksponat – 198
Ekspozisiya – 182
Ekspress – 17
Ekzotika – 40
Emosiya – 22
Endemik – 437
Eneolit – 457
Etnik – 39
Etrusklar – 222

Əl-Qambra – 211

Fenomen – 97
Filatelist – 242
Folklor – 247
Freska – 227
Fyord – 176

Gid – 36
GUÖAM – 439

Harmonik – 25
Herbari – 424
Herkules – 363

Xostel – 77
Xutor – 127

İnduizm – 289
İnflyasiya – 56
İnfrastruktur – 53
İnklüziv turlar – 134
İnteqrasiya – 34
İnteryer – 243
İnvestisiya – 51
İudaizm – 245

Kalliqrafiya – 270
Kalvinizm – 201
Kanoye – 428
Kaputsinlər – 190
Kassava – 297
Kateqoriya – 44
Kempinq – 59
Kirill və Mefodi – 186
Komfort – 7
Komission – 377
Kommunikasiya – 11
Kompensasiya – 156
Konkistador – 398
Konqres – 38
Konvensiya – 95
Konyuktura – 230
Kopra – 432
Kostyol – 187
Krater – 277

Kredo – 8
Kriteri – 76
Kruiz – 23
Kurqan – 458
Kvarsit – 238
Kvota – 345

Qabrova – 452
Qalxan – 383
Qeyzer – 188
Qladiator – 220
Qneys – 238
Qobelen – 127
Qolf – 392
Qondola – 226
Qotik üslub – 186
Qranit – 238
Qütb dairəsi – 181

Lavra – 250
Layner – 6
Lamaizm – 272
Landşaft – 434
Likiya – 317
Luj sorbları – 146
Lyos – 268

Marketinq – 73
Meliorasiya – 437
Menecer – 78
Metis – 391
Məğrib – 357
Mil – 19
Missiya – 41
Monastır – 187
Monumental – 219
Motel – 67
Motiv – 28
Mozaika – 292
Mulat – 395

Naviqasiya – 177
Nekropol – 350
Neolit – 444
Nostalji – 39
Numizmat – 243

OPEK – 333

Paqoda – 272
Palasso – 226
Paleolit – 444
Panteon – 220
Pantomima – 195
Panton – 75
Pavilyon – 339
Piliqrim – 378
Presedent – 124

Ranço – 40
Ratuşa – 187
Reformasiya – 160
Renessans – 196
Retro – 75
Reytinq – 53
Rezervat – 305
Ritual – 41
Rivyera – 128

Rokoko – 203
Rotasiya – 157
Rotonda – 234

Saldo – 51
Sari – 294
Sekta – 439
Sentimental – 30
Simpozium – 38
Sintoizm – 277
Snobizm – 28
Solyari – 76
Sorqo – 377
Speleologiya – 248
Stalaqmit – 81
Stalaktit – 81
Stasionar – 247
Stend – 339
Stereotip – 34
Stress – 26
Subsidiya – 396
Sürpriz – 75

Şale – 162
Şedevr – 202
Şelf – 304
Şengen sazişi – 101
Şist – 239

Tarif – 117
Teokratik – 242
Termal – 205
Totem – 386
Transfer – 37
Trassa – 233
Tranzit – 25
Treyler – 83
Turizm resursları – 65

Unitar dövlət – 186
Unifikasiya – 88
Urbanizasiya – 34
Ursulinlər – 386

Varyaq – 15
Villa – 221

Yevangel kilsəsi – 185
Yol çekləri – 18
YUNESKO – 442

Zəvvarlıq – 335

## III.5. İstifadə olunmuş və məsləhət bilinən ədəbiyyat siyahısı

### Azərbaycan dilində

1. Ağayev E.A. Odlar yurdu. Bakı, Yurd jurn. №1, 1992.

2. Axundov N.A., Məmmədov C.A. Dünya dövlətlərinin əsas coğrafi, siyasi və iqtisadi göstəriciləri (Avrasiya dövlətləri). Bakı, Çaşıoğlu, 2000.

3. Zeynallı Y.Q. Azərbaycanda turizm sistemi fəaliyyətinin və idarə olunmasının iqtisadi-coğrafi problemləri. Bakı, Tuna, 1999.

4. Məmmədov C.A., Soltanova H.B. Ərəb ölkələrinin coğrafiyası. Bakı Universiteti nəşriyyatı, 1992.

5. Məmmədov C.A. Vest-Hind ölkələri. Bakı, Çaşıoğlu, 1998.

6. Məmmədov C.A. Mikrodövlətlər. Bakı, Çaşıoğlu, 1999.

7. Məmmədov C.A., Abbasova Z.A. Avstraliya və Okeaniya ölkələri. Bakı Universiteti nəşriyyatı, 1999.

8. Məmmədov C.A. Avrasiyanın İslam dövlətləri. Bakı, Çaşıoğlu, 1999.

9. Məmmədov C.A., Rəhimov S.H. Turizm və onunla əlaqəli sahələrdə işlədilən termin və anlayışların izahlı lüğəti. Bakı, Qanun, 2000.

10. Məmmədov C.A., Gərayzadə T.P. Qərbi Avropa (iqtisadi-coğrafi səciyyə). Bakı, Çaşıoğlu, 2001.

11. Məmmədov C.A., Axundov N.A. Dünya dövlətlərinin əsas coğrafi, siyasi və iqtisadi göstəriciləri (Amerika dövlətləri). Bakı, Çaşıoğlu, 2001.

12. Müseyibov M.A. Azərbaycanın fiziki coğrafiyası. Bakı, Maarif, 2000.

13. Nəbiyev N.Ə. İqtisadiyyat, cəmiyyət və ekoloji mühit. Bakı, 2000.

14. Novruzov S.H. Min ildən uzun yol. Bakı. Dirçəliş. XXI əsr jurnalı. № 16,18. 1999.

### Rus dilində

1. Абрамов М.А. География сервиса. М., Мысль, 1985.

2. Абуков А.Х. Туризм на новом этапе. М., Профиздат, 1983.

3. Агата Майер. Ретро по расписанию. М., журнал "Итоги", №26, 2001.

4. Азар В.И. Экономика и организация туризма. М., Экономика, 1993.

5. Азар В.И. Введение в экономику иностранного туризма. М., 1985.

6. Александрова А.Ю. География мировой индустрии туризма. М., 1998.

7. Александрова А.Ю. Экономика и территориальная организация международного туризма. М., 1986.

8. Александрова А.Ю. Международный туризм. Учебное пособие. М., Аспект Пресс, 2001.

9. Ананьев М.А. Экономика и организация международного туризма. М., МГУ, 1985.

10. Ахмедов А.И., Гаджиев Э.М., Заманов З.А. Международный туризм. Баку, Сада, 2000.

11. Бабышев Л.А. Туризм как отрасль итальянской экономики. Журнал МЭ и МО, №12. М., 1995.

12. Балабанов И.Т., Балабанов А.И. Экономика туризма (учебное пособие). М., Финансы и статистика, 2000.

13. Балийская декларация по туризму. Материалы Второго Международного Форума. Остров Бали. Индонезия, 1996.

14. Бартон Р. и др. Великие путешествия. М., Диброс, 1997.

15. Барчукова Н.С. Международное сотрудничество государств в области туризма. М., Международные отношения, 1996.

16. Биржаков М.Б., Путрик Ю.С. Мотивация выбора туристского путешествия. В справочнике «Туристские фирмы». Вып. 13. СПб. ОЛБИС, 1997.

17. Биржаков М.Б. Тематика туризма в сети Интернет. В спр. "Туристские фирмы". Вып. 15. СПб., ОЛБИС, 1998.

18. Биржаков М.Б., Барсукова Н.А. Туристский бизнес в Венгрии. СПб. ОЛБИС, 1997.

19. Биржаков М.Б., Дмитриева Л.И. Классическая Испания, популярный всесезонный туристский маршрут. В спр. «Туристские фирмы», вып. 16. СПб. ОЛБИС, 1998.

20. Биржаков М.Б. и др. Туризм в Греции. В спр. «Туристские фирмы», вып. 11. СПб. ОЛБИС, 1998.

21. Биржаков М.Б. Введение в туризм. М. - СПб. Герда, 2000.

22. Большой энциклопедический словарь. 3-е изд. СПб. Коринт, 1999.

23. Борисов К.Г. Введение в гостеприимство. М., 2000.

24. Борисов К.Г. Международный туризм и право. М., Изд. НИМП, 1999.

25. Браймлер Роберт. Основы управления в индустрии гостеприимства. Перевод с англ. М., Аспект Пресс, 1995.

26. Будагов Б.А. Памятники природы на территории Азербайджанской Республики и вопросы их охраны. Баку, Элм, 1983.

27. Будагов Б.А., Салманов А.А. Посетите Солнечный Азербайджан. М., Турист, 1981.

28. Буторова Н.В. Менеджмент и маркетинг иностранного туризма. М., Советский спорт, 1999.

29. Васильев А.Л. Туризм – понятия и сущность. В спр. «Туристские фирмы». Вып. 15. СПб., ОЛБИС, 1998.

30. Весь Мир. Энциклопедический словарь. Минск, Хорвест, 1999.

31. Власова И.Б., Зорин И.В. Основы туристской деятельности. М., РМАТ, 1992.

32. Волошин Н.И. Туризм: нормативные правовые акты. М., Финансы и статистика, 2000.

33. Волошин Н.И. Правовое регулирование туристской деятельности. М., Финансы и статистика, 1997.

34. Гаагская декларация по туризму. Материалы Межпарламентской конференции по туризму (Гаага, Нидерланды), 1989.

35. Гараев А.М. Туризм в Азербайджане: Политика развития. Газета "Бакинский рабочий". №156 от 18.VIII.2001.

36. Гусейнов Ф.М., Салманов А.А. Отдых на юге. М., Мысль, 1988.

37. Гуляев В.Г. Организация туристской деятельности. М., 1998.

38. Гуляев В.Г. Новые информационные технологии в туризме. М., Приор., 1998.

39. Гостиничный и туристический бизнес. М., Тандем, 1998.

40. Декларация Мале по устойчивому развитию туризма. Материалы Всемирного Совещания по Туризму (Мале, Мальдивы), 1997.

41. Джон Р.Уокер. Введение в гостеприимство. М., ЮНИТИ, 1999.

42. Дмитриевский Ю.Д. Туристские районы мира. Смоленск, 2000.

43. Доклад о развитии человека за 2000. Нью-Йорк, Оксфорд Юниверсити Пресс, 2000.

44. Долматов Г.М. Законодательные аспекты некоторых государств регламентирующие взаимоотношения организаторов и участ-

ников туристских путешествий. Журнал "Научные проблемы туризма и отдыха", №9. М., 1990.

45. Дурович А.П., Копанев А.С. Маркетинг в туризме. Минск, 1998.

46. Запесоцкий А.С. Стратегический маркетинг в туризме. СПб., 1999.

47. Зорин И.В., Квартальнов В.А. Толковый словарь туристских терминов. Туризм. Туристская индустрия. Туристский бизнес. М., INFOGROUP, 1994.

48. Зорин И.В., Квартальнов В.А. Туристский терминологический словарь. М., Сов. спорт, 1999.

49. Ибрагимов А.И., Салманов А.А. Разработка перспективной схемы развития туризма в Азербайджанской ССР и задачи ее совершенствования. В материалах конференции «Разработка перспективных схем туризма». М., Турист, 1987.

50. Израиль. Справочник-путеводитель. СПб., изд. "Welcome", 2001.

52. Испания. Справочник-путеводитель. Ростов-на-Дону. "Феникс", 2001.

53. Испания. Каталония, Балеары. СПб., изд. "Welcome", 2001.

54. Италия. По дорогам Италии с Интуром. В спр. «Туристские фирмы», вып. 13. СПб., ОЛБИС, 1997.

55. Ионина Н.А. Сто великих сокровищ. М., Вече, 2001.

56. Кабушкин Н.И. Менеджмент туризма. Минск, БГЭУ, 1999.

57. Караваев П.Л. Развитие современного международного туризма. Журнал «Вестник» МГУ , №2. М., 1997.

58. Карпова Г.А. и др. Экономика современного туризма. СПб., Герда, 1998.

59. Карпова Г.А. и др. Сфера туризма. Этапы развития, экономика и управление. М., Пресс-сервис, 1998.

60. Касаткин В.Ф. Факторы развития и общественное значение туризма. М., Турист, 1983.

61. Касумов Р.М., Джамилов Р.Г. Международный туризм в системе внешнеэкономических связей. Материалы конференции "Азербайджан на пороге XXI в." Баку, 1997.

62. Квартальнов В.А., Романов А.А. Международный туризм: политика развития. М., Сов. спорт, 1998.

63. Квартальнов В.А. и др. Основы туристской деятельности. М., РМАТ, 1992.

64. Квартальнов В.А., Науменко Г.Ф. Методика организации приема и обслуживания иностранных туристов. М., Турист, 1989.

65. Квартальнов В.А. Иностранный туризм. М., Финансы и статистика, 1999.

66. Кипр. Справочник-путеводитель. СПб., Изд. "Welcome", 1998.

67. Кириллова А.Т., Волкова Л.А. Маркетинг в туризме. Санкт-Петербург, СПбГУ, 1996.

68. Козырев В.М. Туристская рента. М., Финансы и статистика, 2000.

69. Козырева Т.В. Учет издержек в туризме. М., Финансы и статистика, 2000.

70. Колотова Е.В. Рекреационное ресурсоведение. М., 1998.

71. Котлер Ф., Боуэн Дж. Гостеприимство и туризм. М., ЮНИТИ, 1998.

72. Краткий словарь Международной туристской терминологии. М., 1980.

73. Кудинов Б.Ф. Из истории развития туризма. М., Профиздат, 1986.

74. Курорты (энциклопедический справочник). М., Советская энциклопедия, 1983.

75. Лисицын Е.Н. Охрана природы в зарубежных странах. М., Агропромиздат, 1987.

76. Маджи Дж. Весь Париж. Перевод с франц., М., 1995.

77. Малая энциклопедия стран. М., 2000.

78. Мамедов А.Б. Туристскими тропами Азербайджана. Баку, Азернешр, 1988.

79. Материалы Всемирной конференции по туризму. Манила, Филиппины, 1980.

80. Материалы Всемирного совещания по туризму. Акапулько, Мексика, 1982.

81. Материалы VI сессии Генеральной Ассамблеи Всемирной Туристской Организации. София, Болгария, 1985.

82. Монтехано Х.М. Структура туристского рынка. Смоленск, 1997.

83. Немоляева М.Э., Ходорков Л.Ф. Международный туризм: вчера, сегодня, завтра. М., Международные отношения, 1985.

84. ООН (основные факты). М., Изд-во "Весь Мир", 2000.

85. Организационно-правовые основы туристского и гостиничного бизнеса (под редакцией Акишина В.Н.). М., Наука Финстатинформ, 1998.

86. Организация и управление гостиничным бизнесом. М., 2000.

87. Основы туристского маркетинга (Методические рекомендации). М., Наука, ВНИЛТЭ, 1990.

88. Пасечный В.А. Туризм для всех. М., 1990.

89. Париж. Справочник-путеводитель. СПб., изд. "Welcome", 2001.

90. Пузакова Е.П., Честникова В.А. Международный туристский бизнес. М., Экспертное бюро, 1997.

91. Рагимов С.И. Туризм одна из самых перспективных отраслей. Еженедельник «Азербайджан: проблемы развития», №2. Баку, 1996.

92. Развитие и география международного туризма. Журнал «География в школе», №8. М., Школа-пресс, 2000.

93. Салманов А.А. Стратегия развития Международного туризма в Азербайджане. Материалы конференции «Азербайджан на пороге XXI века». Баку, 1997.

94. Сапрунова В.Б. Туризм: Эволюция, структура, маркетинг. М., Ось-89, 1997.

95. Свидание с Европой (Справочник путешественника). М., Деком, 1991.

96. Социально-экономическая география зарубежного мира. М., Крон-Пресс, 1998.

97. Сенин В.С. Введение в туризм. М., РИПРИКТ, 1993.

98. Сенин В.С. Организация Международного туризма. М., Финансы и статистика, 1999.

99. Страны Мира. Краткий политико-экономический справочник. М., Республика, 2000.

100. Страны Мира. Энциклопедический словарь. Смоленск: Русич, 2000.

101. Терехова О.В. Индустрия отдыха в США. М., Мысль, 1983.

102. Тихонов Д.В. Отдыхая и путешествуя за границей. Руководство для туриста. СПб, Интермедика, 1998.

103. Туризм в Венгрии. В спр. «Туристские фирмы», вып.12. СПб. ОЛБИС, 1997.

104. Туризм и гостиничное хозяйство (авторский коллектив). М., Тандем, 2000.

105. Туристский атлас мира. М., Кирилл и Мефодий, 1997.

106. Турция. Справочник-путеводитель. Ростов-на-Дону. "ФЕНИКС", 2001.

107. Уваров В.Д., Борисов К.Г. Международные туристские организации (справочник). М., Международные отношения, 1990.

108. Физическая география. Справочные материалы. М., Просвещение, 1994.

109. Филиппова Л.Н., Штюрмер Ю.А. Планирование и организация туристских маршрутов. М., Турист, 1994.

110. Финляндия. Справочник-путеводитель. СПб. Изд. "Welcome", 2001

111. Французская Ривьера. Справочник-путеводитель. СПб. Изд. "Welcome", 1996.

112. Функционирование крупнейших городов мира как объектов туризма. М., Университет гостиничного и ресторанного бизнеса, 1997.

113. Харрис Г., Кац К.М. Стимулирование международного туризма в XXI веке (пер. с англ.). М., 2000.

114. Чижова В.П. Туризм и национальные парки. М., 1992.

115. Швеция. Справочник-путеводитель. СПб. Изд. "Welcome", 1998.

116. Экономика и организация международного туризма (авт. коллектив). М., Экономика, 1984.

117. Энциклопедия туриста. М., Изд. Большая Российская энциклопедия, 1993.

118. Яковлев А.Г. Религиозный туризм – один из самых древних и традиционных видов туризма. В справ. «Туристские фирмы», вып.13. СПб. ОЛБИС, 1997.

## Xarici dillərdə

1. International tourist arrivals and receipts by region 1989-1998. Source: World Tourism Organization [WTO].

2. World's top 40 tourism destinations international tourist arrivals, 1998. Source: World Tourism Organization [WTO].

3. World's top 40 tourism Earnets International tourist receipts, 1998. Source: World Tourism Organization [WTO].

4. S.Hasanov. Arrival of foreign citizens in the Azerbaijan Republic and departure of azeri Citizens abroad for period – 1994-1998 international Conference “Azerbaijan tourism in the New Millennium”. Baku, 1999.

5. S.Ragimov. Potential capacity and preconditions of tourism development in Azerbaijan. International Conference "Azerbaijan Tourism in the New Millennium". Baku, 1999.

6. Human Development Report 2000. New-York/Oxford University Press, 2000.

7. WTO Tourism Highlights 2000. World tourism Organization - March, 2000.

8. The World almanac and book of facts. New-Jersey, 2000.

9. Hospitality, Tourism and Leisure Management: Issues in Strategy and Culture. London, 1997.

10. Py.P. Le tourism: Un phenomene economigues. Paris, 1992.

11. Tourism: 2020 vision. Madrid, 1997.

12. Vellas F., Becherel L. International Tourism. An Economic Perspective. Chippenham, 1995.

13. Compendium of Tourism Statistics, 2001. Edition. Madrid, Spain.

14. Yearbook of tourism statistics. WTO, Madrid, 1998.

15. Barometr of Travel and Tourism. WTO, Madrid, 2000.

# MÜNDƏRİCAT

Müəlliflərdən ........................................................... 3
Giriş ....................................................................... 6

## I HİSSƏ

**Fəsil 1. Turizmin yaranması və inkişafının tarixi zəmini və ilkin şərtləri** ............................................ 14
1.1. "Səyahət" və "səyyah" anlayışları .......................... 14
1.2. "Turizm" və "turist" anlayışları ............................ 16
1.3. "Səyahətin" səbəbləri ........................................ 26

**Fəsil 2. Turizmin formaları, növləri və növ müxtəlifliyi** .... 32
2.1. Məqsədinə görə turizm növlərinin təsnifatı ................ 37
2.2. Zamana (müddətə) görə turizm növlərinin təsnifatı ........ 43
2.3. Müştərinin fərdi sorğusu və maliyyə imkanlarına görə turizm növlərinin təsnifatı ............................ 44
2.4. Turist marşrutları ............................................ 46

**Fəsil 3. Dünya iqtisadiyyatında beynəlxalq turizmin yeri və rolu** ................................................ 49
3.1. Turizmin "qeyri-turizm" sahələrinə təsiri .................. 57
3.2. Turizmin regional inkişafa təsiri ........................... 59

**Fəsil 4. Turizm sənayesi** ........................................ 64
4.1. Turizmin maddi-texniki bazası ............................... 67
4.2. Turizm təşkilatlarının növləri ............................... 68
4.3. Turizm sənayesi müəssisələri ................................ 70
4.4. Mehmanxanaların növləri və dərəcələri .................... 74

**Fəsil 5. Beynəlxalq turizm və təbiətin mühafizəsi** ............ 80

**Fəsil 6. Beynəlxalq, regional və milli turizm təşkilatları** .... 88

**Fəsil 7. Dünya regionları üzrə beynəlxalq turizmin müasir vəziyyəti və inkişafı** .......................... 97
7.1. Beynəlxalq turist istiqamətlərinin coğrafiyası ............. 107
7.2. Turist tələbatının struktur dəyişikliklərinin təmayülləri .. 116

## II HİSSƏ

## MATERİKLƏR (QİTƏLƏR) ÜZRƏ BEYNƏLXALQ TURİZMİN VƏZİYYƏTİ VƏ İNKİŞAFI

**Fəsil 8. Avropa ölkələrində beynəlxalq turizm (qitə ilə ümumi tanışlıq)** ................................ 120
**Fəsil 9. Qərbi və Mərkəzi Avropa ölkələrində beynəlxalq turizm** ........................................ 124
9.1. Böyük Britaniya ..................................... 124
9.2. Fransa .................................................... 136
9.3. Almaniya ................................................ 146
9.4. İsveçrə .................................................... 157
9.5. Avstriya ................................................. 165

**Fəsil 10. Şimali və Şərqi Avropa ölkələrində beynəlxalq turizm** ...................................... 172
10.1. İsveç ................................................... 172
10.2. Norveç ................................................. 176
10.3. Finlandiya ............................................ 181
10.4. Çexiya .................................................. 185
10.5. Polşa .................................................... 192
10.6. Macarıstan ........................................... 201

**Fəsil 11. Cənubi Avropa ölkələrində beynəlxalq turizm** .. 208
11.1. İspaniya ............................................... 208
11.2. İtaliya .................................................. 217
11.3. Yunanıstan ........................................... 231
11.4. Andorra ................................................ 238
11.5. Vatikan ................................................ 242

**Fəsil 12. MDB ölkələrində beynəlxalq turizm** ............... 244
12.1. Rusiya Federasiyası .............................. 244
12.2. Ukrayna ............................................... 253
12.3. Gürcüstan ............................................ 256
12.4. Özbəkistan ........................................... 260

**Fəsil 13. Asiya ölkələrində beynəlxalq turizm (qitə ilə ümumi tanışlıq)** ............................. 264

**Fəsil 14. Şərqi Asiya ölkələrində beynəlxalq turizm** ....... 268
14.1. Çin Xalq Respublikası (ÇXR) ............................. 268
14.2. Yaponiya ................................................... 277
14.3. Koreya Respublikası ...................................... 284
14.4. Filippin ..................................................... 287

**Fəsil 15. Cənubi və Cənub-Şərqi Asiya ölkələrində beynəlxalq turizm** ........................................ 289
15.1. Hindistan .................................................. 289
15.2. İndoneziya ................................................ 296
15.3. Tayland .................................................... 300
15.4. Sinqapur ................................................... 303
15.5. Malayziya .................................................. 307

**Fəsil 16. Yaxın və Orta Şərq ölkələrində beynəlxalq turizm** .................................................. 311
16.1. Türkiyə ..................................................... 313
16.2. İsrail ........................................................ 320
16.3. İran ......................................................... 326
16.4. Səudiyyə Ərəbistanı ..................................... 332
16.5. Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) ...................... 337

**Fəsil 17. Afrika ölkələrində beynəlxalq turizm (qitə ilə ümumi tanışlıq)** .............................. 341
17.1. Misir ........................................................ 346
17.2. Əlcəzair .................................................... 353
17.3. Tunis ........................................................ 356
17.4. Mərakeş .................................................... 360
17.5. Keniya ...................................................... 364
17.6. Cənubi Afrika Respublikası ............................ 368

**Fəsil 18. Amerika ölkələrində beynəlxalq turizm** .......... 372
18.1. Şimali Amerika ölkələrində beynəlxalq turizm (qitə ilə ümumi tanışlıq) .................................. 372
18.1.1. Amerika Birləşmiş Ştatları ............................ 375
18.1.2. Kanada .................................................... 383
18.1.3. Meksika ................................................... 390

18.2. Karib hövzəsi ölkələrində beynəlxalq turizm ........... 391
18.2.1. Kuba ....................................................... 395

18.2.2. Dominikan Respublikası ................................ 400
18.2.3. Baham adaları ............................................. 403
18.3. Cənubi Amerika ölkələrində beynəlxalq turizm
(qitə ilə ümumi tanışlıq) ................................. 406
18.3.1. Braziliya ..................................................... 407
18.3.2. Argentina ..................................................... 412
18.3.3. Uruqvay ....................................................... 415

**Fəsil 19. Avstraliya və Okeaniya regionunda beynəlxalq turizm (regionla ümumi tanışlıq)** ...... 418
19.1. Avstraliya İttifaqı ........................................... 420
19.2. Yeni Zelandiya ................................................ 426
19.3. Papua-Yeni Qvineya ......................................... 430
19.4. Fici ................................................................. 432

**Fəsil 20. Azərbaycan Respublikasında turizmin müasir vəziyyəti və inkişafı**
(Respublika ilə ümumi tanışlıq) ...................... 434
20.1. Azərbaycanın turizm bölgələri ........................... 441
20.2. Azərbaycan Respublikasında turizmin yaranması
və qısa inkişaf tarixi ........................................... 463
20.3. Azərbaycan Respublikasında beynəlxalq turizmin
statistikası ........................................................ 469

## III HİSSƏ

III.1. Turizm Xartiyası və Turistin Kodeksi ..................... 476
a) Turizm Xartiyası ................................................ 476
b) Turistin Kodeksi ................................................ 479

III.2. Turizm ilə birbaşa əlaqəli əsas beynəlxalq,
regional və subregional təşkilatlar ........................ 482

III.3. Azərbaycanda dünya əhəmiyyətli daşınmaz tarix
və mədəniyyət abidələrinin siyahısı ....................... 489

III.4. Kitabda rast gəlinən termin və anlayışların göstəricisi .. 494

III.5. İstifadə olunmuş və məsləhət bilinən ədəbiyyat
siyahısı ............................................................. 498

ƏLAVƏ 6

## III.2. Turizm ilə birbaşa əlaqəli əsas beynəlxalq, regional və subregional təşkilatlar.

| İngilis dilində | Rus dilində | Azərbaycan dilində | Açıqlanma | Təşkilatın yerləşdiyi şəhər |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| **I. Asiya-Sakit okean regionu** | | | | |
| AIT | İTA | ATİ | Asiya turizm institutu | Manila (Filippin) |
| AHRA | AQRS-ASEAN | ASEAN-ÖMRA | ASEAN üzvü olan ölkələrin mehmanxana və restoranlar assosiasiyası | Manila (Filippin) |
| ASEANTA | ATSÇ-ASEAN | ASEAN-ÖTA | ASEAN üzvü olan ölkələrin turizm assosiasiyası | Manila (Filippin) |
| STAA | STAA | ADTTA | Asiya dövlətlərinin tələbə turist assosiasiyası | Tokio (Yaponiya) |
| PATA | TASATOR | ASÖTA | Asiya və Sakit okean ölkələrinin turist assosiasiyası | San-Fransisko (ABŞ) |
| EATA | TASVA | ŞAÖTA | Şərqi Asiya ölkələrinin turist assosiasiyası | Tokio (Yaponiya) |
| **II. Amerika regionu** | | | | |
| TIAA | ATİA | ATSA | Amerika turist sənayesinin assosiasiyası | Vaşinqton (ABŞ) |
| ECTA | VKTA | ŞKTA | Şərqi Karib turist assosiasiyası | Sent-Cons (Antiqua və Barbuda) |
| CTA | KAT | TKA | Turizm üzrə Karib assosiasiyası | Nyu-York (ABŞ) |
| CHA | KQA | KMA | Karib mehmanxanalar assosiasiyası | Santur (Puerto-Riko) |
| CTPC | KÜİRT | TİTKM | Turizmin inkişafı və tədqiqi üzrə Karib mərkəzi | Brictaun (Barbados) |
| CELA-ACTC | KAT-SELA | LAİSTK | Latın Amerikası iqtisadi sisteminin turizm üzrə komitəsi | Karakas (Venesuela) |
| COTAL | KTOLA | LATTK | Latın Amerikası turist təşkilatlarının konfederasiyası | Buyenos-Ayres (Argentina) |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| LATOA | LAT | LATA | Latın Amerikası turoperatorlar assosiasiyası | Rio-de-Janeyro (Braziliya) |
| FELATURS | LAFST | LASTF | Latın Amerikasının sosial turizm federasiyası | Karakas (Venesuela) |
| CELATS* | LAÜST | LASTM | Latın Amerikasının sosial turizm mərkəzi | Lima (Peru) |
| IAHA | MAQA | AÖMA | Amerika ölkələrarası mehmanxanalar assosiasiyası | Boqota (Kolumbiya) |
| ITC | MAKT | AÖTK | Amerika ölkələrarası turizm üzrə konqres | Vaşinqton (ABŞ) |
| IATTC | MAUÜ | AÖTTM | Amerika ölkələrarası turist-tədris mərkəzi | Buyenos-Ayres (Argentina) |
| CACFT | STÜA | MAÖTŞ | Mərkəzi Amerika ölkələri turizm şurası | San-Salvador (Salvador) |
| SATO | ÖATO | CATT | Cənubi Amerika turist təşkilatı | Nyu-York (ABŞ) |
| **III. Asiya ərəb ölkələri regionu** | | | | |
| AATTA | AATA | TTAƏA | Turizm və turist agentliklərinin Ərəb assosiasiyası | Beyrut (Livan) |
| ACT | AKT | TƏK | Turizm üzrə Ərəb komissiyası | Tunis (Tunis) |
| FATAA | AFATA | TAAƏF | Turist agentlikləri assosiasiyalarının Ərəb federasiyası | Bağdad (İraq) |
| AHU | AQS | ƏMİ | Ərəb mehmanxanaları ittifaqı | Bağdad (İraq) |
| ATU | ATS | ƏTİ | Ərəb turist ittifaqı | Əmman (İordaniya) |
| **IV. Afrika regionu** | | | | |
| ATA (AFRICA) | AfTA | AfTA | Afrika turist assosiasiyası | Nyu-York (ABŞ) |
| HOTAFRIC | QKRTA | ATİMB | Afrikada turizmin inkişafı üzrə mehmanxanalar birliyi | Abidcan (Kot d-İvuar) |

---

- İspan dilində abbreviatur.

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| MCOT | KTSM | MÖTK | Məğrib ölkələrinin turizm komitəsi | Tunis (Tunis) |
| IAACATC | MAOÜATK | MATKXBA | Mərkəzi Afrika turist klublarının xidmət beynəlxalq assosiasiya | Brüssel (Belçika) |
| ODAT | ORTAf | AfTİT | Afrikada turizmin inkişafı təşkilatı | Yaunde (Kamerun) |
| PATO | PAfTO | PAfTT | PanAfrika turist təşkilatı | Nayrobi (Keniya) |
| SARTOC | RÖAST | CARTŞ | Cənubi Afrika regional turizm şurası | Blantur (Malavi) |
| **V. Avropa regionu** | | | | |
| ADCETE | ARKETO | ATMİKA | Avropa turist mübadiləsinin inkişafı və koordinasiyası üzrə assosiasiya | Paris (Fransa) |
| GUNAVCEE | QANTA-EGS | AİB-MTAAQ | Avropa İqtisadi Birliyi yanında milli turist agentliklərinin assosiasiya qrupu | Brüssel (Belçika) |
| ETAG | QPRTE | ATİDQ | Avropada turizmin inkişafını dəstəkləyən qrup | Dublin (İrlandiya) |
| UAHSD | EADQŞ | MMDAA | Mehmanxana məktəbləri direktorlarının Avropa assosiasiyası | Lozanna (İsveçrə) |
| ERA | EAPT | PTAA | Piyada turizmin Avropa assosiasiyası | Ştutqart (Almaniya) |
| ELRA | EARO | RİAA | Rekreasiya və istirahətin Avropa assosiasiyası | Stokholm (İsveç) |
| ELO | EOO | AİT | Avropa istirahət təşkilatı | Brüssel (Belçika) |
| ETC | ETK | ATK | Avropa turist komissiyası | Dublin (İrlandiya) |
| EFCT | EFKQ | KŞAF | Konqres şəhərlərinin Avropa federasiyası | Brüssel (Belçika) |
| EMF | EFM | AMF | Avropa motellər federasiyası | Deventar (Niderland) |
| EITRS | EİİT | TÖTAİ | Turizmin öyrənilməsi və tədqiqi üzrə Avropa institutu | Brüssel (Belçika) |
| EUTO | ESRT | TİAİ | Turizm işçilərinin Avropa ittifaqı | Kent (Belçika) |
| HOTREC | KQRİES | ABMRSK | Avropa Birliyinin mehmanxana və restoranlar sənayesi komitəsi | Paris (Fransa) |
| GOETO | OETFO | TSTFAB | Topdan satış turist firmalarının Avropa birliyi | Kann (Fransa) |
| 1 | 2 | 3 | 4 | 5 |
| OTEL* | OETÜO | İMTAT | İstirahət məqsədli turizmin Avropa təşkilatı | Paris (Fransa) |

| | | | | |
|---|---|---|---|---|
| NHRA | SAQR | MRSA | Mehmanxanalar və restoranların Skandinaviya assosiasiyası | Stokholm (İsveç) |
| NTB | STS | STŞ | Skandinaviya turist şurası | Helsinski (Finlandiya) |
| NPTO | TONSS | SÖXTT | Skandinaviya ölkələri xalqlarının turist təşkilatı | Stokholm (İsveç) |
| FNTAA | FASTA | STAAF | Skandinaviya turist agentliklər assosiasiyalarının federasiyası | Oslo (Norveç) |
| **VI. Beynəlxalq turizm sahəsində fəaliyyət göstərən transmilli assosiasiyalar və ittifaqlar** | | | | |
| NACGT | QTNS | BQÖTQ | Bloklara qoşulmayan ölkələrin turizm üzrə qrupu | Tunis (Tunis) |
| EAATA | EAAAT | AAATA | Avropa-Afrika-Asiya Turizm Akademiyası | Kataniya (İtaliya) |
| IAFSCT | MAKÜFS | FÖKMBA | Fransız dilli ölkələrin konqres mərkəzlərinin beynəlxalq assosiasiyası | Lyej (Belçika) |
| IAOCCSI | MAKÜSSR | ADBÖKMBA | Aralıq dənizi bölgəsi ölkələrinin konqres mərkəzləri beynəlxalq assosiasiyası | Madrid (İspaniya) |
| ATK | TKAS | AÖTK | Alp ölkələri turist komissiyası | Vyana (Avstriya) |
| TCDC | TKDS | DÖKT | Dunay ölkələri turist komissiyası | Vyana (Avstriya) |
| **VII. Turizmlə əlaqəli beynəlxalq, hökumətlərarası və qeyri-hökumət təşkilatları** | | | | |
| IEB | BMV | BSB | Beynəlxalq sərgilər üzrə büro | Paris (Fransa) |
| UFTAA | VFATA | TAAUF | Turist agentliklər assosiasiyalarının Ümumdünya Federasiyası | Brüssel (Belçika) |
| IACC | MAKÜ | KMBA | Konqres mərkəzləri beynəlxalq assosiasiyası | Zaqreb (Xorvatiya) |

* Fransız dilində abbreviatur.

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| ICCA | MAKK | KKBA | Konqres və konfransların beynəlxalq assosiasiyası | Amsterdam (Niderland) |
| IHA | MQA | BMA | Beynəlxalq mehmanxanalar assosiasiyası | Paris (Fransa) |
| IFCC | MFKK | KKBF | Kempinq və karavaninqlərin beynəlxalq federasiyası | Brüssel (Belçika) |
| IFET | MFKST | AİTBF | At idmanı üzrə turizmin beynəlxalq federasiyası | Brüssel (Belçika) |
| ITA | MTA | BTA | Beynəlxalq turist alyansı | Cenevrə (İsveçrə) |
| **VIII. Turizm sahəsində ixtisaslaşdırılmış təşkilatlar** | | | | |
| WATA | VFTA | TAUF | Turist agentliklərinin Ümumdünya federasiyası | Cenevrə (İsveçrə) |
| IATM | MAQS | MGBA | Müşayiət edən gid bələdçilərinin beynəlxalq assosiasiyası | London (Böyük Britaniya) |
| ISTA | MAOTGP | TEPTBA | Turist – ekskursiya proqramları təşkilatçı-larının beynəlxalq assosiasiyası | Lissabon (Portuqaliya) |
| IBTA | MATDÜ | İMTBA | İşgüzar məqsədli turizmin beynəlxalq assosiasiyası | Brüssel (Belçika) |
| IFTC | MFTÜ | TMBF | Turist mərkəzlərinin beynəlxalq federasiyası | Vadus (Lixtenşteyn) |
| IFTO | MFTO | TOBF | Turoperatorların beynəlxalq federasiyası | London (Böyük Britaniya) |

| | | | | |
|---|---|---|---|---|
| **IX. Sosial turizm, asudə vaxt və istirahət təşkilatları** | | | | |
| WLRA | VADO | AİTÜA | Asudə vaxt və istirahətin təşkili üzrə Ümumdünya assosiasiyası | Nyu-York (ABŞ) |
| IATL | MATOT | ZTİTBA | Zəhmətkeşlərin turizm və istirahətinin təşkili üzrə beynəlxalq assosiasiya | Praqa (Çexiya) |
| IFPTO | MFOST | STTBF | Sosial turizm təşkilatlarının beynəlxalq federasiyası | Paris (Fransa) |
| FITS | MFST | STBF | Sosial turizmin beynəlxalq federasiyası | Brüssel (Belçika) |
| IOST | MBST | STBB | Sosial turizmin beynəlxalq bürosu | Brüssel (Belçika) |
| SATA | ASAT | TAA | Tələbə aviaturizm assosiasiyası | Kopenhagen (Danimarka) |
| ISTC | MKST | TTBK | Tələbə turizmi üzrə beynəlxalq konfrans | Sürix (İsveçrə) |
| IYTS | MMTS | BGTX | Beynəlxalq gənclər turist xidməti | Antverpen (Belçika) |
| IBFJJ | MBMTO | GTMBB | Gənclər turizmi mübadiləsi üzrə beynəlxalq büro | Budapeşt (Macarıstan) |
| FIYTO | FMMTO | GTTBF | Gənclər turist təşkilatlarının beynəlxalq federasiyası | Kopenhagen (Danimarka) |
| **X. Turizm sahəsində peşə təhsili və elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan təşkilatlar** | | | | |
| AMFORT | VAPOT | TPTÜA | Turizm sahəsində peşə təhsili üzrə Ümumdünya assosiasiyası | Madrid (İspaniya) |
| IAT | MAT | BTA | Beynəlxalq turizm akademiyası | Monte-Karlo (Monako) |
| IASET | MANGT | TEEBA | Turizm sahəsində elmi ekspertlərin beynəlxalq assosiasiyası | Qallen (İsveçrə) |
| IAC | MKANTO | MTTBAK | Milli turist təşkilatlarının beynəlxalq assosiasiyalar komitəsi | London (Böyük Britaniya) |
| IGC | MKQ | GBBK | Gid bələdçilərinin beynəlxalq klubu | Tronxeym (Norveç) |
| AIDT | MPAT | TPA | Turizm üzrə parlamentlərarası assosiasiya | Bern (İsveçrə) |

| XI. Beynəlxalq turizmin inkişafına kömək göstərən təşkilatlar | | | | |
|---|---|---|---|---|
| TTRA | AİTP | TSTA | Turizm və səyahətlər üzrə tədqiqatlar assosiasiyası | Soltleyk-Siti (ABŞ) |
| AWTE | AMTO | BTMA | Beynəlxalq turist mübadiləsi üzrə assosiasiya | Nyu-York (ABŞ) |
| IACVB | MAQQB | KQQBA | Konqres və qonaq qəbulu üzrə beynəlxalq assosiasiya | Nyu-York (ABŞ) |
| LINK | MİSSO | İSBİS | İstirahət sahəsində beynəlxalq informasiya sistemi | Nyu-York (ABŞ) |
| ISTRA | MİAKT | KTBTA | Kosmik turizm üzrə beynəlxalq tədqiqat assosiasiyası | London (Böyük Britaniya) |
| TUI | MTS | BTİ | Beynəlxalq turist ittifaqı | Hannover (Almaniya) |
| FSIT | FMTV | BTSF | Beynəlxalq turist sərgiləri federasiyası | Brüssel (Belçika) |
| TROT | FVRT | TİİF | Turizmin inkişafı imkanları fondu | Nyu-York (ABŞ) |